AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 20

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2017, № 20

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

www. filologiyameseleleri. net

PROF.DR.ŞEHRABANI ALLAHVERDİYEVA
Adıyaman Üniversitesi Fen Edebiyat Fakültesi
Türk Dili ve Edebiyatı Bölümü Yeni Türk Dili Anabilim Dalı Başkanı
sallahverdiyeva@adiyaman.edu.tr

AZERBAYCAN ŞAİRİ NESİMİ'NİN ŞİİRLERİNİNDE ZARF-FİİLLER

Key words: Azerbaijan, Nesimi, polish , envelopes-act, addition, language ..
Anahtar kelimeler: Azerbaycan, Nesimi, abide, zarf- fiil, ek, dil …
Ключевыеслова: Азербайджан,Насими, помятник, деепричастие, окончание, язык.

Türk lehçelerinde zarf-fiiller çok eskiden beri dilcilerin dikkatini çekmiştir. Biliriz ki, bütün ilmi dersliklerde, ilmi gramerlerde zarf-fiilden bahsedilmiştir. Bugün zarf-fiiller Azerbaycan, Türkiye, Türkmen, Kazak, Kırgız, Özbek, Kumuk, Çuvaş, Tatar, Başkurt lehçelerinin materyalleri esasında tetkik edilmiştir.

Neticede eski yazılı abidelerde kullanılmış zarf-fiiller sistemleşmiş, tüm Türk lehçelerinin materyalleri nazarı yönden tahlil edilmiştir.

Dil tarihinin öğrenilmesi dil biliminin ilgi alanıdır. Dillerin gramer kuruluşunu incelemek için tarihi abidelere müracaat etmek gerekiyor.

Türkçemizin morfoloji yapısının tarihi gelişmesinin bazı farklı taraftarları var ki, bunlardan biri de zarf-fiil kelime grubudur.

"Zarf-fiil fiilin çekimli eylemlerinden biridir. Geçişli ve idare etme özelliğine sahiptir. Göründüğü gibi bağlaç özelliği taşıyor. Hareket, zaman, sebep maksat ve başka fikri ifade ediyor. Eylem gibi hareket niteliğine sahiptir" (Djanmazov,1967:9).

Zarf-fiiller Azerbaycan Türkçesi, aynı zamanda diğer Türkçeler için sabitliği ve kendine has özelliği ile farklıdır.

Zarf-fiillerin dil kaynakları esasında öğrenilmesi önemlidir. Zarf-fiiller hakkında fikir söylemek için tarihi yazılı membalara müracaat etmek dil biliminin gelişmesinde önemli rol oynuyor.

Eski yazılarda zarf-fiiller şahıs eki ile beraber kullanılmıştır, lakin sonralar dilin gelişmesi prosesinde bu şekil önemini kaybetmiştir.

E.Demirçizade kaydediyor: "Zarf-fiiller bileşik ve eşit öğeli cümlelerin terkibinde kullanılır (Demirçizade,1959:157) .

M.Hüseyinzade " Muasır Azerbaycan Dili" kitabında, zarf-fiillerin on beş türünden bahsetmiştir (Hüseyinzade, 1973:244).

Dimitriyev kaydediyor : " Zarf-fiillerden –ıb,-ib,-ub,-üb eki geçmiş zamana, -alı,-eli, eki ise gelecek zamana aittir" (Dimitriyev,1948:175).

A.N.Konanov ise zarf- fiillerin zamanlara göre bölünmesi prensibini kabul etmiyor. Onları şekillerine göre tasnif etmeyin daha düzgün olduğunu bildiriyor. Çünkü zarf-fiiller müstakil olarak hiçbir zaman özetini ifade edemez. Onların zaman manaları müstakil fiille karşılaşanda muayyen ediliyor.(Kononov, 1956 :474).

Rus dilcilerinden V.V.Vinagradov zarf- fiil ve zarf konusunda A.N.Kononovla aynı mevkide duruyor. V.V.Vinagradov zarf- fiilleri fiile değil, zarfa ait ediyor ve zarf- fiillerle zarflar arasındaki gramer benzerliği esas götürüyor, çünkü hem zarf- fiil, hem de zarf cümlede aynı anlam taşıyor.

Djammazov kaydediyor: " Zarf fiil fiil çekimlerinden biridir. Geçişli ve idare etme hususiyetine maliktir. Göründüğü gibi bağlaç seciyesi taşıyor.

"Hareket, zaman, sebep, maksat manalarını ifade ediyor" (Djanmazov 1967:9).

Dilcilerin fikirlerine bakıldığında Djammazov'un fikri daha doğrudur.

Dokuzuncu yüzyıl abidesi olan " Korkut Ata " Destanlarının dilinde kullanılan –ib, -ib, -ub, -üb zarf-fiili günümüze gibi yazılı eserlerin dilinde ve konuşma dilinde zaman anlamında kullanılmaktadır.

Ayrıca onu da kaydedelim ki, -ıb, -ib, -ub, -üb eki Azerbaycan Türkçesinde abidelerin dilinde olduğu gibi kullanılıyor. Türkiye Türkçesinde b sesi p sesine geçmiştir. Örneğin: alıb-alıp, görüb-görüp vb.

Eski Türk abidelerinin dilinde olan zarf-fiillerin çoğunluğu bugünkü edebi dilimiz için norm seviyesinde kullanılmaktadır. 1369-1425. yıllarında yaşamış Azerbaycan şairi İmadeddin Nesimi'nin şiirlerinde kullanılan zarf-fiilleri inceleyelim.

Nesimi'nin şiirinde –**ib, -ib, -ub, -üb** eki zarf-fiil ve belirsiz geçmiş zaman gibi kullanılmıştır.

Bu şehri goyub işte gider hasta Nesimi,
Bednami-cihan oldu bedövrani-filanı (Nesimi 1973:94).

Şaha, lalın şarabından Nesimi şöyle sarhoştur,
Olubturvelahü hayran dilemez abu-enguri (Nesimi 1973:104).

Nesimi'nin başka bir şiirinde-ıb, -ib, -ub, -üb eki zaman, tarz, sebep, maksat, nicelik bildirmiştir.

Sallanub nazile gelgil ki, menim didelerim,
Ayağım tozuna ey hosrovi-huban susadı(Nesimi,1973:109).

Cihanı terk edib bezdim cihandan
Cihan oldum, cihan oldum, haçandan? (Nesimi,1973:383).

M.Şireliyev gösteriyor: "-ıb eki ağızlarda ekseri hallerde sesçil değişikliğe uğruyor. Tüm ağızlarda aynı derecede aktiftir. Zakatala, Gah ağızlarında -ıp, -ip, -up, -üp /gelip, alıp/,Gazak, Garabağ, Ağdam, Nuha ağızlarında -ıf,- if, -uf,- üf /bahıf, götürüf/, Ağsu, Tovuz ağızlarında –ıfdan,-ifden,-ufdan,-üfden/okuyufdan, oturufdan, üşüyüfden/ versiyonları kullanılıyor"(Şireliyev,1963:280).

Türk dillerinde en eski zarf-fiil **–a,-e** ekidir. "Orhun " abidelerinde daha çok kullanılmıştır, lakin Uygur abidelerinde kullanılmamıştır. Bu zarf-fiiller çağdaş Türk şivelerinde o kadar da aktif değil. –a, -e ekleri ünlü ile biten fiillere birleşerek ya- ye şeklinde kullanılıyor. Hareketin devamlılığını ifade ediyor.

Eski yazılarda hem tek, hem de çift kullanılarak zarf-fiil oluşturmaya hizmet etmiştir.

-a,-e zarf-fiillerinin etimolojisi hakkında değişik fikirler mevcuttur.

A.N. Kononov zarf-fiillerden konuşurken –a,-e ekini zarf-fiil, zarftan fikir söylerken ise –a,-e ekini zarf gibi kaydediyor (Kononov.1956:478).

Bildiğimiz gibi bunlar zarf değil, yalnız gramer fonksiyonuna göre zarf tümleci oluyor. –a,-e zarf-fiil ekleri tarz, hareket, kısmen de sebep, zaman manaları ifade etmiştir.

Nesimi'nin dilinde –a, -e zarf-fiillerinin yardımı ile oluşan tarz birleşmelerini görüyoruz.

Lebin caminden ol cem kim, Hazar tek irdi maksuda,

Çıkageldi çu zulmetten, bugün adı İskender'dir (Nesimi,1973:165).

Yerden çıkageldi dabatül-arz
Ki sırrını eylerim sana arz (Nesimi,1973:565).

Nesimi'nin dilinde- a, -e eki varmak fiili ile beraber kullanılmıştır.

Cefadan yana-yana gör ki, men neler çekirem ,
Varevare fitneli yarin cefalı ardından (Nesimi,1973:152).

Eski membalarda kullanılan zarf-fillerden biri de **-anda, -ende** ekidir.

M,Hüseyinzade gösteriyor:" Bu zarf-fiil eki tümcenin müstakil yüklemi ile ifade olunmuş hal ve hareketin icra olunma vaktini bildiriyor. Buna göre de -anda, -ende zarf-fiili-an, -en zaman ekinin yerine konulur" (Hüseynzadə, 1980:385).

Nesimi'nin şiirlerinin dilinde hem –anda, -ende şekli, hem de -andan,-enden şekli kullanılmıştır:

Mest olanda lebinde eşya hem,
Nergisin gözleri oldu humar (Nesimi,1973:550).

Çıktı servim aleme esrarımı faş eyledi,

Halıma hemdem olandan dünyada sevdayı aşk (Nesimi,1973:30).

İlgi çeken zarf-fiillerden biri de -**ken, -iken** ekidir. Ken, -iken zarf-fiilleri hem eski yazılı abidelerde, hem de çağdaş dilimizde iki türde kullanılıyor. Bu zarf-fiilin bir sıra farklı hususiyetleri vardır.

1.-Ken, -iken zarf-fiilleri şimdiki, gelecek ve belirsiz geçmiş zaman eklerini kabul etmiş fiillere konulur ve cümlede zarf-fiil oluyor.

2. Bu ek yalnız fiillere değil, adlara da birleşiyor ve her iki halde zaman manası ifade ediyor.

A.N.Kononov yazıyor : "- ken, -iken zarf-fiilleri müstakil semantik fillere bağlıdır ve iki müstakil kelimeden eke doğru gelişmiştir (Kononov,1956: 484-485).

Nesimi'nin şiirinde zaman manası bildirmiştir.

Yatırken dün gece gördüm siyah zülfünü boynumda,
Uyandım dedim ey dilber nedir bu rengime tabir

(Nesimi, 1873:209).

-**Dıkda, -dikde, -dukda, -dükde** ekleri eski abidelerin dilinde o kadar da aktif olmamıştır. Etimolojisi böyle izah olunuyor: -dık, -dik, -duk, -dük, - da, -de. Eski membalarda aktif olmamış, zaman geçtikçe yerini –anda, -ende eklerine vermiş, çünkü bu ekle eş anlamlıdır. Çağdaş edebi dilimizde –dıkda eki yine de kullanılmaktadır, lakin canlı konuşma dilinde daha çok -anda,-ende eki kullanılıyor.

H.Memmedov yazıyor: " Bu ek iki makamda kullanılıyor:

1. dıkça-dikçe-dukça-dükçe zarf-fiili hareketin devam ettiğini gösteriyor.

2. -dıkça-dikçe-dukça-dükçe zarf-fiili defalarla tekrar olunan hareketi bildiriyor"**(** G.Memmedov, 1967:27).

Nesimi'nin şiirinde bu ek hareketin devam ettiğini gösteriyor:

Gözümden gerçipünhandırnigarın sureti, ama,
Görünen vechidir anın hazar kıldıkça her caye (Nesimi, 1873:22).

-Dıkda, -dikde, -dukda, -dükde hareketin icra olunma vaktini bildiriyor, cümlenin zaman zarf tümleci oluyor.

Nesimi'nin dilinde -dığınca, -digince, -dugunca, -dügünce şekli şahıs eki ile beraber kullanılmıştır.

Ey saba, uğraştığınca ol huramanservetut ,
Menden ön onun ayağın, secde kıl belasına (Nesimi, 1873:53).

Orta çağ dili için işlek olan bu şekil çağdaş dilimiz için eski anlamı taşıyor. Lakin bu zarf-fiillerin ağızlarda sesçil değişikliğe uğrayan şekilleri kullanılmaktadır. Nahçıvan ,Gah ,Zakatala, Ordubat, Tebriz ağızlarında -dıhca, -duhca, Bakü, Şamahı,İsmayıllı,Muğan ağızlarında -dığcan, -dikcen, Gazah, Garabağ, Ağdam, Gence şivelerinde –dıhca, -dühce, -duhca, -dühce, -dıhcan, -dihcen, -duhcan, -dühcen şekilleri işlektir(Şireliyev, 1968:282).

Bundan ilave -dıhtan, -dihten, -duhtan, -dühten ekleri "sonra" kelimesiyle birleşerek ağızlarda kullanılmaktadır. Mesela: aldıhtan sonra, geldihten sonra, kurduhtan sonra. Bu tür zarf-fiiller Guba, Ordubad, Tebriz ağızlarında kullanılmaktadır(Şireliyev, 1968:283).

ınca, -ince, -unca, -ünce zarf-fiilleri eski yazılı abidelerin dilinde daha çok kullanılan eklerdendir. Zaman mefhumu ifade ediyor. Sentaks bakımdan tümcenin zarf tümleci oluyor. Müstakil fiil ile ifade olunacak işin icrası zarf-fiilin aynı zaman içinde ifade olunmuş zamanına bağlı olur.

- ınca, -ince, -unca, -ünce zarf-fiilleri abidelerimizin dilinde olumlu ve olumsuz şekilde kullanılmıştır.

Nesimi'nin şiirinde olumsuz şekilde kullanılmıştır:

Dilberin aşkında ey sadık ikilik perdedir,
Menliğin saf olmayınca aradan gitmez hicap (Nesimi, 1873:22).
Dilberi eyle ey gönül geç namudan ki, gamüden,
Bilmeyince dilberi, bulmadı kimse dilberi (Nesimi, 1873:88).

Nesimi'nin şiirinde hareketin başlanma anını bildiriyor.

Hayrın hayalı görünce zulmetten zahir oldu kim,
Hayvani lebindi aşık hem, hem cennettir (Nesimi, 1873:36).

Görünce-gören gibi.

Ağızlarda zarf-fiillerin ınca, -ince, -unca, -ünce şekli kendini daha çok gösteriyor. Bakı, Guba, Şamahı, Muğan ağızlarındaınca, -ince, -unca, -ünce şeklinde kullanılıyor: eve gelince, onu görünce vb. Garabağ. Ağdam, Gazah,
Gence ağızlarındaıncah, -inceh, -uncah, -ünceh şeklinde kullanılmaktadır: bakıncah, alıncah. (Eve çatıncah beni ara)"(Şireliyev,1968:281-282).

-alı, - eli zarf-fiilleri abidelerimizin dilinde kullanılan eklerden biridir.
-alı, -eli zarf-fiilleri her hangi iş, hal hareketin başlangıç noktasını bildiriyor

Nesimi'nin şiirinde -alı, -eli zarf-fiil şekli zaman ifade ediyor. Hareketin çıkış yerini gösteriyor.

Dişleri eksi düşeli gözlerim sevdasına ,
Lel düşmüştür gözümden lelen-lale ilen (Nesimi, 1873:157).

Mihnet içinde gergeyamfirgetineulaşalı ,

Çek, seneme bu servetten zövreğimi kenara gel (Nesimi, 1873:124)

H.Mirzezade yazıyor: "Çağdaş Azerbaycan şivesinde , aynı zamanda mahalli ağızlarda -alı, -eli ekleri -andan, -enden, -annen -ennen şeklinde ifade ediliyor. Lakin yazılı abidelerimizin dilinde bu zarf-fiil şekli o kadar da yaygın olmamıştır" (Mirzezade ,1962:291).

-madan, -medeneki daha eski tarihe dayanıyor**.** -madan, -meden ekinin etimolojisi hakkında Türkoloji'de umumi fikir böyledir ki, – ma, -me

olumsuz eki ile -dan, -den çıkma hal ekinin birleşmesinden- madan, -meden eki oluşmuştur.

Konuşma dilinde bu ek çok kullanılmasa da, edebi dilimizde aktif olmuştur.

-madan, -meden zarf-fiili Nesimi'nin dilinde hareketin oluşmadığını, bitmediğini bildiriyor.

Düşdüm ezelden zülfüne ram olmadan henüz
İçtim lebin şarabını cam olmadan henüz

Gördüm üzünüKabe'de ehli sefa ile
Gıldımtevafi-Kabe haram olmadan henüz
Yazmış üzünde sureirehman ol esselam
Erş ile kürsü löfü gelen olmadan henüz

Dürdane dişlerini nigarın görende men
Dürresedefdenezmü-nizam olmadan henüz (Nesimi, 1873:71).

-madan, -meden zarf-fiilleri eski edebi dilde daha çok kullanılmıştır. Çağdaş edebi dilde ise mazdan,-mezdenversiyonu daha çok kullanılmaktadır (Kononov, 1956:484).

İlginç burasıdır ki , - madan, -meden zarf-fiilleri Azerbaycan konuşma dilinde kullanılmayacak derecededir. Onun yerine ağızlarda -mamış, -memiş , -mazdan, -mezden versiyonu kullanılmaktadır. Bu şekil kendini daha çok Bakı, Şamahı ağızlarında gösteriyor(Şireliyev, 1963:282).
Örneğin: Kitabı almamış gelme. Özünü bilmemezliye vurma.

-cak, -cekzarf-fiilleri çok eski tarihe dayanıyor. Tarihen fonetik yönden değişmiş, bugünkü şeklini almıştır. - cak, -cekekinin eski şekli -geç,-ğaç gibi gösteriliyor. Eski abidelerde -geç,-ğaç,-icek,-ıcak ekleri daha aktif olmuştur. -geç,-ğaç ekinin - cak, -cekekine geçmesi prosesi orta asırlardan başlamıştır. Nesimi'nin dilinde -cak, -cek zarf-fiillerine az tesadüf ediyor.

Fitvasından zahidin naveknanü ger satarlar.

Ten değil senden şahe gerçek damarlar ağrımaz(Nesimi,1973:618).

- **mamış, -memiş** zarf-fiilinden Prof. Dr. H.Mirzezade bahsetmiştir. Azerbaycan İlimler Akademisinin 1960. yılında çap olunmuş gramerinde bu ekten konuşmuş, ama 1980. yılında çap olunmuş gramerinde ise bu ekten hiç bahsetmemiştir. (Bu arada Türkiye Türkçesinde bu ek sık kullanılmaktadır)

-mamış, -memiş zarf-fiillerine yazılı abidelerimizde çok az rastlanıyor. Bu da ondan ileri geliyor ki, -madan, -meden zarf-fiilleri abidelerimizde aktif olmuştur. Bugünkü edebi dilimizde de -madan, -meden zarf-fiilleri -mamış, -memiş zarf-fiillerinden daha çok kullanılıyor. Konuşma dilinde- mamış, ,memiş zarf-fiilleri daha aktif kullanılıyor.(Memmedov,1967:17).

Nesimi'nin dilinden -mamış, -memiş zarf-fiillerine birkaç örnek göstere biliriz.

Her ki debi dila kim sureti mana bilürem
Görmemiş yüzünü ol sureti rahman ne bilir(Nesimi, 1873:450).

Bey tül hareme girmemiş anın sefası yok
Aynını bilmem her kim cemalın gadrini bilmez (Nesimi, 1873:453)

-mamış,-memiş zarf-fiillerinin mamıştan,-memişten şekli Bakı, Şamahı, Mereze ağızlarında kullanılmaktadır. Mesela: olmamıştan, gelmemişten, almamıştan vb.

Kaynak

Dimitriyev, N.K. StroyTorksıskihyazıkov, M, 1962.
Dıjanmazov, Y.D. Depriçastiya v Kumıksskomliteraturnomyazıka, M.1967.
H.Mirzezade, Azerbaycan Dilinin Tarihi Morfologyası, Bakı, Azertedrisneşir, 1962.
H.H. Memmedov, Azerbaycan dilinde –ıb, -ib, -ub, -üb ve –a, -e şekilcili fiili bağlamalarla düzelen tarz birleşmeleri, Azerbaycan EA Haberleri, 1966.N.4
Kononov, A.N. GrammatikaSovrimenogoTüretskogoLiteraturnogoyazıka, İzb.-vo, AN. SSSR, M-L, 1956
M.Hüseyinzade, Muasır Azerbaycan dili morfologyası, Bakı, Maarif, 1973.
Memmedov G.G, Desprçastiya v pismennıhpamyatnikahAzerbayjan skogoyazıka, XIV. – XIX. vekov/Avtoraf. kad.diss./ Bakı,1967.
M.Şireliyev, Azerbaycan Dialektologiyasının Esasları, Bakı, Maarif, 1963.
Nesimi, Geçilmiş Eserleri, Azerneşir, Bakı ,1973.

Ш.Аллахвердијева

Деепричастие в стихотворениях азербайджанского поэта Насими

Резюме

Деепричастие в турецких диалектах давно привлекает внимание языковедов. Знаем, что во всех научных грамматикахговорятся о деепричастиях. Деепричастие было исследовано на основе материалов азербайджанского, турецкого, туркменского, казахского, киргизского, узбекского, кумыкского, чувашского, татарского, башкирского диалекта.

В результате деепричастие в старописьменных памятниках систематизировано и проанализированы турецкие диалекты.Есть некоторые различные черты исторического развития турецкой морфологии, одним из которых является деепричастие. В статье рассмотреныдеепричастие в произведениях Азербайджанского поэта Имадеддина Насими (1369 и 1425). В его произведениях используется не только архаичные причастие, и причастие которые используется в настоящее время.

Основная мысль в статье –доказывать, что используемыедеепричастие на языке Насими, также используются на современном азербайджанском литературном языке.

Ş.Allahverdiyeva

Gerund in azerbaijani poet Nasimi poetry

Summary

In the Turkish dialects, the envelope-verbs have long been attracting attention to the language. We know that in all the scientific classrooms, the grammar of the word is mentioned in the envelope. Today gerund Azerbaijan, Turkey, Turkmen, Kazakh, Kyrgyz, Uzbek, Kumuk, Chuvash, Tatar, Bashkir dialect was examined on the basis of materials.

As a result, the envelope-verbs used in the old written scripts were systemized and the materials of all the Turkish dialects were analyzed from the front.

There are some adherents of the historical development of the Turkish morphology structure, one of which is the envelope-verb vocabulary. The works of the Azerbaijani poet Imadettin Nesimi, who lived in article between 1369 and 1425, were studied. The archaic envelope in the work - together with the verb, we find a line of envelope-verb examples that are used today in our language.

The main idea in the paper is to consider that many of the suffixes used in Nesimi's language are also used in the contemporary Azerbaijani literary language.

Rəyçi: Almaz Ülvi
Filologiya üzrə elmlər doktoru

SEVİNC ƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
sevinc-novruzqizi@yandex.com

H.ƏLİYEV "MİLLİ VARLIĞIMIZIN MÖTƏBƏR QAYNAĞI" OLAN "KİTABİ – DƏDƏ QORQUD" DASTANLARI HAQQINDA

Açar sözlər: ümummilli lider Heydər Əliyev, "Kitabi Dədə Qorqud", irs, abidə
Ключевые слова: общенациональный лидер Гейдар Алиев, "Книга моего Деда Коркута**",** наследие, монумент
Key words: Common nation leader Heydar Aliyev, "The Book of my Grandfather Korkud**",** allusions

«Kitabi-Dədə Qorqud»un ... tədqiq, təbliğ olunması Azərbaycan xalqına çox böyük faydalar verdi. Biz öz tarixi köklərimizi, milli-mədəni irsimizi bir daha dərk etməyə başladıq. Artıq biz dərk edirik ki, Azərbaycan xalqı, bütün türkdilli xalqlar dünya sivilizasiyasına nə qədər böyük töhfələr vermişlər (H.ƏLİYEV)

Ulu öndər Heydər Əliyev özünün sənətə və sənətkara, elmə və alimə böyük rəğbəti ilə seçilən nadir lider şəxsiyyətlərdən idi. Lakin H.Əliyev dühasının ən böyük özəlliklərindən biri onun milli mənəvi irsimizə olan sədaqətli və xüsusi diqqətli qayğıkeş münasibəti idi. Təsadüfi deyil ki, məhz, H.Əliyevin ölkə rəhbərliyində olduğu dönəmdə Azərbaycan xalqının genetik yaddaşının ən parlaq məqamlarını təşkil edən tarixi hadisə və qəhrəmanlara, habelə söz sənəti incilərinə münasibət yeni keyfiyyət mərhələsinə keçmişdir. Bu mənada, H.Əliyevin bədii söz xəzinəmizə münasibətindən bəhs edərkən, ulu öndərin özünün də "milli varlığımızın mötəbər qaynağı" kimi dəyərləndirdiyi (bax: [1]) "Kitabi – Dədə Qoqud" dastanlarına münasibətinin üzərindən sükutla keçmək olmaz. Belə ki, H.Əliyevin həmin dastanları tədqiq işinin təşkilində[1], habelə təbliğində mühüm rolu vardır. Təkcə onu xatırlatmaq kifayətdir ki, məhz, H.Əliyevin birbaşa tapşırıq və nəzarəti ilə Azərbaycanda XX əsrin 90-cı illərinin sonunda dastanın tarixi, dili və bədii özəlliklərinin tədqiqi işi sürətlənmiş və bu ölməz abidənin yubileyinin qeyd olunması üçün ciddi elmi əsaslandırma formalaşdırılmışdır. Belə ki, məlum olduğu kimi, həmin dövrə qədər Azərbaycan və türk dilli xalqların ən dəyərli yazılı abidələrindən sayılan "Dədə Qordud dastanlarının" tarixinin süni şəkildə "cavanlaşdırılması" və hətta, tarixin müəyyən mərhələsində ümumiyyətlə qeyri – milli mənbə kimi dəyərləndirilməsi kimi absurd konyuktur xarakterli "verti-

kal" əmr və göstərişlərin mövcud olduğu bəllidir. Təkcə onu xatırlatmaq kifayətdir ki, Azərbacan tarixinin ən qara səhifələrindən sayıla bilən və milli genofondun tükədilməsini hədəfləyən represiya illərində təkcə şair və yazıçılarımız, önəmli söz sahibi olan ziyalılarımız deyil, eləcə də milli – mənəvi irsimiz təqib və qadağalara məruz qalırdı. Konkret olaraq, həmin dönəm Azərbaycana başçılıq etmiş M.C.Bağırovun nitqindən səsləndirilən fikirlərlə müqayisədə H.Əliyevin söz xəzinəmizə qayğıkeş münasibətinin kontrast təşkil etdiyi tam əyaniliklə ortaya çıxır. Bağırov demişdir: «Bəzi ədəbiyyatşünaslar və yazıçılar siyasi sayıqlığını və məsuliyyət hisslərini itirərək uzun müddət ərzində ***bu təhlükəli, xalqa zidd olan kitabı Azərbaycan dastanı adı altında təbliğ etmişlər***. «***Dədə Qorqud» xalq dastanı deyil***. O, əvvəldən axıra kimi Azərbaycan torpaqlarına ***qatil və soyğunçu kimi gəlmiş oğuz köçəri tayfalarını*** idarə edən yuxarı təbəqələrin tərifinə həsr olunub. Kitab ***büsbütün millətçilik zəhərinə hopdurulmuş***, o müsəlmanlara qarşı deyil, başqa dinə mənsub olan, ***əsasən də qardaş gürcü və erməni xalqına qarşı yönəldilmişdir***. ***Bu kitabın nəşr olunması*** Azərbaycan SSR Elmlər Akademiyası rəhbərlərinin və Ədəbiyyat İnstitutunun ***kobud bir siyasi səhvi hesab edilməlidir***» (kursiv bizimdir. – S.Ə.) (bax:[5]). Tam mənfur və antimilli münasibəti əks etdirən bu yanaşmada həm dastanın bədii dəyəri küçümsənir, onun bəşəri hisslərin tərnnümçüsü olması faktı qərəzli şəkildə inkar edilir, həm də onun bizim bir türk xalqı kimi varislik hissimizə hörmətsizlik ifadə olunur. Belə ki, onilliklər sonra ulu öndərin tam haqlı olaraq qeyd etdiyi kimi, xalqımızın qürur mənbəyi və "milli mənəviyyat qaynağı" olan bir əsər istər özünün yüksək poetik həlli, istərsə də ümumbəşəri ideyaların təbliği baxımından təkcə türk xalqlarının deyil, bütövlükdə dünya mədəni irsinin ən nadir və dəyərli incilərindən sayılmalıdır və zamanla da haqlı olaraq, bu qiymətini almışdır. "Görünən dağa bələdçi gərək olmasa" da, görünən gerçəyin inkarı üçün xüsusi məkr, qərəz və hesablanmış planın mövcudluğu lazım idi. Həmion plan isə Azərbaycan xalqının öz türk keçmişindən süni şəkildə qopardılaraq, məchul "Midiya varisliyi"nə sürüklənməsi ideyası idi. Stalinin antitürk xislətindən qaynaqlanan bu məkrli planın gerçəkləşdirmə yollarından biri isə xalqa tapındığı anlayış və məfhumları unutdurmaq, onun tarixini saxtalaşdırmaq və yad millətə "ögey övladlığa" verməklə öz şanlı keçmişi ilə qürurlanmaq kimi təbii haqqını əlindən almaq idi. "Dədə Qorqud" eposu və müasir Azərbaycan ədəbiyyatı problemi stalinizm repressiyaları kontekstində" mövzulu tədqiqatında Y.İsmayılovanın da tam haqlı olaraq qeyd etdiyi kimi, "Kitabi-Dədə Qorqud" dastanı stalinizm üçün xalqımızın manqurtlaşması yolunda maneə idi, özü də çox ciddi, keçilməsi çətin olan bir maneə. (daha ətraflı bax: [3;52-61]). Xalqın tarixində, ən əsası onun genetik yaddaşından Dədə Qorqud obrazını, onun qopuzunu, söylədiyi boylardakı süjet

və obrazları silmək üçün isə ən "doğru yol" hücuma keçərək əsassız ittiham və nahaq iradlar səsləndirmək idi.

Ulu öndər isə bilavasitə özünün təşkilatçılığı ilə gerçəkləşdirilən "Kitabi – Dədə Qorqud" yubiley tədbirlərində söylədiyi möhtəşəm nitqlərindən birində "***türkdilli xalqların milli eposu, ümumi sərvətimiz***", "" kimi dəyərləndirdiyi dastan haqqında qeyd etmişdir: "Bu yubiley ***bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün*** müstəsna əhəmiyyəti olan ***tarixi bir hadisədir***. Bu, ***bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə*** olan hörmət, ehtiram bayramıdır. Bu, bizim ***milli azadlığımızın, dövlət müstəqilliyimizin*** bayramıdır." [1 ;177]. Buradakı fərqi sadəcə tarixi zaman fərqliliyindən doğan labüd kontrast kimi dəyərləndirmək doğru olmazdı. Sözsüz ki, tarixi şərait deyilən bir gerçəkliyin təsirini inkar etməsək də, onu da xüsusilə vurğulamalıyıq ki, məhz, H.Əliyev dönəmində aparılan obyektiv araşdırma və təhlillər dastanın yaşının əvvəllər iddia olunduğu kimi, XIV-XV əsərlərə deyil, uzaq VIII əsrə qədər gedib çıxdığını ortaya qoymuşdur. Bu faktın aşkarlanmasından qürur və sevincini gizlətməyən ulu öndər xalqımızın, xüsusilə də gənc nəsilin öz möhtəşəm tarixi və mədəniyyəti ilə öyünməyə tam haqqı olduğunu dəfələrlə vurğulamışdır: " Əgər 1300 ildən də öncə «Kitabi-Dədə Qorqud» dastanının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, ***bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır***" [1;177].

Bir faktı da diqqətdən qaçırmaq olmaz ki, H.Əliyev milli mənəvi irsimizin yorulmaz tədqiqatçılarının zəhmətini hər zaman çox yüksək dəyərləndirir, onlara qayğıkeş münasibət bəsləyirdi. Bunun ən bariz nümunələrindən birini, məhz, "Kitabi – Dədə Qorqud" araşdırmaçılarına sərgilən münasibətdə izləmək mümkündür: "«Kitabi-Dədə Qorqud» özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər «Kitabi-Dədə Qorqud»un ***öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür***. Xüsusən son üç il ərzində yubiley komissiyasının üzvləri,***Azərbaycanın alimləri, tədqiqatçıları,*** yazıçıları, ictimai xadimləri tərəfindən görülən işlər ***yüksək qiymətə malikdir***. Ona görə də bu gün, bu yubiley günü mən ***«KitabiDədə Qorqud»un tədqiqi, təbliği ilə məşğul olmuş və bu yubiley mərasimlərinə çox dəyərli elmi əsərlər, kitablar hazırlamış alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm***" [1;181]. H.Əliyevin təşəkkür etdiyi simalar arasında Azərbaycan elminin qaymaqları sayılan böyük alimlərimiz, o cümlədən F.Zeynalov, S.Əlizadə, A.Axundov, T.Hacıyev, M.Nağısoylu və "Kitabi – Dədə Qorqud"u araşdırmış bir çox dəyərli dilçi alimlərimiz də vardır.

Siyasi texnologiyalarda hər hansı bir xalqın parlaq mifik obrazlarına xitab etmək, məşhur bədii söz incilərindən birbaşa və ya dolayı istinada yer vermək geniş istifadə olunan və müvəffəqiyyətli ritorika tapıntısı kimi qiymətləndirilir. Lakin bəzi hallarda, konkret olaraq, ulu öndərin qürbətdə Vətən həsrəti ilə yaşayan həmvətənlərimizin qarşısında etdiyi çıxışda olduğu kimi, bu kimi addımlar, sadəcə olaraq, siyasi texnologiyaların çərçivəsini aşır. Belə natiqlik sənəti inciləri olan çıxışlar ya hər hansı bir xalqın və ya sosial toplumun ideya platformasını təşkil edir, ya da müəyyən çağırış, təşviqat xarakterli deklarasiya, bəyan səciyyəsi daşıyır. Başqa sözlə desək, belə nitqlər xalqın, toplumun ən incə hissələrinə toxunur, onların altşüurunda yatamn hazır obraz, süjet, ifadə modellərinə istinad edir. Altşüurdakı həmin hazır ifadə modelləri əsasında tərtiblənən mətn isə beynlərə həkk olmaqla yanaşı, qəlblərə yol tapır və bir növ, "sarı simə toxunaraq" ruha, şüura hakim kəsilir. Bu mənada ulu öndərin9 noyabr 2001-ci il tarixli nitqi xüsusi maraq doğurmaya bilməz.

H.Əliyevin "Kitabi – Dədə Qorqud" dastanlarına yüksək qiymət verməklə yanaşı, abidənin gözəl bilici olması faktı da inkar edilə bilməz. Belə ki, ulu öndər nitqlərində eposdan allyuziyalara[2] yer verilməsi bunun bariz sübutu sayıla bilər. Konkret olaraq, H.Əliyevin natiqlik istedadının zirvələrindən sayılan və ulu öndərin liderlik bacarığı ilə yanaşı, alovlu vətənpərvər, milli ideyalara sadiq ziyalı və ən əsası, sözün əsl mənasında el ağsaqqlı, ulus atası olmasını təsdiqləyən bir nitqinə diqqət yetirmək kifayətdir ki, rəhbərin "Kitabi-Dədə Qorqud" irsinə münasibətini əyani şəkildə izləmək mümkün olsun. Söhbət, ulu öndərin Dünya Azərbaycanlılarının I Qurultayındakı unudulmaz nitqindən gedir. H.Əliyev sonralar dillər əzbəri "***mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam***" – olmuş tarixi fikrini səsləndirmiş olduğu möhtəşəm nitqinin yekununda demişdir: "Sizin hər birinizə işlədiyiniz sahədə, gördüyünüz işdə, yaşadığınız yerlərdə uğurlar arzulayıram. Harada yaşamasından asılı olmayaq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt gələcək arzulayıram. ***Qoy, çaylarımız qurumasın! Qoy, ağazlarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!*** Azərbaycan xalqına eşq olsun! Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!" [2].. Nitqin bu hissəsində səsləndirilən fikirlərdə aydın şəkildə "Kitabi – Dədə Qorqud" dastanından reministensiya[3] duyulur. Belə ki, ölməz abidənin "*Salur Qazanın evinin yağmalandığı boy*"un sonunda ulus ağsaqqlalı Dədəmiz Qorqud öz xeyir – duasını səsləndirərkən deyir: "Qarlı qara tağlalarun yığılmasın! ***Kölgəlicə qaba ağacın kəsilməsün! Qamın aqan görklü suyın qurımasun***!" [4;50-51]. Müasir Azərbaycan ədəbi dilində: "Qarlı uca dağların yıxılmasın! ***Kölgəlik hündür ağacların kəsilməsin! Coşqun axan gözəl suyun qurumasın!***" [4;149]

Həmin möhtəşəm tədbirdə Azərbaycan milli kimliyinin daşıyıcısı olan dövlətimizin paytaxtına toplaşmış yüzlərlə, minlərlə xaricdə yaşayan həmvətənimizin qəlbini riqqətə gətirən bu məruzə salonun alqış sədaları ilə lərzəyə gətirtdi, insanlar öz liderini ayaq üstə sürəkli alqışlarla dəstəklədilər. Həmin gün, həmin gecə ulu öndər təkcə dövlət başçısı deyildi, o, həm də ulus atası, sinəsi qopuzlu el ozanı, el ağsaqqlının – Dədəmiz Qorqudun varisi və davamçısı idi.

Göründüyü kimi, ulu öndər H.Əliyev "Kitabi- Dədə Qorqud" dastanlarının tədqiq və təbliği işinin təşkilində müstəsna rol oynamaqla bərabər, eposun dərin bilicisi və çılğın təbliğatçısı olmuşdur. Bu isə onun böyük dövlət adamı, dahi siyasi strateq və novator olması ilə bağlı iti zəkaya, hərtərəfli erudisiyaya və ən əsasın milli irsə bağlılıqla seçilən mənəviyyata sahib vətənpərvər şəxsiyyət olmasını əyani şəkildə təsdiqləmiş olur.

Ədəbiyyat:

1. Əliyev H.Ə. Müstəqlliyimiz əbədidir. Iyirmi altıncı kitab, aprel – may 2000. B., Azərnəşr, 2009, 512 səh.
2. Əliyev. H.Ə. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. http://files.preslib.-az/site/diaspora/gl2.pdf
3. İsmayılova Y.N."Dədə Qorqud" eposu və müasir Azərbaycan ədəbiyyatı problemi stalinizm repressiyaları kontekstində // Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər Seriyası, 2011, № 1, s.52-61.
4. "Kitabi -Dədə Qorqud" (tərtib, transkripsiya,sadələşmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadə), Bakı: Yazıçı: 1988, 265 s.
5. Qasımov C. «Dədə Qorqud kitabı» və milli-etnik yaddaşın repressiya tarixi // Dədə Qorqud jur., 2009, № 4, s. 11-33
6. Аллюзия // Словарь литературоведческих терминов http://-slovar.lib.ru/dictionary/allusija.htm
7. Реминисценция // Большая советская энциклопедия http://slovar.-lib.ru/dictionary/reminiscencija.htm

Севиндж Алиева

Г.Алиев о дастанах «Китаби-Деде Горгуд» -- «достоверном источнике национального бытия»

Резюме

В статье анализируются глубокое почтение великого лидера Гейдара Алиева к искусству и мастерам искусства, науке и учёным, верность национальному нравственному наследию и особое внимание к нему. Здесь также освещается отношение Гейдара Алиева к дастанам «Китаби-Деде Горгуд», оцениваемым им как «достоверный источник национального бытия».

Проведённые во времена Г.Алиева объективные исследования отнесли «возраст» дастана к далёкому VIII веку, а не к XIV-XV векам, как утверждалось ранее. Г.Алиев неоднократно отмечал, какую древнюю историю, какие глубокие корни и какую богатую культуру имеет наш народ.

Г.Алиев всегда высоко оценивал труд неустанных исследователей национального нравственного наследия, заботливо относился к ним. Наряду с высокой оценкой дастанов «Китаби-Деде Горгуд» Г.Алиев являлся и прекрасным знатоком памятника. Так, образцы из эпоса, приводимые в речах великого лидера, могут считаться наглядным доказательством сказанному.

Наряду с тем, что великий лидер Г.Алиев сыграл исключительную роль в организации исследования и пропаганды дастанов «Китаби-Деде Горгуд», он являлся также глубоким знатоком и активным пропагандистом эпоса. А это наглядно подтверждает его патриотизм, основанный на остром уме великого государственного деятеля, талантливого политического стратега и новатора, всесторонней эрудиции и, главное, на нравственности, связанной с национальной гордостью.

S.Aliyeva

H. Aliyev is about the Epos of “The Book of my Grandfather Korkud” which is “the Worthy Source of our National Existence”

Summary

The article highlights the great contribution of great leader Heydar Aliyev to art and crafts, science and scientific, his devoted and dedicated personal attention to our national spiritual heritage. The reference to the epos "Kitabi - Dede Qoqud", which Heydar Aliyev regarded as "a reliable source of our national existence".

The objective researches and the analysis conducted to H. Aliyev's period have shown that the age of the saga has risen till the VIII century, but not XIV-XV as it was approved earlier. H.Aliyev notes that our people have ancient history, deep roots and rich culture.

H.Aliyev always appreciates the efforts of the tireless researchers of our national heritage, and cares for them. The fact that H.Aliyev's "Kitabi - Dede Qoqud" epos is a great one, and the fact that the monument is a good expert can not be denied. Thus, the fact that the great leader gives epic examples from his speech can be considered an obvious proof of this.

The great leader H.Aliyev played an important role the organization of the study and promotion of the epics of "Kitabi - Dede Qoqud ", as well as the epic poet and propagandist. It clearly confirms that he is a patriot of personality with a great state man, a genius political strategist and innovator, a comprehensive erudition and first of all, the morals chosen as national heritage.

Rəyçi: Tünzalə Baxşıyeva
filologiya elmləri doktoru

PƏRVANƏ MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texniki Universiteti
parvana@mail.ru

"AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ" FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBLƏRƏ YAZILI NİTQİN AŞILANMASI ÜSULLARI

Açar sözlər: yazılı nitq, orfoqrafiya qaydaları, praktik işlər, nitq mədəniyyəti, rəsmi-əməli yazılar.
Key words: written speech, spelling rules, practical work, oratory, formal and practical articles.
Ключевые слова: письменная речь, правила правописания, практикум, ораторское искусство, формальные и практические статьи.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənninin texniki ali məktəblərdə bütün ixtisaslar üzrə tədris olunması təqdirəlayiqdir. Çünki ali məktəblərin məqsədi yalnız mütəxəssis yox, eyni zamanda müasir tələblərə cavab verə bilən ziyalı korpusu hazırlamaqdan ibarət olmalıdır. Ziyalılığın əsas şərtlərindən birincisi, həm də ən başlıcası, hər bir mütəxəssisin öz ixtisası ilə yanaşı, ana dilinin bütün incəliklərini dərindən bilməsi, ədəbi dilimizin səciyyəvi xüsusiyyətlərinin tələblərinə uyğun səliqəli, düzgün və savadlı yazmağı bacarması, həmçinin onun şifahi nitqininin sadə, aydın, dəqiq, səlis, rəvan, kamil və məntiqi ardıcıllığa malik olmasıdır. Nitq mədəniyyəti həqiqətən də insan mədəniyyətinin tərkib hissəsidir. Nitqi gözəl olan insan cəmiyyətin bütün sahələrində öz layiqli yerini tutur.

Dil tarixi və ümumxalq xarakteri daşımaqla nitq vasitəsilə fəaliyyət göstərir, reallaşır və yaşayır. Nitq dildən törəyir. Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyət prosesidir. Başqa sözlə desək, dili nitqdən, nitqi isə dildən kənarda düşünmək olmaz. Onlar bir-birilə sıx əlaqədə olub, biri digərinin vəzifəsini gerçəkləşdirir. Deməli, dil nitq vasitəsi ilə ünsiyyəti təmin edir. Nitq təzahür formalarına görə müxtəlif olur: şifahi nitq, yazılı nitq.

Tələbələrin Azərbaycan dilinə şifahi şəkildə olduğu kimi, yazılı şəkildə də yiyələnmə bacarığının yaranması təmin edilməlidir. Çünki yazılı mətn yalnız şifahi nitqdə söylənilir və nitq hüququ qazanır. Bu baxımdan, yazılı nitq şifahi nitqlə yaxından bağlıdır. Deməli, şifahi nitq də öz əksini yazıda tapa bilir. Yazılı nitq üçün yazı, orfoqrafik normalar, durğu işarələri, fonetik normalar, leksik normalar, qrammatik normalar, rəsmi-əməli yazı növləri əsas şərtdir.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənnini tədris edən müəllim tərəfindən savadlı yazı vərdişlərinin aşılanması daim diqqət mərkəzində saxlanılmalıdır. Bu məqsədlə dilin ilk növbədə orfoqrafik normalarının mükəmməl öyrədilməsi təmin edilməlidir. Orfoqrafiya düzgün yazı qaydalarından bəhs edir. Orfoqrafiya yazılı nitqdə dil vahidlərinin, yəni kök sözlərin, şəkilçi sözlərin və qısaltma sözlərin, ixtisarla yazılan sözlərin düzgün yazılışını təmin edən və hamı üçün məcburi sayılan qaydalar sistemidir. Orforafiyanın yazılı nitqdə böyük rolu vardır. Çünki vahid orfoqrafiya sistemi olmadan xalqın mədəni irsini nə öyrənmək, nə də onu başqasına çatdırmaq olar. Odur ki, müasir həyatımız hamıdan elmin sirlərinə yaxından bələd olmağı, mədəni nitqə yiyələnmək üçün dilimizin düzgün yazı sistemini, yəni orfoqrafiya qaydalarını dərindən öyrənməyi tələb edir. Tələbələrin "...mükəmməl orfoqrafik savada yiyələnməsinin başlıca müvəffəqiy-yəti bu sahədə aparılacaq işlərin elmi əsaslar üzərində qurulmasıdır"(6, 318).

Sabit orfoqrafiya qaydaları olmadan düzgün yazılı nitq təsəvvür etmək çətindir. Məhz buna görə də tələbələrə savadlı yazılı nitqin aşılanması prosesində vahid orfoqrafiya qaydalarından istifadə olunmalıdır. Çünki müasir həyat, dilimizin dövlət dili hüququ qazanması, elmi-texniki tərəqqi, kütləvi informasiya vasitələri, təhsil və mədəni-maarif işlərinin genişlənməsi, ayrı-ayrı xalqlar arasında siyasi, iqtisadi və mədəni əlaqələrin güclənməsi və s. hamımızdan mədəni nitqə yiyələnməyi prioritet məsələ olaraq önə çəkir. Bu baxımdan orfoqrafik prinsip və normaların tələbələrə aşılanmasının yazılı nitqin inkişafı baxımından rolu çox böyükdür.

Ədəbi tələffüz üzrə iş tələbələrin orfoqrafik vərdişlərinin də inkişafına müsbət təsir göstərir. Tələffüz nöqsanlarının islahı qüsurlu tələffüzün, düzgün deyilişlə yazılış arasında əlaqənin izahı isə yazılı nitqdə ədəbi tələffüzdən irəli gələn orfoqrafik səhvlərin aradan qaldırılmasına səbəb olur."Orfoqrafiya məsələsini həll etmək üçün əvvəl orfoepik məsələləri həll etmək lazımdır" (2, 5).

Yazılı nitqin inkişafında, savadlı yazı üzrə bilik, bacarıq və vərdişlərin formalaşmasında yazılı şəkildə yerinə yetirilən orfoqrafik təhlilin böyük əhəmiyyəti vardır. Çünki orfoqrafik təhlil tədris zamanı tələbələrdən öz yazısına diqqətlə yanaşmağı, dilimizin yazı qaydalarının xüsusiyyətərini dərindən öyrənməyi tələb edir. Odur ki, orfoqrafik təhlil üçün seçilən mətnlər dilimizin orfoqramları ilə zəngin olmalıdır. Belə olduqda orfoqrafik təhlildə qarşıya qoyulan məqsəd, yəni yazı qaydalarının hərtərfli mənimsənilməsi üçün daha geniş şərait yaranır. Orfoqrafik təhlili müxtəlif növlü yazılarda, o cümələdən üzdənköçürmə yazıların, öyrədici imlaların, sərbəst imlaların, yaradıcı imlaların, seçmə, xəbərdarlıqlı və izahlı imlalarda, həmçinin ifadə və inşaların yoxlanılmasında, həmin yazılar üzərindəki səhvlərin düzəldilməsində də

tətbiq etmək olar. Yazılı nitqin tədrisi prosesində orfoqrafik rejim təmin edilməlidir ki, bu da orfoqrafik təhlil üzrə biliklərin əldə edilməsində əsasdır.

Şifahi nitqdə fasilə və ahəngdarlıq fikrin aydın, dəqiq və düzgün başa düşülməsinə xidmət edir. Yazılı nitqdə isə bu vəzifəni durğu işarələri yerinə yetirir. Yazılı nitqdə durğu işarələrinin öz yerində işlədilməməsi fikrin təhrif olunmasına, pozulmasına və dolaşıqlıq yaranmasına səbəb olur. Bu xüsusiyyətlərə əməl edilməsi yüksək yazı mədəniyyətinə yiyələnmək üçün əsas amillərdən biridir. Yazılı nitq mədəniyyətini ahəngdar şəkildə inkişaf etdirmək üçün, hər şeydən əvvəl, durğu işarələrinin vəzifəsini, işlədilmə məqamlarını dərindən mənimsətmək tələb olunur. Parçalar arasında isə fasilədən, səsin tonundan, ritm və intonasiyadan asılı olaraq yazılı nitqdə müxtəlif işarələr qoyulur. Bu işarələrə nöqtə, vergül, sual, nida və s. daxildir. Yazılı nitq prosesində durğu işarələrinin işlədilməsinə ciddi əməl edilməsi hamı üçün məcburidir. Tələbələrdə yazılı nitqin inkişafı məqsədilə durğu işarələrinə dair biliklərin mənimsədilməsilə əlaqədar çalışmaların yerinə yetirilməsi məqsədəuyğundur.

Azərbaycan dili dərslərində yazılı niqtin inkişafına xidmət edən üsullardan biri də çalışmalardır. Bəzən müəllim verilmiş bilikləri möhkəmləndirmək, düzgün və savadlı yazı vərdişləri aşılmaq üçün müxtəlif növ çalışmalar təşkil edir. “Çalışmalar həm zehni, həm də əməli fəaliyyət tələb edir. Çalışma eyni zamanda hərəkət və hərəkətlər sisteminini dəfələrlə təkrarı deməkdir”(5, 296).Çalışma bir neçə mərhələdən keçir: müəllim onun necə icra ediləcəyini aydınlaşdırır və nümunələr əsasında nümayiş etdirir, tələbələr isə qulaq asır və müşahidə edir, tələbə verilmiş çalışmanın icrasında özünü sınayır, sonra fərdi qaydada, ya da çalışmanın qrup şəklində yerinə yetirilməsi yoxlanılır, səhvlər aşkara çıxarılır və ona düzəlişlər edilir. Həmin düzəlişlərin nəyin əsasında aparıldığı, hansı nəzəri materiallara əsaslandığı lazım gəldikcə tələbələrə aydınlaşdırılır. Biliklərin şüurluq dərəcəsini artırmaq üçün verilən çalışmaların izahı zamanı həm tələbələrə öyrədilən nəzəri mareiallarla bağlı biliklər möhkəmlənir, həm də onların yazılı nitq üzrə qabiliyyətləri inkişaf etdirilir. “Dilin tədrisində yazı dilin aspektləri ilə şifahi nitqi inkişaf etdirmək üçün üzvi surətdə bağlıdır. Yazı şifahi nitqin təməlini qoyur. Ona görə də yazılı çalışmalara tədrisdə çox yer vermək məsləhətdir”(7, 70).Prof. A.Qurbanovun qeyd etdiyi kimi, “...verilmiş geniş nəzəri məlumatları möhkəmlətməkdə praktik xarakterli çalışmaların rolu və əhəmiyyəti son dərəcə böyükdür. ...Bütün bu çalışmalar tələbələrin sözün mənasından yerli-yerində istifadə etmək bacarıqlarını artırmağa, onların nitqinin hərtərəfli inkişafına xidmət etmək məqsədi daşaıyır” (4, 3,5).

Müəllim yeni öyrədiləcək materialın izahını verdikdən sonra müəyyən sorğular aparmaqla yanaşı, tələbələrə kartoçkalar paylayır və həmin kartoçkalardan verilmiş tapşırıqlar keçilmiş yeni mövzunun, yeni nəzəri

materialın möhkəmləndirilməsinə xidmət etməklə bərabər, tələbələrin yazılı nitqinin inkişafında müsbət rol oynayır.

Yazılı nitqin inkişafında müstəqill yerinə yetirilən işlərin - sərbəst işlərin, tədqiqat xarakterli işlərin də xüsusi əhəmiyyəti vardır. Bu üsul tələbələri müstəqil düşünməyə, müstəqil mühakimə yürütməyə alışdırmaqla yanaşı, dilin tədrisi prosesində onlara verilmiş nəzəri bilikləri möhkəmləndirir, yazılı nitq üzrə bacarıq və vərdişlərin formalaşmasına xidmət edir.

Yazı növlərindən olan imlaların təşkilində əsas məqsəd tələbələrdə savadlı və düzgün yazmaq bacarıq və vərdişlərinin formalaşdırılmasıdır. Bu vəzifənin müvəffəqiyyətlə həyata keçirilməsi imla yazılar üzərində işin səmərəli təşkilindən çox asılıdır. İmlaların müxtəlif tipləri mövcuddur ki, (xəbərdarlıqlı imla, izahlı imla, mətndə dəyişiklik aparmaqla yazdırılan imla, sərbəst imla, yaradıcı imla, yaddaş üzrə yazı, lüğət üzrə imla, yoxlama imla) bunlar da tələbələrin orfoqrafik savada, yazılı nitq mədəniyyətinə yiyələnməsinə xidmət edir.

İmlaların yoxlanılması zamanı müəllim tərəfindən tələbələrin yol verdiyi səhvlər aşkarlanır. Səhvlər üzərində işin təşkili tələbələrin yazılarında yol verilən nöqsanların müvəffəqiyyətlə aradan qaldırılmasını təmin edir, onlarda səhvsiz yazmaq bacarıq və vərdişləri formalaşdırır. Təcrübə göstərir ki, bu iş iki mərhələdə özünü büruzə verir. Birinci mərhələdə səhvlərin müəyyənləşdirilməsi, ikinci mərhələdə isə səhvlərin təhlili və təshihidir. İlk mərhələdə aşkarlanan və qruplaşan səhvlərin hansı qrammatik – orfoqrafik qayda ilə bağlı olması açılır, tələbələrin bu sahədəki yarı-yarımçıq bilikləri yeni material, metod və priyomlarla təkrarlanır, dərinləşdirilir və möhkəmləndirilir.

Yazili nitqi şərtləndirən bir sıra amillər vardır ki, onlardan ən başlıcası nümunəvi yazı üçün tələb olunan dil normalarına - fonetik, leksik, morfoloji, sintaktik normalara riayət etməkdir. Düzgün danışıq üçün ədəbi tələffüz normalarına ciddi əməl etmək nə dərəcədə əhəmiyyətlidirsə, savadlı yazı üçün bu normaları gözləmək o qədər vacibdir. Yazılı nitq qaydaları dilimizin daxili qanunları ilə bağlıdır. Alınma sözlər belə dilimizin bu qanunlarına uyğunlaşdırılaraq yazılır. Ona görə də dilimizin yazılı formasından istifadə edən hər kəs dil normaları üzrə formalaşan yazı qaydalarına düzgün əməl etməlidir. Hazırda Azərbaycan dilinin yazılı formasından hər yerdə geniş istifadə olunur. Hər bir sahədə yazılı nitqdən düzgün istifadə olunması, savadlı yazı üçün tələb olunan prinsiplərin ciddi surətdə qorunması həmin yazı nümunələri ilə ünsiyyətdə olan, onları müşahidə edən şəxslərin yazılı nitqinin inkişafında mühüm rola malik olur. “Savad uğrunda mübarizə bütün yazılarda: gündəliklərdə, yazı ilə əlaqəsi olan bütün işlərdə, divar qəzetində, sinif jurnallarında tələb olunmalıdır. Digər tərəfdən, məktəbdə istifadə edilən hər bir sənədin yazılışında orfoqrafiya və durğu işarələri

qaydalarının tələblərinə ciddi surətdə riayət edilməlidir: elanlar, plakatlar, müdiriyyətin yazılı sərəncamları, müxtəlif yazılı məlumat və s. tamamilə səliqəli və savadlı olmalıdır" (1, 296).

Azərbaycan dilinin tədrisinə verilən ən mühüm tələblərdən biri də tələbələrin rəsmi-əməli yazı bacarığına yiyələnmələrini təmin etməkdən ibarətdir. Tələbələrə bu yazıların öyrədilməsi vacibdir. Çünki müstəqil həyat yoluna qədəm qoyan hər bir şəxs istər işlədiyi kollektivdə, istərsə də yaşadığı məkanda bu və ya digər insan qrupları, həmçinin bu və ya digər rəsmi dövlət idarələri ilə yaxından əlaqədə olur. Bu rəsmi əlaqələr zamanı onun əməli yazının müxtəlif növlərindən istifadə etməsinə böyük ehtiyac duyulur. Hər bir şəxs, şübhəsiz ki, özünün yaşadığı və ictimai fəaliyyət göstərdiyi dövrdə tez-tez rəsmi-əməli yazının bu və ya digər növündən istifadə etməli olur. Odur ki, hər kəs ictimai həyat fəaliyyətinə başlayana qədər təhsil aldığı dövrdə Azərbaycan dilinin tədrisi imkanlarından yararlanaraq rəsmi-əməli yazıların bütün növlərini dərindən öyrənməlidir.Məhz buna görə də Azərbaycan dilinin tədrisi prosesində başqa praktik işlərlə yanaşı, tələbələrə müəyyən əməli yazı bacarığının aşılanması da nəzərdə tutulur. Odur ki, Azərbaycan dili dərslərində əməli yazı nümunələri üzrə nitqin inkişafı təliminə yüksək məsuliyyətlə yanaşılmalıdır. Bu isə müasir həyatın tələbidir.

Ərizə, arayış, elan, tərcümeyi-hal, referat, akt, protokol, teleqram, etibarnamə, xasiyyətnamə, məqalə, məktub tipli əməli yazıların müntəzəm və şüurlu şəkildə öyrədilməsi faydalı sayılır. Təcrübəli dil müəllimləri bu yazı nümunələrini hazırlayıb əyani şəkildə nümayiş etdirə bilərlər. Burada texniki vasitələrdən istifadə olunması tələbələrdə rəsmi-əməli nümunələr üzrə yazılı nitqin inkişafında çox əhəmiyyətlidir. Müəllim tələbələrdə əməli yazı vərdişləri formalaşdırmaq üçün hər bir yazı növündən düzgün istifadə olunmasına xüsusi diqqət yetirməli və hər şeydən əvvəl, tələbələrdə yazının bu növünə aid böyük istək və maraq oyatmalıdır.

Ümummilli lider H.Əliyev ana dilinə mükəmməl yiyələnməyin, bu dildə gözəl yazılı və şifahi nitqə malik olmağın vacibliyini dönə-dönə vurğulamışdır: "Mən bunu dəfələrlə demişəm, bu gün də deyirəm ki, indi biz müstəqil dövlətik və bütün vətəndaşlarımız, xüsusən gənclərimiz başqa dilləri öyrənməlidirlər. Amma birinci növbədə öz dilini, yəni Azərbaycan dilini, bizim doğma dilimizi bilməli, sevməlidirlər. Doğma dilimizdə həm danışmalı, həm oxumalı, həm də yazmalıdırlar"(3). Deyilən fikrə uyğun olaraq qeyd edək ki, ulu öndərin nitqi Azərbaycan natiqlik sənətinin ən gözəl nümunələridir. Bu dahi şəxsiyyət dilimizin bütün imkanlarından məharətlə yararlanmaqla nitqin bütün tələblərinə çox ustalıqla riayət etmişdir. H.Ə.Əliyevin Azərbaycan dilinin imkanlarından məharətlə istifadə etmək bacarığı, onun böyük natiqlik istedadı dilimizə olan sevgini daha da artırır. Dərs prosesində məqsədəuyğun şəkildə ulu öndərin məruzə və çıxışlarından

seçilmiş nümunələr üzərində işin aparılması tələbələrin şifahi nitqinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərər, dilimizə sevgi aşılamaqla yanaşı, onlarda yüksək vətənpərvərlik ruhu formalaşdırar. Məsələn, Ulu öndər H.Əliyevin xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirindən hönkürtü vuraraq dediyi misraları nümunə kimi xatırlamaq yerinə düşərdi:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?

Tam əminliklə deyə bilərik ki, tələbələrdə yazılı nitqin inkişafı və eyni zamanda bununla əlaqədar bilik, bacarıq və vərdişlərin aşılanması bu günün tələbəsi, sabahın isə yüksək ixtisaslı mütəxəssisləri olan gənc nəslin istehsalatda öz layiqli yerini tutmaq, dövlət idarələri və ictimai təşkilatlarda işi səmərəli qurmaq üçün mühüm vasitərolunu oynayacaqdır. Bu sahə üzrə əldə edilmiş biliklər doğma dilimizin süzgəcindən keçərək milli ruhun formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir.

Ədəbiyyat

1. Abdullayev A., Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, "Maarif", 1968.
2. Abdullayev N. Ədəbi tələffüz təliminin metodikası. Bakı, Maarif, 1986.
3. "Azərbaycan" qəzeti, 15 avqust 2002-ci il.
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. Bakı, "Maarif", 1982.
5. Mirzəyev H. Azərbaycan dili dərslərində kartoçkalardan istifadə. Azərbaycan Texniki Universitetinin 55 illiyinə həsr edilmiş elmi konfransın materialları, II h., Bakı, 2005.
6. Rəhimov A. Ana dilinin tədrisi metodikası. "Nurlan", Bakı-2003.
7. Vəkilova D. Şifahi nitqin inkişafında texniki vasitələrin rolu. AzTU, Respublika elmi konfransının materialları, Bakı, 2013, səh.70.

П.Мамедова

Методы предоставления письменных речевых требований в процессе преподавания предмета «Азербайджанский язык и речевая культура»

Резюме

В статье отмечается, что использование литературных навыков письма в преподавании «азербайджанского языка и речевой культуры» всегда должно быть в центре внимания. Для этого язык должен в первую очередь быть обеспечен совершенным преподаванием норм правописания. Перерывы и гармония в устной речи являются четкими, точными и правильными. В письменной речи эта задача прерывается. Одним из способов использования уроков азербайджанского языка для разработки письменного письма является их работа. Иногда учитель организует различные виды работы, чтобы укрепить полученные знания, преодолеть правильные и грамотные привычки писать. Существует ряд факторов, которые делают письменное заявление, наиболее важным из которых является соблюдение языковых норм, необходимых для образцового письма - фонетического, лексического, морфологического, синтаксического. В той степени, в которой важно строго придерживаться норм литературного произношения, так важно ожидать этих правил для грамотного письма.

Письменные речевые правила связаны с языком нашего языка лова покупки написаны в соответствии с этими законами нашего языка. Одним из важнейших требований к преподаванию азербайджанского языка является обеспечение того, чтобы студенты приобретали формальные навыки письма. Для учеников важно учить эти отрывки. Потому что любой, кто встал на независимый образ жизни, находится в тесном контакте с теми или иными группами людей, а также с другими официальными правительственными учреждениями в своей общине и месте жительства. Во время этих формальных отношений существует большая потребность в использовании разных типов письменности. Знания, полученные в этой области, будут важны для формирования национального духа через фильтр нашего родного языка.

P.Mammadova

Methods of Giving the Written Speech Requirements in the Process of Teaching the Subject "Azerbaijani Language and Speech Culture"

Summary

The article notes that the use of literary writing skills in teaching the "Azerbaijani language and speech culture" should always be in the spotlight. To this end, the language should primarily be ensured by the perfect teaching of spelling norms. Breaks and harmony in the oral speech serves to be clear, accurate, and correctly understood. In the written speech, this task is punctuated. One of the ways in which Azerbaijani language lessons can be used to develop written writing is their work. Sometimes the teacher organizes various types of work to reinforce the knowledge gained, to overcome the correct and literate writing habits. There are a number of factors that make a written statement, the most important of which is to follow the language norms required for exemplary writing - phonetic, lexical, morphological, syntactic. To the extent that it is important to adhere strictly to literary pronunciation norms, it is so important to expect these rules for literate writing.

Written speech rules are related to the language of our language. Purchase words are written in accordance with these laws of our language. One of the most important requirements for the teaching of Azerbaijani language is to ensure that students acquire formal writing skills. It is important for the students to teach these passages. Because anyone who has embarked on an independent way of life is in close contact with these or other groups of people, as well as with other official government agencies in his or her community and place of residence. During this formal relationship, there is a great need for the use of different types of writing. The knowledge gained in this field will be important in shaping the national spirit through the filter of our native language.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

NƏRMİNƏ İSAYEVA
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Texniki Universiteti
narmina@mail.ru

FRAZEOLOGİYA NƏZƏRİYYƏSİ VƏ KOQNİTİVİZM

Açarsözlər: frazeologizm, frazeologiya,etimologizm, semantika, koqnitivistivizm, problematika, leksik mənası, orta vahid nominasiyası üzrə.
Ключевые слова: фразеологизм, фразеография, этимологизм,семантика, когнитивизм, проблематика, лексическое значение, единица вторичной номинации.
Key words: phraseologizm, phraseografy, etymologizm, semantics, cognitivism, problematic, lexical meaning, unit of secondary nomination.

Frazeoloji birləşmələr elə çox qədim və sonsuz mövzudur ki, aıd olduğu dilə zənginlik, dolğun məna və çalarlıq gətirir. Elə bir dil yoxdur ki, frazeoloji birləşmələrdən istifadə edilməsin. Bu birləşmələr dilin mənəvi-əxlaqi dəyərlərini, düşüncələrini və onları yaradan xalqın adətlərini qoruyub saxlayır.Çox vaxt bu birləşmələr fikrin düzgün çatdırılmasında həlledici rol oynayır. Hər bir dilin özünəməxsus frazeologiyası vardır. Müxtəlif dillərin frazeoloji vahidləri praktik yolla daha asan mənimsədilir. Ana dili ilə müqayisəli tədqiq ediləndə isə tərcümə prosesində xeyli məsələlər aydınlaşır, müxtəlif dillərin quruluşu, daxili məna imkanları, oxşar və fərqli cəhətləri üzə çıxır.

Frazeologiya problemləri öz aktuallığını bu gün də itirməyib. XX əsrin 60-cı illərində frazeoloji tədqiqatların yüksək zirvəyə çatmasını danmaq çətindir. Bu illərdə frazeoloji semantikanın ən mühüm məsələlərinə, frazeoloji vahidlərin srtuktur xüsusiyyətləri və funksionallaşma özəlliklərinə həsr edilən hər il konfranslar keçirilirdi. Moskva, Leninqrad, Rostov, Səmərqənd, Bakı, Voronej kimi şəhərlər artıq frazeoloji mərkəzlərlə çevrilir, məhz bu şəhərlərin universitet və pedaqoji institutlarında dünya dillərinin frazeologiyasını öyrənməyə yönələn elmi mərkəzlər yaradılır. Mütəmadi olaraq frazeoloqlar nəinki konfranslar zamanı görüşür və mühüm problemləri müzakirə edirlər, həm də dissertasiya müdafiələri, monoqrafiyaların müzakirələri qaynar mübahisələr meydanına çevrilir. Dünya dillərinin frazeologiyasının tədqiqində sovet alimləri prioritet xidmətlərə malikdirlər. Bu faktı çətin ki, danmaq olsun. V.V. Vinoqradov, M.T. Tağıyev, N.M. Şanski, N.N. Amosova, F.H. Hüseynov, V.P. Jukov, V.A. Arxanqelski, M.M. Kopılenko, V.N. Teliya, A.M. Meleroviç və digər alimlərin adları bütün dünyada tanınır. Ölkəmizdə

də dünya dillərinin frazeoloji lüğətləri hazırlanıb nəşr edilir, xüsusilə də ikidilli lüğətlər daha çox yayılmağa başlayır.

Ölkəmizdə frazeoloji fikrin inkişafı linqvonəzəri tədqiqatların bütövlükdə intensivləşləşməsinə güclü təkan verir, frazeoqrafiya sahəsinin yaranması və təkmilləşməsinə təsir göstərir.

Sonralar frazeoloji tədqiqatlar sahəsində müəyyən durğunluq müşahidə olunur. Buna baxmayaraq müəyyən səviyyə saxlanılır ki, bunu da akademik V.V. Vinoqradovun tədqiqatları ilə başlanan həmin güclü təkanın ətaləti hesab etmək olar.

Hal-hazırda koqnitiv problemlərin öyrənilməsi ilə əlaqədar frazeologiyaya maraq yenidən dirçəlir. Məlum olduğu kimi, koqnitiv dilçiliyin maraq dairəsini xalqın tarixi və mədəni təcrübəsinin, onun dünyagörüşünün özəllikləri, təbiət və cəmiyyət, heyvan və bitki aləmi hadisələrinə münasibətlərinin dildə əks olunması təşkil edir.

Hər bir problematika kimi, koqnitiv problematika da maraq dairəsini özü təyin edir. Əslində hər bir istiqamətin təşəkkülü ilk öncə elə onu maraqlandıran problemlər dairəsinin təyin edilməsidir. Maraqlara uyğun olaraq obyektin sərhədləri, dilin prioritet sahələri də təyin edilir. Koqnitiv dilçiliyin əsas məqsədi xalqın etnomədəni və tarixi-psixoloji təcrübəsinin tədqiqi olduğu üçün, koqnitivistlərin diqqət mərkəzində leksik semantika, frazeologiya, atalar sözləri və zərbi-məsəllər, ibrətli hekayələr, lətifələr, nağıllar və bütövlükdə milli folklor durur. Qeyd olunan dil və mədəni faktlar sırasında frazeoloji vahidlər xüsusi yer tutur.

İkinci nominasiya vahidi olan frazeoloji vahid milli mentaliteti təyin edən koqnitiv xüsusiyyətlərin cəmini nümayiş etdirməyə xidmət edir. Frazeoloji vahidlər xalqın tarixi və mədəniyyətini, onun psixologiyası və təfəkküründü bir neçə səviyyədə əks etdirir ki, onlardan da iki əsas olanı ayırd etmək lazımdır. Milli frazeologiya xalqın tarixi və mədəniyyəti ilə assosiasiya edilən realilərin adlarını özündə ehtiva edir. Məsələn, *бесструнная балалайка, лаптем щи хлебать, до Москвы не перевешать, ехать в Тулу со своим самоваром, тришкин кафтан, демьянова уха, как блины печь*və bir çox başqaları. Bu frazeologizmlərin *балалайка, щи, лапти, Москва, Тула, самовар, кафтан, Тришка, Демьян, уха, блины* kimi komponentləri bilavasitə rus milli mədəniyyətini ehtiva edir.

İkinci, ola bilsin ki, daha mühüm səviyyə, milli psixologiyanın əks edilməsi ilə bağlıdır. Məsələn, *гром не грянет, мужик не перекрестится* frazeologzimi, rus yazıçılarının qeyd etdiyi kimi, əsrlər boyu rus milli psixologiyasını adekvat əks etdirmişdir.

Frazeoloji vahidlər müxtəsər formada xalqın tarixinin daha dramatik hadisələrini əks etdirməyə qadirdilər. Məsələn, *как Мамай прошел, незваный гость хуже татарина, бит как швед под Полтавой* və buna

bənzər digər frazeologizmlər fon səviyyəsində onların daxilində mövcud olan informasiyanın açılmasına yönəlmişlər.

Beləliklə, koqnitivizm baxımından nəzərdən keçirilən frazeoloji vahidlər tədqiqatçılara böyük faktiki material təqdim edir ki, bu da nəinki dilin üslubi-semantik sisteminin xarakteri, həm də milli xarakter haqqında təsəvvür yaradır. Məhz buna görə linqvokoqnitiv tədqiqatların nəticələrindən psixoloqlar, xüsusilə, etnopsixoloqlar, mədəniyyətşünaslar və hətta filosoflar geniş istifadə edir.

Hamıya məlumdur ki, müqayisəli tədqiqatlar bir dilin öyrənilməsindən daha səmərəlidirlər. Tədqiq edilən hər bir dilin xüsusiyyətləri başqa dilin öyrənilməsi fonunda daha aydın görünür. Ona görə də bir dilin materialı əsasında aparılan tədqiqatlarda da çox zaman müqayisəyə müraciət edirlər.

İnsanın bu və ya digər hisslərini ifadə edən frazeoloji vahidlər bütün dillərdə xüsusi qrup təşkil edir. Bu cür frazeologizmlər həmin xalqın necə sevindiyi və kədərləndiyi haqda, bunların necə ifadə olunması və nə ilə əlaqəli olmaları barədə bizə məlumat verir. Koqnitiv dilçilik üçün bu cür frazeologizmlər qiymətsiz materialdır.

Akademik V.V. Vinoqradovun tədqiqatlarından sonra frazeologizmlər daha intensiv araşdırılmağa başlanır. Frazeoloji semantika məsələlərinə həsr edilmiş məqalələrində V.V. Vinoqradov frazeologiyanın ayrıca, müstəqil linqvistik elm sahəsi kimi əsasını qoyur. Qeyd olunan problemin dissertasiyada öyrənilmə dərəcəsindən söhbət gedərkən V.V. Vinoqradovun əsası qoyduğu bütöv frazeoloji diskursu nəzərə almaq lazımdır. Geniş nominasiyaya malik sözdənxaric törəmələrin məna və funksionallaşması xüsusiyyətlərinə bu və ya digər şəkildə dilçilik klassiklərinin əsərlərində toxunulmuşdur. Lakin bitkin və xüsusi tədqiqat aparılmamışdır. Frazeologiyada V.V. Vinoqradovun sələfləri arasında M.İ. Mixelsonun adını xüsusi qeyd etmək lazımdır. Onun «Толковый словарь иностранных слов, пословиц и поговорок» (4) əsəri frazeoloji vahidlərin toplanması və sistemləşdirilməsi sahəsində müstəsna rol oynamışdır. M.İ. Mixelsonun tərtib etdiyi lüğət müxtəlif, həm klassik, həm də müasir dillərin frazeologiyasını əhatə edən unikal material təşkil edir. Qeyd etmək lazımdır ki, M.İ. Mixelsonun əsərində də qarşılıqlı təhlil elementlərinə rast gəlmək olar.

Frazeoloji vahidlərin koqnitiv təhlili elementlərinə istər V.V. Vinoqradovun, istərsə də onun davamçılarının əsərlərində rast gəlinir. Lakin ötən dövrün dilçilərini frazeologiya ilk öncə struktur xüsusiyyətləri, sintaktik funksiyası, təşkil edilməsi özəllikləri baxımından maraqlandırırdı. Dillərin frazeoloji fondunun parlaqlığı və ifadəliliyi, mədəniyyət və tarixlə birbaşa əlaqəsi tədqiqatçıları frazeoloji vahidlərin etimologiyasına müraciət etməyə vadar edirdi. Amma bu cür etimoloji ekskurslar daxili formanın təhlili ilə kifayətlənirdi. Ümumiyyətlə, emosiyalar, o cümlədən də müsbət emosiyalar

ifadə edən frazeoloji vahidlər də istisna deyildi. Onlar da ənənəvi olaraq struktur, məna və cümlədə rolu baxımından öyrənilirdi.

Dilçilikdə koqnitiv yanaşmanın inkişafı ilə əlaqədar frazeoloji vahidlər daha çox milli təcrübənin "reprezentatorları" (ifadəçiləri), dil daşıyıcılarının mentalitetini xarakterizə edən dünya mənzərəsinin siqnalları kimi qiymətləndirilir (3, 24). Frazeologiyada bu istiqamət V.N. Teliya və onun tələbələri tərəfindən işlənməyə başlayır. Frazeologiyanın bu sahəsinin tanınmış mütəxəssislərindən Y.M. Vereşşaqin, V.A. Maslova, T.Z. Çerdantseva, V.V. Krasnıx, D.B. Qudkov və b. adlarını qeyd etmək olar. Mədəniyyətin frazeoloji vahidlər formasında ifadə olunması, dil daşıyıcılarının mədəniyyət fenomenlərinə qarşı refleksiyası, şüurun idarəolunması və dil daşıyıclarının ikinci nominasiya vahidləri, o cümlədən də, frazeoloji vahidlər baxmından davranış mexanizmləri tədqiqatçıların diqqət mərkəzində dururdu. Koqnitiv frazeologiyanın bu baxımdan kifayət qədər araşdırılmamış sahəsi kimi iki və daha çox dil materialları əsasında qarşılıqlı təhlilin aparılmamasını qeyd etmək olar.

Nitqə xüsusi rəngarənglik verən frazeologiya struktur xüsusiyyəti və ekspressiv semantikası aspektində öyrənilirdi. Bu real aləmin predmet və hadisələrinin sözlə müqayisədə daha dəqiq ifadə olunmasına xidmət edən sözdənxaric ekspressiv vahidlərin yazılı və şifahi nitq axınında qanunauyğun ayırdetmə ənənəsi idi. Strukturalizmin formalaşması ilə dilin frazeoloji fondu əsasən dilin struktur vahidi kimi, bir neçə işarəedənə bənzər və işarəolunanun bütöv olması səbəbindən söz ilə əlaqələndirilən işarə kimi öyrənilməyə başlayır. Strukturalizm üçün komponentləri ilkin denotativ meylliliyi qoruyan və komponentləri deaktualizasiyaya uğrayan sabit sintaqmların dəqiq ayırd olunmaması xarakterik idi. Frazeoloji vahidlərin təbiəti və mahiyyətinə bu cür yanaşma hələ uzun müddət belə qaldı və hətta V.V. Vinoqradovun davamçılarının konsepsiyalarını da xarakterizə edirdi. Bu gün də dil vahidlərinin bu cür qarışdırılmalarına tez-tez rast gəlmək olar. Strukturalizmə cavab olaraq müasir antroposentrik paradiqma formalaşmağa başlayır. Antroposentrik paradiqma insana müraciət etməyi bəyan edən koqnitiv cərəyanı da əhatə edir. Dil insan ruhunun ən vacib, prinsipcə ən başlıca xəzinəsi kimi öyərnilməyə başlayır. Qeyd olunur ki, xalq, onun mənəvi mədəniyyəti, çoxəsrli təcrübəsi haqqında bizim bilgilər dilə söykənir, dildə təsvir olunurlar. Etnik və milli mentallıq haqqında bizim əlimizdə dildən başqa heç bir tutarlı və səhih dəlillər yoxdur.

XX əsrin 60-cı illərində sovet frazeologiya elmində görkəmli Azərbaycan dilçisi M.T. Tağıyevin adı ilə bağlı olan daha bir cərəyan formalaşmağa başlayır. Azərbaycan aliminin yaratdığı nəzəriyyə "*frazeoloji əhatə nəzəriyyəsi*" adlanırdı. Frazeoloji əhatə konsepsiyası hamıya çox yaxşı tanışdır və bunun üzərində xüsusi dayanmağa, düşünürük ki, ehtiyac yoxdur.

Ancaq bir şeyi qeyd etmək lazımdır ki, onun yaranması tədqiqat maraqlarının istiqamətlərinin qarışıqlığına işarə idi. Əgər frazeoloqları əvvəllər frazeoloji vahidlərin semasioloji məsələləri, motivasiya, daxili formanın aktual məna ilə əlaqələri, həmçinin frazeoloji vahidin məzmun quruluşunda komponentlər arasında münasibətlər maraqlandırırdısa, M.T. Tağıyev tədqiqatçıların diqqətini frazeoloji vahidin mütləq əhatəsinə cəlb etdi. O, xüsusi əhatə ilə xarakterizə olunan birləşmələri frazeoloji vahid hesab etməyi təklif etdi. Xüsusi əhatə və ya frazeologizmlərin şəxsi struktur əlaqələri dedikdə, tədqiqatçı frazeologizmin ayrı-ayrı komponentlərinə yox, bütövlükdə frazeologizmə aidiyyatı olan dil vahidlərini nəzərdə tuturdu (5, 43). M.T. Tağıyev sübut etdi ki, əhatənin quruluşu əslində frazeologizmin quruluşunu əks etdirir. Xüsusilə qeyd edək ki, əhatə nəzəriyyəsi tamamilə oxşar olan frazeologizmləri ayırd etməyə imkan verir, deməli, bu nəzəriyyə frazeologiyada bütövlük və eyniyyət problemini də həll edir.

M.T. Tağıyevin frazeoloji konsepsiyası sovet məkanında, o cümlədən də Azərbaycanda, frazeoloji fikrin inkişafına ciddi təsir göstərdi. Əhatə metodu Bakı frazeologiya məktəbinin təmsilçilərinin əsas tədqiqat alətinə çevrildi.

Sovet dövrü Vinoqradov məktəbi üçün qeyri-ənənəvi olan yanaşma sistemi M.T. Tağıyevin davamçısı olan F.H. Hüseynov tərəfindən inkişaf etdirlir. Çox böyük faktiki material əsasında F.H. Hüseynov rus frazeologiyası tarixində mövcud olan diaxronik proseslərin məğzini açmağa müəssər olur (1, 35).

M.T. Tağıyevin yetirməsi olan A.M. Məmmədov frazeoloji vahidləri növə və onun əhatəsinin qarşılıqlı əlaqəsi nöqteyi-nəzərindən tədqiq edir. Aydın olur ki, frazeologizmin növəsi, frazeologizmin özü və onun əhatəsi bir-birlərini qarşılıqlı determinasiya edirlər. A.M. Məmmədovun namizədlik dissertasiyası ümumi mənası hərəkətin keyfiyyət xarakteristikasını ifadə edən frazeoloji vahidlərin növəsi ilə əhatəsinin qarşılıqlı əlaqəsinə həsr edilmişdir (2, 18). Aparılmış təhlillərin nəticələri feli frazeologizmlərin zərf frazeologizmlərinə keçid almasının və, əksinə, zərf frazeologizmlərinin feli frazeologizmlərə keçidinin qanunauyğun olmasını təyin etməyə imkan verdi. A.M. Məmmədov tərəfindən toplanmış və təhlil edilmiş faktlar F.H. Hüseynovun "Rus frazeologiyası" (1) monoqrafiyasının bir çox müddəalarını isbat etdi. Bütövlükdə, Bakı frazeologiya məktəbinin təmsilçilərinin diqqəti frazeoloji konfiqurasiyanın struktur xüsusiyyətlərində cəmləşmişdi.

Apardığımız araşdırmalar ilkin olaraq bəzi qənaətlərə gəlməyə imkan verir. Frazeoloji nəzəriyyə XX əsrdə daha gərgin inkişaf etməyə başlayır. Əslində F. De Sossür və Ş. Ballinin başladığı axtarışları davam edən akademik V.V. Vinoqradovun əsərlərindən sonra o xüsusi statusa malik olur. Özünün maksimal və son dərəcə geniş inkişafını bu cərəyan, tədqiqat

məntiqi baxımından, akademik N.M. Şanskinin əsərlərində tapır. Müəyyən üslubda, məsələn, siyasi və ya publisistik üslubda sabitliklə xarakterizə edilən adi söz birləşmələri N.M. Şanski tərəfindən frazeoloji vahid kimi nəzərdən keçirilir.

Ədəbiyyat

1. Гусейнов Ф.Г. Русская фразеология. Баку: Издание АГУ, 1977.
2. Мамедов А.М. Взаимодействие окружения и ядра наречных фразеологизмов с общим значением качественной характеристики действия в современном русском языке. Дисс. канд. … филол.наук. Баку, 1987.
3. Маслова В. А. Когнитивная лингвистика. Минск: Тетра Системс, 2005, s. 24.
4. Михельсон М. *Толковый словарь иностранных слов пословиц* и *поговор**ок.** Москва, 2015.*
5. Тагиев М.Т. Глагольная фразеология современного русского языка. Баку: Маариф, 1966, s. 40-55.

N.Isayeva

Theory of phraseology and cognitivism

Summary

Phraseological perspective does not lose its relevance today. Phraseology begins intensively studied after works of academician Vinogradov B.B.. Earlier phraseology have been studied in the aspect of structural peculiarities and expressive semantics, speech giving a special brightnees. With the formation of structuralism phraseological fund of language. Currently, the interest in phraseology reborn because of updating the cognitive perspective. Phraseological units,considered from the angle of cognitivism, has provided scholars a wealth of factual material. It gives an idea not only about the nature of semantic - stylistic language system, but also about national character.

The article attempts to reconcile traditional theory of phraseology with the objectives of modern cognitive approach in linguistics. Cognitive linguistics is an extremely broad area of research she is interested in models of information processing by the human brain, one way or another represented in the language.

Н.Исаева

Теория фразеологии и когнитивизм
Резюме

Фразеологическая проблематика не утрачивает своей актуальности по сей день.
Фразеология начинает интенсивно изучаться после работ академика В.В.Виноградова.

Ранее фразеология изучалась в аспекте структурного своеобразия и экспрессивной семантики, придающей речи особую яркость. С формированием структурализма фразеологический фонд языка начинает изучаться в основном как структурная единица языка. В настоящее время интерес к фразеологии возрождается связи с актуализацией когнитивной проблематики. Фразеологические единицы, рассматриваемые под углом когнитивизма, предоставляют в распоряжение ученых огромный фактический материал. Он дает представление не только о характере семантико-стилистической системы языка, но и о национальном характере.

В статье делается попытка увязать традиционную теорию фразеологии с целями современного когнитивного подхода в языкознании. Когнитивная лингвистика представляет собой чрезвычайно широкую область исследований. Ее интересуют модели обработки информации человеческим мозгом, так или иначе представленные в языке.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏBİNƏ İSGƏNDƏROVA
Filologiya üzrə fəlsəfə doktoru
ADPU
sabina_adu@yahoo.com

AKTUAL ÜZVLƏNMƏNİN MƏTNYARATMA İMKANLARI

Açar sözlər: mətn, cümlə, aktual üzvlənmə , anaforik, kataforik, ünsiyyət
Key words: text, sentence, actual segmentation, anaphoric, cataphoric, communication
Ключевые слова: текст, предложения, актуальное членение, анафорический, катафорический, коммуникация

Aktual üzvlənmə və mətn məsələsi sintaksisin ən mühüm problemlərindəndir.

"Aktual üzvlənmə"termini "aktualnim" (məna, fikir) və "üzvlənmə" sözlərinin ifadə etdiyi anlayışlardan ibarətdir.Bu linqvistik termin ilk dəfə çex dilçisi V.Matezius tərəfindən işlədilmişdir.

Məlumdur ki, dil yaruslar sistemidir və bu sistemin yaruslarından biri də suparsintaktik (aktual) təbəqədir.Aktual üzvlənmə bu təbəqəyə daxildir.-Bu mənada "sistem" və "aktual üzvlənmə" anlayışları bir-birinə çox yaxındır.Aktual üzvlənmə dilin məna əlaqə və münasibətlərini nizama salır, onu tənzim edir. Aktual üzvlənmə və mətn dilçiliyi ilə bağlı araşdırmalardan bəlli olur ki, zəncirvari daxili ardıcılıqla açıqlanan, müvafiq qəlibdə nizamlanan, xüsusi avaz və ahənglə bir-birinə bağlanan cümlələrdən ibarət mürəkkəb sintaktik parçalar mətn adlanır(Qalpern,1958, Qurbanov 1986).Mətnə daxil olan cümlələr qrup şəkilində vahid bir bütövə çevrilir.Mətn ayrı-ayrı cümlələrin mexaniki yığını, toplusu olmayıb, yeni keyfiyyət və kəmiyyət daxilində meydana çıxan qanunauyğunluğun yekunudur.Mətnin semantikası bu cümlələrin semantikasından daha genişdir.Çünki mətn bir mənzərəni, əhvalatı, mətləbi tam ifadə edir və onun tərkibindəki cümlələr ayrı-ayrı hissələr kimi tamı yaradır(Vəliyev, 1981).Aktual üzvlənmə və mətn dilçiliyi ilə əlaqədar araşdırmalarda belə bir fikir də ardıcıl olaraq müdafiə olunur ki, dildə səviyyə iyerarxiyasının ən yüksək və müstəqil vahidi cümlə deyil, mətndir(Dressler, 1970).

Mətn dedikdə adətən, müəyyən yolla nizama salınmış, kommunikativ vəzifənin vahidliyi ilə birləşmiş çümlələr çoxluğu başa düşülür."Mətn" terminin özü də birmənalı deyildir.Bu anlayışa bir cümləni və sadə söyləmdən bütöv romanadək cümlələr qrupunu daxil edirlər.A. İ. Beşek mətnə məqsədin

ümumiliyilə birləşən və sintaktik-semantik bütöv yaradan cümlələrin zəncirvari ardıcıllığı kimi baxır (Beşek, 1947).

Alman dlçisi K.Boost frazadan artıq vahid ideyasını inkişaf etdirdi.”Cümlə birliyi”anlayışını ortaya atan müəllif cümlə əlaqələrinin struktur formalaşması üçün ən mühüm vasitələri (leksik təkrarlar,artiklın işlənməsi,əvəzliklər,kontekstual şərtlənən ellipsisi, fel formalarının işlənməsi,qoşma,bağlayıcılar, sadalama,sual əvəzlikləri)gostərdi.Bu vasitələr mətnin formalaşmasında mühüm rol oynayır. Mövcud tədqiqatlarda irəli sürülən əsas fikirlərdən biri də budur ki, nitqin bitmiş söyləmlə ifadə olunan əsas vahidi cümlə deyil, mətndir; cümlə- söyləm yalnız fərdi hadisədir. Mətn sintaktik səviyyənin mühüm vahididir. Mətnin formalaşma istiqamətindən bəhs edən tədqiqatçılar qeyd edirlər ki, biz ayrı-ayrı sözlərlə, cümlələrlə yox, mətnlərlə danışırıq (Weinrich, 1966).Əgər biz danışırıqsa, bu ancaq mətnlərlə mümkün olur (Hartmann, 1968). Dil yalnız mətnlər formasında və mətn funksiyasında insanlar arasında ünsiyyət vasitəsidir (Halliday,1970). Dildə əsas vahid söz və cümlə deyil, mətndir(Hartmann, 1971). Beləliklə, zəmanəmizdə hamı tərəfindən qəbul edilən əsas fikir odur ki, dilin ən yüksək və daha müstəqil vahidi cümlə deyil, mətndir.

“Mətn” anlayışının mürəkkəbliyi ondadır ki, bu termin həddən artıq çoxmənalıdır.Dilçilikdə isə bu termin iki mənada işlədilir: “mətn” dedikdə bir tərəfdən danışanın niyyətinə görə bitmiş fikir daşıyan bir və ya bir neçə cümlədən ibarət istənilən söyləm, digər tərəfdən isə hekayə, povest, roman, qəzet və jurnal məqaləsi, elmi monaqrafiya, müxtəlif növlü sənədlər və s. kimi bitmiş nitq məhsulları başa düşülür.

İ.R.Qalpern yazır: “Mətn- leksik, qrammatik və məntiqi əlaqələrin müxtəlif növləri ilə birləşən, müəyyən modal xarakterə, praqmatik qurmaya malik və buna uyğun qurulmuş bir sıra söyləmlərdən ibarət yazılı sənəd şəklində ifadə olunmuş məlumatdır(Qalpern, 1974).

“Mətn, hər şeydən əvvəl, ünsiyyət elementidir”(Kolğşanski, 1978)

Tədqiqatçılar mətnin müəyyənləşdirilməsində onun komponentlərinin qarşılıqlı bağlılığını ön plana çəkirlər və qeyd edirlər ki, mətn bir-birilə həm bağlayıcı vasitələrlə, həm də bağlayıcısız əlaqələnən istənilən miqdarda cümlələrin qaydaya düşmüş ardıcıllığıdır(Wintermann, 1972).

Lakin, dilçilik ədəbiyyatında belə bir fikir də vardır ki, mətnin tərkibində cümlələrin sintaktik cəhətdən qarşılıqlı bağlılığı səlis və düzgün mətnin əmələ gəlməsi üçün kifayət deyildir.Bu səbəbdən də bəzi tədqiqatçılar mətnin semantik bağlılığını onun əsas xarakterik cəhəti hesab edirlər. K.Vəliyev mətnin struktur-semantik təşkilində təkrarların (kontakt və distant), leksik, morfoloji, monofoloji,sintaktik, ümumi simmetrik və assimetrik vasitələrin mühüm rolunu göstərir(Veliyev, 1990).

P.Hartman mətnin aktual üzvlənməyə görə qurulmasının əsasında anaforik və kataforik münasibətlər dayandığını göstərir.Müəllifin konsepsiyasına görə bu cür münasibətlər(əlaqələr) mətndüzəltmə vəzifəsini yerinə yetirir: mətn əvvəl adı çəkilmiş semantemlərin düzgün, informativ, dolğun ardıcıllığıdır, belə ki, əksər hallarda sonra gələn semantemlər artıq adı çəkilmiş semantemlərlə əlaqələnir(anaforik əlaqələr),yaxud əksinə; bu da cümlədə əlaqə vasitəsi kimi çıxış edir(kataforik əlaqələr) (Hartman, 1968).

Q.Veynrix mətnin komponentlərinin qarşılıqlı əlaqəsini, semantik qarşdurmanı ön plana çəkir və qeyd edir ki, mətn qeyd-şərtsiz elə bir bütövdür ki, onda hər şey qarşılıqlı şəkildə bağlıdır.Cümlələr özünün məzmununa uyğun elə qaydada bir-birinin arxasınca gəlir ki, hər bir dərk edilmiş cümlə sonra gələnin tam başa düşülməsinə kömək edir.Digər tərəfdən, hər bir sonra gələn (əgər o aydındırsa), öz növbəsində, özündən əvvəl gələn cümlənin başa düşülməsinə təsir edir.Belə ki, biz onun üzərinə qayıdaraq onu tam başa düşürük (Weinrich, 1964). Lakin mətnin komponentlərinin qarşılıqlı əlaqəsi dilçilik ədəbiyyatında həmişə cümlələr arasında yalnız sintaktik əlaqə kimi şərh edilmir. Mətni cümlələrin koherent ardıcıllığı kimi müəyyənləşdirərək H. İzenberq qurulmuş mətnin əsas şərti olaraq cümlələr arasında mövcud olan yanaşmanın səbəbini diaqnostik interpretasiyanı və dəqiqləşdirməni qəbul edir.Eyni zamanda, müəllif izah edir ki, mətnin düzəlməsinin belə üsullarının sayı məhduddur.Mətndəki cümlələr sonsuz müxtəlif üsullarla bağlana bilməz, ehtimal ki, müəyyən son mexanizm vardır ki, biz onu "qrammatik mexanizm" adlandırırıq və bu da formal və semantik əlamətlərə malik olan qeyri-məhdud miqdarda mətn düzəldir(İsenberq, 1970). Bir sıra araşdırmalarda qeyd edilir ki, mətn yalnız kommunikativ parametrlərinə görə dil fraqmenti hesab oluna bilər(Kolğşanskiy, 1974).Ona görə də mətnin müəyyənləşdirilməsində ön plana kommunikativ amillər irəli çəkilir.Həm də hesab olunur ki, mətn dil vasitələrilə deyil, eyni bir predmet üzərində kommunikativ toplanma ilə öz quruluşunu müəyyənləşdirir.U.Engel mətni kommunikativ funksiyalı söyləmlərin çoxluğu kimi başa düşür.(Engel,1982). Aktual üzvlənmənin mətnyaratma imkanlarına mətnin rabitəliyi də daxildir.Mətnlə bağlı bu məsələ linqvistikada nisbətən az öyrənilmişdir.Ümumiyyətlə, rabitə anlayışı predmetlərin, proseslərin, real hadisələrin, həmçinin təfəkkür əlaqələrinin ümumiləşdirilmiş nəticəsidir. Aktual üzvlənmənin mətnyaratma imkanlarına mətnin əlaqəliliyi də daxildir.Mövcud araşdırmalarda mətnin təşkilinin prinsipləri axtarılarkən onun əlaqəliyi də ön plana çəkilmişdir.Bu, təbiidir. Çünki "mətnin semantik səviyyəsi, cümlələrin təsadüfi yığınından fərqli olaraq onun əlaqəliliyindən ibarətdir"(Скребнев, 1974).

Müasir dilçilikdə aktual üzvlənmə və mətnin əlaqəliliyi məsələsinə üç cür yanaşma mövcuddur: sintaktik, semantik və qrammatik.İlkin yanaşma K. Hasanın A.M.Roçnyakın, M.F.Tolstopyatovun və başqalarının əsərlərində əks olunmuşdur.A. Harverq mətnin əlaqəliliyi dedikdə, onun bağlayıcı və

önlüklərlə dolğunluğunu başa düşür. A. Haqverqə görə, əlaqəlilik cümlələrin sintakik terminlərlə müəyyən olunan dil vahidləri və onları əvəz edənlərin substitusion zənciridir.A.Harverq əlaqəli mətni və onun əmələ gəlməsini təhlil edərkən anaforik əvəzliklərin rolunu fərqləndirir.Onun fikrincə, substitusiya həmçinin müəyyən artikl ilə həyata keçirilə bilər.V.Dressler aktual üzvlənmə və mətnin formalaşması imkanlarından bəhs edərkən göstərir ki, əlaqə vasitələrinin konnektorları cümlə adlanır.Buraya anaforik və kataforik substitusiyalar, bağlayıcılar,hissəciklər,xəbərlərin tərz, zaman, modal strukturu, həmçinin söz sırası daxildir. Müasir dilçilkdə aktual üzvlənmə nəticəsində mətnin düzəlməsində, onun bağlanmasında koqeziya terminindən istifadə olunur.Koqeziya-struktur münasibət deyildir, semantik anlayışdır, yəni onun əsası cümlələr arasında münasibətdir.Koqeziya mətnin təşkilini müəyyənləşdirən əsas faktorlardan biridir.

Koqeziya dil sisteminin bir hissəsidir.Koqeziyanın mənbəyi, potensialı həmçinin referensiya, ellipsis və s. kimi linqvistik hadisələrdir.Bu hadisələr sistem kimi dilin özünə xasdır.Koqeziya cümlənin sərhəddi ilə heç bir ümumiliyə malik deyildir.Koqeziya cümlələrdə, cümlələr arasında münasibətlərdə rast gəlinir. M.Halidey və R.Hasanın bu sahədəki işləri koqeziya vasitələrinin formalaşdırılması və sistemləşdirilməsində maraqlı bir cəhd hesab olunur.Lakin bu işlərdə çox şey maraqlı planda verilmiş, mətnin deyil, cümlənin strukturu nəzərə alınmışdır.Belə ki, müəlliflər problemin əsas aspektlərinə toxuna bilməmişlər.

İ.R.Qalpernin müəyyən etdiyinə görə, koqeziya- kontinumu, yəni mətniqi ardıcıllığı, ayrı-ayrı məlumatların, faktların, hərəkətlərin və s. qarşılıqlı məkan asıllığını təmin edən xüsusi əlaqə növüdür. Tema və rema vacib kommunikativ təşkiledicilərdir.Kommunikasiya prosesinin mənası bu kommunikativ cütün münasibətlərinin dinamikasından ibarətdir.Bu halda mətnə tema və remanın qeyri düzxətli mürəkkəb hərəkəti kimi baxılır.Həm də temanın dəyişməsi məkanın eninə, remanın dəyişməsi ilə məkanın dərinliyə hərəkətini təmin edir (Маровa, 1974).

Aktual üzvlənmə tədqiqat metodur.Bu metodla aparılan təhlil frazadan artıq vahidlərin fikri (məna) üzvlənməsini, onun kommunikativ mahiyyətini, onların təbiətini başa düşməyə imkan verir.Bundan başqa, o, nitq aktında xətti sintaktik münasibətlər haqqında təsəvvür yaradır.Aktual üzvlənmə metodu ilə mətnin təhlili zamanı mətn ayrı-ayrı seqmentlərə (cümlələrə) bölünür, onların hər birində aktual üzvlər üzə çıxarılır.

Mətnin təkilndə temanın rolunu N.İ.Serkova belə göstərir: sonra gələn elə bir cümlə yoxdur ki, onda əvvəlki cümlənin elementi, yaxud elementləri bilavasitə iştirak etməsin.Bütün mətn “tematik zəncir” kimi təsəvvür olunur, bu da frazadan yüksək vahidə temanın inkişafını bir-birilə bağlamasını,

onların qarşılıqlı əlaqəsini və iyerarxiyasını, mətnin hissəsinin bütöv mətnə münasibətini əks etdirir.

Dediyimiz kimi, bu munasibətləri F.Daneş "tematik proqressiya" adlandırır.Tematik proqressiya mətnin təşkilinin özəyi hesab olunur.

Mətnin bağlılığı ilə əlaqədar olaraq aşağıdakıları da qeyd etmək lazımdır:

- Mətnin özü, yaxud onun temalar vasitəsilə birləşən strukturu üç hissədən (giriş, mətnin əsas hissəsi-korpusu, nəticə) ibarətdir.
- Mətnin komponenləri arasında bütöv cümlələr vasitəsilə ifadə olunan məna əlaqələri mövcuddur.
- Bütov mətn çərçivəsində felin zaman formaları şəklində ifadə olunan qrammatik bağlılıq vardır.
- Mətnin komponentləri arasında məntiqi bağlılıq vasitələri mövcuddur ki, bunlara da nəticəlilik, irəli gəlmə, presuppozisiya və s.aiddir.
- Mətnin intonasiya şəkli, mətn anlaşılmasında mühüm göstəricidir.

Baglılığın sadalanan bütöv növləri bir-birini qarşılıqlı şəkildə tamamlayır, mətni təşkil edir və onun məzmunu üçün müəyyən çərçivə yaradır.- Bağlılıq mətnin əsas əlamətidir, məhz bağlılıq əsasında cümlələrin sadə ardıcıllığı mətnə çevrilir.Bağlılığın dərəcəsi yoxdur: o ya vardır, ya da yoxdur.Digər tərəfdən, o, birölçülü və çoxölçülüdür, yəni iki qonşu cümlələrdə müəyyənləşə bilər, yaxud bir neçə cümlə ilə. Bağlılq mətnin ayrılmaz əlamətidir. Bağlı olmayan mətnlər mövcud deyildir,bağlılığın itirilməsi mətni dağıdır, onu yox edir.Mətnin bağlılığı bir neçə faktorun qarşılıqlı hərəkətinin nəticəsidir. Bu, ən əvvəl, həqiqi hadisələrin və onların inkişaf dinamikasının bərabərliyini əks etdirir, sonra bu, leksik-semantik və qrammatik dil vasitələrinin (onların funksional üslubi yükləri nəzərə alınmaqla) xüsusi təşkilidir.Bağlılıq mətnin yaranmasına xidmət edən kompozision struktur, ardıcıllıq, hissələrin mütanisibliyidir,nəhayət,mətnin özü, onun mənasıdır.- Bütün bu sadalanan faktorlar bu bütövdə ahəngdar birləşərək mətnin bağlılığını təmin edir(Бухбиндер,Розанов,1976).

Aktual üzvlənmənin mətnəməlgətirmə ilə bağlı tətqiqi bir sıra mülahizələrə görə cəlbedicidir.

Birincisi, o həm mətnin konkret kəsiyində, həm də onun bütün təşkili ərzində məlum olanın və yeninin komponentlərinin vəziyyətini görməyə imkan verər;

İkincisi, o, bütöv və dinamik fenomen olan mətnin digər linqvistik əlamətlərini aydınlaşdıra bilər;

Üçüncüsü, xüsusiləşmə, parselyasiya, yarımçıq cümlələr kimi bəzi dil hadisələrinin imkanlarını dəqiqləşdirə bilər;

Dördüncüsü, əsərlərin müəllif və janr xüsusiyyətlərini, həmçinin müxtəlif funksional üslubların özünəməxsus xüsusiyyətlərini öyrənməyə imkan verər və s.

Azərbaycan və İngilis dilləri başqa sistemli dillər olsalar da, həmin dillərin mətnlərinin yaranmasında cümlə üzvlərinin aktuallaşması eyni dərəcədə mühüm əhəmiyyət kəsb edir.Aktuallaşma söz sırası, formal qrammatik vasitələr və prosodik elementlərlə bağlı olduğundan bu əsasda əmələ gələn mətnləri aşağıdakı qruplara ayıra bilərik:

1. Söz sırasının dəyişdirilməsi yolu ilə (inversiya) əmələ gələn mətnlər;
2. Formal-qrammatik vasitələrdən istifadə etməklə formalaşan mətnlər;
3. Prosodik aktuallaşma yolu ilə əmələ gələn mətnlər;

Aqlütinativ dillərdə, o cümlədən Azərbaycan dilində söz sırası və intonaiya aktual üzvlənmənin əsas ifadə vasitələri kimi çıxış edir(Vəliyev, 1985).

Söz sırasının dəyişdirilməsi bilavasitə mətnlə bağlı şəkildə özünü göstərir.Cümlə üzvləri ümumi konteksdən, kommunikasiyadan və ekspressiv ifadə funksiyasından asılı olaraq yerlərini dəyişirlər.Aktuallıqla bağlı olaraq, əksinə sıra, yəni inversiya hadisəsi meydana çıxır.Cümlə üzvləri inversiya zamanı əks sıra ilə düzülür:Yer və zaman determinantlarının, xəbər və mübtəda, təyinlə təyinolunma sırası cümlə çərçivəsindən kənara çıxdığından yerləri sərbəst olur.Beləliklə, mübtəda və determinant öz yerini dəyişir, cünki onlar məntiqi vurğu ilə müşayiət olunur(Шевякова, 1976).

Məlumdur ki, hər bir dilin qurluşundan asılı olaraq özünəməxsus vurğusu və söz sırası mövcuddur.

Aktuallaşma zamanı mətndə olan üzvlərdən biri mühüm informasiyanın o dəqiqə ötürə bilmir.Yeni məlumat mətnin strukturundakı müəyyən pozisiya əsasında verilir.Cümlə sırasında invariantlıq meydana gəlir.İlkin quruluşdan-variantlıqdan fəqlənən mətnin invariantlığı subyektiv xarakter daşıyır.Mətnin çıxış nöqtəsi invariantlığa doğru inkişaf edir.Adətən ilkin çıxış pozisiyası mübtədadır, sonuncu pozisiya isə xəbərdir.Bu cür söz sırasında əvvəl tema, sonra rema gəlir.Aktuallaşma mətndə postpozisiyada və prepozisiyada müşahidə olunur (Abdullayev, 1983).

Bu zaman invariantlar yaranır, başlanğıc cümlədən törəmə cümlələr-aktual tranformasiyalar ayrılır (Джаныбеков,1992). Başlanğıc cümlə normal sıralanır.Törəmə cümlələrdə isə normal sıra pozulur, məntiqi vurğu ilə müşayiət olunan aktual transformasiyalar meydana çıxır.

Mətnin formalaşmasında ayrı-ayrı cümlə üzvlərinin aktuallaşması əsas rol oynayır.Həm Azərbaycan həm də İngilis dillərində faktiki materiallar göstərir ki, cümlənin müxtəlif üzvləri nitq prosesində aktuallaşır,inversiya

olunur.İnversiya isə, əsasən, intonasiya ilə müşayiət olunur.Aktual üzvlənmə mətni təşkil edən cümlə-söyləmlərin informasiya vermə aktıdır.

Cümlə üzvlərinin- mübtədanın, xəbərin, tamamlığın, təyinin və zərfliyin aktuallaşması yolu ilə müvafiq mətnlər formalaşır.Həmin mətnlərdə cümlələrin koqerent ardıcıllığı, zəncirvari əlaqəsi gözlənilir.Mətnlərdə güclü və zəif aktuallaşma müşahidə olunur.

Söz sırasının inversiyası nəticəsində əmələ gələn aktuallaşma müfaviq mikromətnlərin düzəlməsində semantik, paradiqmatik, sintaqmatik münasibətləri təmin edir, bütövlükdə mətnin komponentlərini bir-birinə bağlayır.

Mətnyaratmada intonasiya və söz sırasından əlavə, bir sıra formal-qrammatik(morfoloji) vasitələrin, elementlərin də mühüm rolu vardır.-Məlumdur ki, mətn ayrı-ayrı cümlələrin təsadüfi yığınından ibarət deyildir.Burada cümlələr bir-birilə səbəb, nəticə, qarşılaşdırma, müqayisə, zaman və s. məna münasibətlərində olurlar.Mətndəki cümlələr müəyyən məntiqi ardıcıllıqla,qanunauyğun şəkildə sıralanır.Mətndə olan cümlələrin biri digəri üçün şərt, başqa birisi digərinin nəticəsi, davamı və s. olur.Mətnin cümlələri arasında bağlılıq qrammatik və struktur vasitələrlə formalaşır.Həmin cümlələr semantik-struktur, həmçinin qrammatik cəhətdən bir-birilə əlaqədardır.Əlaqəli-bağlı nitq müxtəlif vasitələrlə bağlanmış zəncirə oxşayır.Həmin zəncir biri digərindən asılı olan fikirlərin vəhdətidir.Mətndə olan zəncirvari fikirlərin ardıcıl inkişafında formal-qrammatik elementlər, vasitələr mühüm əhəmiyyət kəsb edir.

Mətndə aktual üzvlənmənin komponentlərini əlaqələndirən vasitələr öz imkanlarına görə müxtəlifdir.Bunlar qrammatik və leksik elementlərdən, sintaktik vasitələrdən, xüsusi növ modal sözlərdən, əvəzliklərdən, ədatlardan və digər vasitələrdən ibarətdir.Bu elementlər mətnin sərhədlərinin müəyyənləşdirilməsində də mühüm əhəmiyyətə malikdir.

Mətndüzəldən formal-qrammatik faktorlar cümlənin tərkibində aktuallaşdırma vasitəsi kimi çıxış edir.Həmin faktorlardan müxtəlif sistemli dillərin müvafiq mətnlərinin düzəlməsində müvəffəqiyyətlə istifadə edilir.Məsələn, Azərbaycan dilində da, də, belə, lap, ancaq və s. ədatlar, özü, özü də qayıdış əvəzliyi, yalnız, fəqət, təkcə köməkçi sözləri, qədər, kimi, qoşmaları,əlbəttə modal sözü (Abdullayev, 1983), İngilis dilində that, this, even, only leksik və qrammatik göstəriciləri, rus dilində toje, sam, daje elementləri mətnlərin düzəlməsində aktualizator kimi fəaliyyət göstərir.-Aktualizatorlar mətni təşkil edən cümlələrdə bəzən prepozisiyada, bəzən də postpozisiyada işlənir, aktuallaşdırmanı əmələ gətirir.

Köməkçi nitq hissələrindən olan bağlayıcılar, ədatlar,qoşmalar, modal sözlər mətnin komponentləri arasında formal-qrammatik elementlər kimi

çıxış edir, mətni məna cəhətdən açılmasında fəaliyyət göstərir, başqa sözlə əlaqəli mətnlərin düzəlməsində bilavasitə iştirak edir.

Ədat və modal sözlərin nitqin subyektiv tutumunu qabarıqlaşdırmada rolu az deyildir, bəziləri tema və remaya, bir qrupu da bütövlükdə söyləmə aid olub məna əhəmiyyətinin aydınlaşdırılmasında vasitə olur.Modal sözlər nəinki özündən sonra gələn bir sözə və ya söz birləşməsinə, həmçinin bütün cümlənin intonativ strukturuna aksentli təsir edə bilir.

Mətn komponentləri kəmiyyətcə daha çox və avtonom olduğu üçün onların məna münasibətlərinin bağlayıcılarla aydınlaşdırılmasına daha çox ehtiyac duyulur.Mətni düzəldən söyləmlərin hər biri semantik-qrammatik münasibətlər əsasında kontakda olduğu cümlə ilə əlaqəyə girir.Komponentlərin daha geniş informasiya mənbəyi kimi qruplaşan qütblərini bağlamaqda isə bağlayıcıların rolu xüsusilə böyükdür.

Mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra başqa vasitələr də istifadə edilir.Bu vasitələr arasında əsas nitq hissləri mühüm yer tutur.Doğrudur, mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha mühüm rol oynayır, ancaq mətnin elementləri olan ayrı-ayrı müstəqil cümlələrin sintaktik tam daxilində birləşib əlaqələnməsində onlar yeganə vasitə ola bilmir.Bunun üçün müxtəlif morfoloji göstəricilərdən, bir sıra nitq hissələrindən, həmçinin sintaktik elementlərdən istifadə etmək lazımdır.Müstəqil nitq hissələrində əvəzlik aktuallaşaraq müvafiq mətnlərin düzəlməsində mühüm rol oynayır.Azərbaycan dilçiliyində əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu Ə. Xəlilovun ,K. M. Abdullayevin əsərlərində göstərilmişdir.”Ozü” qayıdış əvəzliyi əlaqəli mətnlərin düzəldilməsində daha mütəhərikkdir.Bu əvəzlik mətndə subyektlə birlikdə işlənərək, subyekti daha da konkretləşdirir və onunla birlikdə cümlənin mürəkkəb üzvü olur.”Ozü”əvəzliyi muasir Azərbaycan dilində də bağlayıcı ilə birləşərək mətndə - onu təşkil edən cümlələr arasında aktualizator kimi çıxış edir. Əlaqəli mətn müxtəlif elementlərlə bağlanmış zəncirə oxşayır.Əlaqəli mətn təkcə sözlərin cümlə daxilində birləşməsi ilə məhdudlaşmır, ayrı-ayrı cümlə qrupları da öz aralarında müxtəlif vasitələrlə əlaqələnir və bir-birilə müəyyən münasibətdə olurlar.Mətni təşkil edən, onu formalaşdıran cümlələr arasında zaman, məkan, səbəb-nəticə, müqayisə, qarşılaşdırma və s. kimi münasibətlər mövcud olur.Bu semantik münasibətlər cümlə strukturlarında inikas olunur və avtonom cümlələr arasında semantik-struktur və qrammatik baxımdan karkas təşkil edir.Semantik münasibətlər o zaman pozula bilər ki, mətndəki cümlələrdən biri çıxarılıb atılsın.”Halbuki cümlənin yox, mətndən bir sözün çıxarılması belə orada ciddi dəyişiklik aparmağa səbəb olur”(Fiqurovskiy, 1948).İşarə əvəzlikləri müasir Azərbaycan dilində mətndüzəltmə faktoru kimi fəaliyyət göstərir.Həmin əvəzliklər bunlardır: o, bu, həmin. K. Abdullayev həmin

əvəzlikləri deaktualizator adlandırır və mətnin cümlələrini ayıran vasitə kimi xarakterizə edir.

İşarə əvəzliklərinin mətnin tərkibində işlənməsi bir tərəfdən vəhdətdə olan avtonom cümlələrin təşkilində, onlar arasında struktur-qrammatik əlaqələrin əmələ gəlməsində və digər tərəfdən, mənanı aydınlaşdırmasında, konkretləşdirilməsində aparıcı rol oynayır.

Beləliklə, anaforik və kataforik əvəzliklər mətnin cümlələr birliyi arasında bağlılığı təmin edir, müstəqil cümlələr arasında başlıca semantik münasibətləri formalaşdırır.Hartman təsadüfi olaraq göstərmir ki, anaforik və kataforik münasibətlər mətnin aktual üzvlənməyə görə qurulmasının əsasında dayanır.Bu cür münasibətlər-əlaqələr mətndüzəltmə funksiyasını yeriə yetirir.Kataforik və anaforik əlaqə nəticəsində məzmun açılır.Məzmunun açılması ilə mətn formalaşır.

Prosodik aktuallaşmanın, pauzanın mətnin formalaşmasında roluna münasibət dilçlik ədəbiyyatında mübahisəsiz keçinmir.Mübahisəli məsələ pauzanın mətndüzəltmədə müəyyən rola malik olub-olmaması ilə əlaqədardır.Lakin əksər dilçilər prosodik aktuallaşmanın mətnin nizama salınmasındakı roluna birinci dərəcəli əhəmiyyət verirlər.Məsələn, A.A.Reformatski yazır ki, mətni təşkil edən cümlələr müəyyən pauza ilə işlənir.Pauza cümlənin temp və ritmini qaydaya salır.Qaydaya salınmış cümlələr mətni düzəldir.

Azərbaycan dilçiliyində H.Abdullayev prosodik elementlərə intonasiyanı, temp və vurğunu aid edir və bu elementlərin aktual üzvlənmə ilə bağlılığını göstərir.

Mətndə temp tema və remanı fəqləndirir.Azərbaycan dilində temp remaya nisbətən temada bir az yüksəlir (Джалилов,1974).

İngilis dilində yeni məlumatın intonasiya bölğüsü onu bildirən sözün, məntiqi vurğusu olması ilə müəyyənləşdirilir.Buna görə də məntiqi vurğu İngilis dilində (eləcə də Azərbaycan dilində) remanın əsas göstəricilərindən biridir.

Tələffüz və ya oxunuş zamanı remanın ayırd olunmasında fasilənin də xüsusi rolu vardır.Fasilə remadan əvvəl nisbətən qüvvətli,sonra isə zəif olur.O cümlənin kommunikativ aspektini mahiyyət etibarı ilə dəyişdirdiyindən digər prosodik vasitələrlə sıx surətdə bağlanır.

Çıxarılan nəticələrdən biri də budur ki, İngilis və Azərbaycan dillərinin mətnləri söz sırasının dəyişdirilməsi yolu ilə(inversiya), intonasiya ilə, formal qrammatik vasitələrdən istifadə etməklə(morfoloji və qrammatik vasitələr), həmçinin prosodik elementlərdən (pauza, temp, ritm, vurğu və s.) istifadə etməklə formalaşır.Bu formlaşma vasitələri bilavasitə AÜ ilə bağlı olub mətndüzəltmədə relevant rolunu oynayır.Həmin vasitələrlə düzələn mətnlərdə semantik bağlılıq gözlənilir,cümlələrin zəncirvari əlaqəsi qırılmır,

onları hissələrə ayırmaq mümkün olmur, sonuncu cümlə məna cəhətdən əvvəlki cümlələrlə əlaqələnir. Digər nəticələrdən biri bundan ibarətdir ki, mətnlərin düzəlməsində cümlə üzvlərinin- mübtədanın, xəbərin, tamamlığın, təyinin və zərfliyin də aktuallaşaraq oynadığı rol nəzərdən qaçırılmamalıdır.- Çünki, həmin cümlə üzvləri mətndə normal və üslubi vəziyyətlərdə işlənərək, inversiya olunaraq, güclü və zəif postpozisiyalarda, prepozisiyalarda, interpozisiyalarda sıralanaraq AÜ baxımından mətnlərin yaranmasında aktuallaşmanı təmin edir, mətnin cümlələrini bir-birilə əlaqələndirir, mətnin düzəlməsinə öz təsirini göstərir.

Ədəbiyyat:

Azərbaycan dilində

1.Abbasova N. K. Azərbaycan dilində aktual üzvlənmənin bəzi məsələləri-Azərbaycan dilində sintaktik konstruksiyalar.ADU-nun nəşri, Bakı, 1987

2.Abdullayev Ə.Ə. Mətn, məna, anlama.Kommunikativ-koqnitiv təhlil, Bakı, 1999

3. Vəliyev K.N.,Əlizadə F.F. Cümlənin aktual üzvlənməsi-Azərbaycan dili və ədəbiyyatı tədrisi.1979 №2

4.Vəliyev K.N. Cümlənin semantik üzvlənməsi-Azərbaycan dilçiliyi məsələləri.ADU-nun nəşri. Bakı,1981

5. Əfqan Abdullayev Aktual üzvlənmə,mətn və diskurs Bakı, 2011

Xarici dildə

Abdullayev A.A. Text, meaning and understanding: communicative-cognitive approach,USA Alpha Print,1998

S.Iskhandarova

Actual segmentation and its text-formation potentiality

Summary

The article studies the problem of actual segmentation and its text formation potentiality. Actual segmentation is one of the main problems of syntax. The next step in the investigation of the actual segmentation is that nowadays it is mainly related to the text level whereas in the past it was only analysed strictly on the sentence level. Text formation is also one of the most important issues of modern linguistics. Word order and intonation are the

main expressive means of actualization. Actual segmentation of every part of sentence plays an important role in text formation. Coherent sequence of the sentences and their close connection are one of the main features of the texts. Text components are connected with each other by actual segmentation. The usage of formal grammatical factors and prosodic elements is inevitable in text-formation.They perform as a main means of actualization in the sentence structure, i.e. they not only serve to link different part of the texts but also make it much more meaningful. All these factors and elements are used successfully in different systematic languages for corresponding text-formation.

S. Isgəndərova

Aktual üzvlənmənin mətnyaratma imkanları

Xülasə

Məqalə aktual üzvlənmə və onun mətnyaratma imkanlarından bəhs edir. Aktual üzvlənmə sintaksisin ən mühüm problemlərindən biridir.Aktual üzvlənmə probleminin tədqiqində növbəti mərhələ onun daha çox mətn sferasına daxil edilməsi ilə əlaqədardır.Mətnin əmələ gəlməsi məsələsi də muasir linqvistikanın mühüm problemlərindən sayılır. Söz sırası və intonasiya aktual üzvlənmənin əsas ifadə vasitəsi kimi çıxış edir.Mətnin yaranmasında ayrı-ayrı cümlə üzvlərinin aktuallaşması əsas rol oynayır.Həmin mətnlərdə cumlələrin koherent ardıcıllığı, zəncirvari əlaqəsi gözlənilir. Aktuallaşma sayəsində mətnin komponentləri bir birinə bağlanır.Mətn düzəldən formal-qrammatik faktorlar, prosodik elementlər cümlənin tərkibində aktuallaşdırma vasitəsi kimi çıxış edir.Həmin faktorlardan, elementlərdən müxtəlif sistemli dillərin müvafiq mətnlərinin düzəldilməsində müvəffəqiyyətlə istifadə edilir.

Rəyçi: **Nailə Sadıxova**

filologiya üzrə elmlər doktoru, professor

AYTƏN RƏCƏBOVA
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
aytan.ajabova@mail.com

MÜASİR İNGİLİS DİLİNDƏ SÖZ YARADICILIĞI

Açar sözlər: söz yaradıcılıqı, məhsuldarlıq, törənmə, mürəkkəbləşmə
Ключевые слова: словообразование, плодотворность, производность, усложнение
Key words: word formation, productivity,derivation,compounding

Digər dilçilik sahələrində olduğu kimi, söz yaradıcılığı da iki nöqteyi-nəzərdən öyrənilə bilər. Bunlardan biri sinxronik, o biri isə diaxronik analizdir. Bu iki anlayışı bir-birindən fərqləndirmək lazımdır. Sinxronik analiz dedikdə, söz yaradıcılığı tiplərinin dildə olan sisteminin araşdırılması, diaxronik analiz dedikdə isə söz yaradıcılığının tarixi cəhətdən araşdırılması başa düşülür.

Dil öz lüğət tərkibini daima yeni sözlərlə təchiz edir. bu isə əsasən sözdüəzltmə yolu ilə həyata keçirilir. Məhz bununla əlaqədardır ki, digər dil sistemlərindən fərqli olaraq sözdüzəltmə ətrafda baş verən dəyişiklikləri daha dəqiq və dürüst əks etdirir. Dilin lüğət tərkibinin zənginləşməsində sözdüzəltmə aparıcı və xüsusi bir rola malikdir.

С.Насибова

Психологические и лингвистические особенности аудирования

Резюме

В статье исследуется сущность и особенности формирования аудирования, анализируется источники понимания, объясняются факторы которые требует от школьников стать хорошим слушателем и выясняется психололингвистические особенности аудирования. Автор справедливо указывает, что аудирование тесно связано с другими видами речевой деятельности. Оно создает возможности для говорения и играет важную роль в обучении иностранных языков. Кроме того аудирование обеспечивает у школьников внимательное слушание и определения содержании иноязычной речи и формирования навыков запоминания новых информаций.

Аудирование является прослушиванием, сложное чем чтение и письмо. Это дает возможность приобрести звуковую сторону изучаемого языка, его фонематическую структуру и интонацию: ритм, акцент, мелодию. Через аудирование происходит ассимиляция лексического состава языка и его грамматической структуры. В то же время аудирование облегчает приобретение речи, чтения и письма, что является одной из основных причин использования аудирование как вспомогательного, а иногда и основного средства обучения этим типам речевой деятельности.

S.Nesibova

Psychological and linguistic features of Listening Comprehension

Summary

The article explores the essence and features of the formation of listening, analyzes the sources of understanding, explains the factors that require students to become a good listener and find out the psycholinguistic features of listening. The author rightly points out that listening is closely related to other types of speech activity. It creates opportunities for speaking and plays an important role in the teaching of foreign languages. In addition, listening provides students with a close hearing and definition of the content of a foreign speech and the formation of skills to memorize new information.

Listening Comprehension is a listening experience, complicated than reading and writing. It gives the opportunity to acquire the sound side of the studied language, its phonemic structure and intonation: rhythm, accent, melody. Assimilation of the lexical composition of the language and its grammatical structure occurs through listening comprehension. At the same time, listening comprehension facilitates the acquisition of speaking, reading and writing, which is one of the main reasons for using auditing as an auxiliary, and sometimes the main means of teaching these types of speech activity.

Rəyçi: Gülər Həsənova
filologiya üzrə fəlsəfə doktoru, dosent

NİGAR AĞAYEVA
AZMİU
nigar.aa@mail.ru

GROUPING ACTIVITIES USED IN ENGLISH AS A FOREIGN LANGUAGE

Keywords: didactic materials, English as a Foreign Language, activities, teachers
Açar sözlər: didaktik materiallar, Ingilis dili xarici dil kimi, çalışmalar, müəllimlər
Ключевые слова: дидактические материалы, Английский язык как иностранный, деятельность, учителя

All the didactic materials used for teaching EFL have a certain potential for learning. On the one hand, there are those activities focused on the learning of forms, which are likely to foster the explicit learning of language. On the other hand, there are activities focused on the content, more aimed at the comprehension of the communicative message and the implicit learning of language. Selecting the appropriate activities to promote a balanced learning of EFL is paramount; however, the increasing number of teaching materials today makes it more difficult for EFL teachers to get to know the learning potential of all the resources available to them. For this particular end, the present study is an attempt to categorize a large compilation of EFL activities with the help of an activity corpus. Each individual activity was analysed with regard to its language focus and labeled accordingly.

Within the area of Second Language Acquisition (SLA), developing research into the selection of didactic materials to be used in the foreign language classroom even gains further relevance for two major premises: (i) firstly, the pedagogical or teaching action in class should never be disengaged from the cognitive dimension of learning. Inasmuch as the brain works following very specific procedures, what the EFL teacher does by using certain activities in class is to promote the learning of one type of knowledge or another; (ii) in the light of this basic fact, the second premise to be borne in mind by EFL teachers is that all teaching materials, without exception, have certain degree or potential for learning. On the one hand, there are activities that principally focus on the learning of forms. Attention to forms usually implies the learning of structural aspects of language and, through these activities, the teacher might overtly discuss about grammar and encourage learners to reflect upon the formation of linguistic structures.

Exercises of this sort often entail the use of grammatical patterns, verbal tenses or decontextualized vocabulary, among others. The type of knowledge gained through these tasks is usually referred to as metalinguistic knowledge, which scholars sometimes equate with explicit

or declarative knowledge (Hulstijn, 2005; Ellis, 1994; Paradis, 2009). On the other hand, teachers can select and implement activities that are, in turn, concerned with the development of the communicative competence; that is, with the development of the four skills, namely, writing, reading, listening and speaking, without necessarily having to pay conscious attention to forms. Whereas forms might not be the major focus of these activities, students' attention is drawn to the communicative message and to the meaning of the content. Nonetheless, forms may be inferred or unintentionally acquired, even when instruction is completely focused on meaning. The type of knowledge achieved by learners in this case is commonly known as implicit knowledge, which is often equated with the terms procedural or communicative competence (Hulstijn, 2005; DeKeyser, 2009; Ellis, 1994; Paradis, 2009).While it is true that there are activities on these two opposite extremes, and they could be categorized according to whether they foster attention to forms or focus more on the content†, EFL teachers can also select tasks that promote attention to both form and meaning to different extents. With the latter, learners might equally improve their explicit and implicit knowledge about EFL.

Taking for granted that the teaching materials must be managed and administered by the foreign language instructor, it should be noted so far that EFL teachers have the responsibility to provide learners with activities that promote a balanced learning of EFL. This argument addresses the fact that, with a biased implementation of focuson-form versus focus-on-meaning activities in the class, learners might not develop the necessary communicative competences (that is, the ability to produce or comprehend language in a natural and fluent way) or accuracy in language use (the achievement of grammatical commitment).

By using a corpus of activities, the objective of this study was to establish a typology of teaching activities (Sánchez, 2004), according to whether the activity was focused on the form or on the content. The definition of a corpus lies at the heart of the discussion on textbook creation and analysis, but it is necessary here to clarify what is meant by both a corpus and a corpus of activities. In the literature, the term corpus is generally understood as a collection of authentic texts that the linguist can examine in order to study language as it is really used by speakers (Tomlinson, 1998). Nevertheless, the focus of this study was not to compile a corpus of specialized language or any type of language that speakers use.

Instead, EFL textbook activities were gathered with a view to elaborating a corpus. Coursebook activities were at the basis of this research and analysis, but only the instructions at the heading of each individual activity were taken; the content of the activity itself was not included.

There is not much specialized literature on the subject to this date; however, scholars contributing to the development of EFL teaching materials with the help of corpus tools have devised a unique way of designing, creating and analyzing coursebook activities. What seems true is that the role of corpus linguistics within the research on the development of didactic materials for FL teaching and learning is paramount. Still, there is not a perfect method for learning EFL and many linguists (see for example Tarone and Yule, 1989; Cook, 1996) point out the need to further explore the possibilities of corpus techniques to advance in this research arena. Studying language with the techniques of corpus analysis might be advantageous and so may be the study of classroom activities. The first asset of corpus analysis is the representative value of the materials analyzed. In order to make a more objective selection and implementation of activities, it is necessary to sort out the limited analytical potential of the human brain. With the help of computers and corpora software , the choice of activities could be much greater. With this computer software, teachers could compile a complete set of activities from different textbooks and gather them in a corpus of activities, instead of dealing only with the physical format of textbooks. And with a more objective selection of activities, the EFL teacher might not be missing good activities for the classroom. The greater the scope of analysis, the more relevant the results from the activity search in the corpus. The second advantage is that, with such a vast library of didactic materials in a computer, the EFL teacher could look for all the specific activities that would target the needs of learners instantly, without having to look for them manually in the textbooks.

Activities analyzed in the corpus belong to 16 different textbooks, all of which were carefully selected in an initial stage, according to three major criteria: (i) a time-based criterion, according to which the textbook date of publication should range from the 80s to the present; this principle was followed to tease out whether the influence of the communicative method on the learning potential of the activities analyzed could also be found in the books that I selected; (ii) the textbooks should be (or have been) used in the official school system or, at least, in official

language schools; and (iii) the level of proficiency of the textbooks should range from upper-beginner (A2) to lowintermediate (B1), to have access to a wide variety of activity types. After the textbook selection came the second stage, in which I scanned one complete unit from each individual

coursebook. In this case, the criterion followed for the selection of the unit was based on the content; in other words, each unit should deal with a different grammatical point to avoid any overlapping of the contents. The third stage consisted of the digitization of the materials scanned. For the very purpose of the creation and analysis of an activity corpus, scanned images (files with a .jpeg format) were transformed into format-free, editable text files, so that each activity could be easily copied from the textbook and pasted in the corpus with the help of OCR software (i.e. Adobe's Acrobat XI Pro). So far I have dealt with the required preparatory phases for the creation and analysis of the activity corpus. With all the activity headings put into a formatless .txt file, I proceeded to analyze and label each individual activity. It should be noted that the type of analysis involved in the categorization of the activities in the corpus was fully qualitative, since computers still might not be capable of discerning the features and nuances which make an activity more focused on form, or more focused on meaning. Different variables are involved in the analysis, the sequencing of the activities throughout the unit being, perhaps, the most complex determinant of the activity's explicit and/or implicit learning potential. However accurate computers can be for a quantitative analysis, their ability to distinguish slight qualitative nuances within the discourse of the activity heading is limited.

The issue of EFL activity selection and implementation has a special relevance within the area of Second Language Acquisition. It should be paramount that EFL teachers knew the learning potential of the materials they handle, since they promote the learning of different types of knowledge depending on which task they are using inside and outside the classroom. However, the increasing number of didactic materials and resources for the teaching of EFL makes it more difficult for the language instructor to explore all the materials available and their

potential for learning. For this particular end, the objective of this present study was to categorize EFL activities according to their focus (either on form or content) with the help of an activity corpus. The findings from the present study reveal a stronger presence of communicative activities in most textbooks, in all likelihood, due to the influence of the communicative method in the design and creation of EFL teaching materials. Nonetheless, there is still an important emphasis on the learning of forms, as it has traditionally been done with the implementation of purely grammatical activities. Methods like the grammar-translation basically fostered the learning of foreign languages through mechanical practice and repetition. However outdated may these formal approaches be, the presence of activities totally focused on the learning of forms might follow the view that rote learning is essential for the successful attainment of accuracy and

proficiency in a second as well. Likewise, Criado and Sánchez acknowledge the importance of frequency and repetition in learning, since there are solid underpinnings to support the fact that both factors play an important role in cognition; empirical testing on the cognitive effects of frequency and repetition also supports this idea. It should also be noted that corpus linguistics and the existing corpus engines today are extremely valuable tools both for the creation of didactic materials and for their analysis. Corpus analysis tools could have a great impact on the production of materials for EFL teaching and learning, insofar as a corpus can work as an activity library and an immediate search engine with which the EFL teacher could save a lot of time during lesson planning. At the end, I`d like to note that even though there is an increasing tendency to upload and publish EFL activities to online websites (most of which might be accessed and used freely), my aim is to analyze only those from school textbooks, due to their widespread popularity in the FL classroom. Textbooks might be the main vehicle of knowledge transmission within academic contexts of learning. It should also be noted that corpus linguistics and the existing corpus engines today are extremely valuable tools both for the creation of didactic materials and for their analysis. Corpus analysis tools could have a great impact on the production of materials for EFL teaching and learning, insofar as a corpus can work as an activity library and an immediate search engine with which the EFL teacher could save a lot of time during lesson planning.

References:

DeKeyser, R. (2009). Cognitive-psychological processes in second language learning. In C. J. Doughty, and M. H. Long (Eds.), Handbook of
Second Language Teaching (pp. 119-138). Oxford: Blackwell.
Ellis, R. (1994). The Study of Second Language Acquisition. Oxford: Oxford University Press.
Hulstijn, J. (2007). Psycholinguistic Perspectives on Language and its Acquisition. In J. Cummins, and C. Davidson (Eds.), International
Handbook of English Language Teaching, Part I (pp. 783-795). New York: Springe
Paradis, M. .(2009). Declarative and Procedural Determinants of Second Languages (Vol. 40). Amsterdam: John Benjamins Publishing.
Tomlinson, B. (2011). Materials Development in Language Teaching, Cambridge: Cambridge University Press.
Sánchez, A. (2004). Ensenanza y aprendizaje en la clase de idiomas. Madrid: SGEL.

N.Agayeva

Xarici dil kimi İngilis dili çalışmaların qruplaşdırılması

Xülasə

EFL tədris üçün istifadə olunan bütün didaktik materialların öyrənmək üçün müəyyən bir potensial var. Bu gün tədris materiallarının sayı artırılır. EFL müəllimlərinə bütün resursların öyrədici potensialını ayid etmeyi daha da çətin edir. Bu konkret məqsəd üçün tədqiqat özündə fəaliyyətləri və əməliyyatların qruplaşdırılmasını cəmləyir. İngilis dili müəllimi dərs zamanı fəaliyyətləri və əməliyyatları istifadə edir və təlim fəaliyyətinə daxil edir.Məqaləmdə fəaliyyət kompleksinin yaradılması və təhlili üçün lazımi hazırlıq mərhələlərini araşdırmışam.Mən həmçinin hər bir fərdi fəaliyyətin təhlilini və etiketlənməsini davam etdirmişəm. Fəaliyyətin təsnifləşdirilməsində iştirak edən təhlilin növləri tamamilə keyfiyyətlidir. Analizdə müxtəlif dəyişikliklər iştirak edir. Buna görə də fəaliyyətin açıq və / və ya gizli öyrənmə potensialının ən mürəkkəb determinantı hesab edilir.

Н.Агаева

Группировка действий, используемых на английском языке в качестве иностранного языка

Резюме

Все дидактические материалы, используемые для обучения EFL, обладают определенным потенциалом для обучения. Все большее число учебных материалов сегодня затруднют учителей. EFL знакомиться с потенциалом обучения всех имеющихся у них ресурсов. Для этой конкретной цели исследование представляет собой попытку классифицировать большое группирование действий и процедур. Этих действий и процедур преподаватель EFL делает на уроках, заключает в содействии с обучением. В своей статье я изучила необходимые этапы создания и анализа комплекса мероприятий. Я также проанализировал и обозначил каждую отдельную деятельность. Тип анализа, связанный с категоризацией деятельности, был полностью качественным. В анализ вовлечены различные переменные. По этой причине наиболее сложный детерминант активности является явным и / или неявным учебным потенциалом.

Rəyçi: Məhəbbət Əsədova
filıologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLSÜM ƏLİYARZADƏ
ADU
gulsum@mail.ru

İNFORMATİV XARAKTERLI MATERIALLARIN TƏRCÜMƏSİ

Açar sözləri: internet və mediya,kommunikasiya texnologiyası, qloballaşma, informativ tərcümə, texniki tərcümə
Key words: internet and media, communication technology, globalisation,informative translation, technical translation
Ключевые слова: интернет и медия, коммуникационная технология, глобализация, информационный перевод, технический перевод

Müasir dünyada informasiya bolluğu olsa da və bu informasiya nə qədər sürətlə yayılsa da,insanlar əksər hallarda lazım olam məlumatı tapmaqda çətinlik çəkirlər. Başqa bir tərəfdən insanlar kitab oxumaq və əl ilə yazmaq vərdişini tədricən itirməkdədirlər. Buna baxmayaraq dünya alimləri kitab və jurnalı hələ də informasiya Kommunikasiya Texnologiyaları alətlərindən üstün tuturlar.

Müasir cəmiyyət elmi nailiyyətlərlə sıx surətdə bağlıdır.Müxtəlif dillərin danişıldığı ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir.Təşkilatlar və şirkətlər yeni bazarlara daxil olmaq,yaxud dünyada öz əməliyyatlarının sayını artırmaq istdikdə mədəniyyət və dil baryeri ilə üzləşirlər.

Müxtəlif dillərdə danişan birliklər,ölkələr arsında iqtisadi,siyasi,elmi və mədəni əlaqələrin inkişafı həmişə tərcümə ilə bağlı olmuşdur. Dəyişən isə tərcümə sənayesinin hazırki artımı və həcmi olmuşdur.

Son statistikaya görə dünyada 400 000 peşəkar günəmuzd,yaxud işəmuzd tərcüməçi var. Onlar dünyanın daha çox sənayeləşmiş bölgələrində: Qərbi Avropa,Şimali Amerika,Yaponiyada cəmlənmişdir.

Qloballaşma texniki tərcüməyə daha çox üstünlük vermişdir. Sənaye cəhətdən daha çox inkişaf etmiş ölkələrdə texniki tərcüməyə ehtiyacın hər il 25-30% artacağı gözlənilir. İngilis dili ticarət sahəsində də aparıcı dildir. Dünyada bizneslə məşğul olan 20 əsas yerli şirkətlər arasında aparılmış sorğudan məlum olmuşdur ki,tərcüməçini işə götürərkən əsas şərt onun ingilis dilini bilməsidir. İngilis dili təkcə ticarət dili yox,həm də mədəniyyət,-diplomatiya,internet və media sahəsində də aparıcı dildir.

Ölkədə nə qədər çox kitab buraxılarsa,həmin dildən tərcümələrin də sayı çəx ola bilər. UNESCO-nun 1979-1983-cü illər arasındakı hesablamalarına görə,o dildə ki çox kitab nəşr olunur,həmin dildə tərcümələrin sayı az olur.

İngilis dilinin dünyada dominant mövqeyi onun məxtəlifliyinə heç də kölgə salmamalıdır. Deyvid Kristalin "İngilis dili qlobal dil kimi" kitabında göstərilir ki, İngilis dili dünyanın 60-dan çox ölkəsində ya rəsmi, ya da aparıcı dövlət dilidir və daha 75 dünya ölkəsində bundan istiadə edilir. {8, s.12} Həmçinin dünyanın daha 75 ölkəsində ondan istifadə edilir. Çox saylı müşahidələrə görə İngilis dili çox zəngin bir dildir. Özünün "XXI əsr lüğət"də Attali göstərir ki, çin dili və onun variantları ticarət dili kimi ingilis dilinin yerini tutacaq,daha sonra həm yazılı,həm də şifahi maşın tərcüməsi mədəniyyət və media sahəsində ingilis dilinin rolunu azaldacaq.{7,s.21}

İnformativ tərcümə oxucunun məlumatlandırılması,müəyyən fikirlərin əsas məqsədinin çatdırılması və qeyri-bədii mətnlərin hədəf dilə tərcüməsidir. Bəzən informativ tərcüməyə ehtiyac yarana bilər. Məsələn hər kəs xarici dildə bir çox materiallardan istifadə etdiyi zaman bu baş verə bilər. İnformativ tərcümə prinsipi mühüm məlumatların,vacib olmayan məlumatlardan ayrılmasıdır ki, bu da insanlara böyük həcmli mətnin xülasəsini anlamaqda və məzmunu başa düşməkdə şərait yaradır. Əgər fikirləşirsinizsə dəqiq və hərfi tərcüməyə ehtiyac yoxdur,lakin mətnin mahiyyətini çatdırmaq lazımdır, bu zaman informativ tərcümə köməyinizə çata bilər.

Əgər məxəz mətn genişdirsə, onun tərcüməsi təxmini olaraq yalnız hərfi və ya informativ göstərilə bilər. Bədii mətnə əslində informativ xarakterli müəyyən hissələr daxildir. Əksinə olaraq, informativ tərcümə estetik təsirin əldə olunmasına istiqamətlənən müəyyən elementlərdən ibarət ola bilər.

Bədii tərcümədə ədəbi əsərlər müxtəlif janrda olması ilə fərqlənir. Bu tərcümələr eyni yolla hisssələrə bölünür, çünki oxucunu təsirləndirmək üçün hər bir janrda xüsusi quruluşa və xüsusi bədii ifadələrin istifadəsinə geniş yer verilir. Nəsr, nəzm və ya pyesləri tərcümə edənlərin hər biri özünəməxsus çətinliklərlə qarşılaşırlar.

Ədibliyin bu formalarının hər biri çoxlu sayda janrlardan ibarətdir. Bu baxımdan tərcüməçi öz bacarıq və təcrübəsinə söykənərək yuxarıda adı çəkilən janrların birində ixtisaslaşa bilər. Bədii əsərlərin hər janrının tərcüməsinə məxsus xüsusi tapşırıqlar dilçilikdən daha bədii və zəngindir. Bu sahədə tərcüməçinin ən böyük problemi yüksək bədiilik və maksimum ekvivalentliyi birləşdikməkdir.

Bədii ədəbiyyat tərcüməçisindən müəllifin fərdi və üslub və metod xüsusiyyətlərinin və eyni müəllifin müxtəlif əsərlərinə məxsus ədəbi cərəyanların dəqiq öyrənilməsi gözlənilir. Yaxşı tərcüməçi hərtərəfli, bilikli bir şəxs və istedadlı yazıçı və ya şair olmalıdır. Burada təsnifat prinsipləri müəyyən dərəcədə müxtəlif olsa da,informativ tərcümə üçün çoxsaylı bölmələr təklif edilə bilər.

Texniki tərcümədə əsas məqsəd orijinalda təsvir olunmuş situasiyanı müəyyənləşdirməkdir. Referensial mənanın üstünlüyü tərcüməyə böyük

problemdir. Tərcüməçi situasiyanın ümumi təsvirini verə bilmək üçün predmeti düzgün başa düşməli və texniki terminlərə yiyələnməlidir, hətta buna hədəf dildə tam olaraq nail olunmuyubsa belə. Mətnin mütəxəssisə anlaşıqlı olması üçün texniki tərcüməçidən, həmçinin,elmi və texniki materialların üslub tələblərinə riayət etməsi tələb olunur.Mətnin bəzi növləri müsbət səciyyəvi xüsusiyyətlərinə görə deyil, iki dildə funksional xüsusiyyətlərində olan müxtəlifliyə əsasən müəyyənləşdirilir.

İnformativ materialların tərcüməsi zamanı qarşıya çıxan problemlərin aradan qaldırılmasında kontekstin çox böyük əhəmiyyəti vardır. Çünki məhz kontekst tərcüməçi üçün çoxmənalı sözün mənaları arasında verilmiş söz üçün muvafiq mənanı seçməyə şərait yaradır. Əgər sözün mənası geniş qrup sözlərlə əlaqəyə girib işlənə bilərsə,deməli bu onun müstəqil mənasədır. Əksinə,sözün mənasının əlaqə dairəsi məhduddursa,onda ona qeyri-müstəqil məna deyilirBuradan belə bir nəticəyə gəlmək olar ki,tərcüməçi üçün geniş kontekstin rolu tərcümə prosesində çox mühümdür.

Informativ xarakterli tərcümə -tərcümənin bir növüdür. O, əsas diqqəti sözün dəqiqliklə hərfi olaraq köçürülməsi deyil, mətnin mənasının ümumi şəkildə köçürülməsi, izah edilməsi deməkdir. Informativ xarakterli tərcümə mətnlərin xülasəsini və onların ən vacib hissələrini özündə əks etdirir. Mənbəni mətnlə müqayisə etdikdə daha kiçik həcmli informativ tərcümə meydana gəlir. Çünki yuxarıda qeyd olunduğu kimi, o, yalnız mətnin ümumi mənasını ifadə etmək üçün istifadə olunur.

Informativ tərcümə həm yazılı, eləcə də şifahi formada ola bilər. Bu zaman, tərcüməçi materialı əvvəlcədən oxumalı, onu diqqətlə nəzərdən keçirməli və daha sonra qarşı tərəfə ümumi məzmunu ifadə etməli və yalnız ən əhəmiyyətli hisələri dəqiqıiklə çatdırmalıdır. Eyni zamanda, tərcümə prosesi ərzində digər tərəflər, yəni sifarişçi onu dinləyib qeydlər götürə bilərlər. Bu yolla kifayət qədər həcmli və böyük bir material yarım saat ərzində təhvil verilə bilər.

Tərcümənin bu növü mətnin tərcümə edilməsindən daha çox onun məzmununun çatdırılmasına ehtiyac duyulan sahələr, yəni, məlumat xarakterli materiallar, məqalələr, istifadəçi təlimatları, yazışmalar və s.kimi sahələrin tərcüməsi üçün daha münasib hesab olunur. Çünki informativ xarakterli tərcüməni daha çox əlverişli edən səbəblər odur ki, o, həm vaxtı, həm də pulu səmərəli istifadə etməyə kömək edir.

Ümumi nəzər saldıqda, yuxarıda qeyd olunanlara əsasən, informativ xarakterli tərcümə, mətbuat, jurnal, hesabat və s.digər bir çox sahələrdə istifadə olunur. Bundan əlavə arxeologiya, qastronomiya, texnologiya, elm, idman, antropologiya, ədəbiyyat və s.müxtəlif sahələrdə informativ, yaxud praqmatik tərcümənin istifadə olunduğu sahələrə daxildir.

Təsadüfi deyildir ki, Fransa tərcüməçilər Birliyinin üzvü Peter Nevmark informativ xarakterli tərcümə haqqında belə qeyd etmişdir. "İnformativ tərcümədə məxəz mətn hədəf mətnə tərcümə olunarkən, burada fərziyəyə əsaslanaraq yazılan, ya da funksional olaraq yenidən tərtib olunan, bir sözlə mətndən kənar əlavələr yol verilməzdir." {6, s.14} Mətnin informativ yolla tərcümə olunmasının əsas məqsədi məzmunu saxlamaqla praqmatik tərcümələr etməkdən ibarətdir.

Ədəbiyyat

1. Barsuk R.Y. "Azərbaycan tələbələrində xarici dil tədrisinin bəzi problemləri." B.,1967
2. Reading in methods of Teaching English, M. 1981
3. Федоров А.В. "Основы общей теории перевода." М.,Высшая школа,1968
4. Galperin D.R. Stylistics. M,Higher School,1977
5. Рецкер Я.М. "Теория перевода и переводческая практика." М., ВШ, 1996
6. Newmark. P. "A textbook of translation." Great Britain, 1998
7. Attali J. "Dictionary of the 21st century", Translation Edition (March 5, 1999)
8. Crystal D. "English as a global Language" Cambridge University Press, 1997

G.Aliyarzade

Translation of informative materials

Summary

İnformative translation is a type of translation, where the main emphasis is on forwording the meaning of the text without placing focus on word- for –word accuracy. Informative translation is a good way of making summaries of texts and highlighting the most Important parts of the text. Compared to the source text, informative translation has smaller volume and rather serves to give an overview.

İnformative translation can be oral as well. The interpreter reads the materials beforehand when meeting the client, gives an overview of the content and interprets only the most significant passages very accurately. The contractor listens and takes notes, if necessary. This way, quite a voluminous material can be covered within half an hour. İnformative translation is suitable for translating study materials, articles, user

instructions, correspondence, etc., where communicating the content of the text is more important than following the exact layout. This type of translation helps to save both time and money.

Г.Алиярзаде

Перевод информационного материала
Резюме

Информационный перевод –это тип перевода, в котором основной упор делается на пересылке смысла текста без удаления особого внимания точности слова в слово. Информационный перевод- это хороший способ составить резюме текстов и выделить наиболее важные части текста. По сравнению с исходным текстом, информационный перевод имеет меньший объем и скорее служит для обзора. И

Информационные переводы также могут быть устнымы. Интерпретатор заранее читает материалы и при встрече с клиентом дает обзор содержания и очень точно интерпретирует только наиболее важные отрывки. Подрядчик слушает и делает заметки, если это необходимо. Таким образом довольно обьемный материал можно покрыть за полчаса.

Информационный перевод подходит для перевода учебных материалов, статей, пользовательских инструкций, переписки и т.д., где содержимого текста важнее, чем после точной компоновки.

Этот тип перевода помогает сэкономить время и деньги.

Rəyçi: Fəridə İsmayılova
filologiya üzrə fəlsəfə doktoru, dosent

İRADƏ NƏCƏFOVA
ADU
irade@mail.ru

BƏDİİ TƏRCÜMƏDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

Açar sözlər: frazeoloji birləşmələr, idiomlar, sözbəsöz tərcümə,hərfi tərcümə, ekvivalent tərcümə
Key words:phraseological units, idioms ,word –for-word translation ,literal translation and free (equivalent) translation
Ключевые слова: фразеологические единицы,слова к слову перевод,-свободный (эквивалентный) перевод

Hər hansı bir məlumatın orıjınalın dilindən tərcümə dilinə çevrilməsi ilə bağlı yaradıcı fəaliyyətə tərcümə deyilir.Hər iki dili mükəmməl bilən şəxs-tərcüməçi dillərarası əlaqənin yaradılması kimi mühüm bir vəzifəni həyata keçirir. Hər iki dildə özünü tam sərbəst hiss etməklə yanaşı tərcüməçi qəbul etdiyi və ötürməli olduğu məlumatı təfərrüatlarına qədər dərk etməli ,onu orijinala maksimal dərəcədə yaxın şəkildə ikinci bir dilə çevirməyi bacarmalıdır. Bu mənada tərcüməni bəşəriyyət tarixində xalqları bir- birinə bağlayan mənəvi körpü adlandıranlar yanılmırlar. Başqa sözlə desək, xalqların ədəbi əlaqələrinin başlıca forması tərcümədir. Tərcümənin hüquqi, elmi-texniki, tibbi,bədii tərcümə və s. kimi sahələri var . Bədii tərcümə roman, qısa hekayələr, pyes , şerlər və s. tərcüməsidir. Bədii tərcümə üslub, forma, məzmun baxımından özünəməxsus xarakter daşıdığı üçün bədii əsərlərin tərcüməsi böyük diqqət, məsuliyyət tələb edir.Hətta bəzilərinin fikrincə, bədii ədəbiyyatı tərcümə edən şəxs təkcə tərcüməçi yox, yazıçı-tərcüməçi olmalıdır. Bununla yanaşı mətbuatda yer alan mövzulardan biri də ondan ibarətdir ki, hüquqi, elmi mətnlərin tərcüməsi ilə məşğul olan insanlarin dili lakonik .qəlibləşmiş olduqlqrına görə onlar qətiyyən bədii tərcümə etməməlidirlər. Bədii tərcümə daha koloritli, zəngin, eyni zamanda yaradıcılıq tələb edən tərcümə növüdür.O, xalqların mənəvi sərvətlərinin üzvü vəhdətini yaratmaqda olduqca mühüm rol oynayir.Belə ki, milli mədəniyyətlər təkcə öz milli ədəbiyyatı ilə deyil, həm də dünya ədəbiyyatından qidalanaraq zənginləşir.

Tərcümənin digər növləri kimi bədii tərcümənin də özünəməxsus çətinlikləri var.Tibbi mətnlərin tərcüməsində qarşıya çıxan çətinliklər tibbi terminlər, dəqiqliyə riayət edilməsi, mesajın ötürülmə üsulu, sinonimlərin düzgün seçilməsi , mətbuat mətnlərinin tərcüməsində qarşıya çıxan çətinliklər başlıqlarda to be-nin və artikllarin atılması, bir neçə ismin bağlayıcısız və durğu işarəsiz sifət kimi işlədilməsi üzündən başlıqların

tərcüməsi , neologizmlərin tərcüməsi olduğu halda, bədii tərcümənin çətinlikləri başqa səbəblərdən olur .

Bədii tərcümədə ilk növbədə çətinlik yaradan bir çox elmlərin – coğrafiyanın, tarixin, dilçiliyin və s. -tədqiqat obyektinə çevrilmiş toponimlərin və antroponimlərin tərcümə dilində verilməsidir. Antroponim və toponimlər anomastik vahidlərin tərkibində öyrənilir. Antroponimika insan adları haqqında elm mənasında işlənir. Antroponimika insan adlarının əmələ gəlməsini, inkişafını, təkmilləşməsini öyrənir. Mühitin təzahüründə bütün əşyalar kimi insanları da adlandırmaq, fərqləndirmək, çağırmaq ehtiyacı yaranmışdır ki, buradan da zəngin xüsusi adlar sisteminə daxil olan adlar, ləqəblər, müxtəlif cür adlandırmalar əmələ gəlmişdır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması ilə, yəni ünsiyyətlə bağlı olaraq meydana gəlmişdir. Antroponimlər bədii ədəbiyyatda müxtəlif vəzifələr daşıyır; 1.Antroponimlər vasitəsilə personajlar fərdiləşdirilir. 2.Antroponimlər əsərə millilik gətirir. 3.Obrazların mənəvi keyfiyyətləri çox zaman adlarla səciyyələndirilir. 4.Müəllif əsərin ideyasının təsirli çıxması üçün antroponimlərdən istifadə edir. 5. Düzgün ad seçimi oxucunun marağını artırır. 6.Personajların antroponimləri onların yaşadıqları dövr haqqında məlumat verir. Toponimlərin və antroponimlərin tərcümə dilində verilməsi üçün dilin fonetik prinsiplərinə əsaslanan transkripsiya və müxtəlif bir əlifbanın və yaxud dilin hərflərindən istifadə etməklə transliterasiya üsullarından istifadə edilir .

Bu üsullar toponimlərin və antroponimlərin az dəyişikliyə məruz qalmasına səbəb olur. Bu isə insanların, elmin xeyrinədir. Çünki toponimlər və ontroponimlər keçmişin bir çox məsələləri üzrə mühakimə yürütməkdə qiymətli məxəz olur. Toponimlərin və antroponimlərin tərcümə dilində verilməsi üçün ixtiyari və qeyri-ixtiyari olmaqla uyğunlaşdırma, kalka və qarışıq üsullardan da istifadə edilir. Məsələn ; At Waterloo they took a hansom and he drove with her to the door of her mansons . – Onlar Vaterluda faytona mindilər və Colyon qadını yaşadığı böyük evin qapısına qədər müşaiət etdi. Nümunədən də göründüyü kimi w hərfi əlifbamızda yer almadığından səslənmə nəzərə alınmış və transkripsiya üsulundan istifadə olunmuşdur. You know you could always come to us at Robin Hill. -Bilirsən, Robin Hildə bizə hər zaman gələ bilərsən. But memory of Paris gave him no pleasure.-Ancaq Paris xatirələri onun qəlbində heç də xoş xatirələr oyatmadı. Bu cümlələrdəki toponimlər isə transliterasiya üsulu ilə verilmişdir. Qeyri-ixtiyari uyğunlaşma da uzaq keçmişə aid olub zaman keçdikcə baş vermişdir. Məs; On the first day of the second week in July he received a letter from his son in Singapore to say that they would all be back on Friday. -İyul ayının ikinci həftəsinin ilk günündə o, Sinqapurdakı oğlundan onların hamısının cümə günü gələcəyini bildirən məktub aldı.

Nümunədən də göründüyü kimi burada qeyri-ixtiyari uyğunlaşma üsulundan istifadə olunmuşdur. Bulqaria-Bolqariya, Moldova-Moldoviya, İtaly-İtaliya, Lithuania-Litva, Poland- Polşa, Portugal-Portuqaliya kimi toponimlər də dilimizə qeyri-ixtiyari uyğunlaşma yolu ilə daxil olmuşdur.

Dildə elə toponimlər vardır ki, onlar tərcümə dilində qarışıq üsulla verilir. Yəni onlar həm tərcümə, həm də transkripsiya və yaxud transliterasiya ilə verilir. Belə toponimlərə mürəkkəb ölkə, ada, şəhər, qraflıq, respublika adlarını misal göstərmək olar. Məs; İt is a network, throuqh North West Cape in Western Australia, through here Burketown, Towsville, Gippsland, Christchurc in New Zealand, islands in the Pacific and İndian oceans and all points east and west .- Bu bütöv bir bazalar şəbəkəsidir ki, buranı qərbi Avstraliyada Şimal - Şərqi Keypi, Yeni Zelandiyada Burktaun, Taunsvil, Cipsləndd, Kristcurc, Sakit və Hind okeanındakı adaları qərbdə və şərqdə bütün nöqtələri əhatə edir.

Bədii tərcümədə frazeoloji vahidlərin tərcüməsi də çətinlik törədir. Frazeologiya dedik də atalar sözləri, zərbiməsəllər, sabit söz birləşmələri, müxtəlif yazıçı və səxsiyyətlərin zərbiməsələ çevrilmiş deyimləri başa düşülür. Frazeologiya sözü yunanca phrasis-ifadə, logos-təlim sözlərindən götürülmüşdür. Frazeoloji birləşmələr dilə ifadəlilik, obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidlərindəndir. Onlara tərkibcə dəyişməyən və məcazi mənada işlənən sabit birləşmələr də deyilir.\1.\ Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır; 1.frazeoloji birləşmələrin tərkibi dəyişməz olur .2.Bu ifadələr dildə hazir şəkildə mövcud olur. 3.frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və yalnız məcazi mənada işlənir. 4.Iki və daha artıq sözdən ibarət olurlar.- 5.Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşürlər.Hər bir frazeoloji birləşmə öz xalqının etiqadını və həyat tərzini əks etdirir. Bu səbəbdən başqa dillərə birbaşa tərcümə olunmur. Yəni hərfi tərcümə ilə verilsə onların mənası anlaşılmır. Buna görə də onlar çox çətin tərcümə olunurlar. Frazeologiyanın tərkib hissəsi olan idiomların leksik-qrammatik və semantik əlamətləri onları bir tərəfdən sərbəst söz birləşmələrindən, digər tərəfdən tək-tək sözlərdən fərqləndirməyə imkan verir. İngilis dilinin idiomları üzərində tədqiqat aparan Z.P.Smit yazırdı;'' Bizim ən yaxşı idiomlarımız, canlı, obrazlı ifadələrimiz kitabxanalarda, mehmanxanalarda deyil, emalatxanalarda, mətbəxlərdə, pəyələrdə yaranmışdır.\2\ Deməli , idiomatik ifadələr hər bir xalqın həyatı, yaşayışı, adət-ənənələri, əxlaqi görüşləri ilə bağlı olaraq meydana çıxır. İdiomlar sərbəst söz birləşmələri kimi ortaya çıxıb zaman keçdikcə tədricən sabit söz birləşməsinə çevrilməyə və bu müddətdə özünün ilk konkret mənasından uzaqlaşıb yeni məzmun, yeni keyfiyyət almağa başlayır. Yeni məzmun onun mücərrədliyində olur. Uzun zaman dildə işlənən söz birləşməsinin həqiqi mənası ilə məcazi mənası

arasında əlaqə itir və məcazi məna əsasında ifadə yaranır. Yəni ifadəni meydana gətirən komponentlər birləşib bir məna verir və tərkib mənaca parçalanmazlıq xüsusiyyəti kəsb edərək sabitləşir. Məs; to put the cart before the horse-hər şeyi ayaq-baş etmək, to bury your differences - umu-küsülülüyü aradan götürmək və s. Bitkin fikir ifadə edən, həm həqiqi, həm də məcazi mənada işlənən atalar sözlərinin də tərcüməsi də bədii tərcümə zamanı qarşıya çıxan digər bir çətinlikdir. Atalar sözü xalgın tarixən sınaqdan çıxardığı həyat müşahidələrinin bədii ifadəsidir.

Formaca kiçik, lakin zəngin məzmun çalarına malik olan bu janrın özünəməxsus tələbləri var. Atalar sözündə hökm qəti şəkildə təsdiqlənir.\3\. Atalar sözü xalqın tarixi , mədəniyyəti ilə bağlı olduğuna görə onlarin tərcüməsi də çətindir. Tərcüməçi mədəniyyətlər arasındakı fərqi bilməli və atalar sözünə ekvivalent məna tapmalıdır. Məs;'' The grass is always greener on the other side of the fence'' atalar sözünün Azərbaycan dilində ekvivalenti '' Qonşu darısı şirin olar.''-dır. Bu qənaətə isə izahlı lüğətdəki izahatı oxuduqdan sonra gəlmək olar. Izahatda deyilir; said about people who never seem happy with what they have and always think that other people have a better situation than they have. Və yaxud; İt is no good crying over spilt milk-Sonrakı peşmançılig fayda verməz.[to waste time worrying about sth that has happened that you cannot do anything about.

Ümumiyyətlə. Ingilis dilindəki Istər idiomlari, Istərsə də atalar sözlərini başa düşməyin ən yaxşı yolu onları konteksdə görməkdir.\4\

Eyni zamanda əsərdə işlədilən realilər də tərcümə zamanı tərcüməçidə problemlər yaradır. Realilər xalq dili olub, coğrafi mühitə , mədəniyyətə,maddi məişətə, yaxud xalqa, millətə, ölkəyə aid əşya, anlayış və hadisələrin adlarıdır. Onlar yerli və tarixi koloritin daşıyıcılarıdır. Bu leksik vahidlərin başqa dildə qarşılığı yoxdur. R ealilərin milli mənsubiyyəti olur. Onlar başqa xalqların dillərinə ədəbiyyat və kütləvi informasiya vasitəsilə daxil olur. Həmin realilər daxil olduqları dillərdə ya müvəqqəti, ya da həmişəlik qalırlar və alınma sözlər kimi o dilləri zənginləşdirirlər.Tərcümə olunan əsərlərdə işlənən realilər dilin leksik sistemində xüsusi yer tutur və tərcümə ədəbiyyatında işlənərək həmin tərcümənin mənsub olduğu dilin lüğət tərkibini zənginləşdirir, əsərin mənsub olduğu xalqın adət-ənənələri, milli koloriti, geyim tərzi, dini mərasimləri haqqında geniş məlumat verir, əsərin mövzusunun bağlı olduğu dövr haqqında ,həmin dövrün tarixi xüsusiyyətləri, sosial-iqtisadi münasibətləri haqqında oxucuda geniş təsəvvür yaradır. Bədii tərcümə zamanı qarşıya çıxan çətinliklər və onların öhdəsindən gəlmək yolları haqqında gəldiyimiz qənaət ondan ibarətdir ki, tərcüməçi hər iki dilin incəliklərinə bələd olmaqla bərabər həm də orijinalın məxsus olduğu xalqın məişətini, əxlaqını, adət-ənənələrini,həyat tərzini yaxşı bilməlidir. Yalnız

belə olduqda tərcüməçi xalq həyatının lövhələrini deyil, xalqın fikir, düşüncə tərzini də əks etdirə bilər.

Ədəbiyyat

1.Frazeoloji birləşmələr- Language Mag language.az..
2.Z.P.Smit Frazeologiya angliyskovo yazıka\ruscaya tərcümə M.1959
3.Atalar sözü –Vikipediya https:\\az.m.wikipedia/org wiki
Atalar…
4.Michael Mc Carthy Felicity O'Dell .English Idioms in Use .Cambridge University press 2009
5.A.S.Hornby.Oxford Advanced Learner's Dictionary of Current English. 2008
6.Keith Antill ''Moon in the ground'' Nostrilia press 1979
7.Keyt Antil ''Yerə enmiş ay ''.Ingilis dilindən çevirəni Bayramov Q. 1985

İ.Necefova

Difficulties of literary translation

Summary

The article deals with literary translation and its difficulties.

The translation of literature differs greatly from other forms of translation.

Because literary translation is a type of literary creativeness where the written work of one language is recreated in another without losing the beauty and essence of the original work.

Literary translation involves the translation of feelings, emotions and thoughts.

To render a satisfactory literary translation, the translator must acquire a large knowledge about the grammatical, lexical and stylistic systems of both the source language and target language in order to achieve equivalence or an appropriate interpretation.

И.Неджефова

Трудности,встречающиеся при переводе художественной литературы

Резюме

В статье рассматриваются осебенности художественного перевода.

Художественный перевод значительно отличается от других видов перевода тем, что он представляет собой творческую деятельность,где произведение на одном языке воссоздается на языке перевода,не утрачивая всю красоту и сущность оригинала.

Художественный перевод охватывает перевода чувства,емоции и мысли.

Трудности,встречающиеся при переводе художественной литературы.

Для того, чтобы удовлетворительно перевести художественный текст, переводчику следует приобрести широкие знания в области грамматики, лексической и стилистической систем исходного и переводящего языков, с целью достижения эквивалентности или соответствующей интерпретации.

Rəyçi: Fəridə İsmayılova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AYNURƏ MANAFOVA
ADİU
aynura_manafova@mail.ru

YERLİ AMERİKA HINDİLƏRİNİN LEKSİKASI İLƏ TÜRK MƏNŞƏLİ LEKSİK SÖZLƏRİN OXŞARLIQLARI

Açar sözlər: tədqiqat, antropologiya, leksik sistem, sivilizasiya, kəşf, yerli, tayfa
Key words: investigate, anthropology, lexical system, civilization, discovery, local, tribes
Ключевые слова: расследовать, антропология, лексический систем, цивилизация, открытие, местная племя

Hər bir dilin leksik tərkibi həmin dilin daşıyıcısı olan xalqın tarixini, keçdiyi inkişaf yolunu, əldə etdiyi elmi-mədəni tərəqqi səviyyəsini, eləcə də qurduğu əlaqələrini, dinamika və coğrafiyasını müəyyənləşdirmək üçün zəngin material verir. Belə ki, xalqın qısa və ya uzun zaman kəsiyi ərzində keçdiyi tarixi yolda qarşılaşmış olduğu digər xalqların dilinin az və ya çox dərəcəli müdaxiləsi, habelə cəmiyyət həyatında gerçəkləşən qlobal və ya lokal xarakterli dəyişikliklər dilin leksik yarusunda təsirsiz ötüşməmişdir. Bu mənada leksik paralelizm faktlarının təhlili istər qohum dil mühitində, istərsə də, genealoji bağlılığı olmayan dillərin əlaqəsi kontekstində maraqlı müvazilik faktlarının aşkara çıxarılmasına imkan verir. Bu baxımdan qohum dil materiallarına istinad edilən paralelizm faktları əsas etibarilə eyni leksik vahidin fərqli, lakin sıx genealoji bağlara malik olan dil sistemində nümayiş etdirdiyi semantik və fono morfoloji özəlliklərin tədqiqi baxımından diqqəti cəlb edir. Bununla yanaşı qohum olmayan dillərdə təzahür tapan paralelizm faktları əlavə və daha fərqli aspektlər baxımından da mühüm maraq kəsb edir. Belə ki, ortaq tarixi və bilavasitə zəngin qarşılıqlı əlaqə keçmişi olan bir xalq kimi türk və hindi dillərinin leksikasında leksik oxşarlıqlar və bu faktların öyrənilməsi onların meydana gəlməsini mümkün edən səbəb və şəraitin öyrənilməsi xüsusi maraq doğurur. Bu mənada, heç şübhəsiz ki, Türk və Hindi dillərinin leksik sistemi arasında mövcud olan oxşarlıqlar və paralelizm faktlarının tədqiqi və araşdırılması çox mühüm əhəmiyyət kəsb edir. Bu hər bir türk dilli xalqların və hindilərın tarixi həyatında və məişətində işlətdikləri ifadələrin oxşarlıqları bizi bu araşdırmanı aparmağa zəruri edir.

Türk xalqlarının milli ədəbi dillərinin təşəkküllü inkişaf tarixinin hərtərəfli tədqiq olunması bu gün dilçiliyin qarşısında duran mühüm məsələdir. Təkcə qədim ümumtürk abidələrinin deyil, eləcə də konkret türk dillərinin yazılı abidələrinin leksik xüsusiyyətlərinin tarixi müqayisəli aspektdə öyrənilməsi,

hindi tayfalarında oxşar leksik vahidlərin işlənməsi dilçilikdə çox böyük maraq doğuran sahədir. Qədim ümumtürk dilinin leksik sisteminin tədqiqatı, müasir türkologiyanın aktual problemlərindən biri olan müasir türk xalqları üçün ortaq türk dilinin yaradılması məsələsinin həlli istiqamətində də uğurlu addım olar. Amerika qitəsi sivilizasiyalarının inkişaf tarixinin ən parlaq səhifəsi onun mərkəzi hissəsində yaşayan xalqların mədəniyyəti ilə bağlıdır. Qitəni iki tərəfdən Sakit və Atlantik okeanları əhatə edir. Zəngin və rəngarəng faunası olan bu ərazi yaşıl düzənlik və çəmənliklərdən, rütubətli tropik meşələrdən ibarətdir. Burada məskunlaşmış tayfa və xalqlar makromayya, makrotomanqe, xokanaklar, naua və d. dil qrupundandır. Bunların hər biri ərazinin mədəniyyətinə öz töhfəsini gətirmişdir. Mədəniyyət sahəsində xüsusi nailiyyətləri ilə seçilənlər Mezoamerika (Bu anlayışı elmə gətirən meksikalı alim P.Kirxhofun əsaslandırıcı başlıca alim həmin regionun mədəniyyətlərini ümumi cəhətləri ilə bağlıdır: yüksək sivilizasiyalar zonası adlandırılan bu əraziyə Meksikanın 2/3 hissəsi, Qvatemala, Beriz, Salvador, Qondurasın bir hissəsi, Nikaraqua, Kosta-Rika aiddir) adlanan ərazidə yerləşən əhalidir. Bu mədəniyyətləri hər biri özlüyündə nə qədər fərdi olsalar da, onları birləşdirən ümumi cəhətlər də mövcuddur. Bu cəhətlər, ilk növbədə təsərrüfatın idarəedilməsində, eyni təsərrüfatla məşğulluqda, ticarətin inkişaf səviyyəsi və digər ictimai-sosial məqamlarda təzahür tapır.

Şimali Amerika xalqlarının mədəniyyəti. Amerika mədəniyyəti haqqında ilkin təsəvvürlər adətən müasir mədəni nailiyyətlərlə əlaqədar olsa da bu ölkənin qədim və orta əsrlərini əhatə edən bir sivilizasiya mövcud olmuşdur.

28-30 min il əvvəl ilk dəfə olaraq müasir tipli insanlar Alyaska və Çukotka arasındakı Beringiya adlanan quru körpüdə məskunlaşmışlar. Məhz bu dövrdən Amerika mədəniyyətinin tarixi başlayır.Müasir elm hesab edir ki, bu qitənin ilk sakinləri genetik cəhətlərinə görə protomonqoloid, yaxud protoasiya qrupuna mənsub olmuş Altay, finuqor, Tibet xalqlarına daha yaxındırlar. Özünün təsdiqini tapmış bu fikirlər linqvistik və antropoloji əlamətlərə əsaslandırılmaqdadır.Avropalılar tərəfindən Amerika qitəsinin kəşfi və işğalı digər çoxsaylı xalqların həmin ərazidə məskunlaşması ilə nəticələndi. Bunların ümumi sayı təxminən 15-20 milyona bərabər idi. İlk dəniz səyyahlarının səhvən Hindistan torpağı kimi başa düşdükləri bu qitənin sakinləri XVI əsrdən "hindilər" adlandırılmağa başladı. Bu dövrdə qitənin müxtəlif hissələrində məskunlaşmış sakinlərin inkişaf səviyyəsi bir-birindən fərqli idi.Qitənin şimal hissəsində məskunlaşmış tayfa və xalqlar ibtidai yaşayış səviyyəsində idi. Texas, Nevad, Kaliforniyada (Lyüisvill, Tyul-Sprinqs, Santa-Ros adası), Sandia rayonunda (b.e.ə. 25-15-ci minillik) od və Daş silahları ilə davranmağı bacaran yığıcılıq və ovçuluqla məşğul olanların düşərgələri tapılmışdır. Arizon və Nyü-Meksikoda tapılmış ilk kənd təsərrüfatı qəsəbələrinin tarixinin b.e.ə. VII-VI minilliyə aid olması sübuta

б)Мягко-передний ряд: **К'V'К'К'** – 289сл. **T'V'T'T'** - 4 сл.: qədd, qibt, qütb, tibb; **T'V'T'S'** – 7 сл.: bətn, qətl, kibr, tiql и др.; **T'V'T'F'** – 6 сл.: keкs, gips, qəbz, köks и др.; **T'V'F'F'** – 5 сл.: kəşf, qövs, qəşş и др.; **T'V'F'T'** –12 сл.: kift, püşk, test, qəsd, teşt и др.; **T'V'F'S'** – 10 сл.: qəhr, dövr, qəsr, qövm и др.; **T'V'S'S'** – 6 сл.: dürr, küll, qeyr и др.; **T'V'S'F'** - 13 сл.: tərs, gürz, qeyz, qırx и др.; **T'V'S'T'** – 7 сл.: qərb, qəlb, qərq, temp и др.; **T'V'S'A'** – 6 сл.: bürc, dərc, gənc, künc и др.; **F'V'T'T'** – 9 сл.: xətt, zidd, zəbt и др.; **F'V'T'S'** - 8 сл.: fetr, sədr, hökm, zebr и др.; **F'V'T'F'** – 7 сл.: fəth, həbs, sübh и др.; **F'V'S'F'** – 19 сл.: hirs, hərf, sülh, fərz, şeyx, şərh и др.; **F'V'S'T'** – 28 сл.: vint, şərq, zəng, xəlq, hərb и др.; **F'V'S'S'** – 15 сл.: sirr, veyl, seyr, zülm, himn и др.; **F'V'F'S'** – 20 сл.: fəxr, həzm, hüsn, şifr и др.; **F'V'F'T'** – 12 сл.: zift, süst, şövq, zövq и др.; **F'V'F'F'** – 8 сл.: səhv, şəxs, hiss, həzz и др.; **F'V'A'S'** – 3 сл.: həcm, fəcr, hicr; **F'V'A'F'** – 3 сл.: həcv, həcz, vəch; **F'V'A'T'** – 1 сл.: vəcd; **F'V'F'A'** – 1 сл.: zövc; **A'V'T'S'** – 1 сл.: cəbr;**A'V'T'T'**- 1 сл.: cədd; **A'V'F'T'** –4 сл.: cəhd, cəzb, cift, çeşt; **A'V'F'S'** – 3 сл.: cism, çeşm, cövr;**A'V'S'T'**–9 сл.: cəld, cild, cəlb, çirk и др.; **A'V'S'F'** – 1 сл.: cins; **S'V'T'T**'- 5 сл.: rədd, rəbb, nitq и др.; **S'V'T'S'** – 7 сл.: metr, ritm, nəql, mətn и др.; **S'V'T'F'** - 7 сл.: lüкs, rəqs, lütf, reps и др.; **S'V'T'A'** – 4 сл.: linç, linc, rənc, mərc; **S'V'F'F'** – 12 сл.: ləgv, nəfs, məhv, nivx и др.; **S'V'F'S'** – 13 сл.: nəşr, rəsm, mehr, şans и др.; **S'V'F'T**' – 9 сл.: müşk, risк, məşq, məst и др.; **S'V'S'S'** – 1 сл.: rəml; **S'V'S'T'** – 14 сл.: lent, rəng, mərd, mülk и др..

IX.Прикрыто-закрытый тип **KVKKK** – 10 сл.: а)Твердо-задний ряд: **KVKKK** - 6 сл.: **TVSFT** – 1 сл.: кarst; **SVSTS** – 2 сл.: manql, manqr; **TVSTT** – 1 сл.: punkt; **SVFTS** – 1 сл.: rastr; **AVSSF** – 1 сл.: Çarlz

б)Мягко-передний ряд: **К'V'К'К'К** – 4 сл.: **F'V'S'T'S'** - 1 сл.: filtr; **T'V'S'T'S'** – 1 сл.: tembr; **F'V'S'F'T'** - 1 сл.: verst; **S'V'F'T'S'** - 1 сл.: lüstr.

X.Прикрыто-закрытый тип **KKVK** – 84 сл.: а)Твердо-задний ряд - 54 сл.: **TSVS** – 11 сл.: dram, кron, кlan, кral, кrol и др.; **TSVT**–7 сл.: dzot, кlub, trap, blок и др.; **TSVF** – 10 сл.: qraf, qrov, plov, qrız, tras и др.; **TFVF**- 2сл.: кvas, pşav; **FTVT** – 5 сл.: sкat, şpat, ştat, ştab и др.; **FTVS** – 8 сл.: ftor, stol, stul, şpon и др.; **FTVF** – 4 сл.: staj, staz, şкaf и др.;**FFVS** – 1

сл.: svan; **FSVS** – 3 сл.: şlam, xlor, xrom; **FSVT** – 2 сл.: şlaк, fraк; **FSVF** – 1 сл.: jmıx;

б)Мягко-передний ряд .-**К’К’V’К’** – 30 сл.: **Т’S’V’F’** – 8 сл.: blef, priz plüş, pyes и др.; **Т’S’V’S’** – 2 сл.: blin, qrim; **Т’S’V’Т’** – 2 сл.: briq, treк; **Т’F’V’F’** – 1 сл.: psix; **F’S’V’F’** – 6 сл.: fleş, şlif, şlüz и др.; **F’S’V’Т’** – 2 сл.: flək, şpik; **F’S’V’S’** – 2 сл.: flör, trüm; **F’Т’V’F’** – 2 сл.: skif, şkiv; **F’Т’V’S’** – 1 сл.: sten; **F’F’V’F’** – 1 сл.: svev; **F’F’V’S’** – 1 сл.: sxem.

XI.Прикрыто-закрытый тип **КKVКК** – 40 сл.: а)Твердо-задний ряд - **КKVКК**: 23 сл.: **TSVST** – 6 сл.: blanк, planк, qrand; plomb, tromb; **TSVFF** – 3 сл.: brass, pruss, кross; **TSVTT** – 1 сл.: кlupp; **TFVST** – 2 сл.: кvarк, кvant; **TFVSF** – 1 сл.: кvars, **FSVST** – 2 сл.: franк, frant; **FSVSF** – 1 сл.: frans; **FSVFT**- 1 сл.: fraxt; **FTVST** – 5 сл.: ştanq, şlanq (2), sport, start, ştamp (3); **FTVSS** – 1 сл.: ştamm;

б)Мягко-передний ряд - **К’К’V’К’К’** – 17 сл.: **Т’S’V’Т’F’** - 1 сл.: blits; **Т’S’V’S’F’** – 1 сл.: dr+eyf;**Т’F’V’S’F’** – 2 сл.: qvelf, prins; **Т’S’V’Т’F’** – 1 сл.: pleps; **Т’S’V’F’F’** – 1 сл.: press; **Т’S’V’F’Т’** – 2 сл.: trest, tvist; **F’S’V’S’Т’**- 1 сл.: flint; **F’S’V’S’А’** – 1 сл.: frenç; **F’Т’V’Т’А’** – 1 сл.: sketç; **F’Т’V’S’Т’** – 3 сл.: smerd, spirt, stend; **F’Т’V’S’Т’** –1 сл.: şrift; **F’S’V’S’F’** – 1 сл.: şleyf; **F’Т’V’F’Т’**- 1 сл.: ştift.

XII.Прикрыто-закрытый тип **КККVК** – 3 сл.: а)Твердо-задний ряд: 1 сл.: **FFFVT** – 1 сл.: vzvod;

б)Мягко-передний ряд - **К’К’К’V̓К’**- 2 сл.: **F’Т’S’V’F’** – 2 сл.: şpris, ştrix.

XIII.Прикрыто-закрытый тип **КККVКК** - 3 сл.: Мягко-передний ряд – **К’К’К’V̓К’К’** - 3 сл.: **F’Т’S’V’S’Т’** – 2 сл.: sprint, splin; **F’Т’S’V’F’F’** – 1 сл. stress .

XIV.Прикрыто-закрытый тип **КKVККК** – 4 сл.: а)Твердо-задний ряд: **КKVККК** – 1 сл.: **FVASTF** – Şvarts;

б)Мягко-передний ряд – **К’К’V̓К’К’К’** - 3 сл.: **F’F’V’S’Т’F’** – 1 сл.:sfinкs; **F’Т’V’Т’Т’S’** – 1 сл.: speктr; **Т’S’V’F’Т’S’** - 1 сл.: Dnestr.

XV.Прикрытый тип **КVКККК** - 3 сл.: а)Твердо-задний ряд - **КVКККК** – **FVSFFT** - 1 сл.: Voljsк;

б)Мягко-передний ряд - **К’V̓К’К’К’К’** - 2 сл.: **S’V’S’S’F’Т’** – 1 сл.: nernst, **F’V’S’S’F’Т’** – 1 сл.: hernst (2, 103-105; 3, 258).

Подвергнутые анализу ОС АЯ в количестве 1370 единиц являются сингармоническими структурами. Они или твердо-задние или мягко-передние звуковые комплексы, в которых определяющую роль играют гласные.

II.Несингармонические слоговые структуры в ОС АЯ - 96 слов.

Как пишет известный азербайджанский языковед-русист Р.С.Мамедов, в ОС АЯ несингармонических сочетаний почти нет. По его подсчетам, в современном АЯ имеются всего 1756 ОС и словоформ. Из них 1716 слов (97, 7 % всех ОС) являются сингармоническими. Исключение составляют только 35 слов, которые имеют несингармоническую структуру. Они представлены двумя типами. Первый тип состоит из 4-х разновидностей: 1.**К'V**К - всего 17 слов: **T'VT**–4 сл.: k'ab, k'ap, k'ud, k'ut; **K'VF**– 6 сл.:k'ah, k'aş, k'os, k'oş, k'ov, k'uf; **K'VS** - 7 сл.: k'al, k'am, k'an, k'ar, k'ol, k'om, k'or; 2.**KVK'**– 2 сл.: **SVS'** - 1сл.: rol'; **TVT'** - 1сл.: pak'; 3.**KVK'K** – 1 сл.: **FVS'F** – val's; 4.**K'VKK** - 1 сл.: **T'VSF** - k'orş. Второй тип представлен 2-мя разновидностями: 1.**KK'V'K'** – 8 сл.: **TS'V'S'**–3 сл.: кr'em', кl'em', кr'en'; **TS'V'T'**– 2 сл.: кl'ip', кr'ep' (ткань), **TS'V'F'** -2 сл.:кr'iz', кl'if'; **TF'V'T'**–1 сл.: кv'it'; 2.**KK'V'K'K'** – 4 сл.: **TF'V'S'T'** - кv'in't', **TS'V'S'S'**– кl'ey'n', Кr'em'l', **TS'VF'T'** - кr'ex't'– всего 33 слова.

Говоря о несингармонических ОС АЯ, Р.С.Мамедов подчеркивает особую роль в их образовании двух согласных: среднеязычного **[k']** в сочетании с гласными твердыми и заднеязычного твердого [к], выступающего в сочетании с другим согласным в соседстве с мягкими гласными. Несингармонизм двух слов **КVК'** – [rol'] rol и **КVК'К** – [val's] vals в АЯ – явление, которое может быть охарактеризовано как лексико-фонетическое заимствование из РЯ и характерное только для речи известной социальной группы, - пишет Р.С.Мамедов (5, 95).

Действительно, в этих словах среднеязычный **[k′]** с гласными непереднего ряда **[a,o,u,ı]** создает несингармоническое сочетание. Но трудно согласиться с утверждением о том, что в АЯ в словах rol [rol'] «роль», rolda [rol'da] – «в роли», vals [val's] выступают сочетания [ол'] и [al'], которые следует считать несингармоническими, т.к. в них в АЯ согласный **[l]** произносится мягко (6, 200). Но мы считаем, что такое произношение данного согласного не соответствует произносительным нормам АЯ, и если оно встречается, то может квалифицироваться как нарушение произносительных норм сингармонического АЯ

Р.С.Мамедов приводит убедительные примеры на противопоставление заднеязычного согласного **[к]** и среднеязычного согласного **[k']** в АЯ: **kar-kor** [k'ar-k'or] «глухой-слепой», но **karкas** «каркас», **kolxoz** «kolxoz», **kuzə** [к'u:zə] «кувшин», но **kuzov** «kuzov», **Bakı** [bak'ı] «Баку», но akın «akın» и т.п. Сочетания (заднеязычного) твердого **[к]** с гласными непереднего ряда - **[ка], [ко], [ку], [кı]** являются сингармоническими сочетаниями, а сочетания (среднеязы-

чного) мягкого **[k’]** с «теми же» гласными - **[k’a], [k’o], [k’u], [k’ı]** – это уже несингармонические сочетания (6, 210-211).

В то же время необходимо отметить, что несингармонические слоги в ОС АЯ не исчерпываются только слогами, включающими сочетания среднеязычного **[k’]** с твердыми гласными **[a.o,u,ı]**, сюда же следует включить и сочетания двух других среднеязычных согласных АЯ **[g,y],** ведь сам Р.С.Мамедов при рассмотрении несингармонических ОС РЯ в это число включает также и сочетания среднеязычного согласного **[j]** (йот) с гласными непереднего ряда **[a,o,y],** напр., **яд** [jат], **рай** [paj], **клей** [кл’ej] (5, 181-209)..

Несингармонические односложные слоговые структуры АЯ (кроме 33 ОС с сочетаниями палатального **[k’]** с твердыми гласными и твердого заднеязычного **[к]** с другим согласным, стоящим перед или после мягких гласных **[e,i],** рассмотренных Р.С.Мамедовым) (5, 239-240) следующие:

VK – **VS’** - 3 сл.:ay, oy, uy; **KV** – **S’V** - 1сл.: ya; **KVK** – 45 сл.: **T’VF** – 1 сл.: gah; **T’VT** – 4 сл.: gap, gop, god, gud; **T’VS** – 3 сл.: gar, gor, gur; **TVS’** – 5 сл.: pay, boy, doy, toy, qıy; **FVS’** – 6 сл.: hay, huy, xay, say, vay, zay; **S’VT** - 5 сл.: yad, yat, yaк, yod, yoq; **SVS’** – 2 сл.: lay, may; **S’VS** – 9 сл.: yal, yam, yan, yar, yol, yon, yor, yum, yun; **S’VS’**– 1 сл.: yay; **S’VF** – 7 сл.: yağ, yax, yaş, yox, yoz, yığ, yıx; **AVS’**– 2 сл.: cay, çay; **KVKK** – 8 сл.: **TVS’S** – 1 сл.: taym; **S’VST** - 4 сл.: yard, yort, yırt, yurd; **S’VFT** - 2 сл.: yovt, yaxt, yuft; **S’VFS** - 1 сл.: yovm; **KKVK**K – 1 сл.: **TSVS’T** – 1 сл.: кrayt; **KKKVK** – 4 сл.: **TSS’VF** – 3 сл.: knyaz, plyaj, plyus; **TSS’VT**– 1 сл.: tryuк; **ЌКЌ’VKKK** – 1 сл.: **FSS’VSfT** - 1 сл.: Bryansк – всего 63 слова.

Как пишет Р.С.Мамедов, несингармоническими следует считать в АЯ также сочетание заднеязычного согласного **[к]** с гласным переднего ряда **[i]** в словах, напр., **fízikі, téxnikі** (вин. пад. от существительных **fízik, téxnik** и т.п.) (6, 211). Но если учесть, что в АЯ все согласные в соседстве с гласными переднего ряда смягчаются, то можно считать, что в названном сочетании заднеязычный согласный **[к]** перед гласным **[i]** должен смягчаться. В этом случае указанное сочетание будет сингармоническим.

Вот что пишет по этому поводу А.А.Ахундов: противопоставление среднеязычного **[k]** заднеязычному **[к]** не характерно для АЯ. Это связано, прежде всего, с тем, что среднеязычный **[k]** употребляется в соседстве со всеми гласными, как непередними, так и передними, а заднеязычный **[к]**, как правило, только с непередними гласными, поэтому трудно найти примеры на их противопоставление. Но все же в АЯ имеются такие примеры, которые свидетельствуют о

том, что в АЯ заднеязычный **[к]** может выступать в соседстве с гласными переднего ряда и произноситься смягченно. В АЯ есть прилагательные texni[k'i] «технический», fizi[k'i] «физический» (с ударением на последнем слоге и с среднеязычным согласным **[k']**) и есть существительные в вин. пад. téxni[к/i], fízi[к/i] (с ударением на первом слоге и с «смягченным» заднеязычным согласным **[к/]**). Звук **[k']** в прилагательных texni[k'i] и fizi[k'i] - среднеязычный согласный, а звук [к/] в существительных téxni[к/i] и fízi[к/i] - заднеязычный согласный, выступающий в соседстве с гласным переднего ряда в «смягченном» аллофоне. Как видно, пишет А.А.Ахундов, в приведенных квазиомонимах среднеязычный **[k']** и его коррелятив - заднеязычный **[к/]** выступают перед гласными - в сильной для согласных позиции и поэтому являются самостоятельными согласными фонемами АЯ: по месту образования среднеязычный глухой смычный **[k']** АЯ противопоставляется заднеязычному глухому смычному **[к/]** (3, 158). Интересным представляется его утверждение о том, что среднеязычные согласные **[k,g,y]** АЯ в соседстве с гласными непереднего ряда в составе одного слога выступают в твердых аллофонах. В таких сочетаниях наблюдается также и влияние этих палатальных согласных и на гласные непереднего ряда, которые испытывают некоторое продвижение в передний ряд, а заднеязычные согласные **<q,к,ğ>** в случаях их употребления в составе одного слога в соседстве с гласными переднего ряда влияют на реализацию этих гласных, которые, как правило, несколько продвигаются в задний ряд, а сами согласные выступают в «смягченных» вариациях: texni[к/], [q/]üllə, məş[ğ/]ələ (3, 216). А на стр.84 своей книги А.Ахундов подкрепляет свою мысль словоформой **téxnikі** и отмечает в сноске, что это вин. пад от слова **téxnik**. Такого же мнения придерживался А.Демирчизаде, который писал, что в некоторых словах среднеязычные согласные в соседстве с гласными непереднего ряда влияют на произношение этих гласных, делают их более передними, напр., слово **Bakı**, хотя пишется с гласным **[ı]**, но произносится с гласным **[i]**: [baki] (2, 187). Следует согласиться также с утверждением А.Эфендизаде о том, что заднеязычный **[к]**, выступающий в слоге с конечным гласным переднего ряда в заимствованных словах, произносится как глухой коррелят согласного **[q]**: mikrob, mikser, mexanik, elektrik, fabrik и т.д. (7, 146).

Литература

1.Алиев Г.Р. Разновидности слогов в словах, заимствованных из европейских, в современном азербайджанском языке. Ученые записки АПИ им. Ленина, XI серия, 1970, № 1.
2.Dəmirşizadə Ə. Müasir Azərbaycan dili. I hissə (Fonetika, orfoepiya, orfoqrafiya), Ali məktəb tələbələri üçün dərslik, Maarif, Bakı, 1972, 308 s.
3.Axundov A. Azərbaycan dilinin fonetikası. Ali məktəb üçün vəsait. Bakı, Maarif, 1984, 302 s..
4.А.Г.Алекперов. Фонетика / Грамматика азербайджанского языка. Баку, Элм, 1971, с.26-27.
5.Мамедов Р.С. Фонетическая структура слова русского и азербайджанского языков. Баку, Мутарджим, 2007, с.209-240.
6.Мамедов Р.С. Вокально-консонантная синтагматика в русском и азербайджанском языках, Баку, Мутарджим, 2006, 308 с.
7.Əfəndizadə Ə.R. Orfoqrafiya - orfoepiya … lüğəti. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 151 s.

N. Hacıyeva

Azərbaycan dilinin təkhecalı sözlərinin heca quruluşu

Xülasə

Tədqiq olunan təkhecalı sözlərin ümumi sayı 1466-dır, onlardan 1370-i sinqarmonik, 96-sı qeyri-sinqarmonik sözlərdir. 2 cür sinqarmonik sözlər vardır: a)qalın (**[dan]**) və b)incə (**[d'ə'n'**]) səs tərkibli sözlər. Qeyri-sinqarmonik sözlərin səs tərkibi isə həm qalın, həm də incə səslərin birləşməsi hesabına əmələ gəlir: a)bir halda dilortası incə **[k,g,y]** samitləri qalın saitlərlə **(k'os, g'ur, y'ağ)**, b)ikinci halda dilarxası qalın **[ĸ]** samiti özündən sonra gələn başqa samitlə birlikdə incə saitlərlə birləşmədə iştirak edır **(ĸr'e'm', ĸl'i'p')**.

Məqalədə ilk dəfə olaraq Azərbaycan dilinin təkhecalı sözlərinin heca quruluşu samitlərin əmələ gəlmə üsuluna görə səslilik dərəcəsinin fərqlənməsi (**S** – sonor, **F** – frikativ, **T** – kipləşən və **A** - affrikat samitlər) əsas götürülərək tədqiq olunur. Məs., ən çox – 601 sözü əhatə edən **KVK** heca tipi 15 qalın: **TVT** (29 söz), **TVS** (40 s.), **TVF** (49 s.), **TVA** (9 s.); **FVT** (17 s.), **FVS** (35 s.), **FVF** (29 s), **FVA** (4 s.); **SVT** (8 s.), **SVF** (26 s.), **SVS** (22 s.), **SVA** (2 s.); **AVT** (6 s.), **AVS** (14 s.), **AVF** (12 s.) və 15 incə: **T'V'T'** (24 s.), T'V'F' (59 s.), **T'V'S'** (53 s.), **T'V'A'** (10 s.); F'V'T' (11 s.) , **F'V'S'** (35 s.), **F'V'F'** (23 s.), F'V'A' (3 s.); **S'V'S'** (22 s.), **S'V'T'** (14 s.), **S'V'F'** (16 s.), **S'V'A'** (2 s.); A'V'T' (9 s.), **A'V'S'** (13 s.), A'V'F' (5 s.) –

yəni 30 heca növündən ibarətdir. Təkhecalı sözlərin miqdarına görə (402 söz) ikinci yeri KVKK tipli heca tutur. Bu heca tipinin 38 heca növü aşkar edilmişdir. Bunlarla müqayisədə kiçik miqdarda sözdə iştirak edən heca tipləri də vardır, məs., **VKKK** – 2 söz, 1 növ, **KKV** tipli heca – 3 söz, 2 növ, **V** tipli heca – 10 söz, 2 növ və i.a.

N.Haciyeva

Syllabic Structure of Monosyllabic Words in Azerbaijani

Summary

The total number of researched monosyllabic words is 1466, 1370 of them are synharmonic, 96 of them are non-synharmonic words. There are 2 types of synharmonic words with a) hard (**[dan]**) and b) soft (**[d'ə'n']**) sound structure. Sound structure of non-synharmonic words is formed by connection of both hard and soft sounds: a) soft dorsal consonants **[k, g, y]** with hard vowels (**k'os, g'ur, y'ağ**), b) hard velar consonant **[ĸ]** participates in combination with soft vowels following it (**ĸr'e'm', ĸl'i'**p').

Syllabic structure of monosyllabic words in Azerbaijani are for the first time researched in the paper taking into account sonority hierarchy difference in the manner of production of consonants (**S** – sonore, **F** – fricative, **T** – occlusion plosive and **A** - affricate). For example, **CVC** syllable type covering the greatest number of words (601) consists of 30 syllable variations: 15 hard – **TVT** (29 words), **TVS** (40), **TVF** (49), **TVA** (9); **FVT** (17), **FVS** (35), **FVF** (29), **FVA** (4); **SVT** (8), **SVF** (26), **SVS** (22), **SVA** (2); **AVT** (6), **AVS** (14), **AVF** (12) and 15 soft – **T'V'T'** (24), **T'V'F'** (59), **T'V'S'** (53), **T'V'A'** (10); **F'V'T'** (11), F'V'S' (35), **F'V'F'** (23), **F'V'A'** (3); **S'V'S'** (22), **S'V'T'** (14), **S'V'F'** (16), S'V'A' (2); A'V'T' (9), **A'V'S'** (13), **A'V'F'** (5). **CVCC** syllable type takes second place in the number of monosyllabic words (402). 38 syllable variations of that syllable type was found. In comparison with them there are syllable types participating in words in a slight degree, for example, **VCCC** syllable type – 2 words, 1 variation, **CCV** syllable type – 3 words, 2 variations, **V** syllable type – 10 words, 2 variations and etc.

Rəyçi: Tamill Hacıyeva
Filologiya elmləri doktoru, professor

.

MƏTANƏT AĞASİYEVA
Sumqayıt Dövlət Universiteti
agasiyeva1983@gmail.com

QANTƏMİRİN NƏSR DİLİNDƏ KOMİK TROPLAR

Açar sözlər: trop, bədii təyin, müqayisə, mübaliğə, poetik fiqur
Ключевые слова: тропы, художественное определение, сравнение, преувеличение, поэтическая фигура
Key words: trop, artistic attribute, comparison, hyperbole, poetic figure

Sözün bədii təsiri, təbii ki, onun məcazi mənasında daha da güclənir. Odur ki, bədii təsvir vasitələri bədiiliyin, o cümlədən də komizmin ifadəsi üçün ən effektiv vasitədir. Nəsr əsərlərində, adətən, troplar o qədər də rəngarəng şəkildə, aktiv mövqedə olmurlar. Komik hekayələri ilə bədii ədəbiyyatımızı zənginləşdirən Qafur Əfəndiyevin (Qantəmir) nəsrində də komizm, əsasən, sözün leksik, qrammatik potensiyalı əsasında yaransa da, onun məcazi mənasına istinadən qurulmuşdur. Onun yaradıcılığında tropun bədii təyin, müqayisə və mübaliğə kimi növlərinə rast gəlirik.

Bədii təyin elə bir poetik fiqurdur ki, onun məzmunu əksər hallarda bədii təsvir yaradır. Komik təyinlərdə isə bu təsvirlər, adətən, karikatur şəklini alır. Məsələn:

"Qonağımın səyahətnaməsi" hekayəsində bədii təyinin məhz bu şəklinə rast gəlirik: *"Saçlarını iki qulağının qabağından İtaliya xəritəsivari sallandıran intelligent iddia edirdi ki, o qoyunların ətini dilinə vurmaq olmaz!"* [4, 271].

Bu cümlədə təyin mürəkkəb quruluşa malikdir ki, onun bu qrammatik forması həm də komizmin çoxqatlılığı deməkdir. Yazıçı komizmi dərinləşdirmək üçün zahirin mərtəbəli təsvir formasından istifadə etmişdir. O, intelligentin bakenbordlarının İtaliya xəritəsinə oxşarlığını birbaşa təsvir etməmişdir. Bu təsvir bakenbordun özünün təsviri üzərində qurulmuşdur. Müəllif məqsədli şəkildə onun adını çəkmədən təsvirini verir. Təsvirdə predmetin primitiv şəkildə, loru tərzdə - "saçlarını iki qulağının qabağından" kimi izahı gülüş doğurur. Diqqət edək ki, yazıçı təsvirdə "iki qulaq" ifadəsini işlədir. Normativ dilə görə iki sözünün qulaq sözünə yanaşması qrammatik cəhətdən düzgün, üslubi baxımından isə nöqsanlıdır və artıq söz yerindədir. Amma aydındır ki, komik dil normalara tabe deyil, bədii-üslubi maraqlar baxımından normaların pozulması özü bu dil üçün "norma"dır. Bakenbord anlayışının izahındakı iki qulaq ifadəsi də bədii-üslubi məqsədlərə xidmət edir, təsvirdəki loruluğu gücləndirir və nəticədə təhkiyənin komik çaları artır. Yazıçı obrazın komik bədii portretini yaratmaq

üçün mümkün qədər onu əcaib-qəraib şəkildə təsvir etməyə çalışır, buna görə də təyinin əsas hissəsini - bakenbordun özünün təsvirini İtaliya xəritəsinə oxşadır. Hətta bakenbordun nə olduğunu bilməyən, yaxud İtaliya xəritəsi ilə tanış olmayan oxucu da obrazın iki qulağının qabağından sallanan saçların nəsə gülməli bir şey olduğuna əmin olur.

Aydındır ki, komizm bədii ifadəetmə üsulu kimi öz ifadəsini poetik fiqurlarda tapır, lakin Qantəmir nəsrində təyinedici sözün bədii təyin dərəcəsinə yüksəlməyib yalnız qrammatik təyin olaraq qalması onların komik bədii detal kimi çıxış etməsinə mane olmur. Məsələn, bir nümunəyə nəzər salaq: *"Apardım 12-ci otağa, başı tüklü bir rus oturmuşdu, aldı, baxdı."* [4, 194].

Bu cümlədə yazıçının obrazın zahiri ilə bağlı qurduğu təyin bədii portret yaratmaq yox, komik təsvir almaq məqsədinə xidmət edir. Aydındır ki, obrazın təsvirində elə xüsusiyyətdən söz açılır ki, o, xüsusi diqqət doğursun. Göründüyü kimi, "başı tüklü" təyinində normal bir xüsusiyyət - başın tüklü olması təsvir edilir. Ancaq nəzərə alaq ki, "Düzəlmədi" hekayəsində bu təsvir təhkiyəçinin - avam bir insanın dilindən verilir. Dövlət idarələrinin süründürməçiliyinə məruz qalan və əslində nələrin cərəyan etdiyini sona qədər anlamayan bu insan üçün növbəti girib-çıxdığı kabinetdə rastlaşdığı rus məmurunun zahirində onun diqqətini cəlb edən və yadında qalan keyfiyyət onun başının tüklü olmasıdır. Rus məmurunun başının tükünü əcaib-qəraib bir xüsusiyyət kimi yaddaşına həkk etməsi onun evin sənədləşməsi ilə bağlı dövlət idarələrinə etdiyi get-gəllərdən qavrayışının sıfır olduğunu ifadə edərkən situasiyanın komizmini də artırır.

Qantəmir təhkiyənin leksik-sintaktik strukturunda təyinlərin komizm yaratmaq imkanlarından geniş istifadə etmişdir: *"Bu yaşda bir qadın xeylağının ağzından o qədər rəngarəng söyüşlərin çıxmasına mən ehtimal verməzdim."* [4, 280]; *"Yağlı ət arzusundakı kişi xanım Əminəyə dedi."* [4, 279].

Bu cümlələrdə "rəngarəng" və *"*yağlı ət arzusundakı*"* təyinləri yalnız informativ yüklü leksik-sintaktik fiqur deyil, həm də komik bədii detaldır. Belə ki "rəngarəng söyüş" ifadəsində rəngarəng təyinin söyüş kimi vulqar bir anlayışa verdiyi tərif, "yağlı ət arzusundakı kişi" birləşməsində isə arzunun qeyri-nəcibliyi komizm yaradır.

Məlumdur ki, bədii portret bədii xarakterin yaradılması üçün istifadə olunan ən kəsərli vasitələrdəndir. Oxucu təsəvvüründə obrazın xarakterini onun portret təsviri tamamlayır, bütövləşdirir. Xüsusən də, satirik xarakterin təsvirində satirik portretin təsviri daha effektli olur. Bədii portretin, o cümlədən də satirik portretin təsvirində bədii təyin aktiv şəkildə iştirak edir. "Vəsiyyət" hekayəsində Qantəmir bədii portreti bədii təyin vasitəsilə rəsm

edir: *"O, sizin bildiyiniz qarqaburun, muncuqgöz, təzəcəsaqqal Hacılara bənzəməz."* [4, 223].

Burada satirik effekti gücləndirmək üçün bədii təyin yalnız bədii təsvir yox, həm də bədii müqayisə funksiyasını yerinə yetirir. Müəllif qarqaburun, muncuqgöz, təzəcəsaqqal təyinlərində birbaşa obrazı təsvir etmir, onun zahiri görünüşünü digər Hacıların zahiri təsviri ilə müqayisəyə çıxarır. qarqaburun, muncuqgöz, təzəcəsaqqal təyinlərinin komik effekti bu müqayisədə daha da güclənir. Bu təyinlərin təsviri Hacıların zahiri yox, daxili keyfiyyətlərinə daha çox işarədir. Bu keyfiyyətlərin mənfi çaları qarqaburun, muncuqgöz, təzəcəsaqqal təyinlərinin komik boyalarında verilir. Diqqət etsək görərik ki, bu təyinlərin hər biri mürəkkəb qrammatik quruluşa malikdir. Burun, göz, saqqal kimi bədən üzvlərinin qarşısına qarqa, muncuq, təzəcə kimi artırılmış sözlər onların təsvirinə komik çalar verərək komizmi daha da gücləndirir.

Qantəmir bədii portretin təsvirində vulqar sözün komik potensialından da istifadə etmişdir: *"Bir az dayanmışdım, yanımdan on beş yaşında,* ***sarıbaş*** *bir qız gəlib keçdiyini görürəm"* [4, 187]; *"Sonra* ***yekə bığlı, yoğunqarın*** *bir fəhlə çıxıb danışdı"* [4, 208].

Burada vulqar sözlər predmetin daxili kefiyyətlərinin bədii təyini kimi çıxış etmişdir.

Qarnı yanmış *Zəhrabəyim onsuz da deyəcəkdir ki, Aybikə kəndi dağıdır.* [4, 322].

Qantəmir nəsrində bədii təyinin işləndiyi məqamlardan biri də satirik adların yaradılmasıdır. "Aybikə xala" hekayəsində Qarğa Vəli, Yorğa Həşim, "Kolxozıstan" povestində Lüt Rəcəb, "Sara bibi" hekayəsində Yumurta Heydər, Çopur Zeynəb kimi adların hər biri aşağı təbəqənin, kasıbların ünvanıdır. Məlumdur ki, Qantəmirin nəsri sosial-sinfi münasibətlərin istər ictimai-siyasi müstəvidə, istərsə də bədii müstəvidə həllinin aktual olduğu dövrdə yaranmışdı. Əslində yazıçının işlətdiyi bu bədii təyinlərin məzmunu həmin münasibətləri özündə əks etdirir. "Sara bibi" hekayəsində bəy arvadı Sara bibinin dilindən eşitdiyimiz Çopur Zeynəb, Yumurta Heydər adlarındakı bədii təyinlər (ləqəblər) onun aşağı təbəqənin insanlarına həqarətli münasibətini tamamlayır. Həm də onu qeyd edək ki, qarğa, lüt, çopur, yumurta bədii təyinlərində aid olduqları obrazın sosial-sinfi mövqelərinə həm də satirik bir işarə var.

Beləliklə, yazıçı antroponomik modellərdən (ləqəb+ad) istifadə edərək maraqlı bədii təyin yaratmağa nail olmuşdur.

Bəzən fikrin satirik ifadəsi üçün yazıçıya dilin ədəbi və yaxud qeyri-ədəbi dil bazasında olan sözlər kifayət etmir. Satirik sənətkar dilin söz bazasına deyil, söz yaradıcılığı imkanlarına müraciət edir. Böyük rus satiriki Qoqolun yaradıcılığında da bu xüsusiyyət özünü göstərirdi. "Qoqolda gülüş

yaratma vasitələrindən biri qeyri-təbii söz yaradıcılığı və ya lüğətdə olmayan sözlərin işlənməsidir" [5, 102].

Qantəmirin yaradıcılığında da bu üsuldan istifadə edilmişdir: "Söz dağarcığı" hekayəsində onun paxırını açan məqaləyə obrazın qeyzini satirik tərzdə ifadə etmək üçün müəllif "nağıllı" sözünü uydurur: *"Rayon qəzetəsi iri xətt ilə adını yazıb altında bir nağıllı məqalə buraxır"* [4, 312].

Bu cümlədə məqalə sözünə bədii təyin kimi yanaşan "nağıllı" leksik vahidinin yaratdığı paradoksallığın komizmi vardır. Belə ki bu sözün kökünün ifadə etdiyi uydurmaçı, fantastik məzmuna sığınaraq məqaləni qeyri-ciddiliyi ilə bağlı təsəvvür formalaşdırmaq istəyən obazın özünün ciddiliyi şübhə altına düşür və komizmin yaranmasına səbəb olur.

"Mənim tələbəm" hekayəsində obrazın satirik xarakterinin cizgilərini müəllif onun geyimində də çizir:

"Dördüncü gün, butulka şalvarda, lotkaburun batinkada idi" [4, 184].

Bu cümlədə işlənmiş butulka, lotkaburun təyinləri ilə müəllif oxucunun təsəvvüründə obrazın geyiminin karikaturik şəklini çizmək istəmişdir və məqsədinə nail olmuşdur.

Qantəmir bu hekayədə tələbənin geyimini bədii gülüşün hədəfində təsvir etmək üçün metonimiyadan da istifadə etmişdir. Bu obrazın yaşam, düşüncə tərzinin mənasızlığını, bivecliyinin onun geyimində satirik təsvir obyektinə çevirmək istəyən yazıçı belə bir metonimiya qurur:

Altıncı gün bütün Avropanı-Amerikanı bir-birinə qarışdırmışdı [4, 184].

Mədəni tərəqqi arxasınca kənddən şəhərə gələn tələbənin artıq altıncı gün bu dərəcədə "tərəqqi etməsi" gülüş doğurur.

Prof. Q.Kazımov yazır: "20-30-cu illərin bütün satira üstaları müqayisələrdən komik-bədii vasitə kimi faydalanmışdır. Lakin, şübhəsiz, bu cəhət bütün sənətkarlarda eyni səviyyədə deyildir, satira yaradıcılarının müqayisə obyektləri fərqləndiyi kimi, onların müqayisələrdən istifadə meylinin dərəcəsi də fərqlənir. Bəzi yazıçıların yaradıcılığında komik müqayisələr o qədər də nəzərə çarpmadığı halda, bəzi yazıçıların, xüsuən Qantəmir və Mir Cəlalın nəsrində komik müqayisələrə meyl daha artıq hiss olunur. Bu hal ümumən yazıçının üslubundan, yazı manerasından asılıdır" [2, 127].

Bədii müqayisələrin satirik keyfiyyəti, adətən, müqayisə detallarının uyğunsuzluğu üzərində qurulur. "Satirik əsərlərdə müqayisələr gülüş vasitəsi kimi çıxış etdiyindən, satira müəllifi incə, zərif, lirik təəssürat doğuran müqayisələrə deyil, əksərən kobud, kəskin vulqar müqayisələrə daha çox müraciət etməli olur. Bu hal mənfi obraza müəllif münasibətini aşkar edən, komik effekt yaradan bir hal olub, satirik əsərlərin əsas xüsusiyyətlərindən biri kimi səciyyəvidir" [3, 134].

Firqə qurultaylarından, çarizmdən, Fransa inqilabından az-çox cavab verə bilən tələbələr "beşillik plan", "Çin hadisələri", "Sağ təmayül", "Sənayeləşdirmə" mövzularından bir turşu alça qədər dadmamışlardı [4, 149].

Söz arasında mənə ərəb kəlməsi, farsi lüğəti rast gələndə elə bilirəm çörək yeyəndə dişimin altında xırdaca daş parçası qalıb xırçıldayır. [4, 198].

Bənzətmə fiqurları, adətən, yüksək estetik keyfiyyətə malik əşyalar olur. Bu nümunələrdə mövzu haqqında biliyin turş alça ilə, ərəb-fars sözünün çörək yeyəndə dişin altında qalmış diş parçası ilə müqayisəsinin yaratdığı qeyri-estetik, qeyri-poetik məzmun komizm doğurur.

Qantəmir nəsrində uyğunsuzluğun müxtəlif formalarından komik fiqur kimi istifadə edilmişdir. Bu bədii üsul onun yaradıcılığında heç də həmişə bənzətmə fiqurlarının uyğunsuzluğu üzərində qurulmur, bənzədilənlər əslində müqayisəyə gələn əşyalardır. Belə müqayisələrdə komiklik qarşılaşdırmanın doğurduğu məzmunla bağlı olur. Məsələn, aşağıdakı cümləyə diqqət edək: *"Hətta o, bir məclisdə mənə dedi ki, kişnişə nisbətən tərxun avropalıdır"* [4, 199].

Qantəmir bu nümunədə uyğunsuzluğu bir-birinə yaraşmayan iki predmetin tapılması kimi asan bir variantda qurmamışdır. Tərxunla kişniş eynicinsli bitkilərdir və onların müqayisəsi gülüş doğurmur. Komiklik bu bitkilərin müqayisəyə gətirilməsinin məqsədində və gəlinən nəticədədir. Burada uyğunsuzluq Avropa tərzini münasib olmayan yerdə - göyərtidə axtarılmasındadır. O, elə dil elementlərini bədii vasitəyə çevirmişdir ki, onların uyğunsuzluğu satirik məzmunla müşayiət olunmaqla yanaşı, həm də dərin məna-mahiyyət kəsb edir. Belə ki keşnişin yerli, tərxunun isə avropalı kimi xarakteriskası ilə Qantəmir həmin dövrdə cəmiyyətdə mövcud olan kor-koranə avropalaşmaq tendensiyasına çox ümumiləşmiş və komik şəkildə işarə etmişdir.

Qantəmirin nəsr dilində elə bənzətmə fiqurlarına da rast gəlirik ki, onlar yazıçının yaradıcılıq məhsulu deyil, dildə formalaşmış, az qala qəlibləşmiş müqayisələrdir: *"Lakin Sürəyyanın qəlbi üçüncü mərtəbədən yerə atılan bir şişə parçası kimi qırılmışdı"* [4, 331].

Qəlb qırıntısının şüşə parçasına bənzədilməsi dilimizdə işlənən və kifayət qədər poetik gözəlliyə, bədii-estetik məzmuna malik müqayisədir. "Qəlbi üçüncü mərtəbədən yerə atılan" feli sifət tərkibinin "şişə parşası" bənzətmə fiquruna təyin kimi yanaşması bu müqayisənin poetik gözəlliyini pozmuş, komik keyfiyyət vermişdir.

Yaxud "Kolxozıstan" povestində müqayisənin komizmi frazeoloji birləşməyə istinadən qurulub: *"Yumurtası tərs gələn toyuq kimi o tərəf-bu*

tərəfə çapalayır və patrondaşlarını heybəsinə yerləşdirə-yerləşdirə deyirdi" [4, 15].

Aydındır ki, komizm elə bir bədii ifadə vasitəsidir ki, onun bədii hədəfində həmişə tənqid dayanır. Müqayisə isə tənqidi təhlillərin verilməsi üçün ən tutarlı vasitədir. "Söz dağarcığı" hekayəsində bədii müqayisədə müəllif dövr üçün son dərəcə əhəmiyyətli sosial-ictimai bir məsələni mövzuya çevirmişdir: *"Amma bir çox kişilərin qadınlar haqqındakı fikirləri dəvə quyruğu kimi öz yerində qalır"* [4, 307].

Burada müqayisənin yaratdığı komizmin effekti güclü olduğu kimi, tənqidi çəkisi də ağırdır. Tənqidin bu ağırlığına müəllif onun obrazlı şəkildə ifadəsi ilə nail olmuşdur. Çünki obrazlı dil daha effektiv və təsirli dildir. Bu nümunədə müqayisənin linqvistik təhlilinə nəzər salanda görürük ki, o, mücərrəd və konkret əşyalar arasında qurulmuşdur. Fikir kimi vizuallıq ilə heç bir əlaqəsi olmayan əşyaya müəyyən bir zahiri formanın verilməsi bənzətməni gülünc etmişdir.

Yazıçı əsərin digər bir məqamında da Azərbaycan kişisinin təfəkküründə qadın mövzusuna bu müqayisənin bədii ifadəsində qayıtmışdır.

- *Heç... fikrim budur ki, bunlar xalis dəvə quyruğudurlar. Qadınlar haqqında bu adamların düşüncələri bircə santimetr olsun, qabağa uzanmamışdı. [4, 308].*

Müəllif yenidən bu müqayisəyə qayıtmaqla təkrara yol verməmişdir. Belə ki ondan istifadə etməklə fikrin yeni şəkildə tənqidi-satirik ifadəsini qurmuşdur. Burada düşüncənin konkret əşya ilə müqayisəsi deyil, onun konkret əşya kimi ölçü şkalasına qoyulması gülüş doğurur.

Qantəmir nəsrində bəzən komik müqayisə dialoq mövzusuna çevrilərək gülüşü daha da şiddətləndirir. Məsələn, "Şarlatan" hekayəsində tüfeyli həyat keçirən obrazlar arasındakı söhbətə nəzər salaq:

- *Çaxır tuluğu kimi. Elə bil püfləyib doldurublar.*

- *Onda motal kimi de də, çaxır tuluğunu püfləməzlər.* [4, 293].

"Sürəyyanın qaynanası" hekayəsində komik müqayisənin effekti yalnız müqayisə predmetlərinə söykənmir: *"Bağban Haşım ona dəymiş bir qarpız və ya yetişmiş bir armud kimi baxırdı" [4, 328].*

On yaşlı Sürəyyanın armud və ya qarpızla müqayisəsinin yaratdığı gülüşü həm də bu müqayisəni quran şəxsin bağban olması daha da artırır.

"Qisas alındı" hekayəsində müəllif mənfi surətin ölüm səhnəsini belə təsvir edir: "Bu halda atılan güllələr bəyin kəlləsini qarpız kimi partlatdı" [4, 210].

Məlumdur ki, "Qisas alındı" hekayəsi satirik əsər deyildir. Ancaq satirik təhkiyəyə meyl Qantəmirin bütün əsərlərində özünü göstərir. Güllələrdən parçalanan kəllənin partlayan qarpıza bənzəməsi karikaturik təsvir yaratmışdır. Yazıçının satirik təhkiyəsi üçün komizmi bütün cümlənin

məzmununa deyil, bir sözə yaxud ifadəyə istinadən qurmaq xarakterikdir. Adətən, sintaktik konstruksiyanın bütün detallarının ansambl şəklində qurduğu mübaliğə də Qantəmirin nəsr dilində yalnız bir sözün və ya ifadənin ağırlığı üzərində qurulur.

Qantəmirin nəsrində satirik mübaliğənin linqvistik strukturunu daha aydın dərk etmək üçün onun nəsrində mübaliğənin ifadə şəklinə baxaq: *"Adam lap ürəkdən kommunist olsun, millətbaz olsun, idealist, sofiməzhəb olsun, şeyx olsun, peyğəmbər olsun, nə olur-olsun, yenə Hacı Əliqulu ona lazım olur"* [4, 220].

"Hacı Lələ" hekayəsində obrazın satirik xarakterinin bu təsvirinin mübaliğəli formasını "peyğəmbər" sözü yaradır. Əgər bu sözü cümlədən çıxarsaq, fikrin ifadəsində şişirtmə də yox olur.

Mübaliğə, xüsusən, təsvirin satirik bədii ifadəsində ən uğurlu bədii vasitələrdəndir. "İntelligent" hekayəsində Qantəmir obrazın üzərinə gülmək üçün onun geyimini mübaliğəli şəkildə təsvir edir: *"Şalvarının qalifesində ikiyaşar dovşan balası asudəcə gizlənə bilərdi"* [4, 182].

Qantəmirin nəsrində komik dil ansablında tropların həcmi böyük olmasa da, effektivliyi güclüdür. Onların xalq dilinin sintaksisinə yaxın şəkildə qurulması bu effektivliyi təmin edən əsas vasitələrdən olmuşdur.

Ədəbiyyat

1. Əhmədov B. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980). Bakı, Elm, 2000

2. Kazımov Q. Komik bədii vasitələr. Bakı, Yazıçı, 1983

3. Kazımov Q. Seçilmiş əsərləri. II cild, Bakı, Nurlan, 2008

4. Qantəmir. Seçilmiş əsərləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1972

5. Мандельштам. О характере гоголевского стиля. Гельсингфорс, 1902

M.Agasiyeva

Comisim of trops in Gantemir's prose language

Summary

Although comisim in Gantemir's prose created on the base of lexical and grammatical potential of words it was formed referring by figurative meaning. In his activity trop as an artistic attribute, their comparison and hyperbole types were studied in this article and firstly systematized. Even not being in a large volume of trops in comic language group of Gantemir's prose, but their effect is more powerful.

Comisim found itself as an artistic expressing method in poetic figure but it is not increase to attribute degree of modifier word. It remains only as grammatical attribute but does not make an obstacle to perform as comic artistic detail. Forming comisim opportunities of attributes in the lexical semantic structure of his prose are firstly evolved to the investigation in this scientific article.

М.Агасиева

Комизм тропов в языке прозы Кантемира

Резюме

Несмотря на то, что комизм в прозе Кантемира создается на основе лексического, грамматического потенциала слова, оно строится, опираясь на его переносный смысл. В статье рассматриваются и впервые системно анализируются такие типы тропов в творчестве Кантемира, как художественное определение, сравнение, преувеличение. Хотя в ансамбле комического языка прозы Кантемира тропы занимают небольшое по объему место, их эффективность очень высока.

Использованные в языке прозы Кантемира сравнения образов и событий, выражающие критико-сатирическое отношение к различным предметам в основном носят вульгарный характер.

Несмотря на то, что комизм как способ художественного выражения находит свое воплощение в поэтических фигурах, в прозе Кантемира определяющее слово не поднимается до уровня художественного определения, оставаясь только грамматическим определением, в то же время это не мешает им выступать как комическая художественная деталь. Также в статье впервые привлекаются к исследованию возможности определений создавать комизм в лексико-семантической структуре прозы Кантемира.

Rəyçi: Qəzənfər Kazımov
Filologiya üzrə elmlər doktoru, professor

DÜRNİSƏ AĞAYEVA
ADU
durniseagayeva@gmail.com

İSPAN MƏTBUAT MƏTNLƏRİNDƏ İNGİLİS DİLİNDƏN ALINMA SÖZLƏRİN İŞLƏDİLMƏSİ

Açar sözlər: ingilis dilindən alınma sözlər, informasiya cəmiyyəti, virtual mübadilə, publisistik mətn
Ключевые слова: Английские заимствования, информационное общество, интеракция, виртуальный, публицистический текст
Key words: English borrowings, information society, interaction, virtual, journalistic text

Tarixi inkişafın müasir mərhələsində bəşəriyyət sürətlə informasiya cəmiyyəti dövrünə daxil olur, müasir informasiya və telekomunikasiya texnologiyaları dilçiləri dilin müxtəlif mərhələlərində artıq klassik bir hala çevrilmiş dillər arasındakı qarşılıqlı əlaqəni daha diqqətlə tədqiq etməyə məcbur edir.

Müasir dilçiliyin mərkəzində cəmiyyətin bütün sahələrində qlobal dəyişikliklər nəticəsində yaranmış dillər və mədəniyyətlər arası əlaqələrlə bağlı məsələlər durur. Dilin inkişafı cəmiyyətin inkişafı ilə sıx bağlıdır. Dilin lügət tərkibinin öyrənilməsində ilk növbədə dilin inkişaf tarixində mövcud olan qanunauyğunluqları, bu cəmiyyətin inkişaf etdiyini və digər cəmiyyətlərlə bir birinə siyasi, iqtisadi, sosial və mədəni şərtlər altında qarşılıqlı təsir göstərdiyini nəzərə almaq lazımdır.

Ə.Dəmirçizadə alınma sözləri şərti və nisbi adlandırır [1, s. 91]. O, bu aspektdən alınmalara yanaşaraq, onların mahiyyətini belə izah edir: «Alınma söz anlayışı həm mürəkkəb, həm də şərti bir anlayışdır. Müasir Azərbaycan dilinin üslubiyyatında alınma sözlər dedikdə, əsasən, başqa dillərdən alındığı dərin tarixi tədqiqat aparmadan məlum olan və üslubi məqsədəuyğunluq çalarlığı nöqteyi-nəzərindən mənşə mənsubiyyətinə görə xüsusiyyət təşkil edən sözlər nəzərdə tutulur. Buna görə də bu növ sözləri əcnəbi sözlər adlandırırıq ki, beləliklə də, bu termin anlayışı geniş mənada işlədilən «alınma sözlər» anlayışına daxil olmaqla bərabər, daha çox poetikada, üslubiyyatda barbarizm termini ilə ifadə olunan anlayışa yaxın bir mənada işlədilən termin kimi də anlaşılmasın və ondan fərqləndirilsin» [1, s. 91-92].

İspan dilçisi Qloriya Gerero Ramos özünün "Müasir İspan dilində neologizmlər" adlı kitabında yazır ki, "Alınma sözlər demək olar ki həmişə mədəniyyətdə, iqitsadiyyatda hegemon olan dövlətdən və ya alınmaların keçdiyi sahədə xidmətləri olan ölkələrdən gəlir ". Cəmiyyətin öz inkişafının

postindustrial daha sonra isə informasiya mərhələsinə keçidin əsas meyarlarından biri əmək qabiliyyətli əhalinin sosial – iqtisadi və ya məşğulluq sahəsindəki nisbəti ola bilər. Professor İ.V.Sokolova qeyd edir ki, göstərilən meyar üzrə ABŞ öz inkişafının postindustrial mərhələsinə 1956 cı ildə keçib, 1974 – cü ildə isə informasiya cəmiyyəti olub. (2:7) Sözsüz ki, ABŞ – ın "informasiya hökmranlığı" müasir dil proseslərinə təsirsiz ötüşə bilməz. Bizim tədqiqatımız üçün informasiya cəmiyyəti şəraitində və onda gedən qloballaşma prosesləri nəticəsində İngilis dilindən İspan dilinə keçən alınma sözlərin problemləri xüsusilə aktualdır.

"Dillərarası münasibət" termini ilk dəfə olaraq 50 – ci illərin əvvəllərində fransiz dilşünası A.Martine tərəfindən təklif olunsa da ilk dəfə olaraq amerikan dilçi U.Vaynrayx tərfindən geniş tədbiq olunub. Bu məfhum "dillərin qarışması", "dillərin kəsişməsi", "dillərin qarşılıqlı təsiri", "dillərin qarşılıqlı əlaqəsi" kimi də adlanib.

Eyni zamanda müasir informasiya cəmiyyəti tərkibində "interaksiya", "interaktivlik", "interaktiv" və.s məfhumlari olan bir neçə yeni təriflər – definisiyalar yaradır. "İnteraktiv" igilis sözü olan "interact" (inter – qarşılıqlı, act fəaliyyət). Müasir terminologiya linqvistik alınmalar prosesine aydınlıq gətirə bilər.

Dillərin qarşılıqlı təsiri və bir – biriləri ilə qarışmış xüsusiyyətləri haqqında İ.A.Boduen de Kurtene, L.V.Şerba və.s kimi dahi dilçilər tədqiqat aparmışlar, lakin bununla belə hər bir tədqiqatçı öz izahını verərək bu və ya digər terminin izahında qeyri müəyənliyə səbəb olmuşdular. İ.A.Boduen de Kurtene "dillərin qarişması" deyərkən bir dildən digər dilə bu və ya digər elementlərin keçməsini həmçinin həmin dildə danışan hər bir şəxsin nitqində baş verən dəyişiklikləri nəzərdə tuturdu. Bununla belə o bütün dillərdə dillərarası əlaqənin mövcudluğunu da qeyd edirdi, onun fikrinə görə dillərin bir birinə qarışması və ya qarışmaması məsələsinə nəzər salsaq görərik ki, təmiz – qarışmamış bir dil yoxur. [3: 363].

Akademik L.V.Şerba dillərin qarşılıqlı əlaqəsi anlayışını dilçilikdə ən qaranlıq mövzulardan biri hesab edib, onu "dillərin bir – birinə qarşılıqlı təsiri" termini ilə əvəz etməyi təklif edib.[4: 40-53]. Qeyd etmək lazımdır ki, dillərin bir biri ilə əlaqəsi mədəniyyətlər arası əlaqə ilə müşayiət olunur, çünki, dillər öz – özünə deyil, o dildə danışan insanların qarşılıqlı olaraq sosial və nitq fəaliyyəti nəticəsində bir – biriləri ilə əlaqə yaradırlar. Dillərin və xalqların bir – birinə qarşılıqlı təsiri mütləq şəkildə dillər arasında əlaqəyə gətirib çıxardır və bunun da nəticəsində bir – birindən tipoloji cəhətdən fərqlı dillər arasında qarşılıqlı təsir və qarşılıqlı fəaliyyət yaranır. Dillər arasında yaranan əlaqə nəticəsində ya leksika sahəsində kiçik dəyişikliklər – alınma sözlər, ya da dilin bütün səviyyələrində struktur dəyişikliklər müşahidə olunur.

Ümumiyyətlə alınma sözlər biz çox dillərin leksikasında xüsusi yer tuturlar çünki, onlar uzun sürən tarixi qarşılıqlı fəaliyyətin və dillərin qarışmasının nəticəsidirlər. Son vaxtlara qədər hesab olunurdu ki, alınma sözlərin keçmə yolları yazılı və ya şifahi nitqdir. İnformasiya cəmiyyətində informasiya və telekommunikasiya texnologiyalarının inkişafı ilə alınma sözlərin yeni yolu – virtual yolu meydana gəldi. Başqa sözlərlə desək dillər arasında qarşılıqlı əlaqə müasir cəmiyyətdə virtual reallıqlar əsasında baş verə bilər. Şifahi və virtual yolla keçən alınma sözlər yazılı yolla keçən alınma sözlərə nisbətən daha çox dəyişikliklərə məruz qalırlar. Əgər bir söz digər xalqın dilinə ifadə etdiyi yeni məfhum və ya əşya ilə bir yerdə daxil olursa bu alınma sözün mənası dəyişikliklərə çox məruz qalmır. Müasir dövrdə İnternetin və informasiya texnologiyalarının hökmranlığı sayəsində cəmiyyət həyatının bütün sahələrində tələb olunan sözün digər dilə keçmə prosesi çox tez baş verir və bu halda söz dəyişikliklərə məruz qalmır və çox tez bir zamanda alınma söz qismində digər dilə nüfuz edir.

Tədqiqatın praktik hissəsi ispan publisistik mətnlərində ingilis dilindən keçən alınma sözlərin informasiya cəmiyyətində işlənmə sahələrinə görə təsnifatından ibarətdir. Niyə görə məhz publisistik mətn? Bu təsadüfi deyil. Müasir dövrdə dünya dilçilərinin marağı kütləvi informasiya vasitələrinin (KİV) dilinə durmadan artır belə ki, informasiya cəmiyyətində baş verən bütün sosial dəyişikliklər publisistik mətndə parlaq və dinamik şəkildə əks olunur. Jurnalistika nəzəriyyəsi mütəxəsislərinin fikrinə görə mətbuatda çap olunan məlumat sosial cəhətdən nüfuz etmə qüvvəsi olan, siyasi və ideoloji cəhətdən dəqiq yönümlü təsirdir.

Publisistikanın vəzifəsi yalnız xəbər çatdırmaq deyil, bu xəbər həm də şərh olunmalıdır. Buna görə də publisistik mətndə informativ funksiya emosional təsir ilə birləşir. [7: 24]. Publisistik üslub həm ekstralinqvistik hallardan törəyən amillərin məcmusu kimi həm də bu amillərin korrelyatı kimi təhlil olunur. Beləlklə, linqvistik və ekstralinqvistik amillər ingilis dilindən alınma sözlərin işlənmə arealı kimi ispan publisistik mətninin seçilməsinə səbəb olublar. İspaniyanın dövrü nəşrlərindən “Glamour”, “El Mundo”, “El País”, “La Opinión”, “La Vanguardía”, “Hola”, “ABC” adlı qəzet və jurnalarında anqlisizmlər daha çox işlənir. Maraqlıdır ki, bəzi qəzet və jurnallarda assimilasiya prosesində olan hər hansı bir alınma söz ya dırnaq içində yazılır ya da kursivlə seçilir. Aparılmış tədqiqatlar nəticəsində İnformasiya cəmiyyətində özünün denotativ səviyyəsindən asılı olaraq anqlisizmləri işlənmə sahəsinə və işlənmə nisbətinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

Artefaktlar – 16.10%
Iqtisadiyyat – 11.22%
Internet və İnternet texnologiyaları – 27.32%

Insanın xarici görünüşü – 2.44%
Idman – 14.15%
Mədəniyyət, şou – biznes, incəsənət – 20.98%
Qida – 7.80%
Beləliklə, göründüyü kimi, anqlisizmlərin daha çox işləndiyi sahə Internet və İnternet texnologiyaları qrupuna aiddi : *blog, internet, online, multimedia, multiplayer, web, DVD, ranking, software, frame, CD, blogger, Facebook, SMS.*

“En Internet los blogger no paran de hablar de lecturas racistas” [El País, 27.03.2008].

Əksəriyyət terminlərin ingilis mənşəli olan İnternetin sürətli inkişafı, Maykrasoft şirkətinin monopolist mövqeyi bu günkü gün ingilis dilini bilməyi zəruri edib,tədricən ingilis dili bütün dünyada rəsmi dilə çevrilir. Şübhəsiz ki, müasir İngilis dili yeni texnologiyaların və inkişaf etmiş elmi nailiyyətlərin dilidir. Aparılan tədqiqatlara əsasən internet istifadəçilərinin 70% - dən çoxu ingilis dilini bilirlər. Internet üçün İngilis dili rəsmi dil hesab olunur. Çünki, informasiyanın əksər hissəi məhz bu dildə ötürülür.

Anqlisizmlərin işlənmə sayına görə ikinci yer incəsənət, mədəniyyət və şou – biznes sahəsindən olan realiyalara aiddir.(20,98%):

1. Musiqi janrlarının, qrupların, rəqslərin adları: *single, step, step-house, rock, rock and roll, jazz, band, dance, bass, drum, undrgraund, rhythm, hip-hop, folk<folklore, performance, blues* və.s : **“Tiene como compañeros a la actriz Priscilla Presley, el actor Steve Guttenberg, el cantante de rhythm and blues Mario”[EL País, 27.03.2017].**
2. Televiziya və kino sahəsində işlənən anqlisizmlər: *sketch, thriller, remake, film, show, movie, making of* və s. Göstərilən sözlərin işlənməsini göstərilən nümunədə daha aydın görmək olar: **“La segunda película de Rodrigo Plá, que el año pasado obtuvo un montón de premios con La zona, un thriller sobre los miedos y las consecuencias del miedo”[El País, 21.03.2008].**

Üçüncü qrup anqlisizmləri aşağıdakı kimi qruplaşdırmaq olar.

Paltar adları bildirən anqlisizmlər. *jeans, legging, piercing, t-shirt, look, bodysuit, fashion, top, minishort* və s. Bu fikri aşağıdakı nümunədə daha aydın görmək olar: **"Carla Bruni, esa María Antonieta contemporánea con melena y 'jeans', tiene que desalojar su palacio, el Elíseo, a toda mecha este fin de semana" [El País12/05/2012]**

Kosmetoloji xidmət və məhsulların adları: *botox, aftersun, gloss, peeling, lifting, hairspray, make-up* və s. Məsələn: “**El exfutbolista utiliza bótox para lucir un rostro casi juvenil y sin apenas arrugas” [El País12/09/2017]**

İspan dilində işlənən anqlisizmlərin dördüncü qrupu idman sahəsinə aiddir: *sport, boxeo, club, fitness, cardio-box, acuaspining, athletic, futbol, hockey,*

playoffs və s . Məsələn: **“Falta menos de un mes para que los 'ángeles' de Victoria's Secret desplieguen sus alas en Shanghai y todas están ya inmersas en duros entrenamientos fitness” [El Mundo, 06.11.2017].**

Alınma sözlərin beşinci qrupu iqtisadiyyat sahəsinə aiddir: *marketing, subprime, job description, headhunter, los test, manager<-manejador, new deal, ecommerce, inputs, trade-off, off-shore, consulting, broker, trader, merchandising* və s. Məsələn: "**Los muñecos de Nick Cave son el último ejemplo de una línea de mercado, el merchandising, a la que cada vez recurren más músicos” [El País, 07.07.2015].**

Altıncı qrup anqlisizmlər qida sahəsinə aiddir : *alcohol, gin-tonic, snack, Coca-Cola light, rosbif <roastbeef, steak, junk-food, fast- food, punsh* və s. Fikrimizi göstərilən nümunədə daha aydın görə bilərik: “**La empresa de 'fast-food' lanza una colección para ir a dormir: Hamburguesas, patatas fritas, nuggets formarán parte del look de noche.” [El Mundo, 06.03.2016].**

Yeddinci qrupa aid olan alınma sözlər insanın xarici görünüşünü ifadə edən sözlərə aiddir. *top model, supergirl, partygirl, superman* və s. Məsələn: **“Constance Jablonsky y Camille Rowe entre otras 'top models' han subido a la pasarela parisina las propuestas más sensuales de la firma francesa” [El Mundo, 27.09.2017].**

Beləliklə, XXI əsrdə kompüter və telekommunikasiya texnologiyalarının, mətbuatın inkişafı və bunun nəticəsi olaraq beynəlxalq ünsiyyətin sürətli genişlənməsi ingilis dilindən ispan dilinə sözlərin inteqrasiyasını genişləndirir. Qloballaşma prosesləri, elm, texnologiya, sənət, beynəlxalq əlaqələrin intensiv inkişafı, ingilis dilinin dünya miqyasında geniş yayılması, ispan-ingilis əlaqələrinin gücləndirilməsi və genişlənməsinə kömək edir. Bunun nəticəsi olaraq, ingilis dilindən ispan dilinə yeni sözlərin keçmə prosesi aktiv şəkildə artır.

Söz keçmə prosesi linqvistik və ekstralvvistik səbəblərdən asılıdır.Aparılan nəticələrə əsasən demək olar ki, anqlisizmlər internet, mədəniyyət, şou – biznes, idman və kosmetologiya sahələrində daha çox işlənirlər. Və bu başa düşüləndir, çünki müasir informasiya cəmiyyətində İnternet ən güclü və rahat məlumat mənbəyi kim qiymətləndirilir. İnternet vasitəsilə ünsiyyət sosial həyatın demək olar ki, bütün sahələrinə yayılıb və hal hazırda ona alternativ ünsiyyət vasitəsi mövcud deyil. Kompüter texnologiyaları, mədəniyyətlərarası ünsiyyət, onların yüksək effektivliyi dilin inkişafına böyük təsir göstərir və dil sistemində yeni hadisələrin daim öyrənilməsini tələb edir.

Ədəbiyyat

1) Dəmirçizadə Ə. M. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, 270 s.
2) Тупицына И.Н. Речевая коммуникация: личностно-когнитивное измерение. М.: Изд-во РГСУ, 2005. 220 с.
3) Соколова И.В. Социальная информатика. М.: Перспектива, 2008. 272 с.
4) Бодуэн де Куртенэ И.А. Избранные труды по общему языкознанию. М.:Издво АН СССР, 1963.
5) Щерба Л.В. Избранные работы по языкознанию и фонетике. Л.: Изд-во ЛГУ, 1958.
6) Иванов В.С. Языковые контакты // Лингвистический энциклопедический словарь /под общ. ред. В.Н. Ярцевой. М.: Сов. энциклопедия, 1990.
7) Коченов В.Т. Реализация функций сообщения и воздействия в современных научноисторических текстах. М.: Изд-во МГУ, 1987.

А.Дюрниса

Английские заимствования в испанском публицистическом тексте

Резюме

Цель исследования в данной статье это выявить закономерности передачи англицизма на материалах современного испанского языка. Задача исследования - определить основные сферы функционирования англицизма в испанском журналистском тексте. Объектом исследования являются английские заимствования на испанском языке. Благодаря проведенным исследованиям мы можем сделать вывод, что английские заимствования на испанском языке являются отражением межкультурных и межъязыковых взаимодействий в современном информационном социуме. Очевидно, что ни один язык не состоит только из слов своего языка и испанский язык в данном случае не исключение. Из исследования видно, что испанский язык прессы настолько богат заимствованной лексикой из английского языка, что благодаря этому богат стилистически и лексически. В статье также отмечены те сферы, в которых английские слова используются больше. Язык прессы особенно изобилует такими словами, потому что пресса любого общества играет роль периферии общества, выражает культуры нации, иными словами это зеркальное отражение общества.

D.Agayeva

English borrowings in the Spanish journalistic text

Summary

The purpose of the study in this article is to reveal the patterns of the transfer of Anglicism on the materials of modern Spanish. The task of the study is to determine the main areas of the functioning of Anglicism in the Spanish journalistic text. The object of the study are English borrowings in Spanish. Due to the conducted researches we can conclude that English borrowings in Spanish are the reflection of intercultural and interlingual interactions in the modern information society. Obviously, no language consists solely of the words of one's own language and the Spanish language in this case is not an exception. It can be seen from the research that the Spanish language of the press is so rich in borrowed vocabulary from the English language that due to this fact it is rich in stylistic and lexical terms. The article also notes those areas in which English words are used in a large scale. The language of the press is particularly abound with such words, because the press of any society plays the role of the periphery of society, expresses the culture of the nation, in other words it is a mirror image of society.

Rəyçi: **Aynur Quliyeva**
Filologiya üzrə fəlsəfə doktoru

NURİDƏ ASLANOVA
ADU
anurida81@gmail.com

İSPAN DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLARININ TƏHLİLİ VƏ TƏSNİFATI

Açar sözlər: frazeoloji birləşmələr, tərcümə yolları,ekvivalent,analoji
Ключевые слова: фразеологические единицы,способы перевода , эквиваленты, аналоги
Keywords : phraseological units, translation ,equivalents, analogues

Bədii və publisistik ədəbiyyatda frazeologiyanın yerinə yetirdiyi müxtəlif məna və stilistik funsiyaların digər bir dilin vasitəsilə qüsursuz şəkildə əks etdirilməsi tərcümənin ümumi adekvatlığını təmin edən əhəmiyyətli şərtlərdən biridir. Lakin bu şərtin gözlənilməsi, bu şərtə riayət edilmə, çox vaxt ciddi praktiki əngəllərlə, çətinliklərlə bağlı olur. Bu hadisə o qədər aşkar, şübhəsizdir ki, tərcüməçinin fəaliyyətinin elmi- nəzəri anlanmasının, dərk edilməsinin artıq ilk təşəbbüslərində diqqəti özünə cəlb etmişdir. Böyük ispan ədibi Servantes təkcə ümumi tərcümə haqqında demişdir ki, tərcümə olunmuş əsər xalçanın astarına, onun arxa hissəsinə, yəni rəng çalarlarının o qədər də gözəgəlimli, ürəyəyatan, xoş olmayan bir hissəsinə bənzəyir. Frazeoloji vahidlərin tərcüməsinə gəldikdə isə işlər daha da çətinləşir. Hələ 1790- cı ildə ingilis tədqiqatçısı A. F. Taytler qeyd edirdi ki, tərcüməçi tərəfindən dəf edilməsi zəruri olan başlıca çətinlik idiomatik ifadələrin verilməsindədir. Bu çətinlik 3 əsr bundan əvvəlki kimi bizim günlərdə də o qədər mühümdür, aktualdır. Bu çətinlik tərcümə nəzəriyyəsi və praktikası haqqında ən yeni kitabların müəllifləri tərəfindən düzgün, qanunauyğun olaraq belə göstərilir: "Frazeologizmlər və ya frazeoloji vahidlər "tərcümə oluna bilməmək" yaxud "çətin tərcümə oluna bilmək" cədvəlində, demək olar ki, hardasa birinci yeri tuturlar. Analoji, oxşar fikir tərcümənin bir çox başqa müasir tədqiqatçılarının işlərində, əsərlərində də yer alır.[1,s. 140]

Frazeoloji vahidlərin tərcüməsinin çətinliyi hər hansı bir təsadüfi və ya kənar hadisələrlə meydana çıxmır. O, sabit şifahi komplekslərin məhz linqvistik təbiətin özünə əsaslanan obyektiv səbəblərə malikdir. Onlardan başlıcası ondan ibarətdir ki, hər bir dilin frazeoloji tərkibinə spesifik, səciyyəvi xüsusiyyətlər xasdır. Bunun da nəticəsində bir dilin üstünlük təşkil edən ifadələr kütləsi digər dillərin frazologiyasında hazır eyni əhəmiyyətə, keyfiyyətə malik olan uyğunluqları, ekvivalentlərini tapmırlar. Bundan başqa

bəzi dillərin frazeoloji korpusu tərkibində başqa dillərdə analoqu, oxşarı olmayan bir çox stilistik təbəqələr vardır. (Məsələn, ingilis dilində slenqin frazeologiyası və ya rus dilində kilsə- slavyan mənşəli arxaikləşmiş frazeologiya kimi).

Tərcüməni çətinləşdirən çox mühüm bir səbəb isə bir çox frazeoloji vahidlərin aydın ifadə edilmiş milli- koloriti, çaları, səciyyəvi xüsusiyyətidir. Xüsusən də bu növ üçün səciyyəvi olan mədəni- məişət, tarixi və coğrafi realiləri ifadə edən və ya öz tərkibində bu cür realiləri ehtiva edən, göstərən ayrı- ayrı komponentləri olan frazeoloji vahidlərlə bağlı xeyli tərcüməçilik çətinlikləri nitqdə frazeologiyanın işlədilməsinin, fəaliyyətinin xüsusiyyətləri ilə bağlıdır. Bu xüsusiyyətlər standart işlədilmənin tətbiqi, bu və ya digər normadan kənara çıxılması şəklində okkazional formada aşkar olur. Bədii ədəbiyyatda frazeologizmlərin yaradıcı dəyişikliklərinin çoxsaylı üsulları, vasitələri realizə olunur və onların demək olar ki, hamısı tərcüməçi üçün əlavə əngəl, bəzisi isə "tərcüməçi üçün tez- tez ciddi və hətta dəfedilməz, aradan qaldırıla bilməyən çətinliklər" yaradır. Bundan başqa böyük çətinliklər həmçinin frazeoloji vahidin qeyri- standart işlədilməsinin başqa əsas növü- onların distributiv normasının pozulması ilə yaranır.

Sadaladığımız səbəblər bu və ya başqa dərəcədə (çox və ya az) frazeologiyanın müxtəlif quruluş və məna dərəcəsinə mənsub olan ifadələrin tərcüməsini çətinləşdirir. Buna görə də, tərcümənin nəzəriyyəsi və praktikası üçün frazeoloji vahid məfhumu altına düşən bütün düzəltmələr, törəmələr maraq doğurur. A. V. Kunin frazeoloji vahid haqqında belə demişdir: "Frazeoloji vahid- tam və ya qismən başqa cür dərk edilmiş mənalı sabit söz birləşməsidir". [2,s. 110]. Frazeologiyanın tərkibinə istər söz birləşməsi modeli, istərsə də cümlə modeli halında qurulmuş ifadələr daxildir: "Frazeologizmin sərhədi- mürəkkəb cümlədir".

Bədii praktikada frazeoloji vahidlərin tərcüməsi çox vaxt təcrid edilmiş halda, ayrılıqda deyil, mətnin digər elementlərinin tərcüməsindən ayrılmadan, əksinə belə elementlərin tərcüməsi ilə sıx əlaqələnir, başqa sözlə, o, müstəqil mənaya malik deyildir. O tərcümənin kompleks prosesinin yalnız bir təşkil edəni kimi xidmət edir və onun başqa təşkil edənləri kimi əsas məsələnin həllinə orijinalın qismən eyni əhəmiyyətə malik olan əvəzi kimi qavranılma bacarığına malik mətnin yaranmasına, törəməsinə bütünlüklə tabedir. Lakin tərcümənin frazeoloji problemlərinin ətraflı, müfəssəl gözdən keçirilməsi yalnız onların ümumi tərcüməçilik problematikasından ayrılması şərti ilə mümkündür. Çünki, tərcümənin kompleks müqayisəli analizi orijinalla qarşılıqlı münasibətdə, əlaqədə çətin həyata keçirilə bilən, çətin mümkün olandır və ya hər halda az effektlidir. "Orijinal və tərcümə mətnlərinin analizi bu mətnlərin tərkib hissələrinə ayrılmadan bütöv, tam quruluş kimi müqayisə edilməsi bu cür tədqiqdə

alınan nəticələrin mücərrədliyi və subyektivliyi üzündən elmi əsaslandırılmış nəticələrə çətin ki gətirib çıxara bilə". Onu da nəzərə almaq lazımdır ki, müqayisəli- tərcüməçilik planında dilin frazeoloji altsistemi onun digər altsistemləri ilə müqayisədə müəyyən spesifik xüsusiyyət ilə fərqlənir və ona görə də özünə xüsusi yanaşma tələb edir.

Frzeologiyanın vahidləri tərcümənin vahidləri kimi qəbul edilir. Bir halda ki, frazeologizmlərin tərcümənin vahidlərinə aid olması qətiyyən nə öz- özünə məlum olan, aydın, nə də söylənmiş fikirlərdən avtomatik surətdə irəli gələndir, onda frazeoloji ifadələrin tərcümənin vahidləri kimi aydınlaşmasının prinsipal yolverilməsi, mümkünlüyü haqqında məsələni həll etmə zəruriliyi meydana çıxır. Ancaq bu haqda danışmazdan əvvəl ümumiyyətlə tərcümənin vahidi haqqında məsələnin üstündə dayanmaq lazımdır, çünki onun həllindən nəticədə problemin frazeoloji aspekti də asılıdır. V. N. Komissarovun göstərdiyinə görə tərcümənin vahidi kimi dilçilikdə hər hansı bir artıq ayrılan, ayrılmalı vahidi (və ya vahidləri) qəbul etmək, ya da tamamilə xüsusi, məhz tərcüməçilik vahidini seçmək, ayırmaq olar. Bundan başqa, tərcümə- ikidilli komunikasiya, əlaqə prosesi olduğundan, bu vahidləri seçmək zəruridir, tərcümənin vahidləri bu prosesdə iştirak edən dillərdən birində ayrılmalıdırlar, seçilməlidirlər, yoxsa onlar orijinalın və tərcümə mətnlərinin parçaları arasında hansısa bir münasibəti ifadə etməlidirlər. Y. İ. Retsker qanunauyğun müvafiqliklərin üç kateqoriyasını müəyyən etmişdir və onları əvvəlcə ekvivalent, analoq və adekvat əvəz kimi göstərmişdir. Onun sonrakı əsərlərində bu sxemin şəkli dəyişdirilmişdir (bu sxem modifikasiya olunmuşdur) və analoqların yerini variant və kontekstual uyğunluqlar, adekvat əvəzlərin, əvəz edilmələrin, yerini isə bütün növ tərcüməçilik transformasiyaları tutmuşdur.[3,s. 63]

Funksional bənzərliklər müxtəlif vasitələrin, o cümlədən dillər arası hazır uyğunluqların, bərabərliklərin (əgər onlar mövcuddursa) köməyi ilə əldə edilir. Ancaq onu da qeyd etmək lazımdır ki, bu cür uyğunluqların istifadəsi heç də, əsla vacib və yeganə qanunauyğunluq deyildir: ifadə etmə yolunu seçmə zamanı tərcüməçi həmişə təmiz danışıq (nitq), kontekstual fikirləri, mülahizələri (semantik, praqmatik və s.) əldə rəhbər tutur. Beləliklə, qanunauyğun bərabərliklər- müxtəlif dilli danışıq (nitq) vahidləri arasında potensial mövcud olan bütün növ uyğunluqlardır. Buna əsaslanaraq iki əsas qanunauyğun müvafiqliklər sinfini ayırmaq, seçmək olar: adi (uzual) və okkazional müvafiqliklər. Tərcüməçinin bu və ya digər müvafiqliklər sinfinə müraciəti (hər bir sinfin daxilində ayrı- ayrı bəzi növ müxtəlifləyinə də həmçinin) bir çox obyektiv və subyektiv səbəblərdən, vəziyyətlərdən asılıdır. Bütün uyğunluqlar içində ən dəqiqi, düzgünü ekvivalentdir, yəni Y. İ. Retskerin müəyyən etdiyinə görə bir qayda olaraq konteksdən asılı olmayan daimi bir mənalı uyğunluqdur.

Frazeoloji ekvivalentlər- denotativ məzmununa (tərkibinə), stilistik xarakteristikasına, müstəqil mənalı komponentlərin tərkibinə və qrammatik quruluşuna görə oxşar, eyni olan iki dilin frazeologizmləridir. Ekvivalentlərin və analoqların fərqləndirilməsi zamanı nəzərdən onu da qaçırtmaq olmaz ki, oxşarlıq (uyğunluq) daha geniş mənaya malikdir, nəinki ekvivalentlik və analoqluq. Dil analoqları, oxşarlıqları heç də ekvivalent deyillər, halbuki ekvivalentlər həmişə bir- birinə oxşardırlar. Frzeoloji ekvivalentlər kimi frazeoloji analoqlar (oxşarlıqlar) da dil arası uyğunluqlardır. Frazeologizmlərin uzual (adi) işlədilməsi zamanı onlar hazır funksional ekvivalentlər kimi çıxış edirlər, çünki onları bir- birinə adekvat şəkildə tərcümə etmək mümkündür və belə olan halda hər hansı bir transformasiya tələb edilmir.

Ekvivalent və analoq arasındakı fərq kəmiyyət (miqdar) ifadəsinə malikdir. Ekvivalent həmişə təkdir. Analoqlar isə bir neçə dənə ola bilərlər, çünki bütün əlamətlərə görə bərabərlik ekvivalentlərin çoxluğunu istisna edir (məsələn, hər bir dilin ancaq bir frazeologizmlə təqdim olunduğu ingiliscə to play with fire; almanca- mit dem Feurspielen; fransızca- jouer avec le feu; ispanca jugar con el fuego; ruca- игратьс огнем; azərbaycanca- odla oynamaq cərgəsində olduğu kimi). Halbuki komponent tərkibində analoqlara, oxşarlıqlara xas olan fərq eyni mənanı müxtəlif bədii vasitələrlə (məsələn, rus dilindəki "когда рак свистнет" ifadəsinə bir neçə ingilis dilində analoq, oxşarlıq mövcüddur: when pigs fly, when two Sundays come together və ya ispan dilindəki dejar con tantas narices, cuando las ranas críen pelos; Azərbaycan dilində dəvənin quyruğu yerə dəyəndə, gözünə kül üfürmək və s. kimi ifadələr oxşardır, mənaca eynidir) verilməsi mümkünlüyünü istisna etmir və buna yol verir.

Frazeoloji analoqların komponent tərkibində təkcə kvalitativ (keyfiyyətli) deyil, həm də kvantativ (miqdari) fərqlər müşahidə olunur. Özü də onların içindəki informasiyanın həcmi komponentlərin sayından asılı deyildir. Belə ki, rus dilində"родиться в сорочке" və ingiliscə "pasarle a uno por la cabeza una cosa"- azərbaycanca "kiminsə ağlına bir şey gəlmək" (burada "cabeza"- nı olduğu, "baş" kimi desək, məna dəyişilərək bu cür ifadə alınır- birinin başına bir şey gəlmək) ifadələri komponentlərin sayına görə eyni, oxşar olmasalar da, semantik və stilistik münasibətdə (yanaşmada) eynidirlər. [4,s. 42] Tərcüməçi öz sərəncamında bir neçə analoqa malik olan zaman, o, orijinalda təsvir olunan vəziyyətlə, iştirak edən şəxslərin xarakterləri və dil, nitq xüsusiyyətləri ilə uyğunlaşaraq analoqun daha uyğununu seçmək imkanına malik olur. Beləliklə, qanunauyğun bərabərliklər və s. frazeoloji ifadələrin tərcüməsi zamanı variantlıq münasibətləri ilə deyil (son dərəcədə dil daxili münasibətlər kimi), müxtəlif dillərin vahidləri arasında müəyyən, aşkar olunan oxşarlıq, uyğunluq

münasibətləri ilə xarakterizə olunur, səciyyələnir; odur ki, baxılan, təhlil edilən bərabərliklər tipinə əvvəlki "analoq, oxşar"- terminini qaytarmaq məqsədəuyğun sayılır.

Uzual(adi) frazeoloji uyğunluqların daha bir kateqoriyasını dillərarası frazeoloji sinonimlər təşkil edir, yaradır. Bu sinonimlərin içindən bir quruluşlu və müxtəlif quruluşlu sinonimləri ayırmaq olar. Birincilər eyni cür qrammatik model üzrə qurulmuşlar (söz birləşməsi və ya cümlə). Lakin analoqlardan fərqli olaraq, təkcə özlərinin leksik komponentləri tərkibləri ilə deyil, həm də məna çalarları (ideoqrafik sinonimiya) və ya stilistik (üslub) çalarları (stilistik sinonimiya) ilə ayrılırlar. Müxtəlif quruluşlu frazeoloji sinonimlər əsasən semantik doldur(ul)maya və stilistik xarakteristikaya görə uyğundurlar, ancaq müxtəlif qrammatik quruluşa malikdirlər. Ona görə də, məsələn, rus dilində zərf söz birləşməsi olan –"после дождичка в четверг" ingilis dilinə budaq cümlə quruluşlu ifadə ilə - when two Sundays come together, alman dilinə isə biruclu (yüksələn) frazeologizmlə - am Nimmerleinstag kimi tərcümə oluna bilər. İngilis dilində to be on pins and needless feili vahidi rus və alman komporativ feili ifadə şəklində, formasında sinonimik uyğunluğa malikdir: "сидеть как на иголках" – wie auf Nadeln sitzen. [4,s. 51] Beləliklə, tərcümə zamanı qanunauyğun olaraq üç uzual(adi) frazeoloji uyğunluqlar kateqoriyası istifadə olunur: ekvivalent, analoq və sinonim. Bundan başqa bir dənə də dördüncü – frazoloji olmayan uzual (adi) kateqoriya var. Bu artıq yuxarıda adı çəkilən sabit leksik uyğunluqdur, yəni frazeologizmin daimi bir sözlü (yığcam) tərcüməçilik ekvivalentidir.

Kontekstual analoqun (oxşarın) istifadəsinin mümkün olmadığı təqdirdə tərcüməçi kalka üsuluna müraciət edə bilər. Danışıq (nitq) kalkası da frazeologiyanın vahidlərinin tərcüməsi zamanı okkazional uyğunluğun bir növüdür. Kalka edilmə o zaman tətbiq olunur ki, tərcümə edilən ifadənin daxili forması kifayət qədər aydındır, yəni tərkibində leksik arxaizmlər yoxdur və milli realiləri əks etdirmir. Bundan başqa onun bədiiliyi başqa dilli oxucu tərəfindən asanca başa düşülür, dərk edilir və bununla yanaşı sünilik, qeyri- təbiilik, qeyri- adilik və ya tərcümə olunan dilin normalarını pozmaq təəssüratını oyatmır. Ancaq həqiqi mənada bir- birinə uyğun olan, lakin məcazi mənada müxtəliflik ifadə edən sözlərdən ibarət olan ifadələrdən kalka düzəltmək olmaz. Məsələn, ingilis dilində mənası boş- boş danışmaq, cəfəngiyat danışmaq olan "to talk through one`s hat" ifadəsini olduğu kimi ispan üçün "hablar a través de sombrero", rus üçün də "говорить сквозь шляпу" , fransız üçün "parler á travers son chapeau", azərbaycanlı üçün də "şlyapa arasından danışmaq" ifadələri tamamilə mənasız olacaqdır. [4,s. 54] Adətən kalka edilmiş frazeologizm sərbəst metaforik söz birləşməsi kimi başa düşülür və onun "frazeoloji" xüsusiyyəti bununla belə tərcümənin oxucusu tərəfindən instinktiv olaraq duyulur.

Əgər hər hansı bir linqvistik və ya ekstraliqvistik üsul səbəbindən tərcüməçi sadalanan qanunauyğunluq növlərinin heç birindən istifadə edə bilmirsə, onda o frazeologizmin hədəf dildə verilməsinin təsviri üsuluna, vasitəsinə müraciət edir. Təsviri tərcümə (deskriptiv və ya təsviri uyğunluq) hərçənd az gözəçarpandır, lakin tamamilə ola bilən, mümkün üsuldur, yoldur. Bunu artıq A.F.Taytler də başa düşərək tərcümə dilində uyğun ekvivalenti tapıla bilməyən idiomalar haqqında belə yazırdı: "Bir halda ki, belə ifadələrin hərfi tərcüməsi yolverilməzdir, o zaman yeganə çıxış yolu mənanın aydın, anlaşılan və tez başa düşülən dillə ifadə edilməsidir". A.V.Kuninin ifadə etdiyi kimi təsviri tərcümə söz hesabı tərcüməyə yol verməyən terminoloji xarakterli ifadələrin verilməsi üçün xüsusən əlverişlidir. Bununla yanaşı frazeologizmin denotativ mənası düzgün təsvir edilir, ancaq onun bədiiliyi və stilistik xüsusiyyəti itir. [4,s. 71] Beləliklə, biz indi frazeologiyanın tərcüməsi zamanı qanunauyğun surətdə tətbiq edilən müvafiqliklərin tam icrasını verə, göstərə bilərik: 1) ekvivalent; 2) analoq; 3) sinonimik uyğunluq (bir quruluşlu və ya müxtəlif quruluşlu); 4) sabit leksik uyğunluq; 5) kontekstual, analoq, oxşar (frazeoloji, leksik-frazeoloji); 6) kalka; 7) okkazional leksik uyğunluq; 8) təsvir.

İlk dörd kateqoriya tərcümə dilində mövcuddur və hazır şəkildə istifadə olunur. Qalanlar isə danışıq (nitq) uyğunluqlarıdır və onlar tərcüməçi tərəfindən hər bir ayrı hal üçün seçilir və ya qurulur. Dilin frazeoloji tərkibində aşağıdakı üç quruluş- məna qrupunu ayırmaq, fərqləndirmək lazımdır:1) Söz birləşməsi quruluşlu frazeologizmlər: onlara tabelik və ya tabesizlik söz birləşməsi quruluşlu ifadələr və yüksələn frazeologizmlər (yüksələn nida və modal frazeoloji vahidlər daxil olmaqla), məlum növdə olan frazema quruluşuna və məchul növdə olan cümlə quruluşuna malik feili ifadələr (çünki onların ilk, başlanğıc nominativ frazeoloji mənası hər iki halda iştirak edir) aiddir. 2) Natamam predikativ quruluşlu frazeologizmlər: onlara leksema + budaq cümləsi və ya budaq cümlə (onun təyin etdiyi komponentsiz) aiddir. 3) Cümlə quruluşlu frazeologizmlər: bura atalar sözü və zərbi- məsəllər, həmçinin neaforistik xarakterli tam predikativ ifadələr daxildir. (məsələn, de tal palo, tal astilla. Azərbaycan dilində- anasına bax qızını al, qırağına bax bezini al).

Frazeologizmin stilistik göstəricisi kimi onların ekspressiv və emosional çalarları da xidmət edir. Frazeologiya sahəsində ekspressivlik emosionallıq əlaməti üzrə nişanlandırılmış vahidlərin payı leksika sahəsindəkindən müqayisə edilməz dərəcədə böyükdür, yüksəkdir. Ifadənin stilistik xarakteristikasının ekspressiv – emosional komponentinin verilməsi onun digər iki komponentinin verilməsi kimi tərcümənin adekvatlığının eyni cür vacib, zəruri şərtlərindəndir. Frazeologizmin stilistik xarakteristikasının ekspressiv – emosional komponenti özündə ekspressiv, emosional və qiymət

konnotasiyalarını birləşdirir. Ekspressivlik və emosionallıq frazeoloji vahidlərin böyük əksəriyyətinə xasdır. Xüsusən bədii frazeoloji vahidlərə, lakin heç də hamısına yox: bir çox frazeologizmlər var ki, o cümlədən bədii, onları nə ekspressiv, nə də emosional olanlara aid etmək olmaz. Onlara məsələn, leksik vahidlər içərisində korrelyatlara malik olmayan və ona görə də müvafiq denotatların yeganə əlaməti olan ifadələri aid etmək olar. Qeyd etmək lazımdır ki, tədqiqatçıların müraciət etdikləri daha bir vasitə vardır. Bu frazeologizmin, onun obrazlı (bədii) quruluşunun, mənasının izahla, şərhlə üzə çıxdığı hərfi tərcümədir.

Frazeologiya, bəzi beynəlmiləl ifadələr müstəsna olmaqla, hər hansı bir dilin milli xüsusiyyətlərini özündə əks etdirir. Buna görə də bəzi dilçilər göstərirlər ki, çox vaxt bu ifadələri eyniylə başqa dilə tərcümə etmək çətin, yaxud imkansız olur. Bəzi dilçilər isə bu əlaməti frazeoloji vahidlərin dilin milli xüsusiyyətini özündə əks etdirməsi ilə açıqlayırlar. Belə dilçilərdən A.N.Qvozdyevanı misal göstərmək olar.

Doğurdan da, ispan dili frazeoloji vahidləri hərfi tərcümə zamanı Azərbaycan dilində həqiqətən anlaşılmaz söz yığınına çevrilir. Məsələn, ispan dilindəki "oler una cosa a chivo" frazeoloji vahidini Azərbaycan dilinə hərfi tərcümə etsək, "bir şeydən keçi iyi gəlmək" ifadəsi meydana gəlir. Əslində isə bu frazeoloji vahidin mənası – bir işin şübhəli olması deməkdir. Lakin nəzərə almaq lazımdır ki, bu dillər geneoloji cəhətdən müxtəlif dil ailəsinə: ispan dili – Hind-Avropa dilləri ailəsinə, Azərbaycan dili isə - Türk dilləri ailəsinə mənsubdur. Lakin bu heç də eyni dil ailəsinə məxsus olan dillərdə bu cür sabit birləşmələrin bir dildən o birinə hərfi tərcüməsinin heç də hər zaman mümkün olması demək deyildir, yəni Hind-Avropa dilləri ailəsinə mənsub dillərin hər birindəki frazeoloji vahid yalnız həmin dilə məxsusdur. Ancaq nəzərə almaq lazımdır ki, "Hind-Avropa dilləri ailəsinə mənsub olan dil qruplarında danışanlar uzun müddət bir-birindən təcrid olunmuş şəkildə yaşadıqlarından bu qrup dillərin bütün sahələrində - fonetikasında, qrammatik quruluşunda və lüğət tərkibində bir – birindən tamamilə fərqlənən səviyyəvi əlamətlər meydana gəlmişdir. Buna görə də heç kəs heç vaxt perm dilləri ilə baltik – fin dillərini dəyişik salmadığı kimi, İran dillərini də kelt, roman və german dilləri ilə qarışdırmır. Türk dillərində isə vəziyyət başqadır, belə ki, bu dillərdə dil vahidləri yaxın qohum səciyyə daşıyır, bu ailədən olan dillər bir – birindən az fərqlənir".

Hərçənd hərfi tərcümə frazeologizmin semantik (məna) quruluşunu təqdim etmə, göstərmə vasitəsi kimi o qədər də asan deyildir. Çünki söz çox vaxt çoxmənalıdır və bu səbəbdən hərfi tərcüməyə mənalardan hansı birini daxil etmək sualı ortaya çıxır. Məsələn, echar pelos (pelillos) a la mar (hərfi tərcüməsi – saçı dənizə atmaq) – barışmaq. Burada hərfi məna – daha doğrusu – idiomanın tərkibinə daxil olan sözlərin birbaşa nominativ mənası

müasir dildə artıq mənimsənilmir, dərk edilmir, çünki əsaslandırma bütünlüklə itmişdir. Müasir ispan dili lüğətləri "pelo" sözündə "boş şey, əhəmiyyətsiz şey, cüzi şey" mənasını (pelo – cualquier cosa mínima, de poca importancia) qeydə alırlar; pelillo sözündə isə küsməyə, inciməyə əhəmiyyətsiz, cüzi səbəb mənasını (pelillo – causa o motivo muy leve de desazón y que se debe despreciar) qeydə alırlar. [11] Deməli, bu idiomanın müasir semantik quruluşunu hərfi məna ilə bu cür təsvir etmək, göstərmək mümkün olardı – əhəmiyyətsiz şeyi (incikliyin səbəbini) dənizə atmaq. Onda qiymət şəkilçili variant daha çox dərəcəli əsaslandırma vahidi kimi göz önündə durur.Əgər göstərilmiş mənaların mənbəyi haqqında sual meydana gəlməsəydi, idiomanın semantikasının bu cür təsvir etmə vasitəsini ardıcıl, müntəzəm (məntiqli, əsaslı) hesab etmək olardı. Güman etmək olar ki, göstərilmiş mənalar frazeoloji derivasiyanın nəticəsidirlər. Hərfi tərcümənin istifadəsi idiomanın semantik quruluşunun açılma vasitəsi kimi mümkündür, cünki hərfi tərcümə idiomanın həm semantik (məna), həm də obrazlı (bədii) quruluşunu başa düşməyə, qavramağa kömək edir.

Dildə sözlərlə yanaşı frazeoloji ifadələrin də mövcud olmasının səbəbini yalnız bir şeylə - frazeoloji ifadələrdə dil abstraksiyasının spesifik mahiyyət daşıması ilə izah etmək olar. İfadələrdə insanların məişəti, mədəniyyəti, əmək fəaliyyəti ilə bağlı olan zehniyyət və təsəvvürü əks olunur. Biz bir çox frazeologizmlərin müxtəlif dillərdə mənaca bir – birinə yaxınlığını müşahidə edirik. Bu yaxınlığın dərəcəsi bəzən müxtəlif olsa da, məfhumu eyni dərəcədə ifadə edə bilir. Məsələn, azərbaycanca – üz – üzə gəlmək ifadəsinə ispanca – llegarse cara a cara ifadəsi yaxın olduğu kimi. Bəzi ifadələrin həm məna (məzmun), həm də forma (quruluş) cəhətdən müxtəlif dillərdə eyni olması adamı təəccübləndirir. Buna misal olaraq "burnunu harasa soxmaq" –"meter las narices en una cosa" və sair göstərmək olar. [11]

Belələri çoxluq təşkil etməsə də hər halda dildə mövcuddur. Bunu bizim işimizdə aydın görmək olar. Qeyd etmək lazımdır ki, bir – birinin eyni frazeoloji vahidlərin bəziləri qohum olmayan dillərdə də eyni leksik tərkibə malik olub, eyni mənada işlədilir. Fərq həmin sabit birləşmələrin hər bir dilin öz sözü ilə işlədilməsindədir. Məsələn, Azərbaycan dilindəki "barmağını dişləmək" formasında mövcud olan frazeoloji vahid fransız dilində "s`en morde les doigts" (və ya les pouces) şəklində işlədilir. Azərbaycan dilində "kömək etmək" mənasında olan "əl uzatmaq" ispan dilində "dar el brazo a alguien"; "əl altından" (gizli mənasında) – de bajo de la mano; Azərbaycan dilində "özünü ələ almaq" ingilis dilində "take oneself in hand"; "yaman günlərə düşmək" – "fall on evil days"; Azərbaycan dilində "intiqam almaq" alman dilində "rache nehmen"; "başını itirmək" – "den kopf verlieren" şəklində eyni leksik tərkib və mənaya malik frazeoloji vahidlərdir.

Bütün dünyada mövcud digər bir çox dillər kimi ispan dili də özünün frazeologizmlərinin zənginliyi və müxtəlifliyi ilə seçilir. Dilçilikdə və eyni zamanda tərcümə prosesində qarşıya çıxan ən mühüm və qəliz məsələlərdən biri də bu sabit birləşmələrin digər dillərə tərcümə edilməsi ilə bağlıdır. İspan dili frazeologizmlərinin tərcüməsi hər zaman diqqət mərkəzində duran bir məsələdir. Ölkəmiz də daxil olmaqla, xeyli ölkələrdə bu vahidlərin başqa dillərə tərcüməsiylə bağlı geniş işlər aparılır. Lakin qeyd etmək lazımdır ki, bu proses özlüyündə çox böyük əhəmiyyət və məsuliyyət ehtiva edir. Bununla bağlı qəbul edilmiş ümumi fikir bundan ibarətdir ki, bütün dillərdə müəyyən bir fikri başqa bir dildə ifadə etmək üçün yetəri qədər imkan mövcuddur.Bu fikir təbii ki, kifayət qədər zəngin olan Azərbaycan dilinə də aid edilə bilər. Başqa sözlə desək, nə qədər zəngin bir dil olmasından asılı olmayaraq hər hansı bir dildə ifadə edilmiş istənilən fikir dilimizdə də ifadə edilə bilər, bu mümkündür. Ancaq bu heç də o demək deyil ki, ispan dilindən Azərbaycan dilinə frazeoloji birləşmələri transformasiya edərkən heç bir çətinliyə rast gəlinmir, əksinə, bu cür çətinliklərin istənilən iki dil ilə aparılan tərcümə prosesində qarşıya çıxması danılmaz bir faktdır. Məlum olduğu kimi fazeoloji birləşmələr milli səciyyə daşıyır, hər bir xalqın adət- ənənələri, dünyagörüşü və mentaliteti ilə bağlı olaraq meydana çıxmışdır. Tərcümə zamanı rast gəlinin çətinliklərin başlıca səbəsi də məhz budur. Eyni zamanda dillərin quruluşunun, müxtəlif dil ailələrinə mənsubluğunun da bu tərcümə problemlərinin ortaya çıxmasında payı böyükdür. Bu səbəbdən frazeoloji ifadənin hədəf dildəki qarşılığı ilə tam üst- üstə düşmədiyi hallar da baş verir. Frazeoloji birləşmələr hər bir xalqın adət- ənənələri, milli dəyərləri ilə bağlı yarandığından, hər bir dil məxsusi quruluşa, formaya mənsub olduğundan İspan dilindəki hər bir frazeoloji birləşmənin bütün xüsusiyyətlərini Azərbaycan dilində olduğu kimi qoruyub saxlamaq heç də hər zaman mümkün deyildir. Bununla belə müxtəlif dillərə məxsus frazeolji birləşmələr arasında uyğunluqların, ekvivalentliyin olduğunu da vurğulamaq lazımdır.

Tərcümə prosesində tərcüməçi sabit birləşmələri məxəz mətndən düzgün seçməli, mənasını tam anlamalı və uyğun tərcümə üsulları ilə hədəf dildə adekvat şəkildə ifadə etməlidir.[3,s. 32] Əks təqdirdə, frazeologimlərin tərcüməsini düzgün şəkildə həyata keçirmək, ekspressivliyi, obrazlılığı qoruyub saxlamaq mümkün deyildir.

Ədəbiyyat

1. Timofeeva Larissa. Sobre la traducción fraseológica. Universidad de Alicante, 2012
2. Кунин, А.В. Структурно-семантические аспекты первичной фразеологии. Педагогический институт иностранных языков им. Мориса Тореза, 1987.
3. Комиссаров. В. Н. Лингвистика перевода. Москва, 1980
4. Orucov. Ə. Ə. Azərbaycanca- rusca frazeoloji lüğət. Bakı, 1976
5. Bayramov. Q. H. Tərcümə sənəti. Bakı: OKA Ofset nəşriyyatı, 2008
6. Academia Española. Grámatica de la lengua española. Madrid, 1959
7. Beinhauer. W. El español coloquial. Madrid, 1978
8. Diccionario de frases hechas. Madrid, 2008
9. Moreno. I. O. Aspectos de la semántica de las unidades fraseológicas. La fraseología somática metalingüística del español. Pamplona, 2009
10. Valera. F. Diccionario fraseológico del español moderno. Madrid, 1994

Н.Асланова

Способы анализа и классификации фразеологических единиц с испанского языка на азербайджанский

Резюме

В статье представлен сопоставительный анализ фразеологизмов испанского и азербайджанского языков, а также рассмотрены способы перевода фразеологических единиц с одного языка на другой. Фразеологические единицы, относящиеся к художественному и разговорному стилям речи, ранее не подвергались детальному исследованию.Художественный стиль отличается специфическим набором фразеологических единиц, который требует тщательного исследования с точки зрения интернациональной фразеологии. Делая вывод, можно сказать, что в связи с тем, что связанные с методами перевода проблемы рассматриваются по-разному, существуют несовпадающие мнения по поводу выбора способа перевода идиом, существуют различные классификации, основные и дополненные, разное отношение ученых к исследуемой проблеме. И мы не можем сказать, что это неправильно: однозначного, стандартного решения здесь быть не может. В разных ситуациях требуется разный подход. Вот почему переводчик должен быть человеком, способным прочувствовать обычаи, так сказать куль-

туру другого народа, страны, и передать чужую мысль так же насыщенно и красочно, как это было сделано автором, но используя всю красоту и выразительность родного языка переводчика.

N.Aslanova

Methods of analysis and classification of phraseological units from Spanish into Azerbaijani

Summary

This article is devoted to a comparative analysis of phraseological units in Spanish and Azerbaijani languages, as well as the methods of translation of phraseological units from one language to another. Up to now, there has been insufficient research on these phraseological units. However, this style of phraseology has a very specific set of units which requires a thorough analysis in terms of international phraseology. As a conclution, we can say that due to the fact that associated with the methods of translation problems are different, there are different views about the choice of method of translation of idioms, there are different classifications, basic and augmented, the different attitudes of scientists to the studied problem. And we can't say that this is wrong: a clear, standard solutions can not be here. In different situations requires a different approach. That is why the translator must be a person who can know the customs, so to transmit the culture of another people, country, and to convey someone else's idea as rich and colorful as it was done by the author, but using the beauty and expressiveness of the native language of the translator.

Rəyçi: Aynur Quliyeva
filologiya üzrə fəlsəfə doktoru

VÜSALƏ ƏLİYEVA
ADU
vusala.aliyeva@rambler.ru

BƏZİ YARIMŞƏKİLÇİLƏRİN DİL MƏNŞƏYİNƏ GÖRƏ ETİMOLOGİYASI

Açar sözlər: yarımşəkilçilər, lüğət tərkibi, leksik
Key words: semiaffixes, vocabulary, lexical
Ключевые слова: полуаффиксы, состав словаря, лексический

Hər hansı bir dilin tarixi inkişaf mərhələlərinin öyrənilməsi onun etnogenez haqqında müəyyən məlumat əldə edilməsinə kömək edir. Müəyyən zaman, dövr kəsiyində lügət tərkibinin öyrənilməsi isə həmin dilin inkişaf prosesinin öyrənilməsinə xidmət edir. Bu zaman dilin tarixi inkişaf mərhələləri, dil qatının bütün səviyyələrindəki dəyişikliklərin müəyyənləşdirilməsi yox, mövcud mərhələdəki faktik dil materiallarından çıxış etməli, dilin leksikologiya və leksikoqrafiyasına, leksik-semantik sisteminə ehtiyac duyularsa, onun lüğət tərkibinin keçmişinə də nəzər salmaq lazımdır.

İngilis və Azərbaycan dillərinin lüğət tərkibindəki yarımşəkilçilərin mənşəyinə, qrammatik, semantik və üslubi keyfiyyətlərinə ayrı-ayrı əsərlərdə toxunulmuş olsa da, bütövlükdə onların formalaşma və inkişaf yolları bir sistem kimi öyrənilməmişdir.

Dilçilik ədəbiyyatında bu kimi sözlərə çoxlu tərif verilmişdir. Məsələn, professor A.İ. Smirnitski sadə, düzəltmə və əsasına iki və daha artıq söz kökü daxil olan mürəkkəb sözləri ayirir. Mürəkkəb sözlərin növ müxtəlifliyi kimi, o, *rain-proved coat (yağış kecirməz palto), weather-proved can (hava keçirməz qab)* və s. kimi sözləri düzəltmə-mürəkkəb söz kimi qəbul edir.

Marçand H. da adı çəkilən leksikoloqların fikirləri ilə şərikdir. O, sözləri quruluşuna görə təhlil edərkən bir sıra yarımşəkilçiləri sadə sözlər qrupuna *(-man, -dom, -woman, -like, -wise, -ward)*, birləşmə şəklində olanları isə mürəkkəb sözlər qrupuna daxil edir.

Daxili imkanların və alınmaların köməyilə zənginləşən ingilis və Azərbaycan dillərinin (müxtəlifsistemli olmalarına baxmayaraq) lüğət tərkibi, hər şeydən əvvəl, cəmiyyətin bütün obyektiv-inkişaf qanun və normalarını özündə əks etdirir. Azərbaycan dilində mövcud olan bütün yarımşəkilçilər bu dilin fonetik və qrammatik normaları əsasında formalaşmışdır.

İngilis və Azərbaycan dillərində yarımşəkilçilər mənşəyinə görə bir neçə qrupa bölünürlər: dilin özünəməxsus yarımşəkilçiləri və başqa dillərdən keçmiş şəkilçilər.

Azərbaycan dilində həm milli, həm də alınma şəkilçilər çoxdur. Mənşəcə başqa dillərə məxsus şəkilçilərin hamısı ehtiyac ucbatından alınmamışdır. Leksik şəkilçilərin dildən-dilə keçməsi təbii proses hesab olunur. Dünya dillərinin heç birinin lüğət tərkibi sırf milli sözlərdən ibarət deyil. Məlumdur ki, Azərbaycan dilində yüzlərlə alınma sözlər mövcuddur. Bu sözlər özləri ilə şəkilçilər də gətirmişlər. Məsələn, dilimizə başqa dildən mürəkkəb sözlər də daxil olur. Onların birinci komponentləri də gəldiyi dildə müstəqil söz kimi işlənir və anlaşılır, ikinci komponent isə müstəqil söz kimi anlaşılmır. Bu zaman həmin ikinci komponent şəkilçi morfemlər sırasına keçir. Belə ki, *-dar, -xana, -baz, -kar, -dan* və s. sözlər - şəkilçilər həmin mürəkkəb sözlərin ikinci komponenti kimi dilimizə gəlmiş və yarımşəkilçi funksiyasını daşıyır: *mühafizəkar, zülmkar; mülkədar, əməkdar; sözbaz, qumarbaz, oyunbaz; toyxana, kitabxana, yeməkxana* və s.

Leksik şəkilçilər dilin lüğət tərkibinin yeni leksik vahidlərlə təmin edilməsində mühüm rol oynayır. Dildə hər bir yeni məfhum tam yeni söz yaratmaq imkanına malik olmur. Lakin cəmiyyətin inkişafı, elmin, mədəniyyətin, istehsalın inkişafı, texniki tərəqqi yeni sözlər tələb edir. Bu halda ya başqa dillərdən hazır sözlər alınır, ya dilin özündə olan sözlərdən istifadə olunur, ya sözlər heç bir fonetik dəyişikliyə uğramadan onlarda məna dəyişikliyi yaranır (konversiya), ya sözləri birləşdirərək yeni sözlər yaradırıq (mürəkkəb sözlər), ya da leksik şəkilçilər vasitəsilə yeni sözlər meydana çıxır (düzəltmə sözlər). Bu sonuncu üsul Azərbaycan dilinin söz yaradıcılığında əsas rol oynayır, eyni zamanda dilin lüğət tərkibinin inkişafında leksik şəkilçilərin yarımşəkilçilərdən rolu cox böyükdür.

İngilis və Azərbaycan dillərində işlənən bir sıra yarımşəkilçilər mücərrəd xarakterlidirlər. Belə şəkilçilər sadə və düzəltmə isimlərə, sifətlərə və bəzi başqa nitq hissələrinə qoşulurlar. Məsələn,

- *daş yarımşəkilçisi: yoldaş-yoldaşlıq, əmək-əməkdaş* və s.
- *dar yarımşəkilçisi: xəzinə - xəzinədar, əmək - əməkdar, mülk - mülkədar* və s.
- *siz, süz yarımşəkilçiləri:* Azərbaycan dilində ən çox işlənən şəkilçilərdəndir, bitişdiyi sözün ifadə etdiyi əşya və əlamətin yoxluğunu bildirir. *-lı, -li, -lu,-lü* şəkilçilərinin mənasına zidd bir mənanı ifadə edir. Bu yarımşəkilçi Azərbaycan dilində hər cür isimlərə qoşulur. Məsələn, *səs - səssiz, ümid - ümidsiz, üz - üzsüz (qatıq), göz-gözssüz, diş-dişsiz* və s.

Mücərrəd anlayışları bildirməklə onu da demək lazımdır ki, belə yarımşəkilçilər alınma şəkilçilər olub həm də düzəltmə isimlərin də yaranmasına xidmət edir. Məsələn, *-dar* yarımşəkilçisi fars dilindən bir neçə sözlə birlikdə dilimizə keçmişdir: *xəzinədar, mülkədar, anbardar, hesabdar* və s. Lakin bu yarımşəkilçi Azərbaycan dilinin öz sözlərinə də qoşularaq, düzəltmə isimlər yaradır: *əməkdar, dalandar* və s. Belə isimlər bu və ya digər əşya ilə əlaqədar olan şəxsin peşəsini də bildirir: *dalandar, hesabdar*

və s. *-dan (-dən)* yarımşəkilçisi də fars dilindən alınma şəkilçidir, alındığı dilin sözləri ilə birlikdə gələn bu şəkilçi həm də Azərbaycan dilinin öz sözlərinə də əlavə olunaraq düzəltmə isim yaradır: *gül-güldan, çay-çaydan* və s. Belə isimlər, əsasən qab mənasını bildirir. Bu şəkilçi omonim şəkilçi olduğundan, yəni formaca eyni olmaq şərtilə müxtəlif mənalı sözlər yaratmağa xidmət edir, bir sıra sözlərə qoşularaq onların leksik mənasını dəyişirsə, bəzi sözlər arasında isə məna əlaqəsi (sintaktik əlaqə) yaradır. Məsələn, *Birdən tufan qopdu; Birdən ona qədər bütün siniflər burada idi.*

Birinci cümlədə *-dən* şəkilçisi sözdüzəldici olduğuna görə bir sözünə qoşularaq, onun leksik mənasını tamamilə dəyişib zərf yaratmışdır. Buna görə də, *birdən* sözü necə?, nə cür? sualını tələb edir.

İkinci cümlədə isə *-dən* şəkilçisi sözdəyişdirici, yəni ismin çıxışlıq hal şəkilçisi olduğundan sözlər arasında məna əlaqəsi (sintaktik əlaqə) yaratmışdır. Onu da demək lazımdır ki, fars dilindən keçmiş *-dan* şəkilçisi ancaq isim düzəldirsə, *(güldan, qəhvədan)* Azərbaycan dilində olan *-dan/-dən* şəkilçisi zərf düzəldir. Məsələn: O, işinə ürəkdən can yandırır. Bu cümlədə ürəkdən zərfi ürək isminə *-dən* şəkilçisi artırmaqla əmələ gəlmişdir.

Azərbaycan dilində olan omonim *-dan/-dən* şəkilçisi ahəngə uygun olaraq, söz köklərindəki saitlərə əsasən iki cür yazılır: *tez-dən, üç-dən, ürəkdən, can-dan*

İsimdən düzələn zərflər içərisində *-an/ən* şəkilçisini də qeyd etmək lazımdır. Bu şəkilçilər əslən ərəb, fars mənşəli isimlərə əlavə olunur və işin tərzini bildirən zərf yaradır. Məsələn, *qəsd-dən, qəfil-dən, uca-dan* və s. *Qəfildən əsən külək səbrimizi kəsdi; İclas qəsdən Kərim dayının evində təşkil olunmuşdu.*

İngilis dilində olan bir sıra yarımşəkilçilər də mənşəyinə görə müxtəlifsəpgilidir. Məsələn, - *some* yarımşəkilçisi öz mənşəyinə görə elə bir sözdüzəldici elementdir ki, tarixi baxımdan onun yaranma mənbəyi ilə bağlılıq müşahidə olunur. O, qədim ingilis dilində mürəkkəb sözlərin yaranmasında istifadə olunan müstəqil sum sözünə aiddir. Həmin sözdən şəkilçinin yaranması qədim german dillərinin əksəriyyətində qeydə alınmışdır (müq. edək: *-sams*).

-some yarımşəkilçisinin yaranma mənbəyi ilə bağlılığına və tarixi baxımdan müşahidə edilməsinə baxmayaraq, onun sifətlərin yaranmasında ifadə etdiyi məna o qədər abstraktlaşmışdır ki, müasir ingilis dilində onlar müstəqil some sözünün mənasından tam uzaqdır. Hətta qədim ingilis dilindəki sum və müasir ingilis dilindəki some sözünün mənaları birbirindən kəskin şəkildə fərqlənir. A.İ. Smirnitskinin qeyd etdiyi kimi qədim ingilis dilindəki sum sözünün əsas mənası bir, bəzi, həmin, eyni, oxşar kimi mənaları bildirir. Müasir ingilis dilində *some* aşağıdakı mənaları bildirir:

1) sifət (adj) - birisi, bəzi, nə qədər, bir qədər, təxminən, yaxın və s.; 2) əvəzlik - kimsə, bəziləri, başqaları, müəyyən hissəsi və s.; 3) zərflik - bir qədər, qismən, müəyyən dərəcəyə qədər və s.

Bu yarımşəkilçinin xüsusiyyətlərinin aşkar edilməsində tədqiqatçılar adətən çətinliklərlə rastlaşırlar. Belə ki, *-some* yarımşəkilçisi isim, sifət və feil əsaslarından sifət yaradırlar. Fikrimizcə, bu üç omonim şəkilçi eyni mənşəlidir, lakin onlardan hər birinin özünəməxsus inkişafı, mənası və işlənmə xüsusiyyətləri vardır. İkincisi, əksər hallarda *-some* şəkilçisinin birləşdiyi sözün əsasının hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirmək asan olmur. Belə ki, müasir ingils dilində müxtəlif nitq hissələrinin əsasları formaca üst-üstə düşə bilərlər. Məsələn, *troublesome (əziyyətli)* sifətinin əsası *trouble* həm isim, həm də feil kimi, yaxud da *lightsome* sifətinin əsası *light* - isim, sifət və feil kimi işlənə bilər.

Madam ki, *-some* yarımşəkilçisi müxtəlif nitq hissələrindən sifət düzəltməyə qadirdir, onda təbii ki, bütün hallarda eyni bir məna ifadə edə bilməz. O.Yesperson da *-some* yarımşəkilçisinin isim, sifət və feillərdən sifət düzəltməyə qabil olduğunu etiraf edir.

Həqiqətən, *-some* yarımşəkilçisi birləşdiyi hər üç nitq hissəsinin əsasının mənasına uyğun olaraq üç əsas mənaya malikdir. Belə ki, 1) ismi əsaslara birləşən *-some* sozdüzəldici əsasın ifadə etdiyi əlamətə əhəmiyyətli dərəcədə malik olduğunu göstərir, məsələn, *bothersome (narahat, qayğıkeş), fearsome (dəhşətli, qorxulu), handsome (gözəl, qamətli), toothsome (ləzzətli, dadlı)* və s.

2) *-some* sifət əsaslarla birləşərək sözdüzəldici əsasın ifadə etdiyi qismən, müəyyən dərəcədə mənalarını ifadə edir. Məsələn, *darksome (qaranlıq, zülmət, riyakarlıq), gladsome (şən, xoşbəxt, razı), longsome (darıxdırıcı, yorucu), lonesome (tənha, ruh düşkünü), gaysome (şən)* və s.

3) *-some* yarımşəkilçisi feili əsaslara birləşir və sözdüzəldici əsasın işarə etdiyi hərəkətə cəhd, qismən meyillilik dərəcəsini ifadə edir. Məsələn, *shuddersome (təsirləndirici - bir kəsə təsirləndirici hərəkət etmək), troublesome (narahatlıq - bir kəsi narahat etmək), quarrelsome (dalaşqan - kiminləsə dalaşmaq fikrində olmaq)* və s.

Bu üç mənaya malik olan *-some* yarımşəkilçisi yalnız müəyyən semantik qrupa daxil olan feillərin əsaslarından sifətlər əmələ gətirirlər. Bu səpgili feillər adətən insanın daxili və ya fiziki durumunu əks etdirən hərəkətləri bildirirlər.

-fold yarımşəkilçisi sözdüzəldici element kimi qədim ingilis dilində də rast gəlinir. Həmin dövrdə o, *fealdan* feilinin əsası ilə üstə-üstə düşən *-feald* formasına malik idi. (müasir forması *to fold - əhatə etmək*). Məsələn, *anfeald (vahid, tək, təkcə); felafeald (çoxcəhətli, müxtəlif, müxtəlif cinsli); hindfeald (yüzqat); manifeald (çoxdəfəli)* və s.

-fold yarımşəkilçisi əsasən, saylardan sifət düzəltdiyi üçün ingilis dilində geniş yayılmamışdır. Sayların əsasına birləşən *-fold* yarımşəkilçisi sözdüzıldici əsasın ifadə etdiyi bir neçə dəfə böyüdülmüş və ya təkrarlanan mənasını bildirir. Məsələn, *fivefold (beşqat), fourfold (dördqat), tenfold (onqat)* və s. *-fold* yarımşəkilçisi ancaq saylarla birləşdiyindən onun məhsuldarlığı azalır.

-worthy yarımşəkilçisi öz mənşəyi ilə əlaqəsini hələ də itirməmişdir. Onun suffiksə xas olan xüsusiyyətlərinə baxmayaraq, onun mənası müstəqil *worthy* sözünün mənası ilə müqayisədə daha mücərrəddir. O, həm həqiqi, həm də alınma sözlərlə birləşməyə girə bilir, işlənmə tezliyinə malikdir və yeni sözlər yarada bilir. Məsələn, *newsworthy (çox vacib və mühüm bir hadisəni ictimaiyyətin nəzərinə çatdırmaq)* sifəti bizim dövrümüzdə yaranmışdır. Lakin, *-worthy* mürəkkəb sözlərin ikinci komponentinə xas olan özünəməxsusluğunu və mənşəyinə aid olduğu *-worthy* sözünün mənası ilə semantik bağlılığını qoruyub saxlayır. Bundan başqa, *-worthy* yarımşəkilçili sözlərdə əsas və şəkilçi arasında idarə əlaqəsi müşahidə olunur. Məsələn, *praiseworthy (tərifəlayiq - worthy of praise), trustworthy (etibarlı - worthy of trust)* və s. Yəqin ki, bu vəziyyət *-worthy* yarımşəkilçili birləşmələrin mürəkkəb sözlər kimi nəzərdən kecirilməsinə əsas vermişdir.

Bu şəkilçilərdən Azərbaycan dilində özünəməxsus olanları say miqdarı ilə daha üstünlük təşkil edir. Fars, ərəb və rus dillərindən keçmiş yarımşəkilçilər istisna olmaqla yerdə qalan yarımşəkilçilərin hamısı Azərbaycan dilinin özünəməxsus şəkilçiləridir. Məsələn, *-xana, -dar, -gər, -kar, -baz, -gir, -gah, -zar* və s. kimi yarımşəkilçilər fars mənşəli; *-ov, -yor (boksyor)* və s. isə rus mənşəlidir.

Azərbaycan dilində işlənən yarımşəkilçilərin bir qismi milli şəkilçilər olduğundan onlar daha fəaldır. Onlar həm ayrı-ayrı nitq hissələrinin sözdüzəldicilik prosesində, həm də bir nitq hissəsindən başqa nitq hissəsinə aid sözdüzəltmə prosesində çox məhsuldardır. Onlar eyni qaydada həm milli sözlərə, həm də alınma sözlərə əlavə oluna bilir. Alınma şəkilçilərdə belə xüsusiyyət yoxdur. Onların işlənmə sahəsi xeyli məhduddur. Bu məhdudluq onunla əlaqədardır ki, həmin şəkilçilər, o cümlədən alınma yarımşəkilçilər bəzi istisnalar olmaq şərti ilə əsil Azərbaycan sözlərinə əlavə oluna bilmir. Bir qismi isə dilimizə fars, ərəb və rus dillərindən keçmişdir. Əlbəttə dilimizdə say miqdarı ilə daha üstünlük təşkil edən Azərbaycan dilinin özünəməxsus yarımşəkilçiləridir. Fars dilindən alınma yarımşəkilçilər: *-dan, -xana, -dar, -gər, -kar, -baz, -xor, -gir, -gah, -zar* və s.; ərəb dilindən alınma yarımşəkilçilər: *-at, (heyvan-at, təbliğ-at)*; rus dilindən alınma yarımşəkilçilər: *-ov (İsmayılov)* və s.;

Şəkilçilər mənşə etibarı ilə müstəqil söz köklərindən əmələ gəldikləri üçün onların müəyyən hissəsi hələ də müstəqil işləndiyi zaman əsas söz kimi müəyyən məna ifadə edə bilir.

Ədəbiyyat

1. Xəlilov B. Müasir Azərbaycan dilinin Morfologiyası, I hissə, Bakı, 2000, səh. 279
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Maarif nəşriyyatı, 1983, səh. 319
3. Vüsalə Arif. İngilis və Azərbaycan Dillərində Yarımşəkilçilərin Müxtəsər Lüğəti, Bakı, 2013, səh. 90
4. Seyidov Y. Azərbaycan dilinin Qrammatikası. Morfologiya. Bakı, 2000, səh. 373
5. Arnold İ. V. The English Word, M. 1986, səh. 236
6. Hacıyeva Ə. H. English Lexicology, Baku, 2011, 255 page
7. Marchand F. The Categories and Types of Present Day English Word – Formation, Wiesbaden, 1960, 340 page
8. Смирницкий А.И. Хрестоматия по истории английского языка, М., 1953, с.244
9. Wright Joseph, Old English Grammar, Oxford, 1950, 325 page
10. Jesperson O. A Modern English Grammar on Historical Principles, Copenhagen, part VI, 1942
11. Англо-русский словарь, В.К.Мюллер, М., Высшая Школа, 1960

V.Aliyeva

Etymology of some semiaffixes according to the origin of language

Summary

One of the characteristic features of the system of affixes in Modern English is having its semiaffixes.

As we know, the role of semi affixes is great in enriching English vocabulary, and word creative. That's why learning the words with lexical meaning in detail is very important. The affixes having lexical meanings have particular importance in linquistics, from the point of view of enriching vocabulary.

Some elements of the English vocabulary occuring as independent nouns, have been very frequently used as second elements of words. The second

element is considerably generalized semantically and approaches of the action as to the meaning doer.

Belonging the other languages by origin not all the affixes acquired because of need. Transmitting of lexical affixes from one language to another is considered as a natural process. Not all the vocabulary of world languages consist of only national words.

В.Алиева

Этимология некоторых полуаффиксов в зависимости от происхождения языка

Резюме

У одной из характерных особенностей системы аффиксов на современном английском языке есть свои полуаффиксы.

Поскольку мы знаем, роль полуаффиксов является большой в обогащении английского словаря, и творческого слова. Именно поэтому подробное изучение слов с лексическим значением очень важно. У аффиксов, имеющих лексические значения, есть особое значение в лингвистике с точки зрения обогащения словаря.

Некоторые элементы английском лексики, существующие как самостоятельные существительные, являются часто употребляемыми как вторые элементы языка. Второй элемент обычно семантически обобщается и дает значение окончании означающих действие.

Не все аффиксы принадлежащие другим языкам были приобретены по необходимости. Переход лексических аффиксов из одного языка на другой рассматривайся как естественный процесс. Не все словари языков лица состоят только из национальных языков.

Rəyçi: **Əzizə Hacıyeva**
Filologiya üzrə elmlər doktoru, professor

НИГЯР АГАЕВА
Институт языкознания им.Насими НАНА
nigar@mail.ru

К ВОПРОСУ О ГРЕКО-РИМСКИХ МИФОНИМАХ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ И ИХ ОТРАЖЕНИИ В СЛОВАРЯХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Ключевые слова: миф, мифология, мифонимы, теонимы, астронимы
Açar sözlər: mif, mifologiya, mifonimlər, teonimlər, astronimlər
Key words: myths, greec-roma mythology, theonyms, astronomic terms

Словарь – это вся вселенная в алфавитном порядке.
Анатоль Франс

Мифы – продукт устного народного творчества, коллективной народной фантазии и мудрости. В данной статье речь пойдёт о греко-римской мифологии, о её месте в языке и словарях азербайджанского языка – толковых и двуязычных.

Греко-римская мифология составляет основу античного искусства, оказавшего большое влияние на искусство эпохи Возрождения и классицизма. В XIX веке в Германии философом-романтиком Ф.В.Шеллингом, братьями А.и Ф.Шлегель и знаменитыми фольклористами братьями В. и Я.Гримм была основана «Мифологическая школа» – литературное и фольклороведческое течение в романтизме.

Греко-римская мифология прочно вошла и в современную жизнь, и знакомство с ней необходимо каждому культурному человеку. Связанные с ней образы встречаются в нашей повседневной жизни: достаточно назвать атланты и кариатиды архитектурные украшения в виде мужских и женских фигур, украшающие фасады великолепных зданий центра Баку, построенных нефтяными магнатами в начале прошлого века. Планеты солнечной системы, а также названия ряда месяцев (январь, март, май, июнь) носят имена богов и богинь греко-римского пантеона. Чаша со змеёй (атрибут бога врачевания Асклепия «Эскулапа») украшает вывески и двери аптек, обложки книг по медицине, вестибюли и кабинеты ряда медицинских учреждений. И в нашем языке, как и в большинстве развитых языков, есть фразеологические выражения: «Axiles dabanı» (см. “Azərbaycanca-rusca lüğət”, т.II, слово “daban”), “Avgi tövlələri” (см. «Русско-азербайджанский словарь, т.I в слове «конюшня») и др. В одном из прошлогодних номеров “Ədəbiyyat qəzeti” («Литературная газета») нас заинтересовали две публикации: “Mnemosina – yaddaş

ilahəsi" (Мнемозина – богиня памяти) – эссе Г.Эйвазлы и "Şərq–Qərb müqayisəsində "Edip kompleksi"nə alternativ" («Альтернатива «Эдипову комплексу» в сравнении Восток–Запад») статья С.Амина. А в одном из номеров газеты «Вышка» под рубрикой "Məşhur neftçilər" («Известные нефтяники») помещена статья "Prometey qəlbli insan" («Человек с душой Прометея»), посвящённая юбилею знаменитого учёного-нефтяника Алекпера Сулейманова. Уже одни названия этих статей сами по себе свидетельствуют о неугасимости интереса у современного человека к мифологии – к одной из первых ступеней общечеловеческого миропонимания.

В 2004 году в серии «Литературные антологии» вышла книга "Ellada qəhrəmanları" («Герои Эллады»), включающая мифы о Ясоне («Аргонавты») и Геракле («12 подвигов Геракла»). В обоих мифах в лице героев Эллады отражены идеалы древнего мира.

В книге «Hekayələr» («Рассказы») академика Камала Абдуллы есть два рассказа, в основе которых лежат древнегреческие мифы: "Parisin seçimi" («Выбор Париса» – о яблоке раздора, ставшего причиной Троянской войны) и "Xaron, mərhəmətli Xaron" («Харон, милостивый Харон» – о перевозчике душ умерших через реку забвения в подземное царство мёртвых). В названных произведениях упомянуты более сотни мифонимов, большинство из которых, по нашему убеждению, должно быть помещено в словари азербайджанского языка на основании существующих в лексикографии общих правил о включении в словари собственных имён. Так, в предисловии (От редакции) семнадцатитомного «Словаря современного русского литературного языка» читаем: «Собственные имена людей в словарь не включаются, кроме тех, что употребляются в нарицательном смысле (в терминах или ходовых выражениях)». «Включению в словарь подлежат также собственные имена исторических и мифологических лиц, а также персонажи литературных произведений», тем более «если они подтверждаются цитатами из художественной и общественно-политической литературы»[1, VI] .

Без знания древнегреческой мифологии бесполезно читать классические произведения (Гомера, Эсхилла, Софокла, Еврипида и др.). Многие скульптуры и картины в музеях непонятны посетителям как раз из-за незнания мифологии и отсутствия справочной литературы. Так, не зная мифа о благочестивой Пиэтате (благочестие римлянами понималось прежде всего как почитание детьми родителей) кощунственной может показаться знаменитая картина Рубенса «Отцелюбие римлянки», на которой молодая, цветущая женщина в каземате кормит

грудью измождённого старика – своего отца, осуждённого на голодную смерть.

На азербайджанском языке пока нет, к сожалению, словаря греко-римской мифологии. Располагаемый нами «Мифологический словарь» [2] содержит около тысячи словарных статей, и в основном это имена собственные. Однако помещёнными в словари азербайджанского языка могут быть только те из них, которые обрели «переносное и символическое значение». [3, 12] Думается, что первым эту честь заслуживает самый яркий образ греческой мифологии – **Прометей**, похитивший огонь с Олимпа и принесший его людям, научив их пользоваться огнём, за что был обречён на страшные муки. Имя Прометей стало символом служения людям и борьбы со злом. Однако лексемы «Прометей» нет ни в одном словаре азербайджанского языка. Нет и **Атланта** (**Атласа**) – титана, держащего на плечах небесный свод. И это несмотря на то, что атлант – и архитектурный термин (об этом смотри выше). В анатомии атлант – первый шейный позвонок, сочленённый с черепом человека. От изображения Атланта – Атласа на титульном листе сборника географических карт, составленном фламандским географом и картографом Г.Меркатором, термин атлас вошёл в оборот и поныне используется всеми. Нет в словарях и **Антея**, ставшего символом силы, которую даёт связь с родной землёй, матерью-родиной. Из упомянутого «Мифологического словаря» мы отобрали около 150 словарных статей, которые с максимально кратким переводом на азербайджанский язык, сделанном нами, могут быть помещены в качестве приложения в готовящийся к изданию «Орфографический словарь азербайджанского языка». Данный список мифонимов уже предложен сотрудникам отдела для обсуждения.

А что же из мифонимов мы имеем в наших словарях? Выше говорилось, что в основном это теонимы – имена богов и богинь, которыми у греков и римлян, как и у народов древнего Востока, было принято называть астронимы: звёзды, планеты, созвездия. Обратившись к астронимам в словарях азербайджанского языка, в частности к планетам солнечной системы, мы были изумлены бессистемностью подачи астрономических терминов.

Как известно, азербайджанская лексикография XX века (советского периода) формировалась в контексте достижений русской лексикографии. Так, «Толковый словарь русского языка» под редакцией проф. Д.Н.Ушакова (в 4-х томах, изданный в 1935–1940 гг.) стал ориентиром для создателей «Толкового словаря азербайджанского языка» во главе с проф. А.А.Оруджевым. В предисловии словаря Ушакова §1 Задачи и объём словаря читаем: «Намеченный объём

словаря заставляет ограничить количество слов некоторых категорий. Так, не даются узко-специальные термины наук, искусств, техники. Исключены собственные имена (людей, географические и др.), а также названия жителей городов и т.д.».[4, I, XXI] В словаре кроме «Земля… Планета, на которой мы живём» нет других названий планет, и только в словарной статье Юпитер (тех.) Мощный электрический осветительный прибор, род прожектора «[по названию фирмы, происходящему от имени верховного бога в римской мифологии Yupiter и названной тем же именем самой большой планеты солнечной системы]» [4, I, IV] мы видим косвенное упоминание ещё об одной планете солнечной системы.

Аналогичную картину наблюдаем и в «Толковом словаре азербайджанского языка» (первое издание). В словарной статье «Yer» из 26 значений первое: Üzərində sakin olduğumuz planet: Yer kürəsi (bu mənada böyük hərflə). В словарной же статье Yupiter, в отличие от словаря Ушакова, выделены два значения: 1. Günəş sisteminin ən böyük planeti и 2. Kinotexnikada işlənən çox qüvvətli işıq verən elektrik cihazı; projektor.

В «Толковый словарь азербайджанского языка» (трёхтомник) [5] было внесено около 20 тысяч новых слов, но планет в словаре, как и в первом, всего две: Yer и Yupiter.

В 2006 году «Толковый словарь азербайджанского языка» (первое издание) с некоторыми дополнениями и уточнениями был издан под редакцией проф. А.Ахундова в латинской графике. [6] Дополнение коснулось и астрономических терминов: в словарь включены Venera, Mars, Saturn, Neptun. Но почему-то в терминах Venera и Mars мифологическое и астрономическое значения выделены как два омонима, а в терминах Neptun и Saturn оба значения даются в одной словарной статье как первое и второе. В словарной статье Uran всего одно значение: Radioaktiv kimyəvi element, а астронимов Merkuri и Pluton нет вовсе.

Нет единой системы в подаче астронимов и в «Толковом словаре азербайджанского языка» (однотомнике). [7] В терминах Venera и Mars мифологическое и астрономическое значения, как и в предыдущем словаре, даются в виде омонимов. А оба значения астронимов Saturn, Uran и Neptun даются в одной словарной статье, однако в статьях Saturn и Neptun астрономическое значение идёт как первое, а мифологическое – второе. В статье же Uran первым дано мифологическое значение. В статье Yupiter видим лишь одно

астрономическое значение. Нет ни мифологического, ни технического значений этого слова.

Подобную картину наблюдаем и в двуязычных словарях. Так, в «Азербайджанско-русском словаре» [8] всего три астронима: Venera, Yer, Saturn. В словарных статьях Mars и Uran нет, как и в первом издании «Толкового словаря азербайджанского языка», ни мифологического, ни астрономического значений: Mars – двойной проигрыш или выигрыш при игре в нарды, а Uran – радиоактивный химический элемент.

В «Русско-азербайджанском словаре» [9] нет только планеты Плутон. (Самая далёкая от Солнца планета была открыта в 1930 году и термин, возможно, ещё не успел попасть в словники русских словарей). В словарных статьях Меркурий и Сатурн указаны устаревшие значения этих терминов: Меркурий – (civə) ртуть, а Сатурн – (qurquşun) свинец. В статье Меркурий устарелое значение даётся первым, астрономическое – вторым, а мифологическое – третьим (с пометой *məc*. (*переносное*). В статье Сатурн устарелое значение стоит после мифологического и астрономического, что отвечает принятым в лексикографии принципам. В статьях Юпитер и Уран нет мифологических значений. Наконец, обращаемся к «Орфографическому словарю азербайджанского языка». [10] В нём из девяти астронимов – планет Солнечной системы нет только Меркурия, хотя именно его правописание вызывает вопрос: Merkuriy или Merkuri. Только термины Pluton, Neptun и Saturn сопровождены пометой *astr*. (astronomiya), а астроним Yupiter дан в сочетании: Yupiter *işıq cihazı*. Вопрос вызывает и написание астронимов в словаре со строчной буквы . Надеемся, что в готовом к изданию новом орфографическом словаре ошибка эта будет исправлена. Астронимы будут даны в приложении к словарю в числе слов, пишущихся с прописной буквы.

Казалось бы, ничего сложного, всего 9 астронимов – термины одной семантической группы… Так почему же нет единого принципа их подачи хотя бы в каждом отдельно взятом словаре? Конечно, мы говорим об этом с болью в сердце: ведь составители этих словарей – глубоко уважаемые нами люди, наши учителя, старшие товарищи, коллеги.Здесь, пожалуй, единственным смягчающим оправданием послужат слова Ю.Скалигера – средневекового учёного-лексикографа: «Lexicographis secundus post Herculem labor» – «Успешный словарь после Геркулесовой работы».[11, 148]

Литература

1. Словарь современного русского литературного языка, т.I. Москва.-Ленинград, 1948.
2. Мифологический словарь. Москва, 1965.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı, 1966–1987. T. I.
4. Толковый словарь русского языка. I том. Москва, 1935.
5. Azərbaycan dilinin izahlı lüğəti. Üç cilddə. Bakı, 1997–2000.
6. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı, 2006.
7. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bircildlik. Bakı, 2005.
8. Azərbaycanca-rusca lüğət. Dörd cilddə. Bakı, 2006.
9. Rusca-azərbaycanca lüğət. Üç cilddə. Bakı, 2005.
10. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2013.
11. Н.С.Ашукин, М.Г.Ашукина. Крылатые слова. Москва, 1966.

N.Ağayeva

Azərbaycan dilində yunan-roma mifonimlərinin yeri və Azərbaycan dili lüğətlərində verilməsi məsələsi

Xülasə

Məqalədə yunan-roma mifonimlərinin Azərbaycan dilinin lüğətlərində verilməsindən bəhs olunur. Mifonimlərə dövri mətbuatda, orijinal və tərcümə əsərlərində rast gəlmək mümkündür.

Leksikoqrafiyada qəbul edilmiş qaydalara əsasən, məcazi və simvolik mənalar qazanmış mifonimlər lüğətə salınmalı leksik vahidlər sırasındadır. Belə olduğu halda, Prometey, Antey, Atlant, Orfey kimi bir çox məşhur mifonimləri Azərbaycan dilin lüğətlərində tapmaq mümkün deyil. Bizim lüğətlərə daxil edilmiş mifonimlər yalnız Günəş sisteminin planetləri ilə məhdudlaşır, çox zaman isə planetlərin hamısı əks olunmur və astronomik terminlərin verilməsində vahid sistemlilik müşahidə olunmur.

Sual yaradan hallardan biri də budur ki, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin bütün nəşrlərində bu leksik vahidlər kiçik hərflərlə ümumişlək sözlər sırasında təqdim edilmişdir. Bu nöqsanın aradan qaldırılması məqsədilə yeni nəşrdə mifonim və astronimlərin əlavələr siyahısında böyük hərflərlə verilməsi nəzərdə tutulmuşdur.

N.Agayeva

Place of greek-roman myths in azerbaijani and the problem of how to give them in azerbaijani dictionaries

Summary

The presented article is dedicated to the greek-roman myths in the dictionaries of Azerbaijani. Myths can be found in periodical mass-media, original and translated works. The myths in our dictionaries are usually the astronomic terms and planets of the solar system.

Astronomic terms in our dictionaries are observed in unsystematic character, in most cases not all the names of planets are reflected and giving of those astronomic is not stable. One of the controversial issues is that in all editions of the "Orthography Dictionary of Azerbaijani" these lexical units are presented with small letters among common words. It is taken into consideration to give these myths and astronomic terms with capital letters in the list of additions in the next publication for the reason of removing the shortcomings.

Rəyçi: İsmayıl Məmmədli
filologiya üzrə elmlər doktoru, professor

NAİBƏ ƏHMƏDOVA
ADU
ahmedovanaibe78@gmail.com

FEİLİ BAGLAMA FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏSİ KİMİ

Açar sözlər: feili bağlama, tipologiya, müqayisə, fransız dili, Azərbaycan dili , morfologiya
Key words: gerund, typology, comparison, French language, Azerbaijani language, morphology
Ключевые слова: деепричастие, типология, сравнение, французский язык, Азербайджанский язык, морфология

Dilin zənginliyi onun ifadə vasitələrinin zənginliyi ilə birbaşa əlaqəlidir. Dünyada mövcud olan dillər özünəməxsusluğu və zənginliyi ilə biri digərindən seçilir. Bu özünəməxsusluq və zənginlik dilçilik elmi sahəsində aparılan tədqiqat işlərinin nəticəsində ərsəyə gələn elmi əsərlərdə daha aydın nəzərə çarpır. Dilçilik dünyada dilin yaranmasını, inkişafını, geneloji və tipoloji təsnifatı prinsiplərini, dilin daxili quruluşunu və s. dillə bağlı məsələləri tədqiq edir. Hər bir dilin qrammatikası özünəməxsus səciyyə daşıyır. Bu özünəməxsusluqluqları qarşılaşdırmaq dilçilik elmində həm çox maraqlı, həm də çox faydalı arqumentlərin əldə olunmasına gətirib çıxarır. Dil faktlarının tipoloji araşdırması dedikdə "Dillərin tipoloji bölgüsü nədən qaynaqlanır?" və yaxud "Dillərin tipoloji bölgüsü nəyə əsaslanır?" suallarına cavab tapmağa çalışaq. Dillərin tipoloji cəhətdən bölgüsü ilk olaraq alman dilçisi V.Humboldt tərəfindən verilmişdir. Məhz buna görə də məşhur alman dilçisi V.Humboldt linqvistik tipologiyanın banisi hesab edilir. Dilçi alim çox sayda dilə yiyələnərək onlar arasındakı oxşar və fərqli cəhətləri təhlil etmış, nəticə etibarı ilə bütün dünya dillərini 4 qrupa ayırmışdır:

1. Kök,Amorf dillər
2. Aqqlütinativ dillər
3. Flektiv dillər
4. İnkorporlaşan dillər (5:səh.16)

Dil faktlarının tipoloji araşdırılması baxımından biz bu məqalədə fransız və Azərbaycan dillərində feili bağlamaların tipoloji təhlilinə diqqət ayıracağıq.

Bildiyimiz kimi, fransız dili flektiv dillər qrupuna, Azərbaycan dili isə aqqlütinativ dillər qrupuna aid edilir. D.Yunusova görə flektiv dillərin aşagıdakı xüsusiyyətləri var:

a) söz kökünün dəyişkən olması;

b) yeni söz əmələgəlməsinin və qrammatik kateqoriyaların əksərən daxili fleksiya və fuziya vasitəsilə həyata keçməsi;
c) ahəng qanunun olmaması və s.

D. Yunusov aqqlütinativ dilləri isə bu xüsusiyyətlərə görə səciyyələndirir:
a) söz kökünün dəyişməzliyi;
b) ahəng qanunu;
c) affikslərin mono semantikliyi;
ç) affikslərin sözün kökü ilə birbaşa əlaqəsi;
d) səs dəyişikliyinin olmaması;
e) yeni söz düzəlməsi və qrammatik kateqoriyaların bir çoxunun affikslşmə yolu ilə düzəlməsi və s.(5:səh.39).

Ümumiyyətlə, dillər tipoloji bölgüyə əsasən bir-birindən fərqləndirilsə də, saf dil tipi mövcud deyil. Belə ki, flektiv dildə aqqlütinativlik ünsürlərinə rast gəlinir. Həmçinin də əksinə, aqqlütinativ dildə flektivlik əlamətlərinə rast gəlinir(5:səh.31).

Affikslərlə yeni söz əmələ gəlməsi əsasən, aqqlütinativ dillərə aid olsa da, fransız dilində sifətlərə suffiks əlavə edilməklə isim alınması mövcuddur. Bundan başqa, hər iki dilin cümlə strukturuna nəzər salarkən də fərqli olduğunu görürük. J.Qrinberqin müxtəlif strukturlu dilləri cümlə strukturuna əsasən 3 qrupa ayırmasına əsaslanaraq fransız dili cümlə strukturuna görə Mübtəda-Xəbər-Tamamlıq, Azərbaycan dili isə cümlə strukturuna görə Mübtəda-Tamamlıq-Xəbər şəklində bir birindən fərqlənir. Belə ki, J.Qrinberqə görə cümlə strukturu baxımından dillər 3 qrupa ayrılır:
1. PSO (XMT) –xəbər-mübtəda-tamamlıq
2. SPO (MXT) –mübtəda-xəbər-tamamlıq
3.SOP (MTX) –mübtəda-tamamlıq-xəbər (5:səh.17)

Fransız və Azərbaycan dillərinin geneoloji analizinə gəldikdə onu deyə bilərik ki, fransız dili Hind-Avropa dil ailəsinin roman dil qrupuna, Azərbaycan dili isə Altay dil ailəsinin Türk dili qolunun Oğuz-Səlcuq yarım-qrupuna aiddir. Buradan da bu nəticəyə gəlinir ki, bəhs etdiyimiz bu iki dil qohum olmayan dillərdır.

Dillərin tipoloji analizi fonunda hər iki dildə mövcud olan feili bağlamalara nəzər salaq:

a) Müasir fransız dilində feili bağlama (gérondif)

Müasir fransız dilində feili bağlama (gérondif) feilin təsriflənməyən, şəxssiz formalarından biri olaraq, -ant sonluqlu feil formaları qrupuna daxildir. Fransız dilində sonu -ant ilə bitən 3 feil forması mövcüddür:
1.Gérondif (feili bağlama)
2. Participe présent (feilin indiki zaman xəbər forması)
3. Adjectif verbal (feili sifət).

Fransız dilində feili bağlama (gérondif) **"en"** hissəciyi ilə müşaiyət olunan "participe présent" vasitəsilə düzəlir və Azərbaycan dilinə **-araq, -ərək, -yaraq,-yərək** şəkilçilərini qəbul etmiş feil kimi, yəni feili bağlama kimi tərcümə olunur: *en chantant, en dormant, en écoutant, en parlant*
Bu zaman bir sual meydana çıxır. Əgər feili bağlama (gérondif) participe présent və onu müşaiyət edən **"en"** hissəciyi ilə düzəlirsə, bəs onda participe présent özü nədir?

Participe présent Azərbaycan dilinə feli sifətin indiki zaman forması kimi tərcümə olunur. Fransız dilində hər 3 qrupa aid feilləri Présent de l`indicatif zamanında 3-cü şəxsin cəminə görə təsrif edərək **" –ons"** sonluğunu **" –ant"** sonluğu ilə əvəzləyərək düzəlir.Məsələn :
lire—lisant—en lisant
finir— finissant— en finissant
aller— allant— en allant
3 feilin participe présent forması isə müstəsna yolla düzəlir:
être—nous sommes—étant
avoir—nous avons—ayant
savoir—nous savons—sashant

Participe présent həmişə **"-ant"** hissəciyi ilə düzəlir,dəyişməzdir, təsrif olunmur və uzlaşmır.Azərbaycan dilinə təcümədə **"-an" "ən" "yan" "yən"** ifadəsini verir. İcra olunan hərəkətin davamlılığını bildirir. Məsələn:
courant-qaçan, rirant-gülən, jouant-oynayan, descendant-düşən və s..

Azərbaycan dilinə feili bağlama kimi tərcümə olunan gerondif isə participe present formasının qarşısına **"en"** sözönüsü artırmaqla düzəlir. Gérondif adətən eyni anda baş verən hərəkətləri ifadə edən cümlələrdə işlənir. Məsələn:
en courant-qaçaraq; en descendant-düşərək
Azərbaycan dilinə tərcümədə **"araq" , " ərək"** kimi ifadə olunur. Məsələn:
Vous mangez et lisez le journal. Vous lisez le journal en mangeant.
Siz yemək yeyirsiniz və jurnal oxuyursunuz.
Siz jurnalı yemək yeyərək oxuyursunuz.
Və ya: Siz jurnalı yemək yeyə-yeyə oxuyursunuz.

Fransız dilində feili bağlama (gérondif) feilin xəbər forması (participe présent) kimi dəyişməzdir, təsrif olunmur və uzlaşmır.

b) Müasir Azərbaycan dilində feili bağlama

Müasir Azərbaycan dilində feili bağlama feilin təsriflənməyən formalarına aid olaraq həm feilin, həm də zərfin xüsusiyyətlərini özündə daşıyır. Şəxsə və kəmiyyətə görə dəyişmədiyi üçün feil kimi təsriflənə bilmir. Belə ki, feil müasir Azərbaycan dilinin əsas nitq hissələrindən biri hesab edilir və ümumi qrammatik mənasına əsasən iş, hal və hərəkəti bildirərək, zamana, şəxsə və kəmiyyətə görə dəyişir. Feillər müxtəlif forma

və zamanlarda işlənir, şəxsə və kəmiyyətə görə dəyişir, təsirli və təsirsiz, təsdiqdə və ya inkarda olur. Zamana, şəxsə və kəmiyyətə görə feillər *"nə etdi?", "nə edir?", "nə edəcək?", " nə etmək?"* və s. suallara cavab verərək cümlənin əsas nitq hissələrindən biri vəzifəsini icra edir. Feili bağlamalar isə feilə aid xüsusiyyətləri daşımasına baxmayaraq cümlədə predikativlik daşımır, eyni mübtədaya aid olaraq, həmişə əsas feildən asılı olur. Əsas feillə ifadə olunan iş, hal və ya hərəkətə aydınlıq gətirərək cümlədə feili xəbərin qarşısında işlənir. Başqa sözlərlə əlaqəyə girərək qeyri-predikativ birləşmə yaradır və feili bağlama tərkibi əmələ gətirir. Bir az əvvəl qeyd etdiyimiz kimi, feili bağlama həm feilin həm də zərfin xüsusiyyətlərini özündə daşıyır. Q.Kazımov belə hesab edir ki, feili bağlamalar feilin adverbial forması olduğuna görə feili bağlamarda zərf xüsusiyyətləri də güclüdür. (2:səh.336).

Feili bağlamaların feilə aid xüsusiyyətləri bunlardır:

1.Təsirli və təsirsiz olur:

2.Təsdiqdə və ya inkarda:

3.Feilin qrammatik növlərinə görə dəyişir.

4.Tərkib əmələ gətirir.

Zərfə aid xüsusiyyətləri isə bunlardır:

1. Hərəkəti müxtəlif cəhətdən izah edir.
2. Cümlədə zərflik olur.
3. Zərfin suallarına cavab verir.

Feili bağlama haqqında yazılmış elmi əsərlərə nəzər saldıqda bir cümlə ilə dəqiq tərifin verilməsi hallarına az rast gəlinir. Feili bağlamanın müxtəlif alimlər və tədqiqatçılar tərəfindən müxtəlif aspektdən yanaşmaqla adlandırılması halları kifayət qədər təzadlı fikirlərin meydana çıxmasına səbəb olur. Fikir ayrılığı əsasən adlandırma ilə bağlıdır. Azərbaycan dilinin tədqiqinə həsr edilmiş elmi ədəbiyyatlarda feilin təsriflənməyən formalarının hallanmayan, dəyişməyən, şəxssiz formalar adı ilə adlandırılması təzadlı fikirlərin və fikir ayrılıqlarının meydana çıxmasına səbəb olur. Azərbaycanlı dilçi V.Əliyev bu sahədə kifayət qədər araşdırma apararaq "Azərbaycan dilində feili bağlama" adlı ali məktəblər üçün dərs vəsaitini ərsəyə gətirmişdir. Müəllif adı çəkilən kitabında aşagıdakı fikirləri qeyd etmişdir:

Azərbaycan dilinin morfologiyasinda feili bağlama feilin təsriflənməyən forması hesab edilir . "Təsriflənməyən" termini bəzi ədəbiyyatlarda "feilin şəxssiz forması", "feilin hallanmayan forması" və yaxud da "feilin dəyişməz forması" kimi ifadə olunur. Dolaşıqlıq da elə buradan meydana çıxır (1:səh.13). Bundan başqa, müəllif feili bağlamanın dəyişilməz forma hesab edilməsinə qəti etiraz edərək inkarlığa və növə görə dəyişilməni feilə aid xüsusiyyət hesab edir və öz fikrini bu cür əsaslandırır :

”F*eili bağlamadan söhbət gedərkən hər cür morfoloji dəyişmədən deyil, feilin yalnız şəxsə və zamana görə dəyişilməsindən, yəni onun təsriflənməməsindən danışılmışdır. Deməli, feili bağlama feilin təsriflənməyən formasıdır.”*

Vilayət Əliyev Azərbaycan dilində heç bir feili bağlamanın zaman və şəxs şəkilçisi qəbul etmədiyini qeyd edir. (1: səh.14).

Biz də bu fikirləri təhlil edərək Vilayət Əliyevin fikri ilə razılaşırıq. Belə hesab edirik ki, əgər heç bir feili bağlama zaman və şəxs şəkilçisi qəbul etmirsə, deməli təsriflənmir. Bu halda, feili bağlamanın feilin təsriflənməyən forması hesab edilməsi məntiqə uyğundur.

Azərbaycan dilində fransız dilindən fərqli olaraq feili bağlama bir üsulla deyil, müxtəlif yollarla düzəlir. Buna səbəb feili bağlamanın yaranmasında rolu olan müxtəlif sayda,müxtəlif cür şəkilçilərdir. Feili bağlama şəkilçilərini müxtəlif və çox sayda olmaqla yanaşı ifadə etdikləri mənalar da rəngarəngdir. Feli bağlama şəkilçiləri bunlardır:

1. -ıb,-ib,-ub,-üb--- *qaçıb,deyib, uçub, üzüb*
2. -araq,-ərək--- *hıçqıraraq, əsnəyərək*
3. -a-a,-ə-ə --- *yata-yata, döyə-döyə*
4. -madan,-mədən--- *baxmadan, dönmədən*

5. -anda,-əndə(-yanda,-yəndə)---*baxanda, düşəndə, darayanda, sürüyəndə*
6. -dıqda,-dikdə,-duqda,-dükdə --- *qaçdıqda,yeridikdə,oxuduqda,üşüdükdə*

7. -arkən,-ərkən,(-yarkən,yərkən)--- *sevərkən,oxuyarkən,*

8. -ınca,-incə,-unca,-üncə,(-yınca,-yincə,-yunca,-yüncə)---*çatınca, saxlayınca, unudunca, üşüyüncə*

9. -dıqca,-dikcə,-duqca,-dükcə---*baxdıqca,gördükcə, oxuduqca, gördükcə*
10. -ar,-ər,-maz,-məz---*bişər-bişməz*

11. -caq,-cək---*çatcaq,götürcək*
12. -andan,-əndən---*şəhərə gələndən*
13. -mış,-miş.-muş,-müş---*öyrənməmiş,cavab almamış*
14. -alı,-əli**---** *alalı, gedəli,gələli*

Tipoloji fonda feili bağlamanın tədqiqatı hər iki dilin qrammatikasında feili bağlama və “gérondif”ə məxsus oxşar və fərqli cəhətləri üzə çıxarır. Bu da öz növbəsində hər iki dilin dərindən öyrənilməsinə yol açır. Fransız və Azərbaycan dillərində mövcud feili bağlama anlayışının fərqli cəhəti əsasən əmələ gəlmə üsulundadır. Belə ki, fransız dilində feili bağlamanın əmələ gəlməsinin yeganə yolu feillərin indiki zaman xəbər formasına (participe présent) **“en”** sözönünün artırılması vasitəsilə düzəlir. Lakin Azərbaycan dilində feili bağlamanın yaranması 14 növ müxtəlif şəkilçilərin köməyi ilə baş verir. Buradan da bir daha fransız dilinin flektiv , Azərbaycan dilinin aqlyutinativ dil olması anlayışı öz təsdiqini tapır. Hər iki dildə feili

bağlamaların oxşar cəhəti onların cümlədə rolundadır. Hər iki dildə feili bağlamalar cümlədə zərflik vəzifəsində iştirak edir.

--Il se roulait sur le pont, en appelant sa chère Aychè (11: p.68).

--O sevimli Ayişəsini haraylaya-haraylaya göyərtədə yumaq kimi dığırlanırdı (4: səh.101).

Həm feilin, həm də zərfin əlamətlərini özündə daşıyan feili bağlama hər iki dildə ikili xüsusiyyətə malikdir. İkili xarakterə malik olması hər iki nitq hissəsinə aid xüsusiyyətləri daşımasında təzahür edir.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev V. Az.dilində feili bağlama.(Dərs vəsaiti).Bakı,1989, 96 s.
2. Kazımov Q.S.Müasir Azərbaycan dili.Morfologiya.Bakı,"Elm və təhsil",2010, 448 s.
3. Hüseynzadə M.Müasir Azərbaycan dili.3-cü hissə.Morfologiya.Bakı,"Şərq-Qərb",2007, 280 s.
4. Prosper Merime. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2013,192 s.
5. Yunusov D. Müqayisəli tipologiya (Ali məktəblər üçün dərslik)-Bakı, Mütərcim,2012,180 s.
6. Asgarov V.Gerondif,Participe present,Adjectif Verbal.Presses Academiques Francophones .93p.
7. GETTRUP Harald . *Le gérondif, le participe présent et la notion de repère temporel,* Revue Romane, Bind 12/1977-2
8. HALMOY Jean-Odile , *A propos de l'adjectif en – **ant** dit « verbal »,* Revue Roman, Bind 19/1984-1
9. HALMOY Jean-Odile. *Les formes gérondives dans Les .XV. joies de mariage et aes textes du XVe siècle,* Langages, 2003/37, Numéro 149, pp.25-36.
10. Kleiber Georges ¨Gerondif et manière¨,Langue française 2011/3 (n°171)
11. Prosper Mérimée. Nouvelles, Moscou, 1976, p.68

H. Ахмедова

Герундий как сравнение некоторые особенности французского и Азербайджанского языка.

Резюме

В этой статье исследован герундий как сравнение некоторые особенности французского и Азербайджанского языка. Анализируется мнение лингивистов. Сравнивается сходные и отличительные особенности деепричастии на обоих языках. Установлено, что, поскольку

азербайджанский и французский языки, как правило, различны, появление и использование деепричастии на этих языках также различны.

Примеры в статье взяты из оригинальной версии романа Проспера Мерима Таманько и переведены с азербайджанского языка Шамилем Заманом. В результате установлено, что во французском герундий формируется с помощью одного метода, но на герундий азербайджанском языке, с помощью 14 суффиксов. В обоих языках смысл выражения деепричастии и роль деепричастии в синтаксисе идентичен.

Характеристики появляются при переводе текстов с французского на азербайджанский и наоборот. Типологическая классификация языков также обсуждается в этой статье. Написано, что азербайджанский язык является агглютинативный а французский язык является флективным.

N.Ahmedova

The gerundive as a comparison of certain features of the French and the Azerbaijani languages.

Sammary

The article is dedicated to the gerundive as a comparison of certain features of the French and the Azerbaijani languages. The opinions of linguists is analysed. Gerundeve is compared in both languages. İt appears that as these languages are different typologically, the appearance and the use of gerundive in Azerbaijani and gerundive in French are different.
The examples in the article are taken from the original version of the novel "Tamanko" by Prosper Merim and its translation into Azerbaijani by Shamil Zaman. As a result, it is that gerundive appears by one way in French and gerundive by 14 suffixes in Azerbaijani. The meaning and the syntactical function of gerundive is the same in both languages.

The characteristics of "feili bağlama" and "gérondif" appear while translating texts from French into Azerbaijani and vice versa. Typological classification of languages is discussed in this article as well. It is written that Azerbaijani is an aqqlutinative language and French is a flektiv language.

Rəyçi: Adil Babayev
Filologiya elmləri doktoru, professor

HƏMİDƏ AXUNDOVA
ADU
axundova_h93@mail.ru

ÜMUMİ DİLÇİLİKDƏ MODALLIQ KATEQORİYASININ TƏDQİQİ TARİXİNDƏN

Açar sözlər: modallıq, məntiqi modallıq, qrammatik modallıq, modal sözlər, obyektiv modallıq, subyektiv modallıq
Key words: modality, logical modality, grammatical modality, modal words, objective modality, subjective modality
Ключевые слова: модальность, логическая модальность, грамматическая модальность, модальные слова, объективная модальность, субъективная модальность

İnsanlar danışarkən ancaq obyektiv şəkildə mövcud olan faktlar, hadisələr haqqında məlumat verməklə bərabər, həm də bu faktlara və hadisələrə öz münasibətini bildirmək məcburiyyətində qalır. Bununla əlaqədar olaraq, hər bir dildə, o cümlədən müasir fransız və Azərbaycan dillərində modallıq adlanan kateqoriya mövcuddur. Modallıq kateqoriyası ünsiyyətdə özünəməxsus yer tutur və bununla əlaqədar olaraq bu kateqoriyanın tədqiqi dilçiləri cəlb etmişdir. Araşdırdığımız ədəbiyyatlarda modallıq kateqoriyasının iki növünü göstərirlər: məntiqi modallıq və qrammatik modallıq. Məntiqi modallıq anlayışı ilk dəfə Aristotel tərəfindən fəlsəfəyə gətirilmişdir, daha sonra isə Kantın əsərlərində şərh edilmişdir.
Dilçilərin bəziləri qrammatik və məntiqi modallığın dəqiq sərhədlərini görə bilmirlər. Belə ki, təfəkkürlə bağlı olan bu kateqoriya dilçiliyə məntiqdən gəlmişdir. Modallıq üzrə hökmün bölgüləri, hökmün gerçəkliyinin dərəcə və xarakterini əks etdirir. Hökmün modallığa görə üç növü mövcuddur: zərurilik (apodiktik), həqiqilik (assertorik), ehtimallıq (problematik). Hökmün dildə ifadə vasitəsi cümlə olduğundan, modallıq da hər bir cümlədə öz əksinin tapır. Dildə isə modallıq nitqin real məzmunu ilə bağlı olub, danışanın ifadə etdiyi fikrə, eləcə də, fikrin real gerçəkliyə münasibətini bildirir.

Nəzərdən keçirdiyimiz dilçilik ədəbiyyatları təsdiq edir ki, modallıq kateqoriyası ilk olaraq rus dilçiləri tərəfindən araşdırılmışdır. Bu baxımdan rus dilçi alimlərinin bu sahədə apardığı araşdırmalar və gəldikləri nəticələr barədə məlumat vermək yerinə düşərdi.

Belə ki, rus dilçilərindən akademik V.V.Vinoqradov, A.A.Şaxmatov, A.M.Peşkovski və başqaları modallıq kateqoriyası haqqında müxtəlif fikirlər söyləmişlər.

Q.B.Kolşanskiyə görə modallıq universal keteqoriya kimi, predikativlik, tərz, növ və zaman kateqoriyaları sistemində əsas yerlərdən birini tutur. V.Z.Panfilova görə isə modallıq subyektiv münasibət bildirir. O, modallıq kateqoriyasının obyektiv və subyektiv olmaqla iki növünü ayırd edir.

"Obyektiv modallıq" bu və ya digər situasiyada mövcud olan idrak aktının yönəldiyi obyektiv əlaqələrin və məhz mümkünlük, yəqinlik və vaciblik əlaqələrinin xarakterini əks etdirir.

"Subyektiv modallıq" isə bu əlaqələrin dərketmə dərəcəsinin danışan tərəfindən qiymətləndirilməsini əks etdirir. Daha doğrusu mövcud situasiyanı əks etdirən fikrin həqiqiliyinin dərəcəsini göstərir.

K.Q.Kruşelnitskaya, Q.A.Zolotova və L.S.Yermolayevin araşdırmalarında modallığın üç tipi göstərilir: obyektiv modallıq, subyektiv modallıq və törəmə tipli modallıq. Bəzi tədqiqatçılar isə modallıq kateqoriyasını məzmun və ifadə planları ilə səciyyələndirdiyinə görə bu baxımdan semantik kateqoriya hesab oluna bilər.

Bəzi dilçilərin modallıq kateqoriyası haqqında baxışları fərqlidir. Belə ki, bəzi dilçilər modallıq kateqoriyasını qrammatik, digərləri sintaktik, başqa bir qrup isə semantik kateqoriya kimi qəbul edirlər. Rus dilçiliyində modallığın daha geniş və düzgün izahi akademik V.V.Vinoqradovun bu dil kateqoriyası haqqında təlimi ilə başlanır. Akademik V.V.Vinoqradov modal mənaların fərqləndirilməsinin əsası olaraq onun ifadə vasitələrini götürmüş və dilçilikdə modallıq kateqoriyası haqqında təlimini yaratmışdır. {10, s.571-584} Onun fikrinə görə cümlənin modallıq kateqoriyası əsas dil kateqoriyalarından biridir. Müxtəlif sistemli dillərdə bu kateqoriya özünəməxsus şəkildə və müxtəlif cür üzə çıxırr. V.V.Vinoqradov belə hesab edir ki, modallıq kateqoriyası universal kateqoriyadır və hər bir cümlə, əsas konstruktiv əlamət kimi, modal mənaya malikdir, yəni məzmunca həqiqətə münasibət göstərə bilər. {10, s.571-584}

V.V.Vinoqradov kmi əksər dilçilər də linqvistik modallığın əsasında danışanın nöqteyi-nəzərindən söyləmin məzmunun həqiqətə münasibəti dayanır. Modallığın cümlənin qurulmasında predikativlik və intonasiya ilə birlikdə əsas əlamət olması göstərilir və modallıq həm məzmun həm də ifadə planında səciyyələndirilir.

Modallıq kateqoriyasının universallığı ondan xəbər verir ki, o hər şeydən əvvəl məzmun planına aiddir və bu mənada semantik kateqoriyadır. Lakin məzmun planı ilə ifadə planı arasında bəzən birmənalı uyğunluq olmur. Modallığa əgər ifadə və məzmun planlarının birliyi olaraq baxılsa, onda onun universal xarakteri, modallığı semantik (məzmun planı) və həm də sintaktik, morfoloji, semantik-sintaktik və prosodik (ifadə planı) kateqoriya hesab etmək olar.

Bu fikir fransız dilçiliyində də təsdiqlənir. Ənənəvi olaraq Şarl Balli və onun ardıcılları tərəfindən modallıq, cümlənin ən əsas əlamətlərindən biri kimi məzmun və ifadə planlarının vəhdəti kimi götürülür. Predikativlik və intonasiya ilə birlikdə modallığın da cümlənin əsas əlamətlərindən biri olması əksər dilçilər kimi, fransız dilçilər tərəfindən də müdafiə olunan fikirir. Ş.Balliyə görə modallıq hər bir cümlənin canında, özəyində vardır. Bu o deməkdir ki, hər bir cümlə xarici aləmin hadisələri haqqında müəyyən məlumat verməklə yanaşı, danışanın bu məlumata münasibətini də bildirir.

Bu problemə hər tərəfli və dərin marağın olması fransız dilçilərinin böyük əksəriyyətinin bu məsələyə həsr olunmuş tədqiqat işlərində də görmək olar. Belə ki, modallığın dil kateqoriyasının spesifikası və təbiəti haqqında E.Benvenist, Giyom, modallığın məzmunu və dil ifadə forması haqqında F.Brüno, modallıq kateqoriyasının başqa dil kateqoriyaları ilə qarşılıqlı təsiri haqqında Potye, A.Veql və başqaları fikirlər söyləmişlər.

Dilçilərin modallıq kateqoriyası və onun ifadə vasitələrinə böyük marağın olmasına baxmayaraq bu məsələnin şərh edilməsində indiyə kimi eyninilik yoxdur. Baxmayaraq ki, bu kateqoriya uzun müddət tədqiqatçıların diqqət mərkəzində olub, bu cür mübahisəli xarakterə, məna quruluşuna və təbiətə malik olan ikinci bir kateqoriya tapmaq çətindir. Istər fransız qrammatikasında və eləcə də, xarici dilçilikdə indiyə kimi modallığın sistemli nəzəriyyəsi yoxdur.

Belə ki, Ş.Balli və F.Brünonun işlərində modallıq kateqoriyası xüsusi olaraq tədqiq olunur. İ. De Brun tədqiqatlarında modal sözlər, bağlayıcılar, zaman zərfləri və tərzi hərəkət zərfliyi arasında dəqiq hüdudlar yoxdur.

Le Bidas isə nəinki modal sözləri başqa sözlərdən, xüsusi ilə bağlayıcılardan ayırmağa cəhd etmir, hətta bu cür hüdudları artıq hesab edir, çünki subyektiv məna həm onlarla, həm də başqaları ilə ifadə olunur. Bəzi dilçilər isə Qrövisin tədqiqatında modal sözlərin şərhini müvəffəqiyyətli hesab etmirlər.

Fransız dilçilyində modallıq kateqoriyası daha çox modal sözlərin əsasında öyrənilmişdir. Ümumiyyətlə, xarici dilçilikdə modal sözlərin sistemli nəzəriyyəsi mövcud deyil. Modal sözlər modallıq kateqoriyasının əsas ifadə vasitəsidir. Istər Avropa dillərində istərsə də türk dillərində modallıq kateqoriyası modal sözlərin timsalında öyrənilir. Modal sözlər modallıq kateqoriyasının leksik-qrammatik ifadə vasitələrinə aiddir. Modal sözlər əsasən başqa nitq hissələrindən əmələ gəlir. Bu sözlər tarixən dilin başqa kateqoriyalarından olan sözlərdən törəmişdir.

Bəzi dilçilərə görə modal sözlər özünəməxsus və hələ tam formalaş-mamış nitq hissəsidir. Bəzi dilçilər isə modal sözləri ayrıca bir sinfə daxil edirlər və onu modal zərflər adlandırırlar.

Türkologiyada da dilçilərin araşdırmalarında modallıq kateqoriyası fərqləndirilmişdir. Türk dilinin faktiki materialları əsasında, türkologiyada ilk dəfə N.K.Dimitriyev, N.A.Baskakov, A.N.Kononov, Y.M.Ubryatov modallıq kateqoriyası və onun formalaşmasında mühüm rol oynayan ifadə vasitələri haqqında müəyyən fikirlər söyləmişlər. Onların bu araşdırmalarının Azərbaycan dilçiliyində modallıq kateqoriyası və onun ifadə vasitələrinin tədqiq edilməsində müəyyən rolu olmuşdur.

Azərbaycan dilçilik ədəbiyyatında modallıq və onun ifadə vasitələri haqqında müxtəlif fikirlərə rast gəlirik. Bələ ki, bu tədqiqatlarda modallıq obyektiv və subyektiv, fəlsəfi-məntiqi və qrammatik modallığa ayrılır, hər birinin ayrı-ayrılıqda ifadə vasitələri araşdırılır.

Dilçilik elmində dolaşıq məsələlərdən biri də modallığın qrammatikaya və ya məntiqə aid olması məsələsidir. Z.Əlizadənin "Müasir Azərbaycan dilində modal sözlər" əsərində deyildiyi kimi qrammatik kateqoriya olan modallığı, təfəkkürlə bağlı olan fəlsəfi-məntiqi kateqoriya kimi müəyyənləşdirmək olmaz, çünki məntiqlə qrammatika əlaqəli olmalarına baxmayaraq, onlar iki müxtəlif elm sahələridir.

F.Zeynalov, M.İsrafilov öz əsərlərində modallıq üzrə hökmün bölgülərindən və məntiqi modallıqdan danışmışlar.

M.İsrafilov göstərdiyi kimi, hökmlərdə əks olunan əlaqə və münasibətlərin xarakteri və tipi, bir hökmün digər hökmdən asılılığı, hökmlər və hadisələr arasında zaman, məkan və ya digər aslılıqlar əlavə informasiyalar da əks olunur. Əlavə informasiyaya daxil olan hökmlər modal hökmlər hesab olnur.

Modallıq morfoloji, leksik, sintaktik və fonetik vasitələrlə ifadə oluna bilər. Bu barədə Azərbaycan dilçiliyində də müxtəlif fikirlərə rast gəlirik. Azərbaycan dilçilik ədəbiyyatında modallıq kateqoriyası, onun leksik ifadə vasitəsi olan modal sözlərin əsasında araşdırma obyektinə çevrilir. Azərbaycan dilçiləri A.Ə.Aslanov, Ə.Cavadov, F.R.Zeynalov, N.Q.Ağazadə, M.Hüseynzadə, Z.Ə.Əlizadə, Z.İ.Budaqova və başqaları modallığın bir linqvistik kateqoriya kimi hərtərəfli tədqiqi və izahı sahəsində böyük xidmətlər göstərmişlər.

Azərbaycan dilçiliyində modallıq kateqoriyası xüsusilə modal sözləri ilk dəfə araşdıran A.Ə.Aslanov olmuşdur. A.Aslanov modallığı fəlsəfi-məntiqi, eyni zamanda qrammatik kateqoriya hesab edir. A.Aslanovun elmi araşdırmalarının mərkəzində nodal sözlər durur. Müəllif Azərbaycan dilində modallığın əsas ifadə vasitəsi kimi modal sözləri götürür, onların leksik, morfoloji, sintaktik funksiyalarını araşdırır.

Z.Əlizadə öz tədqiqatlarında modallığın ifadə dairəsini daha da genişləndirir. Z.Əlizadə A.Aslanovdan fərqli olaraq modallığın ifadə vasitəsi kimi təkcə modal sözləri deyil, eyni zamanda felin zaman şəkilçiləri, intonasiya, ədat və s. bu siyahıya əlavə edir.

Z.Əlizadəyə görə istənilən cümlə konstruksiyasında modallıq mövcuddur. Burada modal sözlər aparıcı rol oynayır. Onlar cümləyə əlavə modallıq çaları gətirirlər.

N.Ağazadə öz tədqiqatlarında felin şəkilləri, feli sifət və məsdərin modallığını təhlilə cəlb etmişdir.

Modallığın universal xüsusiyyətləri digər Azərbaycan dilçi alimlərinin də təqiqatlarında şərh edilmişdir. Ə.Cavadov modallığı məntiqi kateqoriya hesab edir və onun dildə ifadəsində fel şəkillərinin, xüsusilə xəbər, əmr və vacib şəkillərinin rolunu səciyyələndirir.

Z.Budaqova öz tədqiqatlarında modallığın sintaktik aspektdən izahını ön plana çəkmiş, onun sintaksisdə rolunu və funksiyasını, sintaktik mahiyyətini açıqlamağa cəhd göstərmişdir. Bu məsələ M.Hüseynzadə, S.Cəfərov, M.Rəhimovun da tədqiqatlarında da öz əksini tapmışdır.

Dilçilərin modallıq kateqoriyasına aid fikirlərini cəmləşdirərək, modallığı xaakterizə edən aşağıdakı cəhətləri göstərmək olar.

Əvvəla modallıq fikrin real həqiqətə olan münasibətini, ikincisi isə daışanın ifadə etdiyi fikrə münasibətini bildirir. Bu iki əsas cəhətə əsasən modallığın iki növü ayırd edilir:

1. Obyektiv modallıq
2. Subyektiv modallıq

Dilçilik ədəbiyyatında çox zaman modallığın növlərinin birincisi əsas, ikincisi isə tamamlayıcı, ikincidərəcəli modallıq kimi səciyyələndirilir. Bu terminoloji fərq gözəçarpan məna fərqinə dəlalət etmir. Cümlənin obyektiv modallığının əsasında real və qeyri-real modallığın qarşılaşdırılması durur. Yəni burada əsas cəhət cümlənin real həqiqətə uyğun olub-olmamasıdır.

Subyektiv modallığa gəlincə subyektiv modallıq obyektiv modallığı dəyişdirmir, ona əlavə məna çalarlığı verir. Modallığı hər iki aspektin obyektiv və subyektiv modallıq bir-birini tamamlayaraq bütövlükdə ümumi modallıq məzmunu yaradır.

Yekun olaraq deyə bilərik ki, modallıq kateqoriyası dilin kommunikativ vəzifəsi ilə bağlı olan kateqoriyadır. Bu kateqoriya modal məna və qiymətləndirici münasibət bildirən hər bir dil vahidinə xasdır.

Demək, modallıq kateqoriyası bütün dillərdə ünsiyyəti təmin edən ən mühüm dil hadisələrindəndir.

İstifadə olunmuş ədəbiyyat

1. Aslanov A.Ə. Müasir Azərbaycan dilində modal sözlər. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. Bakı, 1957.
2. Cəfərov S. Azərbayan dilinin qrammatikası Bakı, 1960.

3. Əlizadə Z.Ə. Müasir Azərbaycan dilində modal sözlər. Bakı, 1965.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1987.
5. İsrafilov M.M. Məntiq. Maarif. Bakı, 1987.
6. Bally Ch. Linguistique générale et linguistique française. Berne, 1950.
7. Benveniste E. Problèmes de linguistique générale. Paris, 1975.
8. Brunot F. La pansée et la langue. Paris, 1965.
9. Grevisse M. Goose A. La bon usage 14 éme éd. Duculot, Bruxelles, 2007.
10. Виноградов.В.В. Категории модальности и *модальных* словах в русском языке. Избранные труды. Москва, 1975.
11. Гак В.Г. Теоретическая грамматика французского языка. Синтаксис. Москва, 1986
12. Панфилов В. 3. Категория модальности и её роль в конструировании структуры предложения и суждения / В. 3. Панфилов. Вопросы языкознания. № 4. 1977

Г.Ахундова

Из истории исследований категории модальности в обшей лингвистике

Резюме

В этой статье обсуждается важность категории модальности в лингвистической науке. Автор пытается раскрыть роль категории модальности в лингвистике. В статье касаются влияние модальности на языки и значения основных выражений на возникновение модальности во французском и азербайджанском языках. В этой статье отражены исторически присутствующие в лингвистике теории и идеи, связанные с этой категорией.

В связи с этой темой были использованы азербайджанские и французские лингвистические источники и другие языковые материалы. Категория модальности считается универсальной категорией. Автор отметил универсальность этой категории на основе фактов. В статье также отражены присущие виды модальности лингвистической литературе.

Как правило, категория модальности широко используется в языке и ее исследования в области лингвистики очень важны.

В статье отражены иследование таких лингвистических ученых как С.Балли, Е.Бенвенист, М.Гусейнзаде, В. Виноградов.

H.Akhundova

Historical research of modal category in general linguistics

Summary

This article deals the importance of the category of modality in linguistic science. The author tries to reveal the role of the category of modality in linguistics. The influence of modality on language and the importance of means playing an essential role in the formationof modality in French and Azerbaijani languages are touched upon here.

Theories, opinions historically existing related to this category are mentioned in this article. Azerbaijani and French linguistic sources and other language materials realeted to this topic have been used.

The category of modality is considered a universal category. The author noted the universality of this category on the basis of facts. The article also reflects the inherent modes of modality of linguistic literature.

Generally, the category of modality is widely used in the language and its research in the field of linguistics is very important.

The article reflects the research of such linguistic scientists as Sh.Bally, E.Benvenist, M. Huseynzade, V. Vinogradov.

Rəyçi: **Teyyibə Cəlilova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

FATİMƏ HACIYEVA
ADU
fatima_1901@mail.ru

İTALYAN DİLİNİN BƏZİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSI ZAMANI EKVİVALENT ÜSULUNUN TƏTBIQİ

Açar sözlər: ekvivalentlik, tərcümə, italyan dili, dilçilik, mətn
Key words: equivalent, translation, italian language, linguistics, text
Ключевые слова: эквивалентность, перевод, итальянский язык, лингвистика, текст

Tərcümə insanlar arasında ünsiyyət vasitəsidir. İnsanların əsas fəaliyyətlərindən biri olmaqla yanaşı, həmçinin çoxsahəli və olduqca gərgin davam edən bir prosesdir. Ümumiyyətlə, tərcümə bir dildə olan məlumatın digər bir dilə transformasiyası prosesidir. Dillər arasında baş verən transformasiya prosesi zamanı qarşıya bir sıra problemlər çıxa bilər. Bir dildən digər dilə tərcümədə yaşanan problemlərin səbəblərindən biri də fərqli mədəniyyətlər, tarixi-coğrafi şərait, adət-ənənələrin, yaşayış tərzinin olmasıdır. Bu zaman tərcüməyə xalqların dünyagörüşü, onların davranış psixologiyası mütləq şəkildə təsir edir. Hətta belə desək, tərcüməni demək olar ki, bu faktorlar müəyyənləşdirir. Tərcümə prosesi zamanı həmçinin bir dünyagörüşü digəri ilə, bir mədəniyyəti digər bir mədəniyyətlə, bir tarixi dövrü digəri ilə, müxtəlif ənənələr bir-birilə və xalqların inkişaf səviyyələri öz aralarında müqayisə olunur, qarşılaşdırılır. Lakin, bəzən dilimizdə elə ifadələrə rast gəlinir ki, hamı tərəfindən başa düşülmür, bu zaman belə desək doğru olar ki, eyni dildə danışan insanlar arasında belə tərcüməyə ehtiyac duyulur.

Məlum olduğu kimi tərcümədə iki mətn çıxış edir ki, bunlardan biri məxəz və yaxud da ilkin mətn, digəri isə hədəf və ya tərcümə mətnidir. İlkin və ya məxəz mətnin məzmunu ilə hədəf və ya tərcümə mətni arasındakı məna yaxınlığını təyin etmək məqsədilə tərcümə prosesində ekvivalentlik və adekvatlıq anlayışları meydana gəlmişdir [8, s. 81]. Orijinal mətn və tərcümə mətninin məzmunları arasındakı əlaqədə məzmunun ümumiliyini, mətnlərin semantik yaxınlığını ifadə etmək məqsədilə "ekvivalentlik" termini təqdim olunmuşdur. Ekvivalentlik anlayışı ümumiyyətlə tərcümə nəzəriyyəsində, tərcümə sənətində başlıca anlayışlardan biri kimi hesab olunur. Ekvivalentlik anlayışı yalnız nəzəri cəhətdən deyil, həmçinin praktik baxımdan da əhəmiyyətə malikdir. Ekvivalentlik tərcüməçi üçün orijinala daha yaxın olan

variantı seçməyə köməklik göstərir. Tərcümədə ilkin mətn ilə tərcümə mətni arasındakı ən maksimum uyğunluğu seçməyə yardım edən ekvivalentlik anlayışı tərcüməçinin işinin əsas xüsusiyyətlərindən biri olmaqla yanaşı həmçinin onun mövcudluğunu şərtləndirən amillər arasındadır. Ekvivalentlik terminin mənasını anlamaq tərcümə üçün vacib haldır. Bu termin elmin müxtəlif sahələrində istifadə olunur, məsələn riyaziyyatda ekvivalentlik anlayışı bir-birinə bərabər tutulan iki halı izah etmək üçün istifadə olunur. Eyni zamanda bəzən gündəlik danışıqda belə bu sözdən istifadə etmək mümkündür.

Tərcümə nəzəriyyəsində ekvivalentlik termini ümumi mənada istifadə olunur, çünki müxtəlif dillərdə tamamilə eyni sözlər və ifadələr tapmaq çətindir, buna səbəb isə dillərin müxtəlif fonetik, qrammatik, sintaksis və söz quruluşuna malik olmasından irəli gəlir. Belə demək olar ki, ekvivalent tərcümə ekvivalentlərə əsaslanan və yaxud da ekvivalentlər üzərində qurulan tərcümə növüdür. Tərcüməşünaslıq anlayışında ekvivalentlik üçün müxtəlif yanaşmalar mövcuddur. Dilçilər bu modeli müxtəlif şəkildə xarakterizə etmişdirlər. Onlar müxtəlif yanaşmalara müraciət edərək, tərcümə zamanı qarşımıza çıxa biləcək ekvivalentliyi araşdırmışlar və bu sahədə lazımlı ola biləcək fikirlər təqdim etmişlər. Kenninin fikrinə görə, bu araşdırmaçılar üç müxtəlif istiqamət üzrə ayrılırlar:

1. Birinci qrup deyir ki, tərcümə zamanı hər hansı məlumat məxəz mətndən hədəf mətnə transformasiya edildikdə, bu zaman tərcüməçi mütləq şəkildə iki fərqli mədəniyyətə sahib olmalıdır;
2. İkinci qrup fikirləşir ki, məxəz mətndən hədəf mətnə ekvivalentliyin tərcüməsi prosesində tərcümə prosesinə yalnız semantik və ya funksional yönümdən yanaşmaq lazımdır;
3. Üçüncü qrupun fikrinə görə isə, ekvivalentlikdən sırf tərcümə zaman rahatlıq olsun deyə istifadə edilməlidir [6, s. 80].

Ekvivalentlik anlayışı bir sıra linqvistlər tərəfindən kateqoriyalara ayrılmışdır. Bunlar arasında ən çox yayılanlardan biri A.Popoviçin kateqoriyasıdır. Bu kateqoriyanı tərcüməşünas Suzan Basnet "Nəzəri və praktik tərcümə" adlı kitabında yüksək qiymətləndirmişdir. Susan Basnet qeyd edir ki, Popoviç ekvivalentliyi dörd kateqoriyaya ayırır:

1. Linqvistik ekvivalentlik – məxəz dildə olan mətnin sözbəsöz hədəf dilə olan tərcüməsidir;
2. Paradiqmatik ekvivalentlik – leksik ekvivalentə nisbətən daha yüksək kateqoriya hesab olunan qrammatik elementlərin tərcüməsidir;
3. Stilistik ekvivalentlik – orijinal tərcümə olan elementlərin tərcüməsidir;
4. Sintaqmatik ekvivalentlik – mətnin sintaqmatik struktur səviyyəsindəki forma və quruluşca olan tərcüməsidir [3, s. 42].

Fərqli dillərə malik olan mətnlərin müqayisəsi mütləq şəkildə ekvivalentlik nəzəriyyəsinə müraciət etməyi tələb edir. Tərcümə nəzəriyyəsində ekvivalentliyin tərcümə sahəsində əsas yerdə, mərkəzdə olduğu deyilir və bu mövzu haqqında əlli il ərzində ekvivalentlik konsepsiyasına dair müxtəlif nəzəriyyələr meydana gəlmişdir. Daha sonra ingilis tərcüməşünası C.Ketford ekvivalentlik haqqında belə bir fikir qeyd etmişdir ki, "Ümumiyyətlə tərcümə bir dildə olan mətnin digər bir dilə olan ekvivalentidir" [4, s. 21].

Ekvivalent tərcümə kateqoriyası haqqında daha geniş yayılmış bölgülərdən digəri isə E.Nidanın nəzəriyyəsidir. Həmçinin, amerikan tədqiqatçısı Nida müəyyən etmişdir ki, "Tərcümə orijinalda olan mətnin hər hansı başqa bir dildə daha yaxın və təbii ekvivalentinin yaradılmasıdır". Nida ekvivalentləri "formal ekvivalent" və "dinamik ekvivalent" olmaqla iki yerə ayırır. Formal ekvivalent mətndəki forma və məzmuna diqqət yetirməyi tələb edir. Bu ekvivalent növü hədəf mətn və məxəz mətnin forma və məna etibarilə mümkün qədər uyğunluğunu nəzərdə tutur. Dinamik ekvivalent isə formal ekvivalentdən fərqli olaraq daha çox mətnin təsiri ilə maraqlanır və tələb edir ki, məxəz mətnin oxucuya bağışladığı təsir ilə hədəf mətnin oxucusuna ötürdüyü təsir bir-birinə uyğun olmalıdır [7, s. 121]. Formal ekvivalentdə diqqət həm forma həm də məzmun üzərində cəmləşir. Bu zaman tərcüməçi çalışmalıdır ki, cümlə cümlə ilə, anlayış anlayış ilə üst-üstə düşsün. Nəzəriyyəçilərin dediklərinə görə isə, əslində tam mənası ilə üst-üstə düşən ekvivalent yoxdur. Tərcümə zamanı yalnız kontekstə uyğun olaraq ən yaxın ekvivalenti tapmaq lazımdır. Dinamik tərcümədə isə əksinə olaraq, ilkin mətn və tərcümə mətnində olan məlumatlar bir-birilə qarşılaşdırılmır, onlar arasında sadəcə əlaqə yaratmağa çalışılır. Dinamik ekvivalentdə əsas amil odur ki, həm orijinal dildə, həm də tərcümə dilində mövcud olan mətnlər eyni cür dərk olunsun [1, s. 226].

Ekvivalentliyə aid daha fərqli bir yanaşma isə V.Vinoqradov tərəfindən dilçilikdə öz yerini tapmışdır. Vinoqradov da ekvivalentliyin müxtəlif tipləri olduğunu qeyd edərək, onları dörd yerə ayırmışdır:

1. Birbaşa uyğunluq – bu tipə misal olaraq sözlərin lüğət ekvivalentliyini göstərmək olar;
2. Sinonimik uyğunluq – dillərin arasında mövcud olan sinonimlər bu tipə aiddir;
3. Hipo – hiponim və hiperonimlərin istifadəsinə əsasən yaranır;
4. Deskriptiv – leksik vahidlərin uyğunlaşdırılmasına əsaslanır [2, s.49].

Son vaxtlarda həmçinin tərcüməçilərin qarşısına çıxan əsas problemlərdən biri isə ilkin dildə olan mətnin hədəf dilə transformasiyası zamanı ekvivalentin hansı növlərindən istifadə olunmasıdır. Bu zaman

tərcüməçilər tərəfindən deyilən müxtəlif fikirlər, fərqli kateqoriyalar öz əksini tapır. Onlar müxtəlif yanaşmalara müraciət edərək, tərcümə zamanı qarşımıza çıxa biləcək ekvivalentləri araşdırmışlar və bu sahədə lazımlı ola biləcək fikirlər təqdim etmişlər. Bir qrup tərcüməçilər ekvivalentlik anlayışını ümumi şəkildə yəni, ümumi bir kateqoriya olaraq qəbul edir, digər bir qrup isə ekvivalentlik anlayışının mərkəzində dillər arasında olan etno-kultural dəyərlərin əsas yerdə olduğunun tərəfdarıdırlar. Bu qrup tərcüməçilər fikirləşirlər ki, ekvivalentlik kateqoriyası üçün əsas olan elə məhz bu etno-kultural dəyərlərdir. Digərləri isə ekvivalentliyin orijinal və tərcümə mətnlərinin variantları arasında dinamik yanaşma olduğunu göstərirlər. Bəzi tərcüməçilər isə ekvivalentlik anlayışına daha fərqli yanaşaraq semantik və praqmatik olmaqla iki növə bölürlər. Bu qismin fikrincə, ekvivalentlik semantika və praqmatikaya uyğun şəkildə bölünməlidir. Semantik ekvivalentlik - mahiyyət etibarilə, bu növün əhəmiyyəti ondan ibarətdir ki, sözlər əsas, yəni orijinal mətndə necə qeyd olunursa tərcümə olunan mətndə mümkün qədər elə həmin sözləri saxlamaq lazımdır. Bu ekvivalent növü leksik, eləcə də qrammatik vasitələrə əsaslanaraq onlara uyğun şəkildə yaranır. Praqmatik ekvivalentlik semantik ekvivalentdən fərqli olaraq, orijinal mətndə olan sözlərin çatdırılmasını nəzərdə tutmur, bu ekvivalent növü üçün əsas olan isə sözlərdən daha çox onların daşıdığı mənanın tərcümə mətnində çatdırılmasıdır. Həmçinin, burada əlavələr, ixtisarlar da iştirak edə bilərlər. Yəni, iki ekvivalent növü arasında olan əsas fərq birində daha çox sözlərin özü, digərində isə sözlərin daşıdığı məna əsas rola malikdir.

İtalyan və Azərbaycan dillərində ekvivalent tərcümə üsuluna dair misallar tapmaq mümkündür. Əsasən də frazeoloji birləşmələrin, atalar sözlərinin, deyimlərin, idiomatik ifadələrin transformasiyası zamanı ekvivalent tərcümə üsulundan istifadə etmək mümkündür. İtalyan dilində frazeologizmlər xüsusi yerə malikdirlər, digər dillərdən fərqli olaraq bu birləşmələr müasir italyan dilində öz zənginliyi və müxtəlifliyi ilə diqqət çəkir. İtalyan və Azərbaycan dillərində frazeoloji birləşmələrin tərcüməsi və onların müqayisəli şəkildə təhlili bəzən çətinliklər yaradır. Buna səbəb isə, həmin dillərin müxtəlif mədəniyyətə, dil ailələrinə, sintaktik quruluşa, lüğət tərkibinə, fərqli leksikaya və semantikaya malik olmasından irəli gəlir. Lakin, sözlərin daxili quruluşunda, lüğət tərkibində, semantikada nə qədər fərqliliklər olsa belə, yenə də dillər arasında frazeoloji birləşmələrin uyğun cəhətlərini də görməmək mümkün deyil. Tərcümə zamanı həmçinin, mətnlərdə dilçilik qanunlarına da riayət etmək lazımdır. Lakin dillər arasındakı fərqlilikləri nəzərə alsaq bütün hallarda qanunları, normaları gözləmək mümkün deyil. Çünki dillər arasında semantik uyğunsuzluqlara rast gəlinir. Qarşımıza çıxan bu ifadələr tərcümə zamanı da mütərcim üçün

çətinlik törədən əsas amillərdən biridir. Bəzən tərcümə zamanı elə sözlər, ifadələr olur ki, onları bir dildən başqa bir dilə tərcümə etmək mümkün olmur, bu zaman həmin cümlə və yaxud da ifadələr ya başqa bir sözlə əvəzlənməli olur, ya da hər bir dilin öz qrammatik qaydalarına uyğun olan şəkildə ekvivalent işlətmək lazım olur. Belə problemlər əsasən frazeoloji birləşmələrin tərcüməsi zamanı qarşıya çıxa bilir.

Frazeoloji birləşmələrin tərcüməsi zamanı mütləq olan odur ki, italyan dilində olan fikir Azərbaycan dilində də dəqiq şəkildə çatdırılsın, ifadənin obrazlılığı, emosionallığı tərcümədə itməsin. Məsələn, hər hansısa bir frazeoloji birləşməni Azərbaycan dilində hərfi tərcümə ilə verdikdə onun mənası anlaşılmaz ola bilər. Məsələn, *"Avere le ali ai piedi"* biz əgər bu ifadənin tərcüməsində hərfi tərcüməyə müraciət etsək *"Ayaqlarında qanadı var"* kimi başa düşüləcək. Aydındır ki, hərfi tərcümə zamanı ifadənin mənasını az-çox başa düşmək olur. Lakin, bu ifadəni daha dəqiq şəkildə tərcümə etmək üçün təsviri tərcümə üsuluna müraciət etsək, ekvivalenti "*sürətli addımlarla qaçmaq"* kimi ifadə olunacaq. İtalyan dilində belə bir ifadə mövcuddur *"chi la dura la vince"*. Bu ifadənin tərcüməsində analoq üsuluna müraciət etmək mümkündür, çünki məxəz və hədəf dillərdə frazeoloji vahidlər mənaca və yaxud da məzmunca bir-birinə uyğun gələ bilir, lakin tərcümə zamanı obrazlılığı dəyişmək lazımdır. İtalyanlar bu ifadəni *səbir edən qazanar* olaraq qəbul edirlər. Dilimizdə isə ekvivalent ifadəsini *"səbir edən salamat olar", "səbirin axırı xeyir olar"* kimi vermək mümkündür. İtaliyada çox geniş yayılmış bir frazeoloji birləşmə vardır *"in bocca al lupo"*. Bu ifadə haqqında tarixən deyilmiş bir sıra əfsanələrə rast gəlinir. Dilimizdə bu birləşmənin ekvivalenti *"uğurlar", "bol şans"* kimi ifadələrlə göstərilir. Lakin, hərfən tərcümə etdikdə tərcüməsi *"canavarın ağzında"* olaraq verilir. İtalyanların bu ifadə haqqında elə məhz canavar ilə bağlı olan bir neçə açıqlaması mövcuddur. Bunlardan birində deyilir ki, əfsanəyə görə Romul və Rem qardaşları canavara yem olmaqdan canlarını qurtarırlar. Elə buna görə də, birinə uğur və şans diləyərkən bu ifadədən istifadə edirlər. Başqa bir açıqlama isə bundan ibarətdir ki, heyvanlar aləmində canavar digər heyvanlardan daha təhlükəli hesab olunur. Ovçulara da ova gedərkən *"in bocca al lupo"* deyərək *yaxşı ovlar* arzulayarlarmış. Yaxud da başqa bir ifadə *"avere fegato"* hərfən tərcüməsi dilimizə *"ağciyər olmaq"* kimi tərcümə olunur. Ağciyər deyilənə görə, Qədim Yunanistanda *güc, möhkəmlik* simvolu olaraq hesab olunur. İtalyanlar da bu ifadəni *cəsarətli olmaq* mənasında istifadə edirlər. Həmçinin, Azərbaycan dilində də bu ifadə *qorxusuz, cəsur, mərd* insanları göstərməyə kömək edir. Daha başqa bi frazeoloji birləşmə isə *"nascere con la camicia"* hərfi tərcüməsi Azərbaycan dilində *"köynəklə doğulmaq"* olaraq tərcümə olunur, lakin italyanlar bu ifadəni *şanslı olmaq* kimi istifadə edirlər. Dilimizdə isə

ekvivalent qarşılığı *"ulduz altında doğulmaq"* yəni *"bəxti, şansı gətirmək"* ola bilər.

Bəzən isə italyan dilində elə frazeologizmlərə rast gəlinir ki, Azərbaycan dilinə tərcümə zamanı yalnız bu birləşmələri izah etməklə ona ən yaxın olan ekvivalenti seçmək lazım gəlir. Məsələn, italyanlar insanın bədən temperaturu 38 dərəcədən artıq olduqda belə bir ifadə istifadə edirlər ki, *"avere una febbre da cavallo"* yəni, "*at kimi temperaturu var"*. Bu ifadənin açıqlaması belədir ki, atların normal bədən temperaturu 38 dərəcəni keçdikdə onlar üçün həyati təhlükə daşıyır. Bu səbəbdən, yüksək temperaturu ifadə etmək üçün həmin birləşmədən istifadə edirlər. Bundan başqa *sağlam, gümrah* adamı ifadə etmək üçün *"balıq kimi sağlam"* mənasını verən *"sano come il pesce"* birləşməsi istifadə olunur. Həmçinin, səliqəsiz şəkildə yazılan yazını italyanlar *"zampa di gallina"* yəni toyuğun ayaqlarına bənzədirlər. Daha sonra, italyanların istifadə etdikləri *"chiedere la luna"* Azərbaycan dilinə hərfən tərcümə etdikdə *"göydəki ayı istəmək"* deyə tərcümə olunur. Bir insan mümkün olmayacaq bir şeyi çox istədikdə italyanlar həmin ifadəyə daha çox müraciət edirlər. İtalyan dili ümumiyyətlə frazeoloji birləşmələrlə zəngin olan bir dildir, buna görə də italyanlar frazeologiyalardan tez-tez istifadə edirlər. Belə frazeologizmlərdən biri də *"credere che l'asino voli"* birləşməsidir. Azərbaycan dilinə tərcümə etsək mənası belədir ki, *"eşşəyin uçmağına inanır"*. Yəni, "mümkünsüz hadisələrə inanmaq" ilə "eşşəyin uçmağını" eyniləşdirirlər. Bundan əlavə, qəti şəkildə qərar verdikdə ən çox *"tagliare la testa al toro"* yəni *"öküzün başını kəsmək"* ifadəsindən istifadə olunur. Bunun açıqlaması isə belə göstərilir ki, qədim zamanlarda öküzlərin başı kəsildikdə müharibənin bitdiyinə işarə olunurdu. Yəni, insanlar fikirlərinin qətiliyini ifadə etmək üçün bu birləşməyə müraciət edə bilirlər. Aydındır ki, bu frazeologizmlərin Azərbaycan dilində tam şəkildə üst-üstə düşə biləcək qarşılıqları mövcud deyil. Bu zaman tərcümə zamanı müxtəlif tərcümə üsullarından istifadə etməklə bu tipli birləşmələrin ekvivalent qarşılığını izah etmək lazımdır.

Frazeologizmlərin ekvivalent üsulu ilə tərcüməsi zamanı italyan və Azərbaycan dillərində obrazlılıq və məna etibarilə üst-üstə düşən ifadələrə də rast gəlmək mümkündür. Belə birləşmələrin tərcüməsi zamanı orijinal dildə deyilən fikir ilə tərcümə dilində deyilən fikir bir-birilə uyğun olur, həmçinin emosionallığı da qorumaq mümkün olur:

avere paura della sua ombra – öz kölgəsindən qorxmaq;
camminare come una tartaruga – tısbağa kimi gəzmək;
avere una fame da lupi – qurd kimi ac olmaq;
andare all'altra mondo – o biri dünyaya getmək;
fare fiasco – iflas etmək;
acqua in bocca – ağzına su alıb oturmaq;

affogare nei debiti – borc içində batıb qalmaq;
il pesce comincia a puzzare dalla testa – balıq başdan iylənər;
fare una vita da cani – it kimi yaşamaq;
caval donato non si guarda in bocca – bəy verən atın dişinə baxmazlar;
essere freddo il ghiaccio – buz kimi soyuq olmaq;
andare a vuoto – boşa getmək;
mettere la mano sul fuoco – özünü oda atmaq;
seminare zizzania – nifaq toxumu səpmək;
lento come una lumaca – ilbiz kimi yavaş;
allevare una serpe nel seno – qoynunda ilan bəsləmək;
prendere due piccioni con una fava – bir əldə iki qarpız tutmaq;

Belə ki, italyan və Azərbaycan dillərindən olan nümunələrdə göstərilir ki, iki dildə həm forma həm də məzmunca üst-üstə düşə biləcək frazeoloji birləşmələr mövcuddur. Lakin, ekvivalentlərin seçilməsi zamanı tərcüməçinin qarşısında dayanacaq ilkin problem dillər arasında mövcud olan fərqliliklərdir. Xüsusilə də, bir-birilə qohum olmayan dillərdən edilən tərcümələr zamanı belə problemlər qarşıya çıxır.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, frazeologizmlərin tərcüməsi zamanı bir çox tərcümə növlərinə müraciət olunur ki, bunlardan biri də ekvivalent tərcümə üsuludur. İtalyan dilindən Azərbaycan dilinə frazeoloji birləşmələrin tərcüməsi zamanı ekvivalent olan ifadələrə rast gəlmək bir çox hallarda mümkün olmur. Bu zaman əsas məqsəd mənanı çatdırmaqdır. Hər bir tərcüməçinin dillərarası mədəniyyət fərqləri, adət-ənənələr, düşüncə tərzləri barədə geniş məlumatı olmalıdır. Bütün bunları bilmək tərcüməçi üçün qarşısına çıxan ekvivalentlik problemini həll etməyə köməklik göstərir.

Ədəbiyyat

1. Bayramov Q.H. Tərcümə sənəti. Bakı, 2008.
2. Виноградов В.С. Введение в переводоведение. Института общего среднего образования РАО, 2001.
3. Bassnett S. La traduzione teorie e pratica. Roma, 1993.
4. Catford J.C. A Linguistic Theory of Translation. London**,** 1965.
5. Dagut M.B. Can metaphor be translated. Babel, 1976.
6. Kenny D. Bibliography of translation studies. Routledge, 1999.
7. Egidi R. Traducibilità, significato e relativismo nell'epistemologia contemporanea. Roma, 1997.
8. Eugene A.N. The theory and practice of translation. Brill, 2001.
9. Osimo B. Propedeutica della traduzione. Milano, 2006.

F.Haciyeva

The application of the method of equivalency while translating some phrases from Italian into Azerbaijani

Summary

The article deals with the notion of equivalency between the two languages which have the different sentence structures and lexical and semantic features. It investigates also the methods of solving the problems which may occur while translating the phrases that do not have any equivalents. For showing these methods more clearly some examples of phraseologies in italian are included to this article. These examples are benefited for giving information about the differences of phraseologies of two languages. In the examples, it is emphasized that one of the obstacles encountered during comparative parsing of phraseologies is the differences between languages. When translating phraseological units it is necessary to convey the idea from the Italian language to Azerbaijani accurately. Difference between the cultures, historical-geographical conditions, traditions and diversity of languages make it difficult to translate. The article says that the interpreter can solve the problem of equivalence by knowing all these. From the examples in the article, it is clear that even if there are differences in the structure, in the vocabulary, still it is possible to find common features in phraseological units. One of the major problems is finding the correct method of the usage of equivalence during the translation of the original text into the target language. The possibility of using the equivalent translation method in the transformation of phraseological units, proverbs and idioms in Italian and Azerbaijani languages is also mentioned. Varios ideas, different categories claimed by translators, have been reflected in the article. Different theories and thougts of various linguists about the equivalence are also taken into consideration.

Ф.Гаджиева

Приминение эквивалентного способа во время перевода некоторых фразелогических сочетаний итальянского языка на азербайджанский язык

Резюме

В статье повествуется об эквивалентном понятии между двумя разными по лексико-семантическому строю и форме предложения языками. А так же тут говорится о путях решения не эквивалентных выражений с которыми могут столкнуться при переводе. Эти примеры полезны для информации учитывая разнообразие во фразеологических оборотах двух языков. Чтобы ясно продемонстрировать эти способы приведены в примеры из итальянских фразеологических оборотов. В примерах отмечается, что при сравнительном анализе фразеологизмов одним из появившихся препятствий является разница между языками. При переводе фразеологических сочетаний, важно чтобы точно передавать мысль с итальянского языка на азербайджанский. Различие культур, историко-географических условий, обычаев и традиций, жилищных условий между языками приводит к затруднению при переводе. В статье отмечается, что переводчик, зная все это, может ликвидировать проблему эквивалентности. Учитывая примеры, данные в статье, можно прийти к выводу, что несмотря на разницу во внутреннем строении и словарном составе, можно найти подходящие и общие черты фразеологических сочетаний. Одним из важных вопросов является выбор метода эквивалентности при трансформации текста с первичного языка на язык цели. Можно использовать эквивалентный метод перевода при преобразовании фразеологических ассоциаций, слов отцов и идиом на итальянском и азербайджанском языках. В статье отражаются различные идеи, различные категории которые интерпретируются переводчиками. Также различные теории и мысли разных лингвистов об эквивалентности.

Rəyçi Günel Bayramova
Filologiya üzrə fəlsəfə doktoru

ЛЕЙЛА МУРАДАЛИЕВА
АГАФКС
leyla.muradaliyeva@yahoo.com

ПРИМЕНЕНИЕ ТЕОРИИ НЕЙРОЛИНГВИСТИЧЕСКОГО ПРОГРАММИРОВАНИЯ В ОБУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА

Açar sözlər:neyrolinqvistik proqramlaşdırma, ingilis dilinin tədrisi, alqılama kanalları, davranış çərçivələri
Key words:neurolinguistic programming, the English language teaching, channels of perception, behavioral frames
Ключевые слова: нейролингвистическое программирование, обучение иностранному языку, каналы восприятия, поведенческие рамки

В настоящее время изучение иностранного языка стало неотъемлемой частью жизни современного образованного человека. С развитием общества и возрастанием потребности в иностранном языке, совершенствуются и методы преподавания как на базовом, так и на академическом уровне. На сегодняшний день, одной из главных целей методики как науки является выявлени оптимальных путей формирования коммуникативной компетенции учащихся. В связи сэтим, наиболее целесообразным является личностно-ориентированный подход, который подразумевает учёт педагогом личностных характеристик учащихся. Однакоследует отменить, что адаптировать учебный материал под каждого учащегося представляется практически не возможным. Напротив, следуетпредставить материал так, чтобы были одновременно задействованы все каналы восприятия и переработки информации.

Нейро-лингвистическое программирование-это относительно современный метод преподавания иностранного языка, нацеленный на задействование подсознательного потенциала каждого человека. Впервые данное направление было выдвинуто Джоном Гриндером и Ричердом-Бандлером в 70-х годах прошлого века. Данный метод основан на четырёх главных принципах: 1) Цель. Один из постулатов НЛП гласит «знание того, чего именно вы хотите, помогает вам быстрее этого достичь». 2) Связь. В данном случае подразумевается установлениесвязи как с самим собой, так и с другими участниками процесса обучения. 3)Сенсорная острота. Под данным принципом подразумевается использования наиболее оптимального для конкретного индивида

канала восприятия. 4) Гибкость. Этот принцип можно суммировать как «меняйся пока не достигнешь того, чего хотел». [2]

Для более ясного понимания самого термина НЛП следует рассмотреть значение каждого составляющего. Часть «Нейро» относится к пониманию того, как мы воспринимаем мир посредством пяти органов чувств, и как именно эта информация представлена в нашем мозгу. Часть «Лингвистическое» относится к тому, как мы используем речь, внутреннюю и внешнюю, для передачи нашего мировоззрения. Когда мы меняем манеру разговора, мы также меняем наше поведение. Часть «программирование» связанна с тем, как мы учимся говорить, думать, и изменять свои действия для полной реализации нашего потенциала.[3]

Согласно НЛП, люди по-разному используют зрительный, слуховой и чувствительный каналы при восприятии, хранении и переработки информации. Техники НЛП, которые можно применить в отношении речевого общения, предлагают преподавателям представлять языковой материал таким образом, чтобы он оказывал воздействие на разные каналы восприятия [4]. Не секрет, что студенты с преобладающим визуальным каналом восприятия (визуалы) отдают предпочтение чтению, наглядным примерам, схемам, компьютерным презентациям, имеют большее представление о характере и структуре языка. Визуалы лучше пишут, чем говорят. Аудиалы лучше воспринимают тексты на слух, проговаривание материала помогает им лучше его запомнить. Кинестетикам больше нравится подвижное изучение материала, использование ролевых игр, работа с карточками. Каким же образом преподавателю угодить и аудиалам, и визуалам, и кинестетикам и логикам? Вот здесь и проявляется практичность техник нейролингвистического программирования. Известно, что одну и ту же мысль можно выразить по-разному. Как показали исследования, можно выделить некий словарный запас, характерный для того или иного типа личности. Например, одно и то же обращение будет звучать по-разному: 1) Смотри! (визуал); 2) Послушай! (аудиал); 3) Представь себе! (кинестетик). Одна из главных задач НЛП – персонализировать подход преподавателя к каждому студенту.

Рассмотрим примерный план урока, предложенный Джеком Ричердсом.

1.Учитель объявляет студентам, что им нужно будет задействовать «внутренний грамматическийопыт»

2.Объясняет ключевые слова, которые понадобятся для описания действия (чувствовать, пробовать, жевать, глотать, кусать и т.д)

3.Студентам предлагается расслабиться, закрыть глаза и «уйти в себя». Далее они слушают то, что им говорит учитель.

4. Учитель описывает процесс поедания печения. Учащиеся должны детально представить этот процесс и «пережить» его.

5. Учитель просит учащихся описать то, как они себя чувствуют,используя PresentSimple(e.g. Ifeelfull, I'mnothungryanymore).

6. Учитель просит их ещё раз повторить, почему именно они себя так чувствуют, используя Present Perfect (e.g. I'veeatenabiscuit)

7. Учащиеся обсуждают свои впечатления парами или в группах.[2]

Как видно из урока, учителем были задействованы все каналы восприятия информации и презентации материала. Данный метод способствует не только быстрому запоминанию материала, но и его немедленному использованию. Учащиеся сами того не замечая в мыслях продумывают лексический материал, а затем используют его для выражения пережитых эмоций. Однако, как видно из примера, и как утверждают многие ученые-методисты и лингвисты, данный метод целесообразен лишь на определенных этапах урока и при изучении определенных тем.

Подводя итог, при всей результативности и достоинствах НЛП, признаваемых рядом исследователей, не стоит забывать и о полярных точках зрения. Ряд аналитиков говорят о неэффективности методик НЛП, отсутствии у них научного обоснования, наличии фактических ошибок (Drnckman D., Gary B. S., Rosenthal T., VonBergen C. W., Wilkinson L. V.) и псевдонаучных черт (Devilly G.J.), отсутствии заявленных результатов (Sharpley C. F.,Witkowski T.) и т.д.Именно поэтому лишь глубокий анализ теоретической базы и практических методик может помочь сложить собственное мнение о данном направлении.

Список литературы

1. Нейролингвистическое программирование // Википедия - свободная энциклопедия [Электронный ресурс]. URL: http://ru.wikipedia.org
2. 2. Jack C. Richards and T. Rodgers. Approaches and Methods in Language Teaching.Cambridge University press 2001
3. Revell J. and S. Norman. İn your hands: NLP in ESL. London: Saffire Press 1997
4. Грингер, М; Ллойд, Л. НЛП в педагогике. / М. Гриндер, Л. Ллойд / М; 2001.

5. Гальцова, Н. П. Взгляд на преподавание иностранных языков с позиций нейролингвистического программирования. Вестник ТГПУ, 2003. Вып.2(34). Сер. Педагогика. С. 95-98.
6. Белянин, В. П. Нейролингвистическоепрограммированиеиобучениеиностраннымязыкам // Teaching Foreign Languages in the Age of Globalization. // International Conference. Taipei, Taiwan, R.O.C., April, 2000. P. 17-36.

L. Murədaliyeva

Xarici dilin təlimində Neyrolinqvistik proqlaşdırma (NLP) nəzəriyyəsinin tətbiqi

Xülasə

Bu məqalədə ingilis dili təlimində NeyroLinqvistikProqramlaşdırma nəzəriyyəsinin praktiki cəhətdən tətbiqindən bəhs olunur. Xarici dil öyrənmək, əsasən, təqdim olunan informasiyanın qəbul edilməsi və assimilyasiyasıdır. Neuro-linqvistik proqramlaşdırma hər bir insanın şüuraltı potensialını işə salaraq xarici dilin effektiv tədrisinə yönəlmiş müasir tədris üsuludu. Tələbələrin reprezentativ sistemlərinə və insanın subyektiv təcrübəsinin təşkili fikrinə əsaslanaraq, xarici dil təlimində daha effektiv nəticələr əldəetmək və motivasiyanı qaldırmaq olar. Şifahi ünsiyyət zamanı tətbiq oluna biləcək NLP üsülları, müəllimlərə müxtəlif qavrama kanallarına təsir edəbiləcək dil materiallarindan istifadə etməyi təklif edir.

Məqalədə təsvir olunun praktiki dərsdəndə göründüyü kimi, bu üsul təkcə materialın tez mənimsənilməsinə deyil, həmçinin dərhal istifadəsinədə kömək edir. Bir çox metodist və dilçi alimlər bu metodun dərslərin müəyyən mərhələlərində və müəyyən mövzuları öyrənərkən məqsədəuyğun hesab edirlər. Bu səbəbdən bu istiqamətdə nəzəri əsasların və praktiki üsulların dərin təhlili vacib hesab olunur.

L. Muradaliyeva

Implementation of the theory of Neurolinguistic Programming (NLP) in the foreign language teaching

Summary

The theory of Neuro-Linguistic Programming in this article is being looked through its possibility of practical implementation in the English language teaching.Learning a foreign language is basically acknowledgment

and assimilation of the information presented. Neuro-linguistic programming is a relatively modern method of teaching a foreign language, aimed at using the unconscious potential of each person. Relying on representative systems of students and idea of organizing person's subjective experience, it is possible both to achieve more effective results in the English language teaching and increase motivation towards teaching and studying.The techniques of NLP, which can be applied to speech communication, suggest that teachers provide linguistic material in such a way that it influences different channels of perception.

As can be seen from the practical lesson in the article, this method not only helps you quickly absorb the material, but also helps you to use it immediately.Many methodologists and linguists think it is expedient to study this method at certain stages of the lessons and in certain topics.Therefore, deep analysis of the theoretical basis and practical methods in this direction is considered important.

Rəyçi: Lalə Əhmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

TAMILLA ATAKIŞIYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
tamilla@mail.ru

ЛЕКСИКОГРАФИЯ И РЕЧЕВАЯ КУЛЬТУРА

Açar sözlər: praktik leksikoqrafiya,dilin lüğət tərkibi, kommunikativ tələblər,tətbiqi dilçilik tərcümə yaradıcılığı, frazeoloji lüğət, leksikologiya, şifahi nitq.
Ключевые слова:практическая лексикография, словарный состав языка, коммуникативнфе потребности, прикладное языкознание, переводческая деятельность, фразеологический словарь, лексикология, устная речь.
Key Words: practical lexicography the vocabulary of the language, communicative demands, applied linguistics, translation activity, phraseological dictionary, lexicography, oral speech.

ЛЕКСИКОГРАФИЯ (от греч. lexik6s-относящийся к слову и grapho —пишу) - раздел языкознания, занимающийся практикой и теорией составления словарей. **Практическая лексикография** выполняет общественно важные функции, она **обеспечивает**:

1) обучение языку — как родному, так и неродному,
2) описание и нормализацию родного языка
3) межъязыковое общение ,
4) научное изучение лексики языка .

В развитии форм практической лексикографии у разных народов выделяются **3 сходных периода**. **1) Дословарный период**. Основная функция — объяснение малопонятных слов: глоссы в.), глоссарии , вокабуларии . **2) Ранний словарный период.** Основная функция — изучение литературного языка, отличного у многих народов от разговорной речи: напр., одноязычные лексиконы санскрита , древнегреческого языка; позднее — переводные словари пассивного типа, где лексика чужого языка толкуется с помощью слов иар. языка , затем переводные словари активного типа, где исходным является народный язык , а также двуязычные словари живых языков. Первые словари типа толковых создаются в странах с иероглифической письменностью. **3) Период развитой лексикографии, связанный с развитием национальных литературных языков.** Основная функция — описание и нормализация словарного состава языка, повышение языковой культуры общества: толковые словари, многие из которых

составляются государственные академиями и филологическими обществами, появляются также еннонимичные., фразеологические, диалектические, терминнологические, орфографические., грамматические и др. словари. На развитие лексикографии влияли философия концепции эпохи. Например, академические словари 17—18 вв. создавались под влиянием философии науки Ф. Бэкона и Р. Декарта. Словарь французского языка Э. Литтре и др. словари 19 в. испытали воздействие позитивизма. Эволюционистские теории 19 в. укрепили исторический аспект в толковых словарях. В 18—19 вв. утверждается, а в 20 в. развивается новая функция лексикографии — **сбор и обработка данных для лингвистич. исследований в области лексикологии, словообразования, стилистики, истории языка (словари этимологические, исторические, частотные, обратные, родственных языков, языка писателей и др.).** Современная лексикография приобретает «индустриальный» характер .

В 19 в. в России лексикография получила большое развитие. Появились словари разных типов: исторические, иностранные словари, двуязычные и, что особенно важно, толковые, из которых наибольшее значение для развития русской лексикографии имели: академический «Словарь церковнославянского и русского языка» , «Толковый словарь живого великорусского языка» В. И. Даля и «Словарь русского языка» под редактором Я. И. Грота. Издание продолжал А. А. Шахматов уже по принципам ненормативного словаря — тезауруса. Лингвистика превратилась в ведущую отрасль прикладного языкознания. Это было обусловлено необходимостью фиксировать русский и др. языки страны на современном этапе, закрепить языковые нормы для многих дотоле бесписьменных и младописьменных языков, создать двуязычные словари — русско-национальные и национально-русские, русско-иностранные и иностранно-русские в связи с преподаванием этих языков и расширением переводческой деятельности. Большой вклад в развитие современной . лексикографии внесло Издательство иностранных и национальных словарей, созданное в 1937 г. на базе редактирование словарей Государственного института «Современная энциклопедия». При участии главного редактора издательства К. А. Марцишевской были разработаны принципы лексикографии, обработки слов и создания серий словарей различного объема и назначения для каждого языка или пары языков. В 1963 издательство словарей слилось с издательством «Современная энциклопедия», а в 1974 словарные редакции вошли в состав издательства «Русский язык». Всего за период 1918—62 г.г. в Советском Союзе было издано около 9000 словарей. В 60—80-х г.г. лексикография получила грандиозный размах. Это проявляется как в расширении круга языков, по которым выходят

словари (впервые были созданы переводные словари языков Азии и Африки), так и в большем разнообразии типов словарей (напр., впервые вышли словари сочетаемости, словообразовательный, морфемный, фразеологический и др. словари рус. языка). Изучение и решение различных лексикографических проблем при создании этих словарей явилось реальным вкладом в теоретической лексикографии. Впервые в современной лексикографии были применены многие решения, к которым зарубежная лексикография пришла позднее . Новым стимулом для развития теоретической лексикографии является разработка учебных словарей и использование компьютерной техники в лексикографической практике. Теоретическая лексикография сформировалась во 2-й трети 20 в. Первую научную типологию словарей создал советский ученый Л. В. Щерба (1940). Дальнейшее развитие она получила в трудах многих советских и зарубежных лингвистов .

Теоретическая лексикография охватывает следующий комплекс проблем:

1) разработка общей типологии словарей и словарей новых типов;

2) разработка макроструктуры словаря ;

3) разработка микроструктуры словаря, т. е. отдельной словарной статьи . Большое внимание уделяется вопросу соотношения лингвистической и внелингвистической информации в словаре.

Для современной теории лексикографии характерны:

а) представление о лексике как о системе, стремление отразить в строении словаря лексикосемантическую структуру языка в целом и семантичную структуру отдельного слова ;

б) диалектический взгляд на значение слова, учет подвижного характера связи означающего и означаемого в словесном знаке ;

в) признание тесной связи лексики с грамматикой и другими сторонами языка. Лексикография связана со всеми разделами языкознания, особенно с лексикологией, многие проблемы которой получают в лексикографии специфическое преломление.

Современная лексикография подчеркивает важную социальную функцию словарей, которые фиксируют совокупность знаний общества данной эпохи. Лексикография разрабатывает типологию словарей. Выделяются одноязычная лексикография , двуязычная лексиеография ; учебная лексикография , научно.-техническая лексикография и др.

Речевая культура - составная часть культуры народа, связанная с использованием языка. Поскольку каждый народ имеет свои коммуникативные потребности и соответствующие языковые средства,

собственные традиции общения, своеобразно организованные информационные структуры, свою систему языковых и речевых предпочтений, можно говорить об особых национальных речевых (и даже языковых) культурах и различиях между ними, к которым относятся и этнокультурные и структурно-языковые различия. Различаются национальные Р. к. с разным соотношением лит. языка и разг. речи: её ориентацией на литературный язык или на просторечие, диалектики.

В современной русской Речевой культуре отражаются типологические особенности русского языка, многообразие сфер его применения , единство русской речи при обширности территории расселения народа и существовании территориальных вариантов языка, наличие высокоразвитого литературного языка с длительной непрерывной традицией, включающего в себя разговорную речь как особую составную часть, накопленное богатство письменных и устных текстов общенационального значения как основы представлений о правильной и хорошей речи, достижения науки о русском языке и т.д.

В Речевой культуре существуют различия, связанные с социальным расслоением народа, многообразием условий жизни людей, неодинаковостью их коммуникативных возможностей и потребностей, общественных и языковых идеалов, степени образованности и т. д. Эти различия системны и образуют внутринациональные типы Речевой культуры. Основы подхода к Речевой культуре как к системе её типов заложены **Н. И. Толстым**, соотнёсшим литературный язык с элитарной культурой, говоры - с народной, просторечие - с «третьей» культурой, арго - с культурой традиционно-профессиональной. Однако различаются разные типы Речевой культуры и в среде образованных горожан, поскольку далеко не все владеющие литературным языком являются носителями элитарной Речевой культуры. Со сферой действия литературного языка связано существование **четырех типов Речевой культуры**.: элитарной, средне - литературной, литературно-разговорной и фамильярно-разговорной.

Элитарная Речевая культура.- эталонная Речевая культура , означающая свободное владение всеми возможностями языка, включая его творческое использование. Элитарная Речевая культура позволяет сё носителям целесообразно и уместно пользоваться языком в любой сфере общения и ситуации, применяя в каждом случае выработанные в языке соответствующие функциональные стили, их разновидности и формы речи. Для элитарной Речевой культуры характерно строгое соблюдение всех норм культуры речи . Для носителей элитарной Речевой культуре безусловен запрет грубых, тем более нецензурных выражений, что порождает развитую систему эвфемизмов и умелое их

использование. Уважение к собеседнику вызывает строгое разграничение устной и письменной форм речи, не допускающее, в частности, использования в устной речи причастных и деепричастных оборотов, излишней книжности, а в письменной речи - смысловой неполноты информации; с ними связано «ты- и Вы - общение» в зависимости от возраста, степени близости и социальной роли адресата речи. Элитарная Речевая культура.- искусство речи, поэтому она характеризует далеко не всех образованных носителей литературного языка.

Список литературы

1. Аврорин В.А. Проблемы изучения функциональной стороны языка: К вопросу о предмете социолингвистики.- Л.: Наука, 1975.-276 с.
2. Акишина АА,Формановская Н.И.Русский речевой этикет.-Изд.2.-М.,1978.-177 с.
3. Актуальные проблемы психологии речи и психологии обучения языку / Под ред. Леонтьева А.А.и Рябовой Т.В. М.: МГУ, 1970. -164 с.
4. Актуальные проблемы современной русистики /Под ред. Н.М.Шанского. -Л.: Просвещение, 1991.- 207 с.

T.Atakişiyeva

Leksikoqrafiya və nitq mədəniyyəti

Xülasə

Leksikoqrafiya - bu təcrübə və lüğətlərin tərtib olunması ilə məşğul olan dilçiliyin bir bölməsidir.Təcrübə leksikoqrafiyası mühüm funksiyaları yerinə yetirir. Müasir leksikoqrafiya "sənaye" xarakteri daşıyır.Müxtəlif lüğət növləri yaranmışdır:tarixi lüğətlər, xarici söz lüğətləri, izahlı lüğətlər və s.Bu lüğətlərin yaradılmasında müxtəlif leksikoqrafik problemlərin öyrənilməsi və həll olması, nəzəri leksikoqrafiya üçün real sərvət oldu.Tədris lüğətlərinin işlənib hazırlanması və leksikoqrafiya təcrübəsində kompyuter texnikasından istifadə, nəzəri leksikoqrafiyanın inkişafı üçün yeni stimul olduNəzəri leksikoqrafiyalar

XX əsrin 2-ci yarısında yaranmışdır.Leksikoqrafiya dilçiliyin bütün bölmələri ilə, əsasən də, leksikologiya ilə bağlıdır. Leksikoqrafiya lüğətlərin tipologiyasını işləyib hazırlayır.Birdilli leksikoqrafiya(izahlı lüğətlər və s.),ikidilli leksikoqrafiya(tərcümə lüğətləri); tədris leksikoqrafiyası (dilin öyrənilməsi üçün lüğətlər); elmi-texniki leksikoqrafiya(termin lüğətləri) və s. Başqa lüğətlər vardır.

Nitq mədəniyyəti-dilin istifadəsi ilə bağlı olan xalq mədəniyyətinin əsas hissəsidir.

Elit nitq mədəniyyəti-dilin bütün imkanlarından sərbəst şəkildə istifadə edən, etalon nitq mədəniyyətidir. Elit nitq mədəniyyəti üçün nitq mədəniyyətinin bütün normalarına əməl etmək xarakterikdir.

T.Atakishiyeva

Lexicography and speech culture

Summary

Lexicography is one of the brunch of linguistics which deals with practice and compiling of dictionaries. Practice lexicography has significantfunctions. Modern lexicography looks like “Industry”. There are different kinds of dictionaries: historical, dict-s , dict-s of words taken from other languages, explanatory dictionaries and so on. While compiling these dictionaries studiying and solution of various lexicograplic problems became real treasure for theoretical lexicography. Compiling educational dictionaries and the use of computer technology in lexicography practice was a new stimulus in the development of theoretical lexicography.

Theoretical lexicography appeared in the 2^{nd} half of the 20^{th} century lexicography is connected with all parts of linguistics, especially with lexicography. Lexicography prepares types of dictionaries. There are unilingual lexicography (explanatory dictionaries and so on, bilingual lexicography (translation dictionaries) teaching lexicography (dictionaries for language learning), scientific –technical lexicography (technical dictionaries) and other dictionaries.

Speech culture is the main part of folk culture which deals with the use of language.

Elite speech culture is the standard speech culture which uses all the opportunities of the language independently.

Elite speech culture follows all the norms of speech culture.

Rəyçi: Nərmin Musabəyova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AYGÜN CƏFƏROVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aygun_aygun_95@list.ru

SÖZ BİRLƏŞMƏLƏRİNİN FƏNDAXİLİ İNTEQRASİYADA TƏDRİSİ IMKANLARI

Açar söz: inteqrasiya, təlim, söz birləşməsi.
Ключевые слова: интеграция, обучение, словосочетание.
Keywords: integration, training, collocation.

Azərbaycanda zamanın tələblərinə cavab verən Təhsil İslahatı davam edir və təlimin məzmununu təkmilləşdirən, onun keyfiyyətini yüksəltməyə xidmət edən yeni məzmun standartları, təlimi məqsədlər, qiymətləndirmə meyarları müəyyənləşməkdədir. Dərsliklərin, köməkçi metodik vəsaitlərin təlimin yeni strategiyası əsasında hazırlanması prosesi demək olar ki, başa çatmaq üzrədir və şəxsiyyətyönümlülüyə xidmət edən yeni təlim standartları tətbiq edilməsi hədəf kimi reallaşmaqdadır.

Milli mədəniyyət və təfəkkürün formalaşmasında müstəsna əhəmiyyət kəsb edən Azərbaycan dili fənni şagirdlərə bildiklərini düzgün formada ifadə etməyi öyrədən bir fənn olduğu üçün, ona aid məzmun standartları da şagirdin maraq və inkişaf səviyyəsi nəzərə alınmaqla hazırlanmışdır. Diqqətə alınmışdır ki, dil qaydalarını, nitq normalarını lazımi səviyyədə mənimsətmədən düzgün nitq vərdişlərinin və bacarıqlarının formalaşdırılması qeyri-mümkündür. Qaydaların mənimsədilməsində ardıcıllıq, varislik və inteqrativlik mütləq gözlənilməlidir. Təhsildə inteqrativlik nəzərə alındığına görə də "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədində fənlərin sayı 26-dan 18-ə endirilmiş, fənlərin koqnitiv (idraki) istiqamətdə funksiyalarının artmasına üstünlük verilməklə praktik istiqamət şəxsiyyətin formalaşdırılması prioritetinə çevirilmişdir. Fənlər üzrə təhsil kurikulumların inteqrativliyi, konseptual xarakter daşıması, istiqamətverici mənbəyə çevrilməsi bu günkü təhsilin mühüm şərtlərindəndir.

Ənənəvi pedaqogikada bu məsələ diqqət mərkəzində olmuş, fənlərarası və fəndaxili əlaqələrin əhəmiyyətindən bir prinsip, yaxud metod kimi həmişə danışılmışdır. Bu əlaqələr epizodik xarakter daşısa da, tədris fəaliyyətlərinin səmərəli qurulmasında əhəmiyyətli rol oynamışdır.

Müasir dünyada informasiyaların çoxalması, qloballaşma, əlaqələrin sıxlaşması, ardıcıl və sistemli təlimin inteqrasiya müstəvisinə gətirilməsini zəruriləşdirmişdir. İndi təlimin məzmunu, təşkili və idarə olunması parametrlərində inteqrasiya zərurətdir.

İnteqrasiya şagird fəaliyyətini məntiqi, tənqidi və yaradıcı məcrada istiqamətləndirir, onun koqnitiv xarakter almasına təsir göstərir. Buna görə də yeni konsepsiyaya uyğun yaradılmış kurikulumlarda inteqrasiya əsas tələblərdən biri kimi nəzərə alınmış, hissələr arasında inteqrativliyin gözlənilməsinə xüsusi diqqət yetirilmişdir. Fənlər üzrə uyğun gələn nəticələrin əlaqəliliyi ifadə edilmiş və nəticələrin kodları göstərilməklə əlaqəlilik koordinasiya olunmuşdur.

Müasir təlimdə sintaksisə aid dil qaydalarının keyfiyyətli mənimsədilməsi üçün inteqrativliyə dəyər verilir, həmçinin təlim prosesindəki inteqrativ məzmun inteqrativ texnologiyaların olmasını da zərurətə çevirir.

Pedaqoji prosesin həlledici hissəsi olan dərs təlimin inteqrativ formalarından biri kimi dəyərləndirilir və dərslərdə müxtəlif parametrli pedaqoji fəaliyyətlərin birləşdirildiyi aydın görünür.

İnteqrativlik təlimin inteqrativ məzmununun məntiqi davamı və onun növbəti addımda reallaşdırılmasıdır. Dərsdə inteqrasiya elementinin olması, onun mövzu, məqsəd, üsul və təchizatlar sisteminin daxil edilməsi müasir pedaqoji tələbdir.

Müəllim özünün gündəlik dərs planında təlim məqsədinə uyğun olaraq reallaşdırdığı strategiyalara inteqrasiya məsələlərini daxil edir. Fəaliyyətinin inkişafyönümlü olmasında ona mühüm amil kimi yanaşır. O, həm də planının ümumi müddəalarında dərsin gedişinə aid apardığı qeydlərdə inteqrasiyadan necə istifadə etdiyini nəzərə çatdırır.

Təhsil proqramlarına daxil edilən dərs planı nümunələrində inteqrasiya elementlərinin seçilməsi, yerləşdirilməsi, bir texnologiya kimi ondan istifadə olunması barədə tövsiyələr verir.

Bu tövsiyələr təlim prosesinin, onun təşkilat formalarının bilavasitə inteqrativ əsasda qurulmasına aid istiqamətverici bir resursdur. Ona bir nümunə kimi yanaşmaq və ondan yaradıcı istifadə etmək hər bir müəllimin vəzifəsidir. Bundan əlavə, perspektiv (illik) planlaşdırma nümunələrində inteqrasiya xüsusi komponent kimi nəzərdə tutulur.

Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında ölkəmizdə aparılan təhsil islahatlarına, onun məzmununda gedən dəyişikliklərə xüsusi qiymət verilir. İnteqrativ fənlərin yaranması, ümumiyyətlə, fənlərdə inteqrativliyin güclənməsi nailiyyət kimi dəyərləndirilir. Göstərilir ki, qlobal təhsil tendensiyalarını inkişaf etdirməyin yolu inteqrasiyadan keçir.

Məlum olduğu kimi, ümumtəhsil məktəblərində Azərbaycan dili kursu iki mərhələdə tədris edilir. Birinci mərhələsi hesab edilən ibtidai təhsil pilləsində şagirdlər bu fənnin vasitəsilə ifadəli və şüurlu oxu, düzgün yazılı və şifahi nitq vərdişlərinə yiyələndirilir, nitqin leksik, fonetik, qrammatik və üslubi zənginliklərinə bələd olur, əməli cəhətdən zəruri olan dil qaydaları və

hadisələrinin mahiyyətinə varmağı bacarırlar. Bu mərhələdə "Şagirdlərin idrak fəaliyyətinin və ünsiyyət bacarıqlarının inkişafı, şagirdlərdə ana dilinə məhəbbət və hörmət hissinin formalaşdırılması təmin edilir".

"Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə təhsil proqramı (kurikulumu)" da fəndaxili və fənlərarası inteqrasiya Azərbaycan dili təliminin məzmununu təşkil edən əsas elementlərdən biri kimi qeyd olunur. Göstərilir ki, "ümumi orta təhsil səviyyəsində Azərbaycan dili təliminin məqsədi ibtidai təhsil üzrə qazanılan bacarıqları inkişaf etdirməklə zəruri fonetik, leksik, qrammatik xüsusiyyətləri, dil və nitq vahidlərinin məna və intonasiyasını mənimsətmək, şüurlu və ifadəli oxuya, nitqin müxtəlif forma və tiplərinə dair bacarıqları, dövlət dili kimi Azərbaycan dilinə hörmət və məhəbbət hissini formalaşdırmaq"dır.

Dilin qrammatik qaydaları müəyyən qanunauyğunluqlar əsasında fəaliyyət göstərir və bütöv bir sistem təşkil etməklə təbiət elmləri qədər dəqiq fəaliyyət mexanizminə malikdir. Bütün bu deyilənlər isə onu təsdiqləyir ki, dil dərslərinin inteqrativ formada olması, fəndaxili və fənlərarası inteqrasiya bir təlimi zərurətdir. Biz bu yazımızda sintaksisin zəruri mövzularından olan "Söz birləşmələri"nin inteqrasiyada mənimsədilməsi yollarından bəhs edəcəyik.

Söz birləşmələri ilə şagirdlər ibtidai sinifdə tanış olur və II sinifdə onlar üçün anlaşılması bir qədər çətin olan belə bir məlumat verilir:

"Söz birləşməsi qrammatikanın tədqiqat obyektinə daxil olub dildə əhəmiyyətinə görə heç də sözdən geri qalmır. Söz birləşmələri də söz kimi dildə adlandırma funksiyalı olub əşyaları, hadisə və prosesləri ifadə edir. Hərşeydənəvvəl söz leksik kateqoriyadır, söz birləşməsi isə qrammatik kateqoriyadır. Söz birləşməsi söz kimi nominativ xarakterə malik olub əşyaları, hadisələri və s. ifadə etsə də, onları təklikdə, təcrid olunmuş halda deyil, bir-biri ilə əlaqədə, münasibətdə ifadə edir" .

Buməlumatlar 2-ci sinif şagirdinin tam başa düşəcəyi səviyyədə olmadığı üçün sadələşdirmələr aparılmalı, söz birləşməsinin ən ümdə cəhətləri aydın bir şəkildə izah edilməlidir. Dərslikdə yazılanları bir az da sadələşdiribbu şəkildə aydınıaşdırmaq olar: "Sözlər səslərin birləşməsindən yarandığı kimi söz birləşmələri də ən azı iki sözün mənaca birləşməsindən yaranır. Sözdə məna ümumi və ya geniş, söz birləşməsində isə konkret və dəqiq olurş Məsələn, *dostlar* dedikdə bütün dostlar, *sədaqətli dostlar* dedikdə daha sadiqlər, *ev* dedikdə bütün evlər, *bizim ev* dedikdə yalnız bir ev nəzərdə tutulur. Bu prosesdə əsas məsələ odur ki, şagird bir neçə söz arasındakı əlaqəni tutaraq sözü ümumi mahiyyəti üzrə bir bütöv kimi qavraya bilsin. Bu əlaqəni mənimsətmək və söz birləşmələrini yaratmaq üçün şagirdlərə ilkin olaraq öz aralarında birləşə bilən bir neçə söz təqdim edilir:

Motivasiya: hansı sözləri əlaqələndirərək bir yerdə işlətmək olar?

şirin	şagird
səliqəli	alma
ağacın	dimdiyi
quşun	budağı və s.

Təbiidir ki, şagird öz həyati müşahidələrinə əsasən müəyyən edəcəkdir ki, şirinlik almaya, səliqəlilik şagirdə, dimdik quşa, budaq ağaca məxsus bir əlamətdir. Nəticə olaraq sözləri bu şəkildə birləşdirəcəkdir: *şirin alma, səliqəli şagird, ağacın budağı, quşun dimdiyi.*

İbtidai sinif mərhələsində son olaraq "Söz birləşmələri" mövzusunun tədrisində aşağıdakı təlim nəticələr əldə olunur. Şagird:

1) Sözlə söz birləşməsinin fərqini dərk edir.
2) Söz birləşmələrinin azı iki sözdən ibarət olduğunu yadda saxlayır.
3) Sözlə müqayisədə söz birləşməsinin daha konkret məna ifadə etdiyini öyrənir.
4) Söz birləşmələrini ad bildirən, əalmət bildirən, say bildirən, hərəkət bildirən növlərə ayırmağı bacarır.

Elmi qrammatikada söz birləşmələri ismi, feil birləşmələri olmaqla iki böyük qrupa bölünür və şagirdlərə sözün qrammatik məna növlərinə uyğun bir şəkildə təsnif edilərək öyrədilir. Yəni söz birləşmələrinin ikinci tərəfi nitq mənsubiyyətinə görə ad bildirən, əlamət bildirən, say bildirən, hərəkət bildirən növlərə bölünür.

Söz birləşmələri üçün bəzi zəruri elemntlərlə şagirdlər hələ isim bəhsini, ismin yiyəlik halını öyrənərkın tanış olurlar. İsmin yiyəlik halı danışıq və yazıda əksərən tək deyil, özündən sonra gələn bir sözlə birlikdə işlənir. Deməli, söz birləşməsi termininin adını çəkmədən belə, yiyəlik hal öyrədilərkən ismi birləşmələr haqqında məlumat vermək olar. Şagirdlər ismin hallarını keçərkən onu da öyrənirlər ki, ismin bir cümlədə bu halda, digər cümlədə başqa halda işlənməsi sözlərin tələbinə görədir və yazanın istəyindən asılı məsələ deyildir.

Orta məktəb Azərbaycan dili dərslərindəki mətnlər üzrə işlərdə söz birləşmələri haqqında geniş məlumat verilməsə də, müəllim söz birləşməsinin quruluşu, söz birləşməsi və söz, söz birləşməsi və cümlə, söz birləşməsində əsas və asılı tərəflər haqqında sistematik məlumat çatdırmalı, ismi birləşmələrlə (təyini və qeyri-təyini) feili birləşmələrin fərqli cəhətlərini praktik nümunələr üzərində işlərlə əsaslandırmalıdır. Ən əsası da həmin birləşmələrin cümlədəki rolunu aydınlaşdırmalıdır Həm ibtidai, həm də orta ümum təhsil siniflərində öyrədilən bu tip mövzular interqasiya məxrəcinə gətirilməklə söz birləşmələri haqqında bilik, bacarıq və vərdişlər bütövləşməli, dərinləşdirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan dili (2-ci cinif), Bakı, Altun kitab, 2009.
2. Azərbaycan dili (8-ci sinif), Bakı, Çaşıoğlu, 2005.
3. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası, Bakı, 2014.
4. Xəlilov B. Müasir Azərbaycan dili (sintaksis)

А. Джафарова

Возможности преподавания междисциплинарной интеграции лексики

Резюме

В статье рассматривается влияние интеграции на качество обучения и исследуется использование внутреннего общения в преподаваниием словосочетаний. Отмечается, что согласованность, последовательность и интеграция в принятии языковых правил должны быть абсолютно ожидаемыми.

В современном обучении интеграция имеет важное значение для обеспечения качества языковых правил для синтаксиса, а также интеграция учебного процесса требует наличия интегрированных технологийНеобходимость интеграции в содержание, организация и управление обучением. Интегрированный ученик руководит своей работой логичным, критическим и творческим образом, влияя на его познавательный характер.Интеграция образовательных программ по предметам, концептуальному характеру и трансформации в руководящий источник является одним из важных условий сегодняшнего образования. Информация о словосочетаниях в высших учебных классах среднего общего образования должна быть дана в связи с обучением в элементарных классах.

A.Jafarova

Opportunities to teach vocabulary interdisciplinary integration

Summary

The article examines the impact of integration on the quality of teaching and explores the use of internal communication in the teaching of word combinations. It is noted that coherence, consistency and integration in the adoption of language rules should be absolutely expected.

In modern learning, integration is essential to quality assimilation of the syntax for language synthesis, as well as integrative learning in the learning process makes it necessary to integrate technology.

Integration in the content, organization and management of the training is a necessity.The integrated student guides his work in a logical, critical, and creative way, influencing his cognitive character.

Integration of educational programs in subjects, conceptual character and transformation into a leading source is one of the important conditions for today's education. Information on phrases in the upper grades of secondary general education should be given in connection with training in elementary classes.

Rəyçi: Füzuli Əsgərli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜNEL MİRZƏLİYEVA
ADU
m.gunel8@gmail.com

TƏRCÜMƏ PROSESİNDƏ FRAZEOLOGİZMLƏRİN YARATDIĞI ÇƏTİNLİKLƏR

Açar sözlər: Frazeoloji birləşmələr, frazeologizmlər, sərbəst söz birləşməsi, sabit söz birləşməsi, ispan dili, tərcümə
Keywords: phraseological compounds, phraseology, free phrase, fixed phrase spanish language, trasnslation
Ключевые слова: фразеологические сочетания, фразеологизмы, свободные словосочетания, несвободные словосочетания, испанский язык, перевод

Qloballaşan dünyada, multikultural mühitdə xarici dillərin tədrisi çox mühim yer tutur. Beləki hal-hazırda Respublikamızda bir çox xarici dillər, o cümlədən ispan dilinin tədrisinə və öyrənilməsinə çox böyük maraq artmışdır. Təxminən 450 – 500 milyon insan tərəfindən danışılan, qədim tarixə və mədəniyyətə malik ispan dili dövrümüzun ən çox yayılmış dillərindən biridir. Xarici dillərin öyrənilməsi nə qədər çox vüsət alsa da, bir o qədər problemləri də üzə çıxarır. Xüsusilə xarici dilin tədrisində tərcümə prosesi zamanı bir çox çətinliklərlə rastlaşılır ki, bu da dillərin strukturlarında olan fərqliliklər, mədəniyyətlərin, coğrafi zamanların, yaşayış tərzlərinin müxtəlifliklərindən irəli gəlir. Frazeologizmlərlə zəngin olan ispan dilindən Azərbaycan dilinə tərcümə zamanı da biz belə çətinliklərlə üzləşirik.

Frazeologizmlər hər bir xalqın adət - ənənəsi ilə bağlı olduğu üçün milli xüsusiyyətlərə malikdir. Müxtəlif dillərdə olan frazeologizmləri araşdırıb öyrənməklə biz həmin xalqların mədəniyyəti, tarixi, yaşayış tərzi, həyatı ilə yaxından tanış olur, həmin dillərin daha zəngin, rəngarəng və sirli olan hissəsini aşkara çıxarmış oluruq.

Frazeologizmlərin son zamanlar forma etibarı ilə zənginliyi və dildə həddindən artıq işlədilməsi alimlərin diqqətini cəlb etmişdir. 60-cı illərdən başlayaraq daha çox və dərindən araşdırılmağa başlanıldığı üçün frazeologiya dilçilik elminin gənc sahələrindən biri hesab edilir.

Frazeologizmlərin öyrənilməsi, onların daxili və xarici strukturu, ayrı - ayrı dillərdə mövqeləri, tərcümə üsulları, ifadə olunma sahələri praktik və nəzəri cəhətdən aktual mövzulardan biri hesab edilir.

Frazeologizmlərin araşdırılması və öyrənilməsi nə qədər maraqlı olsa da, onların ana dilinə uyğun qarşılığının tapılması, doğru yerdə və zamanda işlədilməsi bir o qədər də çətin həmçinin məsuliyyətlidir.

Dilçilik ədəbiyyatında frazeologizmlər sərbəst söz birləşmələrinin quru luş modelləri əsasında formalaşır.

Sərbəst söz birləşmələri dildə uzun müddət işlənməklə məcazlaşır, tərəflər qaynayıb qovuşaraq sərbəst birləşmələrin sabit birləşmələrə çevrilməsinə səbəb olur. Sərbəst birləşmələr müstəqil mənalı sözlərin birləşməsi ilə yaranır.

Sərbəst söz birləşmələri dildə uzun müddət işlənməklə məcazlaşır, tərəflər qaynayıb qovuşaraq sərbəst birləşmələrin sabit birləşmələrə çevrilməsinə səbəb olur. Sərbəst birləşmələr müstəqil mənalı sözlərin birləşməsi ilə yaranır.

Sabit söz birləşmələrində komponentlərdən biri zəif olur və məcazi mənad a işlənir. Məsələn:

Tirar la toalla - Dəsmal atmaq -həqiqi mənada (sərbəst söz birləşməsi)

Tirar la toalla - Təngə gəlmək, bezmək (sabit söz birləşməsi)

Estar en la luna– Ayda olmaq - həqiqi mənada (sərbəst söz birləşməsi)

Estar en la luna -

ağlı beş qarış havada olmaq (sabit söz birləşməsi) və s.

Sabit söz birləşmələri cümlə üzvləri ola bildikləri halda sərbəst söz birləşmələrində komponentlər mənasına görə müstəqil olur.

Azərbaycan dilində sərbəst söz birləşmələri əsl qrammatik birləşmə kimi sintaktik təlimin əsas və vahid obyekti, sabit birləşmə isə dilin tarixi inkişafı prosesində yaranmış və dilimizdə dəyişmədən, hazır şəkildə gələn və işlənən birləşmələridir. [5, s.234] Məsələn:

Üz çevirmək (sərbəst söz birləşməsi)

Üz çevirmək - bir kəsdən uzaqlaşmaq (sabit söz birləşməsi)

Ayağından çəkmək - həqiqi mənada (sərbəst birləşmə)

Ayağından çəkmək - mane olmaq (sabit birləşmə) .

Sabit söz birləşmələrini sərbəst söz birləşmələrindən fərqləndirən sinta ktik xüsusiyyətlər qismində, ilk növbədə sabit söz birləşməsində komponentlər arasında sintaktik əlaqələrin azalması və sintaktik bölünməzliyidir.

Əslində sabit söz birləşmələrində olan sözlər arasında sintaktik əlaqələr(sərbəst söz birləşmələrində olan sözlər arasındakı əlaqələr) sərbəst söz birləşmələrində olan sözlər arasındakı əlaqələrdən heç nə ilə fəqrlənmir.

Bu sintaktik əlaqələrin zəifləməsi yox, söz birləşməsinin semantik yeniləşməsindən irəli gələn sintaktik funksiyaların dəyişməsidir. [4, s.20]

A.Axundovun göstərdiyi kimi sərbəst söz birləşməsinin tərkib hissələri müstəqil leksik mənaya malik olur, morfoloji və sintaktik cəhətdən üzvlərə ayrılır və qrammatikanın sintaksis sahəsində öyrənilir. Sabit söz birləşmələrinin tərkib hissələri müstəqil leksik mənaya malik olmur, morfoloji və sintaktik cəhətdən üzvlərə ayrıla bilmir. Belə birləşmələr frazeoloji birləşmələr və ya frazeologizmlər adlanır.[1 ,s.177]

Frazeologizmlər hər bir dildə özünə məxsus şəkildə təzahür edir. Çünki hər bir dilin öz ifadə vasitələri var. Bir frazeologizm digər bir dilə hərfi tərcümə də oluna bilər, mənasını qorumaq şərti ilə müxtəlif məcazi ifadələrlə də köçürülə bilər. Məsələn: [9], [10]

Echar un ojo - göz gəzdirmək (nəzər salmaq) (hərfi)

Hablar por los codos - dil-dil ötmək (məcazi)

Comerse la cabeza - başının ətini yemək(hərfi)

Arrimar el hombro - can qoymaq (çox işləmək)

Ser una tortuga - astagəl olmaq (hərfi tərcüməsi - tisbaga kimi yavaş olmaq) (hərfi)

Ser un zorro - bic olmaq (tülki kimi hiyləgər olmaq) (hərfi)

Estar como una vaca(inək) - donuz boyda olmaq (donuza oxsamaq - kök olmaq) (bu ifadə əslində hərfi tərcümə olunsa da, mədəniyyətlər arası fərqə göre donuz fiquru inək ilə əvəz olunmuşdur)

Ser una hormiguita - qarışqa kimi çalışqan olmaq (hərfi)

Ser una gallina (toyuq) - dovşan kimi ürkək olmaq (məcazi)

Ser unos tortolitos(göyərçin) - Qumrular kimi aşiq olmaq (məcazi)

(Sonuncu misalda dəlicəsinə sevmək ifadəsinin rəmzi həm ispan dilində, həm ingilis dilində göyərçin olmasına baxmayaraq, Azərbaycan dilində isə ədəbiyyatımızda da sıx rastlaşdığımız qumru quşları ilə ifadə olunmuşdur).

Tərcüməçinin tətqiq etdiyi dilin yalnız lügət tərkibi ilə yaxından tanış olması ideal bir nəticə ortaya çıxara bilməsi üçün kifayət deyildir. Frazeologiyanın tərkibində olan sözlər dilin mədəniyyət lüğətinin açarı hesab olunur. Elə buna görə də hər bir tərcüməçi dünyagörüşlü olmalı, tərcümə etdiyi dilin mədəniyyətini, tarixini daha dərindən bilməlidir.

Bu zaman belə bir sual ortaya çıxır, frazeologizmlər tərcüməçilər üçün hansı sahələrdə daha çox çətinliklər yaradır?

Məlum məsələdir ki, siyasi, iqtisadi, hüquqi tərcümələrdə, elmi - araşdırma işlərində, məqalələrdə sabit söz birləşmələri demək olar ki, heç istifadə olunmur. Lakin ispan danışıq dilinin istifadə olunduğu bütün yazılı və şifahi tərcümələrdə frazeoloji birləşmələrə geniş rast gəlmək mümkündür.

Bədii əsərlərin tərcüməsi hər zaman sabit olmayıb (yəni digər elmi tərcümələrdən fərqli olaraq sırf terminlərdən ibarət olmayıb) qalxan və enən tempdə olmuşdur. Burada məkan, mədəniyyət, personajların xarakterlərinin müxtəlifliyi və s. tərcüməyə təsir etdiyi üçün ifadələr hər zaman eyni mənada işlənməyə, eyni tərzdə tərcümə edilməyə bilər. Elə frazeologizmlər məhz bu tipli tərcümələrdə özünə məxsus formanı daha aydın göstərir. Şübhəsiz ki, bu yalnız ispan dili üçün deyil, hər bir dil üçün xarakterik bir xüsusiyyətdir. Onların işlənmə yerləri və onların işlənməsi konteksdən asılı olaraq dəyişir.

Frazeologizm anlayışı çox geniş olduğundan biz yalnızca onun bir sahəsini - xüsusi adlarla ifadə olunan frazeologizmlərin tərcüməsində ortaya çıxan probləmləri göstərəcəyik.

Xüsusi adlar - söz birləşməsi və ya cümlə şəklində olub, müəyyən bir obyektə istinad edərək onu individuallaşdırır. Başqa sözlə, xüsusi sözlər bir başa anlamla bağlı olur. Bu tip sabit söz birləşmələrinin hərfbəhərf tərcüməsi tələb edilmir, sadəcə ümumi mənaya nəzər yetirilir.

Xüsusi adlara - atronimlər (insan adları), toponimlər (coğrafi adlar), zoonimlər (heyvanlara verilən xüsusi adlar), teonimlər (tanrı adları) və b. aiddir.

Bu tip frazeologizmlərə daha çox bədii əsərlərin, danışıq dilinin tərcüməsi zamanı rast gəldiyimiz üçün onların etimologiyasını bilmək önəmlidir. Məsələn aşağıda verilən və ispan dilində xüsusi adarla ifadə olunmuş frazeoloji birləşmələrə nəzər salaq : [9, s.13]

1. Tumbarse a la **Bartola** (ser un vago) - tənbəl olmaq.

Bu ifadə çox məşhur bir tənbəl nağıl personajının adı ilə bağlıdır)

2. Ser más viejo que **Matusalén** (ser muy vieojo) -qoca kaftar olmaq.

Bu ifadə Bibliyadan götürülmüş və 979 il yaşamış bir personajın adı ilə bağlıdır.

3. Ser más feo que **Picio** (ser muy feo) - kifir olmaq(eybəcər olmaq).

XIX əsrdə Əndəlüzdə yaşamış çox çirkin başmaqçının adi ilə bağlıdır.

4. Tener más cuento que **Calleja** (explicarse con mentiras y fantasías) - qopa basmaq.

XIX əsr ispan uşaq ədəbiyyatının məhsuldar yazıçısı Saturnino Callejanın adı ilə bağlıdır.

5. Ser una **Celestina** (ser un casamentero) - xəbərçi olmaq. Məşhur ispan bəddi əsərinin xəbərçi qadın obrazının adı ilə bağlıdır.

6. Ser un talón de **Aquiles** (ser el punto débil) – Axilles dabanı (bir adamın ən zəif yeri, cəhəti).

Anası Axillesi ölümsüz etmək üçün onu suya salan zaman öz əli suya dəyməsin deyə onun dabanından tutur və bu onun ən zəif yeri olur. Lakin inanclara görə ölümsüz Axillesi dabanına atılan oxla öldürmüşdülər.

7. Ponerse como el **Quico** (comer mucho) - həddən artıq yemək.

Məşhur nağılın çox yeyən (qarınqulu) personajının adı ilə bağlıdır.

Bütün bu nümunələr onu göstərir ki, bu ifadələrin təcüməsini olduğu kimi, hərfi vermək onların əsl mənasını yəni etimologiyasını bilmədən etmək qeyri - mümkündür.

Bu məqalə vasitəsi ilə xüsusi adların yaranma üsullarını, işlənmə qaydasını, obrazlı şəkildə ifadə olunmasını araşdırmış və öyrənmiş olduq.

Fikrimizcə xüsusi adların tərcüməsi sadə görünməsinə baxmayaraq maraqlı semantikaya malikdirlər və bu geniş elmi yanaşma tələb edir.

Ədəbiyyat siyahısı

1. Axundov A.A, Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları, Bakı, 1979
2. Bayramov H., Azərbaycan dili frazeologiyasının əsasları, Maarif 1978
3. Filologiya məsələləri No8 . Bakı : Elm və Nəşriyyat, 2014
4. Rzayeva Ş.R. Frazeoloji birləşmələr və onların tərcümə üsulları, Bakı 2006
5. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri, Bakı 1966
6. Vəliyeva N., Azərbaycanca – İngiliscə - Rusca frazeoloji lüğət, 2 cilddə, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 2010
7. Г. Туровер, Большой Русско – Испанский Словарь, Русский язык, 2007
8. Fernando Varela, Hugo Kubarth, Diccionario fraseologico del español moderno, Gredos, 2004
9. M. Dolores Martinez e İsabel Ordeig, Las expreciones coloquiales, Primera edición, 2007
10. Maria Prieto Grande, Hablando de plata de modismos y metaforas culturales, Editorial Edinumen, 2006

İnternet linkləri :

1. https://www.docsity.com/it/modismos-y-metaforas-culturales/759957/
2. http://commonweb.unifr.ch/artsdean/pub/gestens/f/as/files/4740/25257_112256.pdf
3. http://siba-ese.unisalento.it/index.php/linguelinguaggi/article/download/14662/13479

G.Mirzeliyeva

Difficulties with phraseologism in the process of translation

Summary

In the article - “Difficulties with phraseologism in the process of translation” 2 languages with a different structure and semantics are compared. This article deals with phraseologisms belonging to two different language group in Spanish and Azerbaijani languages.The article has been devoted to the study of the phraseologisms, their internal and external structure. Translation techniques, fields of expression were discussed both practically and theoretically. In addition, the article has reflected difficulties

arising from differences in the grammar of both languages belonging different semantics. So,in Azerbaijani language word combinations being free and stable are divided into 2 parts. But in Spanish language this category is common. Expressions used both free and stable merger creates problems during translation process and it was shown in the article with different ways. Also,the article deals with the difficulties of phraseological units during translation process expressed by the special names without knowing their etymology. Beside this, in this article was shown the ways of transfering these phraseologisms into target language in order to know both languages in-depth and explore them.

Г.Мирзалиева

Трудности создающие фразеологизмы в процессе перевода

Резюме

В статье под названием «Трудности, создаваемые фразеологизмами в процессе перевода» сравниваются два разноструктурных и разносемантических языка. Речь идёт о фразеологизмах испанского и азербайджанского языков, относящихся к различным языковым группам. Данная статья посвящена изучению фразеологизмов, их внутренней и внешней структуры. Здесь способы перевода, области выражения рассматриваются с практической и теоретической точки зрения. Кроме того, в статье отражены трудности, обусловленные различиями в грамматике обоих языков с разной семантикой. Так, в азербайджанском языке фразеологизмы, будучи независимыми и стабильными, делятся на две части, а в испанском языке эта категория носит общий характер. Многочисленные трудности в переводе, создаваемые как свободными, так и устойчивыми фразеологизмами, нашли своё отражение на различных примерах.

Также в данной статье обсуждаются сложности, возникающие в процессе перевода со стороны фразеологических оборотов, выраженных именами собственными и неизвестными по этималогии.

Наряду с этим , в результате глубокого изучения и анализа обоих языков в работе указываются эффективные методы перевода фразеологических оборотов на целевой язык.

Rəyçi: Esmiralda Rəhimli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NİCAT YAQUBOV
“Naxçıvan” Universiteti
n.yaqubov@nu.edu.az

AZƏRBAYCAN DİLİNDƏ ARXAİZMLƏRİN YERİ

Açar sözlər: Azərbaycan, dil, leksika, arxaizm, ədəbi, qaynaq.
Key words: Azerbaijan, language, vocabulary, archaism, literary, source.
Ключевые слова: Азербайджан, язык, лексика, архаизм, литературный, источник.

Məqalədə Azərbaycan dilində arxaizmlərin yeri və rolu araşdırılmışdır. Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, Azərbaycan dilində arxaizmlərin işləndiyi zəngin ədəbi qaynaqlar mövcuddur. Araşdırma nəticəsində Azərbaycan dilindəki arxaizmlərin qaynaqları müəyyənləşdirilmişdir.

Azərbaycan dilinin lüğət fondunda arxaizmlərin də müəyyən bir yeri vardır. Zaman keçdikcə aktuallığını itirib passivləşən sözlər dildən tamamilə çıxmır. Belə sözlər işləkliyini itirir və zaman keçdikdən sonra unudulur. Lakin bu sözlər ədəbi dilin qaynağı olan abidələrdə, bədii əsərlərdə və yazılı dil nümunələrində qorunub qalır. Köhnələn və passivləşən sözlərin bir qismi dialektlərdə qorunur. Digər qisim arxaizmlər isə qohum dillərin lüğətində aktivliyini qoruyur. Orta əsrlər dövrü oğuz dilinin yazaılı nümunəsi olan “Kitabi-Dədə Qorqud”da “salkım-salkım dan yelləri əsdiyində” cümləsindəki “salkım-salkım” sözü arxaikləşmişdir (6) . Azərbaycan dili imkanları ilə bu sözü izah edə bilmirik. Lakin Altay, tuva və Sibir bölgəsində yaşayan türklərin dilində bu söz soyuq deməkdir. Buradan çıxış edərək “ salkın”ı sərin mənasında anlaya bilərik.

Dildə arxaikləşmə prosesi bu və ya başqa şəkildə nitq hissələrində özünü göstərir. Burada arxaikləşməyə daha çox məruz qalan nitq hissələrinin isim, sifət və fel olduğu görünür. Arxaikləşən sözlər içərisində isə əsas yeri isimlər tutlar. İstorizmlərin də əksəriyyəti isimlər və fellərdir. Digər nitq hissələrində passivləşmə az müşahidə olunur.

N.G. Yedneralova arxaizm və istorizmləri onların aid olduğu tematik qruplara ayırmağa təşəbbüs göstərmiş və aşağıdakı təsnifatı təqdim etmişdir:

1. Məişət leksikası.
2.Şəxsi-fizioloji və psixoloji leksika.
3.İctimai-siyasi leksika.
4.İqtisadi leksika.
5. Hərbi leksika.

6.Mədəniyyət, təhsil və tərbiyə leksikası.

7. Təbiət, məkan və zaman leksikası.

8.Elmi-texniki leksika. (1, 326).

Təsnifatın dəqiq olmadığını tədqiqatçı özü də qeyd edib. Çünki burada arxaik leksika eyni zamanda iki qrupa aid edilə bilir. Bu qruplar içərisində köhnəlmiş sözlərin daha çox məişət, hərbi, şəxsi-fizioloji və psixoloji leksikaya aid olduğu da qeyd edilir.

Rus tədqiqatçıları köhnəlmiş sözlərin əksəriyyətinin arxaizm olduğunu, yalnız üçdə birindən də az hissəsinin tarixizm olduğunu da diqqətə çatdırırlar.

Belə yanaşmaların içərisində köhnəlmiş sözlərin iki yerə ayrılması daha uyğun sayılır:

1. Leksik köhnəlmə. Burada sözün özü köhnəlir. Məsələn, çeşm, eyn, dide göz sözü mənasında işlənib. Bunlardan ikisi (çeşm, dide) fars, biri isə (eyn) ərəb sözüdür. Orta əsrlərdən başlayaraq bu sözlər ədəbi –bədii mətnlərəd işlənir.
2. Fonetik köhnəlmə. Burada sözün səs qabığı dəyişir, məna isə qalır. Məsələn, şəhr əvəzinə şəhər, sübh əvəzinə sabah və s.

Belə köhnəlmiş sözlərdə hansı aspektdə köhnəlmə getdiyi də önəmlidir.

3. Sözdüzəldici vasitələrdə köhnəlmə.
4. Qrammatik köhnəlmə.
5. Semantik köhnəlmə. Məsələn, 18-19-cu əsrlərdə rus dilində fransızcadan alınmış artikl sözü məqalə (statya) mənasında işlənmişdir. Hazırda bu söz rus dilində şəkilçi mənasında işlənir.

Tədqiqatlarda arxaizm və istorizmlərin təsnifatı məsələsində vahid bir mövqe yoxdur. Bu problem müasir dilçilikdə öz aktuallığını saxlayır.

D.M. Şmelev arxaizmlərin bir hissəini ekzotizm olaraq ayırır (2), O.Y.Voroniçev arxaizmlərə leksik və leksik-semantik istorizmləri əlavə edir. Y.E. Dibrova derivativ arxaizmlər arasındakı eyni köklü və müxtəlif köklü olanları fərqləndirir. Məsələn, ladon-dlan (ovuc), qolova-qlava (baş) (3). Burada eyni köhnə kökün qalması və şəkilçinin arxaikləşməsinə diqqət yönəldilir.

Dildə gedən leksik inkişaf prosesini 3 temporal köhnəlmə prosesinə ayrmaq təcrübəsinə də rast gəlirik. Bu çox populyar bir dövrləşdirmədir. Adətən ədəbiyyatı və ya ədəbi dili öyrənərkən bu təsnifatdan geniş istifadə olunur.

1. Sovet dövrünə qədər. Burada ərəb, fars sözlərininin intensiv işlənməsi ilə yanaşı əski türkcədən gələn leksikanın da önəmli yeri vardır.
2. Sovet dövrü. Bu dövrdə öncəki dövrün ictimai-siyasi leksikası kəskin şəkildə dəyişir və arxaikləşir. İctimai quruluşun dəyişməsi ictimai

həyatın bütün sahələrinə nüfuz edir və bu sahələrdə yaranan yeni sözləri daha əvvəlkiləri qeyri-funksional sahəyə sıxışdırır. Nəticə etibarilə böyük yenilənmə böyük bir köhnəlməyə yol açmış olur. Bu şəkildə siyasi, iqtisadi, mədəni leksika köhnəlir.

3. Müstəqillik dövrü. Bu dövrdə də sosializmdən kapitalizmə keçid, yeni demokratik cəmiyyət quruculuğu özü ilə bərabər yeni sözlər və anlayışlar gətirir. Bu sözlər və anlayışlar da müvafiq olaraq bir sıra sözlərin köhnəlməsinə səbəb olur.

Dilin lüğət tərkibi bütün dövrlərdə inkişafda olur. Lüğətin tərkibinin öyrənilməsi dövrlərə görə aparılarkən burada dövrün reallıqlarından irəli gələn anlayışlar diqqət mərkəzinə gətirilir. Çünki hər bir dövr özünün əsas xarakterini dilin leksikasında saxlayır.Xüsusilə, burada dövrlərin dəyişməsi çox əhəmiyyətli faktor kimi leksikaya təsir göstərir. Sözlər və anlayışlar germəklik əsasını itirməyə başlayanda onlar köhnəlir. Onların yerinə yeni sözlər daxil olur.Həm yeni yaranan və ya alınan sözlər, həm də yeni köhnələn sözlər müəyyən müddət əvvəlki mövqelərinə bağlı olaraq qalırlar. Köhnələn sözlər dili dərhal tərk etmir. Hələ xeyli müddət dildə mövcud olur. O sözləri və anlayışları bilən nəsillə birlikdə yaşamağa davam edirlər. Lakin onların gerçəklik əsası olmadığına görə passiv leksikaya çevrilirlər. Yeni sözlər, neologizmlər də dildə dərhal sabitləşmirlər. Onların da ümumişlək leksikaya daxil olması xeyli zaman tələb edir.

Z.F. Belyanskaya qeyd edir ki, müəyyən leksikanın lüğətin passiv hissəsinə keçməsi başlanğıcda doğru deyil, çünki arxaizmlər və tarixizmlər xüsusi istifadə olunan leksikadır və onların neytral leksikaya bərabər tutulması lazımdır. A. Bulaxovskiy isə passiv leksikanı dil və nitq münasibətləri kontekstində izah edir. Burada arxaizmlər, tarixizmlər, neologizmlər, dialektizmlər və bir çox alınmalar passiv leksikaya daxildir. A.A. Reformatskiy ekspressiv ifadələri də lüğətin passiv hissəsinə aid edir (3).

Tarixizmlərdən fərqli olaraq arxaizmlərin passiv leksikaya aid edilməsi mübahisəli məsələ olaraq qalır.

Bədii əsərlərdə arxaizmlər daha çox fonetik, leksik və ya sözdüzəldici formalarda işlənirlər. Semantik arxaizmlərə isə az rast gəlinir. İstorizmlər daha çox tarixi romanlarda müşahidə olunur.

Rus dilində rast gəlinən arxaizmlərə misal olaraq bunlar göstərilir: xutor (sahibkarın malikanəsinin olduğu torpaq sahəsi), maydan-bazar və ya bazar sahəsi, kuren-daxma, biryuk-yalquzaq (tək gəzən adama da aid edilə bilir) və s. (4).

Köhnəlmiş sözlərin öyrənilməsi üçün xalq yaradıcılığı nümunələri də zəngin material verir. Xüsusilə, “Oğuznamə” silsiləsinə aid olan mətnlər

dilin keçmişi ilə bağlı, lüğətin tarixi tərkibi ilə əlaqəli dolğun təsəvvür yaratmaq imkanına malikdir (7;8).

Arxaizmlər arasında beş qrup müəyyənləşdirilir: leksik, semantik, fonetik, sözyaradıcı (və ya derivativ) və qrammatik. Arxaizm və istorizmlərin fonetik və sözyaradıcı qrupları müasir oxucu tərəfindən anlaşılmır.

Arxaik sözlər aşağıdakı sahələri əhatə edir:

1. Köhnə paltar adları: qaftan, don, çarıq və s.
2. Pul vahidlərinin adları: altun, aqça, quruş, şahı, abbası və s.
3. Titul adları: kağan, xan, padşah, sultan və s.
4. Vəzifə adları: fərraş, cəllad, carçı və s.
5. Silah adları: ox, yay, qılınc, nizə, qalxan, əmud və s.
6. İnzibati adlar: qəza, qəryə, quberniya və s.

Çoxmənalı sözlərdə tarixizm həmin sözün mənalarından biri ola bilir. Məsələn, camaat sözü aşağıdakı mənalrda işlənir:

1. İsmin cəmi kimi, şoxlu insan mənasında.
2. Müəyyən bir insan kollektivi mənasında.
3. Müəyyən ortaq adət və ənənələri olan adamlar mənasında.
4. Müəyyən məzhəbə və ya təriqətə mənsub insan qrupu mənasında.

Bu mənalardan sonuncusu müasir dildə arxaikləşmişdir.

Bədii əsərlərin dilində işlənən tarixizmlər belə qruplaşdırılır:

1. Vəzifə adı bildirənlər:

a) Ali rütbə bildirənlər: atabəy, xətib, xaqan, əmirül-üməra, əmir, soltan// sultan, xan, baş, vəzir, çar, şah, Şirvanşah.

b) Sarayda aşağı xidmət rütbəsi bildirənlər: mürid, qulam, xoca, pasiban, sai, kəniz, cariyyə, carçı, nökər, qul, mirzə, fərrac, xacə, cəllad.

c) Ortabab və aşağı vəzifə adları bildirənlər: koxa, darğa, naib, kəndxuda// katta, tacir, sövdəgər, xəlifə, xəfiyyə, çərçi, çodar, canişin.

2. İnzibati bölgü bildirənlər: rübat, pənayir, bazarça.
3. Qədim hərbi terminlər.

a) Hərbi rütbə adları: süpəhsalar, minbaşı, yüzbaşı, onbaşı, sərkərdə.

b) Ordu hissələrinin adları: xacə alayı, saxlov dəstələri.

c) Silah adları: qalxan, mızraq, nizə, ox, kaman, şeşpər, yay, əmud, məncəniq//mancanaq, aynalı, berdanka, xəncər, gürz.

4. Ölçü (çəki) adı bildirənlər: ovqiyyə, misqal, tağar, batman, girvənkə, fərsəng// fərəsəx, sajen, verst.

a) Pul vahidi adı bildirənlər: pəls, axça, dirhəm, şahı, qran, tümən.

5. Geyim-bəzək əşyasını bildirənlər: arxalıq, xoftan, qurşaq, əba, niqab, kövbasan, duvaq, teyləsən, xalxan, çadra, çuxa, çalma, çarıq, cürdək, cıqqa.

6. Kənd təsərrüfatı ilə bağlı əşya adı bildirənlər: xış, vəl, cüt, şana.

7. Xalq təsərrüfatı ilə bağlı əşya adı bildirənlər: dartay, kolonka.

8. İdarə, təşkilat, müəssisə adı bildirənlər: mədrəsə, mollaxana, seminariya, gimnaziya, qazamat.

9. Dini anlayış bildirənlər: fitrə-zəkat, cadu, falçı, şeyx, dərviş, töycü, təbər, falaqqa, xətib, şəriət dərsi.

10. Ev və məişətdə işlədilən əşyaları bildirənlər: tabaq, sürahı, bayla//balya, ərusək, tuluq, xurcun, heybə, furqon, qoşqu// qopuz, şallaq (5, 61).

Qeyd edim ki, təsnifatda qüsurlu məqamlar da vardır. Belə ki, dini anlayışlar qrupuna cadu, falçı, töycü kimi sözlərin aid edilməsi doğru deyil. Bir tərəfdən bu sözlər (cadu, falçı) dini terminologiyaya daxil deyil. Hətta bunlar antidini sözlərdir. Hətta bir qədər də irəli getsək, bu sözlərin tarixizm olduğu da şübhə altına düşər. Töycü isə iqtisadi termindir və keçmiş vergi formalarından biridir. Bu tipli qüsurlar digər maddələrdə də rast gəlinir.

Tədqiqatlarda tarixizmlərin mənşə etibarilə beş əsas qaynağı göstərilir:

1. Xalis Azərbaycan (türk), eləcə də türk dilləri ailəsinə mənsub sözlər: qul, quruş, arxalıq, aynalı, batman, bayda//bayla, vəl, arşın, baqqal, beşaçılan, birər-birər, bilgi, barat, buxarı, qurşaq, qoltuqağacı, qaravaş, qəbilə, quldur, qənirsiz, duvaq, dar ağacı, dəbilqə, donluq, ərrradəçi// arabaçı, yüzbaşı, yay, yaşmaq, kölə, koxa, kərən, keşikçibaşı, gərədk, girvənkə, günü, lələk// mancanaq, mizraq, mafraş// məfrəş, minbaşı, nizə, ox, sapand, tacir, tağar, tuluq, cəllad, şallaq, xan, çuxa, çalma, codar, cürdək, cıqqa, arkadaş, altun, atabəy, cocuq, qopuz, xaqan, ağa, qalxan, nökər.

2. Ərəb mənşəli sözlər: fitrə-zəkat, bilxassə, bədəvi, bəqi, biləks, bərbət, vəzir, vəliəhd, qulam, qasid, qəza, qazı, əmr, əyan, əmud, əba, əmmamə, kəniz, küfr, mədrəsə, misqal, məmur, mürşid, əbil, niqab, naib, sürahi, saqi, təbəə, teyləsən, fərsəx, fitr (bayram), xərac, xəlifə, xütbə, xətib, hərəm, hərami, cariyə, şəriət dərsi, rəmmal, rəml.

3. Fars mənşəli sözlər: agah, atəşgah, busə, bəd, bahəm, bac, dərviş, divan, dirvam, kəndxuda//kətxuda, kəcavə, karvansara, kəmənd, meyxana, padşah, sərkərdə, təbər, fərsəng, canişin, cadu, şah.

4. Rus və Avropa mənşəli sözlər: bazarça, berdanka, verst, qaradovoy, qubernator, paravoz, polis, uyezd, imperator, pristav, kazak, imperiya, gimnaziya, seminariya, fəls//füls, çar.

5. Qarışıq mənşəli sözlər: bihuşdar, bərəks, baş vəzir, vətənşünaslıq, dərviş xirqəsi, əmir-sipəhsalar, ərusək, mollaxana, sövdəgər, tərbiyəxana, hökmdar, hərəmxana, şirvanşah (5,62).

Yuxarıdakı nümunələrdən də aydın olur ki, dildə köhnələn sözlərin bir hissəsi alınmalardır. Fars və ərəb xalqları ilə yaxın təmaslarımız, keçmişdə qurduğumuz böyük dövlətlərin dil əlvanlığı dillərimiz arasında təbii olaraq sürətli inteqrasiyaya səbəb olmuş və ortaq lüğət, ortak leksik resurslar formalaşdırmışdır. Xüsusilə, orta sərlər dövrü dilimiz ərəb və fars sözləri ilə

sıx şəkildə təmasda olmuşdur. Bu da öz izlərini həm həmin dövrün ədəbi dilində, həm də müasir dilimizə qədər gəlib çıxan lüğət fondunda saxlamışdır.

Bununla belə, Azərbaycan dili həmişə öz türkmənşəli dil əsasına bağlı olmuş və öz sözləri üzərində lüğətini genişləndirmişdir. Alınmalar zaman keçdikcə dilimizdə azalmağa başlamış, bir zamanlar obyektiv olmayan səbəblərədən dilimizdən çıxan leksik vahidlər yenidən dilə qayıdır və aktiv lüğətin tərkibində öz yerini bərpa edir. Tədqiqatımızın irəlidəki hissələrində arxaizmlərin yenidən aktivləşməsi məsələsinə də ayrıca yer verilir.

Azərbaycan dilinin lüğət tərkibində yeri olan arxaizmlər dilin keçmiş olduğu tarixi inkişaf prosesini əks etdirir. Bununla yanaşı arxaizmlər xalqın tarixi-mədəni həyatının keçmişini özündə əks etdirir. Arxaizmlər həm linqivistik, yəni dil və lüğət üçün, həm də kulturoloji, yəni mədəniyyəti öyrənmək üçün zəngin qaynaqdır.Dilimizin gələcək inkişafını daha sağlam əsaslar üzərində qurmaq üçün keçmişi köhnəlmiş sözlərlə öyrənmək , köhnəlmə və yenilənmə proseslərini milli dil məcrasına yönəltmək baxımından olduqca vacibdir.

Ədəbiyyat

1. Еднералова Н.Г. «Устаревшая лексика русского языка новейшего периода, Воронеж, 2003.
2. Шмелев Д.Н. Современный русский язык. Лексика. Москва, 1977.
3. Белянская З.Ф. Устаревшая лексика современного русского языка (историзмы): Дис. канд. филол. наук. Л., 1998.
4. Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. 4-е изд., М., 1997.
5. Cəfərova Ziyafət. Tarixi romanların dilində köhnəlmiş sözlər. Bakı, Nurlan, 2006.
6. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988.
7. Oğuznamələr (tərtibçilər və ön sözün müəllifləri: K.Vəliyev, F. Uğurlu). Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.
8. Oğuznamə. (çapa hazırlayanı S. Əlizadə). Bakı:Yazıçı, 1987.

Н. Йагубов

Место архаизмов на азербайджанском языке

Резюме

В статье рассматривается место и роль архаизмов в азербайджанском языке. В результате исследований было выявлено, что в азербайджанском языке имеются богатые литературные источни-

ки архаизмов. В указанных источниках были изучены исторические этапы развития устаревших слов и их лексико-семантические особенности.

Наряду с исследованиями проведенными учеными разных стран было уделено внимание проблеме изучения устаревших и в исследованиях Азербайджанских ученых, а так же была учтена систематизация устаревших слов.

В результате исследования были выявлены источники архаизмов в Азербайджанском языке.

Nijat Yaqubov

The place of archaisms in the azerbaijani language

Summary

The article considers the place and role of archaisms in the Azerbaijani language. As a result of the research, it was revealed that there are rich literary sources of archaisms in the Azerbaijani language.

In these sources, historical stages of the development of archaisms and their lexical and semantic features were studied.

Along with studies conducted by scientists from different countries, attention was paid to the problem of studying archaisms by Azerbaijani scientists, and the systematization of archaisms was also taken into account.

As a result of the research, sources of archaisms were revealed in the Azerbaijani language.

Rəyçi: Əbülfəz Quliyev
Filologiya üzrə elmlər doktoru, professor
AMEA-nın müxbir üzvü

AYTƏN HÜSEYNOVA
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
aytan@mail.ru

DİGƏR DİLLƏRDƏN İNGİLİS DİLİNƏ SÖZLƏRİN KEÇMƏ PROSESİ

Açar sözlər: duyğu, düşüncə, dil, alınma sözlər, söz xəzinəsi, vasitəsilə, paylaşmaq, səpələnmək
Key words: sense, thought, a language, loanwords, word treasure, by means of, to be shared, to pepper
Ключевые слова: чувство, размышление, язык, заимствование, словарная база, по средством, делится, сыпать

İnsanların duyğu və düşüncələrinin kəlmələrlə anlaşmasına dil deyilir. Dil insanlar arasında qarşılıqlı duyğu, düşüncə və istəklərinin səsli paylaşmasıdır. Dünyada mövcud olan dilləri, sözlərin oxşarlığına, onların mənalarının yaxınlığına, qohumluğuna görə dil ailələri qruplarına bölürlər: Hind – Avropa, Hami – Sami, Fin – Uyğur, Ural və Altay dilləri ailələri. Hər bir dil istifadə olduğu yerdən asılı olaraq, söz xəzinəsinə görə, danışıldığı məkana uyğun, yaşayıb – yaşamadığına əsasən aşağıdakı siniflərə bölünə bilər: danışıq dili, yazı dili, xalq dili (bura şivə və dialektləri daxil etmək olar) elm dili, ədəbi dil, mədəniyyət dili, rəsmi dil, canlı və ya ölü dil.

Dünyada təxminən 7000 - dən çox dil mövcuddur. Bunlardan 230 dil Avropanın, 2197 müxtəlif dil isə Asiyanın payına düşür. Ən maraqlısı və ən müxtəlif dillərdə danışanı Papua Yeni Qvineyadır, burada 832 müxtəlif dillərdə 4milyon insan danışır ki, bu da təxminən 4000 insana bir dilin düşdüyü deməkdir. Dil,danışanların ünsiyyət yaratdığı bir sistemdir. O, düşüncəylə, fəlsəfə isə dillə bağlıdır. Fəlsəfə təfəkkürün, duyğuların, fikirlərin ən böyük vasitəsi olan dillə əlaqədardır. Ta qədim zamanlardan bilim adamlari, filiosoflar ayrı – ayrı dövrlərdə dil haqqında müxtəlif fəlsəfi fikirlər söyləmişlər.Öz dilini tam olaraq bilməyən, başqa dilləri də bilməz. (Bernard Şou) Səsini deyil, sözünü ucalt. Yarpaqları böyüdən yağışlardır, göy gurultuları deyil. (Mevlana) Dilimin hüdudları, dünyanın hüdudlarını bəlli edər. (Ludwig Wittgenstein) Səssizlik tanrının dilidir, qalan hər şey pis tərcümədir. (Mevlana) Dünya dilləri içərisində daha çox danışılan dillərdən biri də ingilis dilidir. Beynəlxalq dil statusunu qzanmış ingilis dili siyasi danışıqlar və biznes dilinə çevirilib. Əsas elmi tədqiqatlar da ingilis dilində aparılır. ABŞ və Birləşmiş Krallıq başda olmaqla dünyanın 75 – dən çox ölkəsinin dili ingilis dilidir. İngilis dilinin tarixi köklərinin 5 min il bundan əvvələ təsadüf etdiyi söylənir. Tədqiqatçı alimlər dilin tarixini 3 dövrə bölürlər:

1. Qədim ingilis dili – Old English (450 - 1066)
2. Orta ingilis dili – Middle English (1066 - 1500)
3. Müasir ingilis dili – Modern English (1500 – cü ildən bəri)

Müasir ingilis dili özü 2 dövrə bölünür:

- Erkən müasir ingilis dili – Early modern English
- Çağdaş ingilis dili – Contemporary English

İngilis dili bir neçə yüz il bundan əvvəl Britaniya adalarının istilası zamanı yaranmışdır. Ingilis kanalından (La Manş boğazı) keçən german tayfalarının bir üzvü olan anqllar Britaniya adalarında məskunlaşdı. Sonra bura iki tayfanın üzvləri saksonlar və yutlar keçdilər. Bu tayfaların, saksonlar, anqllar və yutların qarışıq danışdığı dil sayəsində anqlosakson yaxud qədim ingilis dili yaranmağa başladı. Qədim ingilis dilinə (anqlosakson) xas olan bir neçə yazı nümunələrinin içərisində dövrümüzə gəlib çatan "Beovulf" dastanıdır. Britaniyanın növbəti istilası Danimarka və Norveçdən gəlmiş vikinqlər tərəfindən olmuşdur. Sonralar burada məskunlaşmış vikinqlərdən qalmış bugünkü ingilis dilində mövcud olan bir sıra sözlər var, məsələn, sky, leg, egg, crawl, lift, take və sair kimi sözlər qədim Avropalıların dillərindən gəlmişdir. 1066-cı ildə Britaniyanın növbəti işğalı – Norman istilası başlayır və öz dilləri hakim kəsilir. Bu baxımdan fransız dilində danışan əhali bir neçə yüz illər bu dili daşımağa məcbur olmuşlar. Qədim ingilis dilinə fransız dilindən keçən sözlər hələ də mövcuddur, məsələn, damage, marriage, prison, jury, parliament, justice və s. kimi sözlər fransız dilindən keçmişdir.` XIV əsr orta ingilis dilinin yarandığı dövrdür. Bu dövrdə ingilis dilində ilk dəfə yazan ingilis dilinin banisi (atası) hesab edilən Ceffri Çoserdir. Digər dillərdən ingilis dilinə keçən sözlər alınma sözlər adlanır. Alınma sözlər hər hansı bir dildə danışan tərəfindən müxtəlif dillərdən (ayrı-ayrı mənbələrdən) qəbul edilən sözlərdir. Bu sözlər ingilis dilində "loanwords" yaxud "borrowings" adlanır. Uzaq Avstraliya aborgenlərindən tutmuş əli çəlikli fransız baronlarına kimi danışılan Avropa dillərindəki söz və ifadələr ingilis dilinə qarışaraq bu dilin sərhədlərini hüdudsuz etmişdir. Alman, fransız, italyan, latın, ispan, türk, yunan və s. dillərdən həmin xalqların şivə və dialektlərindən külli miqdarda sözlər, söz birləşmələri və ifadələr, deyimlər, atalar sözləri və s. ingilis dilinə keçərək bu dili zəngin bir dilə çevirmişdir. Bunun nəticəsidir ki, çağdaş ingilis dilinin 70%- dən çoxu başqa dillərdən keçən sözlərdir. Bunun səbəbi müxtəlif dövrlərdə həmin dövrün xüsusiyyətlərini təcəssüm etdirən sözlər elmin inkişaf etdiyini, texnikanın "raket" sürəti ilə dəyişdiyini ifadə edən kəlmələr, elmi konfranslar, simpoziumlarda və s. istifadə olunan danışıq sözləridir. Deməli, ingilis dili öz orijinal sözləri hesabına deyil, bütün dünya xalqlarının dillərindən ərmağan olmuş söz və söz birləşmələri, idiomlar, frazalar sayəsində bu qədər rəngarəng olmuşdur. Alınma sözlər ("loanwords") mücərrəd ismi danışanların sözləri orijinal dillərindən doğma dillərinə qəbul etmə prosesinə aiddir. "loan" və

"borrowing" sözləri metaforadır, çünki burada heç bir sözbəzöz "borcvermə" prosesi yoxdur. Söz bir dildən digərinə transfer edilmir heç bir söz öz doğma dilinə geri qaytarılmır. Onlar sadəcə keçdiyi dildə ünsiyyət əlaqəsi yaratmağa xidmət edir. Məsələn, e.ə. ilk əsrlərdə alman qəbilələri latın dilindən külli miqdarda sözlər qəbul etmişdir. Alman dilindən isə çox az miqdarda söz latın dilinə keçmişdir. Aşağıda müxtəlif səbəblərdən, ayrı-ayrı zamanlarda ingilis dilinə keçən sözlərin müəyyən bir hissəsini sizinlə paylaşırıq. Hər hansı bir dildən alınmış sözlər öz formalarını (orijinallığını) həmin dillərdə olduğu kimi saxlayarsa belə sözlər "əcnəbi sözlər", "foreign words" adlandırıla bilər. İngilis dilində çoxlu miqdarda bu cür söz və ifadələr, frazalar, belə ki, " bon vivant" (fransız dilindən), "mutatis mutandis" (latın dilindən) və "schadenfreude" (alman dilindən) işlədilir. İngilis dilinin german dövrü hesab edilən dövründə alınmış sözlər latın və yunan dillərindən keçən sözlərdir. Bunlara aşağıdakıları misal göstərmək olar. Bu sözlər latın dilində yazılmış mətn və yazılardan götürülmüş və bu günə qədər qorunub saxlanmış bu sözlər əslən yunan dilindən götürülmüşdür. Həmin sözlərin oxşar formalarına qədim german dillərində rast gəlinir, məsələn,

Latın		
Ancor	–	anchor
cycene	–	kitchen
Butere	–	butter
circle	–	church
Cealc	–	chalk
disc	–	dish
Ceas	–	cheese
weall	–	wall
Cetel	–	kettle
win	–	wine

Qədim ingilis dili dövründə latın dilindən keçənlər:
Apostal – apostle
Ceaster – city
Cometa –comet
Paper –paper
Martir –martyr

Kelt dilindən keçənlər:
Brocc – badger
Cumb – combe, valley

Kelt dilindən ingilis dilinə sözlər az miqdarda keçmişdir, lakin minlərlə yer və çay adlarına rast gəlinir: London, Carlisle, Devon, Dover, Cornwall, Thames, Avon, ... və s. Aşağıdakı sözlərin çoxu orta ingilis dili dövründə yazılı ədəbiyyatda peyda olmuşdur. Bunlara misal olaraq anger, blight, by-law, cake, call, clumsy, fellow, get, give, kill, kindle, skin, sky, score, thrust, want, ugly, take, they, them, window, wing və s. kimi sözləri göstərmək olar. Türk dilindən də ingilis dilinə sözlər keçmişdir. Həmin sözlərin bəziləri orijinallıq baxımdan ərəb və fars mənşəli olsalar da, ingilis dilinin lüğət fonduna türk kəlmələri kimi daxil olmuşdur.

Coffee – kahve	Balkan –Balkan
Sherbet –şərbət	Yuruk –yörük – köçmenler
Airan –ayran	Yoghurt –yoğurt
Horde –ordu	Khan – han - xan

Lackey – ulak
Moussaka –musakka (badımcanlı xörək)
Kiosk –köşk(villa mənasında)
Pasha –paşa
Perish –perişan
Turquoise –turkuvaz (muncuq daşlar)
Dolma –dolma
Kebab –kabab
Shawarma –şaurma – çevirmə (tonqalda bişirilən quzu)
Caravansaray –Karvansaray
Effendi – əfəndi
Carakul –karakul (cins qoyun)
Giaour –gavur- kafir
Chiaus –çavuş
Shish –şiş
Kismet –qismət
Caracal–karakulak(Afrika vaşaqı)
Doner–dönər

Azərbaycan dilindən bəzi ingilis dilində sözlər olduğu kimi işlənir, belə ki, pakhlava, shekerbura, dolma, chukha, arkhaliq, araqchin, bashmaq, pilaff, semeni və s. Deməli, alınma sözlər sözün hər hansı bir dildən ya qismən tərcümə, ya da tərcüməsiz birbaşa işlənməsidir. Belə xarici sözlər və ifadələr dünyanın hər yerindən ingilis dilinə süzülüb gəlmişdir.

Ədəbiyyat

1. Zeydulla Ağayev "İngilis ədəbiyyatı antologiyası", Şərq-Qərb nəşriyyatı, Bakı 2007.
2. Q.V.Anikin, N.P. Mixalskaya " İngilis ədəbiyyat tarixi", Moskva1995, təkrar nəşr 2005
3. İlyish B.A. İngilis dilinin tarixi.
4. Brook G.İ. History of the English Language. London 1958.
5. Smirnitski A.İ. İngilis dilinin tarixi (orta və yeni dövr). M. MDU. 1965.
6. https: // www.altaleang.com/ beyond – words/
7. www.conquerenglish. com/ english

A.Housseynova

The process of borrowing words from other languages into English

Summary

A loanword is a word used directly from another language with little or no translation. Such foreign words and phrases are peppered throught the English language. Loanwords are words adopted by the speakers of one language from a different language (the source language). A loanword can also be called a borrowing. The abstract noun borrowing refers to the process of speakers adopting words from a source language into their native language. There is no transfer from one language to another and no

"returning" words to the source language. The words simply come to be used by a speech community that speaks a different language from the one these words originated in. The actual process of borrowing is complex and involves many usage events. Generally, some speakers of the borrowing language know the source language too, or at least enough of it to utilize the relevant word. They adopt the new word when speaking the borrowing language, because it most exactly fits the idea they are trying to express. If they are bilingual in the source language, which is often the case, they might pronounce the words the same or similar to the way they are pronounced in the source language. For example, English speakers adopted the word *garage* from French, at first with a pronunciation nearer to the French pronunciation than is now usually found. When most speakers do not know the word and if they hear it think it is from another language, the word can be called a foreign word. There are many foreign words and phrases used in English such as *bon vivant* (French), *mutatis mutandis* (Latin), and *Fahrvergnuegen* (German).

A. Гусейновой

Процесс перехода заимствованных слов в английский язык
Резюме

Образование национального английского языка, в основном, завершилось в так называемый ранненовоанглийский период – приблизительно до середины XVII века. За это время национальный английский язык, в общем то и приобрел свой современный характер. Лексика обогатилась огромным количеством слов, заимствованных из латыни, в которых отразилось развитие научной мысли в эпоху Возрождения. Вместе с тем и старые заимствования из французкого (латинского происхождения) во многих случаях подвергались латинизации в эту эпоху. Бурное развитие торгово – экономических и культурных связей с различными странами на протяжении новоанглийского периода и, в частности, английская колонизация заокеанских земель в XVIII – XIXвеках ввели в английский язык большее или меньшее количество слов из самых разнообразных языков мира. В английском языке много слов греческого, латинского, и французкого происхождения, хотя и читаются по правилам английского языка.

Rəyçi: Minəvvər Məmmədova
Filologiya üzrə elmlər doktoru

ŞƏBNƏM MİRQƏDİROVA
Bakı Dövlət Universiteti,
Shebnemmirqedirova@gmail.com

YAPON DİLİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: əlifba, heroqlif, alınma sözlər, leksika
Ключевые слова: алфавит, иероглический, взаимствованные слова, лексика
Key words: alphabet, hieroglyphic, loanwords, lexica

Yapon dili Yaponiyanın rəsmi dövlət dili hesab olunur. Bu dildə təxminən 140 milyon insan danışır. Yapon dili aqlutinativ dillər qrupuna aid edilir.. O, danışıq formalarının spesifikliyi, leksik quruluşuna görə digər dillərdən əsaslı şəkildə fərqlənir. Yapon dili ilk dövrlərdə bəsit danışıq dili olmuşdur . V əsrdə Çindən " kanji" yazısının keçməsi ilə yapon yazısı yaranmağa başlamışdır. Bu da ədəbiyyatın inkişafına təkan vermişdir. Hal-hazırda da ümumi yapon sözlərinin 60%-ni Çin dilindən alınma sözlər təşkil edir. Müasir dövrdə yapon dilinin fonetikası, leksikası dəyişikliklərə məruz qalsa da, sintaksisi sabit qalmışdır. Yapon dilinin leksikası etimoloji cəhətdən 3 yerə bölünür: vaqo, kanqo və qairaiqo. Təklənmə siyasəti dövründə yapon dilinin lüğət tərkibi nisbətən sabit qalsa da Meyci inqilabından sonra dünyaya inteqrasiya etdikcə lüğət tərkibi də zənginləşmişdir. Bir qayda olaraq, xarici mənşəli sözlər "katakana" əlifbası ilə yazılır. Bəzən sözün ifadə gücünün artırılması məqsədilə yapon dilində qarşılığı olan bəzi sözlər də katakana əlifbası ilə yazılır.

Xarici mənşəli sözlər daha çox yapon gəncləri tərəfindən istifadə olunur, yaşlı nəsil əsl yapon sözləri ilə danışmağı üstün tutur. Bəzən yapon gəncləri yapon dilində qarşılığı olan sözləri də başqa dildə deyirlər, bu onlar arasında dəb halını almışdır. Məsələn: yapon dilində qarşılığı olan つま (tsuma-həyat yoldaşı) sözü ingilis dilindən keçmə ワイフ(vaifu) sözü ilə əvəz olunur.

Bütün bu cəhətlər yapon dilinin öyrənilməsini daha da çətinləşdirir. Lakin, belə qənaətə gəlmə olar ki, dünya xalqlarının içərisində öz unikallığı ilə seçilən xalqın özünə uyğun spesifik bir dili olması da normal haldır.

Yapon dili leksik cəhətdən çox zəngindir. Yapon dilində müxtəlif məna çalarları ifadə edən sinonimlər var. Halbuki bu sinonimlər ingilis və rus dillərində eyni sözlə ifadə olunur. Bunun bir sıra səbəbləri vardır: 1) yaponların yaşadığı coğrafi və mədəni şərait. Məsələn: düyü bitki kimi- いね (ine); düyü toxum kimi- こめ(kome); bişirilmiş düyü- めし(meşi). Aydındır ki, bu da düyünün yaponlar üçün çox önəmli olduğu ilə bağlıdır.

İkincisi, yaponların təfəkkürü avropalıların təfəkkürü ilə müqayisədə daha praktikdir. Yaponlar ənənələrə bağlı xalq olduqları üçün onların dilində də arxaiklik nəzərə çarpır. Bu münasibətdə onlar bir çox Şərq xalqlarına, əsasən də Misirlilərə çox bənzəyirlər. Hər iki xalqın dilində tarixi sözlər nəzərə çarpacaq dərəcədə çoxdur.

Nəhayət, üçüncü səbəbi xaricdən gələn sözlər hesabına inkişaf tarixi boyu aktiv şəkildə yenilənən lüğət tərkibidir. Yapon dilindəki xarici mənşəli sözlərin miqdarı siyasi təklənmə siyasətindən sonra əsaslı şəkildə artmışdır. Çünki, siyasi təklənmə dövründə yapon dili yalnız Çin və portuqal sözlərinin hesabına yenilənirdi. Hal-hazırda hətta yapon dilində olan sözlər də özünün xarici mənşəli qarşılığı ilə işlənir. Buna baxmayaraq həmin sözlər xarici qarşılığı ilə əvəzlənmir və əhatə dairəsinə, məna çalarına görə fərqlənir.

Yapon dilinin leksikası 3 yerə bölünür:

わご (vaqo)- Dildə əvvəlcədən mövcud olan əsl yapon sözləri. Onlar heroqliflərin "kun" oxunuşuna uyğun gəlir.

かんご(kanqo)- Çin sözləri. Bu sözlər Çin heroqlifləri ilə yazılır və "on" oxunuşu ilə oxunur. Kanqolar daha çox mücərrəd mənalı sözlər və elmi terminlər olur. Kanqolarla müşayət olunan nitq daha quru, rəsmi və elmi hesab olunur.

がいらいご(qairaiqo)- xaricdən alınan sözlər. Bu sözlər yapon dilinə alman, ingilis, rus, holland, portuqal, fransız və s. dillərdən keçir. Qairaiqolar katakana ilə yazılır. Hal-hazırda yapon dilində qairaiqoların istifadəsi dəbdədir və çox yayılmışdır. Həmçinin onlara elmi, texniki mətnlərdə də rast gəlinir.

Yapon dilində sözləri azərbaycan dilindəki kimi leksik quruluşuna görə də qruplaşdırmaq olar. Yəni sadə(bir kökdən ibarət), düzəltmə(kök və affiksdən ibarət sözlər) və mürəkkəb(iki və daha çox sadə sözdən birləşməsindən yaranan) sözlər.

Vaqo - Yamatokotoba kimi də adlanan əsl yapon sözləridir.[3] Yamatokotoba adı özü də əsl yapon sözləri olan Yamato və kotoba (söz) sözlərindən əmələ gəlmişdir. Lakin müasir dövrdə yamatokotoba yox, vaqo terminindən daha çox istifadə olunur. Bu sözdəki va(和) Yaponiya, go(語) isə dil deməkdir. Çin dilindən keçmə bütün ifadələrdə va(和) Yaponiyaya məxsusluğu bildirir. Məsələn: Vafuku - yapon paltarı, vashoku- yapon yeməyi və s. Vaqo yapon dili leksikasının əsas hissəsini təşkil edir. Onlar əhatə dairəsi və işlənməsinə görə kanqo və qairaiqodan seçilir və istisnasız olaraq bütün stil və janrlarda istifadə olunur. Lakin vaqonun danışıqda istifadə səviyyəsi daha yüksəkdir .Katakanadan əlifbasından vaqoların yazılışında istifadə olunmur. Bildiyimiz kimi katakanadan daha çox alınma sözlərin, yəni qairaiqoların yazılışında istifadə olunur.

Vaqo əsasən quruluşuna görə 3 cür olur: sadə vaqolar, düzəltmə vaqolar və mürəkkəb vaqolar.

Sadə vaqolar (単純和語-tancun vaqo) - bir kökdən yaranan sözlərdir və tək heroqliflə yazılıb "kun" oxunuşu ilə oxunur. Sadə vaqolar əsasən isim və əvəzlik olub, istifadə zamanı dəyişmirlər. Vaqo köklü isimlər əsasən sadə konkret anlayışlar, təbiət hadisələrini ətraf mühit obyektlərini və s. ifadə edir. Yəni, vaqo daha çox konkret və təməl anlayışların ifadəsini təmin edir (Syntax, Grammar and Language by Michiel "Pomax" Kamermans. London-2005). Məsələn: 山(yama)-dağ, 木(ki)- ağac, 川(kava)- çay, 空(sora)- səma, 人(hito)- insan, 私(vataşi)- mən, 雨(ame)- yağış, 春(haru)- yaz, 金(kane)- pul və s.

Düzəltmə vaqolar(派生和語-hasei vaqo)- kök və şəkilçidən ibarət sözlərdir[4]. Düzəltmə vaqoların aşağıdakı növləri var:

1. さ və み şəkilçilərinin köməyi ilə predikativ və nisbi sifətlərdən yaranan isimlər:

高さ(takasa)- hündürlük, 深み(fukami)- dərinlik, 静かさ(şizukasa)- sakitlik

Bu sözlər əsasən okuriqana ilə yazılır.

1. Heroqlif və heroqlif-saylarla yazılan, つ(tsu) şəkilçisi ilə düzələn saylar:

一つ(hitotsu) - bir, tək

1. heroqlif köklü və dəyişən sonluqlu fellər, nisbi sifətlər:

暑かった(atsukatta) - isti idi, 静かな(şizukana)- sakit, 動いて(hataraite)- işləyib.

1. Vaqolara həmçinin kök və şəkilçidən ibarət zərflər də aiddir:

特に(tokuni)- xüsusilə, あまりに(amarini) - həddən artıq, まつたく(mattaku)- tamamilə və s.

Mürəkkəb vaqolar(複合和語-fukugo vaqo) - kun oxunuşu ilə oxunan iki və daha artıq sadə sözdən yaranır. Bu qrup sözlər azərbaycan dilindəki mürəkkəb sözlərlə oxşardır. Bəzi dərsliklərdə bu vaqolar mürəkkəb köklü yox, kökü mürəkkəb vaqo kimi adlandırılır. Mürəkkəb vaqolara nəzər yetirək:

山桜 (yamazakura)- dağ sakurası, 川口(kavaquçi)- dar çaylar.

咲き始める(sakihacimeru)- çiçəklənməyə başlamaq

見付ける(mitsukeru)- tapmaq
思い出す(omoidasu)- xatırlamaq
飛び込む (tobikomu)- uçmaq

Kanqo- Çin dilindən alınma sözlərdir. Kanqonun yapon leksikasında rolu çox böyükdür. Hal-hazırda da yapon dilinin terminologiyasında kanqolardan geniş istifadə olunur. Çinin inkişaf etmiş mədəniyyətinin Vyetnam, Koreya, Yapon mədəniyyətinə əvəzsiz təsiri olmuşdur. Bəzən bu təsiri tarixçilər Yunanıstanın Avropa mədəniyyətinə təsirinə bənzədirlər. İlk əlaqələr zamanı yapon dili sadəcə danışıq dili, Çin dili isə ədəbi, dini, təhsil dili hesab olunurdu. Çin dilindən ədəbiyyatda, həmçinin elmin bütün sahələrində geniş istifadə olunurdu. Hətta həmin dövrdə Çin dili və ədəbiyyatını bilmək aristokratiya nümayəndələrinin borcu idi. Kanqolar "on" oxunuşu ilə- yəni səsə uyğun oxunuşla oxunur. Kanqolar da quruluşca sadə, düzəltmə və mürəkkəb olur.

Sadə kanqolar(単純漢語- tancun kanqo)- bu kanqolar bir heroqliflə yazılır və bir qayda olaraq isim olur. Məsələn:
金(kin)- qızıl
門 (mon)- darvaza

Eyni heroqliflə yazılsa da, bəzi sadə kanqoların başqa "on" və "kun" oxunuşu fərqli olub, müxtəlif mənalar ifadə edir. Məsələn: 金(kin)- qızıl, 金 (kane)- pul.

Düzəltmə kanqolar(派生漢語 hasei kanqo)- Bu kanqolar suffiks və prefikslərin köməyi ilə düzəldilir. Məsələn:

- Zaman bildirən prefikslərin köməyi ilə:

每(mai)- hər. Məsələn: 每晚(maiban) hər axşam, 每日(mainiçi) hər gün, 每朝 (maiasa) hər səhər. Həmçinin "on" və "kun" oxunuşu ilə oxunan sinonimlər: 每年 (maitoşi və ya mainen) hər il; 每月 (maigetsu və ya maitsuki) hər ay;

1. İnkar bildirən presfikslərin köməyi ilə:

a. 無(mu)- sız, siz, suz, süz
b. 非(hi)- heç
c. 不(fu)- qeyri. Məsələn: 不安定(fuantei) və s.
d.

Mürəkkəb kanqolar(複合漢語- fukuqo kanqo) - bu kanqolar "on" oxunuşu ilə oxunan bir neçə heroqlifin birləşməsindən əmələ gəlmişdir. Bu kanqolar mürəkkəbköklü kanqolar da adlanır. Özlüyündə kanqolar Çindən alındığına görə öz məna və formalarını saxlayırlar. Lakin, "suru" köməkçi

feli, “na” və “no” sifət suffiksləri artırıldıqda onlar dəyişir, sifət və yaxud zərf olurlar. Mürəkkəb kanqolar bərabər hüquqlu və qeyri bərabər hüquqlu komponentlərin birləşməsindən yaranır və onların bir neçə tipləri vardır.

Yapon dilində kiyafət qədər xaricdən gələn söz vardır. Bu sözlər daha çox ingilis dilindən gəlmədir. Bu sözlər katakana əlifbası ilə yazılır. Qairaiqolar yapon dilinə uyğunlaşdırılır. Buna görə də bir sıra dəyişikliklərə məruz qalır. Qairaiqolar yapon dilinə Meyci inqilabından sonrakı dövrdə keçmişdir. Bir çox qairaiqolar öz ilkin mənasını saxlasa da bəziləri mənasını dəyişmişdir. Həmçinin yapon dilində bir neçə xarici sözün birləşməsi ilə yaranan qairaiqolar da vardır. Bu da onu göstərir ki, yapon dilinə sözlər kor-koranə köçürmə yolu ilə keçmir, onlar yapon dili və yapon mədəniyyətinə uyğun dəyişdirilir. Qairaiqoların hiraqana ilə, “suru” köməkçi feli ilə, heroqlif ilə, “na” sifət suffiksi ilə bunun bariz sübutudur. Məsələn:

アメリカ人(amerikacin)- Amerikalı

コピー機(kopi:ki)- sürət maşını

Belə qarışıq qairaiqolardan başqa, iki qairaiqonun birləşməsindən yarananlar da vardır. Belə qairaiqolar «・» nakaquro orta nöqtəsi ilə ayrılır. Məsələn:

カラオケ・バー(karaoki ・ba:)- karaoke bar

Qairaiqoların yaranma tarixinə nəzər salsaq görərik ki, ilk qairaiqolar holland və portuqal dillərindən alınmışdır. Bunun səbəbi isə Yaponiyada uzun illər hökm sürən təklənmə siyasəti olmuşdur. Təklənmə siyasəti zamanı yalnız Portuqaliya və Hollandiyadan olan nümayəndələr Yaponiyaya daxil ola bilərdi. Bu dillərdən keçmə qairaiqolar əsasən əvvəllər Yaponiyada olmayan əşyaları bildirən sözlərdir.

Məsələn: パン(pan) -çörək, コーヒー(kohi)- kofe, ガラス(qarasu)- şüşə, タバコ(tabako)- siqaret və s. Bu sözlərin yapon dilində qarşılığı yoxdur. Bu sözlər ifadə etdiyi mənaya və ya ona uyğun səsə uyğun heroqliflə yazıla bilər, lakin bu yazılış köhnəlmiş hesab olunur.

Qairaiqoların yapon dilində transkripsiyası fərqlənir. Çünki yapon dilində fonetik vahid hecadır, Avropa dillərində isə bu fonetik vahid səsdir. Yapon dilinə dəyişdirilmiş ingilis sözlərini bəzən hətta ingilislər də başa düşməkdə çətinliklər çəkir.

Bu da onu sübut edir ki, qairaiqoları başa düşmək üçün ingilis dil biliyi kifayət etmir. Xarici sözlərin yapon dilinə uyğunlaşdırılması zamanı müəyyən qanunauyğunluqlar gözlənilir.

Ədəbiyyat

- http://tr.wikipedia.org/wiki/Japonca

Minna no Nihongo, Tokyo, 2006.

- Kanji Look and Learn, Japan, 2009.
- www.nihongo.aikidoka.ru
- www.animemo.ru
- www.guidetojapanese.com

Ш.Миргадирова

Лексические особенности японского языка

Резюме

В статье речь идет об одном из самых интересных языков на Дальнем Востоке - японском, системе его письма и лексических особенностях.

В ней освещаются присущие языку разные системы письма - от легких до сложеных. Большое место в статье удалено источникам происхождения взаимство - важных слов. Особенно таких, как ваго, канго, гайрайго. Ваго - исконно японские слова; канго - взаимствованны из Китайского; гайрайго - же из голландского и португальского языков. Гайрайго, не смотря на всю его сложенность, имееть большое преимущество в языке страны и иметь место также большой интерес к его изучению. Именно это, является положительным фактором роста японских языковедов и распространения научных работ на эту тему. В статье отмечается также некоторое схожесть японского и азербайджанского языков.

Данная статья может быть полезной для студентов и научных семинаров.

S.H.Mirqadirova

Lexical features of Japanese language

Summary

Writing system and lexical features of Japanese language, which is considered as one of the interesting languages of the Far East, have been discussed in the article. Uniqueness of Japanese language, variety of writing systems, complex and easy sides have been described in this article. In

article written a lot about loanwords. Japanese language has loanwords like vago, kango and gairaigo. Original Japanese words are called vago, words adopted from Chinese language are called kango. Donor languages of gairaigo words are Dutch and Portuguese. Although it is a difficult language, Japan`s unique positive features create desire to closely learn country`s language. Namely this positive side causes increase of linguists making researches on Japanese language and spread of several scientific works. Similar sides of Japanes and Azerbaijani languages can be seen in the article.

The article may be effective in organization of special course and scientific seminars in philology faculites of universities.

Rəyçi: Oqtay Cəlilbəyli
Filologiya üzrə elmlər doktoru, professor

İRADƏ HÜSEYNOVA
Kooperasiya Universiteti
huseynzade.h@mail.ru

ƏHMƏD HƏMDİ TANPINARIN DİLİNDƏKI FRAZEOLOJİ VAHIDLƏRİN LİNQVOKULTUROLOJİ SƏCİYYƏSİ

Açar sözlər: Əhməd Həmdi Tanpınar, frazeologiya, linqvokulturologiya, mədəni konnotasiya, semantik təhlil.
Key words: Ahmet Hamdi Tanchinar, phraseology, linguoculturology, cultural connotation, semantic analysis.
Ключевые слова: Ахмет Хамди Танпинар, фразеология, лингвокультурология, культурная коннотация, семантический анализ.

Frazeoloji vahidlərin semantikasında daşlaşmış milli-mədəni məlumatlar bütövlükdə xalqın mədəni xüsusiyyətləri, həyat tərzi, dünyaya baxışı və düşüncəsi ilə bağlı incə məqamların araşdırılması üçün zəngin material verən mənbə kimi çıxış edir. Xalqın milli təfəkkürünün əks olunduğu bu ifadələr alınma elementlərin aşkarlanması, müxtəlif dillərdə eyni anlayışların ifadəsi ilə bağlı fərqli düşüncə və ifadə tərzinin mövcudluğunu aşkarlamaq, hətta müştərək adət-ənənəyə malik qohum xalqların dilində belə bir çox fərqli amillərin – ekstralinqvistik göstəricilərin təsirindən qaynaqlanan müxtəliflik özünü göstərir. Bu əlamətlərin tədqiqi, aşkarlanması və təhlili qohum dillərin inkişaf istiqamətləri, uyğun və fərqli meyillərin aşkarlanması da maraqlı faktların müəyyənləşməsi baxımından əhəmiyyətli və aktualdır – frazeoloji vahidlər məxsus olduğu linqvokulturoloji cəmiyyətin etnomədəni xüsusiyytlərini əks etdirdiyindən mühüm mədəni informasiya daşıyıcısı hesab olunur. Müasir dilçilikdə dil hadisələrinə linqvokulturoloji baxımdan yanaşma geniş vüsət almışdır. Bu tədqiqatlarda dil "milli təfəkkürün ifadəçisi kimi" (1, s. 8), millətin özünəməxsus kodu kimi təqdim olunur. İnsanı əhatə edən aləm milli və etnik xüsusiyyətlərdən asılı olaraq fərqli şəkildə "qəbul olunaraq" dərk olunduğundan eyni hadisə və anlayışlar müxtəlif dillərdə fərqli şəkildə ifadə olunur. Bu isə linqvokulturoloji amillə bağlıdır. V.A. Maslova qeyd edir ki, linqvokulturologiya dili mədəniyyət fenomeni kimi öyrənir: "Bu, dilin xüsusi milli təfəkkürün ifadə vasitəsi kimi çıxış etdiyi məqamda dünyanın milli dil prizmasından görünüşüdür" (1, s. 8).

Frazeologizmlərin obrazlılığa malik təbiətini nəzərə alaraq söyləmək olar ki, bu vahidlər dil daşıyıcılarının həyat təcrübəsi və ənənələrini inikas etdirdiyindən onların dünyaya baxış tərzini özündə daha ətraflı və dəqiq şəkildə əks etdirir. Frazeologizmlər linqvokulturologiyanın ən "parlaq" ifadəçiləridir. Frazeologizmlər "xalqın mədəni ənənələrinin yaşadığı tarixi,

məişət və mənəvi təcrübəsi əsasında gerçəklik haqqında obrazlı təsəvvürləri nəticəsində meydana gəldiyindən" (4, s. 302) bu vahidlərin daxili forması motivasiya daşıyıcısı olmaqla milli-mədəni səciyyəli elementlərə malik olur.

Bu baxış bucağından yanaşdıqda müxtəlif səpkili əsərləri ilə müasir türk ədəbi dilinin inkişafında xüsusi xidməti olan Əhməd Həmdi Tanpınarın dilindəki frazeoloji vahidlərin tədqiqi və bu vahidlərin Azərbaycan dilindəki qarşılığı ilə müqayisəli təhlili həm linqvistik, həm də mədəni və psixoloji baxımdan maraq doğurur.

Frazeoloji vahidlərin müqayisəli təhlil hətta milli və alınma elementlərin aşkarlanması sahəsində maraqlı faktları üzə çıxarmaq üçün mənbə kimi çıxış edə bilər. Belə ki, frazeologizmlərin mədəni "yükü" və bu amildən doğan konnotasiya yad elementin dil daşıyıcısı tərəfindən düzgün "qəbul olunmasi"nda çətinlik yaradır.

Bəzən frazeologizmdə "yad" elementin mövcudluğu onda mənfi konnotasiyanın əks olunması ilə nəticələnir. Bu isə, təbii ki, etnomədəni psixologiyanın təsiri kimi izah oluna bilər.

Frazeologizmlrdə universal və milli məzmunun müşahidə olunması insan təfəkküründün universal səciyyəsi ilə və ətraf aləmin milli-etnik baxımdan dərki ilə bağlı olan iki fərqli istiqaməti əks etdirir. Frazeologizmlərdə ifadəsini tapan dünyanın dərki bir çox mədəni amillərin, eləcə də etnik stereotiplərin müəyyənləşdirilməsində açar rolunu oynayır. Bu vahidlər tarixi, areal və təbii-coğrafi xüsusiyyətlərlə yanaşı, xalqın adət-ənənədə, folklorda əksini tapan psixoloji təfəkkür tərzi də yaşadır – xalqın həyat tərzi və məişət xüsusiyyətləri mədəni kod daşıyıcısı olan frazeologizmlərdə qorunur. Qeyd olunan amilləri nəzərə almaqla etnomədəni çəkiyə malik frazeologizmləri müxtəlif qruplara ayırmaq mümkündür:

1. Sosial-tarixi amillərlə şərtlənən frazeologizmlər;
2. Əsasında xalq yaradıcılığı – folklor və ya bədii yaradıcılıq dayanan frazeologizmlər;
3. Xalqın gündəlik həyat tərzi ilə bağlı olan frazeologizmlər.
4.

Statistik tədqiqatlar göstərir ki, frazeoloji vahidlərin bu qruplar üzrə çəkisi müxtəlif dillərdə fərqli olması ilə diqqəti cəlb edir. Mənbələrdə ingilis dilində xalqın gündəlik həyat tərzi ilə bağlı olan frazeologizmlərin, fransız dilində isə sosial-tarixi amillərlə şərtlənən frazeologizmlərin üstünlük təşkil etdiyi qeyd olunur (2). Bu fakt frazeologizmlərin linqvokulturoloji baxımdan araşdırılmasının əhəmiyyətini bir daha sübut edir. Frazeoloji vahidlərə xalqın mədəni irsi kontekstində yanaşma bir çox məqamların – frazeoloji vahidlərin semantikası ilə mədəniyyət amili arasındakı əlaqənin aşkarlanmasını ehtiva edir. "Dilin frazeoloji tərkibi linqvomədəni ümumiliyin

milli özünüdərkin öz əksini tapdığı güzgüdür" (3, s. 9). V.Teliya qeyd edir ki, dildə milli-mədəni stereotiplərlə bağlı olan və ümumitəfəkkür tərzinin ifadəçisi olan anlayışlar möhkəmlənir və "daşlaşır" (3, s. 40).

Bəzi frazeoloji birləşmələr mədəniyyət amilini "açıq" şəkildə əks etdirir – frazeoloji birləşmənin tərkib hissələrindən biri dildə maddi mədəniyyəti ifadə edən anlayışla bağlı söz olur. Realiləri əks olunduğu belə frazeologizmlər sırf milli səciyyə daşımaqla ekvivalentsiz leksikaya daxil olur.

Mədəniyyət amiliin əks olunduğu birləşmələrin böyük hissəsində isə frazeologizmin mənasında obrazlılıq əsasında "gizlənmiş" elementlərin mövcudluğu diqqəti cəlb edir. Xalqın məişətini, həyat və fəaliyyət tərzini, tarixi hadisələri əks etdirən frazeologizmlər bu qəbildəndir.

Bir sıra frazeologizmlər insanın psixoloji durumunu əks etdirməklə həm də milli düşüncə tərzinin elementlərini özündə əks etdirir. M. Koul və S. Skribnerin afrikalı uşaqlarla apardığı eksperimentin nəticəsinə görə, mədəniyyət amili duyğu ilə bağlı davranışlara ciddi təsir göstərir: pilləkənlə düşən adamı yandan görən afrikalı uşaq onun əlil olduğunu düşünür... Əvvəllər inək görmüş afrikalı (piqmey) uzaqda otlayan inəkləri gördükdə onları qarışqa zənn edir (əvvəllər inəyi bu məsafədən görmədiyi üçün) (5, s. 120-122). Ə. Tanpınarın əsərlərində işlənən frazeologizmlərdə təfəkkür tərzindən və təxəyyüldən doğan, psixoloji durumu ifadə edən dil vahidlərinə təsadüf olunur: "gölge haline getirmek", "altın hayaller dünyası kurmak" kimi ifadələr bənzərlik əsasında yaradıldığından obrazlı təfəkkürün ortaq nümunəsi kimi çıxış edərək müəyyən forma fərqi ilə həm türk, həm də Azərbaycan dilində işlənməkdədir. Qeyd olunan vahidlərin koqnitiv proseslə obrazlı təfəkkürün qovuşmasından yanaşması göz önündədir.

Ə.Tanpınarın əsərlərində təsadüf olunan bəzi frazeologizmlər xüsusi fəlsəfi yükü ilə diqqəti cəlb edir: "Fakat bizim memlekette *aranan kaybolur"*. Bu tipli ifadələr psixoloji durumla bağlı olmaqla yanaşı, həm də insanların həyat təcrübəsinə söykənən inancını ifadə edir. Təsadüfi deyil ki, adətən dildə bu tipli vahidlərin məna yükünü daşıyan zərbi-məsəllərə də rast gəlmək olur. "Biraz sabırla her şey *ayağınıza gelir*" cümləsindəki vahid də bu qəbildəndir. Bu tipli birləşmələr güclü obrazlılığa malik olmaqla yanaşı, həm də dildə nisbətən sonrakı dövrlərin məhsulu olma təəssüratı yaradır: dünyaları yıkılmış olanlar, dostunun bir tarafını keşfetmiş gibi... Mənfi çalarlı məzmunun əks olunduğu qarabasma, narahatlıq ifadə edən "cümbüşünü yaşıyordu" və ya "sefaletin kemirdiği evler" kimi ifadələri də bu baxımdan təhlil etmək mümkündür.

Frazeologizmlərin linqvokulturoloji baxımdan təhlili onların dil daşıyıcılarının dünyagörüşü və həyat tərzinin obrazlı şəkildə dildə ifadəsi nəticəsində meydana çıxdığını söyləməyə əsas verir. Bu təcrübə şübhəsiz ki, xalqın mədəni ənənələri, inanc və ayinləri ilə bağlı olur və etnopsixoloji və mədəni amillərin daşıyıcısı kimi çıxış edir. Təsadüfi deyil ki, bu tipli

frazeologizmlər arasında ilkin inanclarla bağlı sakral leksika da xüsusi çəkiyə malikdir. Sakral məzmunlu vahidlərə Ə. Tanpınarın əsərlərində də rast gəlirik: "Halam ahretle bütün alâkasını kestiğini göstermek için...".

Frazeologizmlərdə əks olunan stereotiplər yalnız obyektiv aləmi deyil, bu anlayışlara dil daşıyıcılarının münasibətini əks etdirdiyindən konkret əşya və hadisələr praqmatik və koqnitiv təsəvvürlərə uyğun şəkildə ifadə olunur. Frazeologizmdə mədəni komponentin praqmatikaya aid olunması ünsiyyətdə iştirak edən dil daşıyıcılarının müəyyən mədəniyyətin subyektləri olması ilə izah oluna bilər.

Linqvokulturologiyanın başlıca anlayışlarından olan dil vahidlərinin mədəni konnotasiyası məsələsi konkret mədəni kontekstdə anlayışın fərqli obrazlılıq ifadə edərək dildəözünəməxsus məna çaları qazanmasıdır. Eyni anlayış müxtəlif xalqlarda fərqli konnotasiyaya malik olur – öküz kimi sağlam (rus d.) – at kimi sağlam (ingilis d.), qoyun kimi tərs (rus d.) – uzunqulaq kimi tərs (Az.d.). Eyni məfhum müxtəlif dillərdə fərqli anlayışın rəmzi kimi çıxış edə bilər: rus dilində "milçək kimi bezdirmək" ifadəsi olduğu halda, bolqar dilində milçək "yumşaqlıq, həlimlik" rəmzi kimi qəbul edilir. Ə.Tanpınarın əsərlərində təsadüf etdiyimiz "vakur cephesiyle" ifadəsi - "səmimi bir münasibətlə" mənasını ifadə etsə də, "vakur" sözü ayrılıqda "ağırbaşlı, onurlu" mənasını daşıyır. Bu nümunə sözdəki məna genişlənməsini müşahidə etmək imkanı verməklə həm də bir çox inanc və totemlə bağlı mə-qamları aşkarlamağa şərait yaradır. Bir çox türk dillərində, eləcə də çuvaş dilində "vakar" – öküz mənasını ifadə edir (6). "Ağırbaşlı, onurlu" anlamında işlənən "vakur" sözü də daxili məzmununda qədim mədəəniyyətin və düşüncə tərzinin izini saxlamaqdadır.

Ə. Tanpınarın əsərlərində də rast gəldiyimiz frazeologizmlərin əksəriy-yəti isə ümumişlək səciyyəli universal vahidlərdir. Bunların çox hissəsini somatik komponentin mövcud olduğu və ya təqlidi sözlərin iştirak etdiyi frazeologizmlər təşkil edir: göz attığım, çıtır-çıtır yiyeceğim, yumuk-yumuk gülen, ayakta kalmış (have survived), ayağına gelir... Somatik komponentdə əks olunan rəmzi mədəni kod dillərarası universali olmaqla bütün dillər üçün səciyyəvidir. Lakin ayrı-ayrı bədən üzvlərinin daşıdığı rəmz müxtəlif dillərdə fərqli ola bilər. Milli ruhun ifadəçisi olan konseptlərlə bağlı belə vahidlər adətən tərcümə olunmur (7, s. 86). Müasir dövrdə geniş şəkildə işlənən konsept termini "Koqnitiv səviyyə vahidi olmaqla, özündə hər hansı bir anlayış və məna təbiətinə dair olan hər bir şeyi ehtiva edir" (8, s. 39).

Təsadüf etdiyimiz frazeologizmlərin və mədəniyyət yüklü vahidlərin bir çoxu isə Azərbaycan dilində də geniş şəkildə işlənməkdədir: "*Kutu gibi* güzel, rahat, temiz bir evde yaşadığını hatırladı".

Frazeoloji vahidlərin linqvokulturoloji təhlili göstərir ki, bu vahidlər daxili məzmununda xalqın təfəkküründə daşlaşmış, rəmzləşmiş və xalqın

təfəkküründəki dəyərləri əks etdirən leksik birləşmələrdir. Milli-mədəni səciyyəli frazeologizmlərin təhlilində mühüm şərt milli konnotasiyanın aşkarlanmasıdır.

Ədəbiyyat:

1. Маслова, В.А. Лингвокультурология. – М., 2001.
2. Лингвокультурологический аспект изучения топонимов в составе фразеологических единиц: на материале английского и французского языков //http://www.dissercat.com/content/lingvokulturologicheskii-aspekt-izucheniya-toponimov-v-sostave-frazeologicheskikh-edinits-na#ixzz52UeWEh5h
3. Телия, В. Н. Русская фразеология: семантический, парадигматический и лингвокультурологический анализ. – М., 1996.
4. Телия, В. Н. Культурно-национальные коннотации фразеологизмов (от мировидения к миропониманию). // Славянское языкознание. XI Международный съезд славистов. М.: «Наука». 1993.
5. Коул М. Скрибнер С. Культура и мышление. М., Прогресс, 1977.
6. http://www.classes.ru/all-chuvash/dictionary-russian-chuvash-term-876.htm
7. Черданцева Т. З. Метафора и символ во фразеологических единицах // Метафора в языке и тексте. – М. : Наука, 1988. – С. 78–92.
8. Вардзелашвили Ж. Концепт как лингвистическая категория – «конструктивная сущность» // Тбилисский государственный университет. Филологический факультет. Сборник научных трудов. Тб., 2004, с.39-45)// http://vjanetta.narod.ru/gotsiridze.html

И. Гусейнова

Лингвокультурологическая характеристика фразеологических единиц на языке Ахмеда Хамди Танпинара

Резюме

Культурная информация закреплена в устойчивых языковых формах, к которым относятся фразеологизмы, которые выражают дух и своеобразие нации. Именно в них отражен быт народа, обычаи, традиции и поведение. В данной статье рассматривается лингвокультурологический аспект фразеологизмов, их культурно-

национальная специфика. Подчеркивается, что фразеологизмы в процессе употребления воспроизводят характерологические черты народного менталитета. Особое внимание уделяется исследованию внутренней формы фразеологизма как транслятора культурной коннотации. В статье рассматриваются фразеологические единицы на языке Ахмеда Хамди Танпинара и проводиться сравнительный анализ этих единиц на азербайджанском языке. Фразеологизмы, которые мы находим в работах Танпинара, также являются обыденными универсальными единицами. Лингвокультурологический анализ фразалологических единиц показывает, что эти единицы являются лексическими единицами, которые отражают содержание мыслительных процессов. Важным условием для анализа национально-культурных фразеологизмов является национальное происхождение.

I.Huseynova

Linguistic and cultural characteristics of phraseological units in the language of Ahmed Hamdi Tanpinar

Summary

Cultural information is fixed in stable linguistic forms, which include phraseological units that express the spirit and uniqueness of a nation. It is in them reflects the life of the people, customs, traditions and behavior. In this article, the linguoculturological aspect of phraseological units is considered, their cultural and national specificity. It is emphasized that the phraseological units in the process of use reproduce the characterological features of the people's mentality. Particular attention is paid to the study of the internal form of phraseology as a translator of cultural connotation. The article deals with phraseological units in the language of Ahmed Hamdi Tanpinar and comparative analysis of these units is carried out in the Azerbaijani language. The phraseological units that we find in Tampinar's works are also ordinary universal units. Linguistic and cultural analysis of phraseological units shows that these units are lexical units that reflect the content of mental processes. An important condition for the analysis of national-cultural phraseological units is national origin.

Rəyçi: Cəmilə Qacarlı
Filologiya üzrə fəlsəfə doktoru

SİMRUQ QASIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
simruq@mail.ru

İKİNCİ DİL ÖYRƏNİLMƏSİNDƏ İSTİFADƏ OLUNAN METOD VƏ YANAŞMALAR

Keywords: techniques, methodology, interaction, incorporate, approach, drawback, linguist, memorizing, initiator.
Açar sözlər: texnika, metodologiya, qarşılıqlı əlaqə, birləşmək, yanaşma, maneə, dilçi, yadda saxlama, təşəbbüskar.
Ключевые слова: методы, методология, взаимодействие, включение, подход, недостаток, лингвист, запоминание, инициатор.

Müəllimlər çox illik tədris təcrübəsi və təlim vasitəsilə tədris üsullarını tətbiq etməkdə mühüm rol oynayırlar. Dil sinifi, müəllimin birtərəfli mühazirə ilə məşğul olduğu və tələbələrin qeydlərini aldığı tipik bir mühazirə tipli sinifdən tamamilə fərqlənir. İngilis dili ikinci dil olaraq müxtəlif ehtiyacı olan tələbə sinifi, öyrənmə təcrübəsi, intellektual səviyyələr, mədəni köklər və öyrənmə münasibətində istifadə edilmədikcə, hansı tədris metodunun effektiv olduğunu demək çətindir. Bəzən birdən çox metod, ünsiyyətin tədris-təlim prosesinin əsas amilinə çevrildiyi dil sinifində istənilən nəticəni ortaya çıxarmaq üçün istifadə olunur. Müəllim və şagird bilikləri tamamlamaq üçün bir yerdə çalışmalıdırlar. Tədqiqat, məlumat əldə etmək üçün müəyyən nəzəriyyəni təmin edən müxtəlif tədris metodologiyalarının tətbiqi həyata keçirilmədikdə dilin öyrənilməsində çox səmərəlilik əldə olunmur. Şagirdlər, düşüncə və hisslərini müxtəlif vəziyyətlərə əsasən əks etdirmək üçün sinif metodundan istifadə etməyi öyrənməzsə, ingilis dilində tətbiq olunan öyrənmə üsulu uğurlu ola bilməz. Müəllim-tələbə rolu sinifdə məhdud müddət ərzində maksimuma çatma mərkəzinə çevrilir.

Müəllimlər dil sinifini diqqətlə hiss etdirməlidirlər və tələbələrin başqalarının qarşısında aşağı hiss edə biləcəyi çatışmazlıqlar aradan qaldırılmalıdr. Beləliklə, müəllimlər məzmunu asanlıqla başa düşmək və tədris-təlim sessiyalarının mənalı olmasını maksimum dərəcədə təmin edə biləcək bir tədris metodologiyası hazırlamalıdırlar. Son illərdə dil müəllimləri və tədqiqatçılar öz diqqətini ingilis dilini İD (İkinci Dil) kimi əldə etmək üçün effektiv bir tədris prosesinə gətirib çıxaran yanaşmalar və strategiyaları müşahidə etmək və inkişaf etdirməyə yönəldirdilər. Tədris prosesinin düzgün və effektiv olmasını təmin etmək üçün dil müəllimləri fərdi tədris təcrübəsi və təlimləri ilə müxtəlif tədris metodları hazırlamalıdırlar. İngilis dili müəllimləri "yaş, cins, münasibət, kəşfiyyat faktoru, etimad səviyyəsi və motivasiya kimi

bir sıra məsələlərlə məşğul olur. Tələbələrin daha dəqiq anlaşılmasına və öyrənmə prosesinə daha fəal iştirak etmələrinə kömək edən müxtəlif dil tədris üsulları mövcuddur. Bəzən birdən çox texnika İkinci dil (ESL) sinifini mənalı bir şəkildə etmək üçün birləşdirilir.

Dil müəllimləri olaraq özünüzü və tələbələrinizi tanımaq çox vacibdir. Yalnız sizin mövzunuz yox, həm də tələbələrinizin "mədəni kökləri və digər şəxsi amillər - ruhi və psixoloji amillər də eyni dərəcədə vacibdir. Dil müəllimləri təcrid və ya birləşmələrdə müəyyən dil tədris metodları ilə təcrübə keçdiklərinə görə bir və ya bir neçə metoddan effektiv istifadə etməyə dəyər. Bu məqalə İD müəllimlərinə müvafiq tədris materialının hazırlanmasına və tədrisdə praktik olaraq tətbiq oluna biləcək səmərəli, uyğun bir tədris metodunun seçilməsinə təkan vermək üçün kömək edəcəkdir.

Qrammatika-tərcümə metodu. Uzun illər dil müəllimləri tərəfindən istifadə edilmişdir. Latın və yunan ədəbiyyatını öyrətmək üçün istifadə edilən klassik üsulkimi tanınırdı. Bu üsulun tələbələrə xarici ədəbiyyatı oxumağa və qiymətləndirməyə kömək edəcəyinə ümid edilirdi. Eyni zamanda, hədəf dilin qrammatikasını öyrənməklə tələbələr öz ana dilinin qrammatikasını anlaya və ana dilini daha yaxşı şəkildə danışmaq və yazmağı öyrənə biləcəklər. Tələbələr hədəf dildə kommunikativ səlislik inkişaf etdirməməli olsa da, ana dilini anlamaq üçün hədəf dilindən istifadə prosesində zehni olaraq dərinləşəcəkdir.

Birbaşa metod. Qrammatika-tərcümə metodundan istifadə edərək tələbələr ünsiyyət qurmaqda müvəffəq olmadıqda, birbaşa üsul meydana gəldi və məşhurlaşdı. Bu üsul istənilən tərcüməyə şərait yaratmadı. Şagirdlər ana dilindən heç bir axtarış etmədən nümayiş və əyani vasitələrindən istifadə edərək hədəf dilini birbaşa əldə etməyə müvəffəq oldu.

Audio-dil metodu. Audio-Dil metodu birbaşa metod kimi şifahi şəkildə aparılır. Bununla belə, audio-dil metodu birbaşa metod kimi bir vəziyyətdən istifadə edərək, lüğətin əldə edilməsinə diqqət yetirmir, qrammatik cümlə nümunələrinin istifadəsində tələbələri məşq etdirir. Müəllim tələbələri hədəf dilini kommunikativ şəkildə istifadə etmək istəyir və bunu etmək üçün tələbələrin hədəf dilini öyrənməsini istəyirlər. Müəllim tələbələri düzgün və mümkün qədər tez təqlid etmək üçün modelləri təqdim edir. Şagirdlər, ana dilinin köhnə vərdişlərini aşaraq, hədəf dilində yeni vərdişlər əldə edirlər. Müəllimlər tələbləri audio materiallarla təmin edir və onlar həmin modelləri təqlid edirlər.

Səssiz yol metodu. Bu metod, 1960-cı illərin əvvəllərində bir sıra dil vərdişlərinin dili öyrənmək üçün effektiv olmadığı bir zamanda meydana gəldi. Dilçi alim Kaleb Qatteqno, körpə uşaqların və nisbətən böyük uşaqların dili qazanma yolunu araşdıraraq dil öyrənməsini müşahidə edir.

Qatteqnonun Səssiz yol üsulu, Homskinin Kognitiv Yanaşma üsulu ilə müəyyən bir cəhətdən bənzəyir ki, danışanların sözügedən abstrakt qaydalara dair məlumatları var və bu, onlara yeni sözlər söyləmək və yaratmaq imkanı verir. Bu metodda tələbələrin fəaliyyəti önə çəkilir və dil öyrənmədə məsuliyyət daha çox onların üzrəinə düşür. Bu metod tədris prosesinə deyil, öyrənmə prosesinə əhəmiyyət vermişdi.

Kommunikativ yanaşma metodu. 1970-ci illərdə, dilçilər tələbələrin dilin tətbiqi yollarını bildikləri halda dili istifadə edə bilmədiklərini anladıqları zaman kommunikativ yanaşma metodu meydana gəldi. Müəyyən olundu ki, tələbələr ictimai kontekstdə müəyyən funksiyaları yerinə yetirməyi öyrənməlidirlər. Bu metod, tələbələrin linqvistik bacarıq tələb etmədiklərini, ancaq nə demək istədiyini və başqasının dediklərini söyləmək üçün ünsiyyət bacarıqlarını istifadə etməyi aşıladır. Bu üsulda müəllimin rolu ünsiyyəti inkişaf etdirmək üçün situasiyalar yaratmaqdır. Tələbələr bu kontekstdə bir-biri ilə qarşılıqlı əlaqə yaradırlar. Kommunikativ metodun məqsədi tələbələrin dil formalarını tətbiq etməkdən başqa müəyyən bir situasiyada inamla danışmaqdır. Yeni məlumat dilin strukturuna daha az diqqət yetirir. Bu yanaşma daha çox tələbə mərkəzlidir, çünki o tamamilə tələbə dilindən, onun dili istifadə qabiliyyətindən asılıdır. Yanaşma əsasən, tələbələrdə motivasiya yaradır.

Tapşırıq əsaslı yanaşma. Tapşırıq əsaslı yanaşma "həkimə müraciət etmək və ya telefon zəngi" kimi mənalı tapşırıqlar vasitəsilə orijinal dilin istifadəsinə yönəlir. Bu üsul mənalı ünsiyyəti təşviq edir və tələbə mərkəzlidir. Bundan başqa tapşırıq əsaslı yanaşma problemin həlli, yaradıcılıq və səciyyəviliyi ön plana çəkir. Bu yanaşmada məna mərkəzi rol oynayır. Metod nə qədər səciyyəvi olarsa, metodologiya daha güclü olar.

Metodologiyaların kateqoriyaları bunlardır:

1) ənənəvi;
2) müasir;
3) audio-vizual;
4) innovativ

Ən çox istifadə olunan metodologiyalar: mühazirə, təqimat, mimika, rol oynama, sorğu-sual, əyləncə, ritorika və qarşılıqlı əlaqə.

Aşağıdakı metodologiyalar dil tədrisində bəzi səmərəli istifadələrlə və bilik/təhsilin verilməsi sistemini zənginləşdirməklə məşğuldur.

Ümumi müzakirə dil tədrisində müasir yanaşmalarından biri hesab olunur. Bu yanaşma, əhatə dairəsi müzakirələr, fikirləşmə və zehin xaricində yer alan idarə yönümlü dərslərdə xüsusilə faydalıdır. Yanaşma dərsi canlı edir və öyrencilərə şifahi, qərar vermə, qeydə alma, liderlik, sorğu-sual ve problem həlli kimi bacarıqların inkişaf etməsinə kömək edir.

Replika, işarə kartları - söz lüğətinin tədrisində ən yaxşı yanaşma olaraq uşaqlara sözlərin mənasını öyrənmək üçün bəzi strategiyaları öyrətmək və daha sonra həcmli oxumaq və müxtəlif mətnlər və janrlardan oxumağa ruhlandırır. Aydınlaşdırıcı tapşırıq kartı çətin sözlərlə qarşılaşdıqda istifadə etmək üçün tələbələrin strategiyalarını təmin edir. Strategiyalar bütün tələbələrə sözləri sərbəst şəkildə öyrənmək üçün bir imkan yaradır.

Rol-oynama simulyasiyaları - öyrənmə üsullarından biridir. Bu metod, ilk növbədə, təhlükəsiz və dəstəkləyici mühitdə birinci şəxs təcrübəsini yaratmaq üçün nəzərdə tutulmuşdur. Rol-oynama, üz-üzə tədrisdə güclü bir tədris üsulu olaraq qəbul edilir.

Qarşılıqlı əlaqə - məlumatın ötürülməsi metodu mühazirə üsülu ilə kifayət qədər sinonimdir, yalnız keçmişdə, həm tələbələr, həm də müəllimlərin bu prosesdə iştirakı fəaldır. Bu metod yeni fikirlərin çıxarılması və yeni konsepsiyaların sual-cavab prosesi üçün faydalıdır.

References

1. Gebhard G. J. Teaching English as a Foreign or Second Language, (2nd Ed)- A Teacher Self-Development and Methodology Guide, 2013. University of Michigan Press.
2. Brown H. D. Teaching by Principles: An Interactive Approach to Language Pedagogy, 2011. NY: Pearson Longman.
3. Larsen-Freeman D. Technique and Principles in Language Teaching (2nd Ed), 2000. New York, Oxford University Press.
4.Larsen-Freeman D and Michael H.L. An Introduction to Second Language Acquisition Research, 1991. Longman Inc. New York.

S.Gasimova

Methods and approaches used in the second language learning

Summary

The history of language teaching has been characterized by a search for more effective ways of teaching second or foreign languages. For more than a hundred years, debate and discussion within the teaching profession have often centered on issues such as the role of grammar in the language curriculum, the development of accuracy and fluency in teaching, the choice of syllabus frameworks in course design, the role of vocabulary in language learning, teaching productive and receptive skills, learning theories and their application in teaching, memorization and learning, motivating learners,

effective learning strategies, techniques for teaching the four skills, and the role of materials and technology.

Although much has been done to clarify these and other important questions in language teaching, the teaching profession is continually exploring new options for addressing these and other basic issues and the effectiveness of different instructional strategies and methods in the classroom.

С.Касумова

Методы и подходы, используемые в обучении второго языка

Резюме

История преподавания языка характеризуется поиском более эффективных способов обучения второму или иностранному языку. На протяжении более ста лет дискуссии и дискуссии в рамках преподавательской профессии часто были сосредоточены на таких вопросах, как роль грамматики в языковой учебной программе, развитие точности и свободного преподавания, выбор ракурсов учебного плана при разработке курса, роль лексики в изучении языка, обучения продуктивным и восприимчивым навыкам, изучения теорий и их применения в обучении, запоминании и обучении, мотивации учащихся, эффективных стратегий обучения, методов обучения четырех навыков и роли материалов и технологий.

Несмотря на то, что многое сделано для разъяснения этих и других важных вопросов в преподавании языка, профессия преподавателя постоянно изучает новые варианты решения этих и других основных вопросов, и эффективности различных учебных стратегий и методов в классе.

Rəyçi: **Sevil Əliyeva**
Filologiya elmləri namizədi

ЭЛЛАДА МАМЕДОВА
Бакинский государственный университет
ellada.lt@gmail.com

ОСНОВНЫЕ ПРИНЦИПЫ СОВРЕМЕННОГО СОПОСТАВИТЕЛЬНОГО ЯЗЫКОЗНАНИЯ
THE MAIN PRINCIPLES OF CONTEMPORARY COMPARATIVE LINGUISTICS

Açar sözlər: təhlil, qarşılaşdırılma, xarakterologiya, tipologiya
Ключевые слова: анализ, сопоставление, характерология, типология
Key words: analysis, confrontation, characterology, typology

Само разграничение сравнительного и сопоставительного языкознания методологически оправдано только в рамках конкретного исследования. Согласно традиции использования данной терминологии, сравнительно-исторические исследования имеют отношение к родственным языкам, сопоставительные – к языкам разного типа и происхождения. Без дополнения *историческое* термин *сравнительное* может употребляться в широком значении, подразумевая любые сравнительные исследования. Сравнение как универсальный метод познания в высшей степени эффективно в лингвистических исследованиях вообще. Самое общее правило сравнения языков может быть сформулировано следующим образом: языковые факты выпукло представлены на фоне фактов другого языка. В.Скаличка в известной статье «Типология и сопоставительная лингвистика» указывал, что «К.Горалек справедливо говорит о том, что есть три основных метода сравнительного изучения языков: а) исторический, б) типологический, в) сопоставительный. Эта мысль представляется бесспорной, однако она нуждается в некотором уточнении» (3, 27). По мнению В.Скалички, сопоставительный анализ имеет дело только с двумя языками, сравнительно-исторический анализ «рассматривает системы одного и того же языка в разные периоды» (3, 27). Типологический анализ привлекает к анализу по возможности все языки. Более того, В.Скаличка говорит даже о возможных языках: «Типологический анализ подразумевает рассмотрение всех языков (реальных и возможных) в синхроническом и диахроническом аспектах (или в пансиндиахроническом аспекте), т.е. предполагает привлечение широкого языкового материала» (3, 27-28). Таким образом, Пражский функционализм в лице В.Скалички пытается определить сферы анализа, хотя многое остается неясным. Например, почему сравнительно-историческое языкознание имеет дело только с одним языком, а не с несколькими родственными? С другой стороны, может считаться

справедливым такое разграничение сопоставительного языкознания и типологии, когда первое связывается с частными вопросами, но представляемыми по ходу исследования «во всей полноте», тогда как второе оперирует широким языковым материалом. Совершенно оригинально начинает свои рассуждения о сравнении или сопоставлении языков Р.О.Якобсон. Во-первых, с самого начала он вводит методологически важный принцип о сходстве языков: «Высказывание Альфа Соммерфельта, с которого я начал свою монографию о всеобщих звуковых законах, до сих пор не утратило своей силы: «Между фонетическими системами (или – более широко – *между системами языковыми*. – Р.Я.), существующими в мире, нет *принципиального* различия» (4, 95). Во-вторых, Р.О.Якобсон вводит принцип, приближающий сам характер рассуждений о типологии к современному антропоцентрическому языкознанию: «Как указывают антропологи, одна из наиболее примечательных особенностей общения между людьми заключается в том, что ни один народ не может быть столь примитивным, чтобы не быть в состоянии сказать: «У тех людей другой язык» (4, 95). Оба замечания Р.О.Якобсона настолько существенны, что они выходят далеко за рамки приведенных утверждений. Так, первое замечание относительно отсутствия принципиального различия или принципиальных различий между языками по существу утверждает наличие единой кодовой схемы, лежащей в основе всех языков. Или, иными словами, можно думать, что в основе всех мировых языков лежит единая схема, единая глубинная модель, которой на поверхностном уровне соответствуют разные языки. Термин *модель* сам по себе может ввести нас в заблуждение, поскольку он может восприниматься как нечто типологически значимое. На самом деле модель кода вообще носит универсальный характер, как универсально означивание вообще. Поэтому речь идет о глубинной языковой модели, модели кода. С другой стороны, именно такая идентичность кода служит основанием сравнения вообще. Дело в том, что, если бы языки мира не характеризовались бы единой и универсальной глубинной моделью, вряд ли у нас было бы более или менее реальное основание для сравнения вообще. Можно также считать, что частная общность моделей или их идентичность объединяет языки в рамках языковых семей. В принципе сравнительно-историческое языкознание начинается не с обнаружения отдельных лексико-семантических или фонетических соответствий в индоевропейских языках, а с интуитивного ощущения идентичности моделей. Наверно, уже в этих рассуждениях компаративистов об идентичности моделей были заложены основы системно-структурного подхода к изучению языков мира. Ведь компаративисты выделяли не просто общность знаков, но общность

знаковых конфигураций, что, видимо, было важнее. Идентичность конфигураций же представляет собой структурное сходство языков.

Второе замечание Р.О.Якобсона относительно того, как говорящие сравнивают языки, также должно восприниматься в самом широком контексте. Фактически здесь речь идет о национально-культурной чуждости другого языка, потому что говорить о звуковой инаковости вовсе не приходится. Об этом свидетельствует и следующая ссылка на М.Мид: «люди считают язык «таким аспектом поведения других людей, которому можно научиться» (4, 95).

Фиксация внимания на таком аспекте, как поведение, приближает сопоставительное языкознание к антропоцентрическому или когнитивному языкознанию. Иными словами, если язык – это такой аспект поведения людей, которому можно научиться, следовательно, можно стать другим человеком и вообще другим. Важно учитывать, что ощущение инаковости возникает не только в тех случаях, когда говорящие имеют дело с совершенно разными по своей структуре и лексическому заполнению языками, но и в случае наблюдения близкородственных языков. В принципе тот же механизм инаковости срабатывает и в случае сталкивания с другим диалектом своего родного языка. С этим же невосприятием *другого* связаны и всякого рода недоразумения и насмешки над теми, кто говорит не так, как *говорим мы*. Поведенческий аспект речи (и соответственно языка) непосредственно связывает компаративистику с когнитивизмом в самом широком смысле слова. И утверждение М.Мид о том, что другой язык – это фактически другое поведение, которому можно научиться, выводит нас на понимание теснейшей связи компаративистики с когнитивизмом. При четком понимании задач компаративистики в аспекте языка как некоторой поведенческой деятельности как раз определение различия в поведении и становится целью лингвистического исследования. Необходимо отметить, что само отношение к языку как к некоторому типу поведения известно в лингвистике давно. Так, поведенческая теория в психологии, так называемый бихевиоризм, рассматривался американскими дескриптивистами в качестве фундамента лингвотеоретических построений. Бихевиоризм формируется как прагматическая теория психики. Широко известна формула бихевиоризма: стимул-реакция. Вот что пишет по этому поводу М.Г.Ярошевский: «Стимул – реакция» – так прозвучал девиз бихевиоризма, основные идеи которого Уотсон изложил в статье «Психология, какой ее видит бихевиорист». Эта статья, опубликованная в 1913 г. в «Психологическом обозрении», в дальнейшем была названа «бихевиористским манифестом» (5, 344).

Д.Б.Уотсон в указанном манифесте попытался определить кредо нового учения. Предметом психологии было объявлено поведение. Поведение, согласно бихевиоризму, состоит из секреторных и мышечных реакций. Что касается этих реакций, то они постоянно вызываются внешними стимулами. Строгость и научность анализа бихевиористы видели в исключении любых фактов, выходящих за рамки наблюдаемых феноменов.Бихевиоризм, претендуя на полную объективность анализа, в качестве объекта науки рассматривал только наблюдаемые феномены. Совершенно в этом ключе Л.Блумфилд пишет: «Говорящий, Джилл, привел в действие свои голосовые связки (два небольших мускула в области адамова яблока), нижнюю челюсть, язык и т.д. таким образом, что воздуху была придана форма звуковых волн. Эти движения говорящего являются реакцией на стимул S. Вместо практической (или действенной) реакции R, а именно вместо того, чтобы реально начать доставать яблоко, Джилл приводит в движение органы речи, то есть производит речевую (или замещающую) реакцию, которую мы обозначим строчным r. Таким образом, у Джилл как у лица говорящего есть не один, а два способа реагировать на стимул: S → R (практическая реакция) S → r (речевая замещающая реакция). В нашем примере она выбрала второй способ» (1, 39).

Простейший анализ приведенного высказывания Л.Блумфилда из его классического труда «Язык», являющегося одним из фундаментальных текстов дескриптивизма, свидетельствует о том, что американские ученые в принципе не разграничивали механизм стимул-реакция в практической деятельности и в языке. Более того, язык выступает здесь таким же практическим действием как и любое другое действие, направленное на практический результат.

Наверно, применение жесткой бихевиористской схемы в языкознании способно вызвать те же самые возражения, что и в психологии. Та схема речевого поведения, которая представлена в приведенной цитате, фактически исключает разум в его широком понимании. Если реакция адекватна символу и никоим образом не выходит за его рамки, то, следовательно, адресат способен осмысливать информацию исключительно в диапазоне заданного смысла. Действительность выступает против этого. Как правило, адресат любого языкового сообщения способен осмысливать предложенный стимул в значительно более широком контексте. Иными словами, адресат сообщения исходит не только из предложенного стимула (речевого сообщения), но из широкого информационного контекста, в котором может быть оценено сообщение. В какой-то степени здесь актуализируется проблема пресуппозиции. Любое новое сообщение, вообще любой знак интер-

претируется с опорой на предшествующее знание. Бихевиористская схема речевого поведения в принципе отрицает релевантность пресуппозиции. Действительно, если реакция жестко привязана к стимулу, то ни о какой пресуппозиции говорить не приходится. Здесь уместно привести высказывание другого выдающегося американского языковеда Э.Сепира, основоположника этнолингвистики, который утверждает, что «У языка есть свое окружение. Народ, на нем говорящий, принадлежит к какой-то расе (или нескольким расам), т.е. к такой группе человечества, которая своими физическими свойствами отличается от унаследованной совокупности практических навыков и идей, характеризующих наш образ жизни. У антропологов повелось изучать человека с трех сторон – расы, языка и культуры» (2, 185). Отсюда по меньшей мере следует, что реакция слушающего на стимул говорящего обусловлена культурологически. Современная антропоцентрическая лингвистика ставит в центр лингвистических исследований человека с его этническим мышлением и психологией. Соответственно и компаративистика, учитывающая достижения антропоцентрического анализа языка, сравнивает языки не только и не столько в плане обнаружения дифференциальных признаков эквивалентных средств и выявления характера формальной или функциональной маркированности, сколько в плане определения несовпадений в национально-языковой картине мира, различий в этническом мышлении и психологии, наконец, в структуре тех концептов, которые представляют национальный менталитет как этнопсихолингвистическую систему.

Литература

1. Блумфилд Л. Язык. М.: Прогресс, 1968, 608 с.
2. Сепир Э. Избранные труды по языкознанию и культурологии. М.: Прогресс, 2001.
3. Скаличка В. Типология и сопоставительная лингвистика // Новое в зарубежной лингвистике. М.: Прогресс, 1989, с. 27-31.
4. Якобсон Р.О. Типологические исследования и их вклад в сравнительно-историческое языкознание // Новое в лингвистике. Вып. III. М.: Иностр. Лит., 1963, с. 95-105.
5. Ярошевский М.Г. История психологии. М.: Мысль, 1985.

E. Məmmədova

Müasir müqayisəli dilçiliyin əsas prinsipləri

Xülasə

Məqalə müasir müqayisəli dilçiliyin problemlərinə həsr olunub. Dil vahidlərinin struktur-sistemli və funksional xüsusiyyətlərini müqayisə etməklə tədqiqi müasir dilçilikdə aktual məsələlərdən biri olaraq qalır. Qeyd olunur ki, müqayisə universal elmi metod olduğuna görə bütün elmlərin tarixini əhatə edir. Müasir antropocentrik dilçilik insanın dilçilik tədqiqatını etnik düşüncə və psixologiyası ilə birgə önəm verir. Dilçilikdə də müqayisə mövcud paradiqmaların hamısını səciyyələndirir. Eyni zamanda müqayisə dilçiliyin hər bir ayrı paradiqmasının mahiyyətinə uyğun şəkildə müəyyənləşir. Müqayisəli dilçilik digər dilçilik sahəsində önəmli yer tutmaq üçün, bu sahənin nəzəri əsaslarını daha da inkişaf etdirilməsi vacıbdir (müqayisəli dilçilik vəzifələrinin genişləndirilməsi və aydın əsaslandırılması, prinsiplərinin inkişafı, müqayisəli analiz metodlarının təkmilləşdirilməsi, müqayisə üçün parametrlərin seçilməsi).

E.Mammedli

The main principles of modern comparative linguistics

Summary

The article focuses on the challenges of contemporary comparative linguistics. By comparing the structural and functional features of language units, research is one of the topical issues in modern linguistics. It is noted that comparisons cover the history of all sciences as it is universal scientific method. Linguistic comparisons describe all existing paradigms. Modern anthropocentric linguistics puts the center of human linguistic research with its ethnic thinking and psychology.At the same time, the comparison is determined in accordance with the essence of each separate paradigm of linguistics. Comparative linguistics is essential to further develop the theoretical basis of this field in order to play a significant role in other linguistic fields (expanding and substantiating comparative linguistic functions, developing principles, improving comparative analysis methods, and choosing parameters for comparisons).

Rəyçi: Aslan Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

доц. ЛАЛА ГУСЕЙНОВА
АУЯ
sprinqlq@yahoo.com

СТРУКТУРНО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ СВЕРХФРАЗОВОГО ЕДИНСТВА В ХУДОЖЕСТВЕННОМ ТЕКСТЕ

Ключевые слова: текст, предложение, сверхфразовые единство, связанность, структура
Açar sözlər: mətn, cümlə,frazofövqü vahid, əlaqə, quruluş
Key words: text, sentence, supraphrasal unit, connection, *structure*

Современная синтаксическая наука характеризуется выделением ряда синтаксических единиц-словоформа-словосочетание-предложение-сверхфразовое единство. В данном ряду последняя единица занимает особое место. Формирующей сообщение, основной коммуникативной единицей является предложение. Но для выражения полноты мысли бывает недостаточно одного предложения, нередко требуется большой контекст. В таких случаях используется сверхфразовое единство (СФЕ), являющуся наиболее крупной из структурно-семантических единиц, на которые членится текст.

Сегодня общепризнанным является мнение ученых о том, что в составе текста функционируют группы предложений, объединенные структурно-синтаксически и по смыслу-сверхфразовые единства, которые обозначены разными терминами (сложное синтаксическое целое, смысловое единство, прозаическая строга, микротекст).

Текст представляет собой содержательное единство и характеризуется многотемностью, т.е. своеобразной организацией частных тем, связанных друг с другом и подчиненных единому авторскому замыслу. Таким образом, сверхфразовое единство квалифицируется как минимальная единица семантико-синтаксического членения текст и представляет собой « группу предложений, раскрывающих одну микротему (частную тему) и образующих на этой основе формально-смысловое единство, имеющее достаточно определенные границы» [2, с.435]

В смысловом плане сверхфразовое единство характеризуется лексической преемственностью, широтой охвата содержания излагаемой темы, вплоть до полного ее расктрытия (каждое из последующих звеньев сверхфразового единства расширяет и развивает содержание предыдущих). СФЕ несет информацию об одной ситуации и тем самым именует ее [1, с 366] т.е. раскрывает конкретную микротему.

Nəzərə almalıyıq ki, normal bir uşağın cümlə qurma bilikliliyi , yalnızca onun qrammatik cəhətdən düzgün olmağı yox həmçinin qəbul olunan olması ilə əlaqədardır. O kompetensiyaya nə zaman danışmalı yox, kiminlə, harada və nə tərzdə danışmalı olduğu kimi məsələlər əsasında yiyələnir. Xülasə, uşaq nitq fəalliyyəti repertuarina sahib olur, nitq

hadisələrində iştirak edir, öz nəticələrini başqalarının da köməyi ilə qiymətləndirir. [4, 277].

Kompetensiyaya sahib olma təkcə qrammatik düzgün cümlələrin qurulması demək deyil, kommunikasiyada obyektiv və subyektiv amilləri də nəzərə almalıdır. Kiminlə danışdığı və kommunikasiya quranlar arasında status məsələsi, kommunikasiyanın həyata keçdiyi yer və zaman, digər iştirakçıları kimi amillər də kommunikativ komptensiyanın aşılanması zamanı öyrənənlərə aşılanmalıdırlar.

Kommunikativ dil bacarığı həm bilik, həm bacarıq, həm də müvafiq kontekstə uyğun istifadə olunan kommunikativ dildən bu vəzifələri icra etmək və ya həyata keçirmək qabiliyyəti kimi göstərilə bilər.Təklif olunan KDB-nı üç komponet təşkil edir: dil biliyi, strateji bacarıq və psixofizioloji mexanizmlər.Dil bacarıqları, əsasən, bir dəstdən ibarətdir hansılar ki, dil vasitəsi ilə kommunikasiyada birləşirlər. Stratejik kompetensiya, dil kompenetlərindən kommunikativ dilin istifadəsi zamanı yararlanmaq üçün lazım olan əqli bacarığı xarakterizə edir. Psixofizioloji mexanizmlər dilin gərçək icrasında iştirak edən nervoloji və psixoloji proseslərə istinad edən fiziki fenomendir(səs,işıq). [1, 84].

Dilçilərin əksəriyyəti kommunikativ kompetensiya anlayışını izah edərkən, onu ya qrammatika vasitəsilə izah etmişdir ki, D.Hayms buna nümunə ola bilər, ya da sosial-mədəni mühit, dilin kontekstdən asılılığını vurğulamışdır. Lakin, Maykl Kəneyl və Sveyn kommunikativ kompetensiyaya yalnız qrammatik bilikləri və sosiomədəni mühitlə əlaqəli bir anlayış kimi baxmamışdır. H.D.Brauna görə Kommunikativ Dil Təliminin tərifini vermək çətindir. Lakin, o, Kommunikativ Dil Təlimininin altı spesifik xüsusiyyətini vermişdir. Bu xüsusiyyətlərə aiddir:

1) Sinfin məqsədləri kommunikativ kompetensiyanın bütün komponentlərinin fokuslanır;

2) Dil texnikası öyrənənləri dildən mənalı məqsədlər üçün praqmatik,autentik,funsional istifadəsinə yönəldəcək şəkildə tərtib edilir;

3) Doğruluq və səlislik kommunikativ üsulların əsasını təşkil edən tamamlayıcı prinsiplər kimi götürülür;

4) Kommunikativ sinifdə olan şagirdlər dildən əsasən sinif xaricində reallaşmamış kontekstlərdə, məhsuldar və reseptiv istifadə etməlidirlər;

5) Öyrənənlərə öz öyrənmə prosesinə özünəməxsus öyrənmə tərzlərini və sərbəst öyrənmək üçün strategiyaların inkişaf etdirilməsinə diqqət etməyə imkan yaradır;

6) Müəllimin rolu fasilitator və təlimatçıdır, biliyin bilikli sahibi deyil. [2, 43].

Kommunikativ yanaşmanın “güclü” versiyası və “zəif” versiyası var. Son on il ərzində daha az standart təcrübə halına gələn zəif versiya,

öyrənənlərə ingilis dilini kommunikativ məqsədlər üçün istifadə etmək imkanı verir və xarakterik olaraq bu cür fəaliyyətləri daha geniş dil tədris proqramına inteqrasiya etmək cəhdlərinə əhəmiyyət verir. Digər tərəfdən, kommunikativ tədrisin "güclü" versiyası, dilin kommunikasiya vasitəsi ilə əldə olunduğunu iddia edir, belə ki, dilin mövcud, amma inert biliyini aktivləşdirməklə deyil, stimullaşdırıcı dil sisteminin özünü inkişaf etdirmək lazımdır. [3, 279].

Kommunikativ yanaşmanın "güclü" və "zəif" versiyasından Azərbaycan təhsilində əsasən "zəif" versiyaya əksəriyyət müəllimlər tərəfindən üstünlük verilir. Dil təlimçiləri əsasən öyrənənlərə dilə qayda əzbərləmə, strukturları bilmə kimi yanaşmamağa, kommunikasiyaya yönəlməyə çalışırlar. Təlim mühiti kommunikasiyanın qurulmasına əsaslanır. "Zəif" versiyanın çətinliyi "güclü" verisyaya nəzərən daha azdır, öyrədənlərin işi nisbətən azalmış olur.Lakin "güclü" verisyaya kommunikativ vərdişlərin aşəlanması üçün daha effektiv yoldur, o, öyrənənlərə real kommunikativ mühitin iştirakçısı olma imkanı sunur.

Kommunikativ Dil Təliminin prinsiplərinin dərs prosesinin mərhələlərində necə istifadə edilməli məsələsi kommunikativ yanaşmanın əsas müzakirə obyektidir. Kommunikativ tapşırıqların və prosedurların müxtəlifliyi necə müəyyən edilə bilər və müəllim müəyyən bir öyrənənin və ya bir qrupun öyrənənin ehtiyaclarına ən yaxşı cavab verən fəaliyyətlərin birləşməsini və planlaşdırmanı necə müəyyən edə bilər? Bu kimi fundamental suallara isə taksanomiya və təriflərlə cavab vermək mümkün deyil, o ikinci dil siniflərində sistematik şəkildə müxtəlif növ tapşırıq və üsulların istifadəsinə araşdırmaqla mümkündür. [5, 82]. Dərsdə kommunikativ vərdişləri inkişaf etdirmək üçün düzgün fəaliyyətlərin qurulması, tapşırıqların öyrənənləri kommunikasiyaya yönləndirilməsi əsas meyyar kimi götürülməlidir. Dil fakültələrinin yuxarı kurs tələblələrində kommunikativ kompetensiyanı inkişaf etdirmək əsas təlim hədəfi olan müəllim kommunikativ tapşırıq və fəaliyyətləri onların yaş, cins, maraq və s. kimi faktorları nəzərə alınaraq seçilməlidir.

Kommikativ kompetensiya yaddaşda olan sözlərdən ibarət deyil, yaradıcı fəaliyyətdə linqvistik elementlərin kontekstdə istifadəsinin dəyərinin anlaşılmasına yardım edən strategialar və diskusiyyalarda anlaşılan iştirakçı ola bilməkdir. [8, 65].

Kommunikasiyada iştirak etmək üçün insanlara ilk olaraq dolğun söz ehtiyatı lazımdır, lakin bu hələ kommunikativ kompetensiallıq sahib olmaq demək deyil. Sözlər düzgün şəkildə, kontektsə uyğun şəkildə istifadə edilməlidir. Öyrənmənin psixoloji məzmunu, sadəcə müəllim və öyrənənin birbaşa dərs və ya məşgələ vasitəsilə öyrənməsindən daha cox şeyi əhatə edir.Bu sadəcə bacarıqları öyrənməkdən və ya biliyin mənimsənilməsindən ibarət deyil. Buraya həmçinin öyrənmək üçün öyrənmə və düşünmək üçün

öyrənmə ; fikirlərin modifikasiyası; maraqların mənimsənilməsi; sosial dəyərlər və ya sosial rollar və hətta şəxsiyyətdəki dəyişikliklərdə daxildir. [7, 18]. Burdan belə neticə cıxartmaq mümkündür ki, yuxarı kurs tələbələrinə kommunikativ kompetensiallıq aşılanarkən dilin ictimai bir proses olduğunu nəzərə alaraq, sosio-mədəni faktorları təlim boyunca nəzərə almaq lazımdır. İstər mədəni ,istərsə də sosial təsir və faktların kommunikasiyanın qurulma formasında necə özünü biruzə göstərəcəyi öyrənənlərə məlum olmalıdır. Öyrənənlər bilməlidirlər ki, kommunikativ kompetensiallığa yiyələnərkən qrammatika vasitəçi rolunu oynamalıdır, qrammatik qaydalar yalnızca əzbər bilinən faktlar olmaqla qalmamalıdır. Öyrənən bildiyi qaydaları sosial mədəni mühiti nəzərə almaq şərti ilə istifadə etməyi bacarmalıdır.Nəzərə alınmalıdır ki, kommunikasiyanın düzgün və səlil qurulmasında qrammatik, sosial, mədəni faktorlar müştərək şəkildə nəzərə alınmalı, öyrənənlərə nümunələr şəklində onların hər birinin vacibliyi çatdırılmalıdır.

İstifadə edilən ədəbiyyat siyahısı

1. Bachman L.F.Fundamental Considerations in language testing. Oxford : Oxford University Press,1990,408p
2. Brown H.D. Teaching by Principles An Interaction Approach to Language Pedagogy , Pearson Longman(second edition),2001,480p
3. Howatt A.P.R. with H.G.Widdowson, Oxford: Oxford University Press, 1984, 406p
4. Hymes D.H. On communicative Competence /J.B.Pride & J.Holmes(Eds.), Sociolinguistics : Selected readings .New York : Penguin books,1972 ,293p
5. Richards J.C. & Rodgers T.S. Approaches and methods in language teaching. Cambridge : Cambridge University Press , 2000, 215p
6. Stern H.H. Fundamental Concepts of Language Teaching , Oxford: Oxford University Press, 1983, 582p
7. Widdowson H.G. Explanation in Applied Linguistics, Oxford: Oxford University Press , 243p

S. Hasanova

Linguodidactic bases of communicative competence at senior courses of language faculties

Summary

The article is about linguodidactic bases of communicative competence of senior courses of language faculties. Here also the importance of communicative competence and the role it plays during foreign language

learning are explained. In this article the theoretical bases of communicative competence has been researched and shown different points of views about communicative language teaching. We explained the difference between two versions of communicative language teaching. How “strong” and “weak” versions of CLT differ from each other and which version is more relevant. Specific characteristics of communicative competence have also been shown here. While communicative language teaching other factors also play important roles. Factors such as sociocultural differentiations, grammar and their roles in CLT are examined.

С. Гасанова

Лингводидактические основы коммуникативной компетентности на старших курсах языковых факультетов
Резюме

Статья посвящена лингводидактическим основам языковых факультетов. Здесь также смысл языка учебного процесса. В этой статье теоретические основы коммуникативной компетентности исследованы и показаны по-разному. Мы объясняем разницу между двумя вариантами обучения коммуникативному языку. Как «сильные» и «слабые» версии CLT отличаются друг от друга и какая версия более актуальна. Здесь показаны особенности коммуникативной компетентности. В изучение коммуникативного языка другие факторы также играют важную роль. Рассматриваются такие факторы, как социокультурные дифференциации, грамматика и их роль в CLT. Разныйе точка зрения относительно CLT и коммуникативной компетентности. Как мы знаем, результатом обучения языку должно быть то, что студенты имеют коммуникативную компетентность.

Rəyçi: Firuzə Rzayeva
Pedaqogika üzrə fəlsəfə doktoru

VÜSALƏ MİRZƏLİYEVA
Bərdə şəhəri F. M. Muradov adına 7saylı orta məktəb
e- mail: mirzeliyeva .vusale91@mail.ru

ORTA MƏKTƏBLƏRDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏYƏ DAİR

Açar sözlər: kommunikasiya,şifahi nitq, kontekst.
Key words:communication ,oral speech,context.
Ключевые слова: коммуникация, устная речь,контекст.

XXI əsr şəxsiyyətin formalaşmasında intellekt, yaradıcılıq, fərdiyyətçilik, tolerantlıq əsri kimi dəyərləndirilir. Yaradıcı təfəkkürün inkişafı, həmrəylik, müstəqillik cəmiyyətin demokratikləşdirilməsindən, şəxsiyyətin inkişafından və onun vətəndaş kimi formalaşma səviyyəsindın asılıdır. Yalnız yaddaşla, yəni aktiv və passiv yaddasaxlama ilə tələb olunan bütün informasiyaların öhdəsindən gəlmək mümkün deyildir. Ona görə də tədris–təlim prosesində təfəkkür fəaliyyətinə geniş imkanlar yaradılmalıdır.

Müasir təhsilin əsas məqsədi tədrisin səmərəliliyini artırmaq, gələcəkdə vətənimizi inkişaf etdirə bilən, öz düşüncəsi, ağlı, potensial enerjisi, güclü məntiqi ilə fənləri dərindən mənimsəyən və onu tətbiq etməyi bacaran, hər cür situasiyalarda işin məğzini tutub çıxış yolunu axtarmağı bacaran yüksək intelektli gənclər yetişdirməkdir. Bu xüsusda yeni təlim metodlarının tətbiqi labüddür. Elmin, texnikanın bu cür sürətlə inkişaf etdiyi bir dövrdə ənənəvi üsullardan əl çəkmək, yeni fəal-interaktiv təlim metodlarından yararlanmaq, onları lazımınca qavramaq və dərsləri bu aspektdə qurmaq müəllimlərdən böyük məsuliyyət və səriştə tələb edir.Azərbaycan təhsil standartı olan Milli Kurikulumda müəllimlərə ənənəvi tədris üsullarının əvəzinə yeni pedaqoji texnologiyalardan istifadə tövsiyə olunur. Bu dövlət sənədində müəllim bilik (informasiya) ötürən deyil, pedaqoji prosesi təşkil edən, ona nəzarət edən, şagirdə isə passiv bilik qazanan yox, bu prosesdə fəal biliklər toplusu əldə edən subyekt kimi xarakterizə olunur. Fəal təlimdə şagird zəruri biliklərə hazır şəkildə deyil, müstəqil yiyələnir; təlimin optimallaşdırılması nəticəsində şagrdin təşəbbüskarlığı, təlimə, proqram materialına marağı artır və təlim prosesinin fəal iştirakçısına çevrilir; dərsdə şagirdin öyrənmə fəallığı artır, təlimin səmərəsi yüksəlir; mexaniki yaddaş öz yerini təfəkkür əməliyyatlarına verir; şagird bilikləri konkret məsələlərin həlli prosesində dərk edir; mexaniki yaddasaxlamadan fərqli olaraq , məlumatın dərk edilməsinə və ondan yaradıcı şəkildə faydalanmağa üstünlük verir; şagirdin şəxsiyyətinə hörmətli münasibət, onun təşəbbüskarlığına, müstəqilliyinə geniş meydan vermək

onun öz qüvvəsinə inamını artırır. Tədqiqatlar göstərir ki, yeni pedaqoji texnologiya və təlim metodlarından səmərəli istifadə etməklə tədris prosesini daha maraqlı təşkil etmək, təhsil sistemini isə daha da optimallaşdırmaq olar. Bu iki amili nəzərə alınmaqla, şagirdlərdə aşağıdakı istiqamətlərdə inkişaf gedir: 1.Şəxsilikdən ictimailiyə doğru 2.Asılılıqdan müstəqilliliyə doğru 3.İKT-dən istifadə vərdişlərinə doğru 4.İntuisiyadan məntiqə doğru 5.Tək fikirlilikdən alternativliyə doğru 5.Yaradıcılığa və vizual effektlərə doğru 6.Müstəqil tədqiqat işlərinin aparılması vərdişlərinin təkmilləşdirilməsinə doğru 7.Analiz etmək, araşdırmaq, dərk etmək və ümumiləşdirmək qabiliyyəti artır. 8.Ətrafda mövcud olan hər hansı bir obyektin əlamətlərini xarakterizə etmək bacarığı formalaşır 9.Təbiətə sevgi və onun qorunması istəyi dərinləşir. 10.Kompüterin digər yeni proqramları ilə tanış olurlar 11.İnternetdən sərbəst və təhlükəsiz istifadə etmə bacarığı formalaşır. 12.Şəxsi araşdırmalarını təqdimat şəklində hazırlamaq bacarığı formalaşır.13. Sərbəst çıxış etmə qabiliyyəti yaranır.Dərs təlim prosesində mühüm yer tutur. Bilik, bacarıq və vərdişlər əsasən dərsdə verilir, şəxsiyyətin ahəngdar tərbiyəsinin də əsası (zehni, ideya-mənəvi, estetik, əmək, fiziki və b.) dərslərdə qoyulur. Buna görə də dərs təlimin və tərbiyənin əsas təşkili forması sayılır. Pedaqoji ədəbiyyatda belə bir haqlı müqayisə aparılır ki, günəş bir damla suda əks olunduğu kimi, təlimin bütün cəhətləri də dərsdə əks olunur. Buna görə də müəllim dərsin nəzəriyyəsi və təcrübəsinə yaxşı yiyələnməli, onu müasir tələblər əsasında qurmağa çalışmalıdır. Dərs sinif şəraitində sabit tərkibdə müəyyən rejimlə cərəyan edən, müəllim və şagirdlərin bilavasitə qarşılıqlı fəaliyyətinə əsaslanan təlimin məqsədyönlü kollektiv təşkili formasıdır. Dərs təlimin digər formaları üçün bünövrə təşkil edir. Dərsdə material nə qədər yaxşı mənimsənilərsə, digər formaların (ev tapşırıqları, əlavə məşğələlər və s.) da səmərəsi yüksək olar.

Hər bir dərs müəllimin pedaqoji-metodik simasını ifadə edir. Odur ki, müəllim hər bir dərsə böyük məsuliyyətlə yanaşmalı, onu yüksək səviyyədə qurmağı bacarmalıdır. Bunun üçün dərsə verilən müasir tələbləri yaxşı bilmək və onları düzgün tətbiq etmək lazımdır.Dərsə verilən tələblər çoxdur. Onları iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Dərsə verilən ümumi tələblər təlim prinsiplərində ifadə olunmuşdur. Dərsdə didaktik prinsiplər (həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Xüsusi tələblər isə bilavasitə dərslə bağlı tələblərdir. Onları aşağıdakı əsas qruplara bölmək olar: 1.Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür. Dərsdə təhsil, tərbiyə və inkişaf vəzifələri vəhdətdə həyata keçirilməli, real nəticələr əldə edilməlidir. Proqram materialı dərsdə mənimsənilibsə, şagirdlər müəyyən ideya-mənəvi keyfiyyətlərə və zehni qabiliyyətə yiyələnibsə, belə dərsi yaxşı dərs hesab etmək olar.2.Dərsdə təlim materialının optimal məzmunu müəyyən

edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək, öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, başlıca məsələlərini, fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli, dərs zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır.3.Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərsin məqsəd və məzmununa, şagirdlərin dərketmə imkanlarına uyğun olaraq, müvafiq metod və vasitələr kompleksi müəyyənləşdirilir. Dərs o zaman səmərəli olur ki, müəllim biliyi hazır şəkildə şərh etməsin, şagirdləri fəal axtarışlara cəlb etsin, onların müstəqil fikrini oyatsın. Bu məqsədlə dərsdə problemli vəziyyət yaratmaq, evristik müsahibə və diskussiyalar aparmaq, kitab üzərində yaradıcı iş təşkil etmək, təfəkkürə qida verən məntiqi metodlara (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə və s.) istinad etmək yaxşı nəticə verir. İki paralel sinifdə eyni mövzuda, eyni metodik variantda keçilən dərs müxtəlif nəticə verir. 4.Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalıdır. Dərs təşkilati mütəşəkkilliyi ilə seçilməlidir: vaxtında başlanmalı, yüksək intizama əsaslanmalı, optimal tempdə olmalı, intensiv qurulmalıdır (yəni az vaxtda yüksək nəticə əldə edilməlidir). Tədris-təlim prosesinin əsasını təşkil edən və bir-birilə üzvü əlaqədə olan-məqsəd, məzmun, forma, metod, üsul və vasitə kimi komponentlərin ümumi vəzifəsi fəal təlimin müvəffəqiyyətlə həyata keçirilməsini təmin etməkdir. Fəal təlim şagirdlərə aşağıdakı keyfiyyətləri, qabiliyyətləri və bacarıqları aşılayır: 1.İlk növbədə şagirdlərin cəmiyyətə inteqrasiyasını tezləşdirmək və gücləndirmək üçün onlarda yeni ideyaların təşəkkül tapmasına və inkişafına, daha dəqiq desək, gənclərin formalaşmasına xidmət edir; 2.Şagirdlərin özlərini kəşf etmək və ifadə etmək bacarıqlarını üzə çıxarır; 3.Şagirdlərin müstəqil düşünmə, öyrənmə və təhlil etmə qabiliyyətlərini gücləndirir və inkişaf etdirir; 4.Şagirdlərdə müşahidə etmək, yaradıcı olmaq və tədqiqat aparmaq, tənqidi düşünərək problemi həll etmək və s. bacarıqları yaradır; 5.Şagirdlərə ümumi anlayışı öz sözləri ilə ifadə etmək, izahat vermək və bu haqda şifahi fikir mübadilələri aparmaq imkanı verir; 6.Keçilmiş və əlbəttə ki, mənimsənilmiş mövzunun yeni şəraitə tətbiqi, o cümlədən, onun yadda qalması üçün daha yaradıcı və özünəməxsus yolların axtarıb tapılması və s. kimi xüsusiyyətləri inkişaf etdirir. Fəal tədris üsulunda keçirilən mövzunu şagirdlərə çatdırmaq üçün müəllimin xüsusi qabiliyyətləri, ilk növbədə güclü ünsiyyət qurmaq bacarıqları olmalıdır. Bunu isə müəllim ancaq sorğu-sual, debatlar, müzakirələr, oyunlar, forumlar, komanda işi, qruplarda iş və s. vasitəsilə edə bilər. Bütün bunlar isə ilk növbədə hər bir müəllimdən yüksək peşəkarlıq və şəxsi məsuliyyət tələb edir. Müxtəlif kompüter proqramlarından istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdən biridir. İnnovasiya sistemindən istifadə müasir təhsildə beynəlxalq standartlar deməkdir. Elektron vasitələrdən istifadə etmək üçün ilk növbədə müəllimin kompüter bilikləri olmalı və o, onlardan

istifadəni bacarmalıdır. Proqramlar içərisində Power Pointə önəm verilir. Məhz bu proqram vasitəsi ilə müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq, vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Şagirdlər eşitdiklərini vizual gördükləri zaman mövzu daha aydın və maraqlı olur. Power Point proqramı interaktiv üsulla keçirilən məşğələlərdə şagirdin mövzuya tənqidi yanaşmasını və beyin hücumunu inkişaf etdirmək üçün çox vacib bir vasitədir. Yuxarıda dalanan metodlar fəal təlim üsulunun tədrisi üçün çox vacib elementlərdir. Xüsusi ilə Power Point proqramından interaktiv üsul kimi istifadə edərək, mövzunun təqdim edilməsi məşğələləri daha da maraqlı və cəlbedici edir. Müasir dərsin əsas cəhətlərindən biri şagirdlərin fəallığıdır ki, buna da interaktiv (fəal) təlim metodlarından istifadə etməklə nail olmaq mümkündür. Bu metodlara əsasən iş forması müəyyən edilir: fərdi, cütlərə, böyük və kiçik qruplarla iş daha əlverişlidir. Şagird ünsiyyət prosesində özünü daha yaxşı dərk etdiyinə görə istər qrup, istərsə də cütlərlə işdə fəallıq, bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlər formalaşır. Müəllim dərs formasını seçərkən şagirdlərin marağını nəzərə almalıdır. Bugün dərsdənkənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən şagird və tələbə dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Bunun üçün müəllimin İKT-dən yüksək istifadə etmək bacarığı olmalıdır. Həm də bu texniki təminatı lazımi materiallarla zənginləşdirməyi bacarmalıdır. Başqa sözlə desək, mövzuya uyğun resursları seçməlidir ki, bu resursların da rəngarəngliyi dərsin maraqlı keçməsinə, qarşıya qoyulan məqsədə nail olmağa imkan yaradacaqdır. Belə dərslərdə həmçinin digər texniki təminatların olması dərsin səmərəliliyini artırır.Müəllim dərsə yaradıcı yanaşmalıdır, məzmun standartlarına əsasən dərsin məqsədini müəyyənləşdirməlidir. Bu zaman öyrədici, inkişafetdirici, tətbiqedici funksiyalar nəzərə alınmalıdır. Beləliklə, müasir dərsdə haqqında bəhs etdiyimiz bu məsələlər bir-biri ilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bunların əsasında isə təlim nəticələri, məzmun standartları, təlim strategiyaları dayanır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, “Təhsil” jurnalı, 2013, №10, s.4-16
2. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Təhsilin Modernləşdirilməsinin Elmi-Nəzəri Problemləri. Bakı, Mürtəcim, 2015, 450 s.
3. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Müasir Təhsilə İnnovativ Yanaşmalar. Bakı, ARTPİ, 2016, 250 s.
4. Əsgərov. M. B. Linqvopsixologiya və ya Dilin Psixologiyası. Bakı, “Elm və Təhsil”, 2011, 308 s.

5. Məmmədov. N., Axundov. A. Dilçiliyə giriş. Bakı, Maarif, 1980, 315 s.
6. Veysova Z. Fəal/İnteraktiv Təlim.Müəllimlər üçün vəsait. UNİCEF, 2007, 149 s.

V. Mirzəliyeva

On using innovative methods at schools

Summary

The article deals with the problem of working out effective ways of using innovative methods at schools.Today the main goal of teaching and learning languages in the global world is developing language learners' ability. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system.

The process of teaching should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching should be goal-oriented and systematic. One of the main goals of language learning is to acquire the ability effectively.

В. Мирзалиева

К вопросу об использовании инновативных методах в школах

Резюме

В данной статье рассматриваются пути использование инновативные методы в школах. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения. Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании.

Обучением языках должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению ефективности данного процесса.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATŞÜNASLIQ

ŞÜKUFƏ QƏDİMOVA
Filologiiya üzrə fəlsəfə doktoru, dosent
BDU
gadimova@mail.ru

ANADOLUDA DİNİ-TƏSƏVVÜFİ TÜRK ƏDƏBİYYATI VƏ YUNUS EMRE YARADICILIĞI

Açar sözlər: Anadolu, sufizm, Təsəvvüf ədəbiyyatı, Yunus Əmrə.
Key words: Anatolia, sufism, sufi literature, Yunus Emre.
Ключевые слова: Анатолия, суфизм, суфийская литература, Юнус Эмре.

Anadoluda təsəvvüfün yaranma tarixini dəqiq müəyyənləşdirmək çətindir. Təbii ki, bu proses islamın qəbulundan və türklərin Anadoluya yerləşməsindən sonra başlamışdır. Tarixi mənbələr belə deməyə əsas verir ki, Anadolunun islamlaşması uzun çəkmişdir. (1, s.10) İslamda fərqli düşüncə və baxışları ifadə edən təsəvvüfün Anadolu arealında özünə yer tutması üçün təqribən bir əsr vaxt keçmişdir. Ona görə də XIII–XIV yüzilliyi türk ədəbiyyatında təsəvvüfün yaranmaşı, təşəkkülü və inkişafı tarixi kimi qəbul etmək məntiqə uyğundur. Çünki qeyd olunan dövrdə Avropa dövlətlərinin Şərqə, guya Qüdsü xilas etmək bəhanəsi altında, səlib yürüşləri başlamışdı onların əsl məqsədi isə türklərin Ön Asiyada yerləşməsinə imkan verməmək idi.

Səlahəddin Əyyubinin rəhbərliyi ilə onlara qarşı dayanan bir türk cəmiyyəti fəaliyyətə keçmişdi. Avropalılar Səlib yürüşünə haqq qazandırmaq məqsədilə dindən fəal istifadə edirdilər. Güclü ideolji silah olan xristian təbliğatına qarşı türklər də əks tədbirlər görməyə başladılar. Bu zaman təkkə və din ədəbiyyatı onların köməyinə gəldi. Səlibçilərə qarşı ölüm-dirim savaşına gedən türk əskərlərinə mənəvi baxımdan ruh verən ədəbiyyata ehtiyac yaranmışdı. Yerlərdə ərənlər, alpərənlər və əxilər təşkilatı təşkil edilirdi. Hamısının məqsədi türk döyüşçülərinə maddi və mənəvi dəstək vermək idi. Bu proseslər türk təsəvvüfünün inkişafı üçün maddi-müqəddəm şərt və təməl hesab edilirdi.

Digər tərəfdən XI əsrdə Xorasanın monqollar tərəfindən işğalı nəticəsində orada, başda Ahmed Yesevi və onun ardıcıllarının sistemləşdirdikləri türk-islam dünyagörüşü təhlükə altına düşmüşdü. Təbii olaraq, işğal ərazisindən uzaqlaşan türk ərənləri və alpərənləri Anadoluya pənah gətirirdilər. Nəticədə Anadolu ərazisində Xorasan ərənlərinin mənəvi ocaqları sürətlə artmağa başladı. Bu ocaqlarda tərbiyə olunan müridlər təsəvvüf fikirləri ilə aydınlanır, onlar da öz növbəsində bu mənəvi məfkurə məşəlini oba-oba, kənd-kənd yayırdılar. Mövlana məhz bu dövrün təbii yetişdirməsi olaraq ortaya çıxmış və o zamanın təsəvvüf ərənlərinin liderinə çevrilmişdi. XIV əsrin sonlarına doğru, demək olar ki, bütün yerlərdə təsəvvüf mürşidlərinin dərgahı, təkkəsi və ocağı fəaliyyət göstərirdi. (2, s.22)

Şübhəsizdir ki, bu təsisatlar Anadoluya yeni ruh, düşüncə, əxlaqi dəyərlər, inanc və hərəkət proqramı gətirmişdi. Məişət problemlərinin məngənəsində sıxılan, dünyəvi işlərdə uğursuzluqdan qurtula bilməyən, maddi nemətlərdən məhrum qalanlar təsəvvüf ideoloqlarının xüsusi şövq ilə tərifləmələri axirət dünyasına getməyə, orada vəd olunan əbədi zövq və nemətlərdən tezliklə yararlanmağa tələsirdilər. Saray əhli və zənginlər üçün dini dəyərləri bir əyləncə şəklində təqdim edən təsəvvüf, xalq üçün onu əxlaqi meyarlar və davranış olaraq təbliğ edirdi.

Bəzən təsəvvüfün bu cazibədar ideyasını zənginlər içərisində yetişmiş əsilzadələr də mənimsəyib qəbul edirdi. Türk təsəvvüfünün təməlində öncə əxilik "qardaşlıq" təriqəti dayanırdı. Monqol istilasından sonra yayılan əxilik bir qurtuluş yolu olaraq qəbul edilmişdi. "Güclü düşmənə qarşı ancaq birgə mübarizə nəticəsində dayanmaq olar" prinsipinin önəmini hamılıqla dərk edən türk toplumu dini-iqtisadi birliklər şəklində təşkilatlanırdı. Əslində əxilik ideyası mahiyyətcə Qurani-Kərimdən irəli gəlir. Çünki – *iman sahibləri gerçəkdən qardaşdırlar* – kəliməsi Quranın əsas anlayışları sırasındadır. Əxilik yavaş-yavaş təsəvvüfi rənglər alaraq sonralar mövləvilik, bektaşilik, məlamətilik, nəqşibəndilik, bayramilik və s. təriqətlərə parçalandı.

Lakin onların hamısı, dövlətçilik ideologiyasına xidmət etmişdir. Məsələn, əxilik təriqətinin məşhur təmsilçisi Şeyx Edəbalı Osmanlı imperiyasının qurucusu Osman Qazinin qayınatası olmuşdur. Tanınmış təkkə və din nümayəndələrinin əksəriyyəti təriqət təşkilatları arasında yetişmişdir. (3, s.296)

Təsəvvüf Anadolu coğrafiyasına islamla birlikdə gələrək, istər yüksək təbəqə, istər sə də sadə xalq tərəfindən mənimsənilərək surətlə yayılmağa başlamışdır ki, bunun da nəticəsində, yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif təriqətlər meydana gəlmişdir.

Mübaliğəsiz qeyd etmək olar ki, Anadolu türklüyünün möhtəşəm ruh dünyasının ilk sırasında Yunus Emre gəlir. Tərəddüd etmədən onun ən böyük Anadolu ərəni olduğunu söyləmək olar. Yunusa görə, təsəvvüf, ilahi

əxlaqi keyfiyyətlərə yiyələnmək, hər cür pisliklərdən təmizlənmək, ruhun paklanması və insanın kamilləşməsidir. Yunus Emre coşğun ilahi eşqin təsiri altında yazıb yaratmışdır. O, dünyəvi eşqdən yüksələrək ilahi eşqə yönələ bilmişdir:

Dört kitabın manisin okudum ezber itdüm,
Aşka gelince gördüm bür uzun hece imiş. (4, s.320)

Yunus Əmrə xalq danışıq dilini duyğu dolu bir biçimdə və bənzərsiz şəkildə, daha çox heca ölçüsündə, arabir də əruz vəznində özünəməxsus tərzdə ifadə etmişdir. Bu baxımdan o, türk milli ədəbiyyatının banilərindən biri sayılır. Ahmed Hamdi Tanpınar onu "Türkçenin kapısı" adlandıraraq belə yazmışdır: "...bugün şiirimize ve edebiyatımıza bakarsanız aruz tecrübesini inkar eder etmez, hemen hemen seçilen ve beğenilen taraflariyle dilde Yunusa dönmek demektir". (5, s.351)

Yunus Emre, Dədə Qorqudun "gəlimli gedimli dünya" fikrini şeirlərində bir qədər dəyişik şəkildə təkrarlayır (Yunus, s.14):

Bu dünyaya gelenlerin hiç birisi kalmaz imiş,
Fena imiş dünya işi, giden geri gelmez imiş.
Bizden önce ölenlerin, yer altına gidenlerin
Şimdi nasıldır halleri, burda kalan bilmez imiş.

Yunus Emrenin şeirlərini oxuyan hər bir insan görər ki, o, hər zümrədən olan insana, hər irqdən olan adama eyni dərəcədə sevgi bəsləmiş, onlar arasında ayrıseçkilik göstərməmişdir. Onun şeirlərində bütünlükdə bəşəriyyətə sevgi hissləri hakimdir. Kin, ədavət, qisasçılıq, həsəd, dedi-qodu Yunus Emre düşüncəsində yaddır və sanki sevgi ilə bütün bəşəri qardaşlaşdırmaq istəmişdir.

Demək olar ki, Orta Asiyada Ahmed Yesevi ilə başlayan türk sufi poeziyası Anadoluda Yunus Emrenin simasında özünün zirvə nöqtəsinə çatmışdır. Tərkidünyalığı, faniliyi, zəhmətin boşluğunu, pessimizmi, nihilist görüşləri əks etdirən şairlərdən fərqli olaraq, Yunus Emre son nəfəsədək ümidlə yaşamağın, çalışqanlığın, hər şeyin mümkünlüyünə inamın, qardaşlığın carçısı olmuşdur. İnamla qeyd etmək olar ki, bu cəhətinə görə təkkə ədəbiyyatı nümayəndələri arasında indiyə qədər ondan üstün şair yetişməmişdir (Bax: 6):

Hakkı gerçek sevenlere
Cümle alem kardeş gelir...

Yunus Emrenin şeirlərində sadə türkcənin bulaq kimi çağlayan səsi gəlir. Hər cür saxtakarlıqdan, ikiüzlülükdən, zorakalıqdan uzaq, qəlbdən gələn səmimi deyimlərlə bəzənmiş şeirləri ilə bu ulu türk sufisi insanları birliyə səsləyir:

Gelin tanış olalım,
İşi kolay kılalım.
Sevelim, sevilelim
Dünya kimseye kalmaz...

Yunus Emreni nəsillərdən-nəsillərə, əsrlərdən-əsrlərə yaşadan, əbədiləşdirən sevgi dolu poetik ruhdur. Türk təsəvvüf şeirinin banilərindən sayılan Yunus Emre bəzən fani dünyanın fövqünə yüksəlmək, sərhədləri aşmaq istəyir. Yunus Emrenin əsərlərinin hamısı günümüzə gəlib yetişməmişdir. Bu gün ondan bədii irs olaraq "Divan"ı və "Risalatün-Nüshiye" adlı məsnəvi qalmışdır. Yunus Emrenin şeirlərini mütaliə edərkən belə qənaətə gəlmək olar ki, o, yaxşı təhsil almış, hətta ərəb və fars dillərini də sərbəst şəkildə bilmişdir.

Bursalı Şeyx İsmail Həqqi Yunus Emre yaradıcılığına dərindən bələd olmuş, onun malik olduğu poetik gücü aydın dərk etmişdir: "Yunus'un nazmettiği marifetler, Türk lisanı üzre hiç kimseye nasip olmamıştır. Vecümle ondan sonra gelip nazm-i maarif edenler, onun sofrasında tüfeyli olmuşlardır". (7, s.281) Məşhur mütəsəvvüf Niyazi Mısrı yazır ki, Yunus Emrenin "Şathiye" əsəri üzərində tam səkkiz ay düşünmüşdür. Bir yerə çıxmayınca röyasında Yunus Emreni görmüş və ondan bu əsərini anlamaq üçün yardım etməsini rica etmişdir. (7, s.281) Müasirləri Yunus Emreni tərifləyib, onun savadlı olduğunu israrla bildirsələr də o özü təvazökarcasına "ak üstüne kara yazı yazmadığını" söyləmişdir. (Bax: 8)

Bəzən "ümmi" olduğunu açıqlamış, bəzən də "elif okusa da, be diyemeden mektebden çıxdığını" etiraf etmişdir. Bəlkə də müəyyən mənada Həzrəti- Məhəmməd əleyhüssəlamı təqlid etməyi xoşladığından belə sözlər söyləmişdir. Məsələ burasındadır ki, dünyanın əşrəfi, xətmül-ənbiya Rəsulillah əfəndimiz "mən ümmiyəm" ifadəsini təkrarlarmış. Bu ifadə Quranda da verilmişdir. Bu isə Allah vergisi mənasını bildirir. Yunus Emrydə bu fikir həm də Allahın, sonsuz elmi müqabilində zərrə belə olmayan insan elminin heçnə olmadığı mənasını daşıyır. Onun şeir fəlsəfəsi "sevelim sevilelim" prinsipinə əsaslanmışdır. Müəllifə görə ibadətin en önəmlisi Allah sevgisidir. Yunus Emre tərəddüdsüz şəkildə inanmışdır ki, mütləq xoşbəxtlik və səadət yalnız və yalnız Haqqı əvəz istəmədən sevməklə mümkündür.

Ona qovuşmanın yeganə yolu da fədakar sevgidən keçir. Təsəvvüfün ən ali mərtəbəsi sayılan "fəna fi-llah" məqamına yüksəlmə, Yunusun düşüncəsinə görə, tərəddüdsüz sevgi sayəsində mümkündür. (7, s.273)

Yunus Emre bütün kainatın təməlində dörd məşhur ünsürün dayandığını qəbul etmişdir. Onun fikrincə, su – təmizlik, səxavət, nikbinlik və Yaradana qovuşma rəmzidir. Torpaq – səbri, xoş xasiyyəti, qənaəti və imanı təcəssüm etdirir. Hava – saxtakarlığın, riyanın, tərəddüdün, tələskənliyin simvoludur. Od isə təkəbbürün, ehtirasın, həsədin, qısqanclığın və qisasçılığın göstərgəsidir. Od ilə hava üstün olduğu insanlar bəd ruhlu olurlar, şeytani işlərə, ədalətsizliyə və əxlaqsızlığa çox meyillik özünü göstərir. Bunun çarəsi ilahi eşqdədir. (4, s.324)

Yunus Emre eyni zamanda bədii sözə yüksək dəyər vermişdir:

Söz ola kese savaşı,
Söz ola bitire başı.
Söz ola ağulu aşı,
Bal ilə yağ ede bir söz.
Kişi bile söz demini,
Demeye sözün kemini.
Bu cihan cehennemini
Sekiz uçmağ ede bir söz.

Yunus Emrenin haqqında hələ çox danışmaq olar. Onun həyat və yaradıcılığı dünyanın bir çox alimləri tərəfindən araşdırılmaqdadır. Biz Yunus Emrenin Türk ədəbiyyatındakı yeri haqqında fikirlərimizi ümumiləşdirərək, Ahmed Kabaklının söylədikləriylə yekunlaşdırmaq istərdik: "Yunusun şiir dili, 13. ve 14. yüzyıllar halk Türkçesidir. Oğuz şivesini, en yüksek bir edebiyat dili halinde yazmak ve sonra gelen bütün şairlere en mükemmel örnekler bırakmak gibi bir üstünlüğü başarmıştır. Yunus, o zamanki Oğuz-Türkmen halkının ve okumuşlarının kullandığı ortak dili sezmiş, onu dehası ile yoğurarak eşsiz şiir üslubunu meydana getirmişdir.

Muhteva yönünden Yunusun şiirleri, ahenk, anlam, mecaz, duyqu ve düşünce zenginliği yüklüdür. Ahenk bakımından hiçbir özentisi olmadığı halde düşünce ve duyuşlarını, olabilecek en güzel ve en kısa deyişlerle söylemek sırrına ermiştir.

Yunus Emre, yepyeni bir mecaz örgüsü kurmuştur. Bu yolda getirdiği büyük yenilik iç duyqularını ve felsefi görüşlerini müşahhas (somut) eşya ve tabiata ait unsurlarla canlı bir hale koymaktır". (4, s.326-327)

Beləliklə, qeyd etməliyik ki, X əsrdən başlayaraq Anadolu coğrafiyasında təsəvvüf cərəyanı inkişaf etməyə başlamışdır. Təsəvvüfi şeirlərinin mənşəyi ərəb ədəbiyyatı olsa da, onlar fars ədəbiyyatından türk ədəbiyyatına keçərək, demək olar ki, bir "söz sənətinə" çevrilmişdir.

Təsəvvüfi anlayışlar şairlər üçün çox zəngin mövzu qaynağına çevrilmişdir. XIII əsrdə Anadoluda təsəvvüf fəlsəfəsinin geniş yayılması nəticəsində, təsəvvüfi ədəbiyyat yaranmağa başlamışdır və yeni inkişaf

etməkdə olan Türk şeiri onun güclü təsiri altında qalmışdır. İlk türk mütəsəvvüf şairi isə Mövlanə Cəlaləddin Rumidir ki, onun fəlsəfəsi demək olar ki, bütün sonrakı təsəvvüf şairlərin yaradıcılığına böyük təsir göstərmişdir.

XIII əsrdə Anadoluda təsəvvüf cərəyanının güclənməsi, ərəb və fars dillərində təsəvvüfi əsərlərin zənginliyi, şübhəsiz, türk dilində də belə əsərlərin mövcudluğunu tələb edirdi. Buna görə də, ərəb və fars mütəsəvvüflərinin təlimi yetişən türk mütəsəvvüfləri öz ətraflarında daha çox insan toplamaq məqsədiylə, xalqa yaxın "türk"cədə əsərlər meydana gətirmək məcburiyyətində idilər. Bunun nəticəsində, XIII əsr Anadolusunda Ahmed Fakih, Şeyyad Hamza kimi təsəvvüf şairlərinin və Sultan Veledin türkcə ilk təsəvvüfi şeirlərinin meydana gəlməsini müşahidə edirik. Bu dövr bir tərəfdən Yunus Emre kimi böyük şairi, digər tərəfdən isə Hoca Dehhani kimi bir şəxsiyyəti yetişdirərək Türk ədəbiyyatında yeni bir təkamül mərhələsini başlatmışdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Şerefeddin Yaltkaya. Mevlanada Türkçe Kelimeler ve Türkçe şiirler. İstanbul: 1934, 90 s.
2. Тримингем Дж. Суфийские ордены в Исламе. М.: Наука, 1989, 327 с.
3. Banarlı Nıhat Sami. Resimli Türk Edebiyatı Tarihi: 2 ciltte, İstanbul: Milli Eğitim Basımevi, 1987, I c, 683 s.
4. Kabaklı Ahmet. Türk Edebiyatı: 5 ciltte. İstanbul: Türk Edebiyatı vakfı yayınları, II c., 2006, 752 s.
5. Tanpınar Ahmet Hamdi. Edebiyat Üzerine Makaleler. İstanbul: Dergah Yayınları, 1977, 522 s.
6. http://ikem.com.tr/ek_duyuru/semanur_yavuz_makale/yunusemre.pdf
7. Köprülü Mehmet Fuat. Türk Edebiyatı Tarihi. İstanbul: Ötüken Yayınları, 1986, XXIV + 437 s.
8. http://yunusemre.wordpress.com/2006/12/19

Ш.Гадимова

Религиозно-суфийская турецкая литература в Анатолии и творчество Юнуса Эмре.
Резюме

Очень сложно определить время появления суфизма на территории Анатолии. Естественно, суфизм начал распространяться в Анатолии с принятием Ислама. Основываясь на исторические доку-

менты, можем сказать, что процесс исламизации Анатолии произошел не сразу, на это ушли годы. И безусловно, для того, чтобы суфизм прочно утвердился среди тюрков, понадобился целый век. На почве суфизма выросли многочисленные тюркские и турецкие поэты, многие из которых заняли заслуженное место не только в турецкой, но и в мировой литературе. Одним из таких поэтов явился Юнус Эмре. Юнус Эмре считается основоположником турецкой суфийской поэзии. К сожалению, не все произведения этого великого поэта дошли до наших дней. На сегодняшний день самыми известными его произведениями являются «Диван» и месневи «Рисалетун-Нусхийе». Судя по творчеству, поэт был всесторонне развитым человеком и прекрасно владел арабским и персидскими языками.

Sh.Gadimova

Religious-Sufi Turkish literature in Anatolia and the works of Yunus Emre

Summary

It is very difficult to determine the time of appearance of Sufism of the Anatolian lands. Of course, Sufism began to spread in Anatolia with Islam. Based on historical documents, I can say that the process of Islamization of Anatolia did not happen immediately, it took years. And of course, in order to Sufism is firmly established among the Turks, it took a century. On the basis of Sufism grew numerous Turkic and Turkish poets, many of whom took a well-deserved place not only in Turkish but in world literature. One of the poets was the Yunus Emre. Yunus Emre is considered the founder of Turkish Sufi poetry. Unfortunately, not all the works of this great poet has reached our days. To date, his most famous works are "Divan" and mesnevi "Risalatul-Nushie". Judging by the creativity, the poet was a well-rounded person and an excellent knowledge of Arabian and Persian languages

Rəyçi: Mahirə Quliyeva
Filologiya elmləri doktoru, professor

КЕНУЛЬ КАСУМОВА
доктор философии по филологии, доцент
Бакинский славянский университет
konul@mail.ru

ЗДЕСЬ РУССКИЙ ДУХ, ЗДЕСЬ РУСЬЮ ПАХНЕТ

Açar sözlər: filologiya, rus ədəbiyyatı, ənənələr, müasirlik.
Ключевые слова: филология, русская литература, традиции, современность.
Keywords: philology, Russian literature, traditions, modernity.

Филология на современном этапе непосредственно обращена к национальной культуре. При этом современный уровень науки вполне может позволить себе игнорировать дифференциацию филологии на лингвистику и литературоведение. Провозглашение текста основной единицей лингвистического анализа, на наш взгляд, может ознаменовать возвращение к традициям классической филологии. Классически филологический анализ же так или иначе выявлял национальное своеобразие и литературного текста, и языка, на котором он написан, и культуры в целом, к которой имеет отношение тот или иной текст.

Современная русская литература не может не продолжать традиций русской классической литературы. Вообще, любая литература как культурное явление не вольна находиться вне культурно-исторических рамок, вне традиционного культурного пространства. Этот факт тем более значим, что современное русское искусство, и художественная литература в том числе, во многом характеризуется как эпигонское. Эпигонство характеризует и массовое искусство, и моду, и музыку, и художественную литературу. В который раз за 300-летнюю историю, считая от Петра Великого-преобразователя, прорубившего окно в Европу, Россия пытается доказать себе, что она не Азия, а Европа. Парадоксальность культурологической ситуации особенно выпукло представляется на фоне воспоминаний о деспотизме, с которым Петр вводил европейские порядки на Руси, и об упорстве, с которым русский народ противился нововведениям. Вспомним А.С.Пушкина, который писал, что «Перемена русского платья, бритье бород, немецкие обычаи, иностранцы – причины мятежей и кровопролития» (2, 10). Но тот же А.С.Пушкин отмечал и следующее: «Народ, упорным постоянством удержав бороду и русский кафтан, доволен был своей победою и смотрел уже равнодушно на немецкий образ жизни обритых своих бояр. Новое поколение, воспитанное под влиянием европейским, час от

часу более привыкало к выгодам просвещения» (1, 89). В современной русской литературе, на наш взгляд, сохраняются следы этого противостояния. Другой вопрос, насколько справедлива художественная литература, подобным образом представляющая современную действительность. Прослеживая связь современной литературы с литературой прошлых столетий, можно фиксировать внимание на самых разных вещах. Можно вспомнить Василия Шукшина с его стремленим изобразить в художественной форме русскую бесшабашность и русскую удаль, русскую беспричинную тоску и широту русской души. А можно вспомнить и Людмилу Петрушевскую с ее глубинным трагизмом самой что ни на есть обыденной русской жизни. И Шукшина, и Петрушевскую, хотя это и писатели разных поколений, но все же современные, можно связать с великими русскими писателями XIX столетия. На ум приходят, прежде всего Ф.М.Достоевский и А.П.Чехов. Надрыв непосредственно объединяет Шукшина с Достоевским, а идиотизм повседневности – Петрушевскую с Чеховым.

Связь современной русской художественной литературы с классической традицией прослеживается и на знаковом уровне, при этом знаками, естественно, выступают знаковые образы. Если у того же Шукшина знаковым образом является образ бесшабашного русского мужчины, или мужчины тоскующего, воющего от тоски, то у Петрушевской – это знаковый образ женщины, истосковавшейся по мужской ласке. Анализ русской художественной литературы двух последних столетий со всей очевидностью свидетельствует о том, что одним из важнейших знаковых образов русской литературы является образ строгой и непреклонной верующей женщины. Прекрасные примеры на этот женский тип можно найти у Ф.М.Достоевского, Л.Н.Толстого, Н.С.Лескова и других русских писателей золотого и серебряного века. В современной русской литературе, на наш взгляд, очень удачным в этом плане является образ Василисы из романа Людмилы Улицкой «Казус Кукоцкого».

Роман «Казус Кукоцкого», как и все произведения Л.Улицкой, является произведением интеллигентным и об интеллигенции. Интеллигентность романа незаметными нитями пронизывает текст с самого начала и до самого конца. Вот первый абзац романа: «С конца семнадцатого века все предки Павла Алексеевича Кукоцкого по мужской линии были медиками. Первый из них, Авдей Федорович, упоминается в письме Петра Великого, написанном в 1698 году в город Утрехт профессору анатомии Рюйшу, у которого за год до того под именем Петра Михайлова русский император слушал лекции по анатомии. Молодой государь просит принять в обучение сына

аптекарского помощника Авдея Кукоцкого «по охоте». Откуда взялась сама фамилия Кукоцких, доподлинно не известно, но, по семейной легенде, предок Авдей происходил из местности Кукуй, где построена была при Петре Первом Немецкая слобода. С того времени фамилия Кукоцких встречается то в наградных листах, то в списках школ, заведенных в России с Указов 1714 года. Служба после окончания этих новых школ открывала «низкородным» дорогу к дворянству. После введения табели о рангах Кукоцкие по заслугам принадлежали «лучшему старшему дворянству во всяких достоинствах и авантажах» (3, 7). В приведенном вступлении важно и знаменательно всё, все детали текста. Во-первых, знаковой фигурой для истории и культуры России, естественно, является Петр Великий. С него начинается современная прозападная культура России, в том числе и собственно интеллигентность вообще. С другой стороны, своеобразный аристократизм Кукоцких, безусловно состоит в том, что они упоминаются в письме Петра. Более того, важна и такая деталь как причина упоминания. Ведь не стал бы царь просить немецкого профессора, если бы его протеже не отличался особой одаренностью и любовью к наукам. Об этом не говорится, но имя Петра и факт просьбы актуализирует всю историко-культурную информацию об эпохе. Во-вторых, важно и то, что Кукоцкие были «низкородными», и то, что они удостоились «лучшего старшего дворянства». Таким образом, интеллигентская закваска налицо. Это, что называется, летопись семьи. А вот эмоциональная картинка и тоже в самом начале. В детстве Кукоцкий, герой романа, любил прятаться в кабинете отца, между выступом голландской печки и шкафом, где он читал «три заветных тома известнейшей в свое время медицинской энциклопедии Платена». Отец действительно застал нашего героя, но не рассердился, а «дал ему кое-что получше – это был трактат Леонардо да Винчи «Dell Anatomia», литер А, на восемнадцати листах с двумястами сорока пятью рисунками, изданный Сабашниковым в Турине в конце девятнадцатого века. Книга была невиданно роскошной, отпечатана в трехстах пронумерованных от руки экземплярах и снабжена дарственной надписью издателя» (3, 9).

Интеллигентская аура романа создается с первых же страниц и носит тотальный характер. Это и человеческие характеры, и вещи, и отношение к людям и вещам, и работа, и учеба. Интеллигентский характер носит даже «бегство от интеллигентности» Тани. В этот устойчивый мир русских интеллигентов попадает Василиса с ее непроходимой тупостью, святой верой, верностью своим хозяевам, неукоснительностью в выполнении своих обязанностей. Необходимо отметить, что все качества, характеризующие Василису, крайне важны

для образа. Несмотря на то, что образ не совсем вписывается в художественную структуру романа, он не производит впечатление лишнего и надуманного. Не вписывается он по той простой причине, что образ не образует художественной конфигурации в пространстве романа. Василиса высится как скала. Это своеобразный Квазимодо Улицкой, столь же безобразна, столь же глупа, столь же фанатична. Василиса даже наделена «одноглазием». Образ не вписывается, не создает конфигурации, но соответствует традиции. Причем традиция характеризует как художественное изображение, так и культурную среду. В русской интеллигентской среде было принято нанимать кухарок и нянь из деревень, честных и чистых, строгих и добрых женщин, часто одиноких. Эти няни пользовались большим авторитетом в тех домах, где они служили, а хозяева относились к ним не только с уважением, но и с любовью. Фактически на этих «нянях» держался дом.

Очень значимой, а вовсе не пошлой, оказывается и самая существенная информация о Василисе: «Василиса совершенно точно знала, откуда пришла и куда уйдет: из земли в землю» (3, 87). Если бы Улицкая не ввела интерпретацию, притягивающую дискурс к современности, то приведенная фраза прозвучала бы почти по-библейски. Но интерпретация носит не просто актуальный характер, но и несколько комический. Во всяком случае оттенок комизма присутствует: «Сегодняшним языком выражаясь, у нее было сознание командированного, которому надлежит исполнить возложенное задание и вернуться к месту постоянной работы» (3, 87). Василису на всем ее жизненном пути сопровождают различные несчастия: «Первое Василисино несчастье случилось с ней очень рано. Ей было два года, когда единственный на родительском дворе петух, неказистый и безголосый, подпрыгнув клюнул ей в глаз» (3, 87). С тех пор сиротство, голод и болезни соповождают Василису, пока она не попадает в Оптину Пустынь. В монастыре она ни на что не годится, даже гладить ее научить не могут, настолько грубы ее руки. Наконец, по просьбе «гимназической подруги» в ее судьбе принимает участие игуменья. «Игуменья стала учить Василису чтению, сначала по-русски, потом и на церковно-славянском. Ученье давалось Василисе с большим трудом. Матушка Анатолия, всю жизнь знавшая за собой недостаток терпения, упражняла себя в смирении, обучая милую, но исключительно неспособную к учению девушку» (3, 94). О чем говорить! Василиса никак не может запомнить, что *днесь* – это не «днем», а «сейчас». «Днесь – значит сейчас, теперь, вот здесь… Дева днесь Пресущественного раждает… – повторяла учительница несчетный раз, отгоняя раздражение краткой молитвой. И Василиса радостно кивала, а

назавтра снова мучительно искала в низком беленом потолке ответа на вопрос, что есть «днесь» (3, 94).

Таким человеком невозможно не помыкать, трудно не смеяться над ней, не раздражаться. Все это и окружает ее в монастыре. Однако характерной особенностью Василисы оказывается удивительная терпимость: «но никогда ни одного слова жалобы не слышала она от глуповатой послушницы: только непрестанная благодарность шла от нее» (3, 95-96). Василиса, таким образом, не только чувствует свою «командированность» на этот свет, но и «щедро одарена редким даром благодарности».

Интересно, что в романе «Казус Кукоцкого», как и во всех других произведениях Улицкой, присутствует дань времени. Писатель как будто боится, что ее могут обвинить в незнании современных реалий и нагромождает их слепками свои произведения. Например, если в «Даниэль Штайн переводчике» сын одной из главных героинь оказывается гомосексуалистом, то в «Казусе Кукоцкого» главная героиня, дочь Кукоцкого Таня, не находит ничего лучшего, как гулять в одиночестве по ночному городу, пить в подворотнях с бомжами и отдаваться первому встречному. В «Казусе» есть всё, что может понравиться современному поп-адресату, но вот в чем казус: выписан образ Василисы, прикомандированной к этому миру, тупой и уродливой, но верной и благодарной, не просто верующей, но *знающей*. Трудно судить о том, насколько удался Улицкой образ Василисы. Однако знаменательно его *бытие* в пространстве романа. Василиса не только ниточка, связывающая роман с русской художественной традицией, но и вектор. Ведь именно на ней все и держится.

Литература

1. Пушкин А.С. Полное собрание сочинений в 10 томах. Том 8. Л., 1978.
2. Пушкин А.С. Полное собрание сочинений в 10 томах. Том 9. Л., 1979.
3. Улицкая Л. Казус Кукоцкого. М.: Эксмо, 2008.

K.Qasımova

Burada rus ruhu var, rusiyanin ətri gəlir

Xülasə

Məqalə müasir rus ədəbiyyatına həsr olunub. Diqqət mərkəzində rus ədəbiyyatı üçün ənənəvi olan surətlər dayanır. Məqalədə müasir rus bədii ədəbiyyatı ilə klassik ədəbiyyatının ənənələri həmçinin işarə səviyyəsində paralelləri aparılır. Bunun üçün bir çox əsərləri müraciət olunur. Aparılan təhlil onu göstərir ki, rus ədəbiyyatının ən işarəvi surəti ciddi inamı olan qadın obrazıdır. Bu obrazları F.M.Dostoyevski, L.N.Tolstoy, N.S.Leskov və s. rus yazıçılarının əsərlərində görə bilərik. Müəllifin fikrinə görə, rus ədəbiyyatının ən nümunəvi surətlərindən birini mömin qadın surəti təşkil edir. L.Ulitskayanın "Kukotskinin kazusu" romanında bu cür qadın tipi öz parlaq əksini tapmışdır. Bu əsər L.Ulitskayanın bütün əsərləri kimi ziyalılardan olan bir əsərdir. Əsərdə əvvəldən sonuna kimi ziyalılığın tərənnümün görürük.

K.Qasimova

There is a russian soul, a russian smell

Summary

The article deals with the modern Russian literature. The images traditional for Russian literature are in the focus. The article deals with classical literature traditions with contemporary Russian fiction, as well as point level parallels. To do this, many works are addressed. The analysis shows that the most common text of Russian literature is the image of a woman with a strong belief. These images are compiled by F.Dostoyevski, L.N.Tolstoy, N.S.Leskov and others. in Russian writers' works. In author's opinion the one of the most exemplary images of Russian literature are women believers. This kind of woman is vividly expressed in "Kukotsky's case" by L.Ulitskaya. This work is a work of intelligentsia, like all the works of L.Ulitskaya. From the beginning to the end we see the magnificence of intelligence.

Rəyçi: Aslan Məmmədli
Filologiya elmlər doktoru, professor

İBRAHIM QULİYEV
Fəlsəfə üzrə fəlsəfə doktoru,
quliyev.ibrahim.78@mail.ru
TƏHMİNƏ BƏDƏLOVA
Filologiya üzrə fəlsəfə doktoru,
tehmine_b@mail.ru

İSLAMDA VƏ KLASSİK İRSİMİZDƏ "SƏBR" ANLAYIŞI
(Ayələr, hədislər və Nizami Gəncəvi yaradıcılığı kontekstində)

Açar sözlər: İslam, Quran, Məhəmməd (s), Nizami, səbr
Ключевые слова: Ислам, Коран, Мухаммед (с), Низами, терпение
Key words: Islam, Qur'an, Muhammad (p.b.u.h), Nizami, patience

Giriş. "Səbr" sözü ərəb mənşəli olub "xoşagəlməz, acı, haqsızlıq kimi üzücü hallar qarşısında səsini çıxarmadan onların keçib-getməsinə dözmə, təhəmmül etmə" mənalarında işlədilir. İnsanın həyatında səbrin çox mühüm əhəmiyyəti vardır. Son səmavi din olan İslamda səbr etmək bəyənilmiş, Qurani-Kərim, hədislər və bunların təsiri ilə şifahi və klassik irsimizdə səbrin insanın həyatında oynadığı əhəmiyyətli rola dair gözəl bədii örnəklər yaradılmışdır. Bu nümunələrin tədqiq və təhlili həm klassik irsimizin qaynaqlarının öyrənilməsi, həm də İslam əxlaqının maddi-mənəvi mədəniyyətimizə və əxlaqi dünyagörüşümüzə təsiri məsələlərinin aydınlaşdırılması baxımından əhəmiyyət kəsb edir. Çünki ayə və hədislər bütün İslam dünyası ölkələrinin mədəniyyətlərində, daha çox isə şifahi və yazılı söz sənəti örnəklərində bu və ya digər şəkildə obrazlı əksini tapmışdır. Əbəs deyildir ki, milli-mənəvi mədəniyyətimizin tərkib hissələrindən biri və həyat tərzimizin aynası olan atalar sözlərində də səbr haqqında çox gözəl nümunələr, ibrətamiz kəlamlar, hikmətli ifadələr vardır. Daima insanı səbrli olmağa təşviq edən, hər işi səbrlə görməyə və yaxşı bir sonluqla tamamlamağa çağıran bu hikmət xəzinəsi incilərindən bəzi nümunələrə diqqət edək: "Səbr acıdır, meyvəsi şirin", "Səbr Allahdan, səbrsizlik şeytandan", "Səbr eylə işinə, xeyir gələr başına", "Səbr Cənnət açarıdır", "Səbr eləyən muradına yetişər", "Səbr eləyənin ağzı bal dadar", "Səbr ilə halva olar, ey qora səndən", "Səbrli olan, sağlam olar", "Səbr elə darlığa, çıxarsan varlığa"? "Səbrin axırı xeyir olar". Möhtəşəm qəhrəmanlıq dastanı olan "Koroğlu"da da səbrsizliyin acı nəticəsinin (Qıratın qanadlarının yoxa çıxmasının) şahidi oluruq.

Mövzunun tədqiq tarixi. Qeyd edək ki, səbr, onun insan və cəmiyyət üçün faydası, səbr etməyin təbliği və tərbiyəsi kimi məsələlər islam alimlərinin, həmçinin filoloq və ədəbiyyatşünasların diqqətini cəlb etmiş, bu sahədə bir sıra araşdırmalar aparılmışdır. Misal üçün, Əbülhəsən Əl-

Mavərdinin (974-1058) "Adabüd-din vəd-dünya", Əllamə Məhəmməd Bağır Məclisinin (1628-1700) "Biharül-ənvar", Məhəmməd bin Həsən Hürr Əl-Amilinin "Əl-Vəsail", Əhməd bin Əbdülhəlim əl-Hərraninin "Səbr etməyin qaydası" əsərlərində səbrin əhəmiyyəti və faydaları geniş işıqlandırılmışdır.

Tədqiqat metodu. Tədqiqat zamanı müqayisəli-qarşılaşdırma metodundan və hermenevtik şərh üsulundan istifadə olunaraq bilavasitə mətn üzərində iş aparılmış, mövzu ilə bağlı parçaların, müəllifin məqsədli şəkildə işlətdiyi beytlərin dərin mənası açıqlanmış, izah edilmişdir.

Ayə və hədislərdə, Nizami Gəncəvi yaradıclığında səbr etməyin əhəmiyyətinin ifadə variantları və mahiyyəti. Qurani-Kərimin bir çox ayələrində səbr peyğəmbərlərin (ə) əxlaqı kimi tərənnüm edilmiş və həzrət Məhəmmədə (s) də özündən əvvəlki peyğəmbərlər (ə) kimi səbrli olması tövsiyə edilmişdir. Əl-Əhqaf (Qumsal təpələr) surəsinin 35-ci ayəsində deyilir: "(Ya Rəsulum!) **Peyğəmbərlərdən əzm** (və səbat, şəriət) **sahibləri olanların səbr etdiyi kimi, sən də** (Allah yolunda çətinliklərə, əziyyətlərə) **səbr et.** (Müşriklərə) **tez** (əzab) **gəlməsini istəmə"** (1, 725).

Əz-Zümər (Zümrələr) surəsinin 10-cu ayəsində isə **"Allahın yeri genişdir (sizə bir çətinlik üz versə, başqa ölkələrə hicrət edə bilərsiniz). Yalnız (dünyada Allah yolunda çətinliklərə) səbr edənlərə (axirətdə) saysız-hesabsız mükafat veriləcəkdir"** (1, 655) - deyilir.

Göründüyü kimi, elmi, mənəvi-əxlaqi dəyərlər mənbəyi olan Qurani-Kərim insanları səbr etməyə çağırır və səbrli olanların gözəl bir aqibətlə qarşılaşacaqlarını göstərir.

İslami dəyərlərin əks olunduğu mötəbər qaynaqlardan sayılan hədislərdə də bəşər övladları səbrli olmağa təşviq edilir, səbr edənlərin halının aqibətdə heyranlığa səbəb olacağı açıqlanır: "Peyğəmbərdən (s) "iman nədir?" - deyə soruşulduqda, O, "Səbr etmək", - deyə buyurmuşdur". Elə bu cavabın özü səbrin insan üçün nə qədər faydalı olduğunu, məhz bu səbəbdən də zəruriliyini göstərir.

Ümimiyyətlə, səbr etməyin fəzilətlərini açıqlayan ayə və hədislərin mənasını təhlil etdikcə fəlakətlə qarşılaşanda səbr etməyin lazım olduğunu, insanın istədiyi dostu əlindən alınanda səbr edərsə, mükafatının Cənnət olacağını, müalicəsi çətin xəstəliklərə tutulanların savabını Allahdan gözləyərək səbr etmələrinin əvəzində şəhid savabı qazanacaqlarını, gözləri kor edilərək imtahan edilən kəsə səbr etdiyi təqdirdə gözlərinin əvəzində Cənnətin veriləcəyini, xəstəliklərə səbr edərsə, mükafatının Cənnət olacağını və bütün peyğəmbərlərin ümmətləri üçün səbr duası etmələri, hər cür sıxıntı və xəstəliklərin günahların bağışlanmasına vəsilə olacağını və ağacın yarpaqlarının töküldüyü kimi günahlarının töküləcəyini, Allahın xeyrini istədiyi şəxsi çətinliyə salacağını, başına müsibət gələndə ölümü istəməməyin zəruriliyini, əsəbləşməyin yaxşı olmadığını, peyğəmbərlərin

böyük çətinliklərə dözdüyünü və mükafatlarının da böyük olduğunu, mükafatın böyüklüyünün bəlanın şiddətinə görə olduğunu, möminə imtahan üçün bəlalar verildiyini, bağışlamaq və yaxşılıq etməyin lazım olduğunu və s. görürük.

Heç şübhə yoxdur ki, İslam mədəniyyətinin ayrılmaz hissəsi olan Azərbaycan ədəbiyyatının ideya-fəlsəfi və mövzu qaynaqlarından biri də Qurani-Kərimdir. Təkcə dünyəvi elmlərin deyil, dini-fəlsəfi elmlərin də dərin bilicisi olan, dünya ədəbiyyatı xəzinəsinə nadir söz-sənət inciləri bəxş edən Azərbayan şairi Nizami Gəncəvi bəşəri ideyalar və humanizmi tərənnüm edən qələm sahibi olmaqla yanaşı, hər şeydən öncə, İslam düşüncəsi və təfəkküründə dayaqlanan mütəfəkkir idi. Təsadüfi deyildir ki, Məsiağa Məhəmmədi də "Nizami və Qəzzali" məqaləsində "böyük şairimizin yaradıcılığının islam mədəniyyəti kontekstində araşdırılmasının zəruriliyini" (2) xüsusi qeyd etmişdir.

Dahi şairin "Xəmsə"sinə daxil olan hər bir məsnəvidə ən yüksək insani-əxlaqi keyfiyyətlərlə yanaşı, səbrə, insanın xoşbəxt sonuca çatmağında səbr etməyin əhəmiyyətinə dair qiymətli fikirlər, hekayətlər verilmişdir. Nizami məna və məzmun baxımından yuxarıdakı ayə və hədislərlə səsləşən fikirlərini özünəməxsus obrazlı təfəkkür süzgəcindən keçirərək nəsihətamiz sözün hikmətamiz təsir gücünü daha da artırmışdır. Şairin məharəti həm də aforizmə çevrilmiş ifadə və məsəlləri istedadlı qələminin ucu ilə öz məqasədinə tabe etməyi bacarmasındadır. Bunun ən səciyyəvi ifadəsini "Xosrov və Şirin"də Xosrovdan ayrıldığından "könlü bəndə düşən", "canı sevgi odunda yanan", "badam gözlərindən gül suyu axıdan" Şirini ovutmaq və ona doğru yol göstərmək istəyən Məhin banunun sözlərində görürük:

Bir neçə gün bu qüssəyə döz,
Heç kəs həmişəlik darda qalmayıbdır.
Çiçək kimi tez açıb tez solmaq lazım deyil,
İti axan su körpünü tez yıxar. (3, 150)

Şairin "Heç kəs həmişəlik darda qalmayıbdır" ifadəsi Qurani-Kərim və hədislərdəki hər çətinliklə bərabər bir asanlıq var və çətinlik zamanı fəryad etmədən səbr göstərmək lazımdır; çünki səbr gələn çətinlik qarşısında dözmək deyil, ona sinə gərməkdir; səbr göstərməyib insanın özünü pərişan etməsi doğru deyildir; səbr sıxıntının gəldiyi anda ona sinə gərməklə göstərilir və s. kimi tövsiyələrlə çox yaxından səsləşir. İsa Məsih (ə) də belə buyurmuşdur ki: "Xoşunuza gəlməyənə səbr etməsəniz, sevdiyinizə çatmayacaqsınız" (8).

Nizami təkcə "səbr et, döz, səbr etsən, sonda səadətə qovuşacaqsan" və s. deməklə kifayətlənmir, ən həyati, insanın demək olar, hər gün görüb qarşılaşdığı və dünyanın, kainatın ilahi ədalətli bir qüvvə tərəfindən idarə

olunmasının sübutu olan, hər bir mövcudatın harmonik tarazlıqda olduğunu təsdiqləyən təbiət və cəmiyyət güzəranından ibrətamiz, tipik nümunələr əsasında oxucusunu inandırır, doğru yola dəvət edir:

Heç bir toxum iylənməmiş göyərməz,
Bir iş bağlanmasa, açılmaz.
Murad ələ gec düşsə, yaxşıdır,
Tez-tez içən tez də məst olur.
Görmürsən, bulud tutulanda,
Bərk ağlayır, sonra (hava) açılır.
Yol gedən (atı) gərək bərk sürməsin,
Kim bərk sürsə, tez yorular. (3, 150)

Hədislərdə dönə-dönə diqqətə çatdırılır ki, bəzən insan nəfsinə xoş gələn arzulara tabe olmaq, yaxşılıq və fəzilətdən yayınmaq istəyir. Amma bütün bunların müqabilində səbr və əzəmət göstərsə, İlahi savaba da nail olmuş olar. Peyğəmbər (s) buyurmuşdur: "İbadət və itaətlərin qarşısında edilən səbr cihada bərabərdir və altmış il ibadətdən üstündür" (7, 16).

Nizamiyə görə də səbr - insanı dözümlü edər, səbr - könülləri toxdadar.

İndi gərək çətinliyə dözəsən,
Kim bilir sabahın hökmü necə olacaq... (3, 150)

"Kim bilir sabahın hökmü necə olacaq" – bu fikir "qeybi bilən Allahdır. Başımıza gələnlərin bizim üçün xeyir, yoxsa şərmi olduğunu ancaq Allah bilir. Allahdan gələnin xoş olduğunu qəbul etmək çətin də olsa, ən doğru davranış şəklidir" - düşüncəsi ilə tam üst-üstə düşür. İmam Əli (ə) bir hədisində nə gözəl demişdir: "Səbr çətin müsibəti asan edər" (6, hədis № 533). Buradan da bir daha belə nəticə çıxır ki, insanın başına bəla və müsibət gəlməsi onun üçün bir imtahan vasitəsidir. Bu səbəblə Yaradana inanan, təvəkkül edən insan başına gələnlərə şər gözü ilə baxmamalıdır.

Səbr etməyin üstünlüklərindən bəhs edən bir ayənin təfsiri haqqında İmam Əli (ə) belə buyurmuşdur: "Səbrlə ali məqamlara çatmaq olar". (6, hədis № 1821). Həmçinin, "Kim Allaha (qovuşmağa) xatir səbr edərsə, öz məqsədinə çatar", – deyə buyurmaqla səbrin insanların öz arzularına çatmalarında əsas vasitələrdən biri olduğunu da önə çəkmişdir. (7, 95).

Nizami də son məqsədə çatmaq yolundakı çətinliklərə səbrlə sinə gərməyi arzuya qovuşmağın ən ümdə səbəbi bilir. Şairin nikbin ruhu çətinliklərin sonunda nəhayət, qəhrəmanının bəxtinin güləcəyinə inanır. Sadəcə, hələ ki, (indi) dözmək, səbr etmək zamanıdır.

İndi suyun üzü aşağı axan vaxtıdır,
Uzun çəkməz bəxt üzünə açılar.
İndi dözmək vaxtıdır, tələsmə,
Su üzü yuxarıya çətin axar. (3, 151)

Hədislərdə göstərilir ki, bizim üçün mütləq xeyirli olduğuna inandığımız səbr həm də bütün peyğəmbərlərin ortaq sifətidir. Allahın dinini təbliğ edərkən hamısı müxtəlif çətinliklərə məruz qalmış, onlara əzab-əziyyət edilmiş, yurdlarından çıxarılmış, dövrünün hökmdarları tərəfindən zindanlara atılmış, amma onlar daim səbr etmişlər. Peyğəmbərimizin (s) həyatı da əvvəldən axıra qədər ən gözəl səbr nümunələri ilə doludur. Bu səbəblə hər bir insanın üzərinə düşən vəzifə, qurtuluşun səbrdə olduğunu düşünərək Allahdan səbr diləmək və səbrli olmaqdır. Həmçinin səbrli olmaq insana psixoloji rahatlıq da gətirir.

Eyni ovqatı Nizami Gəncəvinin əsərlərində görürük. Şair "Şərəfnamə"nin Allahın tərifinə həsr olunmuş hissəsində ona gələcək bəlalar qarşısında Tanrıdan əvvəlcə səbr, dözüm istəyir:

Əvvəl məni şükrə qovuşdur, sonra dövlətə,
Əvvəl mənə dözüm ver, sonra
Dözə bilməyəcəim bəlaları
Məndən uzaqlaşdır, ey ədalətsizlikdən uzaq olan!
Əgər məni bir bəlaya mübtəla etmək istəsən
Əvvəl mənə səbr ver, sonra bəlanı. (4, 26)

Ənfal surəsinin rifah və qurtuluşun əsas şərtlərini açıqlayan 46-cı ayəsi ilk olaraq səbrli olmağı tövsiyə edir. Mükafatın hesabsız olması səbrin əhəmiyyətini göstərir. Fəlakətlər qarşısında göstəriləcək səbr çox böyük bir məziyyət olmasaydı, ona görə bu qədər hesabsız mükafat verilməzdi. Məhz bu səbəbdəndir ki, Peyğəmbərimiz (s) insanlara ətrafı fitnə-fəsad bürüdüyü zamanda da, insanların bir-birlərini aldatdıqları zamanda da səbr etməyi tövsiyə edir: "Siz məndən sonra fırıldaqçılıq hadisələri görəcəksiniz. Hovuz başında mənə qovuşuncaya qədər səbr edin".

Əlbəttə, psixoloji baxımdan səbir etmək və bağışlayan olmaq asan iş deyil. Bundan başqa çətinliklərə səbr etmək və başqalarının səhvlərini bağışlamaq həqiqətən əhəmiyyətli və səbəb-nəticə baxımından da bir-birilə yaxından bağlı davranışlardır. Bu iki əməli özündə daşıyan şəxs nümunə olmağa hamıdan daha artıq layiqdir.

Göründüyü kimi, səbrin bütün hallardakı tərifi onu göstərir ki, səbr - insanın qəzəb anında hirsini udması, ona edilən pisliklərə qarşı yaxşılıqla cavab verməsi, şeytanın və nəfsinin təlqinləri qarşısında günah etməkdən çəkinməsi, müsibət və çətinliklər qarşısında mətanətli olması və son nəfəsinə qədər Allaha ibadətdə daimi olması deməkdir. Peyğəmbərimiz (s) bir hədisi-şərifində də əsil igidin daha güclü birinin deyil, səbrli birinin olduğunu söyləmişdir: "Əsil igid güləşdə rəqibini yenən deyil, hirsləndiyi zaman özünə hakim olan kimsədir".

Səbrsizliyin insan üçün nə qədər acı nəticələr verə biləcəyinə ən gözəl illüstrativ nümunə Nizami Gəncəvinin süjet xətti və quruluşu baxımından

Şərq ədəbiyyatında özünə qədər görünməmiş unikal hadisə olan "Həft peykər" əsərində qara günbəddə oturan qara iqlim padşahı qızının söylədiyi əfsanədir. Hekayənin sonunda səbirsizlik və qərarsızlığın aqibəti ibrətamiz şəkildə təsvir edilmişdir:

Mənim inadkarlıq, səbirsizlik
Və qərarsızlığımı görən kimi
O dedi: "Bir anlığa gözünü yum
Ki, qənd xəzinəsinin qapısını açım...
Bir an ona möhlət verəndən sonra
O dedi: "Gözünü aç!" mən də açdım...
Ətrafımda nə kişi, nə arvad, heç kəs yox idi,
Munisim hərarətli ah və soyuq külək idi. (5, 152)

Səadətə qovuşmağa "bir addım" qalmış edilən səbrsizlik "bir zamanlar xəzinə ilə dəxtxoş olan qəhrəmanı "əjdəhanın qoynuna" atır". Zənnimizcə, səbrsizliyin insana vura biləcəyi zərəri bundan daha əyani və daha təsirli şəkildə vermək, bəlkə də mümkün olmaz.

Nəticə. Bütün bu misallardan belə nəticəyə gələ bilərik ki, ən çətin zamanlarda insanın köməyinə gələn keyfiyyət Allahın bəndəsinə hidayət etdiyi səbrdir. Həmçinin, yuxarıda qeyd edilmiş ayə, hədis və atalar sözlərindən belə bir qənaət hasil olur ki, səbir etməyin üç əsas növü vardır: birincisi, Allaha itaətdə səbr etmək, ikincisi, haramlar qarşısında səbr etmək, üçüncüsü isə Allah tərəfindən gəlmiş bəla və müsibətlərə səbr etmək.

Hədisi-şərifdə "nurdur" deyə tərif edilən, dahi mütəfəkkir Nizami Gəncəvinin yüksək insani keyfiyyaət kimi böyük dəyər verdiyi səbri və onun insana bəxş etdiyi qüvvəti Allahı xatırlamaq və Ona yalvarmaq artırır. "Ümid ən sonda çıxır" deyib atalarımız. Ümidimizi Allahdan kəsməmək, ən çətin zamanlarımızda Allaha sığınmaq, rastlaşdığımız hər bir çətinliyə ancaq Onun verdiyi səbrlə qalib gəlmək, Ondan səbrimizə qüvvət qatmasını diləmək, səbrimizə dualarımızla, özümüzə də səbrimizlə kömək etmək güclü bir şəxsiyyət olaraq yaşamaq hər bir bəşər övladının borcudur.

Sürətlə qloballaşan dünyada, mədəniyyət və sivilizasiyaların bir-birinə nüfuz etdiyi bir zamanda İslam dünyagörüşü və əxlaqından qaynaqlanan milli-mənəvi kimliyimizin, düşüncə və təfəkkürümüzün tərəqqiyə inteqrasiyası ilə yanaşı, həm də mütərəqqi dəyərlərimizin qorunub saxlanılmasında Qurani-Kərimin, klassik ədəbi irsimizin öyrənilməsinin çox böyük əhəmiyyəti vardır.

Ədəbiyyat

1. Qurani-Kərim. Tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012. 960 səh.
2. Məsiağa Məhəmmədi. Nizami və Qəzzali. http://mesiha.blogspot.com/2007/11/nizami-v-qzzali.html
3. Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə Həmid Məmmədzadənindir. Bakı, "Elm nəşriyyatı", 1981. 376 səh.
4. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Filoloji tərcümə Qəzənfər Əliyevindir. Bakı, "Elm" nəşriyyatı, 1983. 652 səh.
5. Nizami Gəncəvi. Yeddi gözəl. Filoloji tərcümə Rüstəm Əliyevindir. Bakı, "Elm" nəşriyyatı, 1983. 360 səh.
6. Əllamə Amədi, Qürərül-hikəm və dürərül-kəlam, təhqiq: Mərkəzül-əbhas vəd-dirasatil-islamiyyə, Məktəbətül-əməmil-islamiyyə nəşri, II çap, 1420 h/q.
7. Əllamə Məclisi, Biharül-ənvar, Beyrut, Müəssiətul-vəfa, 1983.
8. www.ahlibeyt.ge

И.Гулиев,
Т.Бадалова

Понятие «терпение» в исламе и классическом наследии (В контексте айя, хадисе и творчестве Низами Гянджеви)

Резюме

Слово «себр» («терпение») арабского происхождения, используется в смысле «переносить неприятные, горькие, болезненные ситуации молча, безропотно». В жизни человека очень важно терпение. Роль терпения в жизни человека была одобрена в окончательной небесной религии Ислама.

Под влиянием Корана и хадисов в устной и классической литературе о терпении созданы многие прекрасные художественные произведения.

В статье проанализированы мысли о терпении и его роли в жизни человека в творчестве Низами Гянджеви в сопоставлении с исламскими ценностями.

İ.Guliyev,
T.Badalova

The concept “patience” in islam and our classical heritage (In the context of ayahs, hadiths and Nizami Ganjavi’s creativity)

Summary

The word “sabr” (patience) is an Arabic word and is used in the meanings of “tolerance and endurance for sad, unpleasant, painful situations like suffering, injustice”. The patience is very important in human life. To be patience is liked in the last monotheistic religion – Islam. Good artistic samples about the patience that played an important role in human life have been created through the Koran and its hadiths in our folk and classical heritage.

The research and analysis of these samples are necessary in terms of both studying our classical heritage and clarification of the effects of Islamic moral values on our material and spiritual culture and moral outlook.

In the article are analyzed the thoughts on patience in Nizami’s creativity and its role in human life compared with Islam values.

Rəyçi: **Xəlil Yusifli**
filologiya elmləri doktoru, professor

SƏFA QARAYEV
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
safaqara@gmail.com

"GOROĞLU" EPOSUNUN TÜRKMƏN VARİANTINDA GÖZÜN FALLİK SEMANTİKASI

Açar sözlər: göz simvolu, fallik güc, koroğlu ata xətti kimi, goroğlu ana xətti kimi, epos, kişi kollektivinin mövqeyi
Key words: symbol "eye", phallic power, Koroglu as the paternal line, Goroglu as the maternal line, epos, the position of the man collective
Ключевые слова: символ «глаз»а, фаллическая сила, Короглу как отцовская линия, Гороглы как материнская сила, эпос, позиция мужского коллектива

Mədəniyyətdə bir başa ifadə olunması mümkün olmayan fikir və yanaşmalar simvol dilinə çevrilərək ifadə olunma imkanı qazanır. Bu mənada mədəniyyətdə açıq ifadə olunmasına icazə verilməyən cinsi fəaliyyətlə bağlı davranışlar cinsiyyətlə heç bir əlaqəsi olmayan bədən üzvləri vasitəsi ilə simvolik şəkildə ifadə olunurlar. Türk mədəniyyətində cinsi aktivliyi ifadə edən işarələr içərisində "göz" xüsusi mənaya malik olan simvoldur. Burada türkmənlərin "Goroğlu" dastanı əsasında "göz"ün fallik semantikasına nəzər salmağa çalışacağıq.

Goroğlu dastanının türkmən variantında qəhrəmanın adlandırılmasında ana xəttinə işarə edən "goroğluluq" sematikasından istifadə olunur. Lakin burada da ata xətti ilə əlaqədar olan "korluq" motivinə rast gəlinir. "Goroğlu" dastanının türkmən variantında aktuallaşan motivlər, əsasən, digər Orta Asiya versiyalarındakı motivlərlə uyğunluq təşkil etsə də, burada onların bir çoxunun spesifik çalarları vardır. Motivlərin aktuallaşmasındakı spesifik çalarların süjet kontekstində nəzərdən keçirilməsi eposun təməlində dayanan ata-oğul dramatizmini daha əsaslı şəkildə anlamağa imkan verir. Odur ki, türkmən dastanındakı Goroğlunun doğuluş mətni əsasında müvafiq semantikanı izləməyə çalışacağıq. Elə buradaca bir məsələni diqqətə çatdıraq ki, türkmən "Goroğlu"sunun mükəmməl nəşri dastandakı faktların semantikasının izahı üçün son dərəcə qiymətli material verir. Belə ki, dastanın çoxcildlik akademik nəşrinin əlavə hissəsində ayrı-ayrı motivlərin dastanın müxtəlif variantlarındakı formaları da izlənilir. Bunun da özlüyündə araşdırmamız üçün yeni perspektivlər açdığını düşünürük.

Burada təsvir olunur ki, Çardaqlının Çandıbilind Cığalı bəy adlı bir Sultanı olur. Bu sultanın Gencim, Mömin və Adıbəy adlı üç oğlu varmış.

Cığalı bəy Gəncimi evləndirir. Amma ortancıl oğlunun ağlı gedər-gələr və gözü də axıntılı oluğuna görə ata onu evləndirə bilmir. Kiçik oğlu Adıbəy isə yağmaçılıqla dolanarmış. Bir gün yağmaçılıqdan gələrkən bunun qarşısına qırx igid çıxıb onunla yoldaş olmaq istədiklərini bildirirlər. Adıbəy də razı olub onlara sahib çıxır. Qoca atası da Adıbəyə deyir ki, əgər yanına qırx igid tapmısansa, gəl yurdu sənə əmanət edim. Həqiqətən də, öz yurdunu oğluna əmənət edir və beləliklə də, oğlu Sultan Adıbəy olur. Daha sonra təsvir olunur ki, qırx atlı yağmaya gedərkən bir kəcavə görür və ona basqın edirlər. Kəcavəni aparan adam qaçdıqdan sonra görürlər ki, kəcavədəki gözəl bir qızdır. Qızdan xəbər alanda aydın olur ki, bu, Şirvan padşahının qızı Gülənnamdır və onu Reyhan Ərəb beş min qızıl başlıq müqabilində alıb. Daha sonra Adıbəy "mal kimə nəsib olursa, onun olar" deyib qızı evinə gətirir. Onu heç kimin qız vermədiyi qardaşı ilə evləndirir. Daha sonra Adıbəy özü evlənir. Lakin çox keçmir ki, Adıbəy dünyasını dəyişir. Onun arvadı da övlad dünyaya gətirmədən dünyasını dəyişir. Lakin gecə Xızır Əleyhissəlam Cığalı bəyin yuxusuna girib onun məzara gedib baxmasını bildirir və möcüzə ilə qarşılaşacağını deyir. Cığalı bəy səhər namazını qıldıqdan sonra gedib məzara baxıb görür ki, bir oğlan uşağı doğulmuş və anasının ciyərini yalayır. Cığalı bəy uşağı götürüb, qəbri bağlayıb evinə gəlir. Baxır ki, "Evində bir ağsaqqal baba oturub. Oğlanı bu babanın ətəyinə qoyur. O, üç dəfə körpənin ağzına tüpürərək "Bizim nəfəs oğlumuz olsun. Qaranlıq yurtdan aydınlıq yurda çıxmış. Adı da Rövşən ("işıqlı" – S.Q) olsun" deyib, yaşlı baba çıxıb gedir" (4, 7). Bura qədər olan hissədə bizim araşdırmamız baxımından maraqlı olan bir çox məqam vardır. Mətndən gördüyümüz kimi, burada qəhrəmanın ana xətti ilə deyil, ata xətti ilə olan münasibətləri aktuallaşır. Həmçinin görürük ki, Cığalı bəy ortancıl oğlunu evləndirə bilmir və bunun səbəbi kimi onun ağlında problem olması ilə yanaşı, gözünün axıntılı (yəni çəp) olması əsas kimi göstərilir. Bizə elə gəlir ki, burada gözün axıntılı olması və evləndirilməmək arasında əlaqə qurulması obrazın qeyri-hiperfallik təbiətin təsvirinə xidmət edir. Gözdən seksuallığı ifadə edən simvol kimi istifadə olunması bizim mədəniyyətdə də geniş yayılmışdır. Məsələn, sosial mühitdə "gözü-qaşı oynamaq" frazeoloji birləşməsi daha çox normadan kənar, hiperseksual davranış sərgiləyənləri ifadə etmək üçün işlədilir. "Gözü düşmək" də daha çox bir şəxsin digərini sevməsini ifadə etmək üçün istifadə olunur. Bundan savayı, xalq bayatısında deyilir ki, "Əzizim baxtı yarım, Baxtımın taxtı yarım, Üzündə göz izi var, Sənə kim baxdı, yarım". Yara müraciətlə deyilən bu mətn hissəciyində "üz" bakirəliyi işarə edən söz kimi aktuallaşdığı halda, "göz", "baxmaq" rəqibin cinsi zəmindəki davranışını nümayiş etdirmək üçün istifadə olunur. Bir çox mədəniyyətlərdə fallik məzmunun ifadə edilməsində istifadə olunan "göz"ün bu dastanda da eyni məzmunu bildirmək üçün işləndiyini düşünürük.

Türkmən "Goroğlu"sunun 1990-cı illərdə çap olunan variantında Cığalı bəyin övladları haqqında verilən məlumatda gözün fallik gücün təqdimatı ilə əlaqəsi daha aydın şəkildə diqqəti cəlb edir. Burada Cığalı bəyin övladları ilə bağlı belə bir məlumat təqdim olunur: "Onun Gəncim Bəy, Mömin Bəy, Adı Bəy adlı oğulları vardı. Gəncim evliydi, zəngin idi, ancaq çox simiciydi. O başqa yurdlarla ticarət edərək malını çoxaldardı. Malını özü yeyib-içməz, digər dostlarına hədiyyələr verməzdi. Hər gün bir neçə qoyununu, keçisini qurd parçalayıb öldürərdi. Buna baxmayaraq Gəncim onlara nəzərət üçün çoban verməzdi. Mömin isə nə ağıllı, nə də dəliydi. Üstəlik gözləri də axıntılıydı. Özü öküz kimi, işləməsi eşşək kimi, yeməyi sığır kimiydi. Dəliliyi tutanda ağlamaq yerinə gülərdi. Birisi bir şey soruşanda qalxıb başqa tərəfə gedərdi. Bunu evləndirmək istədikdə öncə evlənmədi, sonra isə ona qız verən olmadı. Bunun üçün onun kəlləsinin kəl yanı belə qaşınmadı. Bu şəkildə bu evlənməməkdə olsun. Adı Bəyin gözü şahin gözü kimi, qulağı bayquş qulağı kimiydi, bığları qaranquşun qanadı kimi oynayırdı. O, ağıllı və qabiliyyətliydi. Bir şeyə söz versəydi onu yerinə yetirmədən rahat olmazdı " (5, 149). Göründüyü kimi, Mömin bəyin gözlərinin qüsurlu olmasının diqqətə çatdırılması ilə yanaşı, o yırtıcı olmayan heyvanlara xas epitetlərlə də xatırlanır. Bu məlumatların onun evlənməməsi, heç kimin ona qız verməməsi fonunda təqdim olunması isə həmin faktların fallik gücsüzlüyə işarə edən məzmunundan xəbər verir. Düşünürük ki, Mömin bəyin evlənməməsi fonunda təqdim olunan "kəlləsinin kəl yanı belə qaşınması" ifadəsində də onun fallik zəifliyinə işarə edilir. Kəlliyin, keçəlliyin də fallik gücdən məhrum olmanı simvolizə etdiyini nəzərə alsaq, o zaman məsələnin mahiyyətini daha aydın şəkildə anlamış olarıq. Təsvir prosesində mədəniyyətdəki simvollaşdırma məntiqinin işə düşməsi nəticəsində fallik gücsüzlük eyni anda çəpgözlük, yırtıcı heyvanlara xas olmayan epitelər və keçəlliklə ifadə olunur. Bunun əskinə olaraq qardaşı Adıbəyin gözlərinin görməsi, qulaqlarının eşitməsi və bığlarının hərəkətliliyi xüsusi şəkildə vəsf olunur ki, bu həm də fallik gücün simvolik ifadəsi kimi də qavranıla bilər.

Ata və oğul arasındakı konflikti göstərən xüsusiyyətlərdən biri də Cığalıbəyin oğlu Adıbəyin ətrafına 40 igidin toplanılmasından sonra hakimiyyətin ata tərəfindən ona həvalə edilməsi faktıdır.

Başqa variantlarda qadın üstündə Ərəb Reyhanla yaşanılan konflikt də burada bir qədər başqa şəkildə ifadə olunmuşdur. Süjetdən aydın olur ki, Ərəb Reyhanın aldığı qadını Adıbəy gətirib məhz gözündə problem olan qardaşı ilə evləndirir. Yuxarıda bildirdiyimiz kimi, qəhrəmanın mətndəki psixoloji mövqeyi hələ özünün mətndə iştirakından əvvəl ifadə olunmağa başlayır. Bu kontekstdə baxanda digər variantlarda ana semantikası daşıyan qadının burada məhz gözündə problem olan qardaşla evləndirilməsinin də

qəhrəmanın psixoloji mövqeyindən qaynaqlandığını düşünürük. Adıbəyin özünün də subay olmasına və yağmadan gətirdiyi qadınla özünün də evlənə biləcəyinə baxmayaraq, o, həmin qadını məhz simvolik olaraq axtalanmış qardaşıyla evləndirir ki, bu, dastan qəhrəmanının qısqanclığından qaynaqlanmışdır. Yəni simvolik olaraq axtalanmış qardaşla evləndirilmə ilə ana semantikası daşıyan qadın cinsi münasibət müstəvisindən uzaqlaşdırılır.

Burada da görürük ki, övlad doğulmamış ölən Adıbəyin arvadı da az sonra dünyasını dəyişir, amma arvadı qəbirdə bir övlad dünyaya gətirir. Eşitdiyi xəbərdən sonra Cığalı bəy gedib qəbirdən təzə doğulmuş uşağı evinə gətirir. Evdə nurani bir qoca onun qaranlıq dünyadan işıqlı dünyaya çıxmasını əsas gətirərək ona Rövşən adını qoyur. Lakin türkmən variantlarında bu, qəhrəmanın adlandırılmasının yeganə forması deyil. Belə ki, türkmən "Goroğlu"sunun 883f nömrəli əlyazmasında "Həzrəti Əli ona üç ad verir: Koroğlu, Goroğlu və Rövşənvəli" (4, 337). Bundan savayı bildirildiyi kimi, "Ozanlar bəzən baş qəhrəmanın adını Keroğlu, Kerovlu, Köroğlu olaraq söyləyirlər..." (4, 337). Üzərində çox durmadan deyək ki, dastan qəhrəmanının adlandırılmasında istifadə olunan "koroğluluq" və "goroğluluq" öz əsasını eposun mahiyyətində dayanan edipal konfliktdən götürür. Yəni dastan qəhrəmanının adlandırılmasında edipal kompleksin (Edip kompleksi ilə bağlı bax: 1, 299; 2, 47; 3, 19) hər iki tərəfinə (həm ataya, həm də anaya) işarə edəcək üsulda adlandırılma ənənəsi vardır ki, konkret problemin təhlilindən yayınmamaq üçün burada üzərində geniş durmaq istəmirik. Süjetin sonrakı hissəsində görürük ki, Cığalı bəy nəvəsi Rövşəni böyütməyə başlayır. Buradaca onu da qeyd edək ki, bir çox türkmən variantlarında Cığalı bəy qəhrəmanın babası deyil, elə atası kimi göstərilir. Bu da onların hər ikisinin ata, baba və böyük semantikasını bölüşdürməsindən irəli gəlir. Amma bu məsələnin spesifik çaları da vardır. Ata semantikasını bölüşən Adıbəy öldüyü halda, Cığalı bəy yaşayır və Goroğlunun böyüdülməsi ilə məşğul olur. Bunun özünün də ataya münasibətin "sevgi" və "nifrət" çalarından, ambivalent münasibətdən qaynaqlandığını düşünürük. Bu mənada ata mətndə həm ölü, həm də diri kimi aktuallaşır.

Ənənəvi mədəniyyətdə "göz"ün simvolk mahiyyətinin öyrənilməsi daha geniş miqyaslı və folklorun bütün janrlarını əhatə edən analiz tələb edir. Bu məqsədlə növbəti tədqiqatlarımızda mədəni mühitin daha geniş informasiya bazası əsasında bu simvolun semantikasını araşdırmağa çalışacağıq.

Ədəbiyyat

1. Freud, Sigmund, Düşlerin Yorumu I, /çev, Emre Kapkın/, İstanbul:Payel Yayınları 2001, 325 s.

2. From, Erich, Freud düşüncesinin büyüklüğü ve sınırları / çev. Aydın Arıtan/. İstanbul: Arıtan Yayınevi 1991, 214 s.
3. Nasio, Juan-David, Oedipus: The most crucial consept in psychoanalysis (translated by David Pettigrew and François Raffoul) United States of America: Sunny Press 2005, 109 s.
4. Nurmemmet, Annagula, Göroğlu: Türkmen halk destanı. Ankara:Bilig Yayınları 1996, 511 s.
5. Şahin, Halil İbrahim. Türkmenistan sahası destancılık geleneği ve türkmen destanları/doktora tezi/. Balıkesir2009, 904 s

Safa Garayev

The phallic semantics of the eye in the Turkmen variant of the epos "Goroglu'

Summary

In the article the phallic semantics of the eye is investigated on the base of the epos "Goroglu" of Turkmen.

As it is known, the epos thinking is formed on the base of the man collective position and here the cognition of the world is mostly realized by means of canons created by men collective. But in the traditional culture one of the main contents of the affirmation complex showing the power of the man collective is the expression of the phallic power.

According to the not being allowed directly in the culture this power is realized in the culture symbolically. Due to the symbolic expression of the phallic power "eye" is one of the most important symbols. In the article the phallic semantics of the "eye" is investigated on the base of the father-son conflict on the base of the Turkmen epos "Goroglu".

Сафа Караев

Фаллическая семантика глаза в туркменском варианте эпоса «Гороглы»

Резюме

В статье была привлечена к исследованию фаллическая семантика глаза на основе туркменского дастана «Гороглы».

Как известно, эпическое мышление формируется на основе мужского коллектива и в эпосах познание мира в большей степени

реализуются на основе канонов созданных мужским коллективом. В традиционной культуре составной частью комплекса самоутверждения мужского коллектива с проявлением силы является выражение фаллической силы.

В связи с запретом на выражение этой силы напрямую в культуре, она выражается в символической форме. Одним из значимых символов выражения фаллической силы в культуре является символ «глаз»а.

В статье фаллическая семантика «глаз»а в туркменском дастане «Гороглы» исследуется на основе конфликта отцов и сыновей.

Rəyçi: Hikmət Quyliyev
Filologiya üzrə fəlsəfə doktoru

MƏNSURƏ İSMAYILOVA
Pedaqogika üzrə fəlsəfə doktoru
ADPU
mansura@mail.ru

ÜNSİZADƏLƏR HƏM DƏ MƏKTƏBDAR OLMUŞLAR

Açar sözlər: Şamaxı, Ünsizadə qardaşları, maarifçi, məktəb, mətbəə, publisist
Ключевые слова: Шемаха, братья Унсизаде, просветитель, школа, типография, публицист
Key words: Shamakhi, the Unsizade brothers, educationist, school, publishing house, publicist

XIX əsrdə Şamaxıda pedaqoji mühitin inkişafı, yaranması və məktəblərin açılmasında bir çox pedaqoqların – S.Ə.Şirvani, S.M.Qənizadə, M.Mahmudbəyov və b. rolu olmuşdur. Bu pedaqoqlar arasında Ünsizadələrin də xüsusi yeri olmuşdur. "Əkinçi" qəzeti bağlandıqdan sonra Ünsizadə qardaşları – Səid və Cəlal Əfəndi yeni mətbəə qurmuş və "Ziyayi-Qafqaziyyə" adlı həftəlik qəzet nəşr etdirmişlər.

Ünsizadə qardaşlarının ataları Əbdürrəhman Əfəndi də dini elmlərə dərindən bələd bir insan, məktəbdar və həm də şair idi.

Nə adətdir gözəllərdə məni gördükdə neştərlər,
Çəkəllər tiği əbrudən, nəzər əhlin qilişdərlər.

Vurarlar tiği üstən, tökərlər aşiqin qanın,
Dönüb bir xənddə ilən vurduğu zəxmin kirişdərlər.

Qarə xalə məni qoymaz baxım ol mərdümi-çeşmimi,
Misaldır, danəyə qəsd eyləyən quşları kişdərlər.

Əgər ləli-ləbin öldümsə, qəhr etmə bu rəsm olmuş,
Ələ bir alma düşdükdə qızarmış olsa, dişdərlər.

Dedim, çaki-giribandı və ya sübhün dəmidi bu,
Nə kim hər qədri-qiyamət, dedi, olsa, gümüşdərlər.

Şikayət eyləmə, **Ünsi**, gözəllər cövrü-zülmündən,
Fitad altun olsa, hərçənd, genə axir çəkişdərlər.

Övladlarının hər üçü – **Səid, Cəlal, Kamal** ilk təhsillərini atalarının Şamaxıda açdıqları şəxsi məktəbdə almışlar. Həmin dövrdə Əbdürrəhim şəxsi Əfəndinin məktəbinin Şamaxıda böyük nüfuzu olmuşdur.

Səid Əfəndi Əbdürrəhman oğlu 1845-ci ildə Şamaxı şəhərində anadan olmuş, ilk təhsilini də atasının məktəbində almış, özü də atası kimi **Hami** təxəllüsü ilə şeirlər, mərsiyələr yazmışdır. Mənbələrdən bəlli olur ki, Bakı general-qubernatoru D.S.Starselskinin razılığı ilə S.Ünsizadə 1874-cü ildə Şamaxıda ruhani məclisinin nəzdində açılan **"Məclis"** məktəbində dini elmləri tədris etmişdir. O, Qafqaz ruhani İdarəsinə üzv seçilmişdir. Ümumiyyətlə, Səid Əfəndi dostu S.Ə.Şirvani ilə birlikdə ruhani olsa da Şamaxıda yeni tipli qız məktəblərin açılmasına hər vasitə ilə çalışmış, köməklik göstərmişdir. O, Tiflisdən Şamaxıya köçdükdən sonra – 1884-cü ildə "Ziyayi-Qafqaziyyə" qəzetinin **11 sayı** orada çap olunmuşdur. Onu da qeyd edək ki, Səid Əfəndi Şamaxı məscidində əhli-sünni idarəsinin üzvü, qazisi təyin olunmuşdur.

Səid Əfəndinin redaktoru olduğu "Ziya" ("Ziyayi-Qafqaziyyə") qəzeti 1879-1884-cü illərdə Tiflis şəhərində Azərbaycan dilində həftədə bir dəfə çap olunmuşdur. Bu qəzet Ünsizadə qardaşlarının səyi və zəhməti nəticəsində 12 il yaşamışdır. Səid Əfəndi "Hami" təxəllüsü ilə bədii yaradıcılıqla məşğul olmaqla yanaşı bir neçə kitablar – **"Qirayət", "Təlimül-ətfal", "Təhzibül-əxlaq" ("Uşaqların təlimi və əxlaqi tərbiyəsi")** yazmış və çap etdirmişdir. Görkəmli maarifçi, məktəbdar olan Səid Əfəndinin pedaqoji düşüncələri, fikirləri, təcrübələri əsasən 1882-ci ildə yazdığı "Təlimül-ətfal", "Təhzibül-əxlaq" ("Uşaqların təlim və əxlaqi tərbiyəsi" adlı risalə-kitabda cəmlənmişdir. Kitabı transfoneliterasiya edib çapa hazırlayan gözəl alim Müşəba Əliyev, redaktoru Milli Məclisin deputatı Ə.Amaşovdur. Kitab bu il çap olunub oxuculara təqdim olunmuşdur. Həmin kitabda Səid Əfəndinin pedaqoji fikirlərin böyük hissəsi demək olar ki, cəmlənmişdir. Kitaba yazdığı ön sözdə redaktor qeyd edir: "Müəllif bu kitabda uşaqların təlim-tərbiyəsi, onların əxlaqının daha da yaxşılaşdırılması sahəsində görülən işdən geniş söhbət açır. Yarımsöhbətlər altında yığcam şəkildə insanın gündəlik həyat tərzi, necə yatmaq, necə durmaq, nə yemək, nə içmək və sağlamlığı necə qorumaq lazımdırsa, hər şey öz əksini tapmışdır". Təxminən, yetmişə qədər ayrı-ayrı mövzudan ibarət olan əsərdə böyük din sahibi olan Hacı Səid Əfəndi əsərini Allahın adı ilə başlayır. Müqəddimədə isə "Ay uşaqlar" xitabı ilə deyir: "Onlara ilk əvvəl bu aləmdə iki yolun – xoşbəxtlik və bədbəxtlik yolunun olduğunu xatırladır. Sonra ayrı-ayrı mövzular barədə danışır, fikirlərini həyati faktlarla əyaniləşdirir. Maraqlıdır ki, görkəmli maarifçi kitaba daxil etdiyi mövzuları sistemləşdirib; Ana və ata, fəsillər, yeməklər, əxlaqi sifətlər, müxtəlif nağıl, hekayələr, məktəbə getmək, oxumaq, yazmaq və s. Mövzunun əvvəlində o, belə bir

maraqlı açıqlama ilə yazır: "Məlum ola ki, yazmağa və oxumağa qadir olmaq bir şərafətli sənətdir ki, ancaq insanlara məxsusdur. Heyvanlar yazmaq və oxumaq bilməzlər". İnsanlar danışmaqla bir-birinə özlərinin ürəklərində olan sözlərini və başlarında olan fikirlərini qandırırlar". Sonda isə müəllif fikrini belə bir məntiqlə tamamlayır: "Yazıb-oxumağın dəxi vaxtı uşaqlıq zamanıdır. Uşaqlıq vaxtında oxumayıb nadan və cahil qalanlar böyük olanda oxuya bilməzlər və nə qədər peşiman olsalar da peşimanlıqları mənfəət verməz". Böyük pedaqoq əllidən artıq olan bütün mövzularını belə öyüdlərlə tamamlayır. Hacı Səid Əfəndinin "Uşaqların təlimi və əxlaqi tərbiyəsi" əsəri bugünkü pedaqoqlar, məktəb müəllimləri üçün də dəyərli və lazımlıdır".

Bütün bu publisistik, bədii, elmi yaradıcılığı ilə yanaşı hər şeydən əvvəl o, dostu S.Ə.Şirvani, H.Zərdabi kimi mükəmməl məktəbdar olmuşdur. Səid Əfəndi Ünsizadə, təxminən, 1890-cı ildə Türkiyəyə köçmüş, xeyli müddət orada çalışmış, dini, pedaqoji və elmi fikirlərini davam etdirmişdir. Görkəmli, dindar, bacarıqlı pedaqoq, gözəl şair, təxminən, 1905-ci ildə vəfat etmişdir. Türkiyədə, İstanbulda Fateh Camisində dəfn olunmuşdur. Məzar daşına yazılmışdır: Hacı Səid Əfəndi Ünsi – Maarif Şurası – 1905, Şamaxı, Şirvan.

Səid Əfəndinin o biri qardaşı Cəlaləddin (Cəlal) Ünsizadə 1854-cü ildə Şamaxıda doğulmuş, əvvəl mollaxanada, sonra atasının məktəbində və Şamaxı mədrəsəsində təhsil almışdır. Ərəb, fars, rus dillərini və qismən də fransız dilini bilmişdir.

Cəlal Ünsizadə əmək fəaliyyətinə **1873-cü ilin fevralında 19 yaşında** Şamaxı şəhər məktəbində Azərbaycan dili, islam tarixi və müsəlman şəriəti fənlərinin müəllimi kimi başlayır. O, rəsmi dövlət məktəbində pedaqoji fəaliyyətini davam etməklə **1874-cü ildə Şamaxıda** xalqdan toplanan vəsait hesabına açılan **"Məclis"** adlı üsuli-cədid məktəbinə dəvət olunur. Bu müasir təhsil ocağında iki il əsrin məşhur şairi Seyid Əzim Şirvani ilə bərabər işləyir. 1876-cı ildə Cəlalın böyük qardaşı Səid Əfəndi Ünsizadə Qafqaz Müsəlman Ruhani İdarəsinə üzv seçilir. **Digər ailə üzvləri ilə birlikdə Cəlal da Tiflis şəhərinə** köçür. İlk vaxtlar yalnız pedaqoji işlə məşğul olan **Cəlal 1879-cu ilin yanvarından** etibarən Səid Əfəndinin nəşr etdiyi "Ziya" (bu qəzet bir müddətdən sonra "Ziyayi-Qafqaziyyə" adı altında nəşr olunmuşdur) redaksiyasında əməkdaşlıq etməyə, onun redaktorluğu (mühərriri) kimi ağır bir işi yerinə yetirməyə başlayır. O, ömrünün dörd ilini həvəslə bu işə sərf edir.

Mətbuat aləmində kifayət qədər təcrübə qazanan Cəlal Ünsizadə **1882-ci ildə** özünün müstəqil mətbuat orqanını yaratmaq fikrinə düşür. Rəsmi icazə aldıqdan sonra 1883-cü ilin yanvarından **"Kəşkül" adı altında** jurnal nəşr etməyə başlayır. Çox çəkmir o, jurnal vasitəsilə "hər gün və hər saat

qəzetələr vasitəsilə mövqeyi-müzakirəyə qoyulan milli mənafeyə aid məsaili" əhatə etməkdə çətinlik çəkdiyini hiss edir. Xalqı cərəyan edən hadisələrdən vaxtaşırı xəbərdar etmək məqsədilə eyni adda qəzet çıxarmağı qərara alır. Qafqaz canişininin mülki işlər üzrə dəftərxanası onun xahişini qəbul edir. "Kəşkül"ün 1884-cü ilin yanvarında **çıxan 8-ci nömrəsi "qəzet qəlibində" buraxılır. "Kəşkül"ün qəzet kimi nəşri səkkiz il, 1891-ci ilin oktyabrına qədər davam edir...**

"Kəşkül" ciddi maddi və mənəvi çətinliklərlə mübarizədə, ağır bir şəraitdə nəşr olunurdu. Qəzet həftədə bir dəfə **400-500** nüsxə çap edilirdi. Lakin onun daimi müştərilərinin sayı 90-100 nəfərdən artıq olmurdu. Bu rəqəm də sabit deyildi. Naşir məqalələrinin birində abunə ilə əlaqədar qarşılaşdığı çətinliklərdən söhbət açaraq yazırdı: "Hələ bu zikr olunan müştərilərdən dəxi il başında qiymətini verib yazılanları Cərcis peyğəmbərin ümmətindən artıq deyil". Bundan başqa mətbbə işləri, senzor maneələri, oxucu zövqü və tələbləri ilə əlaqədar müxtəlif tipli çətinliklər də meydana çıxır, redaktorun işini xeyli mürəkkəbləşdirirdi...

Tiflisdə Cəlal Ünsizadənin naşirlik fəaliyyəti təkcə qəzetçiliklə məhdudlaşmadı. **Azərbaycan kitabının nəşrində də onun özünəməxsus xidmətləri oldu. Müstəqil "Kəşkül" mətbəəsini yaratdıqdan sonra kitab çapı fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilir.** Ağır bir zəhmətə qatlaşmaqda naşirin izldiyi başlıca məqsəd özünün yazdığı kimi, "hər bir şəhərdə və az-çox qafiyəsənc və şeirguy ədiblərimizin" əsərlərini yaymaq, xalqı milli ədəbiyyatın mövcud vəziyyətindən xəbərdar etmək idi.

Maddi çətinliklər içində böhran keçirməsinə baxmayaraq, o, naşirlik fəaliyyətində utilitar məqsədlər izləmirdi. Kitab nəşr etməkdə Cəlal Ünsizadəni düşündürən başlıca məsələ milli mənafeyə xidmət idi. Xalqa fayda verən əsərlər, özünün dediyi kimi, "fayideyi-ümumiyyədən xali olmayan böyük və kiçik bəzi asar və kütub və rəsai" nəinki tez nəşr olunurdu, hətta "sahibi-əsərə yarı qiymətinə" verilirdi. "Kəşkül" nəşriyyatı fəaliyyət göstərdiyi qısa bir müddətdə bir sıra faydalı kitablar çap etdi. Bunların arasında Axund Cəlalın "Hesab", A.O.Çernyayevski və S.Vəlibəyovun "Vətən dili" (II h.), Ə.Axundzadənin "Xətti-təliqi-nəstəliq. Sərmeşq" dərslikləri, C.Ünsizadənin "Əmsali-Loğman" (ərəb xalq ədəbiyyatı nümunəsi), S.Vəlibəyovun "Qüdrəti-xuda" (Qrot), Ə.Gəraninin "Yel gəmisi" (Lermontov) tərcümələri, zaqatalalı şair Həbibullanın şeirlərindən ibarət məcmuə, "Rusi və müsəlmani təqvim" və b. vardı.

C.Ünsizadə müxtəlif həyat məsələlərinə orijinal münasibəti olan "hesabi pak, məsləki müstəqim, niyyəti müqəddəs" bir yazıçı və mətbuat xadimi idi. Xalqının milli şüurunu oyatmaq, dost-düşmənini nişan verib tanıtmaq və vətənini abad görmək onun böyük amalı idi.

Bir sözlə, Cəlal Ünsizadənin Qafqazda keçən **müəllimlik**, **mühərrirlik**, **mütərcimlik**, **müəlliflik** fəaliyyətinin **17 ili bu nəcib məqsədin** həyata keçməsi içinə həsr olunmuşdur.

Maarifçilik ideyalarını yaymaqda publisistika və bədii tərcümə Cəlal Ünsizadənin əlində əlverişli silah idi. **Naşir, redaktor** və **maarifçi yazıçı** kimi publisistika Cəlal Ünsizadə üçün daha doğma janr idi...

O, imzasız və **"Cəlal", "Zeyd", "Bir şəxs"** imzaları ilə "Ziya" və "Kəşkül" qəzetlərində külli miqdarda məqalələr dərc etmişdi. Onun yaradıcılığında publisistikanın əsas yer tutması bir tərəfdə redaktə etdiyi dövri orqanların gündəlik ehtiyaclarını təmin etmək tələbindən doğurdusa, digər tərəfdən maarifçilərin mətbu sözün təsiredici qüvvəsi, cərəyan edən hadisələrə fəal münasibət bildirmək və müdaxilə etmək xasiyyətilə bağlı idi. Təsadüfi deyildir ki, o, **"Bizim qəzetləri mütaliə", "Bəd surətlərə bir söz", "Övza və əhval", "Ərzi-məxsus", "Tiflisdə tərəqqilərimiz", "Ehtiyaclarımız", "Gürcülərdən olsun ibrət alalım", "Bizim qəzetləri mütaliə", "Bakılı Zeynalabdin", "Bizim Tiflis müsəlmanlarına", "Bəylərdə bir fikir", "Bilməmək nə böyük bəladır?", "Bunu da təcrübə edəlim", "Məktəblərimizin islahına bir kömək", "Mədrəsələrimizin islahı zəruri deyilmi?"** və s. çoxlu məqalələrində o zamankı Azərbaycan həyatının müxtəlif sosial, iqtisadi, ictimai və mədəni problemlərini müzakirəyə qoyurdu.

Cəlal Ünsizadənin ədəbi və jurnalistlik fəaliyyətinin məhsuldar və çiçəklənən çağında – **1891-ci ilin oktyabrında** "Kəşkül" bağlandı. O, kiçik qardaşı Kamal Ünsizadənin nəşrinə baş mətbuat idarəsindən icazə istədiyi **"Azərbaycan"** qəzetinin redaktoru olmağa razılıq verdi. Ünsizadə qardaşlarının siyasi mövqeyindən narazı olan və müxtəlif yollarla onlarla haqq-hesab çürütməyə çalışan hakim dairələr böyük və ortancıl qardaşın nəşr etdiyi "Ziya" və "Kəşkül"ün abunəçi toplaya bilmədiyini bəhanə edib kiçik qardaşa da "Azərbaycan"ı nəşr etməyə icaz verməmədilər. İşsiz qalan və hökümətin təqiblərindən yaxa qurtarmağa yol axtaran Cəlal Ünsizadə qardaşı Səid Əfəndinin **ardınca Türkiyəyə mühacirət etməyə məcbur oldu...**

Kamal Əfəndi Ünsizadə Əbdürrəhman oğlu 1854-cü ildə Şamaxı şəhərində anadan olmuşdur. O da qardaşları kimi mollaxanada, atasının şəxsi məktəbində, sonra Şamaxı mədrəsəsində oxumuşdur. Ərəb, fars, rus dillərini mükəmməl öyrənmişdir. İlk əvvəl Şamaxıda **şəriət müəllimi** işləmiş, dini ideologiyanın təbliğinə böyük əmək sərf etmişdir. O, dini ideologiyanı nəşr etdirdiyi **"Məzhər"** qəzetində vaxtaşırı çap etdirə bilmişdir.

O, əmək fəaliyyətinə 19 yaşında Şamaxı şəhər məktəbində Azərbaycan dili, İslam tarixi, şəriət müəllimi kimi başlamışdır. Bir neçə il sonra (1874) xalqdan toplanan vəsait hesabına Şamaxıda açılan **"Məclis"** və **"Üsuli-cədid"** adlı məktəbə dəvət olunmuşdur. Bu məktəblərdə böyük maarifçi şair

S.Ə.Şirvani ilə işləmişdir. Bir neçə il sonra Tiflisdə yaşayan qardaşı Səid Əfəndinin yanına köçmüş, onun mətbəəsində əməkdaş kimi çalışmışdır. Sonra o, burada müstəqil qəzet yaratmaq fikrinə düşür.

Deməli, XIX əsrdə şair, nasir, publicist, tənqidçi və mütrəcim kimi məşhur olan Ünsizadələr həm də maarifçi və məktəbdar olmuşlar.

Ədəbiyyat

1. H.Əhmədov. XIX əsr Azərbaycan məktəbi. Bakı: 1985
2. E.Çələbi. Səyahətnamə. Bakı: 1997
3. Ə.Mustafayev. "Xatirələri, hekayə və felyetonları. Bakı: 1985
4. C.Cəbrayılbəyli. "Xatirələrim". Bakı: 1961
5. Ə.Bağırov. S.Ə.Şirvani və məktəb. Bakı: 1986
6. M.Ə.Sabir. Hophopnamə. III c. Bakı: 1965
7. A.Bayramoğlu. Şamaxıda maarif və maarifçilik. Bakı: 1999
8. M.Məmmədov. Sabir və məktəb. Bakı: 1968
9. S.Qəniyev, M.İsmayılova. Şamaxı məktəbləri, maarif fədailəri. Bakı: 1999

М.Исмаилова

Братья – унси-зады одновременно профессиональными учителями

Резюме

В статье рассматривается деятельности крупных просветителей братьев Унсизаде, которые сыграли огромную роль в развитии педагогической среды, в инициативе по открытию школ в Шемахе в XIX веке. В статье одновременно констатируется тот факт, что эти просвещенные братья Саид и Джалал Афанди создали новую типографию и издали еженедельную газету под названием «Зияйи-Кафказия».

Саид Эфенди одновременно испытывал свой талант в области публицистике, художественного творчеств. Они были видными педагогами, просветителями в сфере образования. Вся их деятельность отражены в книгах Саида Эфенди «Тафсирул-этфал», «Тахзибул-ахлак».Справедливо отметит, что братья Унсизаде явились видными писателями, поэтом, прозаиком, публицистам и крупными просветителями своего времени.

M.Ismayilova

The Unsizade were also educated persons

Summary

In the article it is said about the activity of the Unsizade brothers who had a great role in the formation of the pedagogical sphere, development and schools in Shamakhi in the 19th century. At the same time it is mentioned that the brothers – Said and Jalal Efendi had created the new publishing house and published the weekly newspaper named "Ziyayi-Qafqaziyye".

Said Efendi having the publicist, literary, scientific activity, including first of all he was the perfect educated person as S.A.Shirvani, H.Zardabi. His pedagogical thinking and practices were collected in the books named "Telimul-etfal", "Tehzibul-ekhlag".

So, being famous as the poet, prose-writer, publicist, critic and translator the Unsizades were also educationists and teachers.

Rəyçi: Mahmud Allahmanlı
Filologiya üzrə elmlər doktoru, professor

HİKMƏT QULİYEV
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
e-mail: quliyevh@mail.ru

FOLKLOR TEXNOLOGİYA VƏ MƏDƏNİYYƏT MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ: "NEQATİV" VƏ "POZİTİV" BAXIŞ

Açar sözlər: mədəniyyət, texnologiya, virtual folklor, virtual ənənə, kompüter folkloru, folklor və internet, İKT və folklor
Ключевые слова: культура, технология, виртуальный фольклор, виртуальная традиция, компьютерный фольклор, цифровой фольклор, фольклор и интернет, ИКТ и фольклор, технокультурная среда
Key words: culture, technology, virtual folklore, virtual tradition, computer folklore, the digital folklore, folklore and internet, technology of the information communications and folklore, techno-cultural sphere

Folklorşünaslıqda informasiya-kommunikasiya texnologiyalarının inkişafı və İnternetin meydana gəlməsi zəminində folklorun transformasiyası, folklor və internet problemi, rəqəmsal dünyaya keçiddə folklorun vəziyyəti məsələlələrinin müzakirəsindən öncə, bütövlükdə müasir texnoloji yeniliklər və media şəraitində –kütləvi informasiya vasitələrinin periferiyada yaşayan insanın həyatına belə nüfuz etməsi kontekstində "folklorun taleyinin necə olacağı", "folklor yaradıcılığının davam edib-etməyəcəyi, yaxud folklorun məhv olacağı" , "folklor və texnoloji yeniliklər arasındakı münasibətlər necə cərəyan edəcəyi" və s. kimi istiqamətlər üzrə konseptual baxışlar və yanaşmalar irəli sürülmüşdü. Amerika alimi, folklor və internet problemləri üzrə geniş araşdırmalar aparan Trevor Blank "Folklor və internetin araşdırılmasının konseptual əsasları" adlı məqaləsində bu məsələlərlə bağlı mövcud baxışları təhlil edərkən (2, 1). Riçard Dorsona istinadən yazır ki, "çox az müddətdən sonra nə folklor, nə də onu öyrənmək üçün folklorşünasa ehtiyac olmayacaq" (4). Təbii ki, belə bir münasibət zamanla öz təsdiqini tapmadı və amerikan folklorşünası Kirşenblatt-Gimblettin müasir dövrdə folklora hər yerdə – "mediada və şəhərdə" rast gəlinməsi ilə bağlı baxışının doğru olduğunu sübut etdi (9, 302)). Riçard Dorsonun folklorun məhv olaraq aradan qalxması fikrini tənqid edən Kirşenblatt-Gimblett yazır ki, Dorson "... maariflənməyə, şəhərləşməyə, bürokratikləşməyə, texnologiyaya və kütləvi informasiya vasitələrinə rəğmən özünün folklor mövzusunu tapa bilmişdir. Bu zamanda belə Dorsonun materialı hələ də günümüzünkü (müasir dövrün folklor prosesləri nəzərdə tutulur – H.Q.) ilə dolu deyil" (10, 91). Buradan aydın olur ki,

Dorsonun yanaşmasında cəmiyyətin maariflənməsi, şəhərləşmə, texnologiya və kütləvi informasiya vasitələri folklorun mövcudluğunu təhlükə altına salan faktorlardır. Bu yanaşma onun folklora konseptual münasibəti kimi görünür. Təsadüfi deyildir ki, "Dorsonun bu kitabı (5) modern dünyanın folkloru deyil, "Modern Dünyada Folklor" kimi adlandırılır" (10, 91).

Hələ 1996-cı ilə çap olunan "Folklorun krizisi" adlı məqaləsində Barbara Kirshenblatt-Gimblett yazırdı: "Texnologiya folklor istehsal edən mədəni sahələrdə fasiləsizliyin yaradılmasında vacib rol oynayır. Dorson texnologiyaya görə folklorun müasir dünyada yaşamağa çalışdığını (texnologiyanın hesabına deyil) iddia etdiyi halda, mən əsaslandırmaq istərdim ki, folklor texnologiya, xüsusilə də kommunikasiya texnologiyaları hesabına yaranmış və müəyyənləşmişdir. Şifahi sənəti təsvir etmək və yazıya almaq üçün ən çox istifadə etdiyimiz texnologiyalar şifahiliyi (orality) (şifahi ədəbiyyatı deyil) sistemli konsepsiya şəklində tədqiqat sahəsi kimi diqqət mərkəzinə gətirdi" (9, 309).Göründüyü kimi, Kirshenblatt-Gimblett texnologiya və folklor arasında ziddiyyətdən deyil, onların qovuşmasından danışır. Məlum olur ki, texnologiya əksinə, folklorun istehsalına, başqa cür desək, genişlənməsinə və daha sürətli yayılmasına xidmət edir. Burada sahədə folklor mətnlərinin yazıya alınması zamanı istifadə olunan elektron vasitələrin – səsyazma aparatlarının roluna da diqqət yetirilir. Bu kontekstdə Riçard Dorsonun məlum bədbinliyini və narahatlığını tənqid edən müəllif folklor elminin formalaşmasında və mövcud olmasında kommunikasiya texnologiyalarının əlahiddə rolunu irəli sürür.Amerika folklorşünaslıq məktəbinin tanınmış simalarından olan Dan Ben Amos isə 1971-ci ildə nəşr olunan "Kontekstdə folklorun bir tərifinə dair" ("Toward a Definition of Folklore in Context) adlı məqaləsində folklorun araşdırma mövzusunun yoxa çıxması ilə əlaqədar olaraq onu öyrənən elmin də həmin taledən qaçmasının mümkün olmadığını yazırdı (1, 14). Folklorun mahiyyətinin müəyyənləşdirilməsində kontekstual yanaşmanı aktuallaşdıran Dan Ben Amos ənənənin mədəni fakt olmadığını və tədricən aradan qalxaraq, unudulduğunu irəli sürürdü. Alim ənənənin unudulması və yoxa çıxması zəminində folklorun, o cümlədən folklorşünaslığın da məhv olacağını qeyd edirdi. Dan Ben Amosun folklora bu aspektdən yanaşmasını və Riçard Dorsonun "bizim elmimiz yoxa çıxmaqda olan mövzuya söykənən elmdir" fikrini tənqid edən Alan Dandes yazır: "Amma folklor məhv olmur, əksinə, elektron poçt və internet üzərindən yayılmanın inkişafı hesabına müasir dünyada canlı və diri qalmağa davam edir" (6, 406). Digər bir amerikan folklorşünası Simon Bruner qeyd edir ki, 1970-ci illərin folklorşünasları arasında ilk dəfə olaraq kömpüterlə folkloru "mayalandıran" Alan Dandes olmuşdur (3, 27). Göründüyü kimi, Amerika folklorşünaslığında kompüter və folklor münasibətlərindən bəhs edən ilk alim Alan Dandes olmuşdur. Belə ki, A.Dandes "Xalq kimdir?" məqaləsində

üzərində xüsusi durduğu məsələlərdən biri də elm və texnologiya, konkret olaraq folklor və texnologiya problemidir. Alim yazır ki, "Folklor yanlış olaraq, cəhalətlə əlaqələndirilmiş, hesab olunmuşdur ki, savadlanma artdıqca folklor azalacaqdır. Texnologiya, xüsusi ilə kommunikasiyanı inkişaf etdirən texnologiya, folklorun məhv olmasına və aradan qalxmasına təsir edən faktor kimi qəbul olunmaqdadır. Lakin bu, həqiqət deyil! Telefon, radio, televiziya, kserokopiya aparatı və s. folklorun yayılma (transmissiya) sürətini artır-maqdadır. Bir ölkənin bir başından o biri başına çatmaq üçün günlər, həftələr, hətta aylar lazım olduğu halda, indi dünyanın ətrafında gəzməyə bir dəqiqə kifayət edir. Üstəlik, texnologiyanın özü belə folklorun subyektinə çevrilməkdədir... Buna görə də ***texnologiya folkloru məhv etməməklə yanaşı, onun yayılmasında və ötürülməsində həyati əhəmiyyətə malik bir faktora çevrilməkdə və yeni folklorun yaranmasında həyəcanverici bir ilham qaynağı olmaqdadır*** (kursiv bizimdir – H.Q.)" (7, 151).

Göründüyü kimi, alim haqlı olaraq texnoloji yenilikləri və müasir kommunikasiya vasitələrinin inkişafını folklorun əvvəlki dövrlərdən daha sürətli və yeni formalarda yayılma imkanı kimi qiymətləndirir. Burada diqqəti cəlb edən ən mühüm məqamlardan bir məhz müasir texnoloji yeniliklərin yeni folklorun yaranmasında oynayacağı qaynaq rolunun müəyyənləşdirilməsidir. Bu prosesi konkret faktlarla izah edən Alan Dandes qeyd edir ki, "Kompüterin meydana gəlməsi texnologiyanın müasir dünya üzərində təsirini simvolizə edir. Vurğulamaq istədiyim kömpüter folkloru və kompüter haqqında folklor məsələsidir. Bir şəxs kompüter proqramçıları qrupu arasında təfərrüatla söylənilən və bir qismi proqram adlarını, digər bir qismini isə müxtəlif kompüter dillərini ifadə edən spesifik terminlərdən ibarət kifayət qədər texniki lətifələr tapa bilər. Kompüter üçün çətinliyi ifadə edən bir zarafat metaforasını 1958-ci ildən əvvəlki zamanla əlaqələndirmək mümkün deyil. Belə ki, "ruh arzu edir, amma bədən zəifdir" deyimi kompüter tərəfindən ("kompüter folkloru" nəzərdə tutulur – H.Q.) "likör yaxşıdır, ama ət dəhşətlidir" şəklində ifadə olunur" (8, 17). Alan Dandesin bu izahından aydın olur ki, kompüterin meydana çıxması təkcə müəyyən texnoloji yenilik kimi əhəmiyyət daşımır, o eyni zamanda ***təfəkkür hadisəsi kimi sosial reallığın qavranılması və ifadəsi***, bütövlükdə isə "Tanrı və insanın təbiəti ilə bağlı ənənəvi biliklərin yeni libasda ortaya çıxması" (7, 151) kimi mühüm səciyyə daşıyır. Yəni bu, o deməkdir ki, ənənəvi folklorun mifoloji çağdan bu günə qədərki əsas mövzusu olan Tanrının və insanın mənşəyi, onlar arasındakı müxtəlif münasibət səviyyələri və bununla bağlı folklorun verdiyi izahlar müasir texnoloji kəşflərdən sonra dövrün reallığı şəraitində folklor kodunda yenidən dərk olunur və dildə öz ifadəsini tapır. Başqa sözlə desək, kompüter texnologiyalarının inkişafı gerçəkliyin ənənəvi dərki və ifadəsini yeni model və mexanizmlərinin ortaya çıxmasını zəruri etmişdir. "Maşının

("kompüter texnologiyası" nəzərdə tutulur – H.Q.) onun yerini tutması barədə insanın qorxusu"nun (7, 151) əks olunduğu bu folklorda dünyada mövcud olan bütün biliklərin bir super kompüterdə cəmlənməsi və onun muxtəlif suallara ("Tanrı varmı?", "Nə zamansa kompüter insanın yerini tutacaqmı?") cavab verməsi ilə bağlı mövzular mühüm yer tutur. Əgər bu mətnlərdəki mövzulara və qoyulan problemlərə diqqətlə baxsaq, görərik ki, burada A.Dandesin vurğuladığı kimi, kompüterin onun yerini tutması barədə insanın qorxusuyla bərabər, bütün biliklərə sahib olmaqla, insanların keçmişi haqqında onların özlərindən daha çox və mükəmməl informasiya əldə edə bilən, dolayısı yolla onların gələcəyini proqnozlaşdırmaq perspektivinin də doğurduğu qeyri-müəyyən hisslər və gözləntilər əks olunmuşdur. Bu fikrin davamı olaraq qeyd etmək istərdik ki, kompüter texnologiyalarının hazırkı inkişaf səviyyəsi – İKT-nin insanla, gerçəkliklə, keçmiş və gələcəklə bağlı fövqəladə bacarıq və qabiliyyətlərə sahiblik etmək iddiasındadır. Kompüterin meydana çıxması və onunla bağlı folklorun yaranması məsələlərinə A.Dandesin verdiyi bu izahlar barədə S.Bruner yazır: "Hərçənd ki, Dandes internetin dominant interaktiv vasitə və məişət texnikası olacağını qabaqcadan xəbər vermir, lakin o kompüter haqqında folkloru tematikləşdirməklə, insanın *vernacular* mənalar vasitəsilə nəzarəti haqqında hipotezini təklif edir ki, bu, istifadəçilərin rəqəmsal texnologiya və Web haqqında folklor tipli nümunələr yaratmağa can atması kimi anlaşılır" (3, 28). S.Brunerin bu izahından və A.Dandesin təhlillərindən bəlli olur ki, kompüter və digər texnoloji yeniliklərin insan üzərində təsiri onu bu vasitələri obrazlaşdırmağa, metaforik dildə ifadə etməyə, başqa sözlə desək, emosional dünyasının qəbul etdiyi və mədəniyyətin verdiyi simvollar və işarələr sistemində anlamağa sövq edir. İnternetin gündəlik həyatın əsas alətinə çevrildiyini vurğulayan S.Bruner yazır ki, o (yəni İnternet – H.Q.) həm də ənənələrin meydana çıxdığı və ya yarandığı ayrıca bir məkan və ya sahə kimi fərqləndirilmişdir (3, 22). Alimin bu baxışından bəlli olur ki, ***gündəlik həyatın ayrılmaz tərkib hissəsinə çevrilən İnternet artıq insanın fəaliyyət göstərdiyi, mövcud olduğu aləm kimi özünəməxsus ənənələrin, başqa sözlə desək, folklor proseslərinin meydana çıxdığı məkana çevrilməkdədir.*** S.Brunerə görə, nəhəng internet "açıq qaynaqlı mədəniyyət"i ("open-source culture") dəstəkləməklə fərdi maraqlardan daha çox kollektivliyə əsaslanan, dilin qrammatikası kimi bir şəxsin (fərdin) biliyini strukturlaşdırmaqla başqaları ilə ünsiyyətə girmək və bir yerdə düşünmək imkanı verir (3, 22). Bütün bu fikirləri diqqət mərkəzinə gətirdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, şəhərləşmənin, sənayeləşmənin və virtuallaşmanın folklor proseslərinə nəinki neqativ təsiri olmuş, əksinə, folklorun şaxələnməsi, yeni mövzu və məzmunlar kəsb etməsi, yeni forma və qəliblərdə ifadə olunması, eləcə də genişlənməsi, daha sürətli yayılması və ötürülməsi üçün həyati əhəmiyyət kəsb etmişdir. ***Beləliklə, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı***

və yayılması fiziki gerçəkliyə paralel olan və rəqəmsal texnologiyalar əsasında qurulan virtual dünyanın da yaranmasına, onun imkanlarının genişlənməsinə gətirib çıxarmışdır. Təbii ki, bu qeyd olunanlar məsələyə müəyyən bir bucaqdan baxışın nəticəsidir. Lakin problemə kompleks şəkildə yanaşmaq və bu istiqamətdəki təhlilləri genişləndirmək üçün internet və folklor, informasiya-kommunikasiya texnologiyaları şəraitində şifahi mədəniyyətin mahiyyəti və funksional imkanları, real aləmin virtual aləmə transformasiyası problemləri, eləcə də müasir sosial-mədəni proseslərin (gerçəkliyin ictimai, siyasi, sosial, iqtisadi, mənəvi və s. sferaları) folklorun predmetinə çevrilməsi və rəqəmsal mühitdə inikası və s. kimi istiqamətlərə də geniş nəzər yetirməliyik.

Ədəbiyyat

1. Ben-Amos, Dan. 1971. Toward a Definition of Folklore in Context. Journal of American Folklore 84: p. 3-15,
2. Blank, Trevor J. 2009. Toward a Conceptual Framework for the Study of Folklore and the Internet. Folklore and the Internet: Vernacular Expression in a Digital World. /Edited by Trevor J. Blank/ Utah State University Press Logan, Utah, 290 p. 1-20,
3. Bronner, Simon J. 2009. Digitizing and Virtualizing Folklore. Folklore and the Internet: Vernacular Expression in a Digital World. /Edited by Trevor J. Blank/ Utah State University Press, Logan, Utah, , 290 p., p., 21-66
4. Dorson, Richard M. 1972. Folklore and folklife: an introduction". Edited by Richard M. Dorson. The University of Chicago press. 1972, 527 p.
5. Dorson, Richard M. 1978. Folklore in the Modern World. ed.Richard M.Dorson. The Hague, Mouton Publishers, pp. 11-51. The Hague: Mouton. 353 p.
6. Dundes, A. 2005. Folkloristics in the Twenty-First Century (AFS Invited Presidential Plenary Address, 2004). The Journal of American Folklore, Vol. 118, No. 470 (Autumn, 2005), pp. 385-408
7. Dundes, Alan, 1998. "Halk kimdir?". Çeviren: Metin Ekici. Milli Folklor Dergisi. 1998, Sayı 37, s. 139-153,
8. Dundes, Alan, 1980. Who are the folk? İnterpreting Folklore. İndiana, İndiana University press, p. 1-19
9. Kirshenblatt-Gimblett, Barbara, 1998. "Folklore's Crisis." Journal of American Folklore 111: 281-327
10. Kirshenblatt-Gimblett, Barbara. 2015. "Folklorun krizi". Halkbiliminde kuramlar ve yaklaşımlar. Çev: Mehmet Emin Dede. Cilt 4, Ankara: Geleneksel yayıncılık, 407 s., s., 66-109

Х. Кулиев

Фольклор в контексте отношений технологии и культуры: “негативный” и “позитивный” взгляд

Резюме

В статье были привлеченные к анализу вопросы взгляда на фольклор в контексте противопоставления технологии и культуры. Было отмечено что, культура, тесно связанная с развитием различных сфер общества, постоянно включала в себя технологическую новизну и достижения. Если вначале отношения технологии и культуры были восприняты как противоположность, современная реальность – технокультурная реальность подтвердила неправильность этих взглядов. В статье были исследованы все эти отношения и взгляды в контексте парадигм отношений фольклора и технологии, фольклора и компьютера, фольклора и интернета. Было определено что, интернет, превратившийся в неотъемлемую часть повседневной жизни, становится носителем своеобразных традиций, как мир в котором существует и действует человек, иными словами, пространством формирования фольклорных процессов.

H. Guliyev

Folklore in the context of technology and culture relations: “negative” and “positive” opinions

Summary

In the article the problems about the folklore in the context of technology and culture confrontation are drawn into the research. It is noted that the culture being very close with the development of the different spheres of the society has always taken the technology newness and successes. Though the technology and culture relations are accepted in the form of confrontation, the present reality – the techno-cultural reality proved that those opinions were not right. All these opinions and point of views have been investigated in the article in the ground relations paradigms context of the folklore and technology, folklore and computer, folklore and internet. It has been determined that Internet becoming the inseparable part of the daily life has become the world with its specific traditions, in other words, the space where the folklore processes appear.

Rəyçi: Seyfəddin Rzasoy
filologiya üzrə elmlər doktoru, professor

XUMAR ABDULLAYEVA
Azərbaycan Universiteti
xumar.safarova@mail.ru

Y.V.ÇƏMƏNZƏMİNLİNİN "GƏLƏCƏK ŞƏHƏR" ƏSƏRİNİN AZƏRBAYCAN ELMİ-FANTASTİK ƏDƏBİYYATINDAKI ROLU

Açar sözlər: elmi-fantastika, ideya, utopiya, janr, cəmiyyət, fərziyyə
Ключевые слова: научная фантастика, идея, утопия, жанр, общество, гипотеза
Key words: science fiction, idea, utopia, genre, society, hypothesis

XX əsrin birinci yarısında dünya elmi-fantastik ədəbiyyatının milli ədəbiyyatımıza təsiri nəticəsində Azərbaycan elmi fantastikası formalaşmağa başladı. Həmin dövrün görkəmli yazıçısı Y.V.Çəmənzəminli 1930-cu ildə qələmə aldığı "Gələcək şəhər" adlı hekayəsi ilə ədəbiyyatımızda bu janrın əsasını qoydu. Hekayənin Azərbaycan ədəbiyyatında ilk elmi-fantastik nümunə olması birmənalı qarşılanmadığına görə, bu mövzuda daha çox tədqiqatların aparılması məqsədəuyğundur.

Araşdırma nəticəsində məlum oldu ki, Azərbaycan ədəbiyyatında elmi-fantastika janrının ilk nümunəsi, həqiqətən də, Yusif Vəzir Çəmənzəminlinin 1930-cu ildə qələmə aldığı "Gələcək Şəhər" hekayəsidir. Bu əsərdə müəllif əsasən yad dünyada həyatın təsviri mövzusuna toxunmuş və bir çox sahələri, xüsusilə də tibb elmini əhatə edən müəyyən elmi fərziyyələr irəli sürmüşdür. Hekayədə yazıçı gələcəkdə görmək istədiyi, arzu etdiyi ideal şəhəri təsvir etmişdir. Bildiyimiz kimi əsl elmi – fantastik əsərlərin spesifik xüsusiyyəti məhz zamanı qabaqlamasıdır. Dahi yazıçı Y.V.Çəmənzəminli milli ədəbiyyatımızda bu sahədə ilk addım atmış və "Gələcək şəhər" əsərində bu işin öhdəsindən məharətlə gələrək zamanı xeyli qabaqlaya bilmişdir.

Hekayə ilk dəfə 1933-cü ildə özbək dilində kitabça şəklində çap olunmuşdur. Hekayənin latın qrafikası ilə yazılmış 31 səhifəlik və ərəb qrafikası ilə yazılmış 44 səhifəlik əlyazması mövcuddur. On iki hissədən ibarət olan bu hekayənin hər bir hissəsində yeni bir elmi fərziyyə, ideya və fantastik fikir təsvir olunmuşdur[2; s.189]. Fikrimizcə Y.V.Çəmənzəminlinin qələmə aldığı "Gələcək şəhər" hekayəsi həcmcə kiçik olduğuna baxmayaraq, mövzu istiqamətinə, ideya məzmunun geniş və ağır çəkili olduğuna görə bu əsəri hətta kiçik povest də adlandırmaq olar.

Hekayədə müəllif gələcəkdə görmək istədiyi ideal şəhəri yolunu azmış səyyahların başqa planetə düşmələri ilə təsvir edir. Hekayə Gürcüstanın paytaxtı Tiflis şəhərindən Bakıya yola düşən və Kürdəmirə kimi

rahat uçan təyyarənin birdən-birə buludların arasında azmasıyla başlayır. Güclü külək nəticəsində sürətini dəyişən təyyarə bir neçə saatdan sonra mavi boşluğa daxil olur. Burada hava şəraiti nəticəsində təyyarə qəzasında yolunu azmış səyyahlar Həsən və Sandronun təsadüf nəticəsində başqa planetə enmələri təsvir olunur.

İki gündən bəri yemək yeməyən səyyahlar onlara tanış olmayan bu şəhərin yeməkxanalarının birinə dəvət edilirlər. Burada hazır yeməklər masanın üzərinə avtomatik gəlir. Bir neçə gün ac olan səyyahlar böyük bir iştaha ilə yeməyə başlayırlar.

Yeməkdən sonra Sandro özünü pis hiss edir, başı ağrıyır, mədəsi bulanır və ona həkim çağırılmasını xahiş edir. Ona aynalı telefon verilir və bu telefonun aynasından həkim Sandronun dilinə baxaraq xəstəni müayinədən keçirir və lazimi dərman yazır.

Yeri gəlmişkən qeyd etməliyik ki, müəllifin hekayədə təsvir etdiyi aynalı telefon müasir zəmanəmizdə tez-tez istifadə olunan, müasir dildə desək, Skype proqramının yerinə yetirdiyi rolun, danışıq əsnasında səsli və görüntülü ünsiyyət qurmanın, həqiqi daşıyıcısıdır. Yazıçı hekayədə indi bizim müasir dövrdə "ekran" və ya "monitor" adlandırdığımız anlayışın əvəzinə "ayna" sözünü işlədir. Sözsüz ki, XX əsrin birinci yarısından fərqli olaraq, televiziya və daha sonralar İnternet vasitəsi ilə uzaq məsafədən müayinə və müalicənin effektli metodu ilə müasir oxucunu təəccübləndirmək mümkün deyil. Bunu da nəzərə almaq lazımdır ki, bu hekayə 87 il bundan öncə qələmə alınmışdır və o zamanlar hekayədə təsvir olunan cihazların mövcudluğuna heç söz ola bilməzdi.

Daha sonra səyyahlar avtomobillə şəhər gəzintisinə çıxırlar. Sürətlə hərəkət edən avtomobilin "motor"u sönür və birdən birdən dayanır. Onların təəcüblə soruşduqları "Nə oldu?" sualına belə cavab verildi: "Avtomobillərin, tramvayların, adam basmasın deyə, motorlarına bir makina qoyulmuş. Ön tərəfdə maneə görünən kimi motor öz-özünə dayanır. Küçələrdə on minlərcə avtomobil işlədiyi halda heç bir bədbəxt hadisə əmələ gəlmir"[1; s.282].

Y.V.Çəmənzəminlinin hekayənin bu hisssəsində təsvir etdiyi, qəzalardan sığorta olunmaq üçün nəqliyyat vasitələrinin mühərriklərinə quraşdırılan, qəza ehtimalının yüksək olduğu hallarda motorun söndürülməsi funksiyasını yerinə yetirən bu qurğu, hal-hazırda avtomobil texnikası qarşısında fəal şəkildə düşünülən bu ideyanı əks etdrir.

Qeyd etməliyik ki, bu ideya tam reallaşdırılmayıb, lakin müasir texnologiyanın ən son nailiyyəti olan dövrümüzdə avtomobillərdə quraşdırılmış öncədən təhlükəni xəbər verən təhlükəsizlik sensoru olan xüsusi qurğu artıq geniş şəkildə istifadə olunur və təkmilləşmə mərhələsindədir. Son günlərdə həm də sürücü müdaxiləsi olmadan maşını idarə etməyə qadir olan avtopilot sistemi işə düşmüş, bəzi ölkələrdə hətta tamamilə sürücüsüz idarə edilən avtomobillərə

rast gəlinməsi ilə müşayiət olunan bu yenilik məhz XXI əsrin ikinci onilliyinin sonlarına yaxın həyata keçməkdədir.

Bir də göydə iri hərflərlə "Yağış yağacaq!" sözləri yazıldı. Haman, hər kəs daldalanmağa çalışdı. Səyyahlar bağdakı köşklərin birinə çəkildilər. Həsən heyrətlə:

- Yağış yağacağını nədən bilirlər? – deyə soruşdu.
- Gənc:
- Burada buludları da göyə makina vasitəsilə gətirirlər, - dedi.
- Şəhəri təmizləmək üçün gündə iki dəfə yağış yağdırılır [1; s.283].

Bu hissədə də müəllif hekayənin yazılma dövrünü önləyərək, süni yağış yağdırmanın mümkünlüyünü çox məharətlə təsvir etmişdir. Araşdırma nəticəsində müəyyən etdik ki, süni yağışın yağdırılmasına ilk dəfə İrvinq Lanqmuir və Vinsent Şafer tərəfindən cəhd edilmiş və sonradan Bernard Vonnequt tərəfindən daha da təkmilləşdirilərək həyata keçirilmişdir[4]. İlk dəfə 1960-cı illərdə ABŞ-da uğurla təcrübədən keçirilən bu metod daha sonra 24 ölkəyə yayılmış və günümüzə qədər də istifadə olunmaqdadır. Süni yağış yağdırmaq üçün xüsusi hava-yaylım atəşi topları vasitəsi ilə bulud topaları dağıdılır və təyyarələrdən müəyyən kimyəvi maddələr havaya atılır. Bu, quraqlığın qarşısını almaqla kənd təsərrüfatına vurulan ziyanı aradan qaldırır[3].

Bu şəhərdə sakinlər ayda bir dəfə həkim müayinəsindən keçməyə məcburdular. Səyyahlar bunu bilərək dispanserə gedirlər. Dispanserdə bir çox müxtəlif makinalar var idi. Səyyahların hərəsi bir makinanın qarşısına qoyulur və bədənlərinin şəkilləri qarşıdakı ekranda əks olunur. Makina işlədikcə şəkil dəyişilir. Onların dərilərinin altı, əzələləri, damarları, sümükləri və bütün daxili üzvləri ürək, ciyər, mədə, böyrəklər ən incə nöqtələrə qədər görünürdü. Həkim Həsənin ciyərində kiçik bir ləkə olduğunu müəyyən edir və onu başqa otağa apararaq orada ciyərinə işıq buraxılır. Sonra bir ilac içirib yola salırlar və üç gündən sonra ləkə yox olur. Müayinə zamanı Sandronun böyrəyində kiçik bir daş aşkar olunur və onu da xüsusi işıq ilə əridirlər.

"Səyyahlar tibbi məsələlərlə maraqlandılar. Gənc səyyahları maraqlandıran məsələləri aydınlaşdırırdı:

- Şəhərimizdə xəstəlik yox kimidir. Çünki başlanmasına belə yol verilmir. Sonra cərrahlıq o qədər irəliləmiş ki, insanın ürəyini, ciyərini belə çıxarıb, əvəzinə yapmasını qoyurlar. Hətta qayrılmış gözlər belə təbii vəzifələri ifa edir [1; s.284].

Bu parçada müəllifin təsvir etdiyi bütün tibbi yeniliklər, sön dövrlər müasir tibb elmində geniş tətbiq edilən USM – ultradalğalı şüaların köməyilə həyata keçirilən tibbi müayinə, KT – kompyüter tomoqrafiyası, lazer vasitəsilə böyrəklərdəki daşların xırdalanıb tökülməsi, ürək və ciyər kimi

orqanların transplantasiyası, süni göz qoyulması və digər yeni texnologiyalara aiddir. Bu hissədə verilən fantastik ideya və fərziyyələr onu göstərir ki, tanınmış Azərbaycan nasiri Y.V.Çəmənzəminli hələ ötən əsrin ilk yarısında yazılma dövrünü xeyli önləyərək, tibb elmində olan yeniliklər haqqında dərin məlumatlar vermişdir.

Daha sonra Sandro heyrətlə soruşur:

- Deməli, insan həmişə yaşaya bilər.

Gənc fikrə getdi:

- Əbədi həyat hələ kəşf olunmamışdır. Ancaq adamı uzun müddət yaşadırlar. Məsələn, bir qocanın hüceyrəsini dəyişməklə onu gəncləşdirirlər. 200 yaşlı adamlara hər addımda rast gələrsiniz. Bunlar 4-5 dəfə gəncləşmişlər və hər dəfə onların yeni uşaqları da olmuşdur [1; s.284].

Araşdırmalar nəticəsində əldə etdik ki, insan hüceyrəsinin hər xromosomunun qurtaracağında bölünmə zamanı onu qoruyan telomer adlanan hissəcik mövcuddur. İnsanın yaşlanması ilə onların kiçilməsi baş verir və nəticədə, ölümcül xəstəliklərə yoluxma riski dəfələrlə artır. Məhz telomer vasitəsilə xromosomların qorunması prosesinin kəşfi 2009-cu ildə Nobel mükafatı ilə təltif edilir və sonradan ispan alimlərinin səyi nəticəsində telomerlərin uzanmasının kök hüceyrələrinin dəyişdirilməsi ilə mümkün olduğu kəşf edilir. 2012-ci ildə hüceyrənin cavanlaşdırılması prosesinin uğurla həyata keçirilməsinə görə, yapon alimi Yamanaka da Nobel mükafatına layiq görülmüşdür[5].

Hekayənin növbəti hissəsində səyyahlar şəhərdə olan fabriklərdən birinə yollanırlar. Onlar şəhər kənarındakı stansiyalardan birində vaqondan çıxaraq, tərpənərək sağa və sola sürünən platformanın qarşısında dayanırlar. Səyyahlar ayaqlarını platformaya qoyar – qoymaz özlərini fırlanan pilləkən qarşısında görürlər, birinci pilləyə ayaq qoyan kimi pilləkən onları yuxarı götürür. Onlar küçəyə çıxırlar. Küçədəki sağa və sola hərəkət etməkdə olan bu qaldırımlar küçənin bir tinindən digər tininə aparır və beləliklə səyyahlar çox asanlıqla fabrikə çatırlar.

Bu şəhərdə səyyahların təəccübünə səbəb olan dəmir yolu, fırlanan pilləkənlər, ayagı basan kimi küçənin tininə aparan qaldırımları müəllif bu günlərdə ən müasir texnologiyalarla təchiz olunmuş yeraltı nəqliyyatı, ən son standartlara cavab verən piyadaların yolun bir tərəfindən digər tərəfinə təhlükəsiz keçmələri üçün tikilən yeraltı piyada keçidləri və qurulan ən müasir eskalatorları öz əsərində çox ustalıqla təsvir etmişdir.

Bunun ardınca səyyahlar avtomobil fabriki ilə tanış olurlar. Birinci sıralarda makinalara buraxılmış xam dəmir parçaları son sıralardakı makinalardan hazır avtomobillər buraxılır. Fabrikdə bir işçi beş makinaya nəzarət edir və bütün texnoloji ağırlıq makinanın üzərinə düşür. Hekayədə təsvir olunan makinalar son dərəcə mükəmməl hazırlanmışlar.

Yolda gələrkən səyyahların gözünə çarpan bir sıra uca dəmir qüllələr onlarda təəccüb doğurur. Bunların nə olduğunu gəncdən soruşurlar. Gənc dedi:

"- Bu qüllələr havadakı elektriki toplamaq üçündür. İldırım bizə böyük xidmət göstərir. Şəhərimizin işığı və fabriklərimizin hərarəti bu qüllərə bağlıdır. Ölkəmizdə belə qüllələr çoxdur. Bu qüllələr gecəyə qələbə çalmışlar. Şəhərdə gecələr işıqlanmayan bir nöqtə belə yoxdur. Hər tərəfə işıq parıldayır.

Sandro:

- Belə ucuz enerji ilə yəqin evləri də qızdırırlar.

Gənc:

- Yox, - dedi, - istini günəş hərarətindən alırıq. Məmləkətin müəyyən nöqtələrində makinalar qoyulmuş. Bu makinalar yayın hərarətini toplayaraq sıyıq bir hala salır. Üç ay tədarük olunan hərarət ölkənin doqquz aylıq ehtiyacını tamamilə ödəyir" [1; s.286].

Səyyahlar bu şəhərdə həmçinin məftilin olmadığını müşahidə edərək işığın və hərarətin nə vasitəsilə getməsini soruşurlar. İndi artıq bizim şəhərdə məftilə ehtiyac yoxdur. Məftil bundan çox – çox əvvəl götürülüb, telefon, teleqraf, hərarət - bütün bunlar hava vasitəsilə gedir deyə səyyahlar cavablandırılır.

Hekayənin hər bölümündə olduğu kimi bu hissədə də müəllif öz elmi fərziyyə, ideya və yaxud fantastik fikirlərini irəli sürərək, müasir dövrdə elm və texnologiyanın inkişafı nəticəsində ətraf mühiti təmiz saxlamaq və iqtisadi səmərəlik baxımından əlverişli olan günəş işığından enerji əldə edilməsi texnologiyasını təsvir etmişdir.

Bildiyimiz kimi ən mükəmməl elmi-fantastik əsərlərin özəlliyi onun yazılma dövrünü önləməsidir. Ədibin bu hekayədə işlətdiyi fantastik fərziyyə və ideyalar öz yazılma dövrünə görə dünya elmi-fantastik ədəbiyyatının ən qabaqcıl nümunələri səviyyəsində durur. Əsərdə bir neçə utopik ünsürlərə rast gəlinsə də, hekayənin bütünlüklə elmi-fantastikaya aid olduğunu əminliklə qeyd edə bilərik.

Həsən:

" Bir şey, məni maraqlandırır, - dedi. - Biz yeyirik, içirik, oteldə yaşayırıq.... Nə üçün bizdən pul istəyən yoxdur?

- Pul nədir? Pul yüz il bundan əvvəl ləğv olunmuşdur. Bizdə hər kəs çalışır və hər kəs də yeyir, içir, yaşayır. Bu hər kəsin vəzifəsidir. Bir adama nə lazım olsa hər bir yerdən ala bilər.
- Müftəmi? – deyə Sandro heyrətlə soruşdu.
- Müftə nə deməkdir? Hər kəs cəmiyyət üçün çalışır və cəmiyyət də onu bəsləyir. Burada dərin bir məsələ yoxdur"

Səyyahlar bir – birinin üzünə baxaraq gülümsədilər. Gənc bunların heyrətinin mənasını duyaraq dedi:

- Keçmiş xalqların fəna yaşadıqlarının səbəblərini tarixdə oxuyuruq. Birinin işləyən, o birinin müftə yeyən olması insanların həyatını pozmuşdur. Biz işləməyənləri aramızdan çoxdan çıxarmışıq. Əl-ayağı iş tuta bilməyən uşaqlardan və qocalardan başqa hamı işləyir. İşləməyən adama yemək yoxdur. Bu gün heç kəs yediyi və geydiyi şeylərdən başqa artıq, lüzumsuz şeyləri toplamır. Bizim ölkəmizdə yemək – geymək bir ehtiyac olan kimi, işləmək də bir ehtiyacdır. İşləmənin məhsulu faydadır. Hər kəs özünün gündəlik faydasını başqasının faydasına dəyişir. Pula ehtiyac varmı? Bu gün pulun yerini iş və fayda tutur.
- Bu necə ola bilər? – deyə Həsən soruşdu.
- İnsanların bir – birinə hörmət və etibarı var. Yalan, adam aldatma, tənbəllik və bu kimi fəna sifətlərə biz yalnız tarixdə rast gəlirik[1; s.289)].

Müəllif təsvir etdiyi bu şəhərdə elə bir utopik cəmiyyət nümunəsi yaratmışdır ki, burada insanlar puldan istifadə etmir, hər kəs cəmiyyət üçün çalışır, yaradır və bunun da əvəzini alır. Yazıçı onu da qeyd etmişdir ki, belə saf cəmiyyətə sahib olmaq üçün yalnız çoxlu işləmək lazımdır.

Gəncin sözləri və şəhərdə gördükləri səyyahları son dərəcə təəccübləndirir.

Onlar evə qayıtdıqdan sonra gördükləri və eşitdiklərinin təsirindən qurtara bilmirlər. Bu şəhərdə səyyahlar elm və texnikanın yüksək inkişafına heyran qalırlar. Yazıçının hekayədə təsvir etdiyi bu yeni şəhər sovetlərdə hələ qurulmağa başlanan, lakin başqa planetdə isə artıq qurulmuş olan "sosializm" şəhəridir. Əsərdə tibb elmində olan yeniliklər diqqəti daha çox cəlb edir. "Gələcək şəhər" hekayəsində Y.V.Çəmənzəminli tibb elminin inkişafı nəticəsində insanların daha uzunömürlu olmaları, ən azı iki yüz ilə qədər ömür sürə bilmələrini də vurğulayır. Müəllifin təsvir etdiyi bu gələcək şəhərdə tibb o qədər inkişaf etmişdir ki, hətta qoca insanların hüceyrələrini dəyişməklə onu gəncləşdirərək ömürlərini uzadırlar.

Əsər demək olar ki, bütünlüklə elmi fantastika janrında yazılsa da, hekayənin bu hissəsində yazıçının utopik ünsürlərə müraciət etməsi açıq-aydın diqqəti cəlb edir. Burada müəllifin təsvir etdiyi səhnə onun öz dövrünün tələbatlarından daha üstün bir cəmiyyətin formalaşmasına işarə edərək, yuxarıda göstərildiyi kimi, mükəmməl dövlət quruluşunu necə görmək istədiyini idealistik yanaşma ilə oxuculara çatdırır. Cəmiyyət üzvlərinin bir-birinin rifahı üçün olan təmənnasız qayğı münasibətlərinin keçmişdən gələn zaman yolçusunun heyrətlənməsinə səbəb olması məhz bu səhnənin utopik xüsusiyyətləri özündə əks etdirməsinə dəlalət edir.

Əminliklə deyə bilərik ki, Y.V.Çəmənzəminlinin “Gələcək şəhər” hekayəsi Azərbaycan elmi-fantastik ədəbiyyatının ilk nümunəsi olaraq özündən sonra bu janrda yazan müəlliflərin formalaşmasında böyük rol oynamışdır.

Ədəbiyyat

1. Çəmənzəminli Y. V., Əsərləri. Üç cilddə. I cild. Bakı. "AVRASİYA PRESS", 2005,
360 səh.
2. Əbilov Aydın, Bədii fantastika: Azərbaycan ədəbiyyatının gizli qatı // Azərbaycan, 2004, № 3, s.182-196
3. Bacanlı Hayrettin, Suni Yağış // T.C. ORMAN VE SU İŞLERİ BAKANLIĞI. - Telekomünikasyon Şube Müdürlüğü , 2008. - 30 July 2017. - https://www.mgm.gov.tr/genel/sss.aspx?s=suniyagis
4. Lambert Bruce, Vincent J. Schaefer, 87, Is Dead; Chemist Who First Seeded Clouds // New York Times, 1993. – 2 August 2017. - http://www.nytimes.com/1993/07/28/obituaries/vincent-j-schaefer-87-is-dead-chemist-who-first-seeded-clouds.html
5. Riley Kathleen, Nobel Prize Winner Claims to Have Found the Key to Slowing Aging // Futurism. – Yamanaka, 15 January 2017. - 27 July 2017. - https://futurism.com/the-telomere-effect-teaches-lessons-on-anti-aging/

Х.Абдуллаева

Роль произведения «будущий город» ю.в.чеменземинли в Азербайджанской научно – фантастической литературе

Резюме

Данная статья посвящается рассказу Ю.В.Чеменземинли «Будущий город», которая является первым научно-фантастическим произведением Азербайджанской литературы. Существует много противоречивых представлений о том, что этот рассказ является первым научно-фантастическим примером.

В результате анализа автор доказывает, что этот рассказ действительно является научно-фантастической. Основная часть статьи посвящена исследованию научных идей и гипотез, упомянутые в повести, которые были воплощены в жизнь на много позже их описания. Как известно основной чертой в научно - фантастических произведений является опережение времени. Автор так же уделяет большое внимание к инновациям в медицинской науке.

В произведении также можно отличить некоторые утопические идеи. Как указано в статье автор идеалистическим подходом описывает совершенно идеальную государственную систему. Можно с уверенностью сказать что, появление этого рассказа в нашей литературе открыл путь к развитию новых научно – фантастических работ.

KH.Abdullayeva

The role of the work "future city" by y.v.chemenzeminli in the azerbayjan science – fiction literature

Summary

The given article is dedicated to the story written by Y.V. Chemenzeminli "Future City", which is the first science fiction work of Azerbaijan literature. There are many contradictory ideas of being this tale the first science-fiction example. As a result of the analysis, the author proves that this story is really sci-fi. The main part of the article is devoted to the study of scientific ideas and hypotheses mentioned in the story, which were put into practice much later than their description.

As it is known, the main feature in science fiction work is being ahead of its time. The author also pays much attention to innovations in medical science. Some utopian ideas can be distinguished in the work too. As indicated in the article, the author describes an absolutely ideal state system using idealistic approach. It can be said with confidence that, the appearance of this story in our literature has opened the way to the development of new sci-fi works.

Rəyçi: **Cəlil Nağıyev**
Filologiya elmləri doktoru, professor

NİGAR MUSAZADƏ
Azərbaycan Dillər Universiteti
nigar_musazade@hotmail.com

EDQAR ALLAN PONUN ELMİ-NƏZƏRİ GÖRÜŞLƏRİ

Açar sözlər: Edqar Allan Po, ədəbiyyatşünaslıq, novella, hekayə, süjet
Ключевые слова: Эдгар Аллан По, литературоведение, новелла, рассказ, сюжет
Key words: Edgar Allan Poe, literary criticism, novella, tale, plot

Edqar Allan Ponun (1809-1849) estetik görüşləri Amerika maarifçiliyinin təsiri altında formalaşmışdır. Avropa romantizmini dərindən tədqiq etdikdə o, Amerikada romantizm cərəyanının önəmli yazıçılarından və nəzəriyyəçilərindən birinə çevrilmişdi. Yazıçı Avropa romantiklərinin estetik fikrində gözəllik, poeziya və musiqi, kompozisiya prinsipləri ilə bağlı təlimlərini inkişaf etdirmişdir. E.A.Po incəsənətin əsas məqsədi kimi ehtirasların faciəvi toqquşmasını qələmə almağı tövsiyə edirdi. E.A.Ponun novella janrına dair nəzəri fikirlərinin yaranması istiqamətində nailiyyətləri üç məqam üzərində ümumiləşdirilə bilər: Vaşiqton İrvinq və Nataniel Hotorn tərəfindən başladılan təcrübələri davam etdirərək, E.A.Po yeni janrın formalaşması işini yekunlaşdırır və ona bu gün Amerika romantik novellasının əsasını saydığımız cəhətlərini tədqiq edir; Praktiki nailiyyətlərlə yetərlənməyərək özünün (və başqasının) təcrübəsinin nəzəri tədqiqinin vacibliyini dərk edərək, E.A.Po novellanın janr nəzəriyyəsini yaradır və onları ümumi şəkildə N.Hotorn haqqında üç məqaləsində ifadə edir. Hazırda bu məqalələr davamlı olaraq Amerikanın estetika və ədəbiyyat nəzəriyyəsi haqqında antologiyalarında nəşr olunur. Həm Amerika, həm də dünya novella janrının inkişafında E.A.Ponun əhəmiyyətli rolu onun bəzi nəzəri mövzuları əyani tədqiq etməsi olmuşdur. Onun məntiqi (detektiv) hekayələrin, elmi-fantastik novellanın və psixoloji hekayələrin banisi hesab olunması heç də əsassız deyil. E.A.Ponun novella nəzəriyyəsi heç də tamamilə müstəqil deyil, lakin onun ümumi incəsənət konsepsiyasının bir hissəsidir. Onun fikrincə poeziya və nəsr vahid estetik sistemin tərkibində mövcuddur və onların arasındakı fərqlər onların qarşısında duran məqsəd və vəzifələrindən doğur.E.A.Ponun novella nəzəriyyəsi lakonik tələblərin toplusu şəklində özünü göstərir və bunlarla həmin janrda işləyən hər bir yazıçı tanış olmağa məcburdur. Bunlardan birinci ədəbi əsərin həcmi ilə əlaqədardır. Ponun fikrincə novella qısa olmalıdır. Uzun novella artıq novella deyil. Bununla yanaşı, qısalığa can atdıqca yazıçı müəyyən olunmuş həddi gözləməlidir. Həddən ziyadə qısa ədəbi əsər dərin və güclü təsir bağışlaya bilməz, belə ki,

onun fikrincə, "müəyyən uzunçuluqsuz, əsas ideyanı təkrarı olmadan ruha nadir hallarda toxunulur"(4;134). Bədii əsərin uzunluğu həddi onun birnəfəsə, oxunması, əgər belə demək olarsa, "bir oturuma" əxz olması ilə müəyyən olunur. Qeyd etmək lazımdır ki, E.A.Ponun şeirin ölçülərinə dair münasibəti onun nəzmə həsr olunmuş "Poetik prinsip", "Yaradıcılıq fəlsəfəsi" və başqa məqalələrində ifadə etdiyi fikirlərini tamamilə təsdiqləyir. Və müəllifin bu cür sərt və şərtsiz şəkildə qısalığı tələb etməsi səbəbləri elə həmin təəssürat və effekt vahidliyindən irəli gəlir. Poeziyada effektin vahidliyi emosional təsirin məqsədlərinə, nəsrdə isə – emosional və intellektuallığa xidmət etməli idi. Ponun nəzəriyyəsində effektin vahidliyi – təhkiyənin bütün aspektlərini özünə tabe edən başlıca prinsipdir. O, müəllifin hansı "qısa nəsr" yaratmasından asılı olmayaraq dərkin tamlığını təmin etməlidir. Effektin vəhdəti – müəyyən total, ümumi vəhdətdir, o süjetin hərəkətinin, üslubun, tonallığın, kompozisiyanın, dilin və s. fərdi "kiçik" vəhdətlərin toplusundan əmələ gəlir, lakin onların arasında ən əhəmiyyətlisi, əsası təşkil edən baza və ya predmetin vəhdətidir. Öncədən müəyyənləşdirilmiş effektə xidmət etməyən heç bir əlavə novellada iştirak etmək hüququna malik deyil. O, yazırdı: "Əvvəlcədən təyin olunmuş fikirlin gerçəkləşməsinə birbaşa və ya dolayısı ilə yönəlməmiş heç bir söz də olmamalıdır"(4;127). Edqar Ponun fikrincə, süjet fabula və intriqa ilə eyniləşdirilə bilməz. Süjet dedikdə müəllif bədii əsərin ümumi formal strukturunu, davranışların, hadisələrin, xarakterlərin, predmetlərin uzlaşmasını nəzərdə tutur. Süjetdə, onun fikrincə, qarşılıqlı əlaqəsi olan hissələrdən başqa artıq heç nə olmamalıdır. Hər bir epizod, hər bir hadisə, hekayədəki hər bir kəlmə əsas məqsədin yerinə yetirilməsinə, vahid effektə nail olmağa xidmət edir. O, üsluba da əhəmiyyətli yer ayırırdı. E.A.Po novella janrının nəzəriyyəçisi kimi üslubun vəhdətində israr edirdi. Üslub – təhkiyənin ümumi tonallığı, leksikanın emosional rəngarəngliyi, mətnin sintaktik strukturu və hətta müəyyən mənada kompozisiyanın təşkilini özündə birləşdirən müəyyən mürəkkəb kompleksdir. Üslubun vəhdəti ilk öncə təhkiyənin bütün elementlərində emosional cəhətlərinin məhdudlaşdırılması ilə əldə olunur. Məhz bu səbəbdən müəllif dramatik ton üzərində yazılmış əsərin xoşbəxt razvyazka hissəsini mümkünsüz hesab edirdi(2;49). E.A.Ponun bütün bu görüşləri öz ifadəsini bu və ya digər dərəcədə ədibin "Aşerlər evinin süqutu" novellasında tapmışdır. Elə bununla bağlı psixoloji təhkiyə anlayışını təhlilinə münasibət bildirək . E.A.Ponun faciəvi süjetlərə, qaranlıq hadisələrə, təhlükəli vəziyyətlərə, ümumi çarəsizlik və ümidsizlik atmosferi, dəhşət bürümüş və özü üzərində idarəni əlindən buraxan insan təfəkkürünün faciəvi transformasiya-larına meylliyi – onun nəsrinin bütün bu kimi cəhətləri bəzi tənqidçiləri onun yaradıcılığını "zaman və məkandan kənar"(3;41) kimi qiymətləndirməyə sövq etmişdi.E.A.Ponun "qorxunc" təhkiyəyə, "hisslər haqqında hekayəyə" marağı onu heç cür romantizm çərçivələrindən kənara çıxarmır. Onun yaradıcılığı

müəyyən qədər alman romantizminə yaxındır; onun yaradıcılığının ilkin mərhələlərində "arabesk" anlayışına marağı məhz bununla izah olunur. Bu termin XIX əsrin əvvəllərində əmələ gəlmişdi və özünün yarpaq, ləçək, saplaq, meyvə və sairləri bir araya gətirməklə özünəməxsus naxış əmələ gətirən ornament ideyasından xeyli uzaqlaşmışdı. Bu anlayış musiqiyə, rəssamlığa, rəqsə, poeziyaya nüfuz etmiş və bir çox mənalar xüsusi ilə də fantastiklik, qəribəlik, qeyri-adilik mənasını daşımağa başlamışdı. Alman romantizmində "arabesk" estetik kateqoriya kimi dəyərləndirirdi və romantik təhkiyənin bəzi özəlliklərini, xüsusi ilə də üslubla bağlı cəhətləri özündə ifadə edirdi.E.A.Po bu anlayışa öz özünəməxsus yanaşma prinsipini əlavə etdi. Onun fikrincə "qrotesk" və "arabesk" anlayışları arasında fərq ilk öncə təsvirin predmet və metodikası arasındakı fərqdən irəli gəlir. Qroteski o, trivial, ağlagəlməz və gülməlinin mübaliğəsi kimi başa düşdüyü halda, "arabesk" dedikdə - qeyri adinin qəribə və mistik qorxunc-dəhşətə çevrilməsi kimi dəyərləndirirdi(3;26). E.A.Po özü etiraf edirdi ki, onun "ciddi" novellaları arasında "arabesk" üstünlük təşkil edir. Bu zaman o, təhkiyənin estetik dominantını nəzərdə tutur. Onun yaradıcılığında qrotesk və "arabesk"i təmiz halda bir-birindən fərqləndirmək mümkün deyil. Bu kateqoriyalar arasında keçilməz sədlər mövcud deyil. Hər iki üslubi yanaşma E.A.Ponun bir çox əsərlərində təbii şəkildə uzlaşırlar. Onun ümumiləşmələri, fəlsəfi və estetik təsəvvürləri yüksək səviyyədə mürəkkəblik, daxili sabitsizlik və ziddiyyətlərlə zəngindir. Onun dünyaduyumu ümumi şəkildə, daha aydın tərzdə, insan təfəkkürü və onun ruh adlanan mənəvi-emosional tərəfi haqqında təsəvvürlərində təzahür edir.E.A.Ponun "Aşerlər evinin süqutu" əsərində onun bədii tərzinin özəllikləri tam şəkildə öz əksini tapmışdır. İlk öncə, onun əsas prinsipi: novella birincisi, qısa, "uzunçuluqdan, təkrardan uzaq" olmalıdır(5;29). "Aşerlər evinin süqutu" – nisbətən qısa əsərdir. Bu əsər özünün aldadıcı sadəliyi və aydınlığı ilə fərqlənir, lakin bunun arxasında dərin məna və mürəkkəblik gizlənir. Novella "bir nəfəsə" oxunur və bu cəhət də müəllif üçün kifayət qədər əhəmiyyətlidir. İkinci prinsip – təəssürat və ya effektin vəhdətidir. Effektin vəhdəti emosional və intellektual təsir məqsədi daşımalıdır və buna da əsərdə nail olunur.Novellanın süjet – kompozisiya quruluşunda heç də bir kəlmə, bir fikir yoxdur ki, bu və ya digər şəkildə əvvəlcədən qarşıya qoyulmuş məqsədə xidmət etməsin. Hər epizod, hər hadisə, hər söz hekayədə qarşıya qoyulan ideyanın və vahid effektin əldə edilməsi məqsədi güdür.

Novellada həmçinin üslubun vəhdəti də mövcuddur. Hekayənin başlanğıcı üslubi baxımdan yaxın gələcəkdə evin bütün sakinlərinin başına gələcəyi faciədən xəbər verir, son da əsərin əvvəli kimi təmkinli şəkildədir.

Beləliklə, "Aşerlər evinin süqutu" müəllifin fikrincə onun novellanın quruluşu haqqında nəzəriyyəsində və onun estetik görüşlərində bələdçi

rolunu oynayır.E.A.Ponun qısa hekayə sahəsində çoxsaylı sınaqları (eksperimentləri) tədricən onun bu sahənin nəzəriyyəsini yaratmasına gətirib çıxardı. Qeyd etmək lazımdır ki, təhkiyə sənəti haqqında bir çox mülahizələrində E.A.Po daha çox bədii terminologiyadan deyil, memarlıq ifadələrindən istifadə edir. O, heç vaxt "yazıçı əsəri yazdı" deməzdi, lakin mütləq şəkildə qeyd edər ki, "yazıçı əsəri qurdu". Memarlıq tikililəri E.A.Ponun hekayə haqqında fikirlərində ona ən təbii şəkildə uyğun metaforalardır.Ponun süjet və onun funksiyaları haqqında düşüncələri qeyri-ənənəvidir və məlum dərəcədə genişdir. O, dəfələrlə vurğulayırdı ki, süjet fabula və intriqa ilə eyniləşdirilə bilməz. Əgər E.A.Ponun süjet haqqında bütün fikirlərini bir araya toplasaq aydın olar ki, o, süjet dedikdə əsərin ümumi formal strukturunu, hərəkətlərin, hadisələrin, xarakterlərin, əşyaların toqquşmasını nəzərdə tutur. O, qeyd edirdi ki, süjet lazım və qarşılıqlı asılılıq prinsipləri əsasında mövcuddur. Onda artıq heç nə olmamalıdır və onun bütün elementləri qarşılıqlı əlaqədə olmalıdır. Süjet binaya bənzəyir və burada bir kərpicin aradan götürülməsi binanın dağılmasına gətirib çıxara bilər. Süjetin bütün elementlərinin əyilməz məqsədyönlülüyü onun vahid ideyaya tabe edilməsi ilə qazanılır. Hər bir epizod, hər bir hadisə, hər bir kəlmə hekayədə qarşıya qoyulan məqsədin gerçəkləşməsinə, vahid effektə nail olunmasına xidmət etməlidir. Qeyd etmək lazımdır ki, E.A.Po süjetin bu dərəcə əhəmiyyətli olmasını yalnız hekayəyə şamil edirdi. O "süjetsiz" roman və ya poemanın mümkünlüyünü inkar etmirdi. Lakin "süjetsiz hekayə" ifadəsini terminlərin ziddiyyəti kimi dəyərləndiridi.Yazıçı üsluba da böyük önəm verirdi. Ponun estetikasında üslub - ən az müəyyənləşmiş kateqoriyadır. Bu müəyyən mürəkkəb bir kompleksdir – bura təhkiyənin ümumi tonallığı, leksikanın emosional rəngarəngliyi, mətnin sintetik strukturu və hətta müəyyən mənada, kompozisiyanın təşkili aiddir. Bu birlikdə dominantlıq emosionallığa verilmirdi. Üslubun vəhdətinə ən əsası təhkiyənin bütün elementlərində emosionallığın çərçivələnməsini göstərir və məhz buna görə də, dramatik məğzi olan bir əsərin xoşbəxt razvyazkanı mümkünsüz hesab edirdi. Yaradıcılığı boyu yazıçı bu üslubi vəhdəti parlaq nümunələr təqdim etməklə sübuta yetirdi.Öz müasirləri arasında məhz E.A.Po oxucunun müəllifə inamının qayğısına qalırdı. Onun detektiv janrının banisi kimi şöhrəti yalnız dörd əsərə əsaslanır: "Morq küçəsində qətl", "Mari Rojenin sirri", "Oğurlanmış məktub" və "Qızıl böcək". Ilk üçündə cinayət işinin üstünün açılmasından bəhs olunduğu halda, sonuncuda uzaq zamanlarda dəniz quldurlarının gizlətmiş olduqları xəzinənin yerini bəlli edən qədim əlyazmanın şifrəsinin açılmasından danışılır. Öz novellalarını E.A.Po "məntiqi" adlandırırdı. O "detektiv janrı" terminindən istifadə etmirdi. Çünki onun dövründə bu termin hələ mövcud deyildi,

ikincisi isə onun əsərləri XIX əsrin sonlarına yaxın formalaşmış detektiv hekayə anlamına uyğun gəlmirdi.

E.A.Ponun bəzi hekayələrində ("Oğurlanmış məktub", "Qızıl böcək") cəsəd yoxdur və ümumiyyətlə qətldən söhbət getmir və demək ki, onları detektiv adlandırmaq çətindir. E.A.Ponun bütün "məntiqi" hekayələri "uzun təsvirlər", "incə təhlil", "ümumi mülahizə"lərlə zəngindir ki, bu da detektiv janrına uyğun deyil. Məntiqi hekayə anlayışı detektiv hekayə anlayışından daha genişdir. Məntiqi hekayədən detektiv hekayəyə əsas və bəzən də yeganə süjet motivi keçmişdir ki, bu da sirrin və ya cinayət işinin üstünün açılması idi. Təhkiyənin tipi də bu halda qorunur: hekayədə məntiqi yekuna ehtiyac duyulur.E.A.Ponun məntiqi hekayələrinin əsas özəlliklərindən biri də ondan ibarətdir ki, müəllifin diqqət mərkəzində olan əsas məsələlərdən birincisi cinayət işinin özü yox onu araşdıran insandır. Təhkiyənin mərkəzində xarakter durur, lakin o daha çox romantikdir. Məntiqi hekayələrin baş qəhrəmanı romantik xarakterə malik olur və bu cəhətdən, o psixoloji hekayələrin qəhrəmanlarına yaxınlaşır. Lakin onun özünə qapılması, zahidliyi, tənhalığa israrlı ehtiyacı, onu XIX əsrin ortalarının Amerika romantik qəhrəmanın mənəvi ideyalarına yaxınlaşdırırdı. Məntiqi novellaların mütaliəsi zamanı xarici hərəkətin demək olar ki, tamamilə olmaması diqqəti çəkir. Onların süjet strukturu iki laydan ibarətdir: səthi və dərin. Səthi layda – qəhrəmanın hərəkətləri, dərin layda – onun düşüncələri yer alır. E.A.Po sadəcə qəhrəmanın intellektual fəaliyyətindən söz açmır, həmçinin onun təfərrüatlarını və detallarını göstərməklə şüurlu prosesi göstərir, onun prinsiplərini və məntiqi izahını edir. E.A.Ponun "Qızıl böcək" məntiqi hekayəsinin qəhrəmanı Uilyam Leqran məhz belələrindəndir. Amerika novella janrının nəzəriyyəçisi kimi E.A.Ponun elmi baxışlarını nəzərdən keçirdikdə, belə bir nəticəyə gələ bilərik ki, "Qızıl böcək" novellası amerikalı yazıçının estetik nəzəriyyəsindən kənarda durur. Birincisi, bu novella qısalığı ilə seçilmir. Bundan başqa demək olmaz ki, süjet oxucunu bütövlükdə özünə cəlb edir, belə ki burada qəhrəmanın analitik təfəkküründə xas xeyli ricətlər, məntiqi nəticələr və mülahizələr mövcuddur. İkincisi, əsərdə üslub vəhdəti gözlənilmir. Üslub müəllifin fikrincə, estetik kateqoriyadır və bura təhkiyənin ümumi tonallığı, leksikanın emosional rəngarəngliyi, mətnin sintetik strukturu aiddir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, E.A.Po Avropa romantiklərinin estetikada gözəllik kateqoriyası haqqında təlimi, poeziya və musiqi, kompozisiyanın prinsipləri haqqında fikirlərini inkişaf etdirmişdi. Lakin "Qızıl böcək" novellası ilk öncə məntiqin sərt qanunlarına tabe edilib və bu da onu yazıçının digər novellalarından fərqləndirir. Onun üslubu daha məhduddur, dili parlaq üslubi ifadə vasitələri və emosionallığı ilə fərqlənmir. Süjet və kompozisiyaya dair isə, qeyd edə bilərik ki, burada müəllif özünə sadiq qalır: novellanın bütün elementləri bir-

biri ilə qarşılıqlı əlaqədədir və vahid məqsədə tabedir. Hər bir epizod, hər bir hadisə, hekayədəki hər bir kəlmə əsas məqsədin yerinə yetirilməsinə, vahid effektə nail olmağa xidmət edir. Novellanın ideya-məzmununa gəldikdə isə, bildirmək lazımdır ki, bu novella parlaq şəkildə təzahür edən sosial meylliliyə malikdir. Novellanın qəhrəmanı özünəqapanmaya və könüllü şəkildə cəmiyyətdən özünü təcrid etməsinə rəğmən bu cəmiyyətin maraqlarından məlumatsız deyil. Onun planı – ona tənha yaşayışını buraxıb keçmiş həyat tərzini qaytarmağa imkan verəcək itirilmiş xəzinəni geri qaytarmaqdan ibarətdir. Beləliklə, E.A.Ponun elmi-nəzəri görüşlərini araşdırıb belə qənaətə gəlmək olar ki, yazıçı süjet qurmada müəyyən fikirlər irəli sürmüş, lakin eyni zamanda da təzadlı qənaətlər gəlmişdir. Novella və hekayə haqqında fikirlərində vahid üslub vəhdəti irəli sürür, bəzən isə ona zidd ədəbi nümunələr yaradırdı. Ümumilikdə isə qeyd etmək lazimdır ki, E.A.Po yaradıcılığı ədəbi nümunələrlə yanaşı ədəbiyyatşünaslığa da müəyyən töhfələr vermiş, elmi-nəzəri görüşlərində öz dövrü üçün yeni fikirlər irəli sürmüşdür.

Ədəbiyyat

1. Thomas, Dwight R., Jackson, David K. “The Poe Log. A Documentary Life of Edgar Allan Poe, 1809-1849”. — Boston: G. K. Hall & Co, 1987, 900 p.
2. Ingram, John Henry. “Edgar Allan Poe: his life, letters, and opinions”. — London: W. H. Allen, 1886, 488 p.
3. Quinn, Arthur Hobson. “Edgar Allan Poe: A Critical Biography”. — New York: D. Appleton-Century Company, 1991, 770 p.
4. Ковалёв Ю. В. Эдгар По // История всемирной литературы. — М., 1989, Т. 6, 577с.
5. Мисрахи А. “Эдгар Аллан По. Биография и творчество”. — М.: АСТ, 2007, 320 с.
6 .https://www.eapoe.org/papers/misc1851/jhi860c1.htm
7 .https://www.eapoe.org/

N.Musazade

Scientific-theoretical views of Edgar Allan Poe

Summary

Creative activity of permanent American romanticist Edgar Allan Poe is analysed in the article. İt is mentions that he has been interesting for the literature of all periods. His literary heritage has been widely analised, a lot of researches are done on this field. Edgar Allan Poe’s creative activity has

been evaluated from the points of different genres. Detective prose, lyrical poetry and gothyc genres are among these ones. However, in our aticle the less analysed field of his literary heritage is described. His literary -critical views are defined in this article. His scientific -theoretical vews about novel and story genres are analysed by author. Poe`s attitude towards this sphere of author's creative activity is shown, too. Several works by Edgar Po are analysed here. "Golden Bug", "Fall af House of Usher" are those works. Besides author's different detective style is also analysed in the article. The difference between mental story and detctive story is shown here. Generaly, E.A.Poe is treated not only as an author of literary works, but also as an artist who did a lot for theoretical literature.

Н.Мусазаде

Научно-теоретические взгляды Эдгара Аллана По

Резюме

И статье рассматривается творчество выдающегося американского романического писателья Эдгара Аллана По. Отмечается что его творчество было интересно во все периоды литературоведения. Многогранное творчество писателья было глубоко исследовано и написано много сзысканий на эту тему. Как правило творчество Эдгара По оценивается с точки зрения разных жанров. Его работы детективной прозы, лирической поезии и готического жанра относятся к этому числу. В нашей же статье рассматривется менее исследуемая часть творчества писателья. Здесь рассматриваются его взгляды как литературного-критика. В статье по этому поводу рассматриваются некоторые рассказы писателя. Среди них «Падение дома Ашеров», и «Золотой жук». Кроме этого, рассматривается и необычный стиль его детективных рассказов. Говорится о том что для писателя понятие логического рассказа шире, чем понятие рассказа детективного Анализируются его научно-теоретические взгляды на жанры новеллы и рассказа, а также отмечается отношение к этой части творчества писателья. В целом, творчество Эдгара По анализируется не только как литературные работы, но и как примеры для теоретической литературы.

Rəyçi: Qorxmaz Quliyev
Proffesor

ZÜLQƏDDƏ ABDULKƏRİMLİ
Azərbaycan Dillər Universiteti
zulgedde.abdulkarimli@gmail.com

UİLYAM BATLER YEYTS YARADICILIĞININ ESTETİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Uilyam Batler Yeyts, poeziya, estetik xüsusiyyətlər, irland mövzusu,mistisizm.
Key words: William Butler Yeats, poetry, aesthetic features, Irish subject, mysticism.
Ключевые слова: Уильям Батлер Йейтс, поэзия, эстетические функции, ирландская тема, мистика.

Uilyam Batler Yeyts XX əsr İrlandiya poeziyasının inkişafinda əsas sütunlardan hesab olunur.XVII əsrin sonlarından bu yana İrlandiyanın iqtisadi,siyasi və mədəni həyatını nəzarətdə saxlayan Protestant Anglo-İrland azlığına mənsub olmuşdur.Bu azlığın nümayəndələrinin çoxu özlərini İrlandiyada doğulmuş ingilis vətədaşları olaraq görürdülər.XX əsrdən başlayaraq sonrakı iki dövr ərzində İrlandiya senatoru olaraq fəliyyət göstərmiş və beləliklə bu dövrlər ərzində İrlandiyaya olan sevgisini öz şeirlərində qələmə almışdır.Yeyts İrlandiya ədəbiyyatinda aparıcı güc olmuş Ledi Corcia və Edvard Martinlə birlikdə Abbey teatrini təsis etmişdirlər.Yeytsin teatra marağı erkən yaşlarından yaranmışdır və bu marağının əsəs səbəbi onun atası olmuşdur.Və beləliklə Yeyts ozunu dramaturgiya sahəsində sinamağa qərar verir.Yeyts ilk dəfə Ezra Pound vasitəsiylə tanış olduğu Yapon Noh dramaturgiyasına əsaslanan qəsdən ezoterik, real olmayan dramaturji üslubu qəbul edərək bu üslubda tamaşalar yazmağa başlamışdır.Bu tamaşalar Yeyts tərəfindən "Rəqqaslar üçün tamaşa" adlandırılırdı.Abbey teatrının təsis edilməsi Yeytsin bu sahəyə olan marağını daha da artmışdır.XX əsrin 10-cu illərində Yeyts Abbey teatrının idarə olunmasında,tamaşaların seçilməsində,aktyorların kirayə edilməsi və bunun kimi bir-sıra işlərdə aktif olmuşdur.O dövrdə Yeyts ona yaxın tamaşa yazmışdı və bu tamaşalar dili və üslubu baxımından səhnələşdirmək üçün çox əlverişli olmuşdu.Uilyam Batler Yeyts Dublində dogulmuşdu. Sonradan onlar İngiltərəyə köçmüş və ömrünün on dörd ilini İngiltərədə keçirən Yeyts əsərlərini əsasən ingilis dilində yazib yaratmışdır.Lakin İngiltərədə yaşadığı müddət ərzindədə Yeyts əsərlərində,şeirlərində İrlandiyadan bəhs etmiş,irland xalqinin taleyini,mədəniyyətini yaradıcılığının əsas movzusu seçmişdir. İlk başlarda Yeyts atası kimi rəssam olmaq istəmiş,hətta bir

müddət Metropoliten Gözəl Sənətlər məktəbində məşğələlər keçmiş lakin sonrdan poeziyaya olan sevgisi,arzusu bu marağını üstələmişdir.Yeytsin 1885-ci çap olunmuş gənclik şeirlərində Spenser və Şellinin güclü təsiri duyulurdu.

Yeyts yaradıcılığının erkən dövrlərində poeziyasında əsasən irland mifalogiyasına və folklyoruna müraciət etmişdi.Lakin yaradıcılığının sonrakı mərhələlərində daha çox modern məsələlərə toxunmuş, Yeytsin üslubu dramatik çevrilmələrə məruz qalmışdı.Onun yaradıcılığını üç ümumi mərhələyə bölmək olar:dağınıq Rafailiti oncəsindəki ilkin şeirlər; təmtəraqlı tərzdə bəzədilmiş ikinci dövr şeirlər; müəyyən zamanlarda tənqidçilər tərəfindən bəyənilməyən tərzdə yazılmış üçüncü dövr şeirlər.Yeyts yaradıcılığına " Heykəllər Adası"(The İsle of Statutes) və "Oşinin Çətinlikləri"(The Wanderings of Oisin) kimi epik şeirlərlə başlamışdı.Eyni zamanda bir qisim erkən şeirlərində sevgi,mistik və ezoterik mövzulara toxunmuşdu. " Heykəllər Adası " (The İsle of Statutes) onun ilk əhəmiyyətli əsəridir.Bu fantaziya üslubunda yazilmış əsərində Edmund Spenser və Şellini poetik model kimi nümunə götürmüşdü.Yeytsin Londonda yaşadığı illərdə həyatında baş verən əsas hadisələrdən biri onun gənc,gözəl,istedadlı qadın özünü böyük ehtirasla irland milliyətçiliyinə həsr etmiş Maud Gona ilə tanışlığı olmuşdur.Gonnanın Yeytsi cəsarətləndirməsi ilə onun İrlandiya milliyətçiliyinə olan marağı iki qat artır və bunun təsiri ilə bu dovrlərdə Yeyts " Qrafin Ketlin"(The Countless Kathlien1892) və " Ketlin ni Houlhian" (Cathleen ni Houlihan1902) əsərlərini yazmiş və bu əsərlərdə Yeyts Gonnanı təsvir etmiş və onu İrlandiyanın təcəssümü kimi göstərmişdir.Gonna həmçinin Yeytsin okultizm və spirtualizmə olan maraginində ortaya çıxmasında boyuk rol oynamışdır.Bu dövrlərdə Yeyts kimyagərlik və okkult elmləri ilə maraqlanırdı.Nəticədə o, Dublin Əlkimyaçılar Cəmiyyətinin yaradıcılarından biri olmuşdu.Sonralar məşhur şair və ictimai xadim kimi taninanda da bu gənclik marağından əl çəkməmişdir.Yeyts sözün müsbət mənasında irland millətinin " atası " idi.Xalqının tarixi yaddaşını hərəkətə gətirməyi özünə əsas vəzifə hesab edirdi.İlk dram əsəri " Qrafinya Ketlin " in(1892) eyniadlı qəhrəmanı ,əsilzadə qadın Ketlin ac irland kəndlilərini ölümdən xilas etmək üçün ruhunu şeytana satmağa razı olurdu.Bu simvolika hər şeyi İrlandiyanın milli müstəqilliyinə tabe tutmağa çağıran Yeytsin siyasi-ədəbi kredosu sayila bilərdi.Həmin mübarizədə onun ən yaxın silahdaşları – özü ingilis olsa da, həyatını irlandların azadlıq mübarizəsinə həsr edən aktirisa və ictimai xadim Mod Honn, Protestant Liqasının üzvü ledi Avqusta Qreqori və gənc irland dramaturqu Con Millinqton Sinq idi.Yeyts sonuncunu Parisdən qayitmaga və irland kəndliləri arasında yaşamağa təşviq etmişdi.Gənc müəllifin pyesləri milli koloriti,sadə və aydın dili ilə hətta Yeytsin özünün yaradıcılığına

əhəmiyyətli təsir göstərmişdi.1916-cı ildə Britaniya ağalığına qarşı irland üsyanı zamanı Yeyts Londonda idi.O, əvvəlcə İrlandiya adından danışanların amansızlığından sarsılmışdı.Sonra isə qanlı mübarizənin iştirakçılarını, ilk növbədə sıralarında üç nəfər söz adamının da olduğu on altı qurbanı – Britaniya məhkəməsinin qərarı ilə dar ağacından asılmaqla edam edilən mücadilə qurbanlarını şeirlərində hərarətlə vəsf etmişdi.Bu üsyandan iki il sonar İrlandiya müstəqilliyinə qovuşdu.Ümummilli şair kimi taninan Yeyts ölkə parlamentinin ilk senatorları sirasında yer aldı.

1923-cü ildə bu bütün yaradıcılığını vətənini azadlığına və müstəqilliyinə həsr etmiş şair Nobel mükafatina namizəd oldu.Mükafatın məhz irlandiyalı müəllifə verilməsində yaradıcılıq amili ilə yanaşı siyasi konyuktura da öz rolunu oynamışdı.İsveç akademiyası növbəti laureatı irland sənətkarları arasından seçməklə Avropanın siyasi xəritəsindəki yeni dövlətə öz mənəvi dəstəyini ifadə etmək istəmişdi.Müstəqillik savaşında Uilyam Batler Yeytsin də mühüm xidmətləri olmuşdu.Təsadüfi deyil ki,Nobel mukafatı ona " yüksək bədii formada milli ruhu ifadə edən ilhamlə poetic yaradıcılığına görə "verilmişdi.İsveç Akademiyasının üzvü Pel Halmstrem Yeytsi " irland-kelt dirçəlişinin mərkəzi siması " adlandırmış, onun " yüksək poetik tələblərə cavab verən sənətkar" olmaqla yanaşı həm də xalqla bağlılığını heç zaman itirməməsini şəxsiyyətinin mühüm məziyyətlərindən biri kimi qeyd etmişdi (6)."İrland dramatik hərəkatlı" adlı Nobel mühazirəsində Yeyts özü də əsas diqqəti ədəbi fəaliyyətindən daha çox ölkəsinin müstəqillik uğrunda mübarizədəki xidmətlərinə yönəltmişdi.İlk növbədə o, mübarizə yoldaşlarını – həyatdan erkən köçmüş Sinqi və ledi Qriqorini xatırlamışdı: "Burada sizin kralın əlindən İsveç Akademiyasının yüksək mükafatını alanda düşündüm ki, sağ tərəfimdə çoxdan vəfat etmiş gənc bir adam, sol tərəfimdə isə, şükürlər olsun ki, bu gün də yaşayan orta yaşlı bir qadın dayanmalı idi."Yeyts Nobel laureatı olandan sonra yaradıcılığı yüksələn xətlə inkişaf edən və yeni, uğurlu əsərlər yaradan azsaylı sənətkarlardan idi.Həyatının son on beş ilini o, İrlandiyanın milli şairi kimi böyük hörmət və ehtiram şəraitində yaşamışdı.Səhhətindəki problemlərə baxmayaraq bu illərdə " Qüllə " (1928), " Dairəvi pilləkən və digər şeirlər " (1933) kitablarında toplanan əsərlərini yaratmışdı.Dünyanın bir çox ölkələrinə səyahət edən şair əsas diqqəti İrlandiyanın tarix və mədəniyyətinin təbliğinə yönəltmişdi.O, İrlandiya və Britaniyanın bir sıra universitetlərinin fəxri doktoru adına laiq görülmüşdü.Fransiz riverasında vəfat edən şair vəsiyyətinə uyğun şəkildə 1948- ci ildə vətənində torpağa tapşırılmışdı.

Müasir irland şairi Şeymas Hininin fikrincə, Yeyts öz əsərləri ilə hər bir irlandı " bir daha sənətin Allah tərəfindən yaradıldığı və sənətdən kənar sivilizasiyanın qeyri-mümkünlüyü həqiqətinə " inandırmışdı.

Yeyts Londonda yaşadığı dövrlərdə də, yenidən İrlandiyaya geri dönəndə də daim öz yaradıcılığında irland xalqının həyatına geniş yer vermişdi.Öz əsərlərində, şeirlərində irland qəhrəmanları və əfsanələrindən bəhs etmişdi.“ Ossianın səyahətləri və başqa şeirlər ” adlı ilk kitabı (1889) şairin öz poetic axtarışlarında irland mifalogiyasına və xalq ədəbiyyatı ənənələrinə daha böyük önəm verdiyini göstərirdi.Sənətlə təbiət arasında qarşıdurma və münaqişənin olmadığı, qarşılıqlı ahəngdarlığın hökm sürdüyü bir fəlsəfi-estetik system yaratmaq sənətkar kimi Yeytsin ən böyük arzularından biri idi.Şairin dünyaca məşhur “ Ferqusun ardiyca kimdir ” şeiri bir çox dünya dillərinə tərcümə edilib.Ferqus qədim irland mifalogiyasında “ kişi gücü ” , rəşadət və cəsurluq simvolu olan mifik qəhrəman adıdır.Şair irland xalqına müraciət edərək Ferqusun ardınca kimdir şeirində irland xalqını mübarizəyə səsləyir.Onun tarixi keçmişini unutmamağa, Ferqusların daim olduğuna inam hissinə səsləyir:

Who will go drive with Fergus now,
Ferqusun ardiyca kim hazırdır?
And pierce the deep wood’s woven shade,
Atları meşənin dərinliyinə sürmək..
And dance upon the level shore?
Sahildə rəqs etmək..

Yeytsin bütün həyatı boyu mistisizmə, spirtualizmə(ruhlara inam haqqinda elm), astralogiyaya marağı olmuşdur.Yeyts 1885-ci ildə dostları ilə birlikdə Dublin Hermetik Nizamını təUIsis etdi.Bu cəmiyyət ilk iclasını 16 iyunda keçirtdi.Həmin ildə Brahmin Mdin Çatarjininin iştirakı ilə Dublin fəlsəfi klubu açıldı.Həmin ildə Yeyts klubun ilk seminarında iştirak etdi.Yeyts fəlsəfi və hermetik inancları çətinliklə qəbul etməsinə baxmayaraq 1889 cu ildə namizəd olduğu Qızıl Şəfəqin Hermetik Nizamına 1900-cü ildə rəhbər oldu.Bu təşkilata seçilməsi Yeytsin mistisizmə olan marağının daha da artmasına və bu marağın onun yaradıcılığında öz əksini tapmasına səbəb oldu.Yeytsin mistik inanclari Hindu dininden bəhrələnirdi.Bu dinin qaydalari Yeytsin marağına səbəb olmuş və onun tədqiqat obyektinə çevrilmişdi.Yeyts Şiri Purdirit Sivani ilə birlikdə “ On təməl Apanişadları ”(The Ten Principal Upanishads) tərcümə etmişdi.Fəlsəfi inancları və okkultizmə(gizli güclərin var olduğuna inam) ən çox onun sonraki poeziyasına öz təsirini göstərmişdi.Bu təsir tənqidçilər tərəfindən Yeytsin əsərlərində intellektuallığın və fəlsəfi anlayışların əksik olması səbəbi ilə tənqid olunmuşdu.Sərbəst üslubda yazib yaratmış digər modernistlərdən fərqli olaraq Yeyts ənənəvi şeir üslubunun ustası sayılırdı (2). Modernizm onun yaradıcılığına təsirini ilk dovrlərdəki şərti poetic diksiyanı daha sadə dildə və orta dövr şeirini birbaşa anlaşıla biləcəyi bir üslubda yazmasına səbəb olmuşdu. “ Yeddi Meşə ”(Seven Woods), “ Məsuliyyətlər və Yaşıl dəbilqə ” kimi şeirlər toplusunda bu uslubdan istifadə etmişdi (6). Lakin

onun sonrakı dövr şeirləri və tamaşaları şəxsi əhvalda yazılmışdı. Bu dövrdə yazdığı şeirlərdə daha çox ömrünün son iyirmi ilində baş verən hadisələrdən və qizi, oğlu haqqinda bəhs etmişdi. O, " Sirk Heyvanlarının qaçışı " şeirində bu son əsərlərindəki ilham mənbəyini təsvir etmişdi.

Ədəbiyyat

1.Cleeve, Brian (1972). W. B. Yeats and the Designing of Ireland's Coinage. New York: Dolmen Press. ISBN 0-85105-221-5
2.Finneran, Richard. Yeats: An Annual of Critical and Textual Studies 1995. University of Michigan Press, 1997. 82
3.Harper, George Mills, ed. (1975). Yeats and the Occult. Macmillan of Canada and Maclean-Hunter Press. ISBN 0-7705-1308-5
4.Jordan Anthony J. (1997). Willie Yeats & The Gonne-MacBrides. Westport Books ISBN 0-9524447-1-2
5.Jeffares, A Norman (1968). A Commentary on the Collected Poems of W. B. Yeats. Stanford University Press. ISBN 0-8047-0661-1
6.Logenbach, James. Stone Cottage: Pound, Yeats, and Modernism. Oxford: Oxford University Press, 1988. 13–14
7.Nobel Prize in Literature 1923". NobelPrize.org. Retrieved 7 December 2014
8. W. B. Yeats, Autobiographies (1956), p. 12. London: Macmillan.
İnternet:
9.https://www.poets.org/poetsorg/poem/who-goes-fergus
10.https://www.poetryfoundation.org/poets/william-butler-yeats
11.https://www.irishcentral.com/roots/wb-yeats-and-the-muses-110436429-23772779

З.Абдулкаримли

Эстетические особенности творчества Уильяма Батлера Йейтса

Резюме

Данная статья посвящена творчеству Уильяма Батлера Йейтса. Уильям Батлер Йейтс- ирландский поэт и один из виднейших деятелей культуры 20-го века. Будучи поэтом-символистом, он использовал символические образы и символические структуры на протяжении всей своей творческой деятельности. Уильям Батлер Йейтс был одним из величайших поэтов на английском языке 20-го века, а в декабре 1923 года Йейтс был удостоен Нобелевской премии по литературе «за его всегда вдохновленную поэзию, которая в высокохудожественной форме выражает дух целой нации ".

Йейтс обычно считается одним из ведущих поэтов английского языка двадцатого века. Он выбрал слова и собрал их, чтобы в дополнение к определенному значению они предлагали абстрактные мысли, которые могут казаться более значительными и резонансными. Его использование символов обычно является чем-то физическим, что само по себе и предложением других, возможно, несущественных, вневременных качеств. В отличие от других модернистов, которые экспериментировали со свободными стихами, Йейтс был мастером традиционных форм. Влияние модернизма на его работу можно увидеть в возрастающем отказе от более условно поэтической дикции его ранней работы в пользу более строгого языка и более прямого подхода к его темам, которые все чаще характеризуют поэзию и пьесы его среднего периода.

Zulgadda Abdulkarimli

The aesthetic features of William Butler Yeat's creative work

Summary

This article is about William Batler Yeat's creative work. William Butler Yeats was an Irish poet and one of the foremost figures of 20th century literature. A pillar of both the Irish and British literary establishments. He was a Symbolist poet, using allusive imagery and symbolic structures throughout his career. He helped to found the Abbey Theatre, and in his later years served as an Irish Senator for two terms.

William Butler Yeats was one of the greatest English-language poets of the 20th century and in December 1923, Yeats was awarded the Nobel Prize in Literature, "for his always inspired poetry, which in a highly artistic form gives expression to the spirit of a whole nation". Yeats is generally considered one of the twentieth century key English language poets. He chose words and assembled them so that, in addition to a particular meaning, they suggest abstract thoughts that may seem more significant and resonant. His use of symbols is usually something physical that is both itself and a suggestion of other, perhaps immaterial, timeless qualities. Unlike other modernists who experimented with free verse, Yeats was a master of the traditional forms. The impact of modernism on his work can be seen in the increasing abandonment of the more conventionally poetic diction of his early work in favour of the more austere language and more direct approach to his themes that increasingly characterises the poetry and plays of his middle period.

Rəyçi: Xuraman Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AFAQ SABİRLİ
Lənkəran Dövlət Universiteti
sabirli.afaq@gmail.com

NƏRİMAN NƏRİMANOVUN MAARİFÇİLİK FƏALİYYƏTİ

Açar sözlər: pedaqoq, maarifçi, mətbuat, ana dili, şəxsiyyətin təşəkkülü, kadr hazılığı.
Ключевые слова: педагог, просветитель, пресса, родной язык, эволюция личности, подготовка кадров
Key words: pedagogue, enlightener, mother tongue, development of personality, preparing cadres

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış Nəriman Nəcəf oğlu Nərimanov məşhur pedaqoq, dramaturq, nasir, publisist, həkim olmaqla bərabər, həm də görkəmli dövlət xadimi idi.

Haqqında düşünürkən ilk növbədə bir dövlət xadimi kimi xatırladığımız Nərimanov fəaliyyətinin başlanğıcında bir maarifçi idi. Çar üsul – idarəsinin doğurduğu fəsadlar nəticəsində getdikcə gərginləşən vəziyyəti dərk etməyə çalışan ziyalılıar nəslinin gənc nümayəndəsi çıxış yolunu mədəni inkişafda görürdü.

Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Nəriman Nərimanov böyük və qaynar həyatını bütünlüklə xalq işinə sərf etmişdir".

Azərbaycan xalqının böyük oğlu N.Nərimanov bütün həyatını zəhmətkeş xalqların zülmdən azad olması, onların səadəti və dostluğu uğrunda mübarizəyə sərf etmişdir.

N.Nərimanovun həyatında onun pedaqoji-maarifçilik fəaliyyəti ayrıca əhəmiyyət kəsb edir. 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirən Nərimanov Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kənd məktəbinə müəllim göndərilmişdi. Bir il sonra o, Bakıya gəlmiş, əvvəlcə Bakı realnı məktəbinin müəllimi A.İ.Pobodonostsev tərəfindən təşkil edilən 6 sinifli progimnaziyanın hazırlıq sinfinin aşağı şöbəsində, xüsusi məktəbdə, sonra isə Bakı oğlan gimnaziyasında müəllimlik etmişdir.

Rusiyanın digər milli ucqarlarında olduğu kimi, Azərbaycanda da maarifpərvər müəllimlər yalnız dərs deməklə kifayətlənmirdilər. Onlar ədəbiyyat və incəsənətə, mətbuata xalqın ictimai yaralarını müalicə edən qüdrətli bir vasitə kimi baxırdılar. Odur ki, həmin ziyalılar bədii əsərlər yazır, qəzet və jurnallar çap etdirir, yeni üsullu məktəb açır, qiraətxana və kitabxanalar təşkil edir, dərsliklər hazırlayırdılar. Belə müəllimlərdən biri də Nərimanov idi.

O, istər 1891-1902-ci illərdə Bakıda müəllimlik etdiyi zaman, istərsə də sonralar Azərbaycanın qabaqcıl ziyalıları ilə bərabər bir sıra mədəni, ictimai və pedaqoji məsələlərin həllində fəal iştirak etmişdir. Nərimanov dövrün görkəmli müəllimlərindən olan S.M.Qənizadə, H.Mahmudbəyov, Ə.Cəfərzadə və başqalarının yaxından iştirakı ilə 1894-cü ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoymuşdur. Kitabxana-qiraətxanada N.Gəncəvi, M.Füzuli, Ə.Firdovsi, M.P.Vaqif, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani... kimi görkəmli şair və yazıçıların əsərləri, "Əkinçi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" qəzetlərinin əldə olunan nüsxələri toplanmış, onların kataloqu düzəldilmişdir.

Xalq arasında "Nərimanov qiraətxanası" adlanan bu kitabxana az müddət ərzində şəhər zəhmətkeşləri və ziyalılarının böyük rəğbətini qazanmışdır.

N.Nərimanov xalqın maariflənməsi və milli dirçəlişində mətbuatın roluna ayrıca əhəmiyyət verirdi. O deyirdi ki, əgər bir mühaziräni ən çox 500-600 nəfər dinləyirsə, qəzeti minlərlə adam oxuyur. Əgər bir müəllim 30-40 şagirdi öyrədirsə, qəzet bütün xalq kütləsini öyrədir. Dövri mətbuatın geniş və kütləvi təsir qüvvəsini nəzərə alan Nərimanov 1896-cı ildə "Sovqat" adlı uşaq jurnalı nəşr etməyə təşəbbüs göstərmişdir. Jurnalı açmaq mümkün olmadığından o, 1899-cu ildə "Təzə xəbərlər" adlı həftəlik qəzet çıxarmaq fikrinə düşmüş və bunun üçün nəşriyyat işləri baş idarəsinə, Qafqaz Senzura Komitəsinə müraciət etmişdir. O, 1900-cü ildə yenidən "Məktəb" adlı xüsusi pedaqoji jurnal nəşr etdirmək üçün Qafqaz Senzura Komitəsindən icazə istəmişdir.

"Dərdlərimizin əlacı" məqaləsində N.Nərimanov yazırdı: "Bir millət özünü tanımayınca hüququnu düşünmək, tapmaq üçün də milli dil, milli məktəb, milli mətbuat, ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyətə bağlıdır"(5; 89). "Dərdlərimizin əlacı" məqaləsində N.Nərimanov xüsusən qəzetlərin rolundan danışır. "Axır vaxt qəzetlərimizdə milli ehtiyaclarımız barəsində bəhs olunmaqdadır. Müzakirəyə qoyulmuş məsələlərdə diqqət olunar isə 1915 – ci ildən bəri meydana atılmış məsələləri görüb də deyəcəksiniz: əcaba, daha bir qeyri məsələ yoxdur? Doğurdan da, indi müzakirəyə qoyulmuş məsələlər çoxdan çeynənilmiş məsələlərdir…" deyən Nərimanov qəzetlərin sayı gündən – günə çoxalsa da, yazıların təsirinin az olmasını xərçəngin hərəkətinə bənzədir.

N.Nərimanov qəzetlərin əhəmiyyətindən danışarkən qeyd edir: "Hər zaman deyilmiş ki, mətbuat ikinci bir dövlət qüvvətindədir".(4; 377). Nərimanov qəzetlərin oxunmaması fikri ilə razılaşmır. İyirmi il əvvəl kitablarının birində Amerikada faytonçularının kuzlada oturub qəzetə oxumaqlarını təəccüblü bir hadisə hesab etdiyini deyən Nərimanov 2 il əvvəl Hacıtərxanda olarkən də eyni mənzərə ilə qarşılaşdığını – müsəlman

faytonçuların da kuzlada qəzetə oxuyan gördüyünü söyləyir. Sonra isə əlavə edir: “Deməli, qəzetlərimizi oxuyurlar, düşünürlər”.

N.Nərimanov rus qəzetlərini nümunə gətirir və qəzetin oxunaqlı olması üçün onun müəyyən “məslək”inin olmasını vacib sayır. “Ay camaat, biz dalda qaldıq, elm dalınca gediniz” sözlərinin də vaxtı keçdiyini söyləyir. “Elm dalınca gediniz” deməkdənsə, elmi oxutmaq lazım olduğunu söyləyən Nərimanov elmi oxutmağın yollarından da danışır. Bu mənada qəzetin rolunu müəllimin rolu ilə müqayisə edir: “Bir müəllim otuz, qırx uşağa elmi öyrədib onları bir yol ilə aparan kimi bir qəzetə də camaatın müəllimi yerində ona gərəkli məlumatlar verib bilmədiyi şeyləri öyrədə bilər”(4; 378). Nərimanov qəzetin dörddən bir hissəsinin elmi, fənni məqalələrə sərf edilməsinin camaata böyük xeyri olacağını yazırdı.

. XIX əsrin sonu XX əsrin əvvəllərində bir sıra dərsliklər tərtib etməyə və dövrünün ziyalı dostları ilə pedaqoji sahədə müəyyən işlərin təşkilinə səy göstərmişdir. Beləliklə, 1899-cu ildə nəşr etdirdiyi "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi", "Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça", "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça" əsərləri dərsliklərin tərtibi işində irəliyə doğru atılmış bir addım idi. Bu kitablar, xüsusilə "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" uzun müddət Azərbaycan məktəblərində istifadə edilmişdir. "Nicat" cəmiyyətinin sədr müavini olan Nərimanov qələm yoldaşları - H.Zərdabi, F.Ağayev, S.S.Axundov, A.Şaiq, Ü.Hacıbəyov və başqaları ilə birlikdə 1906-cı ilin avqust ayında Bakıda Azərbaycan müəllimlərinin I qurultayının çağırılmasına xüsusi əmək sərf etmişdir.

N.Nərimanov təkcə praktik pedaqoq deyil, eyni zamanda pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun tədrisi metodikasının bir sıra nəzəri məsələləri ilə də məşğul olmuş və çox qiymətli bir irs qoymuşdur.

N.Nərimanovun əsərlərində insan şəxsiyyətinin formalaşmasında tərbiyənin rolu xüsusilə qiymətləndirilir. Pedaqoji fəaliyyətinin ilk dövründə tərbiyənin rolunu yüksək qiymətləndirməsi onun dünyagörüşündə demokratik maarifçilik mövqeyindən irəli gəlirdi. O, şəxsiyyətin təşəkkülündə elmin, təhsilin əhəmiyyətini göstərməklə kifayətlənmir, tərbiyənin roluna daha üstünlük verirdi. O qeyd edirdi ki, elm insana ancaq bilmədiyi şeyləri təlim verir, adam olmağa isə tərbiyə gərəkdir, - fikrini geniş təbliğ edirdi. Bu fikir onun pedaqoji görüşlərinin əsasında dururdu. Cəmiyyətin böyük rolunu qeyd edən N.Nərimanov tərbiyənin rolunu ayrıca qiymətləndirirdi. Onun tərbiyənin roluna dair fikirləri içərisində nəzəri cəlb edən cəhətlərdən biri də şəxsiyyətin təşəkkülündə tərbiyə, mühit və irsiyyət məsələsidir. Nərimanov irsiyyət nəzəriyyəsinin əleyhinə olaraq, cəmiyyətdə birinin anadangəlmə xan, bəy, digərinin qul olması fikrini mövcud quruluşun və bu quruluşda verilən tərbiyənin nəticəsi kimi izah edirdi. O yazırdı ki, heç

kim anadan olanda padşah, xan, bəy, qul yaranmayıbdır. İnsana məxsus sağlam beyin və bu beyində insanı heyvandan ayıran xüsusi nöqtələr anadan olanda hamıda birdir. Bütün beyin və ayrıca-ayrıca nöqtələrin müəyyən bir yolda qüvvət tapması sonrakı tərbiyəyə bağlıdır.

Uşaqların tərbiyəsində valideynlərin rolunu yüksək qiymətləndirən N.Nərimanov "Teatr barəsində bir neçə söz" adlı məqaləsində yazırdı ki, "Heç ata-ana istərlərmi uşaqları bədbəxt olsunlar? Heç kəs istəməz ki, oğlu qazamatda illərlə çürüsün. Amma çi fayda, bunların hamısını görürük və gözlərimizdən qanlı yaşlar tökülür. Bəs lazım gəlmirmi bu dərdin dərmanını tapaq? Nə vaxtadək qoca ata və analarımız sudlara düşəcəklər?... Bəyəm günah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr. Günah özümüzdədir".(4; 248)

O, "Teatr barədə bir neçə söz" məqaləsində üzünü valideynlərə tutub deyir: "Vaxtında lazım olan tərbiyəni verməyib öz əlimizlə uşaqlarımızı oda atıb yandırırıq. Bəs bunu bilə - bilə nə üçün uşaqlarımıza elə pərvəriş verməyirik ki, nadanlığın əlindən xilas olalar ?

Necə verək tərbiyəni? Halbuki özümüzdə lazım olan tərbiyə yoxdur?! Bəli gərəkdir biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlarda gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar. Tərbiyə dəxi elmin gücündə olur.Ona görə lazımdır məktəblərimiz ola" (4; 248)

Verdiyimiz sitatdan bir daha bəlli olur ki, uşaqların tərbiyəsi üçün də məktəb əsas şərtdir. Tərbiyə həm də birbaşa təlimlə bağlı məsələdir. Elmi, savadı olan uşağın tərbiyəsi də lazımı səviyyədə olacaqdır. Beləliklə, böyük dramaturq tərbiyəni təlimlə - məktəblə vəhdətdə götürür.

N.Nərimanov öz dövründə, xüsusilə XX əsrin əvvəllərində məktəblərimizin azlığından şikayət edərək, onların sayını durmadan artırmaq lazım olduğunu söyləmişdir. O, bildirirdi ki, nəinki mərkəzlərdə, yəni şəhər və qəsəbələrdə, hətta ucqar kəndlərdə belə məktəblər açılmalıdır.

N.Nərimanovun tərbiyə haqqındakı fikirləri içərisində diqqəti cəlb edən cəhətlərindən biri də verilən tərbiyənin tamlığını və ardıcıllığını tələb etməsidir. N.Nərimanova görə, tərbiyəçi tərbiyə işində ardıcıl olmalı, uşağa verilən tələblərdə natamamlığa yol verməməlidir.

N.Nərimanovun pedaqoji fikirləri içərisində əxlaq və əxlaqi tərbiyə də mühüm yer tutur. Onun əxlaq məsələlərinə dair fikirləri xalqın ictimai tərəqqisi və azadlığı uğrundakı mübarizəsi ilə əlaqədardır. O, xalqın, o cümlədən gənclərin əxlaq tərbiyəsi məsələsini siyasi mübarizənin tərkib hissəsi hesab edirdi. N.Nərimanovun əsər və məqalələrində əxlaqın tarixi və sinfi kateqoriya olması göstərilir. "Həyat" qəzetində dərc edilən məqalələrindən birində o qeyd edirdi ki, hər bir sinfin özünəməxsus fikri, əqidəsi, dolanacağı, başqa sözlə desək, əxlaqi normaları vardır. Zəmanənin dəyişməsi ilə əlaqədar olaraq, əxlaqi normalar da dəyişir və inkişaf edir.

Onun 1906-1907-ci illərdə "Həyat" və "İrşad" qəzetlərində, 1917-1918-ci illərdə "Hümmət" qəzetində dərc etdirdiyi bir çox məqalələri o dövrdə xalqlar dostluğu və beynəlmiləlçilik ideyasının zəhmətkeşlər arasında yayılmasında böyük rol oynamışdır.

.N.Nərimanovun fikrincə, hər iki tərəf bir-birinin mənafeyini müdafiə etməlidir. Yəni "Vətən, millət, xalq üçün, ayrı-ayrı üzvlər üçün, ayrı-ayrı şəxslər isə Vətən, millət üçün, onun tərəqqisi üçün çalışmalıdır". Nərimanov söz ilə deyil, özünün gündəlik əməli fəaliyyətilə Vətənin tərəqqisinə çalışanları yüksək qiymətləndirirdi.

Böyük maarifçi vətənpərvərliyi əmək ilə, həm də hamının xeyrinə olan əmək ilə əlaqələndirir və Vətənin bütün övladlarını onun tərəqqisi yolunda çalışmağa çağırır. Onun fikirlərində həm fiziki, həm də zehni əmək yüksək qiymətləndirilir. O, bəşəriyyətin səadətini əməkdə görür, yüksək əxlaqi keyfiyyətlərin yaranmasında əməyə üstünlük verirdi.O, gənc nəslin əmək tərbiyəsi işində məktəbin rolunu ayrıca qeyd edirdi. Azərbaycan müəllimlərinin qurultayında N.Nərimanov deyirdi ki, əməyin nə olduğunu gənclərə bildirən məktəbdir. Bu da ki, bizim həyatımız və bütün fikrimizdir. Çünki biz yer üzərində ancaq zəhmətin hökmranlığının bərqərar olmasına çalışırıq. Öz zəhməti ilə Vətənə xidmət etməyi, o, ən yüksək mənəvi borc hesab edirdi.

Ötən əsrin əvvəllərində Bakıda, Gəncədə, Şuşada, Naxçıvanda, Lənkəranda, Ağdamda və digər yerlərdə məktəblər açılır. Məhz bu illərdə məktəblə bağlı mətbuat çoxalır. “Dəbistan”, “Rəhbər”, “Məktəb”, “Günəş”, “Həyat”, “Molla Nəsrəddin”, “Füyuzat”, “Şərqi – Rus”, “Tərəqqi”, “İrşad”, “İqbal”, “Bəhlul”, “Zənbur”, “Açıq söz” və s. jurnal və qəzetlər genişlənir. Mətbuatın bu növlərində müntəzəm olaraq təhsilimiz, dilimiz haqqıda sıx – sıx yazılara təsadüf olunur. Digər ziyalılarımız kimi N.Nərimanov da XX əsrin əvvəllərində ana dili haqqında tarixi borcu yaxşı başa düşürdü. Buna görə də o, 1906-cı ildə “Həyat” qəzetinin 181-ci nömrəsində “Nər” təxəllüsü ilə çıxış edərək yazırdı: “Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyatı – qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki mehriban bir vücud öz məhəbbətini bəyan edibdir. Bir dil ki sən hələ beşikdə ikən bir lay- lay şəklində özahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqs bağlayıbdı...” (4; 334)

1906 – cı ildə “Həyat” qəzetində çap olunmuş “Bu gün” adlı məqaləsində N.Nərimanov hər bir xalqın milli varlığını, mədəniyyətini qorumaq üçün, hər şeydən əvvəl, həmin xalqın azadlıq əldə etməsi fikrini irəli sürürdü. Bu məqalədə N.Nərimanov qeyd edir ki, bu gün müəllimlərin ictimai açılır. Həmin günü Nərimanov “yövmi – mübarək” adlandırır və qeyd edir ki, Bakı belə məclisi “əvvəlinci” dəfə görür. Nərimanovun həmin günü “yövmi – mübarək” adlandırmasının səbəbi isə məqalədəki “Bu gün Qafqazda cəmi

müsəlman balaların dərdlərinə dəva aranmağa başlanacaqdır. Bu gün insanın lisani – madərzadi, ana dili nə olmağı məlum olacaqdır”(4; 334) fikri ilə aydınlaşır. “O, ana dilinin inkişaf etdirilməsi zərurətini məntiqi dəlillərlə sübut edir, Azərbaycan dilinin əsrlərdən bəri işlənə - işlənə cilalanaraq xalqın birliyini, onun zəngin mənəviyyatını saxlayan əsas bir vasitə olduğunu göstərirdi”. (5; 88)

N.Nərimanovun pedaqoji irsində təlimin məzmunu və üsullarına aid də çox dəyərli fikirlər vardır. O, bir tərəfdən köhnə məktəbləri, "Zavallı uşaqların, gələcək millət balalarının fəhmlərini, zehinlərini korlayan, orta əsrlərdən qalma üsul ilə dərs keçilən" mollaxanaları, digər tərəfdən isə dövlət məktəblərinin ruslaşdırma siyasətini kəskin tənqid və ifşa edirdi. Təlimin ana dilində aparılması ideyası onun pedaqoji fikirlərinin əsasını təşkil edir. "Millətin dilini bilmədən, onun dərdinə dava etmək çətindir", - deyən N.Nərimanov müəllim işini həkimliklə müqayisə edir və göstərir ki, "həkim azara görə dərman verdiyi kimi, müəllim də tələbə görə bilik verməlidir". O deyirdi ki, naxoşun ruhunu təmizləməkdənsə, qanını təmizləyin. İnsanın dili onun qanıdır. Qan təmiz olanda ürək yaxşı işlədiyi kimi, dilin də saf olması millətin tərəqqisinə səbəb olur.

N.Nərimanov ana dilini xalqdan uzaq salanlara qarşı çıxmaqla, onların fikrini böyük etiraz və coşqunluqla rədd edir, ana dilinin tədrisi məsələsində haqqın, ədalətin qalib gələcəyinə inanırdı. Ana dilinin məktəb proqramından çıxarılmasını istəyənləri və buna görə əl çalanları mənasız hesab edən N.Nərimanov yazırdı: "Qoy çalsınlar! Lakin haqqı batil edə bilməyəcəklər. Bəşərin fitrət və təbiətində məknun olan hissiyyatı - aliyeyi nabud edəməyəcəklər!... Analarımızın laylalarını qulaqlarımızdan çıxarmayacaqlar, illər ilə bilüzum bir şey kimi ayaq altına aldıqları o gövhəri qiymətdən saqid ödəməyəcəklər. Ana dilimiz hər halda qüvvət tapacaqdır...".O, Azərbaycan dilinin saflığına, onun xalq danışıq dili sözləri ilə zənginləşməsinə çalşırdı. Onun fikrincə, dilin təmizliyi və saflığı uğrunda mübarizə xalqın mədəniyyəti uğrunda mübarizədir. Əsl yazıçı xalq üçün, xalqın başa düşəcəyi bir dildə yazmalıdır.

N.Nərimanov ana dilinin tədrisi məsələsi ilə əlaqədar 1906 – cı ildə Bakıda çağrılmış Zaqafqaziya müəllimlər qurultayında əsas məqsədlərini izah etmək istəyir. Qurultayın çağrılması təklifini də N.Nərimanov irəli sürür.. Qurultayın təşkilatı işləri üçün yaradılmış komissiyanın sədri N.Nərimanov idi. Bu qurultayın əsas məqsədi mövcud proqramları nəzərdən keşirmək, Azərbaycan dili dərslərinə verilən saatların miqdarını artırmaq, yeni proqramlar və bunlara müvafiq dərsliklər tərtib etmək, məktəblərdə oxu və yazı işlərini asanlaşdırmaq üçün yeni təlim və tədris üsulu düşünmək idi.

Doğurdan da, qurultay N.Nərimanovun sədrlik etdiyi komissiyanın təklifinə əsasən, ana dilinin tədrisi ilə əlaqədar çox əhəmiyyətli qərar qəbul

etmişdir. İbtidai məktəbin birinci sinində 8 saat, iki və üçüncü siniflərində 6 saat, dördüncü sinfində 7 saat, dörd – altıncı siniflərində 3 saat, yeddi – səkkizinci siniflərində 2 saat Azərbaycan dilinin tədris olunması qərara alınmışdı.

N.Nərimanovun yeni əlifba sahəsində də xidməti böyükdür. "Yeni yol" qəzeti N.Nərimanovun yeni əlifba sahəsindəki fəaliyyətindən bəhs edərək yazmışdır: "Birinci dəfə olaraq Azərbaycanda yeni əlifbaya keçmək üçün komitə düzəldi, Azərbaycan qəzalarında şöbələr təşkil olundu. 1921 – ci ildə dekabrın 30 – da N.Nərimanov Azərbaycan ziyalılarının iclasında yeni əlifba haqqında deyirdi: "...Yeni əlifba qəbul etmək məsələsini qət etməliyiz. Əksər adamlar latın əlifbasını qəbul etmək fikrindədir, burası həyatımızda bir inqilabdır. Biz əlifbamızı bu gün düzəltməsək, on il bundan sonra bu inqilabı edəcəklər. O vaxt nəinki biz, hətta bizim uşaqlarımız da Sədini, Mollayi Rumini, Vaqif və başqalarını asanlıqla oxuyacaqlar" (5; 92). N.Nərimanov yeni əlifbanın geniş xalq kütləsi arasında yayılması üçün çox çalışırdı. Haraya gedirdisə, bu barədə yığıncaqlar keçirir, məruzələr edirdi. Dekabr ayının 3 –də "Yeni fikir" qəzeti yazırdı ki, yığıncaqda iştirak edənlərin əksəriyyəti müəllimlər olsa da, onların sırasında Yeni Türk Əlifbası Komitəsinin üzvləri də var idi. N.Nərimanov köhnə əlifbanın dilimiz üçün çox çətinliklər törətdiyini söylədi: "Başqa xalqlar maarif və mədəniyyətcə bizdən çox irəli getmişlər. Amma biz geridə qalıb durmuşuq. Bir dəqiqə də olsun işsiz qalmamalıyıq. İşi elə qurmalıyıq ki, bəşəriyyət üçün faydalı olsun...İnsan yaradıcı olmalı və bəşəriyyətə lazım olan şeylər icad etməlidir. Bundan ötrü ilik və elm lazımdır. Bilik üçün də asan əlifba... Xülasə, bu əski əlifbanın nə qədər çətinliklər törətdiyini, nə qədər vaxt itirdiyini ancaq müəllimlər yaxşı bilərlər."(5; 92)

Ümumiyyətlə, dövrünün böyük siyasətçisi, yazıçısı və maarifçisi olan N.Nərimanov Azərbaycanda məktəblərin, xüsusilə,doğma dilimizin tədrisi məsələlərinə həmişə qayğı və hörmət ilə yanaşmışdır.

Hələ 1906 – cı il 12 may tarixli "Həyat" qəzetinin 109 – cu nömrəsində üçüncü səhifəsində Müsəlman müəllimləri yığıncağı münasibəti ilə "Bir neçə söz" məqaləsində Nəriman Nərimanov xalqımımız üçün lazım olan çox mühüm bir məsələyə toxunaraq yazır "... Erməni milləti xah ruhaniləri, xah camaatı ibtidai olan kəndi millətinin xoşbəxtliyini məktəbdə görüb onun hər cəhətdən tərəqqi tapmağına böyük qeyrəy və hümmət gətirirdilər... İndi cənab Katalikosun fikri ilə meydana gələn ictimai milli məktəblərin daha ziyadə tərəqqi tapmağına səbəb olacaqdır..."

Erməni dığalarının və onların Katalikosu başda olmaqla mollalarının təhsilə, məktəbə bu marağının daha geniş vüsət almağını görən N.Nərimanov üzünü ruhanilərimizə və camaatımıza tutub deyir: "İndi biz kənd məktəblərimizin barəsində nə deyə bilərik? Bir neçə şəhərdə iki cüt bir tək

şəhər xərcinə açılan məktəbləri nəzərə alıb təsəlli tapacağız. Müəllif bu insanlarımızdan heç bir cavab gözləmir. Özü də dərk edir ki, bu sualın cavabını onsuz da onlar tapa bilməzlər. Axı bizdə ermənilərlə nisbətdə məktəb sahəsində görülmüş işlər sıfıra bərabər idi. Cavab gözləməyən N.Nərimanov verdiyi suala cavab olaraq deyir: "Vaxt keçibsə də, ittifaq edib qabaqda gedən qonşuları elm və fəndə, sənətdə təqib etməli, yüyürüb onlara çatmalı! Yoxsa getdikcə qaranlıqda qalıb işlərimii fəna, özümüz xar və rəzil olacağız!

İndi üzümüzü ruhanilərə, hatəmlilərə, ədiblərə və hamı oxumuşlarımıza tutub deyiriz: "Bakı müsəlman müəllimləri avqust ayında Bakıda, Qafqazda müsəlman müəllimləri üçün syezd düzəltmək fikrindədirlər. Bunlar bir yerə yığılıb dərdləşəcəklər, bir – birinə qovuşacaqlar. Ümumi bir prqoram düzəldib ittifaq ilə iş görəcəklər, haman məclisdə millətin ümumi qüsurlarını diqqətə alıb dərdimizə əlac arayacaqlar...

Bu gözəl fikirləri əncama gətimək üçün camaat tərəfindən hümmət, həmiyyət və qeyrət lazımdır..."

N.Nərimanov pedaqoji kadr hazırlığı məsələsini həmişə diqqət mərkəzində saxlamışdır. Məlum olduğu kimi, Sovet hakimiyyətinə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi məktəb yox idi. Bütün Zaqafqaziya üzrə müəllim kadrları hazırlayan yalnız Qori seminariyası idi. Bu seminariyanın Azərbaycan şöbəsinin müəllim kadrı hazırlığında xüsusi rolu olmasına baxmayaraq, xalqın daim artan tələbini ödəmirdi.

Qori seminariyasının Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsini məqsədəmüvafiq hesab edən N.Nərimanov çox düzgün və əməli əhəmiyyəti olan təkliflər irəli sürdü. O yazırdı: "Açıq deməli, Qori darülmüəllimin Bakıda, ya Gəncədə və ya qeyri-müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində olarkən seminariyada elm təhsil etməyə mümkünləri olacaqdır. Yəni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub axşamlar öz evlərinə gedərlər...".

N.Nərimanovun maarifçilik fəaliyyətində onun Həştərxan dövrü xüsusi əhəmiyyət kəsb edir. 1909-1913-cü illərdə Həştərxanda sürgündə olan Nərimanov "Xalq universiteti" və "Şurayi-İslam" cəmiyyətlərinin işində fəal iştirak etmiş, "Burhani-tərəqqi", "Astraxanski listok", "Astraxanski kray", "Semeynoye vospitaniye" adlı qəzet və jurnallarda məqalələr dərc etdirərək, xalq maarifinin tərəqqisinə çalışmışdır.

O, 1919-cu ildə Həştərxan Quberniya Xalq Maarif Şöbəsinin müdiri olmuş, vətəndaş müharibəsinin ağır illərinə baxmayaraq, müəllim kadrları hazırlığında xidmətlər göstərmişdir.

1919-cu ildə Həştərxan Quberniya Xalq Maarif Şöbəsinin müdiri vəzifəsində işləyərkən mövcud şəraiti nəzərə alan N.Nərimanov

qısamüddətli pedaqoji kurslar vasitəsilə yüzlərlə müəllim hazırlanmasını təşkil etmişdir. Azərbaycanda ilk pedaqoji institut yaradılması və təsis edilməsi N.Nərimanovun adı ilə bağlıdır.

Böyük yazıçı, ictimai – siyasi xadim N.Nərimanov, eyni zamanda görkmli Azərbaycan dili müəllimi və metodist idi. O, sözün tam mənasında maarifpərvər bir xalq müəllimi idi.

Ədəbiyyat:

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası.Bakı 1978, 280 s.
2. “Azərbaycan müəllimi” qəzeti. 2010, 9 aprel - №13
3. “Həyat” qəzeti.1906, 12 may - №109.
4. Nərimanov N. Seçilmiş əsərlər. Bakı, 2004,495 s.
5 .Məmmədova A. Azərbaycan dilinin tədrisi tarixi. Bakı, 2015, 326 s

А.Сабирли

Просветительская деятельность Наримана Нариманова

Резюме

Статья посвящена просветительской деятельности великого прозаика, просветителя Наримана Нариманова, которая занимала важную роль в его жизни. Также освещена его деятельность, как учителя в селе Гызылхаджылы, Борчалы Тифлисской губернии, а затем о его участие, в решении некоторых культурных общественных и педагогических вопросов. Кроме того, рассматриваются Н.Нариманова, как инициатора в печати детского журнала “Совгат”, и специального педагогического журнала “Мектеб”.

В статье также, нашло свое отражение роль Н.Нариманова в подготовке учебников и учебных пособий в XIX и XX веках. Исследованы заслуги видного просветителя в открытиях школ Азербайджане, в том числе. Нахчыване, Лянкяране, Агдаме и в других регионах республики, а также в открытие педагогического института в Баку.

A.Sabirli

Nariman Narimanov`s enlightenment activity

Summary

Enlightenment activity that occupies the important place in Nariman Narimanov`s life is mentioned in the article. His teaching profession including the activities in the village school Kyzylhajili, in the Territory of Borchali, Tbilisi Government, in the Baku real school and also participation as a leading intellectual in solving of some cultural, social and pedagogical issues are stated here.Besides, Nariman Narimanov`s role in the press, the publication of children magazine "Sovgat", publishing a special pedagogical magazine "Maktab" and others were discussed here.

The author of the article has also wrote about the role of N.Narimanov in the preparation of textbooks and manuals in the XIX and XX centuries.

The activities of the notable enlightener in opening and functioning schools in Nakhchivan, Agdam and other places, as well as, opening the first pedagogical institute in Baku were also noted.

Rəyçi: Əlirza Əliyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLNAR OSMANOVA
BDU
nasib89@bk.ru

AZƏRBAYCAN FOLKLORUNDA QURANİ-KƏRİMDƏN GƏLMƏ MÜQƏDDƏS YEDDİ RƏQƏMİNİN SEMANTİKASI

Açar sözlər: yeddi, rəqəm, sakral, Qurani-Kərim, surə, ayə, İslam, göy, gecə, yeddi il, ,cəhənnəm, cənnət, yeddi dəniz.
Ключевые слова: семь, число, сакральный, Священный Коран, сура, ислам, небо, ночь, семь лет, ад, рай, семь морей
Keywords: seven, figure, sacral, Quran, surah, verse, Islam, sky, night, seven years, hell, paradise, seven seas.

Söz insan kəşfidir, rəqəmlər isə Allahın yaratdıqlarıdır. Qurani-Kərim doğru yola çatdıran bərəkətli və müqəddəs olan mənbəmiz, yolumuzu aydınladan, həyatımıza canlılıq verən ruhumuz, doğrunu səhvdən ayıran meyarımız, həqiqəti gətirən və təmsil edən dəyərimizdir . Qurani-Kərim bir çox möcüzəvi xüsusiyyətləri olduğu kimi, kəlmələrində də, cümlələrində də bir çox gözəlliklər var. Qurani-Kərimin ayə və surələrinin göstərdiyi həqiqətlərdə möcüzəvi izlər vardır, əlbəttə o ayə və surələri təşkil edən hərflərində də onun möcüzəvi işarələri olacaqdır. Dünyanın yaranışından bügünümüzədək zaman içində fərqli dinlərin ortaq simvolların arasında yeddi rəqəminin ayrıca bir yeri və əhəmiyyəti var. Həyatımız boyunca hər yerdə rəqəmlərlə rastlaşırıq. Üç ünsür- Ruh, maddə və İnsan , dörd elementin - hava, su, torpaq və od- birləşməsinin cəmi yeddidir. Bu ünsürlər Dünya yaradılışının təməlidir. Qədim dövrlərdən başlayaraq insanlar rəqəmlər haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Qurani-Kərimdə rəqəmlərin sistem halında olması insanların məişət həyatına, adət-ənənəsinə təsir etmişdir. Qurani-Kərimdə yeddi rəqəminə daha çox rast gəlirik ki, bu araşdırılma baxımından əhəmiyyətlidir. Azərbaycan mədəniyyətinin və adət ənənələrinin formalaşmasında əlbəttə ki, İslam dininin də böyük rolu olmuşdur. Azərbaycan folkorunun bir çox janrlarında - nağılarımızda, dastanlarımızda, bayatılarımızda, aşıq sənətimizdə, el nəğmələrimizdə və s yeddi sayına rast gəlmək olar.

Namaz zamanı səcdəyə gedərkən insanın yeddi üzvü yerlə təmasda olur- iki ayaq ucu, iki diz, iki avuc içi və alın. Qurani-Kərimdə Fatihə surəsi yeddi ayədən ibarətdir. Bu haqda 15.Ər-Hicr (Daşlı sahə) 87: (Ya Rəsulum) Biz sənə (hər namazda oxunub) təkrarlanan yeddi ayəni (Fatihə surəsini) və (böyük) əzəmətli Quranı verdik" ayəsində rast gəlirik.

Qurani-Kərimdə yeddi göy, göy qatı ifadəsinə göy qatının yaranması və yeddi qat olduğuna dair surələr var.

2. Əl-Bəqərə (İnək) 29: Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O hər şeyi biləndir.

23. Əl-muminun (Möminlər) 86: De: Yeddi (qat) göyün Rəbbi, o (böyük) əzəmətli ərşin Rəbbbi (sahibi) kimdir?

41. Fussilət (Müfəssəl izah edilmiş) 12: Allah onları (səmaları) yeddi (qat) olaraq iki gündə əmələ gətirdi. Beləliklə iki gün ərzində yer, sonra iki gün ərzində yer üzündə olanlar, daha sonra iki gün ərzində göylər xəlq edildi. Kainatın yaradılması altı gün içində başa çatdı. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur)!"

Allahın iradə və hikmətinə əsasən, dünya 6 günə yarandı. Qeyd edək ki, bu günlər heç də bizim anladığımız gün mənasında deyil. Bunların hərəsi bir mərhələni ifadə edir və bu mərhələlərin hər biri milyon illəri əhatə edə bilər. Dünyanın birbaşa yox, tədricən yaradılmasının səbəblərindən biri bu ola bilər ki, Allah öz hərəkətləri ilə bizə tələsməməyi, səbrlə davranmağı, hər işi mərhələlər üzrə görməyi tövsiyə edir.

65.Ət-Talaq (Boşanma) 12: Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu Allahın hər şeyi elm (öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar.

67.Əl-Mülk (Mülk və ya hakimiyyət) 3: Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (Səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?!

71.Nuh 15: Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?

78. Ən-Nəbə (Böyük xəbər) 12: Üstünüzdə yeddi (qat) möhkəm (göy) qurduq.

Bu bir təsadüfmüdür ya bilinməz sakrallıq yeddi göy, yeddi qat ifadəsi yeddi surədə keçir: 2. Əl-Bəqərə (İnək), 23. Əl-muminun (Möminlər), 41. Fussilət (Müfəssəl izah edilmiş), 65. Ət-Talaq(Boşanma), 67.Əl-Mülk(Mülk və ya hakimiyyət), 71.Nuh, 78. Ən-Nəbə (Böyük xəbər).

Dünyanın yeddi qatda təsviri. Azərbaycanlıların mifoloji təsəvvürlərində «Göyün yeddi qatı var. Birinci qat torpaxdı ki, qara camahat yaşayır. Sonrakı qatlarda huri-pərilər, qılmannar, peyğəmbərlər yaşayır. Lap yeddinci qatda isə Allah öz taxtında oturup dünyan ıidarə eliyir»(1)

Türk "Yaradılış" dastanında Kişinin pis niyyətləri Qara Xana xoş gəlməmiş və onu ərlig (şeytan) eləyib işıqlı dünyadan qovmuşdur.

Bundan sonra Qara Xan doqquz budaqlı ağacın hər budağından bir insan yaratmışdır. "Yaradılış" dastanına görə, Tanrı Qara Xan insanı yaradandan sonra göyün on yeddinci qatına qalxıb dünyanı ordan idarə edir. Yeddinci qatda Gün ana, altıncı qatda Ay Ata oturmuşdur.

Əl-Ənbiya (Peyğəmbərlər) surəsinin 30-cu ayəsində yerin də göyün də yeddi təbəqə olduğundan Yaradanın qüdrətindən bəhs edilir : "Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər? (Göylər ilk yaradılışda bir-birinə bitişik bir təbəqə olduğu halda, onların arası hava ilə açılıb yeddi təbəqəyə ayrılmış, yer də bir təbəqə ikən sonra yeddi təbəqəyə bölünmüşdür. Bu, Allahın qüdrətini, əzəmətini sübut edən ən tutarlı dəlillərdəndir)".

Bütün bu surələrdə yeddi göy (qat) ifadələrinin işlənməsini müxtəlif cür izah etmək olar. Buradakı bu ifadə göyün yer qatdan ibarət olduğuna müasir elmdə göstərildiyi kimi atmosferin qatlarına işarə olduğuna və ya planetlərə işarə olduğunu dəqiq demək olmaz. Bəzi mülahizələr də vardır ki, yeddi qat göy ifadəsi çoxluq mənasında bizim işlətdiyimiz onlarca, dəfələrlə ifadəsinə uyğun gəlir. Fikrimizcə, yeddi sayısının işlənməsi təsadüfi deyil, hər ayədə yeddi rəqəminin işlənməsi hər hansı bir ifadə və ya çoxluq kimi düşünmək olmaz burada bir gizlilik, işarə var.

Əl-Haqqə (Haqq olan qiyamət) surəsinin yeddinci ayəsində yeddi gecədən bəhs edilir: Allah o küləyi yeddi gecə, səkkiz gün ardı-arası kəsilmədən onların üstünə əsdirdi. Belə ki, (əgər yanlarında olsaydın) sən onları orada yıxılıb ölmüş görərdin. Onlar, sanki içi bomboş xurma kötükləri idilər.

Əl-Bəqərə (İnək) surəsində 261-ci ayəsində yeddi sünbüldən bəhs edilir: Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədədlərdən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir.

Yuxuda yeddi il quraqlıq Yusuf surəsinin 43-cü ayəsində: (Bir gün) padşah (Misir padşahı) belə dedi: Mən yuxuda yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl və yeddi quru sünbül (quru sünbüllərin yaşıl sünbüllərin, üstünə qalxıb bellərinə sarıldığını) gördüm: Ey əyanlar! Əgər yuxu yoza bilərsinizsə, mənim bu yuxumu yozun" 47-ci ayədə: Yusif belə cavab verdi: "Yeddi il adətiniz üzrə (həmişəki kimi) əkin.Yediyiniz az bir miqdar istisna olmaqla, qalan biçdiyinizi (artıq qalan məhsulu) isə sünbüldə saxlayın. 48-ci ayə: Sonra bunun ardınca yeddi il quraqlıq (qıtlıq) olacaq. Onda əvvəlcədən həmin illər üçün tədarük etdiyinizi yeyər, yalnız az bir miqdar (toxumluq) saxlayarsınız.

Əl-Bəqərə (İnək) surəsində 196-cı ayəsində yeddi gün oruc tutmaqdan bəhs edilir- "Allahdan ötrü həcc və ümrə (kiçik həcc) əməllərini tam yerinə

yetirin, əgər arada sizə maneçilik olarsa, (sizə) müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə (Minaya) çatıncaya qədər başınızı qırxdırmayın. Əgər (ihramda ikən, ziyarət zamanı) sizdən xəstələnən və yaxud baş ağrısına tutulub əziyyət çəkən olarsa, belə şəxs (başını qırxdırmağın əvəzində) fidyə olaraq (üç gün) oruc tutmalı və ya sədəqə verməli, yaxud da bir qurban kəsməlidir. (Maneçiliyin aradan qalxmasına) əmin olduqda isə həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir. Qurbanlıq tapmayanlar bunun əvəzində həcc ziyarəti günlərində üç gün və (vətəninə) qayıdandan sonra yeddi gün oruc tutmalıdırlar ki, bu da tam on gün edir. Bu (ümrə ziyarəti) ailəsi Məscidülhəramda (Məkkədə və ətrafında) sakin olmayanlara aiddir. Allahdan qorxun və bilin ki, Allahın əzabı şiddətlidir".

Əl-muminun (Möminlər) 75-ci ayəsində yeddi il qıtlıqdan danışılır- Əgər Biz onlara rəhm edib düşdükləri müsibətdən qurtarsaq, onlar şaşqın vəziyyətdə yenə də azğınlıqlarında davam edərlər. (Məkkəyə yeddi il ərzində aclıq, qıtlıq üz vermişdi. Məkkə müşrikləri Peyğəmbərin yanına gedib bu bəladan qurtarmaları üçün Allaha dua etməyi xahiş etmişdilər. Peyğəmbərin duasından sonra Məkkədə bolluq olmuş, camaatın güzəranı tamamilə yaxşılaşmışdı. Bunun mü- qabilində Peyğəmbərə iman gətirmək əvəzinə, müşriklər ona verdikləri əzab-əziyyəti daha da gücləndirmişdilər).

Ən-Nəhl (Bal arısı) surəsinin 112-ci ayəsində də yeddi il aclıq, qıtlıqdan danışılır-"Allah bir şəhəri (Məkkəni) misal gətirir. O şəhər əmin-amanlıq və arxayınlıq içində idi. Lakin (əhalisi) Allahın ne'mətini inkar etdi, Allah da həmin şəhərə (sakinlərinin) etdikləri əməllərə görə (yeddi il) aclıq və qorxu bəlası daddırdı".

Yeddi il, yeddi gün epik zaman anlayışı folklor nümunələrində qəhrəmanın uzaq səfərlərə çıxması və sehirli varlıqları təkbaşına axtarması zamanı sayılır.

"Kitabi-Dədə Qorqud" dastanında da bu sakrallığın şahidi oluruq: Qazan öz oğlu Uruzu ilk dəfə ova apararkən yeddi günlük tədarük gördürür- Yeddi günlük azuqə ilə çıxaq. (3,167).

Qanturalı yoldaşları ilə Selcan xatunun arxasınca yollananda yeddi gün, yeddi gecə yol gedirlər- Kafirlər yeddi ağac gəlib onları qarşıladılar, dedilər. Qanturalı meydanı yeddi dəfə dolanıb gəldi.(187) Həmçinin onları qarşılayanlar da yeddi ağac yol gedirlər.

Təpəgözdən qurtarmağın mümkünsüzlüyünü görən Oğuzlar yeddi dəfə köçürlər- Yeddi dəfə oğuz elini yerindən qovdu.(3,198)

Qazan getdi, öz evinə girdi. Yeddi gün divana çıxmadı, oturub ağladı.(3,223)

Əgər Koroğlu Alı kişi vasitəsilə Çənlibelə aparılıb, tanrılar məkanında otururs, Həmzənin də oğlu Qaf dağında su pərilərinin

südündən qidalanaraq böyüyür. O, yeddi yaşında ikən at sürməyi, döyüş paltarı geyib ox atmağı və divləri öldürməyi öyrənir. Ədədlərə (rəqəmlərə) pərəstişin mifoloji bölümündə izah edildiyi kimi, yeddi rəqəmi, Həmzənin oğlunun həddi-buluğa çatıb, formalaşmasının göstəricisidir. Bu isə ilkin təfəkkürə əsasən, fürsət və təyinedici deməkdir.

Loğman ayəsində yeddi dənizdən danışılır. 31 Loğman 27: Əgər yer üzündəki bütün ağaclar qələm, dərya da arxasından yeddi dərya qatılaraq (mürəkkəb) olsaydı, yenə də Allahın sözləri (yazmaqla) tükənməzdi. Həqiqətən Allah yenilməz qüdrət, hikmət sahibidir.

Yeddi qapı- 15. Ər-Hicr (Daşlı sahə) 44: (Cəhənnəmin) yeddi qapısı vardır, Hər qapıdan müəyyən bir dəstə girər.

Qurani-Kərimin Yeddinci ayəsinin – Əl-Əraf (Sədd) yeddinci surəsində deyilir: Sonra da onlara (nə etdiklərini) bildiyimiz üçün (hamısını bir-bir) söyləyəcəyik. Axı biz qaib deyildik (Onların yanındayıq). Burada bütün olub bitənlərlə bağlı məlumatları insanlara ötürüləcəyinə və Yaradanla insanlar arasında sıx bağ olduğu bildirilir. Məhz bu məlumatın yeddinci ayənin yeddinci surəsində olması da gözəl təsadüfdür.

18.(Kəhf) 22: Kitab əhlindən əshabi-kəhfin sayı barəsində mübahisə edənlər sanki qaranlıq yerə daş ataraq: “Onlar üçdür, dördüncüsü köpəkləridir!” - deyəcəklər. Bəziləri: “Onlar beşdir, altıncısı köpəkləridir!” – deyəcəklər. Digərləri (möminlər) isə: “Onlar yeddidir, səkkizincisi köpəkləridir!” – söyləyəcəklər. (Ya Rəsulum!) De: “Onların sayını Rəbbim daha yaxşı bilir. (İnsanlardan isə) bunu bilən çox azdır!” (Ya Rəsulum! Əshabi-kəhf) barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et (Quranda olanlarla kifayətlənib çox dərinə getmə) və (kitab əhlinin) heç birindən onlar haqqında bir şey soruşma!

Azərbaycanda inanclı insanların pənah apardığı məşhur ziyarətgahlar çoxdur. Onlardan biri də Naxçıvanda yerləşən "Əshabi-Kəhf" mağarasıdır. "Əshabi-Kəhf" təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. "Əshabi-Kəhf" neçə yüzilliklərdir müqəddəs ocaq sayılır. Hətta Sovet hökumətinin qadağaları da insanları ona pənah aparmaqdan çəkindirməyib. El arasında deyirlər ki, "Əshabi-Kəhf"i yeddi il dalbadal ziyarət etmək Kərbala, hətta Həcc ziyarətinə bərabərdir. Rəvayətə görə, yeddi müqəddəs burada qayaya söykənərək qeyb olmuşlar. Divarda dörd iz aydın görünür. Sanki insan divara söykənmiş, izi qalmışdır. Xalq arasında olan inama görə, bu qeybə çəkilmiş yeddi nəfərin kürəklərinin izləridir.

Mağaranın divarında izlər var. Bu, sanki divara söykənmiş insan izləridir ki, onlara da "Yeddi kimsənə" deyilir. Xalq arasında olan inama görə, həmin izləri öpmək vacibdir. "Əshabi-Kəhf" dəki qayalıqda həzrəti Əlinin Düldül adlı atının ayaq izləri var. İnsanlar niyyət edib yerdən təqribən

5-6 metrə qədər hündürlükdə olan həmin çalalara kiçik daşlar atırlar. Niyyəti hasil olanın daşı orda qalır. Bir qayda olaraq üç daş atılır. Mağaranın daxilinə girdikcə ətrafdakı ağac və kollara parçalar bağlanır. Mağaranın daxili yüksələn formada olmaqla, yuxarı tərəfdə, məscidə və "Cənnət bağına" çıxan yolun solundakı qayada deşik var. Niyyəti olanlar deşikdən keçib həmin qayanın başına üç dəfə dolanırlar. Bunu daha çox xəstələr, sonsuz qadınlar və uşaqlar edirlər.(4;40-42)

Qurani-Kərimdə işlənən yeddi sayının bu qədər işlənməsi zamanla insanların həyatında əhəmiyyət daşımışdır. Təbiətdə yeddi sayının işlənməsi: Göyqurşağının yeddi rəng olması- qırmızı, narıncı, sarı, yaşıl, göy,mavi, bənövşəyi. yeddi əsas elementin- gümüş, civə, dəmir, qalay, qurğuşun, mis, qızıl olması kimi. İnsan varlığında yeddi sayının keçdiyi yerlər – İnsanın soyu yeddi göbək nəsil götürülür, insanın üzündə yeddi deşik var (ağız, iki qulaq, iki göz, iki burun deşiyi) , yedi aylıq doğulan çağaların yaşamaq şansı səkkiz aylıq doğulan çağalardan daha çoxdur.

İnsanların sosial aktiv həyatlarında yeddi sayına qədim dövlərdən bügünümüzədək çox rast gəlinir. Həftənin yeddi gün- bazarertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar. Dünyanın yeddi möcüzəsi –Misir piramidaları, İsgəndəriyyə mayakı, Babilin (Semiramidanın) asma bağları, Efes-Artemis məbədi, Rodos heykəli, olimpdə Zevsin heykəli və Halikarnos mavzoleyi. Bunlar müxtəlif müəlliflər tərəfindən insanın etdiyi inanılmaz strukturlar olaraq "möcüzə" deyə adlandırılmışdır. Musiqidə yeddi not var.

Dini inanclara görə müsəlmanlar Kəbənin ətrafını yeddi dəfə təvaf edirlər. Həcc zamanı Safa və Mərvə arasında da yeddi dəfə gedib gəlirlər. Müsəlmanlar Həcc zamanı şeytan daşlamada yeddi daş atırlar. Minada bayram günləri üç gün daş atırlar. Bayramın birincü günü Minada (Böyük şeytan) deyilən yerdə iki yarım metrədən çox uzaqlıqdan Cemre yerini göstərən divarın dibinə noxud boyda yeddi daş atılır. Bayramın ikinci günü zöhr namazından sonra üç ayrı yerdə yeddi dəfə daş atılır. Əvvəlcə kiçik sonra orta və böyük şeytana yeddi daş atılır. Bayramın üçüncü günü beləcə yedi dəfə daş atılır.

Məişət mərasimlərimizdə işlənən yeddi sayları sakrallaşdırılması və həyatımızda bu qədər önəmli yer tutması ilkin astral anlayışlardan doğması və inanclarımızla bağlıdır. Doğum mərasimində uşağın dişi çıxmağa başlayanda ona hədik bişirirlər. Hədiyə yeddi növ paxlalı və dənli bitki tökürlər: buğda, mərci, lobya, lərgə, qaragöz lobya, qarğıdalı, noxud. Bu adətin kökləri mifologiyaya gedib dayanır. İnanca görə belə etdikdə diş uşağa əziyyət vermədən tez çıxır. Yas mərasimində xüsusi mifik semantikaya malik olan "yeddi" rəqəminə münasibət əcdadlarımızın təfəkkür formalaşdırılması ilə bağlıdır. Yeddi, cümə axşamı, cümə və qırx günlərində

olduğu kimi, üç mərasimində də ölünün ruhu öz evinə baş çəkir, doğmalarının qəlbinə yaxın olur. Bu zaman ruhu ovundurmaq naminə ehsan verir, yasin oxutdurur, dualar edir və namaz qılırlar.Yeddi rəqəminin də üç rəqəmi kimi mərhumun ruhunun şər ruhlardan (inkir-minkir) xilas olma vaxtı kimi rəmzi bir mənası olmuşdur.

Azərbaycan folklorunda yeddi sayı islamin qəbulundan əvvəlki illərdə də ondan sonrakı illərdə müqəddəsliyini göstərən bir çox nümunələrə rast gəlirik.

Ədəbiyyat

1. Abdulla.B.A . Azərbaycan marasim folkloru. Bakı, Qismət, 2005
2. Azərbaycan mifoloji mətnləri. Tərtib edəni, ön söz və şərhlərin müəllifi A.Acalov. – B., Elm, 1988, s.
3. Dədə Qorqud kitabı.Ensiklopedik lüğət. "Öndər nəşriyyatı", Bakı, 2004,365s.
4. Qədirzadə.Q. Əshabi-Kəhf.Müqəddəslik, Tarixilik və inancların genezesi.Bakı, Elm,2002.
5. Qurani-Kərim. Bakı, "Çıraq", 2005.
6. İnternet resursu: cetinbayramoglubaku.wordpress.com
7. İnternet resursu: din.az

Г. Османова

Семантика числа семь в азербайджанском фольклоре пришедший из Священного Корана

Резюме

В статье рассмотрены особенности использования цифры семь в Священного Коране. На протяжении всей истории для передачи скрытой информации люди применяли символы и знаки. Таким образом символы были использованы и нашли свое отражение в легендах, в священных текстах и гробницах. Те, кто знает значения символов, достигли раскрытия смысла текстов Корана. Кроме этого были созданы различные геометрические изображения, пиктограммы и кодировки преобразующие цифры в буквы и наоборот буквы в цифры. Каждому объекту и существу были даны различные метафорические смыслы. С древних времен люди подразумевали, что за всеми явлениями природы таинственная сила, а некоторые числа обладают сверхъестественной силой.

Один из чисел с символическим содержанием является цифра семь. У Священной книги Корана есть много чудесных свойств, и один из них связан с символикой чисел.

В Коране часто употреблено число семь. Цифры в Коране находятся в систематическом виде, что неизбежно оказывает влияние на жизнь людей. В Коране можно 7 раз встретить употребление выражений “семь небес” и “семь слоев неба”. В статье исследуются вопрос о ряде убеждений числа семь в современном мусульманском мире.

G.Osmanova

Semantics of the number of seven came from The Quran in Azerbaijan folklore

Summary

The pecularities of the usage of the number of seven in the Qur'an are investigated in the article. Throughout history people have applied to symbols and signs in order to transfer confidential information. In this way, the symbols are reflected in the legends, sacred texts, and tombs. People who knew the meaning of the symbols could open their meaning and perceive the secret meaning of the texts. Moreover, people have created different passwords, geometric images, pictograms and ideograms to convert letters to numbers and numbers to letters. Various figurative meanings are given to every thing and living being. Besides imagining a mysterious force behind the accidents taking place in the nature, human thought that some numerals were supernatural.

One of the symbolic numerals is the number of seven. The Quran has many miraculous characteristics, one of which is related to the symbolism of the numbers. We can come across to the number of seven a lot in Quran. In this sacred book the system of numerals undoubtedly has affected people's lives. The expressions like seven heavenly or seven layers of heaven are revealed seven times in the Holy Quran. The beliefs which the number of seven represent in modern Muslim world are analised in the article.

Rəyçi: Nizami Xəlilov
Filologiya üzrə elmlər doktoru, professor

GÜLNAR ƏQİQ
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
gulnarjafarzade2002@gmail.com

QACARLAR SÜLALƏSİ VƏ POEZİYA SƏNƏTİ

Açar sözlər: Qacarlar, XIX əsrdə ədəbi mühit, Fətəli şah Qacar, poeziya sənəti, Səba Kaşani.
Key words: Gajars, literary environment in XIX century, Fataly shah Gajar, art poetica, Seba Kashani.
Ключевые слова: Каджары, литературное среда в XIX веке, Фатали шах Каджар, поэтическое исскуство, Себа Кашани.

Tarix boyunca baş verən mühüm olaylar həmin dövrün ədəbi mühitinə də öz təsirini göstərmişdir. Əgər qüdrətli Səfəvilər sülaləsinin hakimiyyət illəri həm İran, həm də Azərbaycanda mədəniyyət və incəsənətin çiçəklənməsi ilə müşahidə olunurdusa, Əfşarlar dövründə ölkənin mədəni həyatında durğunluq yaşanırdı. XVIII əsrin sonlarında Qacarlar sülaləsinin siyasi hakimiyyətə gəlməsi ədəbiyyat aləmində də bir canlanma yaratdı. Bu dövrün ictimai-siyasi mənzərəsinə nəzər salsaq, "yenilikçilik" hərəkatının Çar Rusiyası və Osmanlı Türkiyəsi ilə həmsərhəd olan Azərbaycandan başladığının şahidi oluruq. (1; 75) XIX əsrdə mədəni həyatda baş verən dirçəliş prosesi bu dövrdə Şimali Azərbaycanda A. Bakıxanov, M. Ş. Vazeh, M. F. Axundzadə, İ. Qutqaşınlı, H. Zərdabi kimi maaarifpərvər ziyalılar yetirmişdirsə, Cənubi Azərbaycanda da mədəniyyətin müxtəlif sahələrində, o cümlədən ilk mətbəənin yaradılması, qəzet-jurnal çapı, hərbi sənaye və silah istehsalı kimi sahələrdə və Avropa ölkələri ilə mədəni əlaqələrin yaradılması işindəki fəaliyyətlər bu dövrün əsas nailiyyətləridir. (2; 12)

Qacarlar sülaləsinin hakimiyyətə gəlişi farsdilli poeziyanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bildiyimiz kimi, 140 ilədək hakimiyyət sürən bu sülaləsinin əsası Ağa Məhəmməd xan tərəfindən 1794-cü ildə qoyulmuşdur. Onun hakimiyyət illəri hərb meydanlarında keçdiyindən ölkənin mədəni həyatına ilgi göstərə bilməmişdi. Ədəbiyyatda tərəqqi dövrü Fətəli şah Qacarın səltənət tacına yiyələnməsi ilə başlayır. 1797-ci ildə Ağa Məhəmməd xan Qarabağ xanlığının Şuşa şəhərində qətlə yetirildikdən sonra dərhal taxta onun qardaşı oğlu və vəliəhdi Baba xan Cahansuz əyləşdi və 1726-cı ildə Nadir şah tərəfindən öldürülən babalarının şərəfinə özünü Fətəli şah adlandırdı. 1834-cü ilədək dövləti idarə edən Fətəli şahın hakimiyyət illəri də qansız-qadasız ötüşmədi, lakin onun özünün də şairlik istedadına malik olması şahı seirə-sənətə laqeyd qalmamağa sövq etdi. Məhz

Fətəli şahın poeziyaya böyük dəyər verməsi həm sarayda, həm də saraydan kənar məhsuldar ədəbi mühitin yetişməsinə və poeziyada yeni inkişaf istiqamətinin yaranmasına səbəb oldu. (3; 95)

Bu ədəbi oyanışın ilk qığılcımları hələ Fətəli şahın hakimiyyətindən öncə XVIII yüzilliyin ikinci yarısında İsfəhanda təşkil edilmiş "Əncüməni-Müştaq" və "Əncüməni-Nişat" ədəbi məclislərinin meydana gəlməsi ilə yarandı. İlk sənət addımlarını bu ədəbi məclislərdə atan Müştaq, Səba Kaşani, Nişat İsfəhani, Hatif, Səbahi, Aşiq kimi şairlər sonralar Qacar sarayının ədəbi mühitini canlandırdılar. Poeziyada monqol istilasından Qacarlar dövrünədək təqribən 400 il davam edən durğunluq (inhitat) dövrü XVIII yüzillikdə ədəbi-mədəni dirçəliş mərhələsinə qədəm qoydu. Bu dövr ədəbi yüksəlişin əsas meyarlarından biri yenilikçilik idi. (4; 22)Ədəbi mühitdə baş verən yeniləşmə prosesi bir çox mədəni sahələrdə özünü göstərirdi, yeni tipli mətbəənin yaradılması, qəzet-jurnal, kitab çapı, tərcümə sahəsində nailiyyətlər, yeni üsullu məktəblərin yaradılması və s. bu dövrün əlamətdar hadisələridir. Fətəli şah Qacarın yüksək şeir təbinin olması və şair və ədiblərə göstərdiyi qayğı nəticəsində tənəzzülə uğramış fars şeiri yenidən canlandı. Bu dövrün poeziyasının əsas xarakterik cəhəti uzun zamandan bəri ədəbi dilə daha çox mücərrəd mənalı söz və ifadələri daxil edən hind üslubunun aradan sıxışdırılıb çıxarılması və klassik poeziya ənənələrinin yenidən ehya edilməsi idi. Poeziyada baş vermiş yeni məzmunlu dəyişiklikləri və fars şerinin yeni inkişaf mərhələsini tədqiqatçılar "bazgəşte-ədəbi"(ədəbi qayıdış) adlandırmışlar. Bu ifadəni İran ədəbiyyatşünaslığında ilk dəfə ədəbi istilah kimi işlədən Məlikəşşüəra Bahar olmuş və ondan sonra da fars poeziyasınnı bu dövrünü araşdıran alimlər həmin termindən birmənalı şəkildə istifadə etmişlər. (5; 184) "Bazgəşte-ədəbi" cərəyanının ilk rüşeymləri hələ əfşarlar və zəndiyyə dövründə yaransa da, onun inkişafının əsas mərhələsi qacarlar sülaləsi, xüsusilə də Fətəli şah Qacarın hakimiyyət illəri ilə əlaqədardır. Bu dövrün tanınmış ədiblərindən Rzaqulu xan Hidayət fars ədəbiyyatı tarixində son mükəmməl təzkirə hesab edilən "Məcməül-füsəha" əsərində Fətəli şahın XIX yüzillik fars poeziyasının çiçəklənib inkişaf etməsində misilsiz rolu olduğunu qeyd edir və göstərir ki, şahın "Divani-Xaqan" adlı şeir külliyyatı dəyərli poeziya nümunələrindən ibarətdir. (6; 133) "Xaqan" təxəllüsü ilə şerlər yazan Fətəli şah çox keçmədən saraya böyük ədiblər və şairlər ordusu topladı. Onun sarayda təşkil etdiyi "Əncüməni-Xaqan" şer məclisi XIX yüzilliyin ən mühüm ədəbi hadisəsi idi. Bu məclisdə tez-tez dövrün görkəmli alimləri və şairləri toplaşır, şerlər oxunur, klassik şer ənənələri müzakirə edilirdi. Səba, və digər böyük söz xiridarlarının iştirak etdiyi şer məclislərində qacar şahı öz qəzəl, qəsidə və rübailərini də oxuyar və onların fikrini öyrənərdi. Fətəli şahın yaradıcılığına nəzər saldıqda onun Şərq poeziyasının sirlərinə dərindən

yiyələndiyinin, incə zövqə və yüksək şairlik təbinə malik olduğunun şahidi oluruq. Qacar şahının zəngin iris çoxsaylı nəvələri və övladları tərəfindən toplanaraq dəfələrlə gözəl xətlə qələmə alınmış və ilk dəfə nəvəsi Nasirəddin şahın dövründə 1859-cu ildə Tehranda daşbasma üsulu ilə çap olunmuşdur. Fətəli şahın "Divani-Xaqan" adı ilə məşhur olan külliyatının nəfis əlyazmaları bu gün İranın milli kitabxanasında, saray kitabxanasında və başqa bu kimi mötəbər kitabxanalarda qorunub saxlanılır. Müasir dövrdə isə şairin külliyatı iranlı ədəbiyyatşünas Həsən Gülməhəmmədi tərəfindən "Divani- Xaqan" adı altında geniş müqəddimə və şərhlərlə h. ş. tarixi ilə 1370 –ci (miladi tarixi ilə 1992-ci) ildə Tehranda "Atlas" nəşriyyatında çap olunmuşdur. Fətəli şahın divanına onun qəsidələri, qəzəlləri, rübailəri, tərkibənd və qitələri, həmçinin məsnəviləri daxildir. Lirik şerin ən geniş yayılmış növü olan qəzəl onun yaradıcılığında mühüm yer tutur.Fətəli şah həm bir hökmdar, həm də şair kimi XIX əsrin ədəbi mühitinin inkişafında böyük rol oynamışdır. O, klassik fars poeziyasını daim yüksək qiymətləndirmiş, bu zəngin söz xəzinəsinin ən dəyərli ideyalarını öz dövrünə gətirmişdir. Fərruxi, Xaqani, Nizami, Sədi, Hafiz kimi söz ustadlarının sonrakı nəsillərə yadigar qoyub getdiyi poeziya ənənələrindən bəhrələnən qacar şahının yaradıcılığında klassik şerə məxsus məzmun və forma vəhdəti özünü biruzə verir. Qacar sarayında poeziyanın sönməkdə olan çırağını alışdıran söz ustadlarından öndə gedəni Fətəli xan Səba Kaşani bu dövrün söz meydanına qədəm qoymuş ilk böyük şairi hesab edilr. İranın Kaşan şəhərində dünyaya gəlmiş Fətəli xan Səba yaxşı təhsil almış və Səbahi Kaşaninin şeir məktəbində püxtələşmişdi. Fətəli şahın tacqoyma mərasimində iştirak etmək üçün Tehrana gələn Səba şaha həsr etdiyi qəzəl və qəsidələri ilə onun böyük hörmət və rəğbətini qazanır. Qacar sarayına dəvət alan Səbanın şairlik təbini çox bəyənən Fətəli şah onu sarayın məliküşşüərası təyin edir. Şahın göstərişi ilə Səba Firdovsinin "Şahnamə"si üslubunda "Şahənşahnamə" adlı poema yazmışdır. O, bu əsəri üç il müddətində 40 min beytdə və "Şahnamə" kimi mütəqarib bəhrində qələmə almışdır. Həm forma, həm də məzmunca "Şahnamə"yə çox bənzəyən bu əsərdə Fətəli şahın hərbi yürüşlərindən və vəliəhd Abbas Mirzənin Rusiya-İran müharibələrində göstərdiyi şücaətdən bəhs edilir. O, bu poemanı şaha təqdim edərkən böyük izzət və ehtiramla qarşılanmış, Fətəli şah tərəfindən mükafatlandırılmışdır. Şah poemanın hər beytinə bir misqal qızıl ənam vermiş və Səba 40 min beytlik əsərin müqabilində 40 min misqal qızıl almışdır. Əslində hər zaman Sultan Mahmud və Sultan Səncər sarayının ənənələrini öz sarayında yaşatmağa çalışan Qacar şahı Qəznəvi sultanının Firdovsiyə verdiyi, lakin yerinə yetirmədiyi vədəni təqlid etmişdir. (7; 78)

Dövrünün yaxşı savadlı və kamallı şəxslərindən olan Səbanın qəzəl, qəsidə, rübailər və bir neçə məsnəvidən ibarət olan şeir divanı Şərq poeziya

sənətinin dəyərli incilərindən hesab edilir. Onun yaradıcılığına xas olan ən mühüm cəhət özündən əvvəlki qüdrətli söz ustadlarının ədəbi ənənələrindən yararlanmaqla yanaşı, saray mühitində yeni ədbi məktəbin əsaını qoyanlardan olmasıdır. Qəsidə yazmaqda onu Ənvərinin, məsnəviçilikdə isə Firdovsinin davamçısı hesab edirlər. (8; 79)

Səba Kaşaninin on beş min beytlik divanından başqa, "Gülşəni-Səba", "İbrətnamə", "Xudavəndnamə" və "Şahənşahnamə" adlı dörd poeması var. Məsnəvi formasında yazılmış bu əsərlərin hər biri ayrı-ayrılqda maraqlı və ibrətamiz heayəlrlə bəzədilmiş və yerli-yerində poetikanın qanunlarına riayət olunmuş bədii sənətkarlıq nümunəsidir. Şairin "İbrətnamə" poemasından sözün tərifinə həsr etdiyi aşağıdakı parçanı oxuculara təqdim edirik.

جهانبان جهان از سخن آفرید به گفتن شد این آفرینش پدید
ز هر آفریده سخن برتر است سخن زآفرینش بهین گوهر است
به مردم بود نام مرد از سخن نه از سخت‌ستخوان، نه از نرم‌تن
به هرکس که نیروی گفتار بیش بدین نام نامی سزاوار بیش
سخنگو ندارد به دل بیم مرگ سخن مرگ را آهنین پتک و ترگ
زبان سخندان یکی خنجر است که گه نوش‌زا، گه شرنگ‌آور است
زگوینده نو سخن گوش کن کهن گفته‌ها را فراموش کن

Yaradan dünyanı sözdən yaratdı, Bu dünya (yaranmış) deməklə yarandı.
Bütün yaranmışlardan söz üstündür, Söz gövhərdən daha yaxşıdır.
Xalqın yanında mərd ad sözdən olar, Nə bərk sümükdən, nə yumşaq ətdən.
Hər kəsin ki, danışmaq qüdrəti çoxdur, Buna görə də layiqli ad ona məxsusdur.
Söz sahibinin ölümdən qorxusu olmaz, Sözlə ölüm dəmir çəkic və dəbilqə kimidir.
Söz deyənin dili iti xəncərdir, Gah içməli, gah da zəhər kimidir.
Təzə söz deyəni dinlə, Köhnə (deyilmiş) sözləri unut.

Göründüyü kimi, yüksək təbə malik istedadlı şair qələmə aldığı qəzəl və qəsidələri, poemaları ilə bu dövrün farsdilli poeziyasını zənginləşdirmiş və özündən sonrakı qələm əhlinə də örnək olmuşdur. O, qəzəl və qəsidələrində Ənvəri, Xaqani kimi, məsnəvi janrında isə Firdovsi, Nizami kimi klassik poeziya ustadlarının bədii irsindən bəhrələnmişdir. Qacar sarayının məliküşşüərası olan Səba Kaşaninin saraya yeni gələn şairlərin istiqamətləndirilməsində və formalaşmasında böyük rolu olmuşdur.

Nəticə olaraq qeyd etmək olar ki, XVIII əsrin sonlarında Qacarlar sülaləsinin siyasi səhnəyə qədəm basması həm Azərbaycan, həm də İran tarixində mühüm siyasi-ictimai hadisələrlə yadda qalmışdır. Bu sülalənin 140 ilədək davam edən hakimiyyəti dövründə mədəniyyət sahəsində də İranda, xüsusilə Cənubi Azərbaycanda dirçəliş prosesinin şahidi oluruq. Qacar sülaləsinin ikinci şahı Fətəli şahın taxta çıxması ilə farsdilli poeziyanın inkişafında çiçəklənmə baş vermişdi. "Xaqan" təxəllüsü ilə şeirlər yazan Fətəli şah Qacar şeir və sənətin himayədarı olaraq saraya böyük şairlər və ədiblər ordusu toplamışdı. Qacar şahı böyük türk sultanları Sultan Mahmud Qəznəvi və Sultan Səncər Səlcuqinin dəbdəbəli büsatını öz sarayında qurmağa çalışaraq ö dövrün poeziya ənənələrini yeni dövrə gətirməyə çalışmışdır. Qəznəvilər və Səlcuqilər sarayındakı kimi tez–tez təntənəli şeir məclişləri təşkil edən Fətəli şah bura qüdrətli söz ustalarını toplayır, şeirlər oxunur, şairlərə klassik şeir üslublarına müraciət etmək tövsiyə olunurdu. Fətəli şahın təşəbbüsü və rəhbərliyi ilə təşkil olunan "Əncüməni-Xaqan" bu dövrün ən mühüm ədəbi olaylarından idi. Fətəli şahdan sonra hakimiyyətə gələn Nasirəddin şah və digər qacar hökmdarları da onun qoyduğu ənənəni davam etdirərək şair və ədiblərdən qayğı və diqqəti əsirgəmirdilər. Bu dövrdə mədəni-ədəbi inkişaf prosesini saray mühitindən kənarda təsəvvür etmək mümkün deyil. XIX yüzillik farsdilli poeziyanın inkişafında tərəqqi və yüksəliş dövrü kimi səciyyələnir. Bu dövrdə Fətəli şah Qacarın poeziya ocağına toplaşan Mirzə Əbdülvahab Mötəməddövlə Nişat, Mecmər İsfəhani, Mirzə Əbdülbaqi Təbib İsfəhani, Vüsal Şirazi və onlarla şair yeni yaranmış ədəbi məktəbin fəal üzvlərindən olmuşlar.

İstifadə olunmuş ədəbiyyat:

1. تاریخ هیجده ساله آذربایجان. کسروی احمد. تهران. انتشارات امیر کبیر. 1353
2. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول. نفیسی سعید. تهران. انتشارات بنیاد. 1366
3. دیوان کامل اشعار فتحعلی شاه قاجار(خاقان). به اهتمام حسن گل محمدی. تهران. انتشارات اطلس. 1373
4. از صبا تا نیما. آرین پور یحیی. جلد اول. تهران. انتشارات زوار. 1372
5. تحول شع فارسی. زین العابدین موتمن. تهران. انتشارات شرق. 1379
6. مجمع الفصحا. رضا قلی خان هدایت. جلد اول. تهران. انتشارات امیر کبیر. 1369
7. نهضت ادبی ایران در عصر قاجار. صفایی ابراهیم. تهران. انتشارات ابن سینا. 1374
8. نهضت ادبی در عصر قاجار. صفایی ابراهیم. تهران. انتشارات ابن سینا. 1374
9. Bakıxanov A. Gülistani-İrəm. Bakı, "Xatun plyus", 2010. 300 s.
10. Səfərli Ə, Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, "Ozan", 2008. 693 s.
11.

12. http://www.anjomanfarsi.ir/portal/index.php
13. www.ganjoor.net

Aqiq Gulnar

The Gajar dynasty and art poetica

Summary

Coming onto the political scene of The Gajar dynasty in the end of the XVIII century has stuck in the memories as an important socio - political event in the history of both Azerbaijan and Iran. The process of development of culture is oserved both in Iran and especially Southern Azerbaijan in the 140 years period of this dynasty's reign. Flourishing of Persian language-poetry is significantly occured by coming to the throne of Fatali Shah - the second Shah of the Gajar dynasty. Fatali Shah, who wrote his poems under the pseudonym "Khagan" as a great protector of art and poetry he invited the great number of poets and men of letters to the palace.The outstanding representative of the Gajars dynasty Fatali Shah tried to recreate magnificent poetic traditions of great Turkish Sultans – Sultan Mahmud Gaznavi and Sultan Sanjar Saljugi in his palace accoprding to his time. As in the palaces of Gaznavies and Saljugies Fatali Shah gathered prominent masters of word in the poetic assembly of the palace where they read wonderful examples of classical poetic style. The poetic assembly "Enjumani-Khagan" which was organised and led by Fatali Shah Gajar was one of the important literary events of the time. Nasraddin Shah and other Shahs of the Gajar dynasty who came to the throne after Fatali Shah continued his poetic traditions and never denied their assistance and care to poets and literaties. It is impossible to imagine the process of cultural-literary development beyond the palace atmosphere.The first poet who had been invited to Fatali Shah's palace was Seba Kashani. Having high inspiration this talented poet enriched Persian-language poetry with his ghazals and gassidas becoming a model to poets of his time and next generations. He wrote his ghazals and gassidas under the influence of such masters of classical poetry as Anvari and Khagani, but his works in the genre of mesnevi he wrote inspiring from Firdousi and Nizami. The Malik-ush-shuara (King of poets) of Gajar's palace Seba Kashani played a great role in the formation of creative activity of young palace poets.

The XIX century is characterized as a a time of progress and development of Persian-language poetry. The talented representatives of Fatali Shah Gajar's poetic hearth as Mirza Abdulvahab Motamaddoule Nishat, Majmar Isfahani, Mirza Abdulbagi Tabib Isfahani, Vusal Shirazi and the ten of poets became the active members of new –formed literary school of the time.

А.Гюльнар

Каджары и поэтическое исскуство
Резюме

Приход Каджарской династии в политическую арену в конце XVIII века запомнилось важными политико-социальными событиями в Азербайджанской и Иранской истории. Стосорокалетние правления этой династии в истории культуры Ирана и Южного Азербайджана сопровождалось процессом возрождения. Период власти второго шаха Каджарской династии Фатали шаха являются временем персоязычной поэзии.Помимо своего поэтического творчества под псевдонимом «Хакан» , Фатали шах также как покровитель искусства собрал во дворце ряд поэтов того времени. Он старался возродить в своем дворце древний стиль классической поэзии согласно требованиям своего времени и таким образом увековечить торжественные дворцовые традиции таких великих тюркских правителей как Султан Махмут Казневи и Султан Санджар Салджуги.По древним обычаям Казневидов и Салджугов во дворце Фатали шаха часто организовывались вечера поэзии и предпочтение отдавалось классической манере стихосложения. Главным событием данной поэтической среды считалось «Анджумани-хакан» (Собрание «хаканов»-поэтов) который возглавлял сам Фатали шах-.Каджары, вступившие на престол после Фатали шаха, а также, Насираддин шах, продолжая эту традицию, высоко оценивали роль поэзии во дворце. Первым дворцовым поэтом Фатали шаха был великий мастер слова того времени Саба Кашани. Обладая высоким талантом искусства, он обогатил персоязычную поэзию того времени своими газелями, касыдами и поэмами. И явился примером для последующих литературных поколений.В своих газелях и касыдах он больше всего выявляет себя как последователь школы Анвари и Хакани. А в своих месневи он преемник поэтических традиции величайших мастеров слова Фирдоуси и Низами.

Как главарь поэтов каджарского дворца он сыграл большую роль в формировании нового поколения поэтов.Итак, XIX век в развитии персоязычной поэзии характеризуется как эпоха возрождение. Известными поэтами дворца Фатали шаха Каджара считались такие мастера слова как Мирза Абульвахаб Мотамаддоула Нишат, Меджмер Исфахани, Мирза Абдульбаги Табиб Исфахани, Вусал Ширази и другие.

Rəyçi: Şəfəq Əlibəyli
Filologiya elmləri doktoru, professor

NƏZRİN RZAYEVA
AMEA-nın Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutu
nazrinrzayeva88@gmail.com

SÖHRAB TAHİR "İKİ DƏFƏ YOX OLMUŞ ADAM"

Açar sözlər: Söhrab Tahir, roman, azadlıq mübarizəsi, millilik, ana dili
Ключевые слова: Сохраб Таир, роман, борьба за свободу, национальность, родной язык
Key words: Zohrab Tahir, novel, war for freedom, nationality, mother language.

Əslən Güney Azərbaycandan olsa da, həyatının böyük qismini Quzey Azərbaycanda keçirən, Güneyli-Quzeyli bütöv Azərbaycan ədəbiyyatının istedadlı qələm sahiblərindən olan Söhrab Tahir yaradıcılığı həddindən artıq zəngindir. Daha çox şair kimi tanınan, sevilən və hörmət görən Söhrab Tahir həm də müxtəlif məzmunlu nəsr əsərlərinə imza atmış, pyeslər də yazmışdır. Gecə-gündüz demədən yazıb yaradan Söhrab Tahir 19 romanın, 50-dən artıq poemanın, 10-larla hekayənin, 100-lərlə şeirin, 70 min misradan ibarət olan monumental "Ata" poemasının müəllifidir.

XX əsrin əvvəlində yaranan, işğal etdiyi bütün xalqlara, xüsusilə də türk-islam millətlərinə qənim kəsilən totalitar sovet ideologiyası dövründə Söhrab Tahir millət deyib haray çəkmiş, bütün dünyaya meydan oxuyan amansız imperiyadan qorxmamışdı. Millilik onun genində, qanında və ruhunda idi. Söhrab Tahir insan qəlbinin dərinliklərinə nüfuz edən lirik şeirlərində, dövrünün ziddiyyətli məqamlarını açan hekayələrində insanlığın taleyini, romanlarında isə İranda- Cənubi Azərbaycanda XX əsrdə baş vermiş tarixi hadisələri qələmə almışdı.

Söhrab Tahir həm nasir, həm də şair kimi bütöv Azərbaycanın yetirdiyi sənətkarlardan idi. Gənc yaşlarından ictimai fəallara qoşulan Söhrab Tahir 1945-1946-cı ildə Azərbaycan milli hökuməti tərəfindən Bakıya göndərilmiş və hərbin sirlərini öyrənib geriyə-Vətənə qayıtmaq tapşırığı almışdı. Lakin baş verən hadisələr, milli hökumətin yıxılması onun bütün həyatını, gələcəyini dəyişmişdi. Təhsil almaq üçün Bakıya gələn gənc Söhrab ölkəsinə qayıda bilməyərək, Şimali Azərbaycanda qalıb, bütün taleyini Bakı ilə bağlamaq məcburiyyətində qalmışdı. Lakin ictimai fəaliyyətini davam etdirən Söhrab Bakıda Güney-Quzey Azərbaycan şairlərinin, yazıçılarının yaxın silahdaşlarından birinə çevrildi. Həyatının sonuna qədər amalından, idealından dönmədi. Həqiqətən də, Söhrab Tahirin bədii-fəlsəfi yaradıcılığı bütöv bir ədəbi-tarixi epoxadır. Söhrab Tahir dedikdə ədəbi-tarixi əsrin yaşıdından, parlaq poeziyaya malik milli bir

şairdən, möhtəşəmn romanlar və povestlər müəllifindən, milli mətbuatımızın hər səhifəsində imzası olan ədəbiyyatşünas və publisistdən, nəhayət vətənimizi və dünyanın bir çox ölkələrini qarış-qarış gəzmiş böyük bir azərbaycanlıdan-bütöv Azərbaycanın canlı timsalı olan yenilməz şəxsiyyətdən gedir. "Söhrab Tahirin şeirləri Azərbaycan poeziyasında mənəvi səngər qurdu. Bu səngərdə döyüşənlərin birinci vəzifəsi ürəklərdə, beyinlərdə hürriyyət adlanan bir səadətin Hüseyn Cavid demişkən "qan tökülmədikcə üzü gülməyən bu nazlı afətin" məhəbbət toxumunu səpmək idi. Qəlbinin diktəsi ilə qələminə məhz bu istiqaməti nişan verərək poeziyamızın sükanını məharətlə - azadlığa, bu yolda çarpışmalara yönəldən SöhrabTahir bütün bu illər ərzində öz istəyinə bir bəndlik də olsa, xəyanət etmədi"(4.,17). O, öz şair taleyi ilə təkcə XX və XXI əsrlərin üzərində deyil, həm də Şimali və Cənubi Azərbaycan arasında canlı körpü, ədəbiyyatımızın klassiki idi.

Amma çəkdiyi zülmləri, vətəninin ağır dərdini də heç zaman unutmadı, yazdığı hər misrada, hər cümlədə vətən sevgisini yaşatdı, həsrətini, nisgilini sönməyə qoymadı. Bu nisgil, həsrət uzun illər onun yaradıcılığının əsas ana xəttini təşkil edib. Bu silsilədən yazılmış şeirlər üstünlük təşkil etsə də, yazdığı nəsr əsərlərində - hekayə, povest və romanlarda yaşanılan hadisələri, xalqın başına gətirilən faciələri daha geniş planda, bütün təfərrüatı, xırdalıqları ilə əks etdirməyə müvəffəq olmuşdur. "Sevgisində itən qız", "Qonşu qızın məktubları", Naməlum qadının gündəliyi" kimi əsərlərində XX əsrin birinci yarısında Azərbaycan xalqının mübarizəsini və tarixi taleyini əks etdirir. İnqilablardan, azadlıq mücahidlərinin faciəli həyatından bəhrələnərək yazdığı əsərlər onun qəlbindəki geriyə qayıtmaq inamını daha da alovlandırırdı.

Söhrab Tahirin İrandakı şah zülmünə qarşı mübarizədən, inqilaba çağırışdan, "21 Azər" hərakatının yaranması dövründən bəhs edən maraqlı əsərlərindən biri də "İki dəfə yox olmuş adam" romanıdır. 1988-ci ildə çap olunmuş bu ikinci romanında müəllif 1920-1940-cı illərdən bəhs edir. Hadisələri bu qədər geriyə çəkməklə müəllif illərdir irtica zülmündə inləyən xalqının dərdini, insanların yaşadığı ağır, məşəqqətli günləri açıb göstərmək məqsədi daşımışdır. Əsərdə İranın şahlıq üsul-idarəsi və istibdad illərində bu ölkədə yaşayan xalqların çox ağır həyat tərzinə, ölkədə irtica və imperializmə qarşı müqavimətinə, milli azadlıq mübarizəsinə aid səhnələrini əks etdirilir.

Romanın ideyası azadlıq arzusu üzərində qurulmuşdur. Daima azadlıq uğrunda mübarizə aparan, onu əldə edə bilməsə də ümidini üzməyən, 1 günlük ömrü qalan Əkbərin timsalında azadlıq məfhumu, bu sözün mənası, qüdrəti, insan üçün əhəmiyyəti açılır: "Azadlıq hamının olmalıdı. Azadlıq hamının olmasa, o azadlıq deyil. Buna görə də mən içimdə qaralıb qalan azadlıqdan utanıram, mən gərək bu azadlığı köçürəydim. Köçürəydim hamının ürəyinə, görəydilər ki, insan onunla necə dözümlü olur, necə özünə

inanır. Köçürə bilmədim, qoymadılar. İndi də o çırpınır, tələtüm vurur. Darıxma mənim həyatım, mənim mənam, mən sənin yanında borclu qaldım." (5, 160)

Əsər "inqilabın ayaq səslərini" eşidən Qərəşinin azadlıq arzusu, inqilabi ideyaları üzərində qurulsa da Əhədin taleyi də xüsusi diqqətdə saxlanılır. Əhəd ailəsi irticaçıların, məşrutə düşmənlərinin zülmünə məruz qalmış minlərlə gəncin ümumiləşdirilmiş obrazıdır. Atası günahsız yerə həbs edilən, anası qaçırılan, nənə himayəsində böyüyən uşağın mübarizə əzmi, inqilabçılara qoşulması, gələcəyi, azadlığı üçün mübarizə aparması real lövhələrlə verilmişdir.

Romanda Əhmədağanın, oğlu Əkbərin və onun oğlu Əhədin timsalında bir ailənin faciəsi qabardılır. Məşrutəçilərə qoşulub Təbrizdə Məmmədəli şahın silahlı dəstələrilə mübarizə aparan Əhmədağa məğlub olsa da mübariz ruhu, inqilabi düşüncələri oğlunun dünyagörüşünə, həyat tərzinə işıq tutur. Bu işıqla yol alan Əkbər haqqını tələb edən, arzularını reallaşdırmaqdan çəkinməyən, qəlbindəki inqilab işığını hamıya paylamaqdan çəkinməyən bir gənc kimi formalaşır. Lakin dövrün acı reallıqları qəlbindəki işığı boğmağa hədəfləndiyi üçün məğlubiyyətdən başqa yol qalmır. Lakin Əhəd daha fərqli zamanda və fərqli mühitdə böyüyür. Onu qoruyan, həyatın çətinliklərindən müdafiə edən Qərəşi kimi ustadı olur. Əhəd mübarizəsində daha ardıcıl, daha açıq baxışlı formalaşır. Fikirlərində daha inamlıdır. Məqsədini, məramını daha yaxşı bilir.

Roman əsrin əvvəllərindən başlasa da əsərdə ikinci dünya müharibəsi dövrünün hadisələrinə işarələr var. Şimali Azərbycanda qurulan Sovet hakimiyyəti, üsul-idarəki yeniliklər güneylilərin marağına səbəb olur. Dövrün tələb etdiyi yeniliklərə münasibətlər Qərəşi-Səviyyə, Əhəd-Aida, Əkbər–Səfərxan xətlərində aydın görünür.

Fəhlə-sahibkar, kəndli-şəhərli məsələləri, kasıbların məruz qaldığı alçaldıcı münasibətlər, harınlamış ağaların zülmü təbii səhnələrlə canlandırılmışdır. Müəllif cəmiyyəti bürümüş bu naqisliyə Qərəşinin gözü ilə baxır, Qərəşinin dili ilə münasibət bildirir. Bunun ən yaxşı nümunəsi Qərəşinin üzvü olduğu cəmiyyət tərəfindən kəndlərdə baş vermiş özbaşınalıqları araşdırması üçün kəndlərə getməsi, çarəsizlərə köməklik göstərməsidir. Xırman üstündə təpiklə öldürülən kəndlinin məsələsini araşdıran Qərəşi həddən artıq acınacaqlı mənzərələr ilə qarşılaşır.

"Mənə bu dünyada dinclik yazılmayıb. Ömrüm boyu elə Nəzirin dərdini-bəlasını çəkdim, tək aəlimlə uşaq böyütdüm, axırı da ki, belə oldu. Mənə dinclik buyurmayıb qurbanı olduğum.

Bunu deyib Güllü daxmaya girdi. Paltarları tökülürdü. Qaranlıqda görünürdü ki, uşaqların və Güllünü əyinlərindəki plaratlara saf yer yoxdur. Elə bil küllükdən çıxmışdılar".(5, 276)

Romanda diqqət çəkən obrazlarından biri də Hacızadədir. Teatr sevdalısı olan Hacızadə dünyanın ədalətsizliyini, dövranın nankorluğunu qəbul edə bilmədiyi üçün səfil həyat keçirir, içkiyə qurşanır. Əmisi Kompani tərəfindən var-dövləti mənimsənilən Hacızadə dövrünün məşhur əsərlərindən, xüsusən də, "Aydın"dan, "Oqtay Eloğlu"dan monoloqlar söyləməklə teatra, sənətə sevgisini bəyan edir. O, vaxtilə Tiflisdə, Bakıda olduğundan teatr mədəniyyətini yaxşı dərk edirdi. "Atam göndərdi məni, dedi ki, oğul, sən bu səhnə işini çox sevirsən, get, Tiflisdə oxu, qayıdıb gələndə sənə bir teatr açdıraram, həm onun sahibi olarsan, həm də onun baş artisti. Tiflisdə, Bakıda nələr gördüm?! Hüseyn Cavidi, Cəfər Cabbarlını gördüm. Onların əsərləri ilə pərvazlandım. Elə başım qarışdı ki, atamı da yaddan çıxartdım". Təbii ki əhatəsində olan mədəni, inqilabi mühit onun dünyagörüşünü tamamilə dəyişir. Hacızadə Bakıdakı teatrı, oynanılan əsərləri, qoyulan ideyaları yaxşı dərk edirdi. Başa düşürdü ki, xalqını ayıltmağın vaxtı çartıb. "Çünki siz bir heçsiniz ki, məqsədiniz mənsəb, diliniz pul, işləriniz də, özgələrdən meymunlar kimi kobudcasına alınmış bir moda! Fəqət mühit irəliləyir. Çəkməz çox zaman ki, taleyi ilə oynadığınız bu zavallı xalq özü əməlpərvər gənclər, səmimi idealçılar, böyük qəhrəmanlar, mübarizlər yetirəcək, mühit sizi irəliləyəcək və gərəksiz əski parçaları kimi işıqlıqda qaranlıqlar, aydınlıqda kölgələr deyə, diri ikən tarixin arxivlərinə atacaqlar".(5, 321) Söhrab Tahirin Hacızadənin dili ilə Cəfər Cabbarlıdan gətirdiyi sitatlar heç də təsadüfi olmayıb vaxtilə teatrın, sənətin idelogiyanın inkişafındakı roluna diqqət yönəltmək daşıyıb.

Özlüyündə yüksək təbəqə hesab edilən xanların obrazını yaratmaqla müəllif xalqın vəziyyətini, onların hakim təbəqənin gözündəki dəyəri açıqlayır: "Səfərxan gülərək dedi: "Rəhmətlik oğlu, sən də elə bil anlamırsan ki, xalq nədi. Xalq dediyin bir naxır, bir sürü. Hara halayladın, oraya da gedəcək."

Əsərdə macəra ruhu güclüdür. Romanın əvvəlində Əhədin anasının getdiyini, bir qədər sonra isə Əhədə "şəklimi gətirənlərlə gedirəm" deyib yoxa çıxdığını, əsər boyu Əhədin anasının axtarışında olması hadisələrin həddən artıq uzanmasına və şaxələnməsinə səbəb olur. Romanda həmçinin əsrin əvvəllərində baş verən inqilabın təsiri qalmaqda olduğunu, qadınların kişilərlə bərabər hüquqlarını müdafiə etdiyini, öz düşüncələrini, istəklərini sərbəst şəkildə ifadə etmək hünərlərini ortaya qoyulur. Bu səbəbdən əsərdə xeyli qadın obrazları yaradılmışdır. Söhrab Tahir "İki dəfə yox olmuş adam" romanında cəfakeş Səhnə xala, gözəlliyi dillərə düşmüş Göyçək, həyatın zərbələrini alan, taleyinə boyun əyən Gülxar və yenilikçiliyi ilə seçilən, həyata fərqli baxışlarla baxan Səviyə kimi bir-birindən fərqli qadınlar yaratmışdır. Adət-ənənlərə sadiq, tək arzusu nəvəsini qorxusuz-hürküsüz boya-başa çatdırmaq olan Səhnə xala həyatın ən ağır sınaqlarındn keçsə də,

həyatını paylaşdığı Əhmədağanın sirli ölümü, sonradan oğlu Əkbərin müəmmalı həbsi onu həyata küsdürür. Müəllif Səhnə xala xarakteri ilə əsl milli Azərbaycan qadınının obrazını yaratmağa müvəffəq olmuşdur.

Lakin əsərdə daha fərqli yol seçən Gülxar və Göyçək xarakterləri var ki, seçdikləri yolun ağırlığını, faciəsini dərk etmədən, bir anlıq düşüncə, bir anlıq nifrətə yenilib addım atır, cıxılması mümkün olmayan bataqlığa sürüklənirlər. Uşağını nənəsinin himayəsinə qoyub yoxa çıxan Göyçəyin taleyi əsərin sonlarına doğru açılmağa başlayır, başına gələn macəralarda günahsız olması meydana çıxır. Belə məlum olur ki, çıxıb getməklə heç də həyatını xilas etmir, əksinə, daha böyük faciələr yaşayır.

"İki dəfə yox olmuş adam" romanında diqqətə çatdırılan məqamlardan biri də ana dili məsələsidir. Bir çox məsələlərə toxunulan əsərdə məktəbdə fars dilinin tədris olunmasına görə azərbaycanlı uşaqlarının çətinlik çəkmələri, ana dilinə olan laqeydlik, fars dilinin cəmiyyətdəki üstünlüyü kimi məsələlər də açıq-aydın təsvir edilir. Müasirlərindən fərqli olaraq məhz Qərəşi bu məsələni xüsusilə qabardır, istər uşaq, istərsə də böyük, hər bir insan üçün ana dilinin əhəmiyyətini, vacibliyini diqqətə çatdırır. "Ağa müdir, uşaq öz dilində oxusa yaxşı başa düşər dərsini, ya ona yad olan bir dildə?

-Əlbəttə, öz ana dilində oxusa yaxşıdır.

-Mən ərz eləmək istəyirəm ki, bir fars balasıyla bir azərbycanlı balası əgər bir sinifdə oturub eyni müəllimin dərsinə qulaq asırlarsa, bu uşaqların hansı müəllimin dediyini daha tez başa düşəcək?

-Əlbəttə, fars balası farsca deyilən dərsi daha tez başa düşməlidir.

-Mən, ağa müdir, onu ərz eləmək istəyirəm ki, əgər bir azərbaycanlı uşaq farsca deyilən bir dərsi yanında outran fars uşağından bir saniyənin yüzdə biri qədər gec başa düşsə o uşağın mənsub olduğu xalq bir ilin içində yüz il o birisindən geri qalacaq". (5, 253)

Romanda ənənəvi olaraq mənfi və müsbət qəhrəmanlar ordusu ilə rastlaşırıq. İnqilab, yenilik tərəfdarları Əkbər, Əhəd, Qərəşi, Mizani kimi şəxslərlə yanaşı qəddar, acgöz kimi təqdim olunan Səfərxan, xəsisliyilə ad çıxaran, mənafeyi üçün malından keçməyən Hacı Möhtəşəm ağa, pul xatirinə hər cür pisliyi edə bilən vəkil Mirzağa kimi mənfi xarakterıı qəhramanlar əsəri zənginləşdirməklə yanaşı romandakı konfliktin daha də dərinləşməsinə, təsvir olunan hadisələrin dramatikləşməsinə təsir edir. Əsərin ən mühüm tərəflərindən biri burada inqilabi ideyaların yayılma prosesi, mübarizə rüşeyminin inkişafı mərhələ-mərhələ ardıcıllığı ilə təsvir edilmişdir. Bu da təsadüfi deyildi. Özünün dediklərinə əsasən qeyd etməliyik ki, Söhrab Tahir hələ 20-ci illərdə, gənc yaşlarından Cənubda baş verən siyasi hərəkatda fəal iştirak etmiş, hərəkatın rəhbərliyi ilə şəxsi tanışlıqları olmuş, baş verən hadisələrə tam mənası ilə bələd olmuşdu. Odur ki, müəllif

təkcə eşitdiyi və məsələlərdən deyil, bilavasitə iştirakçısı və şahidi olduğu məqamlardan söz açırdı.

Söhrab Tahirin poeziyasında dahi Füzuli kədəri, M.Ə.Sabirin gülüş mədəniyyəti, Şəhriyarın Azərbaycan deyən dili yaşasa da, romanlarında A.Pənahinin, M.İbrahimovun, M.S.Ordubadinin tarixi əsərlərinin təsiri duyulur. Yüksək ideyalar, azadlıq, bərabərlik arzusu ilə çırpınan insanların həyat mübarizəsi oxucuya da təsirsiz ötüşmür, müəllifinin məqsədi, məramı oxucusunu da ruhlandırır, azad gələcək, güneyli quzeyli vahid Azərbaycanın var olma ehtimalına inamı artırır.

Ədəbiyyat

1. Abdullayev C.M. Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik). İki cilddə. II cild. Bakı. Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
2. Arzumanlı Vaqif. 75 yaşın pillələri. Bakı, Qartal, 2001, 336 s.
3. Gülayə. Boş qalan yerlərdən gözlərim qorxub: Söhrab Tahir yaradıcılığı haqqında // Kaspi. - 2014. - 11-13 oktyabr, № 166, S. 24
4. Xəlilzadə F. Yer üzünün gəzəri Savalan: Söhrab Tahir // Kaspi. - 2014. - 24 may, № 89, S. 17
5. Söhrab Tahir. İki dəfə yox olmuş adam. Bakı, Yazıçı, 1988, 379 s.

H.Rzaeva

Зохраб Тахир «Я пропал дважды»
Резюме

Сохраб Таир более известен, как поэт также автор прозаических произведений различного содержания.

В его прозы - рассказов, повестей и романах детально отражается трагедия страны. Идея романа "А не два раза была" была построена на желание свободы.

В романе на примере Акбара и его сына Ахада описываются трагедии одной семьи в годы революции. В произведении показаны оскорбительные отношения рабочих которые подвергаются сельско-городской проблеме.

Автор выражает свое отношение к этим проблемам охвативших общество с помощью Гараши. В романе было уделено особое внимание вопросу родного языка. В романе созданы женские образы разных характеров.

N.Rzayeva

Zohrab Tahir "I have disappeared twice"
Summary

Sohrab Tair is famous poet and also the author of prose works of various content. In his prose stories and novels, the tragedy of the country is reflected in details.

The idea of the novel "Not twice was" was built on the desire of freedom. In the novel, the example of Akbar and his son Ahad describes the tragedies of one family during the years of the revolution.

The work shows the offensive attitudes of workers who are exposed to the rural-urban problem.

The author expresses his attitude to these problems engulfing society with the help of Garashi. In the novel, special attention was concentrated on the question of the native language. In the novel, female images of different characters were created.

Rəyçi: Kamran Əliyev
Filologiya elmləri doktoru, professor

VUSALƏ XIDIROVA
(ADU)
Khidirovavusala@gmail.com

WHAT IS PARAPHRASING?

Açar sözlər: parafraz etmə, üsul, plaqiat
Ключевые слова: парафраз, метод, плагиат.
Key words: paraphrasing, methods, plagiarism.

Paraphrasing - presenting the ideas and information you have read in your own words - is an important academic skill. By translating content from your research into your own words, you demonstrate to your reader that you've understood and are able to convey this content.

Paraphrasing is a valuable skill because:

- it is better than quoting information from an undistinguished passage.
- it helps you control the temptation to quote too much.
- the mental process required for successful paraphrasing helps you to grasp the full meaning of the original.

It is important to be very thorough when you paraphrase. Paraphrasing is not simply taking what someone has written and changing a few words to make it your own. It is about translating another person's ideas into your own words and in reduced form. You must change the words a lot so they are no longer similar to the original. Even if you use an in-text reference to show where the idea came from, a lecturer may decide that what you have written is plagiarism if your wording is still too close to its source.

A paraphrase is a restatement of the meaning of a text or passage using other words. The term itself is derived via Latin paraphrasis from Greek- παράφρασις, meaning "additional manner of expression". The act of paraphrasing is also called "paraphrasis".

A paraphrase typically explains or clarifies the text that is being paraphrased. For example, "The signal was red" might be paraphrased as "The train was not allowed to pass because the signal was red". A paraphrase is usually introduced with verbum dicendi—a declaratory expression to signal the transition to the paraphrase. For example, in "The signal was red, that is, the train was not allowed to proceed," the that is signals the paraphrase that follows.

A paraphrase does not need to accompany a direct quotation, the paraphrase typically serves to put the source's statement into perspective or to clarify the context in which it appeared. A paraphrase is typically more detailed than a summary. One should add the source at the end of the

sentence, for example: When the light was red, trains could not go (Wikipedia).

Paraphrase may attempt to preserve the essential meaning of the material being paraphrased. Thus, the (intentional or otherwise) reinterpretation of a source to infer a meaning that is not explicitly evident in the source itself qualifies as "original research," and not as paraphrase.

Unlike a metaphrase, which represents a "formal equivalent" of the source, a paraphrase represents a "dynamic equivalent" thereof. While a metaphrase attempts to translate a text literally, a paraphrase conveys the essential thought expressed in a source text, if necessary, at the expense of literality. For details, see dynamic and formal equivalence.

The term is applied to the genre of Biblical paraphrases, which were the most widely circulated versions of the Bible available in medieval Europe. Here, the purpose was not to render an exact rendition of the meaning or the complete text, but to present material from the Bible in a version that was theologically orthodox and not subject to heretical interpretation, or, in most cases, to take from the Bible and present to a wide public material that was interesting, entertaining and spiritually meaningful, or, simply to abridge the text.

The phrase "in your own words" is often used within this context to imply that the writer has rewritten the text in their own writing style - how they would have written it if they had created the idea. Nowadays, there are some models to learn and recognize paraphrase on natural language texts.

When you write a paraphrase, you restate other's ideas in your own words. That is, you write the *meaning* of the author's ideas. You use some of the author's key terms, but you use many of your own words and sentence structures. You include in-text citation, including the author's last name and (for APA style) the year of publication.

An effective paraphrase includes *more than one* of the following techniques. If you use only one of these techniques when paraphrasing, you have not paraphrased effectively.

1.Change a word from one part of speech to another

Original: Medical professor John Swanson says that global changes are influencing the spread of disease.

Paraphrase: According to John Swanson, a professor of medicine, changes across the globe are causing diseases to spread (James, 2004).

2. Use synonyms

Original: The U.S. government declared that the AIDS crisis poses a national security threat. The announcement followed an intelligence report that found high rates of HIV infection could lead to widespread political destabilization.

Paraphrase: The government of the United States announced that AIDS could harm the nation's security. The government warned the population after an important governmental study concluded that political problems could result from large numbers of people infected with HIV (Snell, 2005).

3.Change numbers and percentages to different forms

Original: Minority groups in the United States have been hit hardest by the epidemic. African Americans, who make up 13 percent of the U.S. population, accounted for 46 percent of the AIDS cases diagnosed in 1998.

Paraphrase: The AIDS epidemic has mostly affected minorities in the United States. For example, in 1998, less than 15 percent of the total population was African, but almost half of the people diagnosed with AIDS in the United States that year were African America (Jenson, 2000).

4.Change word order: this might include changing from active to passive voice or moving modifiers to different positions.

Original: Angier (2001) reported that malaria kills more than one million people annually, the overwhelming majority of them children in sub-Saharan Africa.

Paraphrase: Every year, more than a million people are killed by malaria, and most of the victims are children who live in sub-Saharan Africa (Angier, 2001).

5. Use different definition structures

Original: Lyme disease is an inflammatory disease caused by a bacterium transmitted by ticks (small bloodsucking arachnids that attach themselves to larger animals). The disease is usually characterized by a rash followed by flu-like symptoms, including fever, joint pain, and headache.

Paraphrase: Lyme disease-a disease that causes swelling and redness-is caused by a bacterium carried by a small arachnid known as a tick. The ticks attach to and suck the blood of animals and humans, transferring some of the Lyme disease bacteria into their hosts and causing symptoms similar to the flu (Wald, 2005).

6. Change the sentence structure and use different connecting words

Original: Although only about one-tenth of the world’s population lives there, sub-Saharan Africa remains the hardest hit region, accounting for 72 percent of the people infected with HIV during 2000.

Paraphrase: Approximately 10 percent of the world’s population resides in sub-Saharan Africa. However, this area of the world has the highest percentage of AIDS-related illnesses. In fact, in 2000, almost three-fourths of the population had the HIV virus (Bunting, 2004).

7. Use different attribution signals

Original: “That’s because there are so many different ways the diseases could have arrived,” veterinarian Mark Walters declared in his recent book, Six Modern Plagues.

Paraphrase: According to Mark Walters, a veterinarian who wrote Six Modern Plagues, the disease could have arrived in numerous ways (Peterson, 2004).

8. Caution: When paraphrasing, do *not* change key terms or proper nouns.

Original: In the northeastern United States, people are building homes on the edge of woods, where ticks that carry Lyme disease hitch rides on deer. In addition, in Africa, hunters bring back the meat of animals that scientists think may transmit Ebola, a usually fatal disease that causes massive hemorrhaging in its victims.

Paraphrase: In the United States, residential areas are being built near wooded areas in the northeast. These areas are also the homes of ticks carrying Lyme disease. Also, according to scientists, hunters in Africa kill animals that may carry the Ebola virus (an often fatal virus that causes massive hemorrhaging) (Yaya, 2004).

We may provides many examples of paraphrasing in order to understand the difference between paraphrasing and plagiarism.

Here is an example of paraphrasing of a longer passage taken from the Duke website.

Original Passage:

In The Sopranos, the mob is besieged as much by inner infidelity as it is by the federal government. Early in the series, the greatest threat to Tony's Family is his own biological family. One of his closest associates turns witness for the FBI, his mother colludes with his uncle to contract a hit on Tony, and his kids click through Web sites that track the federal crackdown in Tony's gangland.

Paraphrased Passage:

In the first season of The Sopranos, Tony Soprano’s mobster activities are more threatened by members of his biological family than by agents of the federal government. This familial betrayal is multi-pronged. Tony’s closest friend and associate is an FBI informant, his mother and uncle are conspiring to have him killed, and his children are surfing the Web for information about his activities.

The main point of this passage is that problems within the family are as bad as or even worse than problems caused by the federal government. Details about this betrayal include one family member turning informant, a hit being put out on Tony by family members, and Tony’s kids tracking his activities.

Avoiding Plagiarism

There is a fine line between plagiarism and paraphrasing. If the wording of the paraphrase is too close to the wording of the original content, then it is plagiarism. The main ideas need to come through, but the wording has to be your own.

To use another person's writing in your own can be accomplished with quotes and citations. A quote will need to be the exact wording and the author and source will need to be identified.

Let's see one more example for comparison:

The original passage:

Students frequently overuse direct quotation in taking notes, and as a result they overuse quotations in the final [research] paper. Probably only about 10% of your final manuscript should appear as directly quoted matter. Therefore, you should strive to limit the amount of exact transcribing of source materials while taking notes. Lester, James D. Writing Research Papers. 2nd ed. (1976): 46-47.

A legitimate paraphrase:

In research papers students often quote excessively, failing to keep quoted material down to a desirable level. Since the problem usually originates during note taking, it is essential to minimize the material recorded verbatim (Lester 46-47).

A plagiarized version:

Students often use too many direct quotations when they take notes, resulting in too many of them in the final research paper. In fact, probably only about 10% of the final copy should consist of directly quoted material. So it is important to limit the amount of source material copied while taking notes.

In conclusion, by taking into consideration all the techniques mentioned by above written examples, we can paraphrase any articles by avoiding plagiarism.

Ədəbiyyat:

1. Nihal C., Cahide Ç., Vildan S. Read to Comprehend ,Write to React II .Ankara 2003.
2. Hirst,G. 2003 . Paraphrasing paraphrased . Invited talk at the ACl International Workshop on Paraphrasing , Sapporo.
3. http://www.phrasebank.manchester.ac.uk/referring-to-sources/

V.Xıdırova

Parafraz etmə nədir?

Xülasə

Akademik yazıda paraqraf, esse yazılışı ilə yanaşı yaz vərdişlərini inkişaf etdirən digər vasitələrdə vardır.

Yazı vərdişləri insana öz fikirlərini mənalı şəkildə ifadə etməyə komək edən vərdişlərdir. Yazı vərdişlərinin müxtəlif növləri var.Bunlardan biri də parafrazetmədir. Bu məqalədə parafrazetmədən bəhs olunur.

Parafrazetmə istənilən materialın məzmununu öz sözü ilə ifadə etmək deməkdir.Bu zaman materialın həcmi orijinalda oldugu kimi qalır.Parafrazetmənin müxtəlif üsulları var.

Məsələn: sinonimlərdən istifadə, söz sırasının və cümlə quruluşunun dəyişdirilməsi, plagiatdan yayınma.

Məqalədə qeyd olunan üsullar haqqında məlumat verilmişdir və nümunələr göstərilmişdir.Əgər bu üsullardan düzgün istifadə olunsa, istənilən materialı parafraz etmek olar.

В.Хидирова

Что такое парафраз?

Резюме

Письменные навыки – это навыки которые помогают человеку логически выразить свои мысли .

Письменные навыки делятся на множество типов.Одним из них является перефразирование. В этой статье рассматривается перефразирование . Перефразирование –это выражение содержания какого-либо материала своими словами.

В этом случае обьем перефразированного текста остается таким же как в оригинале. При перефразировании исползуются многие методы.

Например: использование синонимов, изменение структуры предложения и порядка слов, недопущение плагиата .

В этой статье рассматриваются все эти методы и приводятся примеры. Если исползовать эти методы в правильной форме , то можно ефективно перефразировать любой материал .

Rəyçi: Fəridə İsmayılova
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYGÜN QƏDİMLİ
ADPU
aygunqedimli@gmail.com

SALUR QAZANIN EVİNİN YAĞMALANMASI" BOYUNDA VƏTƏNPƏRVƏRLİK HİSLƏRİNİN FƏAL / İNTERAKTİV TƏLİM ÜSULLARI VASİTƏSİLƏ AŞILANMASI

Açar sözlər: Təhsil, proqram, fəal / interaktiv təlim, dərs, folklor, dastan, xalq, qəhrəmanlıq
Ключевые слова: образование, программа, активное/ интерактивное общиение, урок, фольклор, сага, люди, геройство
Key words: Education, program, active / interactive training, lesson, folklore, saga, nation, heroism

Müasir təhsilin qarşısında duran ən vacib məsələlərdən biri də bu gün məktəbdə tədris edilən fənlər vasitəsilə müstəqil düşüncəyə malik, üstün səviyyədə həyati bacarıqları olan və ən əsası da sağlam bir şəxsiyyət kimi formalaşmış cəmiyyət üzvləri yetişdirməkdir. Belə bir şəxsiyyət yetişdirə bilmək üçün təbii ki, müasir tələblərə uyğun olan təhsil proqramı qəbul edilməli idi.Məhz buna görə də bütün dünyada sürətlə yayılan və tətbiq olunduğu ölkələrin təhsilində yüksək nəticələr əldə edilən "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" sənədi 2010-cu ildə Azərbaycan təhsilində yeni bir sənəd kimi qəbul olundu.

Orta məktəbdə keçirilən bütün fənlər kimi ədəbiyyat fənninin də özünəməxsus əhəmiyyəti və keçirilmə üsulları vardır.Ədəbiyyat məktəb dərsliyinə daxil edildiyi gündən şagirdlərə həyatı bədii söz və ifadələr vasitəsilə təsvir edir, onlara lazım olan məlumatları əldə etmələri üçün yol göstərir.Ədəbiyyat daim inkişaf və yenilənmə yolundadır.Bununda ən əsas səbəbi ondadır ki, ədəbiyyat fənninin əsasını insan, onun həyatı və fəaliyyəti, daha sonra isə təbiət və digər varlıqlar əhatə edir.İnsan cəmiyyəti daim inkişaf edir, yenilənir və bu da insanla bağlı olan fənlərə də aiddir.Təhsil sənədində qəbul edilən yeni qayda ədəbiyyat fənninə də öz təsirini göstərdi.-Ədəbiyyat fənni də öz daxilində bir növ yeniləndi.Yeni icmal, plan və dərsliklər tərtib olundu.Məzmununda mühüm dəyişikliklər oldu.Yeni məzmun, forma və digər dəyişikliklər tezliklə təhsil alan uşaqlara öz müsbət nəticəsini yansıtdı.Artıq tədris prosesində şagirdlər yalnız dinləyici deyil həmçinin dərsin əsas, aparıcı üzvləridir.Ədəbiyyat müəllimi isə əvvəlki kimi bütün dərs boyu izahatlar verən, dərsi tək başına idarə edən deyil onun təşkilinə və uşaqların dərs prosesində göstərdikləri fəallığa diqqət yetirəndir.

Fəal interaktiv təlim bir çox xüsusiyyətlərinə görə ənənəvi təlimdən ciddi şəkildə fərqlənir.Fəal dərsin özünəməxsus təlim qanunları, prinsipləri, mərhələləri və qiymətləndirmə formaları vardır.Belə fərqliliklər təlim prosesini həm maraqlı, həm də elmi cəhətdən yüksək keyfiyyətli və məqsədyönümlü edir.Fəal interaktiv təlim üsulları ilə qurulan dərslər təbii ki, müxtəlif mərhələlərə bölünür.Müxtəlif metodik ədəbiyyatlarda fəal interaktiv təlimin müxtəlif iş üsulları göstərilmişdir.Məsələn, şaxələndirmə (klaster), venn diaqramı, BİBÖ, ziqzaq, karusel, sorğu vərəqləri, anlayışın çıxarılması, müsahibə, "qərarlar ağacı", mühazirə, kublaşdırma, Proqnozlaşdırılmış oxu- 1, Proqnozlaşdırılmış oxu- 2, inset və digərlərini aid edə bilərik.

Azərbaycan Respublikasında orta məktəblərdə tətbiq olunan yeni təhsil növünə yeni təlimə bir sıra əhəmiyyətli tələblər verilmişdir.Bu tələblər tərtib edilərkən diqqət yetirilən məsələlərə şagirdlərin dərs müddətində aktiv və dəqiq fəaliyyəti, dərsi keçən müəllimin səmimi və mehriban şəkildə sinifdəki şagirdlərlə əməkdaşlığı aid edilir.Dərs keçirilən sinifin daxilində şagirdlər qruplara bölünür, kiçik qruplar birlikdə nəticələrə doğru yola çıxır və bu yolda şagirdlərin əməkdaşlıq ən mühüm məsələlərdəndir.Müəllim dərs zamanı bəzən ani vəziyyətə uyğun şəkildə priomlardan istifadə edərək elmi-didaktik oyunlar vasitəsilə uşaqların dərsə diqqətini cəlb edir.Şagirdlər ənənəvi təlimdən kənara çıxaraq sinifdə qeyri-ənənəvi şəkildə yəni sərbəst yerləşdirilə bilər.Demək olar ki, fəal təlimin bir çox məsələlərinə metodik ədəbiyyatlarda xüsusi şəkildə diqqət ayrılır, bir-birindən fərqli xüsusiyyətləri göstərilir.Dərsin təşkilində bütün mərhələlərin mühüm əhəmiyyəti var.Lakin buda danılmaz faktdır ki, yeni dərsin özəyini motivasiya mərhələsi təşkil edir.Əgər motivasiya düzgün təşkil edilməzsə, demək olar ki, artıq o dərsdən gözlənilən nəticə əldə edilməz.Fəal interaktiv təlimüsulu ilə qurulan dərsdə müəllim tərəfindən planlaşdırılmış şəkildə problemli vəziyyət yaradılır və şagirdlər fəal şəkildə dərsə yönəlir.Fəal dərs və onun təşkilindən danışarkən görülə biləcək ən gözəl işlərdən biri də hər hansı bir mövzunu verərək onun üzərində tədqiqat aparmaqdır.

Tarix boyu Azərbaycan torpaqlarında yaranan yeni dövlətlərin hər birinin hakimiyyəti dövründə ədəbiyyat da yenilənir, mövzu və istiqamətcə dəyişirdi.Lakin yürüşlər və süqutlar nəticəsində təkcə torpaqlarımız parçalanmadı həmçinin mədəniyyətimiz, ədəbiyyatımız da inkişafdan qaldı,qələmə alınmadı hətta bir çox nümunələrimiz məhv oldu.Qarətçi yürüşlərdə mal-mülklə bərabər sənətkarlarımız da zorla öz el-obalarından aparıldı,sənət əsərlərimiz oğurlandı.Sonra isə həmin nümunələr müxtəlif muzeylərə verildi.Nəticədə,biz o möhtəşəm abidələrdən tamamilə məhrum olduq.Xarici işğallar,zülmlər bitdikdən sonra bu dəfə də daxili parçalanmalar başladı.Daxili parçalanmalar nəticəsində isə folklorumuzda da qruplaşmalar yarandı.Bu da ədəbiyyatımız üçün olduqca zərərli bir vəziyyət idi.

Azərbaycan şifahi xalq ədəbiyyatında folklor yaradıcılığı sintetik bir sənətdir.Sintetik xüsusiyyətlərə malik nümunələrdən biri də dastanlardır.Dastanlar özlərində həm lirik, həm də epik xüsusiyyətləri cəmləyir.Dastanlarda xalqın mübarizə etdiyi hadisələr,sevincli və kədərli günləri haqqında ətraflı və canlı boyalarla təsvir edilmiş məlumatlar verilir.Həm öz daxili düşmənləri şahlar,bəylər,xanlar, həm də xarici zalım işğalçılar göstərilir.Bütün bu məlumatlar yetişən yeni nəslin vətənpərvərlik, azadlıq, qəhrəmanlıq ruhunda yetişməsinə vasitə olur.Məktəb dərsliklərində verilən bu dastanlar vasitəsilə uşaqlar hələ kiçik yaşlarından haqqı nahaqdan, düzü səhvdən seçə bilirlər.Bu materialların dərsliklərə salınmasına səbəb həm düzgün tərbiyə, həm də ədəbiyyatımızla bərabər tariximizi də uşaqlara öyrətməkdir.

Müasir təhsil sistemində qəbul edilmiş qərara görə məktəblərdə dərslər fəal interaktiv təlim üsulu ilə keçirilir.Yeni təlim üsulu olan fəal təlim üsulundan danışarkan dərs nümunəsinə nəzər salmaq daha yaxşı olar. Məsələn, orta məktəbdə keçirilən dərslərdən biri də " Salur Qazanın evinin yağmalanması" boyudur.

Mövzu: "Salur Qazanın evinin yağmalanması" boyunun məzmunu üzərində iş

Standartlar: 1.1.2; 1.1.3; 2.1.2; 2.2.1; 3.1.1

Inteqrasiya: Azərbaycan dili 2.2.1; 2.2.3

Iş forması: Böyük və kiçik qruplarda iş

Texnikalar: Fasiləli oxu, müsahibə, müzakirə, venn diaqramı

Resurslar: dərslik, proyektor, kompüter, "Kitabi-Dədə Qorqud" kinofilmindən kiçik bir fraqman, iş vərəqləri

Motivasiya: Proyektor vasitəsilə "Kitabi-Dədə Qorqud" kinofilmindən qəhrəmanlıq səhnədən kiçik bir hissə verilir.Uşaqlara ilk öncə "Bu parçanı bəyəndinizmi?" sualı verilir. Daha sonra bu fraqmentdə ifadə olunan fikrə necə münasibət bəsləyirsiniz? və mümkün olduğu qədər fikirlərinizi əsaslandırın.

Tədqiqat sualı:1. "Salur Qazanın evinin yağmalanması" boyunda nələrdən söhbət açılır?

2.Əsəri hansı hissələrə bölmək və ifadəli oxumaq olar?

2.Tədqiqat aparılır

Sinif 3 qrupa bölünür.Qruplara ad verilir və hər birindən lider seçilir.İş vərəqləri paylanır.Verilən dərsin həcmi böyük olduqda 1 dərs saatına sığmır.Dərs hissələrə bölünür, oxunacaq hissə əvvəlcədən müəyyənləşdirilir.Müəllim özü sinfin səviyyəsinə uyğun oxunacaq hissənin həcmini müəyyən edir.Həmin hissə oxunduqdan sonra kiçik qruplar onlara verilən suallara cavab hazırlayırlar.

I iş vərəqi-"Dədə Qorqud"qrupunun sualı və cavabı:

Tapşırıq:”Salur Qazanın evinin yağmalanması” boyunu ifadəli oxuyun və qısa bir plan tərtib edin?

Cavab: 1.Salur Qazanın ova getməsi

2. Qazan xanın yuxusu və sonra el-obasının talan olduğunu öyrənməsi

3.Qaraca Çobanın vəfası

4.Qazan xanın düşmən üzərində qələbəsi

II iş vərəqi-“Qazan xan” qrupunun sualı və cavabı:

Tapşırıq: Qaraca Çobanın Qazan xana olan münasibətini necə qiymətləndirirsiniz?

Cavab: Oğuz elindən olan hər kəs kimi oda, öz mərdliyi və cəsurluğu ilə yadda qalan obrazlardandır.Lakin onu sevdirən ən əsas cəhətlərdən də biri Qazan xana olan sədaqəti və yoldaşlığıdır.

III iş vərəqi-“Qaraca Çoban” qrupunun sualı və cavabı:

Tapşırıq:Boyda öz əksini tapan əsas ideya nə idi?

Cavab: “Salur Qazanın evinin yağmalanması” boyunda öz əksini əsas ideya vətənpərvərlikdir.Daha sonra dostluqda sədaqət, övladın anaya sevgisi, oğlun qorxmazlığı, həyat yoldaşının vəfalılığı da əsərdə öz əksini tapmış mühüm məsələlərdəndir.

3.Məlumat mübadiləsi

Verilmiş vaxt tamam olduqdan sonra qruplar öz işlərini təqdim edir, informasiya mübadiləsi başlayır.

4.Məlumatın müzakirəsi və təhlili

Bütün qruplar verilən cavablara xüsusi bir şəkildə öz bildiklərini əlavə edirlər.Müəllimin köməyi ilə şagirdlər dərslə bağlı qaranlıq məqamları aydınlaşdırırlar.

5.Nəticənin çıxarılması və ümumiləşdirilməsi

Müəllim şagirdlərə üz tutaraq bildirir ki, dərsin əvvəlində bildikləri məlumatlarla dərsin sonunda əldə etdikləri yekun məlumatları bir-biri ilə müqayisə etsinlər.Beləliklə də, nələrin yeni məlumat olduğunu göstərsinlər.

Ümumilikdə bütün qrupların cavabları qane edicidir.Əsəri məzmununu ifadəli oxumaqla, məzmununu nağıl etməklə onların şifahi nitqi inkişaf edir və fikirlərini aydın şəkildə ifadə edə bilirlər.Müzakirədə qruplar halında iştirak nəticəsində ümumi fikrə gəlmək qabiliyyətləri formalaşır.

6.Yaradıcı tətbiqetmə

Venn diaqramı vasitəsilə şagirdlər daha öncə öyrəndikləri mövzularla bu gün öyrəndikləri mövzunu müqayisə edir, oxşar və fərqli cəhətlərini göstərirlər.Daha sonra isə onlar üçün hazırlanmış mövzu ilə bağlı sualları cavablandırırlar.

7.Qiymətləndirmə

Xüsusi meyarlar əsasında cədvəl qurulur. Şagirdlərin bilik və bacarıqları bu meyarlar əsasında qiymətləndirilir.

I.İfadəli oxu və planın qurulmasına görə
II.Şagirdlərin gəldikləri ümumi fikirlərə görə
III.Əsərin ideyasının dərk edilməsinə görə
IV.Nizam-intizama görə
Ev tapşırığı.
Mövzuya uygun esse yazılır.

Beləliklə də,qruplarla iş şagirdlərin hər birinin sərbəst şəkildə öz fikirlərini ifadə etmələrinə kömək edir.Müəllim artıq hər bir şagirdin şəxsi fikirlərini dinləyir və onlara xüsusi əhəmiyyət verir.Şagirdlər oxuduqları əsərləri dərsdə tam şəkildə qavrayır və oradakı obrazları özlərinə nümunə götürürlər.Təhsilin qarşısında duran ən mühüm məsələ də, keçirilən dərslər nəticəsində cəmiyyət üçün yararlı və vətənə, millətə xüsusi dəyər verən vətəndaşlar yetişdirməkdir.

Ədəbiyyat siyahısı

1.Fəxrəddin Yusifov "Ədəbiyyatın tədrisi metodikası" Bakı 2014
2.Bilal Həsənli "Ədəbiyyatın tədrisi metodikası" Bakı 2012
3.Zülfiyyə Veysova "Fəal interaktiv təlim" Bakı 2015
4.Camal Əhmədov "Ədəbiyyatın tədrisi metodikası" Bakı 1991
5.Aydın Hacıyev "Azərbaycan ədəbiyyatının tədrisi metodikası" Bakı 2003

А.Гадимли

В епизоде где грабит дом Салур Газана прививается чувство патриотизма при помощи активно-интерактивного метода обучения

Резюме

Резюме: В современной системе образования предметы преподаются при помощи интерактивного стиля. Среди предметов литература занимает особое место. При преподавании урока литературы учитель должен пользоваться новыми технологиями преподавания а также использоватб новые ресурсы. Уроки должен соответствовать стандартам, а также все этапы должны проходится в нужном порядке, в то время как все этапы должны соблюдаться. В момент активно -интерактивного обучения каждый этап должен выбираться в соответствии с возрастом и психологическими характеристиками ученика. Самым важным в

активно интерактивном методе является формулирование ученика как личность. Именно поэтому методы обучения мирового класса должны быть использованы в обязательном порядке. Самая важная характеристика активно - интерактивного метода обучения это то что оно призывает к мышлению. Они занимаются поиском и знакомятся с уроками при помощи новых методов исследования. В результате логическое мышление и речь студентов развивается. Развитие письменной речи особенно для уроков литературы является важным фактором. В результате обмена информации устная речь развивается.

A.Gadimli

In the part of poem the plunder of Salur Qazan's home, teaching of the feelings of patriotism with active / interactive training methods

Sammary

Summary: İn modern education system subjects are teaching with a help of interactive style. Among the subjects literature takes a special place. Teacher should use s new teaching technology as well as using resources in teaching process. Lessons should be in line with standards , with a sequence , and all stages must be followed. In actively interactive learning each stage should be selected in accordance with the age and psychological characteristics of the student. The most important in actively interactive method is the formation of the student as an individual.Therefore world - class training methods should be mandatory used. The most important characteristics of actively- interactive method of teaching is that it is provoking thingking.They search and learn the lesson through new research methods. Consequently logical thinking and speech are improving. Written speech is considered as a very important factor especially in literature classes. As a result of information exchange oral speech is improving.

Rəyçi: Cəmilə Məhərrəmova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SAMİRƏ ABDULLAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
samiraabdullayeva1993@gmail.com

FƏAL-İNTERAKTİV TƏLİMIN NƏZƏRİ MƏSƏLƏLƏRİ

Açar sözlər: fəal təlim, ənənəvi təlim, təlim texnologiyaları, interaktivlik, şagird, motivasiya, dərs.
Key words: active training, traditional training, technology of training, interactivity, pupil, motivation, lesson.
Ключевые слова: активное учение, традиционное учение, технологии учения, интерактивность, ученик, мотивация, урок.

Müasir dövrümüzdə interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları kimi anlayışlara tez-tez rast gəlirik. Fəal təlimin metod və texnologiyalarının təbliğ olunması, müəllimlər arasında yayılması ilə əlaqədar çoxlu sayda seminarlar, müzakirələr, layihələr keçirilir. Bəs, fəal təlimə bu qədər can atılmasına səbəb nədir? İlk olaraq onu qeyd edim ki, bu metodla keçirilən dərslərdə bütün sinfin fəallığına nail olmaq mümkündür. Burada öyrədən və öyrənən eyni hüquqlara malikdir. Müəllim-öyrədən təşkilatçı, məsləhətçi, fasilitator, koordinator vəzifəsini yerinə yetirir. Onun əsas funksiyası şagirdlərin işlərinə müdaxilə etmədən problem qoymaq, istiqamət vermək, nəzarət etməkdir. Lakin problemin həllini şagirdlər öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyib tapırlar. Belə ki, hər şagirdin öz ideyası, fikri olur. Əldə etdikləri məlumatların mübadiləsi zamanı onların fikirləri dəyişir, yeni-yeni ideyaları yaranır. Müəllim şagirdlərin fikirlərinə hörmətlə yanaşmalı, onların müstəqil düşünmə bacarığının formalaşmasına yardımcı olmalıdır. Bu təlimin mərhələlərindən biri olan müzakirə zamanı sinfin fəallığı daha da artır. Kiçik qruplarda və kollektivdə informasiyanın müzakirəsi həyata keçirilərkən onlar bir-birlərini dinləməyi, yoldaşlarının fikirlərinə hörmətlə yanaşmağı və fərqli fikirlərə dözümlülük göstərməyi öyrənirlər. Bununla da şagirdlər arasında qarşılıqlı təsir və əməkdaşlıq yaranır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, şagirdləri inkişaf etdirmək üçün fəal/interaktiv təlim geniş imkanlara malikdir. Bu metodla keçirilən dərslərdə şagirdlər biliklərə müstəqil şəkildə yiyələnirlər və ən əsası həyatda öz məqsədlərinə çatmaq üçün bu biliklərdən istifadə edə bilirlər. Fəal/interaktiv təlimin başlıca məqsədi dərsdə şagirdlərin fəallığına nail olmaq, bilikləri əldə edərkən şagirdlərin daha çox müstəqillik göstərmələrinə şərait yaratmaqdır. Fəal/interaktiv təlim ənənəvi təlimi inkar etmir. Fəal/interaktiv təlim, bəzilərinin düşündüyü kimi, təlimin yeni növü (tipi) deyildir. Onun əsasında yaşlı nəslə 1970-ci illərdən məlum olan problemli təlim dayanır. Bu yeni

yanaşmanın məğzini "təlimdə fəallıq(interaktivlik)" kimi başa düşmək lazımdır. Yəni, məqsəd təlim mahiyyətində fəallaşdırıcı mövqeyin aparıcı olduğunu ifadə etməkdir [3;12]. Obyektiv fikir budur ki, ənənəvi təlimdəki uğurlu nəticələr müasir baxış müstəvisində yeniləşdirilərək məktəbə gətirilsin, yeni təlim texnologiyaları ilə uzlaşdırılsın . Elə dərslər var ki, onların tədrisində ənənəvi təlimdən istifadə daha məqsədə uyğundur [2;57-58]. Buna görə də fəal/interaktiv metodlar müasir dövrümüz üçün nə qədər aktual olsa da, əsas məsələ dərsdə hansı metodun tətbiqinin daha faydalı olduğunu müəyyənləşdirməkdir. İnteraktiv təlim metodlarından həmişə istifadə etmək onun təsirini azalda bilər. Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir [1; 81]. Yeni təlim texnologiyalarından məqsədli şəkildə istifadə, fəal/ interaktiv metodların düzgün seçilməsi və tədris zamanı onların tətbiqi kurikulum üzrə keçirilən dərslərdə mühüm tələb kimi qarşıya qoyulmuşdur.Bu metodla keçirilən dərslərdə müəllim özünün fəallığı ilə şagirdi yaradıcı fəallığa cəlb edir. Şagird aktiv fəallıq göstərir. Müəllim şagirdlərlə, şagirdlər isə bir-biri ilə sıx əməkdaşlıq edirlər. Dərsin maraqlı qurulması üçün müəllim hərəkətli, süjetli, musiqili didaktik rollu oyunlardan istifadə edə bilər. Müəllimin istifadə etdiyi material şagirdin yaradıcı təfəkkürünü inkişaf etdirməli və onda milli düşüncə tərzinin formalaşmasına təsir etməlidir. Müasir təlim texnologiyaları şagirdlərə bir çox keyfiyyətlər aşılayır. Bura şagirdlərin müstəqil düşünməsi, öz fikirlərini sərbəst şəkildə söyləyə bilməsi, onlarda təhlil etmək qabiliyyətinin inkişafı, özünü qiymətləndirmə bacarığı, əməkdaşlıq etmək, dərs boyu yoldaşlarını dinləyib onların fikirlərinə hörmət etmək və dözümlü olmaq, öz fikirlərini elmi əsaslarla sübut edə bilmək, yaradıcı olmaq, düzgün qərar çıxarmaq və s. daxildir. Fəal/interaktiv metodla qurulan dərslərdə təlimin həm təhsilləndirici, həm inkişafetdirici, həm də tərbiyələndirici funksiyalarını həyata keçirə bilmək daha asandır. Bu funksiyaların yerinə yetirilməsi isə təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Fəal\interaktiv təlimlə aparılan dərsdə müəllim və şagird subyekt-subyekt xarakterini daşıyır. Müəllim tərəfindən problem situasiyası yaradılır və şagirdlər problemin həlli üçün fəal tədqiqatçı kimi fəaliyyət göstərirlər. Düşündürücü və istiqamətləndirici suallar vasitəsi ilə şagirdlərin yeni bilikləri müstəqil əldə etmələrinə şərait yaradılır. Təlimin səmərəli qurulması üçün şagirdlərin idrak fəallığının təmin edilməsi çox vacibdir və bu, fəal/ interaktiv təlimdə ən vacib amildir. Təlimin səmərəliliyi dedikdə, daha qısa müddətdə daha çox informasiyanı mənimsətmək imkanı başa düşülür. Dərsdə şagirdlərin təfəkkürünə əsaslanaraq onlarda bilikləri müstəqil, yaradıcı və məhsuldar şəkildə qazanmasına çalışmaq lazımdır. Şagirdlərin idrak fəallığının yaradılması kimi, onun təlimin bütün mərhələlərində saxlanması, davamlı

olması da çox vacib bir məsələdir. Tədqiqatlarda bunun üçün "psixoloji mexanizmlər" göstərilir. Bu mexanizmləri biz "didaktik tələblər" adlandıracağıq. Onlar aşağıdakılardır: problemli vəziyyətin yaradılması; dialoqun və əməkdaşlığın zəruriliyi; şagird-tədqiqatçı, müəllim-bələdçi; psixoloji dəstək; hörmət və etibar [3;13]. Problemli vəziyyəti yaratmaq üçün müxtəlif yollar vardır. Müəllim şagirdlər üçün çətin vəziyyət yaradır, ziddiyətə düşən şagird düşünməyə başlayır, əqli fəallığı güclənir və bu da onu fəaliyyətə, axtarışlara cəlb edir. Şagirdlərin mövcud bilik və bacarıqlarına istinad edən müəllim onlarda yeni biliyin öyrənilməsinə "mənəvi aclıq" (professor Bəşir Əhmədov) yaradır [3;13]. Fəal/interaktiv təlimin üstün cəhətlərindən biri də onun əməkdaşlığa əhəmiyyətli yer verməsidir. Burada əməkdaşlıq özünü müxtəlif cür göstərir. Məsələn, şagird- müəllim əməkdaşlığı, şagird-şagird əməkdaşlığı və s. Dərs boyu araşdırılacaq problemin səmərəli həlli əsas şagirdlərin özlərinin əməşdaşlığı, dialoqu şəraitində baş verir. Şagirdlərin tədqiqatçı, müəllimin bələdçilik funksiyası fəal\interaktiv təlimi ənənəvi təlimdən fərqləndirən əsas cəhətlərdən biridir. Şagird təlim prosesində əsas qüvvədir. O, kəşf edəndir. Şagird obyekt deyil, fəal/interaktiv təlimdə subyektdir. Müəllimin funksiyası da fərqlidir. Onun rolu ənənəvi təlimdən əsaslı şəkildə fərqlənir. Şagirdin fəallaşması üçün ilk növbədə, onun bir şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi çox vacibdir. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim tərəfindən şagirdə şəxsiyyət kimi yanaşılmalı və ona hörmət əsasında münasibət göstərilməlidir [6; 9]. O, bələdçidir, yol göstərəndir. Müəllim istiqamət verir, şagirdi əsas problemin həllinə yönəldir, ona öyrənməyi öyrədir. Şagirdlərin idraki fəallığını yaratmaq və onun davamlılığına nail olmaqda psixoloji dəstək vacib tələblərdən sayılır. Yəni, müəllim şagirdlər arasında fərq qoymamalıdır. Hər bir şagirdin çalışmaq cəhdini qiymətləndirməli, dəyərəndirməlidir. Zəif oxuyan şagirdlərlə yaxşı oxuyanları fərqləndirməməli, onları yerli-yersiz acılamamalıdır və ya qorxutmamalıdır. Dərsdə şagird müstəqil olmalıdır. O, öz fikrini söyləməkdən çəkinməməlidir. Şagirdin fikrinə müəllim hörmətlə yanaşmalıdır. O, heç bir şagirddən qayğısını əsirgəməməlidir. Müəllim nə qədər isti münasibətli, mehriban, qayğıkeş, diqqətli olarsa, şagirdin həm özünə, həm müəllimə inamı artar və ona etibar hissi möhkəmlənər. Müəllimdə ciddi ixtisas-peşəkarlıq hazırlığı və təcrübəsi, təşəbbüskarlıq və yaradıcılıq, demokratiklik və humanizm keyfiyyətləri olmalıdır [1;121]. Fəal/interaktiv təlim ənənəvi təlimdən çox fərqlənir. Əgər ənənəvi təlimdə əsas məsələ bilik və bacarıqların öyrədilməsinə əsaslanır, tərbiyə və inkişaf çox vaxt müəllimin rəhbərliyindən kənar həyata keçirilirdisə, fəal/interaktiv təlimdə əsas məsələ şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir. Ənənəvi təlimdə müəllimin əsas funksiyası şagirdləri müəyyən biliklərlə məlumatlandırmaq və həmin bilikləri onlara mənimsətmək idisə,

fəal\interaktiv təlimdə müəllim şagirdlərin məsləhətçisi, köməkçisidir. O, ilk növbədə şagirdlərin idrak fəallığını təmin etməlidir. Ənənəvi təlimdə subyekt-obyekt əlaqəsi qurulurdusa, fəal/interaktiv təlimdə subyekt-subyekt əlaqəsi qurulur. Müəllimlə şagird arasında avtoritar üslub deyil, əməkdaşlıq, şagirdlərin axtarışlarına, fəaliyyətinə, tədqiqatçılığına böyük diqqət özünü göstərir. Ənənəvi təlimdə müəllim bütün funksiyaları özündə saxlayır, fəal\interaktiv təlimdə isə müəllim öz funksiyalarının bir hissəsini şagirdlərə verir və.s. Fəal/interaktiv təlimlə ənənəvi təlim arasındakı fərqlər özünü dərsin quruluşunda da göstərir. Belə ki, bu dərslərin mərhələləri bir-birindən əsaslı şəkildə fərqlənirlər. Ənənəvi dərsin mərhələlərinə nəzər salaq: sinfin təşkili; keçmiş mövzunun soruşulmas; keçmiş mövzu ilə yeni mövzu arasında əlaqənin yaradılması; yeni mövzunun öyrədilməsi; yeni mövzunun möhkəmləndirilməsi; ev tapşırığının verilməsi. Fəal dərsin mərhələrinə nəzər salaq: sinfin təşkili; keçmiş mövzunun soruşulması; motivasiya, problemin qoyuluşu; tədqiqatın aparılması; informasiya mübadiləsi; informasiya müzakirəsi və təşkili; nəticə; ümumiləşdirmə; yaradıcı tətbiqetmə; qiymətləndirmə və refleksiya; ev tapşırığının verilməsi. Fəal/interaktiv dərsin mərhələləri arasında motivasiyanın düzgün qurulması çox əhəmiyyətlidir. Motivasiya psixoloji amil kimi hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Motivasiyada ortaya qoyulan problem və onun həlli şagirdlərin təfəkkürünü işləməyə sövq edir və onların idrak fəallığını artıran amil kimi çıxış edir [6;18]. Motivasiyanı düzgün qura bilmək üçün nələri bilmək lazımdır? Bu barədə çoxlu fikirlər vardır. Z.Veysova motivasiyanın yaradılması yollarını üç qrupa bölmüşdür. Rəmzi (simvolik) materiallardan istifadə, suallardan istifadə, problemin müxtəlif yollarla həll edilməsi. Motivasiya mərhələsi həmçinin təlim prosesində psixoloji, emosional və işgüzar mühitin yaranmasına imkan yaradır [5; 43]. Bu mərhələdə fərziyyələr irəli sürülür və onların doğruluğunun yoxlanması lazım gəlir. Bu da tədqiqat sualını formalaşdırmağı tələb edir. Sualın həlli üçün müxtəlif çalışmalar, tapşırıqlar hazırlanır. Bu mərhələ tədqiqatın aparılması adlanır. Tədqiqat bütün siniflə birgə, kiçik qruplarla, cütlərlə və fərdi şəkildə aparıla bilər. Şagirdlər bu mərhələdən sonra əldə etdikləri yeni informasiyanın mübadiləsini aparırlar. Onlar bir-birlərinin təqdimatlarını dinləyirlər. Şagirdlərin əldə etdikləri məlumatlar hələki natamam olur. Həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək üçün yeni bir mərhələ başlayır. Bu mərhələ məlumatın müzakirəsi və təşkili adlanır. Müəllimin yönəldici sualları ilə əldə edilmiş faktların məqsədyönlü müzakirəsi və onların təşkili aparılır. Sonda nəticəyə gəlirlər və yaradıcı tətbiqetmə nəticəsində əldə etdikləri bilikləri daha da möhkəmləndirirlər.

Fəal/interaktiv dərslə müqayisədə ənənəvi dərsin keçilməsi çox asandır. Ənənəvi təlimdə müəllim yükü öz üzərinə götürür. O, öz nitqi ilə

şagirdləri cəlb etməyə çalışır və onu düşündürən özünün hazırlığıdır. Fəal/ interaktiv dərs isə müəllimdən ağır zəhmət tələb edir. Müəllim dərsə xüsusi hazırlaşmalıdır. O, yüksək metodik hazırlığa, dərin biliyə, yaradıcı fantaziyaya malik olmalıdır. Bu dərsin hər mərhələsi zərgər dəqiqliyi ilə çalışmağı, ölçüb-biçməyi , hazırlıq işləri aparmağı mühüm vəzifə kimi qarşıya qoyur [3;33-34]. Deməli, fəal/interaktiv təlim müəllimdən hər şeydən qabaq yaradıcılıq tələb edir. Dərs ən xırda incəliklərinə qədər düşünülüb təhlil edilməlidir. Müəllim qabaqcadan dərsə hazırlaşmalıdır.Yalnız bir üsulu deyil, müxtəlif üsulları tətbiq edə biləcəyini düşünməlidir. Çünki sabahkı dərs müəllimin düşündüyü situasiyada baş verməyə də bilər. Dərsin səmərəli təşkili iki mühüm şərtin mövcud olmasını tələb edir. Bunlardan birincisi dərsin planlaşdırılması, ikincisi isə bələdçilik fəaliyyətini müəllimin həyata keçirməsi bacarığıdır [3;34]. Planlaşdırma zamanı müəllim dörd əsas suala cavab verməlidir: Nə öyrədilməli?, necə öyrədilməli?, hansı şəraitdə öyrədilməli?, nəticələri necə qiymətləndirmək olar?.

Bu suallara uyğun olaraq fəal/interaktiv təlim aşağıdakı təlim modelini təklif edir:

1.Təlimin məzmunu 2.Təlimin metodları 3.Öyrədici mühit 4.Qiymət-ləndirmə

Dərsin uğurlu qurulması üçün bu komponentlərin hər biri düzgün seçilməli və onlar arasındakı qarşılıqlı əlaqə təmin edilməlidir. Təlim prosesinin uğurlu qurulması üçün müəllim dərsin mövzusundan çıxış edərək məqsədləri müəyyənləşdirir. Ənənəvi təlimdə başlıca olaraq öyrədici məqsəd əsas götürülürdü. Fəal/interaktiv təlimdə isə məqsədlər-öyrədici, tərbiyəedici, inkişafetdirici olmaqla üç sahə üzrə göstərilir [3;41]. Məqsədlər aydınlaşdırıldıqdan sonra dərsin növü müəyyən edilir. Dərsin məqsədindən asılı olaraq o, induktiv və ya deduktiv ola bilər. İnduktiv dərs yeni mövzu öyrədilərkən tətbiq edilir, deduktiv dərsdən isə keçilmişlərin təkrarında, yaxud biliklərin möhkəmləndirilməsi zamanı istifadə olunur. Yeni təlim metodlarından istifadə müəllimə imkan verir ki, şagirdlərlə daha səmərəli işləsin və onların intellektual potensialını maksimum aşkara çıxarsın. Bu isə müəllimin özündən yüksək fəallıq tələb edir. Müəllimin fəallığı isə şagirdlərdə yaradılan fəallıqda təcəssüm edir. Hər bir qrupda yaradılan bu fəallıq onlar arasında çox gözəl ünsiyyət əməkdaşlığının meydana gəlməsinə kömək edir [4;36].

Ədəbiyyat

1. Ağayev Ə. “ Təlim prosesi: Ənənə və müasirlik”. Bakı, 2006
2. Aslanov Y. “Ədəbiyyat tədrisi:Ənənə və müasirlik”. Bakı, 2011
3. Hüseynoğlu S. “Ədəbiyyat dərslərində yeni texnologiyalar:fəal/interaktiv təlim”. Bakı, 2009.

4. Paşayev A. “Azərbaycan dili və ədəbiyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi imkanları”. Bakı, 2005
5.Yusifov F. “ Ədəbiyyatın tədrisi metodikası”. Bakı, 2008
6. Veysova Z. “Fəal/interaktiv təlim: müəllim üçün vəsait”. Bakı , 2007

S.Abdullayeva

The training of active\interactive theoretical proposition

Summary

An information was given about the active/interactive training in the article. The main aspects of this training were made note and paid attention to the specific features. The different aspects between active training and traditional training were noted. There was talked about the role of teachers and pupils in the active/interactive training. There were made note the wide opportunities of this training which was given in educational process. The function of the teacher was shown in the active\ interactive lessons. In the article in active\interactive training was talked about the collaboration which importantly placed. The importance of the approaching to the pupils like personality was talked about too. The main components of active\interactive training was mentioned.

С.Абдуллаева

Теоретические задачи активного/интерактивного учения

Резюме

В статье дана информация об активном/интерактивном учении. Указаны важные особенности этого учения, так же дано внимание его специфическим свойствам. Обсуждаются разные особенности между активным и традиционным учениеми. Подчеркнута ролъ между учениками и учителями в активом/интерактивном учении. Указаны широкие возможности этого учения в процессе обучения. Была показана функция учителя в активном/интерактивном уроке. В этой статье говоритъся о важности сотрудничества в активом/интерактивном обучении. Также рассказывается о важности отношения к ученикам как к личности. Отмечены основные компоненты активного/интерактивного урока.

Rəyçi: Füzuli Əsgərli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİNC BAĞIROVA
ADİU
sevins.@.mai.ru.

RUS ALİM VƏ TƏDQİQATÇILARIN,ƏDƏBİYYATŞÜNASLARIN İSLAM DİNİ HAQQINDA FİKİRLƏRI, RƏY VƏ MÜLAHİZƏLƏRİ

Açar sözlər:islam,Rusiya,ədəbiyyat,alim,tədqiqatçı,rəy,mülahizə
Ключевые слова:Россия,ислам,литература,учёный,исследователь
Key words:islam,Russia,literature,scientist,opinion,investigator

Vyaçeslav Serqeyeviç Polosin 1956-cı ilin iyun ayının 26-da Moskva şəhərində dünyaya gəlmişdir. Milliyyətcə rusdur. Fəlsəfə elmləri üzrə doktor və politologiya üzrə isə namizəddir.

1978-ci ildə Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini "sosiologiya" ixtisası üzrə bitirmişdir. Diplomu: "Maks Veberin "kapitalizmin ruhu" konsepsiyasının tənqidi" olmuşdur.

1980-ci ildə pravoslav kilsəsində qiraətçi kimi işə başlamış, 1983-cü ildə isə Moskva Ruhani seminariyasını bitirmişdir. 1983-1985 illər arası Orta Asiyada keşiş kimi fəaliyyət göstərərək, Düşənbə şəhərindəki kilsələrin birində baş keşiş vəzifəsini icra etmişdir. 1985-ci ildən 1988-ci ilə kimi Rus Pravoslav kilsəsinin nəşriyyat şöbəsinin ştatdankənar əməkdaşı olmuşdur.

1988-ci ildən 1991-ci ilə kimi Kaluqa vilayətinin Obninsk şəhərindəki kilsədə protoierey (baş keşişi) vəzifəsində çalışmışdır. 1996-cı ildən isə kilsədə rəsmi fəaliyyətini dayandırmışdır

1990-1993-cü illər arası Kaluqa vilayətindən RSFSR-in (RF) xalq deputatı seçilçmiş, Rusiya Federasiyasının (RF) Ali Sovetinin üzvü, RF-nin Ali Sovetinin rəyasət heyətinin üzvü, RF-nin Ali Sovetinin vicdan, din azadlıqları, mərhəmət və xeyriyyəçilik Komitəsinin sədri olmuşdur. Rusiya Federasiyasının "Dini etiqad azadlığı" və "Vicdan azadlığı və dini qurumlar" haqqında qanunlarının və onlara edilən düzəlişlərin həmmüəllifidir. 1991-ci ildə Rusiya Federasiyasının Prezidentinin inaqurasiya mərasimini işləyib hazırlayanlardan biridir. 1993-cü ildə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasını bitirmiş və "1971-1991-ci illərdə SSRİ-də kilsə və dövlət" mövzusunda politologiya üzrə namizədliyini müdafiə etmişdir.1994-cü ilin martından 2000-ci ilin noyabr ayına dək RF-nin Dumasının eksperti, Dini qurumlar və ictimai təşkilatlar üzrə Komitənin məsləhətçisi, 3-cü dərəcəli dövlət müşaviri olmuşdur.

1999-cu ildə 440 səhifəlik "Mif, din, dövlət" adlı kitabı işıq üzü görmüşdür. Kitabda dini əfsanə və miflərin cəmiyyətin siyasi inkişafına olan təsirindən bəhs edilmişdir. "Mifin dialektikası və siyasi mif yaradıcılığı"

mövzusunda Din fəlsəfəsi üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. Dini və dini-siyasi məzmunlu bi sıra publisistik yazıların müəllifidir. 1999-cu ilin mayında rəsmi şəkildə İslam dinini qəbul etdiyini açıqlamış və Əli adını ikinci ad kimi götürmüşdür. 1999-cu ilin oktyabrından Rusiya Müftilər Şurasının müşaviridir.2000-ci ildə "Tanrıya doğru düz yol" adlı kitabı çap edilmişdir. Kitabda xristian din mənsubunun İslamı qəbul etməsinin ilahiyyat nöqteyi-nəzərdən əsaslarından bəhs olunmuşdur.2001-ci ildə isə "Yeni Rusiyanın manifesti: üçüncü yol – doğru yol!" kitabı və "Bütpərəstliyin aradan qaldırılması" monoqrafiyası işıqüzü görmüşdür. 2000-ci ilin oktyabrından Moskvada yeni yaradılmış "Doğru yol" adlı müsəlman dini icmasının sədridir.-2001-ci ildə Rusiya Müftilər Şurasının buraxdığı "Rusiya müsəlmanlarının sosial proqramının əsas müddəaları"nı işləyib hazırlayanlardan biridir. 2002-ci ilin fevralından "İslam haqqında hər şey" adlı müstəqil qəzetin baş redaktorudur.

2003-cü ilin mayında təsisedici qurultayda Rusiyanın müsəlman jurnalistlər Şurasının Sədri seçilmişdir. Lev Nikolaeviç Tolstoy (1828-1910) - dahi rus yazıçısı, mütəfəkkir, rus ədəbiyyatında və tarixində önəmli payı olan biridir. O bizə daha çox yazıçı kimi məlumdur. Onun fəlsəfi görüşləri, Allah, ruh, elm, məhəbbət, həyatın mənası haqqında düşüncələri əks olunan traktatları bizə çox az məlumdur. Həyatın mənasını, əxlaqi idealı, gizli ümumi varlığın qanunauyğunluğu üçün əzablı axtarışlar, ruhani və sosial kritisizm kimi məsələlər yazıçının bütün yaradıcılığına hopmuşur. 1870-ci ildən etibarən isə ölüm, günah, tövbə və əxlaqi dirçəliş kimi mövzulara diqqəti xüsusilə artırmışdır.Onun tamamilə qeyri-adi olan düşüncələri çox vaxt rus cəmiyyəti üçün anlaşılmaz olmuşdur. O, kilsədən qovulmuş və lənətlənmiş, dost-tanışları ondan üz döndərmişlər. Lev Tolstoy 1910-cu ildə, 81 yaşında evdən çıxmış və Astapovo stansiyasında yolda vəfat etmişdir.

Rusiya müsəlmanlarının hüquqlarının müdafiəsi, təşkilatlanması iki istiqamətdə - Rusiya Dövlət Dumasının Müsəlman Fraksiyasının fəaliyyəti əsasında və Rusiya müsəlmanları İttifaqının rəhbərliyi altında getmişdir. 1905-ci ilin yazı və yayında, ölkədə inqilabi mübarizənin gücləndiyi bir dövrdə milli burjuaziya və ziyalılar burjua-liberal hərəkatının sülhpərvər, leqal üsullarından - kollektiv müraciətlərin verilməsi, çar üsul-idarəsi nümayəndələrilə görüşlərdən istifadə edirdilər. Martın 15-də H.Z.Tağıyevin sarayında burjuaziya və ziyalıların nümayəndələrinin müşavirəsi keçirildi. Müşavirədə Qafqazda islahatların keçirilməsinin vacibliyi məsələsi müzakirə edildi. Müsəlmanlara qoyulan qadağaların göstərildiyi kollektiv müraciət tərtib edildi. Bu müraciət çar hökumətinə Azərbaycan tərəfindən verilən ilk proqram sənəd idi. İslama və islamın müqəddəs kitabına heyranlığı və Şərqin mənalar aləminə bələdliyi Tolstoyda, Nikolay Qoqolda, Bunində, Bolmontda, Lermantovda, Velmir Xlebnikovda və başqa rus yazarlarında

görmək mümkündür. Bu bələdlik və heyranlıq rus-xristian təfəkkürünün daşıyıcısı olan müəlliflərin yeni poetik-ədəbi axtarışlarına böyük təkan verib.

İslami motivlər rus ədəbiyyatında Puşkinin ədəbi mühitində formalaşan və onun ənənələrini davam etdirən bir çox müəlliflərin yaradıcılığında xüsusi yer tutur. Bestujev-Marlinski, Benediktov, Vyazemski, Polejayev, Veltman, İlliçevski və başqaları yaradıcılıqlarında şərqi və islamı valehliklə mədh edib.Ümumiyyətlə rus ədəbiyyatında şərq-islam motivləri, "Qurani-Kərim"in rus ədəbiyyatına təsiri ciddi elmi tədqiqat mövzusudur. Bu baxımdan tanınmış ədəbiyyatşünas professor Asif Hacılının 2009-cu ildə nəşr olunmuş "Qurani-Kərim" rus ədəbiyyatında" adlı kitabını çox qiymətli mənbə hesab etmək olar. Kitabın elmi redaktoru professor Kamal Abdulla kitaba yazdığı ön sözdə bu sahənin nə qədər aktual və lazımlı olduğunu vurğulayır: "Əlbəttə ki islama digər dinlərin zəka, elm, sənət nümayəndələrinin ehtiramını, islamı dəyərlər ətrafında mənəvi-fəlsəfi axtarışlarını bilmək və xatırlamaq zəruridir . Bu baxımdan, tarixən müsəlmanlarla mənəvi, coğrafi təmasda olmuş rusiyalı görkəmli alim və sənətkarların, yazıçı və şairlərin islama diqqət və sayqısı böyük maraq kəsb edir"."And olsun cütə və təkə\And olsun qılınca və haqq döyüşə,\And olsun dan ulduzuna,\And olsun axşam namazına."(A.Puşkin), "Hey şirin Quranı oxumuşam mən,\ gizli mağarada, didərginlikdə" (A.Puşkin), "Ya Məhəmməd! müjdə\Palma ağacı kimi yetişəcək. Bunu eşidib, sənin xalqın\Qoy yeni güclə möhkəmlənsin!" (A.Q. Rotçev), "...Hər şeyi bilənə gizlin aşkardır.." (Manassein), "...lütfən mənə xeyirxah müsəlman kimi baxın" (L.Tolstoy), "Allahdan başqa Allah yox! \ Sirdən güclü güc yoxdur!(İ.Bunin) – rus ədəbiyyatının məşhur simalarının qələmə aldıqları bu fikirlər onların ciddi şəkildə "Qurani-Kərim"dən təsirləndiklərini, islam təfəkkürünə bələd olduqlarını göstərir.

Professor Asif Hacılının "Qurani-Kərim" rus ədəbiyyatında" kitabı rus ədəbiyyatını dərindən anlamaq, rus fikrinə, təfəkkürünə dərindən bələd olmaq üçün qiymətli vəsaitdir. Eyni zamanda gənc tədqiqatçılar və ədəbiyyatşünaslar üçün əvəzsiz mənbədir. Rus ədəbiyyatında məşhur olan "Şərq hekayətləri" silsiləsi tanınmış yazar və şərqşünas Bu müəlliflər hesab edirdilər ki, "Quran"ı öyrəndikdən sonra Şərq dünyasının mental xüsusiyyətlərini nəzərə alaraq, hətta "İncil"i də fərqli rakursdan dəyərləndirmək olar. Belə fikirlər rus romantiklərinin yaradıcılığında Şərq motivlərinin yer almasında, üslub cəhətdən formalaşmasında əhəmiyyətli rol oynayıb. Bir çox rus ziyalıları müsəlman şərqini yalnız elmi materialların deyil, eyni zamanda, bədii əsərlərin köməyilə öyrənməyə, tanımağa başlamışlar. Belə ki, Sədi, Hafiz, Nizami, Firdovsi, Cami kimi klassiklərin əsərləri Şərq dünyasına və İslam təfəkkürünə bələd olmaq üçün əsl xəzinə idi. Bəzi müəlliflər hesab edirlər ki, rus ədəbiyyatında Şərq və İslam

mövzusu sadəcə ornament rolunu oynayıb, rus sənətkarlarına özlərinə tənqidi yanaşma üçün istifadəyə imkan yaradıb. XIX əsr sənətkarları içərisində A.Qriboyedov, P. Vyazemski, S. Qlinka, P.Çaadayev, xüsusilə, M. Lermontov və A. Puşkinin əsərlərində islam komponentləri mövcud idi. Böyük rus filosofu V. Solovyovun "Məhəmmədin həyatı", Qoqolun "Əl-Məmun" kimi əsərləri Rusiyada Şərqə olan marağın yalnız etnoqrafik deyil, eyni zamanda, mənəvi-poetik səciyyə daşıdığına işarədir. İnsanların bərabərliyi ideyasının sadiq tərəfdarı olan filosof və şair V.Solovyov 1896-cı ildə "Məhəmməd. Həyatı və dini təlimi" adlı oçerkində yazırdı ki, İslam Peyğəmbəri həqiqi dinin məzmun və mahiyyətini tovhiddə görmüşdür. Solovyov İslamın ən mühüm özəllikləri arasında niyyət və əməllərin gözəlliyini görürdü. Alim İslam dininə şamil olunan "cəhaləti və fanatizmi yayan, zor və güc hesabına yayılmış din" anlayışlarının əslində bu dinə və Məhəmməd peyğəmbərə (s.) qarşı haqsızlıq olduğunu cəsarətlə vurğulayırdı. O yazırdı: "Məhəmmədin dini bundan sonra inkişaf etməsə də, geniş əhatədə yayılacaq; çünki "Quran"ın mənəvi qidası bütün bəşəriyyət üçün gərəklidir".

Rus ədəbiyyatında islami mətnlərin yaranmasının səbəblərindən biri də Qafqaz faktoru idi. Çar Rusiyası siyasi fəaliyyətinə görə narazı olduğu sənətkarları, adətən, Qafqaza sürgün etdirirdi və bu fakt həmin söz adamlarının yaradıcılığına təsirsiz ötüşmürdü. A. S. Puşkin də Cənuba sürgün olunduğu zaman çərkəzlər, arnautlar, Krım tatarları kimi müsəlman əhali ilə sıx ünsiyyət qurub, onların məişəti və mədəniyyəti ilə yaxından tanış olub. Şairin yaradıcılığına nəzər salsaq, görərik ki, onun əsərlərində Şərq anlayışı İslam mədəniyyəti kontekstində meydana çıxır. Puşkinin bütün yaradıcılığı boyu Şərq onu cəlb edib: o, məşhur şərqşünas N.Biçurin ilə dostluq edib, kitabxanasında İslam fəlsəfəsini və ədəbiyyatını əks etdirən çoxlu sayda kitabları olub. Şairin ulu babasının ərəb olması da onun İslama marağını artıran səbəblərdəndirTədqiqatçı K.Qordeyev qeyd edir ki, "Qurana nəzirələr" adı ilə yazdığı şeirlərdə müəllifin məqsədi heç də rus oxucusunu Müqəddəs Kitabda yer almış dini-hüquqi məsələlərlə tanış etmək olmayıb, bu əsərlər sırf lirik poeziya nümunələri olaraq meydana çıxıb.

Ədəbiyyat:

1.J.A.Belyayev:Müsəlman təriqətləri.Tarixi oçerklər.Bakı 1958 il.
2.Ə.Ə.Məmmədov:"Ərəb dili".Zərdabi LTD.MMC.nəşr.Poliqrafiya Müəssisəsi.
3.A.Masse."İslam".Bakı.1964 il.
4.Ə.Həsənov,Q.Mustafayev:"İslamın mahiyyəti".Bakı.1967 il.

S.Baguirova

Russiant scientificts investigator and literary crities thoughts,opinion and references about the Islam religion

Summary

The articlespeaks of the image a Islam in Russian classic literature and some of great Russian fush as Tolstoy,A.Pushkin,M, Lermantov,Agriboedov and other writes a know the narrative esternetives and other shand dorries and works of M.Lermontov pake special place among his productive works.

Ayong investigator mar wash prouved that M.Lermontov fnd the L.Tolstoy always approche to arabiencast and Islam wits gread love.Said that everion should approsh to the world as prophet Mushammmed and then your opinionlife world change to better side.It isshown in the article that the first religious views are devoloped during years and made a wiole system.It is accepted that it is complcated,durable period.

С.Багирова

Некоторые мысли и оценки русских писателей и исследователей,а также учёных о религии Ислама

Резюме

В статье рассматривается образ мусилманина в русской классической литературе и некоторые мысли и выссказивания великих русских классиков как Л.Толстой, А.С.Пушкин, М.Лермонтов, А.Грибоедов и др.писателей.Как известно, в своих произведениях М.Лермонтова особое место занимает его повест «Восточные мотивы»и др.-новеллы и произведения.Автор утверждала что Л.Толстой всегда и всем любовно отнеслись к арабским Востоком и Исламу.Л.Толстой всегда говорил что,к миру надо отнестись к лучшему. Как известно,что религия одно из форм отражения действительности в фантастических образов, представлениях, понятиях. Главным определяюшим, признаком религии является вера в реальность сверхестественного религия представляет собой сложное социальное образование, иключающие религиозное сознание и религиозный культ.

Rəyçi: Həbib Mirzəyev
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

RAMİLƏ ORUCOVA
ADPU
orucova@mail.ru

DASTAN MƏTNLƏRİDƏ "KİMİ" QOŞMASININ ÜSLUBİ İMKANLARI VƏ POETİK FUNKSİONALLIĞI

Açar sözlər: rusca, ingiliscə, Qoşma, Bənzətmə, Mətn, Dastan
Key words: Qoşma-postposition (form of an Azerbaijani poem) Bənzətmə - simile, Mətn- text Dastan- epos (saga)
Ключевые слова: Qoşma- Соединительный союз, Bənzətmə- Сходство, Mətn- Текст, Dastan- Дастан

Qədim dövrlərdən üzü bəri Azərbaycan xalqı heyrətamiz dərəcədə zəngin bir folklor yaratmışdır. Bugünkü folklor mütəxəssislərinin vəzifəsi yalnız və yalnız həmin irsi mümkün qədər tam şəkildə toplamaq və gələcək nəsillərə çatdırmaqla bərabər, eyni zamanda folklor dilinin ən aktual problemlərini nəzərdən qaçırmamalıdırlar. Sevindirici haldır ki, Azərbaycan MEA-nın Folklor İnstitutunun müasir nəşrlərində folklor dilinin spesifikasına ciddi yanaşılır,onun dəyəri lazımınca qiymətləndirilir. Belə ki, toplayıcılar,tərtibçilər,redaktorlar çap edilən folklor örnəklərinin dilinə müdaxilə etmir, onu yazılı ədəbi dil normalarına uyğunlaşdırmırlar. Son illərin nəşrlərində diqqəti çəkən cəhət budur ki, bu nəşrlərdə nəinki şivə, dialekt tələffüzünün xüsusiyyətləri, hətta danışıq sintaksisi, üslubi məqamlar, leksik vahidlər belə təhrif edilmir, dəyərli və qiymətli folklor örnəkləri canlı xalq danışıq dilində təqdim olunurlar. Bütün bunlar da imkan verir ki, folklor örnəklərinin bədii, leksik, qrammatik xüsusiyyətləri barədə ciddi elmi prinsiplər əsasında araşdırmalar aparılsın və obyektiv təsəvvürlər yaradılsın. Bu prizmadan yanaşdıqda Azərbaycan nağıllarının,dastanlarının, bayatılarının, əfsanələrinin və s. olduğu kimi çap edilməsi dilimizin tədqiqini də sürətlə irəlilədə bilər. Qeyd etməliyik ki, folklor örnəklərinin dilinin tədqiqində xüsusi əhəmiyyətə malik olan perspektivli istiqamətlərdən biri də köməkçi nitq hissələrinin üslubi xüsusiyyətləri və poetik funksionallığı məsələləridir. Köməkçi nitq hissəsi kimi "Azərbaycan dilçiliyində 1947-ci ildən tədqiq edilən, ismin hallarının mənasını dəqiqləşdirən və tamamlayan,adlar, yaxud adlarla fellər arasında məkan,zaman,səbəb,məqsəd və başqa münasibətləri konkretləşdirən,əsas nitq hissələrinin bir cümlə üzvü kimi formalaşmasında iştirak edən, qoşulduğu sözlə cümlənin bir üzvü olan" (1,409) qoşmanın üslubi xüsusiyyətlərinin və poetik funksionallığının səciyyəvi cəhətlərinin tədqiqi həm elmi-metodiki, həm də təcrubi əhəmiyyəti olan bir məsələdir. Folklor mətnlərində işlədilən qoşmaların üslub

xüsusiyyətləri və poetik funksionallığı məsələsi geniş araşdırma mövzusu olduğundan biz bu məqaləmizdə yalnız "kimi" qoşmasının yeri və funksional səciyyəsindən bəhs edəcəyik.

Araşdırmalarımız göstərir ki,dastanların dilində kimi qoşması qoşulduğu sözlə birlikdə müxtəlif mənalar əmələ gətirir və bu baxımdan onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1.Kimi qoşması bənzətmə bildirir və dastan mətnlərində intensiv şəkildə müşahidə olunur.Məs: Qurbani baxıb gördü ki, Pəri xanım saçlarını darayıb, bahar buludu kimi üzünə öküb.(2,227); Pəri xanım tavus quşu kimi qanad açdı,aldı görək nə dedi. (2,405); Ağzı xoş bülbül kimi, Kəlməsi təkərdi bu. (2,406); Bircə danış tuti kimi, Dilinə qurban olduğum! (2,405); Qalx havalan tərlan kimi, Mən boylanım ceyran kimi, Dərddən qanan loğman kimi, O kamala mən müştağam.(2,438); və s.

Dastan mətnlərindəki bənzətmələrdə kimi qoşması daha çox tək/təki qoşması ilə sinonim olur. Məs: İldırım tək at sürməkdən, Daha məndə hal qalmadı. Sümmək tək qılınc vurmaqdan, Daha məndə hal qalmadı.(2,434); Leyli buxağından asılan gülün, Əl atıb Məcnun tək dərəsim gəlir.(2,432); Sən də mənim təki yardan ayrıldın, Qəmli-qəmli ötmə, könül şad deyil. (2,125); Zöhrə sənsiz gül tək soldu, Yarım, xoş gəldin, xoş gəldin! (2,55); Qyrbaniyəm,dərd çəkmişəm nəhanlar, Xəyalım sevməkdi sən tək cananlar. 92,221) və s.

2 .Kimi qoşması dastanlarda baş verən hadisələrin zaman və məkan hüdudlarını dəqiqləşdirmə məqamında dək, can-cən, qədər qoşmaları ilə sinonim olur. Məs: Səhər açılan kimi onlar yola düşdülər.(2,210); Tahir Mirzə sözünü qurtaran kimi onu sandığa saldılar.(2,57); Kərəm özünü-sözünü gətirmişdi, tilsimə düşmüş adamlar kimi bağdan çıxa bilmədi. (2,75); O, səhərə qədər yata bilmədi. (2,301); Kərəm sözünü tamam edən kimi gördü qabağında bir nurani kişi zahir olub(2,129); Vəfasız Tahir, bir bülbülcən də yoxsan! (2,43); Sənəd deyilənə baxmaz, yerirsən, Dağcan olsan, qılcan qalmaz, ərirsən.(2,204); Qara dərya tası, Məryəm anası, Kərəm tutar ona ölüncə yası.(2,104) və s.

Bu nümunələrdə müəyyən əməliyyatlar aparsaq, bu qoşmaları asanlıqla bir-biri ilə əvəz edə bilərik: Məs: səhərə kimi-səhərə qədər-səhərə dək-səhərəcən; dağ kimi-dağcan- dağ qədər- dağ dək; ölənə kimi- ölüncə-ölənə qədər- ölənə dək və s.

Göründüyü kimi, dastan mətnlərində kimi və onun sinonimi olan qoşmalar müxtəlif qrammatik mənalar ifadə edə bilmiş və bu qoşma qoşulduğu sözdən asılı olaraq bənzətmə mənası bildirdiyi kimi, müqayisə, zaman və məkan hüdudunu da bildirməyə xidmət göstərmişdir.

Azərbaycan dastanlarının dilində kimi qoşmasının daha çox hansı sözlərə qoşularaq işlənməsi də olduqca böyük maraq doğurur. Qeyd

etməliyik ki, təhlilə cəlb etdiyimiz materiallarda müqayisə və ya təşbih yaradan vasitə kimi ən çox kimi qoşmasından istifadə edilmişdir və hansı sözlərə qoşularaq işlədilməsi baxımından onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Tarixi,əfsanəvi şəxsiyyət və dastan qəhrəmanlarının adlarına kimi qoşmasının qoşularaq işlənməsi halları intensiv şəkildə müşahidə olunur ki,belə məqamlarda müsbət personajların xarakterinə xas olan dərd,kədər,nisgil kimi sindromlar və eyni zamanda igidlik,mərdlik,qoçaqlıq, qorxmazlıq,ağıllılıq kimi keyfiyyətlər olduqca qabarıq şəkildə verilir,poetik obrazlılıq yüksəlir, folkloru yaradan xalqımızın söz düzmək, fikir ifadə etmək məharəti göz önündə canlanır. Poetik obrazlılığın ən bitgin forması olan belə bənzətmələrdə daha çox Leyli,Məcnun,Əsli, Kərəm, Qərib, Koroğlu, Fərhad,Yusif, Mənsur və s. kimi xüsusi adlardan istifadə edilir. Məs: Dolanırdım sola-sağa,Məcnun kimi düşdüm dağa.(2,66); Tahir kimi yarım vardı, Bəxtəvərdi başın, Zöhrə.(2,66); Əsli kimi gözəl olmaz, Qaşı yaqut,gözü almaz. (2,78); Atdı külüngünü,yardı sərini, Fərhad kimi yarçün ölən olmadı.(2,94); Dünyada Şahsənəm murada çatdı, Aşıq Qərib kimi gülən olmadı.(2,94); Məcnun kimi gəzdim səhranı,dağı, Fələk şərbətimi eylədi ağı. (2,119); Kərəm kimi öz yurdunu arzular, Bu dağda bir ceyran ağlar, inildər! (2,130); Kərəm kimi nə bəlalı başın var, Alvız dağı,heç əskilməz dumanın.(2,135); Yusif kimi düşdüm dərin bəlaya, Mənsur kimi çəkdi dara tellərin. (2,468) və s.

2. Dastan mətnlərində çox vaxt səma cisimlərinin adlarını bildirən sözlərə (Günəş,Ay, ulduz) kimi qoşması qoşularaq personajların müsbət keyfiyyətlərinin verilməsinə xidmət göstərir və belə mətnlərdə əzəmətli obrazlılıq keyfiyyəti,müxtəlif rəngli bədii boyalar oxucu və ya dinləyicini özünə cəlb edir,onu valeh etmə gücünə malik olur. Məs: On dörd gecəlik ay kimi bir oğlandı, çarhovuzun başında əyləşib oxuyur. (2,40); Günəş kimi şölə salır aləmə, Telləri sərində,tərlan əlində. (2,76); Bu qız o qədər gözəl idi ki, gün kimi hər tərəfə işıq salırdı. (2,112); Günəş kimi qopdu mənim sinəmə,Əsli məndən bir gül aldı da getdi. (2,122); Belə ki, bir müddətdən sonra Mirzalı xanın on dörd gecəlik ay kimi bir oğlu oldu. (2,204); Şahsənəm üç gecəlik ay kimi ağacların arasından çıxdı. (2,178); Səhər-səhər sərçeşmələr başında, Gün kimi aləmə yayılan Pərim! (2,272) və s. Bu nümunələrdə işlədilən bənzətmələrin heç biri təsadüfi deyildir. Çünki ".... ülvilik insan gözəlliyinin ayrılmaz hissəsidir. İnsanlardan çox yüksəkdə olan səma cisimləri həm ucalığı, həm də gözəlliyi ilə tarixən söz sənətkarlarının nəzərini cəlb etmişdir. Yüksək insani keyfiyyətlər səma cisimləri ilə müqayisə edilmişdir. Bədii təfəkkürün bir forması olan şifahi xalq ədəbiyyatında həmişə Günəş, Ay, ulduz gözəlliyin, ülvi keyfiyyətlərin rəmzi kimi göstərilmişdir".(3,117)

3.Dastan personajlarının ağır, çətin, pis durumlarını obrazlı şəkildə təqdim etmək üçün "... poetik nitqin ən güclü təsvir vasitəsi hesab olunan ..."(4,97) kimi qoşması təbiət hadisələrinin adlarına qoşulur və bu məqamlarda orijinal mübaliğələr yaranır,qeyri-adi,gözəl bədii fikirlər söylənilir. Məs: Söz Mələksimanın ağzından qurtarmamış Zöhrə xanımın halı dəyişdi, abi-leysan kimi göz yaşı axıda-axıda dedi. (2,51); Kərəm başladı ağlamağa, onun gözündən bahar buludu kimi yaş axırdı.(2,85); Qurbani baxıb gördü ki, Pəri xanım saçlarını darayıb, bahar buludu kimi üzünə töküb.(2,227) və s.

4. Dastan mətnlərində kimi qoşmasının kəklik,şahin,bülbül,ördək,laçın kimi quş adlarına,gözəllik rəmzi olan ahu,ceyran,maral kimi heyvan adlarına qoşularaq işlədilməsi halları da daha çox müşahidə olunur ki, bu prosesdə də əvvəldən-axıra qədər poetik obrazlılığın qəlibində müqayisə dayanır. X. Cabbarov da düzgün olaraq qeyd edir ki, söz sənətində müqayisə qəlibindən kənarda poetik obrazlılıq yoxdur. Obrazlılıq yaratmaq məqamında müqayisələrin sayı artdıqca, poetiklik, portretlilik və ya mənzərəlilik keyfiyyəti də artır.(5,63). Aşağıda verəcəyimiz poetik mətndə kimi qoşması həm quş adına, həm də heyvan adına qoşularaq işləndiyindən ahəngdarlıq daha qabarıq nəzərə çarpır: Ördək kimi ucdun göldən-göllərə, Ceyran kimi qaçdım çöldən-çöllərə, Kərəm deyər: düşdüm bədnam dillərə, Gələn ağlar,gedən ağlar,yol ağlar. (2,93). Ümumiyyətlə,dastan mətnlərində ən təsirli obrazlılıq nümunələrinə quş və heyvan adlarına qoşularaq kimi qoşması vasitəsilə yaradılan təşbihlərdə rast gəlirik. Məs: Döşündə məməsi var, Qızıldan düyməsi var, Nə Şirin havası var, Kəklik kimi səsi var.(2,69); Şahin kimi gör nə gəlir üstümə, Xub yaraşır qızıl güllər dəstinə.(2,89); Bülbül kimi şirin-şirin danışır, Bal tökülür dəhanından dilinə. (2,112); Yaşılbaş sona kimi bulaq başında durub Qəribin yolunu gözləyirdi.(2,178); Zöhrə xanım yaralı ahu kimi güləfirəngidə boynunu büküb sevgilisinin yolunu gözləyir. (2,36); Zöhrə xanım bu sözü eşitcək maral kimi səksəndi, özünü saldı cəllad Qasımın ayağının altına, əl atıb ətəyindən tutdu, yalvarmağa başlayıb dedi.(2,38); - Qasid, Zəringara deyinən on günəcən Sənəndər quşu kimi özünü ona yetirəcək (2,362) və s.

5.Dastanların həm nəsr, həm də nəzm parçalarında kimi qoşmasının meyvə, bitki, gül-çiçək adlarına qoşularaq işlədilməsi halları da daha çox müşahidə edilir ki, belə məqamlarda hər bir bənzətmə mükəmməl üslubi mövqedə təzahür edir. Başqa sözlə desək,məcazi dona bürünmüş bu tip bənzətmələrdə və müqayisələrdə bədiilik yüksək səviyyədən enmir, bədii atmosferi bu cür müqayisələr təmtəraqlı bir şəkildə salır.Məs: Dərin-dərin dəryalara dalmışam, Saralıban heyva kimi solmuşam.(2,63); Mirzalı xan da ki onun üstündə nanə yarpağı kimi əsdi. (2,205); İki həsrətli sarmaşıq gül ağacına sarılan kimi bir-birinə sarılıb doyunca görüşdükdən sonra Qərib

dedi.(2,185); Hər iki aşiq sarmaşıq kimi bir-birinə sarılıb elə qucaqlaşdılar ki, heç dünyadan xəbərləri də olmadı.(2,351); Gəlib çatdılar o yerə ki, Leyli ilə Məcnun sarmaşıq kimi bir-birinə sarmaşıb yatmışdılar.(2,352); Qaşları kaman, gözləri şəhla, kirpiyi ox, burun hind fındığı, sinə Səmərqənd kağızı, məmələri şamama kimi yumurlanıb,baxanın ağlını aparır. (2,373); Onun yanaqları qırmızı alma kimi qızarmışdı. (2,210) və s.

6.Dastan mətnlərində canlı və cansız varlıqların adlarına qoşularaq kimi qoşması personajların xarici görünüşünü, psixoloji vəziyyətlərini, keçirdikləri hissləri estetik keyfiyyət həddində əks etdirir. Kimi qoşması mətnlərdə üslubi tələbata, situasiyalara uyğun seçilib işləndiyindən onların hər biri müvəffəqiyyətli alınır, dinləyiciyə güclü emosional və estetik təsir bağışlayır. Məs: Kərəm ürəyi dəmirçi kürəsi kimi alışıb yana-yana qıza dedi.(2,109); Gördü ki, oğlu o oğul deyil, payız yarpağı kimi saralıb solub. (2,86); Baxdılar ki,burada toy var, Kərəmin rəngi gül yarpağı kimi soldu. (2,110); Leyli sözünü qurtarıb,ürəyi qəm elədi, dam parçası kimi yerə sərildi. (2,354); Qırx qarabaş bu gözəli üzük qaşı kimi araya alıb, pərvanə tək başına dolanırlar.(2,367); Valehin sinəsi dəmirçi kürəsi kimi alışıb yanmağa başladı.(2,367); Bir igidin dünya varı olmasa , Yeləksiz ox kimi sovar deyərlər. (2,24) və s.

7.Keçmişdə mövcud olan vəzifə, zümrə adları da (şah, bəy, xan, sultan, nökər, qul və s.) müqayisə üçün əlverişli vasitələrdəndir. Dastanların dilində bəzən obrazların müəyyən keyfiyyətləri bu sözlərlə müqayisə edilərək bədii məziyyət yüksək dərəcəyə qaldırılır. Məs: Şah kimi mətləb bitirər, Hökmün yerinə yetirər, Dilsizi dilə gətirər, Əsli, qaşların, gözlərin.(2,111); Dərdi Kərəm gəlib durar, Qul kimi boynunu burar. (2,122) və s.

Kimi qoşmasının hansı sözlərə qoşularaq işlənməsi ilə bağlı yuxarıda nəzərdən keçirdiyimiz qrupları bir qədər də artırmaq olar. Lakin qısaca olaraq qeyd edə bilərik ki, dastan yaradıcısının yaratdığı örnəklərin dilində kimi qoşması ilə yaranan müqayisələr ona görə mənalı və təsirlidir ki, onların əksəriyyəti xalq dilində geniş istifadə edilən sözlərin məcazi mənasından törəmişdir. Qiymətli mineral və metal, ətirli gül-çiçək, möcüzəli göy cisimləri,dadlı və yaraşıqlı meyvə,yeyinti, qəşəng və gözəl quş və heyvan adlarından dastan yaradıcısı mənalı müqayisələr yaradıb aşiq və məşuqun, gözəlin, lirik "mən"in, surət və personajların səciyyəvi xüsusiyyətlərinin meydana çıxarmağa, qiymətləndirməyə çalışmışdır. Nəticədə kimi qoşması ilə yaranan müqayisələrdə qadının saçları buluda, yasəmənə,sünbülə, üzü almaya,aya, qəmərə,laləyə, qaşları qələmə, zülfüqara , gözləri marala, laçına,tərlana, kirpikləri almaza, oxa, xəncərə, dodaqları mərcana, qəndə, noğula, qönçəyə, bala,yaquta, dişləri ədəfə,mirvariyə,-dürdanəyə, yanaqları laləyə,gülə, ağzı piyaləyə, püstəyə, bala, şəkərə, bədəni ənbərə,mərmərə,büllura, döşləri fincana, şamamaya, nara, buxağı gülə,

büllura, mərmərə və s. bənzədilmişdir. Bu cür müqayisələrin əksəriyyəti dastan mətnlərində ən güclü təsvir vasitələrindən biri kimi sanki işıq saçır,bərq vurur, oxucu və dinləyicini məftun edir, onlarda gözəl qadın, müqəddəs sevgi və məhəbbət, aşiq və məşuqun yaraşığı və cazibədarlığı, daxili aləmi və zahiri görkəmi,siması, bir sözlə ayrı-ayrı cizgiləri haqda real təsəvvür yaradır. Azərbaycan dastanlarının şerlə yazıya alınmış parçalarında kimi qoşmasının misrasonu mövqedə sıx-sıx işlənməsinə də daha çox rast gəlirik. Bu da o, deməkdir ki, kimi qoşması hansı poetik mətndə epiforik vəzifədə çıxış edirsə,deməli,orada bədii məziyyət tədricən artır və müqayisənin təsvir obyektləri də çoxalmış olur. Məs: Bilməm xəyalımdı, yoxsa dut kimi, Gəldi keçdi boran kimi, qış kimi, Dərdli Kərəm yuvasında quş kimi, Tutdu, yolum-yolum yoldu dərd məni.(2,115) Göründüyü kimi, bu poetik mətndə kimi qoşması ilə 4 müqayisə işlədilmişdir. Bunlardan ikisi müsbət (dut kimi,quş kimi), ikisi isə mənfi (boran kimi,qış kimi) ekspressiyalıdır. İstər müsbət,istərsə mənfi ekspressiyalı müqayisələr lirik "mən"in (Kərəmin) dərd, kədər sindromunu obrazlı şəkildə səciyyələndirmiş və eyni zamanda təbiətin iki hadisəsini (boran,qış) parlaq bur şəkildə təsvir etmişdir.XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin dil və üslub xüsusiyyətlərini hərtərəfli və mükəmməl bir şəkildə araşdıran filologiya üzrə elmlər doktoru Mahirə Hüseynova yazır ki, Azərbaycan dilinin "Morfologiya" şöbəsinin inkişafı ilə əlaqədar çox vaxt müxtəlif nitq hissələrinin müxtəlif əsərlərdə çox və az işlənmə xüsusiyyətləri qabardılır, müqayisələr aparılır və bir sıra relyasion qanunauyğunluqlar dəqiq şəkildə müəyyənləşdirilir, aşkar edilir. Məsələn, köməkçi nitq hissələrindən olan qoşmanın məna növlərindən hər hansı bir əsərin dilində kəmiyyət etibarilə çox işlənməsi güclü,az işlənməsi isə zəif mövqe hesab olunur. Bu yöndən yanaşsaq, XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin əsərlərinin dilində bu və ya digər məqsədlərlə işlədilmiş qoşmaların güclü və zəif mövqelərini rahatlıqla müəyyənləşdirə bilərik. Onu da unutmaq olmaz ki,aşıq və el şairlərinin poeziyasında, həmçinin dastanların dilində özünə yer tapan qoşmaların güclü və ya zəif mövqeyinə bədii-poetik meyarlar əsasında yanaşsaq görərik ki, kimi qoşması dastan mətnlərində daha çox misraortası və misrasonu mövqelərdə fəal şəkildə işlənərək nitq mühitinin obrazlı bir şəklə salır, ekspressivliyi gücləndirir, üslub-poetika kamilliyinə rəvac verir, poetik mətləbin cövhərini üzə çıxarır, koloritli poetik boyalar məzmunun dərk olunmasını olduqca asanlaşdırır. Başqa sözlə desək, kimi qoşmasının epiforik vəzifəni icra etməsi ilə lirik düşüncələr, hiss və duyğular qanadlanır, ahəngdarlıq artır, ifadə edilən poetik fikir elastikləşdirilir. Məs: Kərəm deyər: canım kimi, Atlaz geyər xanım kimi, Mən sevirəm canım kimi, Ellər, xan Əslim gördüzmü? (2,92); Anam olar dəli kimi, Yarım sazı teli kimi, Hikkmət kimi, Əli kimi, Dalımca ağlarım qaldı. (6,279) və s.

Dilimizdə olan bütün qoşmalar idarəedicilik xüsusiyyətinə malikdir. Şübhəsiz ki, kimi qoşması da bu xüsusiyyətə malikdir və burada bu qoşmanın əvəzliklərə qoşularaq işlədilməsinin dastan mətnləri əsasında qısaca olaraq nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik. Dastan mətnlərində kimi qoşmasının əvəzliklərə qoşularaq işlədilməsi halları daha çox müşahidə edilir ki, belə məqamlarda əvəzliklər ismin adlıq,yiyəlik,yönlük hallarında olur və ifadə edilən bədii fikirlər, təsvir edilən portretlər , tərənnüm edilən hiss və duyğular təsirli və daha mənalı alınır. Məs: Sevdim sən kimi sonanı, Qafil oxladın sinəmi.(2,96); O da sizin kimi gözəl, öyməli, Eyni mənim xan Əslimə bənzəriz. (2,136); Gözüm doymaz sənin kimi canandan, Cananın itirən tez olur candan. (2,228); Mən qurbanam sənin kimi canana, olmuşam dərdindən dəli-divana. (2,228); Mən fələkayını göydə görmüşəm, Yerdə sənin kimi mahitab olmaz. (2,229); Sənin kimi gözəlin sözünü yerə salmaq günahdır. (2,367); - Xanım, sən kimi gözəl qızın sözü sınınca, düşmənin boynu sınsın. (2,370); Qurban olum sənin kimi cavana, Sən bir zənanəsən, mənəm mərdanə. (2,375) və s.

Beləliklə, dastan mətnlərində bu cür müqayisələrdən istifadədə zəngin canlı danışıq dilinə əsaslanılmış, "tarixən mövcüd olan bir sıra deyim üsullarına ..."(7, 125) söykənilmiş və həmin müqayisələrə təzə nəfəs verilmiş, yüksək sənətkarlıq nümayiş etdirilmişdir.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili. II cild. Morfologiya. " Elm" nəşriyyatı, Bakı, 1980.
2. Azərbaycan məhəbbət dastanları. Tərtib edənlər: M. Təhmasib, T. Fərzəliyev, İ. Abbasov, N. Seyidov. Bakı, "Elm",1979.
3. Azərbaycan bədii dilinin üslubiyyatı. Bakı, " Elm", 1970.
4. Hüseynova M. Aşıq və el şairlərinin üslubi morfologiyası. Bakı, 2017.
5. Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq. Bakı, " Yazıçı", 1986.
6. Mirzəyev H. Dərələyəz folkloru. Bakı, "Elm", 2006.
7. Hüseynova M. Aşıq və el şairlərinin poetikası. Bakı, 2017.

R.Оруджова

" Возможности стилистикой и поетической функциональности союза kimi в текстах дастанов"

Резюме

В Азербайджанской словестности до сих пор стилистические возможности и поетические функциональности служебных частей

речи не исследованы. Фолклорные тектсты дают нам сильный и разнобразный материал для расследовония смысла сравнительного союза “kimi”.В образцах устной народной литературы можно встретит союзы которые показывают время, причину, цели, исключение, ссылки, количества, анологию, участие, пространство. Среди этих союзов в фолклорных текстах сравнительный союз (kimi) занимает большое внимание, а по функциональности играет огромную роль. В этой статье не косаясь других груп союзов расследуется только союз “kimi”. Расскрывается стилистическая функциональност союза “kimi”.Союз “kimi” выполняет не только стилистическую функцию но одновременно выполняет и эпифорическую роль уточняя смысл. Поетическая функциональность союза “kimi” в текстах дастанов дают нам богатый материал. В статье были расследованы именно эти аспекты союза “kimi”.

R.Orucova

“The stylistic possibilities and poetic functionality of the postposition kimi(as) in epos texts”

Summary

The issues of stylistic features and poetic functionality of the functional parts of speech have not been studied in Azerbaijani linguistics until now.

Folklore texts give us a strong and colourful material for the purpose of identifing and completing the meaning of postposition “kimi”.(as) Examples of verbal folk literature are those in which postposition denoting place, time, similarity, reason, purpose, reference, exclusish, participation, quantity, contradiction are encountered. However, among these postpositions in folklore texts, the postposition “kimi”(as) draws more attention, plays more role in terms of functionality. In our article ,without touching these groups, we tried only to investigate the stylistical functionality of the postposition “kimi”(as). The postposition “kimi”(as) does not only perform the stylistic situation, but also fulfills its epiphoric function in relation to certain types of meaning, as well. Poetic functionality is derived from here and thus epos texts give us rich information. We have also tried to investigate these issues in our article.

Rəyçi: Mahirə Hüseynova
Filologiya üzrə elmlər doktoru

VALİDƏ AĞAYEVA
Azərbyacan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
vali1997@mail.ru

AZƏRBAYCAN QADINI STALİN REPRESSİYALARININ HƏDƏFİNDƏ

Açar sözlər: Azərbaycan qadını, memuar, repressiya
Ключевые слова: Азербайджанская женщина, мемуар, репрессия
Keywords: Azerbaijan woman, memoir, repression

1937-1938-ci illərin ziyalı qırımının əsas hədəflərindən biri də azərbaycan qadınları idi. Bu illərdə terror qurbanı olmuş qadınların bəziləri "xalq düşməni", "vətən xaini" kimi müttəhim olmuş ərlərinin, ata və qardaşlarının güdazına getmişlər. O dövrün qanunlarına görə vətənə xəyanətdə ittiham edilib güllələnənlərin ailəsi qeydsiz-şərtsiz sürgün edilirdi. Amma özləri sürgün edilən müttəhimlərin ailəsi sürgün edilmir, amma elə öz ölkəsindəcə bir çox hüquqlardan məhrum edilirdilər. Məhz bu vəziyyət çox güman ki, Hüseyn Cavidi "öz günahını" boynuna almaqdan saxlamış, o repressiya və terror maşınının işgəncə və təzyiqlərinə axıradək davam gətirib "mən sovet hökumətinə qarşı heç bir əksinqilabi fəaliyyət göstərməmişəm"-demişdir. (2)

Aleksandr Soljenitsın göstərir ki, Stalin repressiyası dövründə xəbərçilik etməmək özü cinayət sayılırdı. Ərinin və ya arvadının yaxınlarının, ata-anasının, bacı-qardaşının əksinqilabçı olduğundan şübhələnən hər bir kəs bu barədə dərhal xüsusi xidmət orqanlarına xəbər verməli idi. Məhz bu yolla həbs olunanların ailələri təqib və sürgünlərdən qurtula bilərdi. "Əksinqilabçı" və "vətən xaini" həbs olunduqdan sonra artıq iş-işdən keçmiş olurdu. Sonrakı etiraflar, peşmançılıqlar və ya xəbərsizlik iddiası heç bir fayda vermirdi.(9)

Hələ sovet hakimiyyətinin ilk illərindən siyasi motivlərlə həbs olunan hər bir kəsin ailə üzvləri də həbs olunur, onlar ya güllələnir, ya da hərbi düşərgələrə göndərilirdi. Artıq 1934-cü ildə Sovet qanunvericiliyində "vətən xaininin ailə üzvü" kimi bir termin yarandı. Onların həbs və sürgünü üçün Qazaxstanda xüsusi düşərgələr salınır. Kommunist Partiyasının Siyasi bürosu 1937-ci il 5 martda bu barədə xüsusi qərar çıxarır. Həmin qərarda NKVD-nin təklifi ilə vətən xaini arvadlarını 5-8 il müddətinə hərbi düşərgələrə göndərmək nəzərdə tutulurdu. Qərarda bu məqsədlə Qazaxstanın Narım, Turqay, Karakanda rayonlarında həbs düşərgələri inşa etmək

göstərişi verilirdi. Eləcə də 15 yaşınadək bütün uşaqları NKVD-nin uşaq evlərinə göndərmək tapşırılırdı.(8)

Bu yazıda biz bu və ya digər dərəcədə ərlərinin "vətən xaini" olması səbəbindən repressiyaya məruz qalmış qadınların taleyinə toxunmuşuq.Eləcə də vaxtilə mülkədar və bəy qızı olmuş Azərbaycan qadınının Sovet dönəmində üzləşdiyi çətinliklərdən də bəhs etmişik. Bu barədə araşdırmamızı davam etdirərək burada Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq üçlüyündən Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanım barədə söhbət açmaq, sonra isə ərlərinin, ata və qardaşlarının ittiham olunması səbəbindən deyil, öz siyası fəaliyyətinə görə məhkum olub qətlə yetirilmiş azərbaycan qadınlarından bəhs etmək istəyirik. Sonda repressiya maşınının hədəfinə tuş gəlmiş, ancaq Stalinin vəfatı ilə əlaqədar repressiyadan xilas olmuş Əziz Əliyevdən və ulu öndərimiz Heydər Əliyevin həyat yoldaşı Zərifə xanım Əliyevadan bəhs etmək fikrindəyik.

Əhməd Cavad Az. XDİK tərəfindən 4 iyun 1937- ci ildə əksinqilabi fəaliyyətinə görə həbs edilmiş və həmin ilin 12 oktyabrında güllələnmişdir. Bir qədər sonra onun həyat yoldaşı Axundzadə Şükriyyə Süleyman qızı həbs edilmiş, onun əmlakı müsadirə edilmişdir. Bu zaman onların dörd oğlu-21 yaşlı Niyazi, 16 yaşlı Aydın, 14 yaşlı Tukay və 2 yaşlı Yılmaz var idi. C.Qasımov "Əsrin qiyamət günü" kitabında Şükriyyə xanımın o vaxtlar SSRİ Nazirlər sovetinin sədri Q. Malenkova yazdığı və MTN arxivində Şükriyyə Axundzadənin qovluğunda saxıanılan aşağıdakı məktubunu da vermişdir. Bu məktub ərini ititrmiş və övladlarından ayrı düşmüş bir ananın ağrı və iztirablarını verməklə yanaşı həm də Sovet repressiya maşınının nə dərəcədə amansız olduğunu göstərir:

" 14 oktyabr 1937-ci ildə gecə saat 2-də mən və mənim üç oğlum (böyük oğlumdan başqa, o, uzun müddət idi ki, evdə yox idi.) həbs edildi. Mənimlə birlikdə kiçik oğlumu da həbs etdilər, hansı ki, mən onu əmizdirirdim. Kiçik oğlumla bir yerdə olmağımı dəfələrlə xahiş etməyimə baxmayaraq, keçmiş XDİK-in sədri Topurudze bunu qəti qadağan etdi. Kiçik oğlumu 4 ay təcridxanada saxladılar və çox ağır vəziyyətdə qocalığa görə aldığı təqaüddən məhrum edilmiş, ərimin 80 yaşlı anasına verdilər." (2,79-81)

2 yaşlı körpəni təcridxanada saxlayan 80 yaşlı qadını təqaüddən məhrum edən rejimə İblis səltənətindən başqa ad vermək qeyri-mümkündür. SSRİ MİK-in 4 iyul, 1934-cü il tarixli qərarına əsasən vətən xaini ittihamı ilə mühakimə olunanların ailə üzvlərinin sürgün edilməsi barədə qərarı əsas götürən hakim qüvvələr qısa müddət ərzində minlərlə günahsız Azərbaycan qadınını Orta Asiyaya, Rusiyanın ucqarlarına-Sibirə sürgünə göndərmişlər... Qaranlıq zindana atılan Azərbaycan qadınlarının əksəriyyəti 2-4 uşaq anası idi. Taleyin ümidinə buraxılmış bu körpələr NKVD-nin uşaq evlərinə verilirdi (6,4)

Bu çoxsaylı qurbanlardan biri olan Şükriyyə Axundzadəyə olan bu münasibət həm də onun bir knyaz qızı olmasına baxmayaraq ailəsini, elini, vətənini tərk edib sevdiyi şəxsə-Əhməd Cavada qoşulub gəlməsi idi. Vaxtı ilə Tulumbadze familiyasını daşımış Şükriyyə xanıma "humanistcəsinə" yenidən həmin familiyanı qaytarmaq, Əhməd Cavaddan boşanmaq və bunula da təqiblərdən xilas olmaq təklif olunur. Şükriyyə xanım Sibirə sürgün olunmağı güllələnmiş ərinə dönük çıxmaqdan, ondan boşanıb Axundzadə soyadından imtina etməkdən üstün tutur:

"Elə bil başıma ildırım düşdü, gözlərimdə şımşəklər çaxdı. Necə yəni Cavaddan boşanmalı?

-Mən Əhməd Cavada görə knyaz dünyasını, öz doğma elimi, obamı, yurdumu, doğmalarımı atıb gəlmişəm. İndi bir sürgün üçün boşanım? Ola bilməz!

Əhməd Cavada olan böyük eşqi və sədaqəti ona boşanmaq haqqında ərizə yazmağa imkan vermədi. SSRİ XDİK-i yanında xüsusi müşavirə heç bir məhkəmə iclası keçirmədən onun barəsində belə bir qərar çıxardı.

"Vətən xaininin ailəsinin üzvü kimi Axiundzadə Şükriyyə Süleyman qızı səkkiz il müddətinə azadlıqdan məhrum edilsin və islah əmək düşərgəsində saxlanılsın. 8 il Qazaxstanda sürgün həyatı yaşamış Şükriyyə Axundzadə azad olunub Azərbaycana qayıtdıqdan sonra da uzun illər öz hüquqlarını bərpa etmək uğrunda mübarizə aparmalı olmuşdur. (2,87-88)

2003-cü ildə Vətən nəşriyyatı MTN işçilərinin tərtib etdiyi "Soyqırım analardan başalnır" adlı kitabı nəşr etmişdir. Həmin kitabda repressiya qurbanı olmuş minlərlə qadınlardan 3022-sinin siyahısı verilmişdir. Bu 3022 faciəli ömrün birini də Axundzadə Şükriyyə yaşamışdır. (4,22) Həmin siyahıda təmsil olunan qadınlardan bir qismi məhz öz siyasi fəaliyyətinə görə məhkum olunmuşdur. Prof. Musa Qasımov o dövrdə Azərbaycan qadınının siyasi fəaliyyəti barədə yazır: "Azərbaycan qadını imperiya üçün yalnız pambıqçı və sağıcı olmayıb. O, sovet rejiminə qarşı mübarizədə, ana dilimizin, milli adət-ənənələrimizin qorunmasında, çox hallarda isə milli oyanış, müstəqillik uğrunda mübarizədə əhəmiyyətli və əlaqələndirici rol oynayıb, bir sıra gizli təşkilatların işində fəal iştirak edib." (4,12) "Zəhmli, demonik, yarıhərbi irtica, ölüm, zorakılıq maşını öz tırtılını, repressiv konveyerini" (3,166) həm də Azərbaycanın mütərəqqi qadınlarına, analarına qarşı çevirmişdi. Ziya Bünyadovun "Qırmızı terror" əsərində bu qadınlardan üçünün, Mədinə xanım Mehdi qızı Qiyasbəylinin, Gülarə xanım İbrahim Xəlil qızı Qədirbəyovanın və Qayıbova Xədicə xanım Osman qızının istintaq və ittiham bioqrafiyası verilib.(1,73-80)

Z.Bünyadov bu əsərində Qayıbova Xədicə xanımın həyatının son ayları barədə məlumat vermək fikrində olduğunu bildirir və arxiv materialları əsasında onun istintaq və ittiham bioqrafiyasını yaradır. Bu "cinayət işi"

adlanan cənədlər ozləri də bir bioqrafik oçerkdir. Bu cür oçerklərdə əvvəlcə gələcək müttəhimlərin istintaqa cəlb olunmasının səbəbini göstərən arayış verilir, sonra onların müttəhim sifəti ilə işə cəlb olunması barədə qərar çıxarılır və daha sonra sual-cavab şəklində dindirmələr verilir. Sonra istintaqın qurtarması barədə protokol tərtib olunur və ittihamnamə verilir. Daha sonra müttəhimlərin özü (əgər ölüm hökmü ilə məhv edilməyibsə) və ya ailə üzvləri tərəfindən bəraət ərizələri verilir və sonra bir çox hallarda ittiham olunmuşlar barədə bəraət qərarı verilir. Beləliklə arxivlərdə "cinayət işi" adlanan bu sənədlər özləri də müəyyən mənada tərcümeyi-hal ədəbiyyatı rolu oynayır. Burada bir çox hallarda müttəhimlərin bütün həyat yolu əks olunur.

Müdhiş istintaq sənədləri əks olunmuş bu insan taleyinin nə qdər acı, inanılmaz dərəcədə ədalətsiz bir rejim qarşısında köməksiz olmasını görüb-duymamaq mümkün deyil. Xədicə xanımın bütün istintaq materialları ölümün gözünə dik baxan mərd bir insan şəxsiyyətindən xəbər verir. Fərəczadə adlı bir şəxsin ifadəsi ilə ittiham olunan Xədicə xanımın intellekt və şəxsiyyətinin gücündən, nüfuzundan qorxan cəza aparatçıları onun ölümün belə gizlədirlər. Bu cür insanların məhv olmiş cəsədləri belə saxta cəmiyyət üçün təhlükə törədirdi. Ona görə də, onların qəbirləri belə yoxdur. Amma hər bir azəri türkünün qəlbində vətənin igid oğul və qızlarının əbədi xatirəsi həkk olunmuşdur.

Bu cür igid qadınlardan biri də Mədinə xanım Mehdi qızı Qiyasbəyli idi. Müstəntiq ondan "Sizi müsavatçılarla nə bağlayırdı?"-soruşarkən Qiyasbəyli: "Bizim bir millətçi nəzərimiz, qohumluluğumuz və bu adamların mədəniyyəti"-cavabını vermişdir. (1, 62) M. Qiyasbəylinin "cinayət işindən" bolşeviklərin hakimiyyətlərinə son qoyduqları müsavatçıların taleyi barədə məlumatlar toplanmışdır. Bu qovluqda Sovet hökumətinin özündən əvvəlki siyasi sistemlərə qarşı nə qədər amansız olması bununla belə öz hakimiyyəti üzərində də qorxaqcasına əsməsi aydınlaşır. Çünki o bu hakimiyyəti saxta yolla, təcavüz nəticəsində ələ keçirmişdir. Rus qoşunları Azərbaycanı zəbt edib Demokratik respubikanın varlığına son qoyduqdan sonra guya Müvəqqəti inqilab komitəsi V.İ.Leninə müraciət edib "xarici və daxili əksinqilabın biləşmiş quldur dəstələrinin təzyiqinə öz qüvvəsi ilə müqavimət göstərməyə imkanı olmayan Azərbaycan Müvəqqəti İnqilab komitəsi dünya imperializminə qarşı birgə mübarizə aparmaq üçün qardaşlıq ittifaqı bağlamağı Rusiya Sovet Respublikası hökumətinə təklif edir və Qızıl ordu dəstələri göndərmək yolu ilə dərhal həqiqi yardım göstərməyi xahiş edir." (5, 97-98.) Halbuki Qızıl ordu artıq aprelin 25-26-da Bakını tutmuşdu və aprelin 28-də göndərilmiş bu müraciət gələcək nəsilləri "böyük qardaş" ideyası ilə yuxuya vermək məqsədi güdən, uzaqgörən saxtalıq idi. Artıq aprelin 29-da Şər imperiyasının iblis rəhbəri V.İ.Lenin "fəhlələrin qurultayında deyirdi:

“Sənayenizin yanacaqsız qldığı bizə məlumudur. İndi isə xəbər almışıq ki, Bakı proletariatı Azərbaycan hökumətini yıxmışdır. Bu, o deməkdir ki,nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır.” (5, 97.) Bu çıxışın həqiqi üzünü belə təqdim etnək olar:”Qızıl Ordu Azərbaycan hökumətini yıxmışdır. Bu o deməkdir ki, biz Bakı neft mədənlərinə sahib olub Azərbaycanın sərvətlərini istismar edəcəyik.” Bu cür məkrli planın uğuru köhnə hakimiyyət tərəfdarlarının tam məhvini tələb edirdi. “Sovet hökuməti müsavatçılara qarşı “insan yoxdursa, problem də yoxdur” prinsipini tətbiq edib onların kütləvi məhvinə yönəlmiş cəza tədbirləri həyata keçirdi. “İlk sovet həbs düşərgələrinin də qurbanlarının bizim xalqın qeyrətli oğulları, azadlıq cəfakeşləri olduğunu” bildirən Z.Bünyadov təkcə “Müsavat” partiyasının yüzlərlə üzvlərinin sovet həbs düşərgələrinə sürgün edildiyini bildirir.(1, 38) Bolşeviklərin əsas siyasi opponentləri müsavatçılar idi. Onlarla “haqq-hesab çürütmək” vaxtı çatmışdı. Lakin buna mabahisə, diskussiya və s. vasitəsilə nail olmaq mümkün deyildi. Çünki masavatçıların zahni inkişaf səviyyəsi, intellekti xeyli yüksək idi. Barada da iblisanə məkrli siyasətlə əvvəl masavatşılarla “əməkdaşlıq” edirmiş kimi, onlaaaaara dəyib dolaşmadılar. Müəyyən bir müddətə öz hakimiyyətlərini möhkəçləndirən iblis balaları həm də müsavatçıların dəqiq siyahısını tutur, onların gücünü müəyyənləşdirirdilər. (1, 39-40)

Mədinə Qiyasbəylinin istintaq işindən məlum olur ki, Sovet sistemi özü öz cinayətlərindən xoflanır, həbs düşərgələrində baş verən vəhşiliklərin gizli saxlanılmasına, bu barədə düşərgədən kənara heç bir məlumat sızmamasına can atırdılar. Öz fəaliyyətlərində Stalinin “Bir insanın ölümü faciə, milyonların ölümü isə statistikadır” ifadəsini rəhbər tutan NKVD-çilər amansızcasına həbs düşərgələrindən gələnləri, onların yaxınlarını məhv edridilər. Görünür M.Qiyasbəylinin məhvinə səbəb də bu dəhşətlərdən xəbərdar olması idi. Onun dayısı oğlu Vəkilov Rəhim Müsavat parlamentinin üzvü olmuş, 1934-cü ildə Solovki konslagerindən qayıtdıqdan sonra intihar etmişdir. Mədinə xanım dindirilmə zamanı qohumları Vəkilov Rəhim, Vəkilov İsfəndiyar, Vəkilov(Baharlı) Məmməd və s. sürgündən qayıtdıqdan sonra onlarla əlaqə saxladığını, sovet həbs düşərgələrində hökm sürən vəhşiliklərdən xəbərdar olduğunu bildirir, bununla da öz ölüm hökmünü yazmış olur:

Sual : Siz haradan bilirsiniz ki, konslagerdə həbsdə olan müsavatçılar siyasi aclıq elan etmişdilər.

Cavab : Bu barədə mən birinci dəfə Məlikov Rəhimbəydən 1930-31-ci illərdə bilmişəm.

.....

Sual : Bu aclıqlar barədə siz kimə danışmısınız?

Cavab : heç kəsə.

Sual : Maksim Qorkinin konslagerə gəldiyi vaxt müsavatçıların hərəkətləri barədə sizə nə məlumdur?

Cavab : Mənə danışıblar ki, Maksim Qorki konslagerə gəlib dustaqların halı ilə tanış olmaq istəyəndə, cəza tədbirlərindən qorxan müsavatçılar ona heç bir şey demədilər. Lakin müsavatçılardan biri Maksim Qorkiyə dustaqların konslagerdə çəkdikləri məhrumiyyət və işgəncələr haqda yazılı məktub verdi. Sonra bunu bilən lager rəhbərləri bu qoçağı məhv etdilər. (1,61-62.)

"Savadlı, ziyalı bir qadın olan müsavatçılara hüsn-rəğbətini gfizlətməyən Mədinə Qiyasbəyli konkret olaraq Sovet Hökumətinə qarşı heç bir fəaliyyət göstərməsə də bu cür məlumatlılığına və özünün də dediyi kimi sürgünə, məhvə məhkum olan həmyerlilərinin ailələrinə yardım göstərdiyinə görə güllələnməyə məhkum edilmişdir. Görünür onun bəy ailəsində doğulması da cəzasının ağırlığını şərtləndirmişdir. Üçlüyün hökmü ilə o 1937-ci il sentyabrın 28-də güllələnmişdir." (1, 65-66) Mədinə Qiyasbəyli 1956-cı il 3 sentyabrda ölümündən sonra bəraət almışdır.

"Qırmızı terrorda" Mədinə Qiyasbəyli barədə istintaq sənədlərinə əsaslanan bu oçerkdə Z.Bünyadova xas iki qeydi də nəzərə çatdırmaq istərdik. Böyük Vətən Müharibəsinin dəhşətlərini görmüş, Sovet ittifaqı qəhrəmanı Ziya Bünyadovun Azərbaycan qadınlarının bu acınacaqlı taleyinə nə qədər yandığı və əsəbiləşdiyi Mədinə xanımla bağlı istintaq materiallarına olan iki xırda əlavəsindən görünür.

Birincisi, müstəntiq düşərgədəki işgəncələr və M.Qorki ilə bağlı sualına cavab aldıqdan sonra soruşur: "Boynunuza alırsız ki, bu məlumat (yəni düşərgədə məhbuslara işgəncə verilməsi-V.A.) böhtandır? Bu yerdə Ziya Bünyadov mötərizədə öz qeydini verir.(böhtana bir bax! Özü də əkinqilabi! –Z.B.) (1,62)

İkinci qeyd Mədinə xanımla bağlı hökmlə əlaqədardır:

"Qərara alındı: Qiyasbəyli Mədinə xanım Mehdi qızı- güllələnsin, əmlakı müsadirə edilsin. (Görəsən nəyi varmış –Z.B.)

Oçerkin sonunda Z.Bünyadov yazır: Budur xalqımızın günahsız qızı Mədinə xanımın faciəli taleyi!

Akademik Z.Bünyadov R.Hüseynov kimi poetik ruhlu bir yazıçı deyil və o qarşısına bədii yox, sırf sənədli bir əsər yazmaq məqsədi qoymuşdur. Bununla belə qadın qurbanlarımızın faciəsi sərt, qəhrəman təbiətli Z.Bünyadovu belə riqqətə gətirir. O repressiya qurbanlarından biri Gülarə xanım İbrahim Xəlil qızı Qədirbəyova- repressiya maşınının müəmmalı şəkildə yoxa çıxardığı bu nəcib, ziyalı azərbaycan qadınının istintaq qovluğu əsasında tərtib edilmiş oçerkini bu sözlərlə başa vurur: "Bəs Gülarə xanım Göylü qızına nə oldu? İzinə düşən varmı?

Gülarə xanımın istintaq sənədləri ilə tanış olduqda Sovet repressiya sisteminin qəddar olduğu qədər də yararsız olması üzə çıxır. Gülarə xanımın günahı müsavatçı kimi həbs olunmuş yaxın qohumlarından –atasından, qardaşından üz döndərməməsi idi. (6, 4) Bu əsərdə Z.Bünyadov Gülarə xanımdan danosbazlıq edən şəxslərə olan qəzəbini də gizlədə bilmir. Oçerkdən məlum olur ki, Gülarə xanımın həbsinə səbəblərdən biri də Həşimzadə Bilqeys adlı bir şəxsin onun barəsində Mir Cəfər Bağırova yazdığı ərizələr idi. Həmin ərizədə və istintaqa verdiyi ifadələrdə Həşimzadə göstərir ki, Gülarə qardaşının əksinqilabi fəaliyyətə görə sürgün olunmasına baxmayaraq onun ailəsi ilə əlaqə saxlamışdır. O eləcə də atalığına, kənd mollası olmasına baxmayaraq, maddi yardım göstərirmiş. Gülarə xanım Əli Bayramov adına mədəniyyət sarayının 15 illiyinə hazırlanan "Bir sarayın tarixi" adlı kitabın hazırlanmasını əvvəl müsavatçı yazıçı Musayev Qurbana, sonra isə Əhməd Cavada həvalə edibmiş. Ona görə də bu əsər müsavat ruhunda yazılmışdır. Qədirbəyova Gülarə Hüseyn Cavidlə yaxınlıq edir, onun evinə tez-tez gedir, saatlarla otururdu. Qədirbəyovanın xalq düşməni kimi ifşa olunmuş Xədicə Hüseynova ilə də yaxınlığı var idi. Onlar ikisi də Əıi Bayramov adına sarayda işləyir, dostluq edirdilər."

Bu sətirlərdən sonra Z. Bünyadov yazır: "Çox sağ olun Bilqeyis Həşimzadə. (Diqqət! Z. Bünyadov repressiya qurbanları olan qadınların hamısının adından sonra xanım sözü işlədir. Bütün əsər boyu Bilqeyis Həşimzadəyə isə bu sözü layiq bilmir. - V.A.) Əhsən! Amma hələ bu harasıdır! İşin içində Qədirbəyovanın birinci əri Qədirbəyov Əhmədin Azərbaycam Dövlət Siyasi İdarəsinin məxvi şöbəsinin rəisi Moroza və həmin idarənin Şərq şöbəsi (Beləsi də var imiş!-Z.B.) müdiri Jukova yazdığı böhtan dolu danos da var! (1,70) Bütün bunlar, nə qədər acı olsa da o dəhşətli illərdə bəzi xəbis insanların repressiya maşınından şəxsi intiqam hissi ilə istifadə etmıəsini düşünməyə əsas verir. Gülarə xanım öz ifadələrində də bəzi adamların ona qarşı kinli olması səbəbindən ona bu cür böhtan atmasını bildirir. Amma artıq gec idi. Qədirbəyova repressiya maşınının məngənəsində idi. Üçlüyün iclasında 1939-cu il 9 iyun tarixində onun barəsində 5 illk həbs hökmü verilir. O həmin il Marinski həbs düşərgəsinə göndərilir və 1942-ci ildə düşərgədən yoxa çıxır. Qəribədir ki, yalnız 1948-ci ildə çürük sovet rejimi onun axtarışı və yenidən həbs olunması barədə qərar çıxarır! Gülarə xanım itkin düşdükdən düz altı il sonra! 1957-ci ildə isə cinayət tərkibi olmadığı üçün Gülarə Qədirbəyovanın işinə xitam verilir.

Ziya Bünyadovun "Qırmızı terror" əsəri sırf sənədli-tarixi oçerklərdən ibarətdir. Buardakı tərcümeyi-hallar da əsasən müttəhimlərin istintaqa cəlb edilməsi səbəblərini, istintaq prosesini və qərarlarını əks etdirir. Amma bu oçerklərin hər birinin arxasındakı bir deyil, minlərlə insanın faciəsi canlanır.

Bu quru qərarların-"güllələnsin", "sürgün edilsin" əmrləri arxasında nə qədər ailənin faciəsi gizlənir. Digər tərəfdən, bu əsərdə insanı-insanın üzünə qoyan, cəmiyyətdə "vətən xaini" xofu ilə qeyri-sağlam, yabançı bir atmosfera yaradan rejimin mənəviyyatlara vurduğu zərbə ilə üzləşirik. Repressiya illərində, Alerksandr Soljenitsının dediyi kimi, "satqınlıq salamat qalmaq formasına çevrilmişdi." Danosbazlıq o qədər güniş yayılmışdı ki, hər bir kəs ətrafında xəbərçilərin olmasından şübhələnirdi. Sistem elə işləyirdi ki, ya hər bir iş yerində, kabinetdə, mənzildə kimsə xəbərçi (stukaç) olur, ya da belə birisi olmasa da, adamlar aralarında xəbərçi olmasını düşünürdülər. O dövrdə xəbərçilik etməmək, "xalq düşmənini" təhvil verməmək özü düşmən olmaq idi. Xalq düşməninin dostları, onun ailəsinə mərhəmət göstərən, körpələrini himayəyə alan hər bir kəs "xalq düşməni" sayılırdı." (11) Bu cəmiyyətdə bacının qardaşına can yanğısı göstərməsi, balanın ruhani atasına maddi yardımı "əksinqilabi fəaliyyət sayılırdı. Əslində bu ad elə düzgün bir ad idi. Çünki inqilab özü iblisin inqilabı idi. Tarıx boyu mütərəqqi inqilablar olduğu kimi, cəmiyyəti geri çəkən, tərəqqiyə deyil, tənəzzülə gətirib çıxaran inqilablar da az baş verməmişdir. Azərbaycanın "28 aprel inqilabı" adlanan, əslində isə 28 apreldə baş verən qəzb və ilhaqı bildirən hadisələri bolşevik hakimiyyətinə qarşı hər bir fəaliyyətə haqq qazandırırdı. Ölkəni geriyə atmış bir "inqilabın" əksinə çıxmaq özü açıq fikirlilikdən, hadisələri düzgün qiymətləndirməkdən, ağa "ağ", qaraya "qara" demək bacarığından irəli gəlirdi. Ona görə də "Mədinə xanım Qiyasbəylinin istintaq ifadəsində bildirdiyi kimi, o dövrdə masavatçılarla həmrəy olan "əksinqilabçılar" belə hesab edirdilər ki, "bu adamlar millət uğrunda əziyyət çəkirlər." (1, 63)

İstintaq işlərində əks olunmuş tərcümeyi-hal sənədlərində nəzəri cəlb edən bir cəhət də terror qurbanlarının bəzilərinin axıradək yuxarılara-xüsusilə Stalinə inanmaları, onun bu işlərdən xəbərsiz olmasını düşünmələri idi. Halbuki bütün bu fəlakətlər lap əvvəldən yüksək mənsəbli sovet liderləri tərəfindən düşünülmüş, planlı şəkildə həyata keçirilmişdir. Sovet rejiminin lap əvvələrindən ziyalılara qarşı hücum kompaniyası başlanmıdır. Çünki cəmiyyətin düşünən təbəqəsi olan ziyalılar sovet sisteminin puç, saxta mahiyyətini dərhal başa düşmüşdülər. Amma xalqın müəyyən hissəsi, xüsusilə qadınlar Sovet liderinə inanır, ölkədə baş verən haqsızlıqlardan onlara şikayət edirdilər.

" Əziz İosif Vissarionoviç! İkinci dəfədir ki, mən öz dərdimi Sizinlə bölüşdürürəm və ümidvaram ki, Siz mənə rəhm edərsiniz. Mən Umgülsüm Əbdüləziz qızı Sadıqova Azərbaycan yazıçısı Seyid Hüseyn Sadıqovun həyat yoldaşı kimi 8 il müddətinə azadlıqdan məhrum edilmişəm. 6 ay Bakıda həbsxanada qaldıqdan sonra Temlaqa sürgün olmuşam Mənim evdə 4 uşağım qalmışdır, onlardan böyüyünün 17, kiçiyinin isə 8 yaşı vardır. Əziz dahi rəhbərimiz, uşaqlarla qyrılığın necə ağır və dəhşətli olduğu Sizə

aydındır. Mənim heç bir günahım yoxdur. Bir Azərbaycan atalar sözü var : "ətlə dırnağı ayırmaq olar, ana ilə övladı yox." Mən hər bir fiziki ağrıya dözərəm, ancaq uşaqlarla ayrılığa yox. Yalnız Sovet hökuməti bizi əzizləyib və bizə bərabər hüquq veribdi... Siz bizə doğmasınız. Bizi Siz cəzalandırmısınız, bizi Siz də bağışlayacaqsınız, baxmayaraq ki, biz öz cəzamızın səbəbini bilmirik.

Əziz İosif Vissarionoviç, 8 aydır ki, mən göz yaşı tökürəm, Sizə gözü yaşlı xahiş edir, yalvarıram ki, mənə və mənim uşaqlarıma rəhm edəsiniz. Məni onların yanına qaytarasınız, mənə onları böyütməyə imkan verəsiniz. (3, 173)

Beləliklə, "faciələrinin mahiyyətini və səbələrini anlamayan sadəlövh qadınlar Moskvadan "yoldaş Satlindən" imdad diləmiş, dəfələrlə ona müraciət etmişlər. (4,4)

Sovet dövrünün repressiya aparatı yalnız 30-cu illərlə kifayətlənmədən durmadan işləmişdir. Köhnə yaralar unudulub qaysaq bağlamaqda ikən xalqın ürəyinə yeni xəncərlər vurulurdu 50-ci illərin əvvəllərində rejim Əziz Əliyevin zəkasından vahimələnməyə başlayır. Görünür görkəmli alim və ictimai-siyasi xadimin parlaq şəxsiyyəti öz kölgəsindən qorxanları narahat edirdi. Əziz Əliyevin ailəsinin qəzəbə tuş gəlməsi ailənin qızı Zərifə xanımın da həyatına təsir göstərir. Bir zamanlar Şükriyyə xanıma Əhməd Cavaddan ayrılmağı təklif edən rejim yenə insanların hissiyyatı ilə oynamağında davam edirdi. Təhlükəsizlik nazirliyinin gənc və perspektivli kadrı Heydər Əliyevə MirCəfər Bağırovun xoşlanmadığı Əziz Əliyevin qızından uzaq olmaq tapşırılır. Amma Azərbaycan insanı bir daha Əhməd Cavad dözümü, Şükriyyə sədaqəti nümayiş etdirir. Gənclər gizli olaraq görüşməkdə davam edirlər. Heydər Əliyevə xəbərdarlıq xəbərdarlıq ardınca edilir. Heydər Əliyev həmin günləri bu cür xatırlayır:

"DTK-da işlədiyimdən mən hər şeyi yaxşı bilirdim. Bilirdim ki, Əliyevləri Qazaxsatana sürgün etmək planlaşdırılır. Fikirləşirdim ki, mən də onun (Zərifənin-V.A.) ardınca Qazaxstana gedərəm. Bəlkə orda burdakından da asanlıqla iş taparam."

...1953-cü ilin martında Stalininin vəfatı ilə bir çox ailələr təqiblərdən, repressiyalardan qurtuldu. Onlardan biri də Əziz Əliyevin ailəsi idi. Və bu qurtuluş gənc, möhkəm bir ailənin təməl daşı oldu: Heydər Əliyev Zarifə xanım Əliyeva ilə evləndi. (10, 49-51)

Azərbaycan qadınının sovet repressiyası dövründə çəkdiyi acılar bir tədqiqata sığmayacaq dərəcədə sonsuzdur. Bu sonsuz işgəncə və təqiblərə baxmayaraq Azərbaycan qadını yaşadı, öz qan yaddaşını, öz mənlik və mədəniyyətini qorudu. Sovet dövründə elm, mədəniyyət, incəsənət, təsərrüfat və s. bir çox sahələrdə nailiyyətlər qazanmış Azərbaycan qadını müstəqillik dövründə bu nailiyyətlərini daha da möhkəmləndirdi.

Ədəbiyyat

1.Bünyadov Ziya. Qırmızı terror, Bakı: Azərnəşr, 1993.
2.Qasımov C. Əsrin qiyamət çağı. Bakı: Azərbaycan Ensiklopediyası,1997
3.Qasımov C.Yaddaşın bərpası.Bakı: Mütərcim,1999
4.Qasımov Musa, Tarixin ibrət dərsləri.//Soyqırım analardan başlanır.Bakı: Vətən, 2003.
5.Həsənov Cəmil, Ağ ləkələrin qara kölgəsi. Bakı: Gənclik,1991.
6.Məmmədova Ş. Analaların fəryadı. Bakı: Gənclik,2006
7.Soyqırım analardan başlanır. Tərtibçi: Ş.Məmmədova. Bakı,Vətən, 2003.
8.Arestupodlejat jeni.www polit.ru/research/
9. (books.ru/anthors/ soljenicin-aleksandr/arhgul.html.)
10.Мираламов Гусейнбала, Зарифа Алиева – Жизнь замечательных людей, Москва, Молодая гвардия, 2010.
11.Солженицын А. » Архипелаг Гулаг» books. ru/authors/soljenicin-aleksandr/arhqul.html

В.Агаева

Азербайджанская женщина – в качестве мишени сталинских репрессий

Резюме

Большая часть азербайджанской мемуарной и биографической литературы посвящена жертвам Сталинских репрессий. Данная статья изучает мемуарную литературу об азербайджанских женщинах – жертвах этих репрессий. По законам тех времен, члены семей так называемых «врагов народа» тоже привлекались к ответственности.

В статье, исходя из библиографической литературы составленной на основе уголовных досье, рассказывается о жестокой судьбе жены Ахмеда Джавада Шукрия ханум и тех женщин, которые были арестованы за антиреволюционную деятельность.

Здесь же рассматривается репрессивная обстановка 50-х годов и некоторые стороны биографии акад. Зарифы Алиевой.

V.Aghayeva

Azerbaijani women on the target of stalin repressions

Summary

A great portion of the Azerbaijani literary memoirs and biographies has been devoted to the victims of Stalin repressions.

The present article deals with the memoirs and biographic literature about the Azerbaijani women – victims of these repressions, who under the rules of that terrible period were convicted as a family member of the so-called “enemies of the nation”.

Relying on the biographical literature written on the basis of the criminal files of the convicted victims, I am trying to expose the important moments of the biography of the wife of Ahmad Jawad Shukriyya khanum, and other victims- Azeri women intellectuals who were arrested over their anti-revolutionary activities.

Some accounts have been made about the repressions of the fifties and the biography of the academician Zarifa Aliyeva.

Rəyçi: Himalay Qasımov
Filologiya elmləri doktoru, professor

NƏRGİZ HƏSƏNLİ
Azərbaycan Dillər Universiteti
e-mail:nara070792@gmail.com

İNGİLİS ƏDƏBİYYATININ MURİEL SPARK FENOMENİ

Açar sözlər: Muriel Spark, şəxsiyyət azadlığı, Brodi klanı, curriculum vitae, Lorna.
Ключевые слова: Мюриэль Спарк, свобода личности, клан Броди, биография, Лорна.
Key words: Muriel Spark, freedom of personality, Brody clan, curriculum vitae, Lorna.

Dünya şöhrətli ingilis yazıçısı xanım Muriel Sparkı Azərbaycanda nəinki sadə oxucu, heç ali filoloji təhsili olanların da əksəriyyəti yaxşı tanımır. Ötən əsrin əllinci illərindən fəal bədii yaradıcılığa başlayan əlli ilə yaxın bir müddətdə dünya ədəbiyyatına bir-birindən dəyərli əsərlər bəxş edən bu istedadlı yazıçının romanlarının, hekayə və məqalələrinin hələ də dilimizə tərcüməsinə cəhd göstərilməməsinin səbəblərini izah etmək çətindir. Azərbaycan sovet ədəbiyyatşünaslığının Muriel Sparkın yaradıcılığına diqqət yetirməməsi başa düşüləndir: sovet ideologiyasına xidmət etməyən heç bir ədəbiyyatın oxunmadığı, demokratik fikirli xarici ədəbiyyatın tərcüməsinin və təbliğinin mümkünsüz olduğu bir dövrdə şəxsiyyət azadlığının mükəmməl bədii təcəssümünü verən yazıçının adının və əsərlərinin "xalqlar həbsxanası"na yol tapması müşkül iş idi. Lakin dövlət müstəqilliyinin iyirmi altıncı ilində də biz M.Sparkın hazırda bütün dünyada, o cümlədən qardaş Türkiyədə və qonşu Rusiyada böyük maraqla oxunan romanlarından heç birinin azərbaycanca tərcüməsinə, ən azı, Milli Kitabxananın fondunda rast gəlmirik. "Yalnız iki il əvvəl "Ədəbiyyat" qəzeti yazıçı-tərcüməçi R.Abbaslının qısa təqdimatı ilə onun kiçik bir hekayəsini dərc etmişdir".**(1)** Bu hekayə haqqında aşağıda bir qədər ətraflı söz açağıq. Təbii ki, kiçik bir hekayə ilə Azərbaycan oxucusunun diqqətini M.Sparka yönəltmək, çətindir və qeyd edək ki, son illərdə "XX əsr dünya ədəbiyyatı" fənni üzrə nəşr edilmiş ali məktəb dərsliklərində də ingilis ədəbiyyatının nümayəndələri kimi tələbələrə, əsasən, Bernard Şou, Ceyms Oldric, Uilyam Qoldinq tanıtdırılır. Bu zaman, təbii olaraq, etiraf edilir ki, tələbələrə hələ də "sosialist əqidəli ədəbiyyat"ın təmsilçiləri – XX əsrin 60-cı illərinə qədər əsərləri rərcümə edilmiş yazıçıların yaradıcılığı öyrədilir, çünki 1960-cı ildən bu günümüzə qədərki ədəbiyyatın araşdırılması və təhlili gərgin əmək və vaxt tələb edir. Belə bir ümid vurğulanır ki, "ədəbiyyatşünaslıq elminin

gələcək nailiyyətlərindən biri də, yəqin ki, bu dövrün ədəbiyyatının araşdırılması olacaqdır".**(2,4)**

Azərbaycan ədəbiyyatşünaslığında müasir dünya ədəbiyyatı ilə bağlı araşdırmaların aparılması istiqamətində, həqiqətən də, fəal iş gedir və bu sahədə gənc alimlərin təşəbbüskarlığı diqqətçəkicidir. "Bu baxımdan filologiya üzrə fəlsəfə doktoru V.Əliyevanın "XX əsr ingilis ekzistensial romanında qəhrəman axtarışı (K.Uilson, M.Spark, Q.Qrinin yaradıcılığı əsasında)" mövzusunda yazdığı dissertasiya ədəbiyyatşünaslığımız üçün əhəmiyyətli tədqiqat hesab edilə bilər".**(3)** Dissertasiyada M.Sparkın yaradıcılığı onun roman və povestlərində qəhrəmanların məsuliyyəti və günahın dərki kimi ədəbi-fəlsəfi konteksdə araşdırılmışdır.

"Başqa bir tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru A.Əlizadə isə "Müasir rus və ingilis qadın yazıçıların nəsrində "qadın mövzusu"nun ideya-bədii diapazonu" adlı monoqrafiyasında M.Sparkın da yaradıcılığına müraciət etmişdir. O, yazıçının bir neçə məşhur əsərini tədqiqata cəlb etmiş, həmin əsərlərin qəhrəmanlarının mənəvi-əxlaqi səciyyəsini açmağa çalışmışdır".**(4,160)**

Göründüyü kimi, son illərdə M.Sparkın yaradıcılığı Azərbaycanda, əsasən, rusdilli tədiqiqatçılar tərəfindən araşdırılmış və müvafiq olaraq, nəşr edilmişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, azərbaycandilli mənbələrdə hələ də M.Sparkın nəinki çoxcəhətli və məhsuldar ədəbi yaradıcılığı, hətta uzun və mənalı ömür yolu barədə də sanballı bir araşdırmaya rast gəlmək mümkün deyildir. Bunu nəzərə alaraq, tədqiqatızımda, ilk növbədə, bu məsələlərə diqqət yetirməyi vacib hesab edirik.

Muriel Spark XX əsrin ikinci yarısında ingilis ədəbiyyatında satirik nəsrin görkəmli nümayəndələrindəndir. Onun ilk romanı - "Təsəlliverənlər" (*"The Comforters"*) 1957-ci ildə nəşr olunmuşdur. Bu istedadlı yazıçı 16 romanın, 5 hekayələr toplusunun, M.Şelli, C.Meysfild, E.Bronte kimi ingilis ədəbiyyatı klassikləri haqqında ədəbi-tənqidi araşdırmaların müəllifidir. Onun əsəsrlərinin mövzu və problemlərini, necə deyərlər, həyat özü diqtə etmişdir. Tənqidçilərin fikrincə, lakoniklik, ciddilik, sərtlik və acı itehza onun üslubunun əsas xüsusiyyətləridir. Hətta bəziləri Sparkın yaradıcılığının üslub istiqamətini müəyənləşdirməyin mümkünsüzlüyünü vurğulayaraq, onun üslubunun yalnız özünəməxsus olduğunu bildirmişlər.

"Muriel Sara Spark (*Muriel Sarah Spark*) 1 fevral 1918-ci ildə Edinburqda (*Şotlandiya*) anadan olmuşdur. Qızlıq soyadı Kemberq olan yazıçının atası yəhudi, anası protestant inanclı ingilis idi. Muriel Edinburqda Ceyms Gillespinin qadın məktəbində təhsil almış, bir müddət Afrikada yaşamış, 1938-ci ildə orada ərə getmiş və ərinin soyadını götürmüşdür. Bu uzun sürməyən evlilikdən bir oğlu olan Muriel boşandıqdan sonra

İngiltərəyə qayıtmış, burada Xarici İşlər Nazirliyinin kəşfiyyat şöbəsində işə başlamışdır".**(5)**

M.Spark "Poetika cəmiyyəti"nin baş katibi və "Poetik icmal" *("Poetry review"*) jurnalının redaktoru (1947–1949) olmuş, sonra XIX əsr ingilis ədibləri haqqında tənqidi-bioqrafik kitablarını - "İşığın övladı: Meri Şellinin yenidən dəyərləndirilməsi" (*Child of Light: A Reassessment of Mary Shelly*, 1951, "Meri Şelli"nin yenidən işlənmiş nəşri, 1988), "Con Meysfild" (1953) və "Emili Bronte: onun həyatı və yaradıcılığı" ("*Emily Bronte: Her Life and Work"*, 1953) – nəşr etdirmiş, həmçinin "Fenfarlo və başqa şeirlər" (*Fanfarlo and Other Verse*, 1952) adlı ilk poeziya toplusunu buraxmışdır.

M.Spark ilk bədii nəsr nümunəsini – "Serafim və Zambesi"ni (*"The Seraph and the Zambesi", 1951*) yazanda artıq şair və tənqidçi kimi tanınırdı. O, hekayəsini Londonda çıxan "Observer" jurnalının Yeni il münasibəti ilə elan etdiyi müsabiqəyə göndərmiş, Yeni il mövzusunun qeyri-adi yozumuna görə ən yüksək mükafata layiq görülmüşdü.

Həmin dövrdə Spark dini inancı ilə bağlı böhran keçirirdi. Bu zaman ona vaxtilə katolikliyi qəbul etmiş yazıçı Qrem Qrin həm psixoloji, həm də maddi yardım göstərirdi. 1954-cü ildə M.Spark özü də katolikliyi qəbul edir. Bu addımın onun yaradıcılığına güclü təsiri olur. Spark yaradıcılığının çoxdankı pərəstişkarı, amerikalı yazıçı C.Apdayk (*John Updike, 1932-2009*) yazırdı: "Hələ ilk dərc olunmuş və mükafat almış "Serafim və Zambesi" hekayəsindən Afrikanın qara cadusu Sparkın düşüncəsində onun qətiyyətlə qəbul etdiyi katolikliyin qara cadusu ilə çulğaşmışdı".**(6)**

Yazıçının ehtiraslı və heyranedici xarakterlər yaratmaq qabiliyyəti onun "Təsəlliverənlər" (*"The Comforters", 1957*) romanında bariz şəkildə özünü göstərmişdir.

M.Sparka 1959-cu ildə işıq üzü görən "Memento mori" romanı çox böyük uğur gətirdi. Romanı hətta bir-birinin ardınca bu dünyadan köçdükləri vaxtda belə, küsüşməkdən və rəqabət aparmaqdan əl çəkməyən ahıllaşmış intellektuallar qrupunun "ölüm rəqsi" də adlandırmaq olar. Bu əsərdən sonra bəzi tənqidçilər Sparkı məşhur ingilis romançıları Ayvi Kompton-Bernett və İvlin Vo ilə müqayisə etmişdilər. Roman 1964-cü ildə teatr, 1992-ci ildə isə Britaniya televiziyası üçün səhnələşdirilmişmişdir.

"1961-ci ildə Spark ingilis ədəbiyyatının şedevrlərindən sayılan "Xanım Cin Brodinin ən yaxşı çağı" ("*The Prime of Miss Jean Brodie", 1961*) romanını yazdı. 1966-68-ci illərdə bu əsər teatr üçün işlənmiş, İngiltərədə və Amerikada böyük maraqla qarşılanmış, 1969-cu ildə isə onun əsasında film çəkilmişdir. Romanda 1930-cu illərdə Edinburqda Marsii Bleyn qadın məktəbində işləyən və ətrafına beş qız toplayayaraq "Brodi klanı"nı quran orta yaşlı qadın müəllimin həyatı təsvir olunur. Cin Brodi ingilis ədəbiyyatında tez-tez rast gəlinən heyrətamiz dərəcədə qeyri-adi

personajlardandır. Brodi "gəncləri ağıllandırmağı" özünün başlıca missiyası hesab edir. Lakin sonrakaı həyatlarında qızların hər biri xanım Brodinin ideallarına xəyanət edir. 1939-cu ildə Cin Brodini faşizmin təbliğində ittiham edərək işdən uzaqlaşdırırlar..."**(7)**

M.Sparkın digər məşhur romanları bunlardır: "Robinzon" (*Robinson*, 1958), "Pekhem Ray haqqında ballada" (*The Ballad of Peckham Rye*, 1960), "Subaylar" (*Bachelors*, 1960), "Kasıbyana qızlar" (*The Girls of Slender Means*, 1963), "Mandelbaum qapıları" (*The Mandelbaum Gate*, 1965), "Sürücü oturacağı" (*The Driver's Seat*, 1970), "Narahat etməməli" (*Not to Disturb*, 1971), "Kru rahibəsi" (*The Abbess of Crewe*, 1974), "Ərazi hüququ" (*Territorial Rights*, 1979) , "Qəsdən ləngitmə" (*Loitering With Intent*, 1981), "Tək problem" *The Only Problem*, 1984), "Kensinqtondan ağlaşma səsi" (*A Far Cry From Kensington*, 1988), "Ziyafət" (*Symposium*, 1990), "Gerçəklik və arzular" (*Reality and Dreams*, 1996). Yazıçının hekayələrindən ibarət beş kitabı: "Turac quşu" və başqa hekayələr (*The Go-Away Bird and Other Stories*, 1958), "Oynaq səslər" *Voices at* (*Play*, 1961), "Seçilmiş hekayələr" (*Collected Stories*, 1968), "Muriyel Sparkın hekayələri" (*The Stories of Muriel Spark*, 1985), "İctimaiyyətin diqqətinə: yeni və seçilmiş hekayələr" *Open to Public: New and Collected Stories*, 1997), "Seçilmiş şeirlər" (*Collected Poems*, 1967) poetik toplusu və "Fəlsəfə doktoru" (*Doctors of Philosophy*, 1962) pyesi nəşr olunmuşdur.

1993-cü ildə, 75 yaşında Spark öz həyat və yaradıcılığına dair faktları bir yerə toplayaraq "*Curriculum Vitae: tərcümeyi-hal"* əsərini yazmışdır. Burada o özünün 39 yaşınadək – ilk romanı "Təsəlliverənlər"in dərcinə qədərki yaşamından bəhs edir, bir sıra tənqidçilərin onun haqqında yazdıqlarını dəqiqləşdirir.

M.Spark 1993-cü ildə Britaniya imperiyasının ordeninə layiq görülmüşdür.

Yazıçının "Köməkçilər və təhrikçilər" (*Aiding and Abetting*, 2001) romanı tənqidçilər tərəfindən yüksək qiymətləndirilmişdir. M.Sparkın son romanı "Son sinif" (*The Finishing School,* 2004) adlanır.

Muriel Spark 13 aprel 2006-cı ildə 88 yaşında İtaliyada vəfat etmiş, Toskana əyalətində Sant-Andrea həvariləri kilsəsində dəfn olunmuşdur.

"Şotlandlar Muriel Sparkı özlərinin milli mədəni sərvəti hesab edirlər. Onun irihəcmli portretləri bu ölkənin Milli Portret Qalereyasında nümayiş olunur, Edinburqa gələn qonaqlara yazıçının vaxtilə təhsil aldığı Gillespi qadın məktəbini göstərirlər".**(8)**

"Azərbaycanda son illərdə dünya ədəbiyyatının ən yaxşı nümunələrinin tərcüməsi və təbliği sahəsində faydalı işlər görülmüşdür. Azərbaycan Respublikası Prezidenti "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq

edilməsi haqqında" 30 dekabr 2007-ci il tarixli, 2613 nömrəli Sərəncam imzalamış və bunun əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası"nın nəşrinə başlanmışdır. Bu siyahıda müasir dünya ədəbiyyatının 40 nümayəndəsi arasında M.Sparkın adı olmasa da, "İngilis ədəbiyyatı antologiyası"nda və ya "XX əsr dünya ədəbiyyatı antologiyası"nda əsərləri zəmanə adamının mənəvi dünyasına işıq salan bu məşhur xanım yazıçının da yaradıcılıq nümunələrinə yer veriləcəyini ehtimal etmək olar".**(9)**

Lakin azərbaycandilli oxucu hələlik yalnız "Ədəbiyyat" qəzetində M.Sparkın "Görəydiniz orda nələr olur..." (*You Should Have Seen the Mess*) adlı hekayəsini oxuya bilər. Hekayə 17 yaşlı Lornanın işlədiyi yerdə, dostluq etdiyi həkimin, tanış olduğu rəssamın evində gördüyü natəmizlik haqqında monloqundan ibarətdir. İlk baxışda kasıb, amma öz "təmzilik qanunları" olan bir ailədən çıxan sadəlövh yeniyetmə qızın düşüncələri onun xarakterindən xəbər verir. Təbii ki, tərcümə bu hekayədəki yazıçı ironiyasını tam dəqiqliyi ilə ifadə edə bilmir, amma həyata gözünü yenicə açan Lorna ətrafında müşahidə etdiyi zahiri natəmizliyin insanların mənəvi dünyasına sirayət etməsindən də narahatdır və hələlik isə gücü yalnız ona çatır ki, rəssam Villiyə ərə getmək barədə daha düşünmür və onun mənzilində gördüklərini yada salanda acı xatirədən ürəyinin ağrıyacağına əmindir.

İkinci Dünya müharibəsindən sonra ədəbiyyata gələn romançılar arasında özünməxsus yaradıcılıq yolu və ədəbi mühitə təsir qüvvəsi olan xanım Muriel Spark satira ustası və əxlaq filosofu hesab edilir. O, zərif duyumu, misilsiz hazırcavablığı və diqqətəlayiq yaradıcılığı ilə şöhrət qazanmışdır.

Görkəmli ingilis yazıçısı xanım Muriel Sparkın Azərbaycan ədəbiyyatşünaslığında zəif tədqiq edilməsinin ən mühüm səbəblərindən biri onun əsərlərinin dilimizə tərcümə edilməməsidir. Apardığımız araşdırma zamanı yalnız rusdilli tədqiqatçıların bu məsələdə fəallıq göstərdiyini müşahidə etdik ki, bu da istər Azərbaycanda kitabxanalarda, istərsə də qlobal internet şəbəkəsində yazıçının rus dilinə tərcümə edilmiş çoxsaylı romanlarının, həmin əsərlər haqqında elmi-nəzəri və filoloji fikirləri əks etdirən mənbələrin geniş şəkildə mövcudluğu ilə bağlıdır. Ölkəmizdə dünya ədəbiyyatına marağın artdığı bir vaxtda Muriel Sparkın yaradıcılığına diqqətin artırılması üçün yeni nəsil tərcüməçilərin onun əsərlərinə müraciət etməsi vacib amil ola bilər. Cəmiyyətdə mənəvi dəyərlərin qorunub saxlanması, insan xislətindəki yaramazlıqların ifşa edilməsi, dünyanı dərindən dərk edən şəxsiyyətin formalaşması Muriel Sparkın bədii qayəsinin başlıca xətti kimi oxucunun həm dünyagörüşünü genişləndirir, həm də onu tərbiyə edir.

İstifadə edilmiş ədəbiyyat

1. R.Abbaslı. Avropa postmodernizmi – Böyük Britaniya. Müriel Spark. "Ədəbiyyat qəzet" 14 noyabr 2015-ci il.
2. G.Ağabəy. "XX dünya ədəbiyyatı tarixi". Bakı. "Elm və təhsil", 2013. 192 s. (s.4).
3. *Алиева В. С.* Поиск героя в английском экзистенциальном романе XX века (на материале творчества К. Уилсона, М. Спарк, Г. Грина) [Текст] : дис. ... д-ра филос. по филол.: 5718.01 /В. С. Алиева ; М-во Образования Азерб. Респ., Азерб. Ун-т. Языков.
4. Афер Азер гызы Ализаде. Женское мировосприятие и его художественная реализация в прозе современных русских и английских писательниц. *Монография.* – Баку: Мутарджим, 2017. – 160 с.
5. https://www.britannica.com/biography/Muriel-Spark
6. http://www.krugosvet.ru/enc/kultura_i_obrazovanie/literatura/spark_myuriel_sara.html
7. https://edisciplinas.usp.br/pluginfile.php/93140/mod_resource/content/1/PMJB.pdf
8. http://www.scottishpoetrylibrary.org.uk/poetry/poets/muriel-spark
9. https://azertag.az

Н.Гасанли

Феномен Муриел Спарка Английской Литературы

Резюме

В статье рассматривается статус творчества госпожа Мюриель Спарка в Азербайджане для всемирно известного английского писателя. В частности, упоминаются причины признания этого интересного писателя в азербайджанской литературной среде, а также упоминаются основные моменты его жизни и творчества. В качестве одного из лучших романов мира в мире внимание Мюриэл Спарк сосредоточено на некоторых литературно-эстетических взглядах. Следует отметить, что, в азербайджанских источниках невозможно найти заслуживающее внимания исследование М.Спарка не только многогранного и продуктивного литературного творчества, но даже длинного и содержательного образа жизни. Принимая это во внимание, для нас важно обратить внимание на эти вопросы в наших исследованиях. Важно, чтобы новое поколение переводчиков обращалось к своим работам, чтобы привлечь внимание к творчеству Мюриэль Спарк в то время, когда интерес к мировой литературе растет в нашей стране.

Сохранение моральных ценностей в обществе, раскрытие человеческих качеств и формирование человека, который понимает мир, расширяют и расширяет читательскую перспективу, как главную линию художественной карьеры Мюриэль Спарк.

N.Hasanli

Muriel Spark phenomenon of English literature

Summary

In the article, the research condition of the world-famous English writer Muriel Spark's creativity in Azerbaijan is investigated. Especially, the reasons for the recognition of this interesting writer are shown in the Azerbaijani literary environment, and the main points of his life and creativity are mentioned. As the author of one of the world's best novels, Muriel Spark's attention is focused on some of the literary-aesthetic views. It should be noted, in the Azerbaijani sources, it is not possible to find a noteworthy study of M.Spark's not only a multifaceted and productive literary creativity, but even a long and meaningful lifestyle. Taking this into consideration, it is important for us to pay attention to these issues in our research. It is important for the new generation of translators to refer to their works to increase attention to the creativity of Muriel Spark at a time when the interest in world literature is increasing in our country. The preservation of moral values in the society, the disclosure of human traits, and the formation of a person who understands the world expands and extends the reader's perspective, as the main line of Muriel Spark's artistic career.

Rəyçi: Şəhla Nağıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NİGAR MƏMMƏDOVA
ADU
nmemmedova11@std.qu.edu.az

ƏDƏBİYYATDA MÜHARİBƏ MÖVZUSU

Açar sözlər: müharibə, ədəbiyyat, itirilmiş nəsil, Birinci Dünya Müharibəsi
Key words : war, literature, lost generation, First World War
Ключевые слова : война, литература, потерянное поколение, Первая мировая война

Müharibə... Müharibə nədir? Bu sözün mənasını hər bir kəs bilir. Lakin əsl müharibənin nə olduğunu müharibəni və onun nəticələrini öz gözləriylə görən bir şəxs deyə bilər. Bəlkə də, dünya dillərindəki ən vahiməli, qorxunc sözlərdən biri müharibədir. Tarix boyunca heç bir şey müharibə qədər üzücü, müharibə qədər dağıdıcı olmamışdır. Müharibə acı göz yaşları, ölüm, ayrılıqdır. İnsanların dinc həyatına girərkən, müharibə həmişə ailələrə kədər və fəlakət gətirir, onların adi həyat tərzini pozur. Dünyaya qardaş olmaq üçün gəlmiş insanları bir-birinə düşmən edir. Müharibə yüzlərlə, minlərlə insanın vaxtsız ölməsi, soyqırım,işgəncə, köləlikdir. Müharibə yaxşı və ya pis məqsədlər üçün istifadə edilən bir silah, bir vasitədir. Mübahisəsiz, insanlığın ən pis kollektiv təcrübəsidir.

Bəs müharibənin baş verməsinin səbəbləri nədir? Ölkələri müharibə etməyə vadar edən bir sıra amillər var. Bunlar imperializm, millətçilik, militarizim kimi amillərdir. İmperializm daha çox ərazi, daha çox torpaq əldə etməyə can atmaqdır. Daha çox torpaq əldə etməyə cəhd etmək isə iqtisadi səbəblərlə əlaqədardır. Ta qədim dövrlərdən bu günə kimi bütün ölkələr çox sayda qızıl, gümüş, neft kimi bahalı ehtiyatların olduğu əraziləri idarə etməyə çalışmışlar. Sənaye İnqilabı nəticəsində istehsalın artması ilə Böyük Britaniya, Almaniya və Fransa kimi böyük dövlətlər xarici bazarlara ehtiyac duyurdu. Nəticədə bu ölkələr Afrikada iqtisadi genişlənmə üçün yarışdılar. Bu da öz növbəsində Birinci Dünya Müharibəsinin baş verməsinə gətirib çıxartdı.

Millətçilik millətlərin azadlığını, öz xalqı naminə inkişafı əsas tutur. Ölkələrin özlərini planetin ən güclü və inkişaf etmiş cəmiyyəti kimi göstərmək istədikləri zaman millətçilik müharibənin başlamasına səbəb oldu. Millətçilər öz maraqlarını digər ölkələrin maraqlarından üstün tuturdular. Millətçilik vətəndaşlara millətinə, hökumətinə və hərbi gücünə inanmağa həddindən artıq güvən verirdi. Ölkələrinin günahsız, ədalətli olduğuna inandırırdı. Millətçilik və militarizm insanları müharibə olarsa bu müharibədə qələbə çalacaqlarına əmin edirdi. Nəticədə imperializm və

militarizmlə birlikdə, millətçilik müharibənin başlamasını həm zəruri etdi, həm də qələbə kimi görünən kütləvi yanıltmaya gətirib çıxartdı. Millətçiliyin səbəb olduğu müharibələrə Birinci Dünya Müharibəsi, Rusiya və Amerika arasında keçən soyuq müharibə nümunə ola bilər.

Militarizm irticaçı silahlanma siyasətidir və təcavüzkarlıq məqsədi ilə müharibəyə hazırlaşmaqdır, həmçinin hərbçilərin zorakılığı deməkdir [5]. Güclü dövlətlərin öz maraqlarını qorumaq, siyasətlərini yürütmək üçün güclü orduya ehtiyacı vardı. Birinci Dünya Müharibəsinə səbəb olan əsas amillərdən biri məhz militarizm idi. Müharibə dövründə militarizm siyasətçilərə və ölkənin siyasi inkişafına xüsusi təsir göstərmişdi. 1907-ci ildən sonra Almaniya xüsusilə ordusunu gücləndirdi. Parlament və siyasətçilər orduya nəzarət edə bilmədikləri üçün bu dövr "dövlət daxilində dövlət" kimi də tanınırdı. Militarizm, millətçilik və imperializm bir-birilə sıx bağlı idi. 19-cu əsr və 20-ci əsrin əvvəllərində hərbi güc milli və imperiya gücünün ölçüsü hesab edilirdi.

Müharibəyə səbəb olan amillərdən biri də İttifaqlar idi. Bunlar, digər ölkələri müdafiə etmək və kömək etmək üçün müqavilələr və ya vədlər idi. 1914-cü ildə Avropanın ən güclü ölkələri qarşı ittifaqlara bölündü. Bu ittifaqlar sistemi qərbdə Böyük Müharibə kimi tanınan Birinci Dünya müharibəsinə səbəb oldu. Böyük güclər arasında koalisiyalar və bir-birlərinə qarşı düşmənçilik hissi müharibənin başlanmasını zəruri etdi. 1914-cü ildə Avropanın altı böyük dövləti Birinci Dünya müharibəsində iki döyüşkən tərəfi meydana gətirəcək iki ittifaqa ayrıldı. Bunlar, "Antanta" və "Üçlər İttifaqı" idi. "Antanta"ya İngiltərə, Fransa, Rusiya, "Üçlər İttifaqı"na isə Almaniya, Avstriya-Macarıstan və İtaliya kimi güclü dövlətlər daxil idi. Bu ittifaqların təhlükəsi ondan ibarət idi ki, əgər ittifaqlardan birində olan üzv digər ittifaqdan olan bir üzvə müharibə elan edərdisə, münaqişə tez bir zamanda artacaqdı. Birinci Dünya Müharibəsində elə belə də oldu.

Müharibədən ən çox əziyyət çəkən qadınlar və uşaqlar oldu. Müharibə əsnasında uşaqlar valideynlərindən ayrı düşdü və bu da onlarda depressiyaya, psixoloji travma almalarına gətirib çıxartdı. Müharibə onları uşaq əsgərlərə çevirmişdi. Bu isə öz növbəsində uşaqların həyat tərzinə fiziki, emosional və psixoloji cəhətdən mənfi təsir göstərdi. Kişilərlə bərabər qadınlar da müharibədə vuruşurdular. Yüzlərlə qadın orduda əsgər, tibb bacısı, aşbaz kimi xidmət edirdi. Bundan əlavə, kişilər orduda vuruşduqlarına görə artıq qadınlar cəmiyyətdə kişilərin vəzifələrini öhdəliklərinə götürməyə məcbur oldular. Ailənin qayğısına qalmaq və ailənin tələbatını ödəmək naminə qadınlar müxtəlif iş yerlərində çalışırdılar.

Ta qədim zamanlardan müharibə dünya ədəbiyyatında əsas mövzulardan biri olmuşdur. Müharibə ədəbiyyatı isə ilk ədəbi mətnlər yazılmağa başlanılan

vaxtdan mövcuddur. Ədəbiyyatda müharibənin daha çox üç əsas xüsusiyyəti təsvir olunur:

1) Müharibənin baş verməsinin başlıca səbəb və məqsədləri

2) Müharibənin səbəb olduğu qanlı döyüşlər.

3) Müharibənin baş verdiyi dövrdə və müharibədən sonrakı dövrdə əsgərlərin dilindən deyilən hekayə və ya şeirlər. Araşdırmaçılar etiraf edirlər ki, müharibə iki qədim mədəniyyətin, yəni qədim Yunan və Roma bədii əsərlərinin də əsas mövzularından biri olmuşdur. Hələ eramızdan əvvəl 8-ci əsrdə əfsanəvi yunan şairi Homer "İliada" və "Odisseya" əsərində qədim Troya müharibəsini təsvir etmişdir. "İliada" qanlı döyüşləri və bu döyüşlərdə göstərilən qəhrəmanlıqları özündə əks etdirir. Homer özü Troya muharibələrinin şahidi olmasa da, bu müharibələri və İlionun dağıdılmasının təsvirini aydın şəkildə vermişdir. Buna görə də o, əsərdə təsvir etdiyi hadisələrin iştirakçısıymış kimi görünür. Əsərin qəhrəmanları öləcəklərini bildikləri halda öz məqsədlərinə çatmaq üçün, azadlıq üçün vuruşur və qəhrəmancasına həlak olurlar. Elə buna görə də əsər bütün dünyada qəhrəmanlıq dastanı kimi tanınır. Aşağıdakı misralarda da Troya sərkərdəsi Parisin qorxmazlığı, igidliyi təsvir olunmuşdur.

İki qoşun yaxınlaşıb lap üz-üzə dayananda, Troyalı qoşunlardan Paris çıxdı meydana tək, Əynində bir xal-xal dəri, çiynində yay, beldə qılınc, Əlində də ucu tuncdan iki nizə oynadaraq, Axeylərdən vuruşmağa çağırdı bir qoçaq hərif.

Birinci Dünya müharibəsinin başlaması Britaniya ədəbiyyatında müharibə haqqında geniş bir yazı istehsalına səbəb oldu. Amma əlbəttə, müharibə mövzusu ingilis ədəbiyyatı üçün yeni deyildi. Hələ VIII-XI əsrlərdə qədim ingilis dilində yazılmış "Beovulf" dastanında əsas mövzulardan biri müharibə idi. Müəllif dastanda müharibə və döyüşləri qəhrəmanlıq və şərəfli hadisə kimi təsvir edir. Dastanın əsas qəhrəmanı Beovulf igidliyi, qorxmazlığı ilə fərqlənir. O, düşmən qəbilələri, nəhəg Qrendel və anasını məğlub edir. Dastanda müharibə və intiqam Beovulf dünyasında ədalətin yeganə yolu kimi təsvir olunur. Mövcud cəmiyyətdə müharibə mübahisələrin həlli üçün yeganə çıxış yolu kimi görünür. Dastanda həmçinin müharibə nəticəsində yaranan səfalət, ağrı-acı da təsvir olunmuşdur. Əsərin sonunda Beovulfun məzarının təsviri simvolik xarakter daşıyır. Belə ki, onun məzarı Beovulfun izzətini, zəfərini göstərməklə yanaşı, həm də müharibənin acı sonunu xatırladır.

1914-1918-ci illər arasında baş verən Böyük Müharibə Qərb dünyasının təməllərini sarsıtdı, cəmiyyətdə və mədəniyyətin hər sahəsində silinməz izlər buraxdı. Böyük Britaniya münaqişənin əsas döyüşçülərindən biri olaraq bu təsirdən kənarda qalmadı. Müharibədən ən çox təsirlənən sahələrdən biri də ədəbiyyat oldu. Müharibə dövründəki ədəbiyyat müharibə

dəhşətlərini, eləcə də cəmiyyətdə yaşanan arzu olunmaz dəyişiklikləri əks etdirir və tənqid edirdi. Müharibə nəticəsində bir çox ictimai, siyasi, iqtisadi dəyişikliklər baş verdi və dövrün yazıçıları cəmiyyətdə gördükləri qüsurlara, çatışmazlıqlara qarşı etiraz etməyi vacib bildilər. Birinci Dünya Müharibəsi ərəfəsində müharibədən yazanlar daha çox müharibənin dəhşətindən təsirlənən əsgərlər idi. Ədəbiyyat müharibədə iştirak edən əsgərlər üçün müharibənin gerçəkliklərini göstərmək, onu anlamaq və ya sadəcə ona qarşı çıxmaq üçün ümumi bir yola çevrildi. Bu əsgərlər ədəbiyyatda "müharibə şairləri" (war poets) və ya "əsgər şairlər" (soldier poets) kimi tanınırdılar. Birinci Dünya Müharibəsi dövründə yazılmış şeirlər əsasən üç əsas başlıq altında araşdırılmışdır. Müharibəni dəstəkləyən şeirlər, müharibəni tənqid edən şeirlər və qadınlar tərəfindən yazılmış şeirlər. Müharibəni dəstəkləyən şeirlər təbliğat xarakteri daşıyırdı. Müharibəni tənqid edən şeirlər isə daha çox vuruşan əsgərlər tərəfindən yazılan şeirlər idi. Qadınların yazdığı şeirlər də kişi şairlərin yazdığı şeirlər kimi həm müharibəni dəstəkləyən, həm də tənqid edən şeirlər şəklində olmuşdur.

Böyük Müharibə kimi tanınan Birinci Dünya Müharibəsi ədəbiyyatda "səngər şairləri" ("trench poets") və "itirilmiş nəsil" ("lost generation") kimi ifadələri meydana çıxartdı. "Səngər şairləri" XX əsrin əvvəllərində Birinci Dünya Müharibəsində iştirak edən və döyüş meydanında həlak olan ingilis şairləri idi. Onlar öz şeirlərində müharibənin həqiqətdə nəyə bənzədiyini və döyüş meydanında yaşadıqları dəhşətli anları əks etdirirdilər. "Səngər şairləri" öz şeirlərini yalnız müharibənin gerçək üzünü göstərmək üçün deyil, həmçinin dövrün bəzi şairlərinin müharibəni yanlış təsvir etdiklərini göstərmək üçün yazırdılar. Onlar səngərlərdəki ağır, dözülməz şəraiti insanlara çatdırmaq istəyirdilər. "Səngər poeziya"sı iki əsas mərhələdən keçmişdir: erkən (1914-1915) və yetkin mərhələ (1916- 1918). "Səngər şairləri"nin ən görkəmli nümayəndələri Vilfred Ouen, Ayzek Rozenberq, Ziqfrid Sassun və Ecell Rikuord idi. "Səngər şairləri" "İtirilmiş nəsil" ədəbiyyatı nümayəndələrinin sələfləri sayılırlar.

"İtirilmiş nəsil" Amerikan ədəbiyyatına məxsus bir ifadədir. İtirilmiş nəsil dedikde erkən yaşda, hələ məktəbi bitirməmiş müharibəyə çağırılan gənclər nəzərdə tutulurdu. Müharibədən sonra bu insanların çoxu ruhi sarsıntı keçirtdi, bəziləri içki aludəçisi oldu, bəziləri isə özünə qəsd etdi.

"İtirilmiş nəsil" ifadəsi ədəbiyyatda Gertruda Staynın adı ilə bağlıdır. O, ilk dəfə yazıçı Ernest Heminqueylə söhbəti zamanı "Müharibədə olan bütün gənclər, siz itirilmiş nəsilsiniz" cümləsini işlətmişdir. Heminquey və Staynın ölümündən sonra nəşr olunan "Paris həyat üçün bayramdır" və ya "Mütəhərrik bayram" ("A Moveable Feast") avtobioqrafik əsərində Heminquey qeyd etmişdir ki, Stayn bu ifadəni onun avtomobilinə xidmət göstərən qarajın sahibindən eşitmişdi. Belə ki, qarajda çalışan müharibədən

dönmüş gənc mexanik miss Staynın avtomobilini vaxtında təmir edə bilmədiyinə görə qaraj sahibi ona qışqıraraq "siz hamınız itirilmiş nəsilsiniz" demişdir.

1926 – cı ildə nəşr olunan "Günəş də qalxır" əsərində Heminquey "itirilmiş nəsil" ifadəsini epiqraf kimi istifadə etdikdən sonra bu ifadə daha da məşhurlaşdı. Ədəbiyyatda "itirilmiş nəsil" dedikdə Birinci Dünya Müharibəsi dövründə yaşamış və müharibədən sonra məyusluq keçirmiş bir qrup amerikan şair və yazıçılar nəzərdə tutulur. Ernest Miller Heminquey, Tomas Sternz Eliot, Frensis Skott Fitscerald, Riçard Oldinqton və Gertruda Stayn görkəmli nümayəndələri sayılır. "İtirilmiş nəsil" ədəbiyyatının bir sıra özünəməxsus xüsusiyyətlərini qeyd etmək olar:

1. Bu ədəbiyyatın əsas qəhrəmanı müharibədən qayıtmış və dinc həyatda özünə yer tapa bilməyən bir insandır. O, dönüşü ilə müharibədə vuruşmayanlar və özü arasındakı uçurumun fərqinə varır.

2. Qəhrəman sakit, təhlükəsiz bir mühitdə yaşaya bilmir və risklə bağlı bir peşə seçir, qeyri-adi həyat tərzi keçirir.

3. "İtirilmiş nəsil" yazıçılarının qəhrəmanları çox vaxt öz vətənlərində yaşamır və doğma ev anlayışı demək olar ki, onlar üçün mövcud deyil. Onlar sabitlik və nəyəsə bağlılıq hissini itirmiş insanlardır.

4. Roman "itirilmiş nəsil" ədəbiyyatının aparıcı janrlarından olduğundan qəhrəmanlar mütləq sevginin sınağından keçir.

5. Qəhrəmanın mənəvi inancları bir qayda olaraq mükəmməl deyil, lakin yazıçı buna görə onu qınamır. Çünki müharibə dəhşəti və sürgünündən keçmiş insan üçün bir çox dəyərlər öz ənənəvi mənasını itirmişdir.

Ədəbiyyat

1. Homer. İliada. Bakı, "Öndər nəşriyyat", 2004, 528 səh.
2. Kendall. T. Modern English War Poetry. New York, Oxford University Press, 2006, 285 p.
3. Puissant. S. C. Irony and the Poetry of the First World War. New York, Palgrave
Macmillan, 2009, 213 p
4. Никулин Николай Николаевич. Воспоминания о войне. Санкт-Петербург, Издательство Гос. Эрмитажа, 2008, 244 с.
5. https://az.wikipedia.org/wiki/ - Wikipedia

N. Mammadova

The theme of war in literature

Summary

This article is about war, about its causes and purposes. The article also explores the usage of the theme of war in literature. The causes of a war beginning are often numerous. The main reasons for war were militarism, nationalism, imperialism and alliances. The literature of war has existed since the first literary texts were written.

During First World War in literature appeared different terms, such as "lost generation" and "trench poets". The most famous members of "lost generation" were Gertrude Stein, Ernest Hemingway, F. Scott Fitzgerald, and T. S. Eliot. "Trench poets" were poets who fought in trenches during First World War. They were Wilfred Owen, Isaac Rosenberg, Siegfried Sassoon, Edgell Rickword.

H. Мамедова

Тема войны в литературе

Резюме

В этой статье рассказывается о войне, ее причинах и целях. В статье также рассматривается использование темы войны в литературе. Причины начала войны многочисленны. Основными причинами войны были милитаризм, национализм, империализм и альянсы. Литература войны существовала с тех пор, как были написаны первые литературные тексты. Во время Первой мировой войны в литературе появились разные термины, такие как «потерянное поколение» и «окопные поэты».

Самыми известными членами «потерянного поколения» были Гертруда Штайн, Эрнест Хемингуэй, Ф. Скотт Фитцджеральд и Т. С. Элиот. «Окопные поэты» были поэтами, которые сражались в окопах во время Первой мировой войны. Это были Уилфред Оуэн, Айзек Розенберг, Зигфрид Сассун, Эджелл Рикуорд.

Rəyçi: Xəlilli Şahin
Filologiya elmləri doktoru, professor

ƏSMƏR ƏLİZADƏ
Azərbaycan DillərUniversiteti
elizadeesmer1@gmail.com

COZEF HELLERIN "TƏLƏ-22" ROMANINDA QARA YUMOR ELEMENTLƏRİ

Açar sözlər: qara yumor, gülüş, absurd, ironiya, müharibə
Key words: black humour, smile,absurd, irony, war
Ключевые слова: черный юмор, улыбка, абсурд, Ирония, война

Yumor dedikdə məişət və yoldaş gülüşü nəzərdə tutulursa, komik hadisələrdən söhbət gedirsə, qara yumorda isə bundan fərqli olaraq insanların yüksək həssaslıqla yanaşdığı məsələlər hədəfə alınır və ağrı-acı ilə qarışıq gülüş obyektinə çevrilir. Qara yumorun hədəf seçdiyi mövzular cinayət, zorakılıq, fiziki qüsurlar, müharibə, xəstəlik və buna bənzər kədərverici duyğular və hadisələrdir.Şübhəsiz ki, bu gün dünyanın hər yerində belə hadisələrə rast gəlinir. Məhz bu mövzuları hədəf seçən qara yumor oxucuları bir tərəfdən güldürərkən digər tərəfdən də düşündürür." Dilimizdə belə bir deyim vardır: "Gülürəm, amma içim qan ağlayır"(5), yaxud da, " Gülürük ağlanacaq halımıza". Zənnimcə bu deyimlər məhz qara yumoru xarakterizə edir. Ona görə ki, qara yumordakı gülüş insanları qəhqəhə ilə güldürmür, onları əyləndirmir, tam əksinə bu gülüş ağrılı bir gülüşdür, insanları qəhrəmanın halına acımağa, ona yazığı gəlməyə vadar edir. Qara yumorun ilk nümunəsi XVIII əsrin əvvəllərində ingilis yazıçısı Conatan Svift tərəfindən yaradılmışdır. Lakin "qara yumor" terminini isə ilk dəfə 1935-ci ildə Andre Breton Conatan Sviftin yaradıcılığı haqqındakı yazısında işlətmişdir. A.Breton özü "Qara yumorun antologiyası" adlı kitabını 1940-cı ildə qələmə almışdır, lakin "qara yumor" termini yalnız 1960-cı illərdən etibarən daha çox işlənməyə başlamışdır. Qara yumor Natanel Vest, Cozef Heller, Vladimir Nabokov, Samuel Beket, Tomas Pinçon, Con Bart, Edvard Albi kimi yazıçıların yaradıcılığında mühüm yer tuturdu. Qərb ədəbiyyatında qara yumora müraciət edənlər Bodler, Mopassan, Verlen, Kafka, Amerikalı yazıçılar arasında isə Edqar Allan Po və O.Henrinin əsərlərində qara yumorun nümunələrini görmək olar.Fransada hər il qara yumor müsabiqəsi təşkil olunur və uğurlu yazıçılar mükafatlandırılır.

"Qara yumora mümunə olaraq Samuel Beketin " Qodonun intizarında (While waiting for Godot)" əsərindən bir epizodu xatırlayaq. Əsərdə qəhrəmanlardan biri özünü asmaq üçün kəmərini çıxarır, lakin bu zaman onun şalvarı düşür. Başqa bir nümunəni isə "Grandma's in the wedding cake" adlı əsərdən gətirmək olar. Əsərdə evin yaxın zamanlarda ölən nənəsinin külləri

əsər boyunca dönüb dolaşır və nəhayət toy üçün hazırlanmış tortun içində yerini alır.(5)"

Dünya ədəbiyyatında qara yumor janrında yazan məşhur yazıçılardan biri olan Cozef Hellerdir. Onun "Tələ-22(Catch-22)" romanı qara yumorun ən gözəl nümunələrindən biri hesab olunur. C.Heller romanı 1953-cü ildə yazmağa başlamış, ancaq roman 1961-ci ildə çap olunmuşdur. Əslində yazıçı ilk olaraq romana "Catch-18" adını vermişdi, lakin başqa bir yazıçının buna oxşar bir adla kitab yazması səbəbi ilə sonda əsərin adını "Catch-22" qoymuşdur. Əsərdə hadisələr 1943-cü ildə İkinci Dünya Müharibəsi dövründə Aralıq dənizində bir adada cərəyan edir. Tələ-22 romanı bir qədər avtobiaqrafik səciyyə daşıyır. Belə ki, Cozef Heller İkinci Dünya müharibəsində qırıcı təyyarəsinin pilotu olmuş və romanı da hərbi xidmətdə olarkən qazandığı təcrübələrdən qaynaqlanaraq qələmə almışdır. Əsərin baş qəhrəmanı Yossarian isə bir növ C.Hellerin prototipidir. Yossarian müharibədən yayınmağa çalışan və bunun üçün hər cür bəhanələr gətirən qırıcı pilotu olaraq vəzifəsini icra edir. Roman Yossarianın qaraciyərindəki ağrı səbəbi ilə xəstəxanada yatması ilə başlayır. Lakin onun qaraciyərindəki ağrı ona sarılıq diaqnozu qoyulması üçün kifayət deyildir. Əgər sarılıq deyildisə bu ağrı kəsilməli idi, lakin ağrının şiddəti gözlənəndən az olduğuna görə bu həkimləri təəccübləndirirdi. Əslində isə Yossarian sadəcə müharibədən yaxa qurtarmaq üçün, xəstəxanadakı rahatlığını buraxıb getmək istəmədiyi üçün belə bir oyuna əl atmışdı. Xəstəxanada qaldığı müddətdə o, əsgərlərin göndərdiyi məktubları oxuyub senzuralamalı idi. Amma Yossarian bu işi də öz əyləncəsinə çevirir.

Roman ayrı-ayrı hissələrdən ibarətdir. Hər hissədə yazıçı hadisələrə müxtəlif obrazların gözündən baxır, onların dilindən münasibət bildirir. Klevinger, Texaslı, Havermeyer, Doktor Daneeka, Milo Minderbinder, Kolonel Katkart, Nateli, Mayor Mayor Mayor, Kapitan Ardvark, Şeisof, Or, General Dridl, Çif Vayt Halfot, Vintergrin, Serjant Tovser, Mayor Sandersan, General Pekem, Leytenant Mud, Mkvat, Mikaela, Kraft, Lusiana, Leytenant Kolonel Korn, Ac Co, Hapl, Serjant Nayt, Korporal Kolodni, Qisepe, Nörs Duket, Dunbar, Kapitan Flum, Dobs, Mayor Denbi, Xanım Daneka, Kolonel Karqil, Nörs Kramer, Kapitan Blək, Aplbi və başqa bir çox obrazların hər birinin özünəməxsus xüsusiyyətləri var və bu obrazların hər biri C.Hellerin İkinci Dünya müharibəsi zamanı tanıdığı real insanlardan qaynaqlanır.

"Tələ-22" romanı başdan-başa absurdla dolu, müharibəyə qarşı çıxan, onun mənasızlığını açıq-aşkar oxucuya diktə edən, absurd hökumət bürokratiyası yolu ilə müharibəyə və şiddətə ciddi tənqidlər yağdıran bir əsərdir. Həyatın ədalətsizliyi, hökumətin yeri gəldikdə necə bir canavara çevrildiyini qara yumor vasitəsilə gülünc hala gətirən C.Heller bütün bunları

istehzalı bir dillə oxucuya təqdim edir. İlk sətirindən son sətirinə qədər ironik üslubun hakim olduğu əsərdə müharibənin mənasızlığı və gülünclüyü, Yossarianın timsalında tək qayğısı həyatda qalmaq olan, evinə getmək istəyən sıravi insanların daxili aləmində baş verən qorxu, dəhşət və stres böyük bir məharətlə qələmə alınır. İtalyada Amerika ordusu tərəfindən vuruşan Yossarian heç tanımadığı insanlar tərəfindən öldürülmək istəndiyini düşünür. Daim ətrafındakılara onu öldürmək istədiklərini izah etməyə çalışır. Yossarianın əsil problemi isə Amerikan ordusu ilədir, əsgərliyinin başa çatması üçün lazım olan uçuş sayını hər gün artıraraq Yossarianın işini çətinləşdirən Amerikan ordusu ilə. Bu cür təhlükəli uçuşlardan yaxa qurtarmaq üçün Yossarian müxtəlif yollara əl atır. O, bu uçuşları yerinə yetirmək üçün könüllü olarsa onun dəli olduğunu düşünərdilər, amma uçuşu həyata keçirmək istəmədiyini dilə gətirsəydi dəli olmadığı ortaya çıxar və məcburən işinə davam edərdi. Bunları götür-qoy edərək xəstəlik bəhanəsini tapan Yossarian müharibə bitənə qədər xəstəxanada qalmağa qərar verir və orada qalmaq üçün əlindən gələni edir. Yossarian üçün qaldığı xəstəxanadakı şərait olduqca rahat idi, lakin buna baxmayaraq orada xoşbəxt deyildi. Çünki İkinci Dünya müharibəsi səbəbilə bir çox əsgər psixoloji gərginlik yaşayırdı: onlar ya dəli olurdu, ya ölürdü, ya da öldürülürdü. Bu cür psixoloji mühit Yossarianın da psixologiyasına təsirsiz ötüşməmişdi və məhz bu səbəbdən də o, hər kəsin onu öldürmək istədiyini düşünürdü. Nəhayət Yossarian xəstəxanadan ayrılıb dostlarının yanına qayıdır. O, dostu Orr ilə bir nəfərlik çadırda qalırdı. Daha sonra Yossarian evə göndərilmə istəyi ilə Doktor Daneka ilə danışır və öyrənir ki, bunun üçün o, 50 uçuş həyata keçirməlidir. Halbuki, onun 44 uçuşu var idi. Bir gün Ac Co dəli olur. Hər kəs bunu görür, lakin heç kim onu vəzifədən azad etmir. Və beləcə Yossarian Tələ-22 ilə tanış olur. Yossarian artıq uçuş həyata keçirmək istəmirdi və evə göndərilmək üçün əlindən gələni edirdi. Amma dövlətin və müharibənin əsil üzü ilə qarşılaşan Yossarian evə qayıtmaq fürsətini tapmışkən bu qərarından imtina edərək qaçmağı üstün tutur. Bundan sonrakı həyatına qaçaq olaraq davam edir.

Roman Yossarianın bıçaqlanması səbəbilə xəstəxanaya gətirilməsi və onun xəstəxanadan qaçmağa təşəbbüs göstərməsi ilə sona çatır.

"Əsər əvvəlindən sonuna qədər zarafatlarla dolu olmasına baxmayaraq, oxucu kitabı oxuyarkən demək olar ki gülmür. Çünki, bütün bu absurdlar bir qədər sonra o qədər düşündürücü bir hal alır ki, sadəcə daxilində acıma hiss edir.(9)"

Tələ-22 romanı qara yumorun bənzəri olmayan ən sərt nümunələrindən biridir və hətta zirvə nöqtəsidir. Əsər bir qədər qəliz dillə yazıldığına görə oxucu C.Hellerin cümlələri arasında sanki qıvrılır. Eynilə düşdüyü tordan qurtulmağa çalışan ovun hərəkət etdikcə daha da möhkəm həbs olması kimi.

"Tələ-22" romanı haqqında bir çox yazıçılar fikir bildirmişdir:

" Kurt Vonnequt: Tələ-22 faşizmə qarşı gedən müharibədə amerikalıların yaratdığı ən böyük dastandır.

Stefan Kinq: Son əlli ildə yazılmış iki böyük roman var, onlardan biri Tələ-22-dir.

Norman Meyler: Orijinaldır, heç kəs buna bənzər bir kitab oxumamışdır.

Harper Li: Tələ-22, oxuduğum tək məntiqli müharibə romanıdır.(7)"

Ədəbiyyat siyahısı

1. Harold Bloom-Dark humour (2010).pdf

2.Thomas Leclair- Death and Black Humour (1975)

3. O'Neill, Patrick (2010). "The Comedy of Entropy: The Contexts of Black Humor

4. Merriam-Webster, Inc (1995) Merriam Webster's encyclopedia of literature

5. kara-mizah.nedir.org

6. http://www.kitapyurdu.com/kitap/madde-22/81021.html

7.http://www.dr.com.tr/Kitap/Madde-22/Joseph-Heller/Edebiyat/Roman/Dunya-Roman/urunno=0001687358001

8. http://kitap.yazarokur.com/madde-22

9. https://1000kitap.com/kitap/madde-22--16444

A.Alizadeh

Black humor elements in the novel of Joseph Heller Catch-22

Summary

Catch-22 is the best example of black humour. The work is full of jokes before the end of the work. But the reader is almost never laughing while reading the book. After all, these absurdities become so thought-provoking that they just feel pain inside.

Catch-22 novel is one of the most harsh examples of black humor and is even the summit point. Catch-22 is the greatest epos created by Americans in the war against fascism. Catch-22 novel is a work that is full of absurdity, it is opposed to the war, dictates its meaninglessness to the reader, and slams the war and violence through absurd government bureaucracy.As the work is written in a slightly fuzzy language, the reader is literally curling up with Heller's sentences. Just like the hunt for trying to escape from the frozen

horizon, it is even more severely imprisoned. There are two great novels written in the last fifty years, one of them is Catch-22.

Асмар Ализаде

Черные юмористические элементы в романе Джозефа Хеллера Уловка-22

Резюме

В данный статье рассматриваются элементь черного юмора в творчестве Джозеф Хеллера. Произведение до лонца полна шуток. Однако, читатель почти никогда не смеется во время чтения книги. В конце концов, эти нелепости становятся настолько заставляющими думать, что они просто чувствуют боль внутри.

Роман Уловка-22 - один из самых суровых примеров черного юмора и даже вершина. Уловка-22 - величайший эпос, созданный американцами в войне против фашизма. Уловка -22 роман - это работа, полная абсурда, она противостоит войне, диктует ее бессмысленность читателю и шантажирует войну и насилие через абсурдную правительственную бюрократию.Поскольку работа написана на слегка нечетком языке, читатель буквально свернулся с предложениями Хеллера. Точно так же, как охота за попытками убежать от замерзшего горизонта, это еще более жестоко заключено в тюрьму. За последние пятьдесят лет есть два великих романа, один из которых - « Уловка -22».

Rəyçi: Həmidə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AYŞƏN MƏHƏRRƏMOVA
Azərbaycan Dillər Universiteti
maharramova.ayshan@mail.ru

RİÇARD BAXIN YARADICILIĞINDA "İKİDÜNYALILIQ" İDEYASININ ƏKSİ

Açar sözlər: Uçuş, səma, Conatan Livinqston, alleqoriya
Key words: Flight, sky, Jonathan Livingston, allegory
Ключевые слова: Полёт, небо, Джонатан Ливингстон, аллегория

R.Baxın fəlsəfi fikirləri, yaradıcılığı vasitəsilə cəmiyyətə, topluma verdiyi mesaj həm o zaman, həmdə indiki dövr üçün xarakterik və aktual bir hadisədir. Onun yaradıcılığında gerçəkliklə fantaziya alleqorik məzmun daşıyaraq vəhdət təşkil edir. R.Baxın personajları sanki real dünyanın deyil, fantaziya və illüziyalar dünyasının sakinləridir. 1936-cı ildə dünyaya göz açan yazıçı, pilot eyni zamanda filosof Riçard Bax erkən yaşlarından başlayaraq bütün ömrü boyu uçuşa olan sevgisi və marağı ilə fərqlənmişdir. Uçuşa olan bu sevgisi onu Hava Qüvvələrində pilot olmağa və uçuşla əlaqəli bir sıra digər vəzifələrdə xidmət etməyə sövq etmişdir(4). Məhz bu səbəbdən də Bax öz əsərlərində bu və ya digər şəkildə hər zaman uçuşdan bəhs etmişdir. Onun yaradıcılığından uçuş, səma, təyyarə ilə bağlı mövzular qırmızı xətlə keçir. Səma onun bütün yaradıcılığına aid olan sadə bir metafora deyil, səma onun həyatıdır. Yazıçı, uçuşla əlaqəli olan hər şeyə həddən artıq real yanaşır. O, hesab edir ki, "İnsanlar uzun müddət uça bilmirdilər...və bunun mümkünsüzlüyünə elə əmin idilər ki, məhz buna görə də ayrodinamikanin sadə və başlıca prinsiplərini bilmirdilər. Mən inanmaq istəyirəmki, bir ayrı prinsip də var: uçmaq üçün bizə təyyarə...və ya başqa planetlərdə olmaq lazım deyil. Biz bunu maşın olmadan da etməyi öyrənə bilərik. Əgər istəsək"(1;56). R.Bax əmindir ki, insan təkcə uçmağa deyil, düşündüklərinin hər birini həyata keçirməyə qadirdir. Bu əminlik dünyadakı bütün reallıqların sadəcə bir illüziya olmasından irəli gəlirdi və insan onu əldə etməklə çox şeyə nail ola bilər. Bu ideya onun əsərlərinin çoxunun başlıca mövzusu və həyat axarının təyinedicisidir.

Yaradıcılığa başlayarkən ilk bir neçə kitabı birbaşa uçuşla əlaqəli olmasına baxmayaraq, sonrakı əsərlərində o, uçuşdan bir mesaj kimi bəhrələnmiş və bundan simvolik şəkildə istifadə edərək, insanları azadlığa, öz gücünə inanmağa, qarşısına çıxan maneələri, qadağaları yarıb keçərək adilikdən uzaqlaşmağa və öz məqsədinə doğru əzmlə addımlamağa səsləmişdir. Bu ideyanın dolğun əks olunduğu əsərlərdən biri yazıçının 1970-ci ildə çapdan çıxan və ona böyük şöhrət gətirən, həcmcə kiçik,

mənaca dərin olan "Conatan Livinqston adlı qağayı" romanıdır. Bu əsərdə R.Bax uçuşdan bir metafora kimi istifadə edərək öz dərin fəlsəfi fikirlərini oxucularına çatdırır və bunu, azadlığa can atan quşun timsalında əks etdirir. Romanda məhdudiyyətlərə, qadağalara məhəl qoymadan məqsədinin arxasınca gedib hədəfinə çatan, qələbə çalan Conatan Livinqston adlı quşun əzmkar bir həyat mübarizəsi təsvir olunub. R.Bax özü də hər zaman cəmiyyəti məhdudiyyətlərin olmadığı bir dünyaya səsləyirdi. Əsər eyni zamanda, cəmiyyətin qoyduğu qaydalarla formalaşmayıb, özünün arzu və istəklərinə istiqamətlənən işlərlə məşgul olaraq, bu şəkildə özünü sübut etməyi, eynilikdən, standartlıqdan uzaqlaşıb, individuallığını və orijınallığını ortaya qoymaqla öz mənliyini formalaşdırmağı aşılayır və əsərin qəhrəmanı Conatan Livinqston sırf bu ideyaların daşıyıcısıdır. Romanla yazıçının həyatı arasında sıx əlaqə olduğundan o bir qədər avtobioqrafik səciyyə daşıyır. Anadangəlmə xəyalpərəst və uydurmaçı hesab olunan R.Baxın əsərlərinin əksəriyyəti avtobioqrafik olsa da, həyatında baş verən faktlar bunlarda yüksək dərəcədə şişirdilmişdir. Ona görə də onun əsərlərini oxuyan oxucu reallıqla fantaziyanın sərhədlərinin bir-birinə qarışmasının şahidi olur. Bu özünü "Conatan Livinqston adlı Qağayı" əsərində daha dolğun büruzə verir.

R.Baxın "İllüziyalar: Könülsüz məsihin macəraları" adlı digər bir məhşur əsəri pilot Riçardla səbəbini izah etmədən həyatda tutduğu mövqedən imtina etməyə qərar verən Donald Şmoda adlı iki nəfərin arasında gedən söhbətlərdən ibarətdir. Əsərdə R.Baxın fəsəfəsi və ənənəvi olaraq aviasiyaya bağlı ideyaları ilə yanaşı, fantastik və mistik ideyaları da yer almışdır. Əsərdə bir sıra suallar diqqəti çəkir: "Ən sadə amma ən çətin suallar; sən kimsən? Harda doğulmusan? Hardan gəlib hara gedirsən? Evin hardadı? Niyə burdasan?" və s. Riçard Bax əmin idi ki, insan mənəvi cəhətdən yetkinləşdikcə, bu sualların cavabı mütləq dəyişilməlidir. Hər yeni pillə dünyanı, həyatı daha fərqli formada dərk etməyə vadar edir: "Bizim zamanımızda hər şey maddiyyatdan mənəviyyata doğru hərəkət edir. Baxmayaraq ki, hələ çox ləng hərəkət edir, lakin bu hərəkəti saxlamaq mümkün deyil"(1;62).

R.Bax adətən öz əsərlərində verdiyi sualları cavablandırmır. Onun oxucu auditoriyasını əsasən cavan, savadlı insanlar, əsasən də qadınlar təşkil etdiyindən yazıçı totalitar ideyaların onlara tez sirayət etməsindən ehtiyatlanırdı və buna görədə öz əsərlərində verdiyi sualları cavablandır-mamağa üstünlük verirdi.

R.Bax, "Conatan Livinqston adlı qağayı" əsərinin 4-cü hissəsini və "İllüziyalar II: Könülsüz şagirdin macəraları" adlı əsərini həyatında baş verən bədbəxt bir hadisədən, təyyarəsi ilə keçirdiyi qəzadan sonra təsirlənərək yazmışdır. 2012-ci il avqustun 31-də Puff adlandırdığı təyyarə-sində, yerə eniş zamanı təyyarənin elektrik xətlərinə ilişməsi səbəbiylə baş

vermiş qəzada R.Bax ciddi zədə almışdı.Yazıçının sözlərinə görə məhz bu hadisə onu, bir zamanlar ona böyük şöhrət gətirən və 3 hissəsi nəşr olunan "Conatan Livinqston adlı Qağayı" əsərinin 4cü hissəsini tamamlamağa sövq etdi.

2014-cü ildə o, bu qəzadan bəhs edən, "İllüziyalar: Könülsüz məsihin macəraları"-ın davamı olan "İllüziyalar II: Könülsüz şagirdin macəraları" adlandırdığı əsərini çap elətdirdi. Bu barədə R.Bax söyləyirdi ki, onun heç vaxt İllüziyalar II-ni yazmaq niyyəti olmayıb. Yazıçı Amazon.com-a verdiyi müsahibəsində qeyd edirdi: "Təyyarəmlə etdiyim qəzadan sonra mən heyrətə gəldim ki, bu qətiyyən qəza deyil sadəcə bir sınaqdır"(6).

Onun əsərlərində başqa yazıçıların əsərlərində olmayan sirli bir qəribəlik var. R.Bax özü də belə bir fikir söyləyir: "Qağayı əsəri çılğın və qəribə bir əhvalatdır. Mənə fərqi yoxdur bu mənasız görünür ya yox. Mənə əhəmiyyətli deyil ki, insanlar danışan quş haqqında yazdığıma görə mənə güləcəklər ya yox. Neçə il yazıçılıq fəaliyyətimdən sonra anladım ki, mən bu dünyaya ancaq öz çılğınlıq və dəliliyimi verə bilərəm"(8).

R.Baxın həyata, insanlara və müxtəlif əşyalara öz baxış bucağı vardı. O, uçuşla həyatı müqayisə edərək deyirdi: "Burda və indi baş verən hadisələrdən həzz almaq lazımdır, kecmiş və gələcəkdən yox"(8). Bundan başqa o, insanlar və onlar arasındakı münasibət barəsində belə bir fikir söyləyirdi ki, insanlar hamısı bütövlük təşkil edir və onlar bir-birilərini öz ideyaları ilə zəginləşdirə bilərlər ya da əksinə. Hətta fərqli dillərdə danışsalar belə,onların fikirləri eynidir, ona görə də dil insanları ayırmır, onlar onsuzda bir birilərinə bənzəyirlər(8).

Yazıçı, öz əsərlərində məhəbbət, azadlıq, həyat və onun mənası və s. kimi fəlsəfi məsələlərə də toxunur. R.Bax əsərlərində şəxsiyyətə suallar ünvanlayır, real dünyanın nə dərəcə dəyərli olduğuna, yaşadığımız dünyanın həqiqətdə göründüyü kimi olduğunamı dair suallar verərək insanı düşünməyə vadar edir, eyni zamanda səxsiyyətin özünün özünə suallar verməsini təklif edir. R.Bax fantaziyalar dünyasını real dünyadan ayıraraq, bizi, illüziya dünyasının doğulandan yaşayıb və öyrəşdiyimiz dünyadan daha real olduğuna inanmağa vadar edir.Lakin, eyni zamanda, R.Bax yalançı peyğəmbər olmaqdan qorxduğu üçün hər əsərində yaşadığımız real dünyanın nə qədər dəyərli olduğunu da göstərirdi. O, sadəcə insanların özlərinə sual vermələrini təklif edir, başqa heç nə. R.Baxın hər bir əsəri demək olar ki, şüurun genişlənməsi və eyni zamanda, illuziyalar dünyasının tədqiqi və öyrənilməsidir.

R.Baxın yaradıcılığı haqqında Vanderxill E. belə bir fikir söyləyirdi: "Mənə elə gəlir ki, Riçard Baxın yaradıcılığının əsas məğzi deyilən hər fikrin, hər sözün hərfi mənasında deyil. Hətta, "Məsih haqqında məlumat kitabçaları"-da da deyilir ki, bu kitabdakı hər şey səhv ola bilər. Daxili

aləmin axtarışının həyəcanı, heç bir şərt və qadağaları qəbul etməmək, tamamilə azad olmağın ruh yüksəkliyi, dinamik və itidüşüncəli ifadə - bütün bunlar hələ uzun müddət oxucuları özünə cəlb edəcək."(1;62).

Ədəbiyyat siyahısı

1. Вандерхилл Э. "Мистики XX века". Энциклопедия (1996). (с.526)
2. Critical Literary Analysis: Jonathan Livingston Seagull - https://janelliguiang.wordpress.com
3. Illusions quotes by Richard Bach-https://www.goodreads.com
4. Richard Bach. Biography- http://www.inner-growth.info/private/richard_bach_biography.htm
5. Richard Bach official web site
6. Richard Bach interview at Amazon.com
7. Аудиокнига Ричарда Баха- "Чайка по имени Джонатан Ливингстон"
8. Интервю с Ричардом Бахом - http://ariom.ru/litera/bach/rb-int-01.htm
9. О высоком: писатель Ричард Бах разбился на собственном самолете - http://lenta.ru/news/2012/09/02/bach/

А.Магеррамова

Отражение идеи «дуальный мир» в творчестве Ричарда Баха.

Резюме

В данной статье, рассматривается творческий путь известного американского писателя Ричарда Баха в контексте анализа его популярных произведений. В творчестве Ричарда Баха реальный мир и мир фантазии одинаково доступны. В то же время, в его произведениях даётся аллегорический контекст и воплощение реальности. В ней подчеркивается, что, писатель в своих произведениях изображает реальный мир и мир иллюзий, но не смотря на это, мир иллюзии превосходит реальный мир. В этом смысле философия Баха характерна для своего времени. Его все произведения исследуются и изучаются как мир иллюзии. Его персонажи в реальном мире жить не могут, они живут лишь в мире иллюзии. Сила произведений Баха заключается в тонкости чувств его персонажей. Он как будто мир не изображает, а создаёт его с помощью своих героев. Отсюда становится ясно, каким большим философом является Ричард Бах.

A.Maharramova

Reflection of the idea of «dual world» in Richard Bach's creation.
Summary

In this article, the creative way of well-known American writer Richard Bach is reviewed in the context of the analysis of his popular works. Richard Bach's creativity has a real and fantasy world together. At the same time, there are allegorical content and the embodiment of the reality in his works. It emphasizes that, in his works, the writer depicts the real world and the world of illusions but the world of illusion surpasses the real world. In this sense, Richard Bach's philosophy is characteristic for his time. All of his works are the research and study of the world of illusions. His characters cannot live in the real world; they live only in a world of illusion. The power of Bach's works is also known in the nobility of his personalities. As if, he does not describe the world, he creates it with the help of his heroes. And here it is known how strongly philosophizer he is.

Rəyçi: Həmidə Əliyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYSEL SADIXOVA
Azərbaycan Dillər Universiteti
ayselsadikhova@yahoo.com

CON QRININ YARADICILIĞININ SPESİFİKASI

Açar sözlər: Con Qrin, gənc yeniyetmələr, ədəbi yaradıcılıq, sevgi hekayələri, ölüm mövzusu
Key words: John Green, young adults, literary creativity, love stories, theme of death
Ключевые слова: Джон Грин, молодые люди, литературное творчество, любовные истории, тема смерти

Çağdaş Amerika ədəbiyyatınınən məhşur yazıçılarından sayılan Con Qrinin yaradıcılığı çoxcəhətliliyi, geniş mövzu və problem əhatəliliyi ilə seçilir. Ən çox satılan kitabların müəllifi olduğundan yazıçının yaradıcılığı son dövrlərdə daha çox araşdırılır və hər dəfə də ədibin söz səltənətində yeni ideyalar, əhəmiyyət kəsb edən yeni məziyyətlər aşkar olunur. Çağdaş Amerika ədəbiyyatında əsasən gənc yeniyetmələr ədəbiyyatının nümayəndəsi kimi tanınan Con Qrin müəllifi olduğu "Alyaskanın sorağında"*("Looking for Alaska")*(2005), "Katerinaların çoxluğu" *("An Abundance of Katherines")*(2006), "Kağız şəhərlər"*("Paper Towns")* (2008), "Uil Greyson, Uil Greyson" *("Will Grayson, Will Grayson")*(2010), "Ulduzlar günahkardır"*("The Fault in Our Stars")* (2012), "Tısbağalar yolboyu"*("Turtles All the Way Down")*(2017) əsərləri ilə müasir dövrün ədəbiyyatında öz bədii palitrası ilə fərqləndiyindən *Michael L. Printz* mükafatına, *Edgar* mükafatına layiq görülmüş və iki dəfə *Los Angeles Times*kitab mükafatının finalçısı olmuşdur. Əsərlərində daha çox cəmiyyət tərəfindən bir mənalı qarşılanmayan mövzulara müraciət etdiyindən yazıçının bəzi ədəbi-bədii nümunələri bir müddət qadağan edilmişdir. Əslində Con Qrinin yaradıcılığının məqsədi məlumdur. Müsahibələrinin birinə yazıçıdan sırf yeniyetmə insanlar üçün yazıb yazmadığı soruşulanda o, belə cavab vermişdi: "Bütün dünyada məni sevilməyən biri hesab edirlər. Mənim kitablarımın daha çox yeniyetmələri cəlb etməsi tamamilə təsadüfdür." [4]

Con Qrin ədəbi texnikalara çox da əhəmiyyət verməyən bir yazıçıdır. Müəllifin özünün də qeyd etdiyi kimi, o əsərlərini yazarkən səlis nitqdən, axıcı dialoqlardan daha çox obrazların daxili dünyasının sadə dillə təsvirinə, hisslərin düzgün ifadə edilməsinə diqqət yetirir. Yazıçının yaratdığı xarakterlərdən demək olar ki, heç biri mükəmməl deyil.

C.Qrinin əsərlərinin bir çoxu xərçəng xəstəliyi, cinsi münasibətlər, sui-qəsd, özgələşmə kimi ciddi mövzulara aid olub söz oyunları, riyazi tapmacalar və qeyri-adi faktlar üzərində qurulmuşdur. Onun romanlarının gənc qəhrəmanları həyat macəralarında böyüyərək dünyaya olan baxışlarını dəyişir və bir çox fəlsəfi suallara cavab tapırlar. Bu qəhrəmanların bənzərlikləri onların xarakterində və əsas etibarı ilə ağıllı, sadə və təvəzökar olmağındadır. Müəllifin demək olar ki, hər bir əsərində protaqonist təhkiyəçi rolunda çıxış edir. C.Qrinin niyə məhz yeniyetmələrin həyatını qələmə alması sualı onun yaradıcılığı ilə tanış olan hər kəsi düşündürür. Müsahibələrinin birində yazıçı bu suala belə cavab verir ki, biz böyüklər gənclərə səfeh kimi görünürük. Bəzən böyüklər yeniyetmələri ciddiyə almasalar da, C.Qrin onları ağıllı hesab edir və onların böyüklərdən daha çox mütləq ideala yaxın olduğunu vurğulayır. O, gənclik çağına aşina olmasa da, bu illəri dəyərli hesab edərək cahillik ilə təcrübənin kəsişməsi, başlanğıc və sonun qovşağı kimi dəyərləndirirdi. Con Qrinin əsərlərində gənclərin ağrılı taleyi, həyatda qalmaq istəyi, ölümü çox tez dadmaları oxucunu qəmgin notlara bürüyür. Həyat onları çətin seçimlər qarşısında qoysa da, qısa zaman kəsiyində sevib-sevilməyin aliliyini yaşayırlar və belə əvəzsiz hisslərlə ölümə müvəqqəti də olsa müqavimət göstərir, həyatda qaldıqları müddət ərzində mövcudluğun həzzini yaşamağı bacarırlar. Yazıçı ekzistensializm fəlsəfəsinin motivlərindən istifadə edərək yeniyetməgənclərin fonunda dəyərli sənət nümunələri yaratmağa müvəffəq olur.

Gəncliyində dini elmlər üzrə təhsil alan Con Qrin katolik kilsəsində rahib olmaq istədiyindən beş ay kapellan şagirdi kimi uşaq xəstəxanasında işləmişdir. Lakin orada gördüyü ağır həyat şəraiti, əziyyət çəkən uşaqlar Qrini yazıçı olmağa sövq etmişdir. İyirmi dörd yaşında olarkən bu xəstəxanada gördüklərinə bənzər hadisələr əsasında ilk əsəri olan *"Alyaskanın sorağında"* yarım-avtobioqrafik romanını yazmışdır. 2005-ci ildə çap olunan roman böyük müzakirələrə səbəb olmuşdur. Roman təhkiyəçi Maylz Halterin Alabamadakı məktəbə gəlməyi ilə başlayır. Otaq yoldaşı, hər kəs tərəfindən "polkovnik" adlandırılan Çip onu dostlarına və həmçinin Alyaskaya "bəstəboy gombul" mənasını verən Pac kimi təqdim edir. Alyaska hər kəsə, həmçinin oxucuya da bütün hekayə boyu sirrli bir obraz kimi görünür. O, intellektual və ağıllı olmağına baxmayaraq hər zaman zəif seçimlər edir, zorla başqa tələbələrin otaqlarına girərək onlarla yersiz zarafatlar edir və mənfi vərdişlərin təsirindən xilas ola bilmir. Hər zaman qəmli və depressiv əhvalda olan Alyaskanın ailəsi ilə bağlı sirr heçkimə məlum olmasa da, o bunu gizlətmək üçün özünü əyləncəli, yolagələn və sevimli bir qız kimi göstərməyə çalışır, lakin nəhayət sonda etiraf edir ki, anası ölüb və onun ölümündə Alyaska da günahkardır.

Alyaska obrazını oxuculara özünəməxsus metaforalarla təqdim edən Con Qrin hadisələrin sonluğunu da fərqli tərzdə təsvir edir. Maylz ilə sevgili olan Alyaska qonaqlıqda çox miqdarda içki qəbul edir və getməli olduğunu deyərək ordan uzaqlaşır. İçkili olduğundan qəza baş verir və Alyaska ölür, arxa oturacaqda isə ağ zanbaqlar qalır. Yazıçı burada haşiyəyə çıxaraq qeyd edir ki, Alyaska balaca olanda valideynləri həmişə onun saçlarına ağ zanbaqlar düzürdülər. Maylz və Çip təhkiyənin qalan hissəsində bunun həqiqətən qəza yoxsa intihar olduğu barədə düşünürlər. Maylz və Alyaska uzun müddət həyatın mənası haqqında düşünüb, müzakirələr aparmışdılar. Onlar həyat, ölüm, yaşamaq və ölmək hansı mənanı ifadə edir barədə çox düşünürdülər. Heç kəs deyə bilməz ki, Alyaska ölüm barədə düşünmürdü, sadəcə hər kəs bunun qəza olduğuna inanmaq istəyirdi. Alyaskanın ölümü digərlərini də həyat, ölüm, günah və qorxu barədə düşünməyə vadar etdi. Artıq hər kəs, xüsusən də Maylz düşünürdü ki, Alyaskanın ölümündə onun da payı var. Necə ki, Alyaska bütün həyatı boyu düşünürdü ki, anasının ölümündə günahkardır, çünki qarşısını ala bilərdi, eləcə də Maylz bu ölümdə özünü günahkar sayırdı.

Romanda içki aludəliyi, cinsi münasibətlər nə qədər geniş təsvir olunsa da, təhkiyənin əsas ana xəttini həyat və ölüm mövzusu təşkil edir. Bütün qəhrəmanları bu və ya digər formada "yaşamaq və ölmək nəyi ifadə edir?" sualı maraqlandırır. Hərkəs kiminsə ölümündə özünü günahkar sayır və heç kəs həyatın mənasını, elə gözəl bir qızın niyə bu qədər tez öldüyünübaşa düşə bilmir. Romandakı obrazların mübarizəsi də elə bununla bağlıdır, hər bir qəhrəman dünyadakı digər insanlar kimi özünün həyatdakı yerini tapmağa və öz dünyalarında məna yaratmağa çalışır. Con Qrinin müəllifi olduğu və qısa zamanda gənclər arasında məşhurlaşan digər bir əsəri də *"Katerinaların çoxluğu"* romanıdır. Roman Kolin və Həsən adlı iki savadlı dostun həyat hekayəsindən bəhs edir. Kolin tamamilə ateist olsa da, Həsən Allaha inanır. Kolinin 19 Katerina adlı sevgilisi olub və hamısı ondan ayrılıb, elə buna görə də Kolin Allaha yox, dünyanın yaradılışında hansısa teoremin mövcudluğuna inanır və düşünür ki, o bu teoremi anlamağa müvəffəq olsa qızların ondan ayrılmağına da mane ola bilər. Qrin Kolin obrazı ilə fərqli bir xarakter tipi yaratmışdır. Hətta ən yaxşı dostu olan Həsənlə də mübahisələri olan Kolinin dünyanı dərk etməkdə müəyyən problemləri var. O indi necə yaşamalı olduğunu bilmədiyi halda gələcəklə bağlı planlar qurmağa çalışır, gələcəkdə baş verəcək pis hadisələrə mane olmağa cəhd göstərir. Sonda o başa düşür ki, o gələcəyə müdaxilə edə bilməz, sadəcə indiki zamanı yaşamalı və həyatdan zövq almağı bacarmalıdır.

İdentifikasiya, cəmiyyətə uyğunlaşmaqkimi ekzistensial problemlər Con Qrinin *"Kağız şəhərlər"* romanının da ana xəttini təşkil edir. Romandakı obrazlardan hər biri cəmiyyətdəki mövqelərinə həqiqətən aid

olub olmadıqlarını dərk etməkdə çətinlik çəkirlər. Kuentin və Marqo əsərdəki əsas obrazlardır. Kuentin orta təbəqəyə mənsubdur və bundan heç vaxt şikayət etmir, amma varlıların da həyatı ona hər zaman cazibədar görünür. Marqo isə yüksək təbəqəyə mənsubdur və yaşadığı həyata nifrət edir. Marqo Qrinin digər romanındakı Alyaska obrazı ilə bir çox ortaq xüsusiyyətlərə sahibdir. O da Alyaska kimi hər şeyə biganə münasibət bəsləyir və daxili iztirablarını mənfi vərdişlərlə örtbasdır etməyə çalışır. O, Kuentini də dəbdəbəli həyat tərzinə uyğunlaşdırmağa çalışır və hər iki obraz öz şəxsiyyətlərinin isbatını mənfi yollarda axtarmağa başlayır. Əsər Marqonun qəfildən yoxa çıxması ilə yekunlaşır. Kuentin onu hamıdan yaxşı tanıdığını və tapa biləcəyini düşünsə də, bacarmır və anlayır ki, əslində o heç də, nə Marqonu nə də ideal hesab etdiyi dəbdəbəli həyatı tanıya bilib. Əslində Marqo və Kuetinin mübarizəsi özlərini təsdiq etmək və bu çirkli dünyada öz yerlərini tapmaqdan ibarət idi. Lakin hər ikisi başa düşdülər ki, onların düşündüyü ideal dünyanın reallıqda mövcud olan dünya ilə heç bir əlaqəsi yoxdur.

Uşaqlıqdan bəri OCDxəstəliyi ilə mübarizə aparanCon Qrin uzun müddət bu haqda birbaşa danışmağa utanırdı. Bunu fərqli yolla ifadə etmək və öz bədii yaradıcılığında əks etdirməklə C.Qrin özünün ən şəxsi əsəri hesab etdiyi *"Tısbağalar yolboyu"* romanını ərsəyə gətirdi. Kitab halında 2017-ci il oktyabr ayında nəşr olunan əsərin təhkiyəçisi İndianpolisdə yaşayan 16 yaşlı qız Aza Holmz narahatlıq və düşüncə burulğanları ilə savaşır. Azanın normal yeniyetmələr kimi qayğıları var, lakin o tez-tez dəhşətli qorxular keçirir. Hətta barmağını kəsəndə belə fikirləşir ki, bu yara infeksiyaya səbəb olub onu öldürəcək. Əgər o doğurdan da fikirlərini yönləndirməyi bacarsa, həqiqətdə idarə olunan kim olacaq sualı oxucunu düşündürür.

Əsərin adı yer kürəsinin düz olduğu və nəhəng tısbağanın üzərində digər tısbağa onun üzərində başqası və beləcə tənzimlənən fəlsəfi paradoksa işarə edir. Sonu gəlməyən qaçışı olmayan tısbağa spiralları Azanın idarəsiz və əlaqəsiz fikirləri ilə paralelləşdirilir. Aza öz mövcud vəziyyətinə nifrət edir və əksər hallarda yalnızlığını görə bilmir. Qrin ustalıqla Azanın şüur axınında baş verənləri, hadisələrin inkişafını oxucunun diqqətinə çatdırır.

Romanlarının reprezentasiyasından da göründüyü kimi, Con Qrinin yaradıcılığının əsas xüsusiyyəti gənclərin həyatına işıq salmaq, onların cəmiyyətdəki mövqeyini araşdırmaq, yeniyetmələrin aludə ola biləcəyi vərdişləri diqqət obyektinə çevirmək, ölüm, həyat, xəstəlik, dostluq, sevgi kimi ciddi nüansları qabartmaqdan ibarətdir.

C.Qrinə görə yeniyetmələr ciddi hadisələri ilk dəfə yaşayırlar və həyat, ölüm, sevgi, siyasət kimi mövzular daima onların diqqətini özünə cəlb edir. Yazıçı öz yeniyetməlik dövründən danışarkən qeyd edir ki, o çalışqan

şagird idi, həyatın çətin məqamlarında özünü insanlardan təcrid olunmuş və hər şeyin xaricində görürdü. Həyata atılmaqdansa, müşahidəçi olmağı üstün tutur, hekayənin qəhrəmanı olaraq özünü görə bilmirdi. O, yeniyetmələrlə, onların uşaqlıqda qarşılaşdığı və təcrübədən keçirdikləri hadisələr ilə yaxından maraqlanırdı. Elə bu səbəbdən də yazıçı yeniyetmələrə xas olanortaq cəhətləri bildiyindən bir çox əsərlərində yeniyetmə qəhrəmanları bir-birinə bənzəyir, amma eyni zamanda hər birinin də özünəməxsus cəhətləri var, hər bir fərd unikaldırlar.

Ədəbiyyat:

1. Green H. VidCon Questions Answered. – URL: http://www.youtube.com/watch?v= f7iSXDq6qqo, свободный.
2. Romano A. DFTBA: Behind the Vlogbrothers' Nerdfighers Movement. – URL: http://www.dailydot.com/society/hank-john-green-vlogborthers-nerdfighters/, свободный.
3. Rosen, R.J. (2013). How John Green wrote a cancer book, but not a 'bullshit cancer book'.Retrieved from *The Atlantic* Website: http://www.theatlantic.com/entertainment/archive/2013/02/how-john-green-wrote-acancer-book-but-not-a-bullshit-cancer-book/273441/
4. https://www.nytimes.com/2017/10/10/books/john-green-anxiety-obsessive-compulsive-disorder.html
5. http://www.johngreenbooks.com/turtles-all-the-way-down-book
6. http://etd.fcla.edu/CF/CFH0004583/Adams_Emily_R_1404_BS.pdf

A. Sadikhova

The specificity of John Green's creativity

Summary

This article is devoted to the study of the specificity of John Green`s literary legacy. J.Green is one of the most famous authors in contemporary American young-adult fiction. We analyzed his well-known novels where the main characters are teenagers suffering from life-threatening illnesses. The analysis allowed us to distinguish the major themes typical for the writer's works: love and friendship as the most important values in life, which are incapable, however, to save anyone; teenagers' comprehension of the fact that death is an inherent part and ending of everyone's existence; the presence of death which helps to identify the true nature of a person, his good and bad sides. The writer's literary method might be characterized by

the employment of the philosophy of existentialism as the theoretical basis of the characters' thoughts and actions; the inclusion of symbolic details and historical and literary allusions.

А.Садыхова

Специфика творчества Джона Грина
Резюме

Статья посвящена изучению особенностей творчества Джона Грина. Джон Грин один из самых известных писателей современной американской литературы для подростков. В статье проанализированы популярные романы автора, в которых главные герои-подростки страдают от болезней, представляющих угрозу для их жизни. В результате анализа были выявлены основные темы творчества писателя: любовь и дружба, как самые важные ценности жизни, которые, однако, не способны спасти чью-либо жизнь; осознание подростками того факта, что смерть неотъемлемая часть человеческого существования и закономерный конец человеческой жизни; ощущение присутствия смерти, которая помогает выявить истинную природу личности, его отрицательные и положительные стороны. Литературный метод писателя может быть охарактеризован использованием философии экзистенциализма в качестве теоретической основы мыслей и поступков героев, символики, а также исторических и литературных аллюзий.

Rəyçi: Aybəniz İsmayılova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELMIRA MUSTAFAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
VƏFA KAZIMOVA,
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADU
mustafayeva1958@gmail.com

MUSA YAQUBUN TƏBİƏT LIRIKASI

Açar sözlər: Musa Yaqub, lirika, təbiət lirikası, poeziya, faciə, insan və təbiət
Keywords: Musa Yagub, lyric, natural lyric, poetry, tragedy, human and nature
Ключевые слова:Муса Ягуб, лирика, природная лирика, поэзия, трагичность, человек и природа

"Çiynini Baba dağına söykəmiş İsmayıllı rayonunun Buynuz kəndində dünyaya gəlmişəm. Meşəli dağların araya aldığı Göyçay çayının əbədi nəğməsində bu kənd mənim ilk laylam, ilk nəğməmdir".(Musa Yaqub) (4, s.51)

Musa Yaqub 1937-ci il mayın 10-da İsmayıllı rayonunun Buynuz kəndində dünyaya gəlib. Təxminən 30 il bundan əvvəl nəşr edilmiş "Azərbaycan Sovet ensiklopediyası"nın II cildində Buynuz kəndinin adı yoxdur. Amma 22 il əvvəl Musa Yaqub o kəndin adını poeziya xəritəsinə əbədi həkk etdirdi.

Ömrümün ilkinə qayıtmaq üçün,
Kövrək hisslərimi ayıltmaq üçün
Yaxşı ki sən varsan, ey ana kəndim.
-Yaxşı ki fırlanır dəyirman daşı:
İçilən suyun var,
Biçilən zəmin,
Yaxşı ki, sən varsan ey ana kəndim (6, s.75)

Musa Yaqub 1953-cü ildə Topçu kəndində yeddinci sinfi bitirərək Göyçay Pedaqoji Texnikumuna daxil olub. 1957-ci ildə pedaqoji təhsilini başa vurduqdan sonra Tircan kənd orta məktəbində sinif müəllimi işləyib. 1958-ci ildə doğma Buynuz kəndinə köçüb. 1962-1973-cü ilədək Buynuz kənd səkkizillik məktəbinin direktoru olub. ADU-nun Filologiya fakültəsində qiyabi təhsil almışdır (1867-1973).

Musa Yaqubun ilk şeiri Göyçayda çıxan "Qalibiyyət bayrağı" qəzetində dərc edilib. Ədəbi fəaliyyətə 1957-ci ildə "Azərbaycan" qəzetində çap olunan "İki qəlb, iki dünya" poeması ilə başlamışdır. 1966-cı ildə şairin "Yarpaqlar oxuyur" adlı ilk şeirlər kitabı çapdan çıxıb.

1973-cü ildə Musa Yaqub Bakıya köçür. Bakıya köçəndən sonra Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda direktor müavini,

"Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri vəzifəsində çalışmışdır (1974-1978).

Bütün varlığı ilə təbiətə, kəndə vurğun olan Musa Yaqub doğulduğu məkandan ayrılığını nisgilə çevirib poetik dillə kəndinə, dağa, daşa çatdırsa da arzuları, niyyəti və bir də qələm əhli onu şəhərə səsləyirdi. Musa Yaqub şəhərdə də təbiət şairi olaraq qaldı. Könlünə dağlar düşəndə, kəndsiz-kəsəksiz yaşaya bilməyəndə də başqaları kimi "hardasan, a kəndim" deyib vaysınmadı. 1978-ci ildə şəhəri şəhərlilərə tapşırıb İsmayıllıya qayıtdı, "Zəhmətkeş" qəzetinin redaktoru işlədi.

İlk sevgi kimi yaranır ilk şeir. Elə ilk sevgi kimi dayanıqsız da olur. Musa Yaqubun ilk şeiri Topçuda yaranıbmış. Musa müəllim "Koroğlu", "Moskva", "Bakı" kimi şeirlərini sonrakı günlərində çox zəif poeziya nümunələri hesab etdiyindən heç onları çap etdirmir də. Amma ilhamının o illərdə baş qaldırdığını da dilə gətirir. Arada bir boşluq görürük. Bu boşluğa texnikumda son qoyulur. Bu təhsil ocağına təşrif buyurmuş sənət adamlarının içərisində mərhum aktyor Müxlis Cənizadənin S.Vurğunun "Şair, nə tez qocaldın sən? məşhur şeirinin bədii qiraətin imkanları çərçivəsində intonasiya ilə tələbələrə çatdırması Musa Yaqubun həmişəlik poeziya ilə yol yoldaşı olacağına böyük bir stimul verir. Bununla da "Ana və Vətən", "Sülh işi haqqdır" kimi şeirlər də yaranır. Ancaq şair onları da böyük poeziyanın cərgəsində görmədiyindən çapa verməyə tələsmir. Buna baxmayaraq artıq bu illərdə onu bir yazar kimi bütün tədbirlərə dəvət edirlər.

Poeziya mövcud olandan insan və təbiət münasibətləri orada öz əksini tapmış, təbiət insanın bədii təfəkküründə, düşüncəsində yer almış, hər zaman onu öyrənmək, sirlərinə vaqif olmaq istəyi oyanmışdır.Qədim çağlarda insanı, təbiəti dərk etmək, onu ram etmək marağı milli şeirimizdə də öz əksini tapmışdır.

Əvvəlki onilliklərin poeziyasında da təbiətin tərənnümü – dağların, dərələrin, meşələrin, Xəzərin, çayların və s. təbiət gözəlliklərinin vəsfi əsas yer tutur. Bu ənənə 60-70-ci illərin poeziyasında da kəmiyyət etibarı ilə çoxlu şeirlərin yaranmasında özünü göstərirdi. Təbii ki, bu mövzuda yazılan şeirlərin bir çoxu əvvəlki ənənəyə sədaqət ruhu ilə seçilirdi. Şairlərimiz yenə də eyni təsvir üsullarından, eyni təşbehlərdən istifadə edir, yeni söz demək axtarışına çıxırdılar.

Onların şeirlərində Vətən təbiətinin tərənnümü ritorika və mədhçilikdən uzağa getmirdi. Ancaq 60-70-ci illərdə poeziyada təbiətin tərənnümü ilə bağlı elə şeirlər də yarandı ki, bunlar ənənəvi təbiət şeirlərindən seçilirdilər. Hətta belə demək olar ki, poeziyada "təbiət şairləri" anlamı meydana çıxdı. Qasım Qasımzadə, Nəbi Xəzri, Hüseyn Arif, Məmməd Araz, Məmməd Aslan, Musa Yaqub təbiət şairləri kimi diqqəti cəlb etdilər. Onların yaradıcılığı daha çox bu aspektlərdən təhlil olunmağa başladı. Əlbəttə digər şairlərin yaradıcılığında da təbiət, onun gözəllikləri vəsf olunurdu, lakin adlarını çəkdiyimiz şairlərin yaradıcılığında isə bu motiv ayrıca bir xətt təşkil edirdi.

Musa Yaqubun lirikasına gəldikdə isə burada təbiətə münasibətdə Azərbaycan poeziyasının bir çox ənənələri öz əksini tapmışdır. Hələ 60-cı illərdə xalq şairi M.Rahim Musa Yaqub haqqında yazmışdır: "Musa Yaqub təbiətin incəliklərini öyrənməyə çalışır, qalın meşələrin təravətini, quşların nəğməsini, bulaqların pıçıltısını, suların xoş səsini şeirə gətirir. Musa Yaqub təbiət qoynunda hər şeyi canlı təsvir edir. Musa Yaqubun bir yaxşı cəhətini də qeyd etmək istəyirəm. O, 3-4 şeir yazandan sonra şəhərə qaçmağa çalışan gənclərin yolu ilə getməyir. O, doğulduğu yerlərə ürəkdən bağlıdır, onun şeiriyyəti ilə qidalanır". Musa Yaqub təbiət şairidir və təbiəti sevdiyi üçün də şəhərə qaçmağa hazırlaşmır".

Əlbəttə şairin məkanı, yaşadığı yer onun özündən asılı olmayaraq tez-tez dəyişə bilər, amma şeirin bircə məkanı var – o da ürəkdir. 1974-cü ildə Musa məkanını dəyişməli oldu, sevdiyi Buynuz kəndindən ayrılıb Bakıya köçdü, 4 ildə Buynuz kəndinin bir parçası olan Musa heç cür urbanizasiya ovqatına köklənə bilmədi, çünki məkan dəyişsə də, ürək dəyişməmişdi. Musanın ürəyi kənddə qalmışdı və sanki bu həsrəti dərindən hiss edərək yazırdı:

Özüm də bilmirəm çatışmır nəyim,
Nədənsə təkliyə qaçır ürəyim
Beş altı günlük,
Duman olacağam dağlar başında,
Torpaq olacağam yaz yağışında
Beş-altı günlük. (6, s.70)

Şairin təbiət lirikası zamanın hər bir dönüşündə, cəmiyyət hadisələrinin hər bir dəyişimində yeni mənalar kəsb edir. 60-70-ci illərdə təbiətdən zövq alan dünyanın nəşəsini güldə, çiçəkdə, çeşmədə axtaran və tapan Musa Yaqub artıq 80-ci illərdə elə bil dəyişib. Təbiətdən sorğularını insan ruhu ilə qarışdıran, hisslərini, duyğularını lalə yanağı ilə alışdıran, bir çəmən üzünü, çeşmə gözünü nanə yarpağı ilə danışdıran şairin narahatlığı, əsəbi həyəcanları səbəbsiz deyil, çünki:

Elə qarışıb ki, yaxşı yamana,
Elə əyilib ki haqq tərəzisi;
Tikanlar çəmənə, alaq bostana,
Çəpərimiz bağa buraxmaz bizi. (7, s.85)

Musa Yaqubun son illərdə çap etdirdiyi şeirlərdə bu əsəbi həyəcanlar, bu narahatlıq duyğusu getdikcə artır və əlbəttə, təbiətən narahat və çılğın olan bir şair üçün bu təbii haldır. Təbiətdən cəmiyyətə, hadisələrin gur axınına qoşulan şair-yaylaq diliylə, bənövşə diliylə, çiçəyi qotazlı yamac diliylə danışan şair "daha nə danışım ağac diliylə" deməkdən özünü saxlaya bilmir. Düşündüyü payızlı duyğulardan yaza yol axtarır. Hərdən sakit, hərdən həzin (və musiqili...)

təbiət lirikasına publisistik xitabların axıb gəldiyi də elə bununla izah edilməlidir.

Bu müsəlmançılar, bu kafirçilər,
Bu siyasətçilər, mənafeçilər –
Hərə öz mənafe silləsi üstə
Fırladır aləmi kəlləsi üstə
Sifət firlananda başım firlanır,
Torpağım firlanır, daşım firlanır. (6, s.106)

Yuxarıda vurğuladığımız kimi XX əsr Azərbaycan ədəbiyyatında "təbiət şairləri" deyilən bir məhfum həyata vəsiqə qazandı. M.Araz, M.Yaqub, N.Xəzri, Q.Qasımzadə, N.Kəsəmənli təbiət lirikasının ən gözəl nümunələrini yaratmışlar. Bir faktı xüsusilə vurğulamaq lazımdır ki, minillik Azərbaycan ədəbiyyatında "insan və təbiət" mövzusu yeni deyildir. Dahi Nizami, Füzuli, Xətai, Vaqif, Ə.Cavad, S.Vurğun, R.Rza "insan və təbiət" mövzusuna müraciət etmiş, onu müxtəlif aspektlərdən işıqlandırmışlar. İnsan və təbiət mövzusu daha çox aşiq, məşuq, sevgililər arasında baş verən problemlərdən qaynaqlanır, qəhrəmanların əhvali-ruhiyyəsinə uyğun olaraq təsvir olunurdu. Bu zaman ayların, illərin, fəsillərin, rənglərin seçimi də qəhrəmanların taleyinə, müəllif (yazıçı, şair) mövqeyinə uyğun təsvir olunurdu. Dahi Nizami "Xosrov və Şirin" poemasında Xosrovun oğlu Şiruyyə tərəfindən öldürüldüyü gecəni bu cür təsvir etmişdir.

Minəlli zəmanə düşmüşdü zordan,
Seçilmirdi mingöz fələk də kordan

Hakimiyyətdə olduğu 14 il ərzində ölkə fəth edən Şah İsmayıl Xətai sevən aşiq kimi gücsüzdür, hətta sevgilisini yola gətirmək üçün təbiətdən də kömək istəyir. Xətai ilin fəsillərinin də onların təbiətinə uyğun şəkildə, olduğu kimi təsvir etmişdir. Başqa sözlə desək, Xətainin təbiət lirikasında onun hökmdar olduğu, hakimi mütləqiliyi hiss olunmur. Vaqifin lirikasında isə şair gözəlləri təbiətdə olduğu kimi təbii şəkildə göstərmiş, müəyyən mənada insan və təbiətin vəhdətini yaratmışdır. XX əsrə qədər insan və təbiətin vəhdətində, qarşılıqlı münasibətlərində elə bir ciddi problem yox idi. Nə böyük kəşflər, nə də dağıntılar, atom, hidrogen bombaları da yox idi. İnsanların təbiətlə yersiz müdaxiləsi təhlükəli həddə çatmamışdır. Beləcə, insanlar və təbiət yanaşı-qoşa addımlarla irəliləyərək sakit, mənalı ömür sürürdülər. XX əsrin əvvəllində insan və təbiətin qarşılıqlı vəhdətindəki münasibətlərində vəziyyət bir qədər dəyişdi. İnsanlarda, cəmiyyətdə təbiəti ram etmək, təslim etmək, ondan maddi nemətləri qopartmaq cəhdləri daha da gücləndi. Təbiət isə hələlik kordur. İnsanlar bilmirdilər, təsəvvür etmirdilər ki, susan təbiətin qisası dəhşətli olur. Necə ki oldu da..... Bu mənada xalq şairi Səməd Vurğunun "Muğan" poemasındakı fikirləri maraqlıdır:

Car çəkir çarxların qarışıq səsi,
Car çəkir qışqırır nəhəg motorlar,

İldırım, ildırım vurur Boz dağı.

Bu baxımdan "təbiət şairi" adlandırılan Musa Yaqub yaradıcılığının ilk illərində yazdığı "Yenidən", "O yerdə", "Əgər", "Bağışla məni", "Dağlar məni qəbul edin", "Yarpaqların payız söhbəti", "Çinardüzün hekayəsi", Sapı özümüzdən olan baltalar", "Meşəçilərin nəğməsi" kimi şeirlərində lirikasının əsas istiqamətlərini, yaradıcılıq kredosunu müəyyənləşdirmişdir. Musa Yaqubun poeziya və təbiət haqqında aşağıdakı fikirləri vardır: "Məncə poeziya torpaqdan yaranıb, özü də Vətən torpağından". Bəlkə də məhz buna görə də Musa Yaqub öz şeirlərində ən çox doğma Vətən torpağını tərənnüm edir. Musa Yaqub təbiət tərənnümçüsüdür. Şeirlərində bütöv kökləri ilə Vətən torpağına, qurub yaradan saf qəlbli zəhmət adamlarına bağlıdır. Elə buna görə də yaradıcılığında təbiət gözəlliyi ilə birlikdə insan, insana məhəbbət, vətəndaşlıq pafosu əsas yer tutur. Onun şeirlərində adi bir ağaca, gülə, çiçəyə necə böyük ürəklə, məhəbbətlə yanaşdığının şahidi oluruq.

Bütün bunların məntiqi davamı kimi vurğulaya bilərik ki, M.Yaqubun təbiət lirikasını 3 dövrə ayırmaq olar:

I.1957-1970-ci illər;

II, 1970-1990-cı illər;

III. 1990-2014 (Müstəqillik illəri)

Musa Yaqubun lirikasının birinci dövrü üçün səciyyəvi cəhət şairin optimizmidir. Bunun üçün kifayət qədər əsas da vardır. M.Yaqub Azərbaycan təbiətini olduğu kimi füsunkar, ecazkar şəkildə tərənnüm edir, özünü təbiətdən, təbiəti özündən ayırmırdı. M.Yaqubun şeirləri sanki təbiətin, peyzajın sehrindən, möcüzəsindən yaranmışdır, yoğrulmuşdur. Şair təbiəti insanlar, insanları təbiət kimi görürdü, təsvir edirdi və şeirlərində əks etdirirdi. Bir az mübaliğəli şəkildə səslənsə də, M.Yaqubun lirikasına əsasən Azərbaycan təbiətini tam şəkildə bərpa etmək olar. Bu şair üçün ən yüksək qiymətdir. M.Yaqub "təbiət şairi" olduğunu yaradıcılığının ikinci dövründə də sübut etmişdir. Şairin "Yaxşı adamları qoruyaq, gəlin", Şir-şimal ağacları", Yemişan ağacı", Qarağaclar", "Nə bilirəm, bəlkə də haray qoparır", "Qırğın" və digər şeirlərində optimist, nikbin notları qəmli, gileyli, faciəvi çalarlar əvəz edir.

M.Yaqub lirikası bu gün də aktuallığını itirməmişdir. M.Yaqubun sözləri ilə desək, "Leyləklərin çöp yuvası boş qalmamalıdır". Nə qədər ki, Azərbaycan var, Azərbaycan təbiəti var, Musa Yaqub lirikası da yaşayacaqdır. İnsanları təkcə keçmişi, bugünümüzü deyil, gələcəyi də qorumağa çağıracaqdır.

Ədəbiyyat

1. Aslanov Ş.H. Sözün estetik yaddaşı. Bakı, Elm, 1994
2. Elçin. Ədəbiyyatımızın yaradıcılıq problemləri. Bakı, Təhsil, 1999

3. Əliyev R.N. Poeziyanın təbiiliyi. Bakı, Yazıçı, 1982
4. Nəsibova H.S. Müasir Azərbaycan lirikasında insan konsepsiyası. Bakı, Elm, 1995
5. Şəfiyev Ə. Şair qayalara, dağlara söykən. Azərbaycan, 1989, №10
6. Yaqub M.S. Payızdan yaza yol varmı. Bakı, Azərnəşr, 1999
7. Yaqub M.S. Ruhumla söhbət. Bakı, Azərnəşr, 2004

E.Mustafayeva,
V.Kazımova

Musa Yaqub is natural Iyric
Summary

The article is devoted to Musa Yaqub's natural Iyricism. Special features of Musa Yaqub's natural Iyric have been studied/ Prevalence of tragic motives has been emphasized.

Musa Yaqub's Iyricism is still actual nowadays. Musa Yagub has never suffered from lack of themes. Variegated themes, the manner of writing is one of the typical features of M. Yagub's creativity.

His poems about nature unfluence the spiritual wealth and aesthetic perfection of people. All these come from the wide range of his creativity, outlook and interests.

Е.Мустафаева,
В.Казимова

Природная лирика Мусы Якуба
Резюме

Статья посвящена природной лирике Мусы Якуба. Исследовались особенности природной лирикы Мусы Якуба.

Делается акцент на преобладание трагических мотивов. Лирика Мусы Якуба и на сегодняшний день актуална. Поэт Муса Ягуб не испытывал недостатка в темах: разнообразие и красочность тем, оригинальность их разработки и подачи являются теми качествами, которые выделяют и характеризуют его.

Разнообразные по тематике стихи, посвященные природе, описывают духовное богатство и эстетическое совершенство наших современников. Все это свидетельствует о широте творческого диапазона поэта, его эрудиции и кругозора, говоря о всеохватности и безграничности его интересов.

Rəyçi: dosent Aytac Zeynalova

MÜNDƏRİCAT

DİLÇİLİK

ŞEHRABANI ALLAHVERDİYEVA
AZERBAYCAN ŞAİRİ NESİMİ'NİN ŞİİRLERİNİNDE ZARF-FİİLLER 3
SEVİNC ƏLİYEVA
H.ƏLİYEV "MİLLİ VARLIĞIMIZIN MÖTƏBƏR QAYNAĞI" OLAN "KİTABİ – DƏDƏ QORQUD" DASTANLARI HAQQINDA 13
PƏRVANƏ MƏMMƏDOVA
"AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ" FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBLƏRƏ YAZILI NİTQİN AŞILANMASI ÜSULLARI 20
NƏRMİNƏ İSAYEVA
FRAZEOLOGİYA NƏZƏRİYYƏSİ VƏ KOQNİTİVİZM..... 28
SƏBİNƏ İSGƏNDƏROVA
AKTUAL ÜZVLƏNMƏNİN MƏTNYARATMA İMKANLARI 35
AYTƏN RƏCƏBOVA
MÜASİR İNGİLİS DİLİNDƏ SÖZ YARADICILIĞI 46
ВАФА С.АЛИЕВА
ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ СПОСОБОВ ТЕРМИНООБРАЗОВАНИЯ В СОВРЕМЕННОЙ АНГЛИЙСКОЙ МЕДИЦИНСКОЙ ТЕРМИНОСИСТЕМЕ 53
AYGÜN VƏKİLOVA
FRANSIZ DİLİNDƏ ARTİKLİN İŞLƏDİLMƏMƏSİ HALLARINA DAİR 63
ŞƏHLA HƏSƏNOVA
KOQNİTİV LİNQVİSTİKA VƏ ONUN ƏSAS PRİNSİPLƏRİ 70
УКЛЕЙН ДИАНА ЮРИЕВНА
МНОГОФУНКЦИОНАЛЬНЫЕ СЛОВА И СПОСОБЫ ИХ ПЕРЕВОДА(one, as, for, but, before) 78
СЕВИДЖ ГАСАНОВА
ПСЕВДОЭВФЕМИЯ КАК ЛЕКСИЧЕСКАЯ МАНИПУЛЯЦИЯ СОЗНАНИЕМ 83
SƏBİNƏ NƏSİBOVA
EŞİDİB ANLAMANIN PSİXOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ .. 89

NİGAR AĞAYEVA
GROUPING ACTIVITIES USED IN ENGLISH AS
A FOREIGN LANGUAGE 94
GÜLSÜM ƏLİYARZADƏ
İNFORMATİV XARAKTERLI MATERIALLARIN
TƏRCÜMƏSİ 100
İRADƏ NƏCƏFOVA
BƏDİİ TƏRCÜMƏDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR 105
AYNURƏ MANAFOVA
YERLİ AMERİKA HINDİLƏRİNİN LEKSİKASI İLƏ TÜRK
MƏNŞƏLİ LEKSİK SÖZLƏRIN OXŞARLIQLARI..... 111
GULSHAN ALIYEVA
GRAMMATICAL AND LEXICAL PROBLEMS OF TECHNICAL
TRANSLATIONS 117
RÜHƏNGİZ ABADOVA
FRANSIZ DİLİNDƏ NƏTİCƏ BUDAQ CÜMLƏSİ
(AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏDƏ) 123
НАРМИН ГАДЖИЕВА
СИЛЛАБИЧЕСКАЯ СТРУКТУРА ОДНОСЛОЖНЫХ
СЛОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА 130
MƏTANƏT AĞASİYEVA
QANTƏMİRİN NƏSR DİLİNDƏ KOMİK TROPLAR..... 140
DÜRNİSƏ AĞAYEVA
İSPAN MƏTBUAT MƏTNLƏRİNDƏ İNGİLİS DİLİNDƏN
ALINMA SÖZLƏRİN İŞLƏDİLMƏSİ 148
NURİDƏ ASLANOVA
İSPAN DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN
AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLARININ
TƏHLİLİ VƏ TƏSNİFATI 155
VÜSALƏ ƏLİYEVA
BƏZİ YARIMŞƏKİLÇİLƏRİN DİL MƏNŞƏYİNƏ
GÖRƏ ETİMOLOGİYASI 166
НИГЯР АГАЕВА
К ВОПРОСУ О ГРЕКО-РИМСКИХ МИФОНИМАХ В
АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ И ИХ ОТРАЖЕНИИ В
СЛОВАРЯХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА 173
NAİBƏ ƏHMƏDOVA
FEİLİ BAGLAMA FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNİN
BƏZİ XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏSİ KİMİ 180

HƏMİDƏ AXUNDOVA
ÜMUMİ DİLÇİLİKDƏ MODALLIQ KATEQORİYASININ
TƏDQİQİ TARİXİNDƏN 187
FATİMƏ HACIYEVA
İTALYAN DİLİNİN BƏZİ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİNİN
AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSI ZAMANI
EKVIVALENT ÜSULUNUN TƏTBIQİ 194
ЛЕЙЛА МУРАДАЛИЕВА
ПРИМЕНЕНИЕ ТЕОРИИ НЕЙРОЛИНГВИСТИЧЕСКОГО
ПРОГРАММИРОВАНИЯ В ОБУЧЕНИИ
ИНОСТРАННОГО ЯЗЫКА 203
TAMILLA ATAKIŞIYEVA
ЛЕКСИКОГРАФИЯ И РЕЧЕВАЯ КУЛЬТУРА 208
AYGÜN CƏFƏROVA
SÖZ BİRLƏŞMƏLƏRİNİN FƏNDAXİLİ İNTEQRASİYADA
TƏDRİSİ IMKANLARI 214
GÜNEL MİRZƏLİYEVA
TƏRCÜMƏ PROSESİNDƏ FRAZEOLOGİZMLƏRİN
YARATDIĞI ÇƏTİNLİKLƏR 220
NİCAT YAQUBOV
AZƏRBAYCAN DİLİNDƏ ARXAİZMLƏRİN YERİ..... 226
AYTƏN HÜSEYNOVA
DİGƏR DİLLƏRDƏN İNGİLİS DİLİNƏ SÖZLƏRİN
KEÇMƏ PROSESİ 233
ŞƏBNƏM MİRQƏDİROVA
YAPON DİLİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ 238
İRADƏ HÜSEYNOVA
ƏHMƏD HƏMDİ TANPINARIN DİLİNDƏKI FRAZEOLOJİ
VAHIDLƏRİN LİNQVOKULTUROLOJİ SƏCİYYƏSİ 245
SİMRUQ QASIMOVA
İKİNCİ DİL ÖYRƏNİLMƏSİNDƏ İSTİFADƏ
OLUNAN METOD VƏ YANAŞMALAR 251
ЭЛЛАДА МАМЕДОВА
ОСНОВНЫЕ ПРИНЦИПЫ СОВРЕМЕННОГО
СОПОСТАВИТЕЛЬНОГО ЯЗЫКОЗНАНИЯ
THE MAIN PRINCIPLES OF CONTEMPORARY
COMPARATIVE LINGUISTICS 256
ЛАЛА ГУСЕЙНОВА
СТРУКТУРНО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ
СВЕРХФРАЗОВОГО ЕДИНСТВА В
ХУДОЖЕСТВЕННОМ ТЕКСТЕ 262

SEVINC MƏMMƏDOVA
THE LEXICAL APPROACH AND COLLOCATIONS 270
NİGAR ƏHMƏDOVA
AŞAĞI KURS TƏLƏBƏLƏRİNƏ İXTİSAS DİLİNDƏ OXUYUB-ANLAMA VƏRDİŞLƏRİNİN AŞILANMASININ LİNQVİSTİK ƏSASLARI 275
GÜNAY KƏRİMOVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMPÜTER TEXNOLOGİYALARINDAN İSTIFADƏ İMKANLARI 280
SEVİL HƏSƏNONOVA
DİL FAKÜLTƏLƏRİNİN YUXARI KURS TƏLƏBƏLƏRİNDƏ KOMMUNİKATİV KOMPETENSİYANIN LİNQVODIDAKTİK ƏSASLARI 285
VÜSALƏ MİRZƏLİYEVA
ORTA MƏKTƏBLƏRDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏYƏ DAİR 290

ƏDƏBİYYATŞÜNASLIQ

ŞÜKUFƏ QƏDİMOVA
ANADOLUDA DİNİ-TƏSƏVVÜFİ TÜRK ƏDƏBİYYATI VƏ YUNUS EMRE YARADICILIĞI 295
КЕНУЛЬ КАСУМОВА
ЗДЕСЬ РУССКИЙ ДУХ, ЗДЕСЬ РУСЬЮ ПАХНЕТ 302
İBRAHIM QULİYEV
TƏHMİNƏ BƏDƏLOVA
İSLAMDA VƏ KLASSİK İRSİMİZDƏ “SƏBR” ANLAYIŞI (Ayələr, hədislər və Nizami Gəncəvi yaradıcılığı kontekstində) 308
SƏFA QARAYEV
“GOROĞLU“ EPOSUNUN TÜRKMƏN VARİANTINDA GÖZÜN FALLİK SEMANTİKASI 316
MƏNSURƏ İSMAYILOVA
ÜNSİZADƏLƏR HƏM DƏ MƏKTƏBDAR OLMUŞLAR 322
HİKMƏT QULİYEV
FOLKLOR TEXNOLOGİYA VƏ MƏDƏNİYYƏT MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ: “NEQATİV” VƏ “POZİTİV” BAXIŞ 329

XUMAR ABDULLAYEVA
Y.V.ÇƏMƏNZƏMİNLİNİN "GƏLƏCƏK ŞƏHƏR" ƏSƏRİNİN AZƏRBAYCAN ELMİ-FANTASTİK ƏDƏBİYYATINDAKI ROLU 335
NİGAR MUSAZADƏ
EDQAR ALLAN PONUN ELMİ-NƏZƏRİ GÖRÜŞLƏRİ 343
ZÜLQƏDDƏ ABDULKƏRİMLİ
UİLYAM BATLER YEYTS YARADICILIĞININ ESTETİK XÜSUSİYYƏTLƏRİ 350
AFAQ SABİRLİ
NƏRİMAN NƏRİMANOVUN MAARİFÇİLİK FƏALİYYƏTİ 356
GÜLNAR OSMANOVA
AZƏRBAYCAN FOLKLORUNDA QURANİ-KƏRİMDƏN GƏLMƏ MÜQƏDDƏS YEDDİ RƏQƏMİNİN SEMANTİKASI 366
GÜLNAR ƏQİQ
QACARLAR SÜLALƏSİ VƏ POEZİYA SƏNƏTİ 374
NƏZRİN RZAYEVA
SÖHRAB TAHİR "İKİ DƏFƏ YOX OLMUŞ ADAM" 381
VUSALƏ XIDIROVA
WHAT IS PARAPHRASING? 388
AYGÜN QƏDİMLİ
SALUR QAZANIN EVİNİN YAĞMALANMASI" BOYUNDA VƏTƏNPƏRVƏRLİK HİSLƏRİNİN FƏAL / İNTERAKTİV TƏLİM ÜSULLARI VASİTƏSİLƏ AŞILANMASI 394
SAMİRƏ ABDULLAYEVA
FƏAL-İNTERAKTİV TƏLİMİN NƏZƏRİ MƏSƏLƏLƏRİ 400
SEVİNC BAĞIROVA
RUS ALİM VƏ TƏDQİQATÇILARIN,ƏDƏBİYYATŞÜNASLARIN İSLAM DİNİ HAQQINDA FİKİRLƏRI, RƏY VƏ MÜLAHİZƏLƏRİ 406
RAMİLƏ ORUCOVA
DASTAN MƏTNLƏRİDƏ "KİMİ" QOŞMASININ ÜSLUBİ İMKANLARI VƏ POETİK FUNKSİONALLIĞI 411
VALİDƏ AĞAYEVA
AZƏRBAYCAN QADINI STALİN REPRESSİYALARININ HƏDƏFİNDƏ 419
NƏRGİZ HƏSƏNLİ
İNGİLİS ƏDƏBİYYATININ MURİEL SPARK FENOMENİ 430
NİGAR MƏMMƏDOVA
ƏDƏBİYYATDA MÜHARİBƏ MÖVZUSU 437

ƏSMƏR ƏLİZADƏ
COZEF HELLERIN "TƏLƏ-22" ROMANINDA
QARA YUMOR ELEMENTLƏRİ 443
AYŞƏN MƏHƏRRƏMOVA
RİÇARD BAXIN YARADICILIĞINDA "İKİDÜNYALILIQ"
İDEYASININ ƏKSİ 448
AYSEL SADIXOVA
CON QRININ YARADICILIĞININ SPESİFİKASI 453
ELMIRA MUSTAFAYEVA
VƏFA KAZIMOVA,
MUSA YAQUBUN TƏBİƏT LIRIKASI 459

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadiğar Bagırova

Çapa imzalanmış **29. 12. 2017.**
Şərti çap vərəqi **29,5** Sifariş **№ 20.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72 -27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.